**D–r Abdurrahman Rafat əl–Başa**

# SƏHABƏLƏRİN HƏYATI

*(HAYATUS-SAHABA)*

Kitab Azərbaycan Respublikası
Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin
05 may 2011-ci il tarixli, DK-161/B məktubu
əsasında nəşr edilmişdir

Bakı - 2011

**Kitabın əsli:** Suvar min hayatus-sahaba

**Müəllif:** D-r Abdurrahman Rafat Əl-Başa

**Tərcümə edənlər:** Əmirşah Əmirəhmədov,
Tural Sadıqov, Ülkər Zeynalova

**Nəşrə hazırlayan:** Mahmud Qəhrəmanov

**D-r Abdurrahman Rafat əl-Başa. "Səhabələrin həyatı".**
Bakı, Şərq-Qərb" Nəşriyyat evi, 2011, 568 səh.

*Əlinizdə olan bu kitab bütün bəşəriyyətin əşrəfi, dühalar dühası, Allahın bəndələrinə rəhmət olaraq göndərdiyi bir şəxsin – Həzrəti Muhəmmədin (ﷺ - s.ə.v.) silahdaşlarının həyatından bəhs edən bəzi səhifələrdir.*

*"Səhabələrin kitab və sünnədə yeri" və "Səhabələrin fəziləti" (tərcümə Ə. Əmirəhmədovundur) adlanan birinci iki fəsil kitabın aslində yoxdur, lakin səhabələrin kimliyi, təbəqələri, sayı, paklığı elmi və s. məlumatlarla dolğun olduğu üçün kitabda yer almışdır.*

*Kitabın əsas hissəsinə isə üçüncü fəsildə yer verilib. Bu fəsildə 70-ə yaxın səhabənin islamı qəbul etməsi, onların həyat tərzi, onlar haqqında Peyğəmbərin (ﷺ - s.ə.v.) və digər səhabələrin fikirləri və s. məlumatlar əks olunub.*

*Ktabın əslinin əvvəlki nəşrində bəzi qadın səhabələr haqda olan məlumatlar son nəşirdə çıxarılsa da, tərcümə zamanı kitaba daxil edilmişdir.*

# MÜQƏDDİMƏ

Allaha həmdü sənalar olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa ibadət olunmaq haqqı olan heç bir Tanrı yoxdur. O, bütün əzəmət, gözəllik və kamillik sifətlərinin tam sahibidir. Həmçinin, şahidlik edirəm ki, Məhəmməd ﷺ[1] Onun qulu və haqq yolunu göstərən sevimli peyğəmbəridir. Ona və Onun haqq yolunun ulduzları, zülmətlər çıraqları, din uğrunda döyüşlərin cəngavərləri olan ailə üzvlərinə və səhabələrinə, onların yolunu tutanlara və açdıqları cığırla gedənlərə, onların göstərdikləri hidayət yolunun yolçularına, insanları Allahın dirildəcəyi günə qədər onların əxlaqı və davranışlarını rəhbər tutanlara salavat və salam olsun!

Ən doğru söz sahibi Allah buyurur: **«Şübhəsiz ki, Zikri** (*Quranı*) **Biz nazil etdik və, sözsüz ki, Biz də onu** *(hər cür təhrif və təbdildən; artırıb-əksiltmədən)* **qoruyub saxlayacayıq!»** *(əl-Hicr, 9)*.

Bütün nöqsanlardan uzaq Uca Allah öz peyğəmbərinə vəhy etdiyi Quranı insanlara nazil etmiş və onlara onu təhrifdən, təbdildən və artırılıb-əskildilməkdən qorumağı tapşırmışdır. Bütün nöqsanlardan azad Uca Allah heç bir alış-verişin zikr etməkdən və namaz qılmaqdan yayındırmağa qadir olmadığı kişiləri – Allahın elçisinin ﷺ tərbiyə etmiş olduğu birinci nəsli təmsil edən səhabələri bu dinə cəlb etdi.

Allah bu adamları xüsusi bir qayğı ilə əhatə etmişdi. Onlar Böyük Yaradanın dərgahından nazil olmuş vəhyə iman gətirmiş, onu öz ürəklərində hifz etmiş, ağılla dərk etmiş və əməli işdə rəhbər tutmuşlar. Onların ruhları bu vəhylə qüvvətlənmiş, əxlaqı paklanmışdır. Onlar bu vəhyin yayılması yolunda cihada çıxmış, onu təvil (saxta yozum) və təhrifdən qoruyaraq öz övladlarına da öyrətmişlər.

Bu adamlar Məhəmməd peyğəmbərə ﷺ Allahın elçisi kimi iman gətirmişlər. Onlar Allaha pənah aparmış, Onun haqq dinini müdafiə etmiş, Onun haqqını tanımış, Onun uğrunda həlak olmuş, öz mallarını və canlarını Ona fəda etmiş, dünyanın və axirətin xeyrini qazanaraq Allah taalanın razılığına layiq olmuşlar. Allah taala Öz Kitabında dəfələrlə onlardan öz razılığını bildirmişdir. Peyğəmbər ﷺ də hər biri ilə əlaqədar öz hədislərində onlardan öz razılığını bildirmişdir.

Allah taalanın onlara böyük kəramət bəxş etdiyindən onlar insanların qəlblərini imanla, ölkələrini isə silahla fəth edə bilmişlər. Allahın buyurduğu kimi, onlar: **«…Allahla etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi** *(bu yolda)* **şəhid olmuş, kimisi də** *(şəhid olmasını)* **gözləyir. Onlar** *(verdikləri sözü)* **əsla dəyişməzlər ki, Allah** *(bununla)* **doğruları doğruluqlarına görə mükafatlandırsın…»** *(əl-Əhzab, 23)*.

---

[1] ﷺ-*səlləllahu aleyhi və səlləm* – Ona Allahın salavatı olsun!

Allah taala bu adamları Peyğəmbərə ﷺ bu dini yaymaq üçün silahdaş seçdi. Onlar bu yolda heç nəyi – nə canlarını, nə də mallarını əsirgə-mədilər. Bu yolda ailələrini, evlərini, vətənlərini tərk edib öz dinlяrini qorumaq üçün hicrət etdilər. Ən çətin anlarda özlərinin Peyğəmbəri ﷺ ilə hər şeyə dözdülər və bununla da tarixdə ən yaxşı müəllim, insanpərvər, humanist və əzəmətli bir nəsil kimi tanındılar. Onlar Allahın bu kəlamına layiq idilər: «*(Əksəriyyəti yazıb oxumaq bilməyən)* **ümmi ərəblərə özlərindən peyğəmbər göndərən Odur.** *(Bu peyğəmbər)* **əvvəllər haqq yoldan açıq-aşkar azsalar da onlara** *(Allahın)* **ayələrini oxuyar, onları** *(günahlardan, şirk və küfrdən)* **təmizləyər, onlara Kitabı və hikməti öyrədər.** *(Allah taala Məhəmməd əleyhissəlamı)* **ərəblərdən savayı hələ onlara qoşulmamış başqalarına da** *(islamı qəbul etməmiş indiki ümmətlərə və qiyamət gününə qədər dünyaya gələcək bütün sonrakı tayfalara da peyğəmbər göndərmişdir)*. **O, yenilməz qüvvət, hikmət sahibidir! Bu, Allahın istədiyinə verdiyi fəzilətidir. Allah böyük fəzilət sahibidir»** *(əl-Cumuə, 2-4)*.

Burada biz bu misilsiz nəslin həqiqi təsvirini vermək, onların millət, iman, bilik, haqq və ədalət yolunda cihadda, İslamı və vətəni müdafiə etmək işində nümayiş etdirdikləri məsuliyyətdən, bir-birinə bəslədikləri qardaşlıq, məhəbbət, ehtiram hissindən, onların təvazökarlığından danış-maq istərdik. Bu elə bir nəsil idi ki, çoxsaylı siyasi küləklər onların həqiqi surətini təhrif etmiş, xidmətlərini kiçiltmişdir.

Ola bilsin bu kitab səhabələri mədh edən, onların kəramətini aşkar edən, sonra gələnlərdən necə seçildiklərini göstərən mübarək ayələrə istinad edərək bu misiliz nəslin həqiqi surətini verə bilməsin. Yalnız mübarək ayələr aqili qane edə, mömini razı sala bilər. Çünki Quran Allahın Kitabı və Kəlamıdır. Biz yalnız Ona iman gətirib, Onu təsdiq edə bilərik. Səhabələrin haqqına naqislik gətirən, onların xidmətini kiçildə bilən hər hansı bir söz qəbul oluna bilməz.

Bu məqsədlə misal gətirilmiş ayələrə əlavə olaraq səhih hədisləri də əlavə edilir. Əlbəttə, ayələrin onların məzmununu qüvvətləndirən bir şeyə ehtiyacı yoxdur. Çünki onlar açıq-aşkar və aydındırlar, hər bir ağıllı adam üçün başa düşüləndirlər. Lakin həqiqəti təmamilə aydınlaşdırmaq üçün hər bir doğru sözdən istifadə etmək pis olmaz. Axı Allah taalanın və Onun Peyğəmbərinin ﷺ kəlamlarından daha doğru nə ola bilər?!

# SƏHABƏLƏRİN QURANİ KƏRİM VƏ SÜNNƏDƏ YERİ

**1) Səhabələr kimlərdir**

Ərəb dilində səhabə "*sühbə*" (yoldaş, silahdaş, tərəfdar) sözündəndir. Deyilir: filankəslə ömrü boyu, həyatı boyu, il boyu, ay ərzində, bir gün, bir saat, yoldaşlıq etmək, tərəfdar olmaq – "*müsahabə*" sözü də s.h.b. kökündən olub dostluq, silahdaş olmaq deməkdir *("Lisanul-ərəb", 217)*.

Hədis alimləri səhabə ifadəsini belə izah edirlər: Səhabə, Peyğəmbəri ﷺ - ona dərin iman hissi ilə qarşılayan, onunla uzun və ya qısa müddət ərzində həmsöhbət olan, onu görüb və gözləyib ondan hədis rəvayət edən, onunla hərbi yürüşlərdə iştirak edən və ya etməyən, onu gözlə görən, lakin onunla söhbət etməyən onu təbii səbəbdən görməyən (məsələn, kor adam kimi) müsəlman şəxsdir. Bu rəy alimlərin əksəriyyətinin rəyidir *(İbn Həcər, "əc-Səhabə", 1/4)*.

**2) Səhabələrin təbəqələri**

Göründüyü kimi, hədis alimləri səhabi (səhabə) adını Peyğəmbər ﷺ haqqında hədis rəvayət edən və ya bir söz söyləyən adama, habelə daha geniş mənada Peyğəmbəri ﷺ görən şəxsə verirlər. Deyirlər ki, bu şərəfi Peyğəmbər ﷺ özü öz silahdaşlarına layiq bilib demişdir: "*Məni görən və ya məni görəni görən şəxs odda yanmaz*" (ət-Tirmizinin rəvayət etdiyi etibarlı hədisdir).

Bununla yanaşı, səhabələrin -Allah onlardan razı olsun!- təbəqələri və dərəcələri vardır. Elələri vardır ki, onlar İslamı ən birinci qəbul edənlərdir. Onların Peyğəmbərlə ﷺ səhabəliyi (yoldaşlığı, dostluğu, silahdaş olması müddəti) daha uzun olmuşdur. Onlar malik olduqları sərvəti dəvətə həsr etmiş, bu yolda qan axıtmışlar. Elələri də vardır ki, Peyğəmbəri ﷺ vida həcci ziyarəti vaxtı cəmi bir dəfə görmüşlər. Həm onlar, həm də bunlar arasında dərəcələrə, mərtəbələrə görə bölünənlər vardır. Onlar arasında elələri vardır ki, gecə və gündüz, evdə oturanda və səfərə çıxanda, yemək yeyəndə və oruc tutanda, sevincində və kədərində, cihadında və həccində Peyğəmbərlə ﷺ birlikdə olmuş, onunla keçirtdikləri hər dəqiqədən

dərs almış, şərafətli sünnələri (qaydaları) öyrənmişlər. Buna görə də bütün səhabələrin vahid mərtəbədə olması mümkün deyildir. Bu ədalət və məntiq ölçüsünə uyğun gəlmir. Səhabələr, müsəlman millətinin ümumi rəyinə əsasən 12 təbəqəyə bölünürlər:

1. Məkkədə ən birinci İslamı qəbul edənlər, dörd Raşidi xəlifəsi.

2. Məkkə sakinlərinin "*Dərun-nədva*"[2] müşavirəsinə qədər İslamı qəbul edənlər.

3. Həbəşistana gedən səhabələr.

4. Birinci Əqabə beyətini edən səhabələr.

5. İkinci Əqabə beyətini edən səhabələr, bunların əksəriyyəti ənsarlardır.

6. Mədinəyə köçməzdən qabaq Qubə şəhərində Peyğəmbərlə ﷺ görüşən ilk mühacirlər.

7. Bədr əhli, bunlar 362 nəfər idilər.

8. Bədr ilə Rizvan (Hüdeybiyyə) beyəti arasındakı vaxtda, hicrət edənlər.

9. Rizvan beyətini edənlər, cəmi 1400 səhabə.

10. Hüdeybiyyə ilə Məkkənin fəthi arasındakı müddətdə hicrət edənlər. Məsələn: Xalid bin əl-Valid, Amr bin əl-As və Əbu Hüreyrə.

11. Məkkənin fəthi günü İslamı qəbul edənlər.

12. Fəth günü vida həcci ziyarətində və başqa hallarda Peyğəmbəri ﷺ görən yeniyetmələr və uşaqlar.

**3) Səhabələrin paklığı**

Səhabə olmaq böyük şərəfdir. Bu adı daşıyan şəxs başqalarından seçilir. Müsəlman alimlərinin yekdil rəyinə görə bütün səhabələr istər fitnə-fəsadlarla üzləşənlər, istərsə də üzləşməyənlər olsun, pak adamlar olmuşlar.

Səhabələr malik olduqları insani keyfiyyətlərə görə mütləq pak olmalı idilər. Onlar ən böyük iman və etimad sahibləri idilər. Allah və Onun rəsulu ﷺ səhabələri məhz bu ruhda tərbiyə etmişlər. Müsəlman ümməti də onları belə tanıyır.

---

[2] Peyğəmbərin əleyhinə toplandıqları yer.

Buna görə də səhabələrə tənə etmək, söymək və ya ünvanlarına pis sözlər demək olmaz. Yol azmışlar və bidətçilər onlar haqqında belə hərəkətə yol verirlər *(məsələn: Ömər, Aişə, Təlha, Zubeyr və s. barədə).*

**4) Səhabələrin paklığına dair Kitab və Sünnədən dəlillər**

Allah taala buyurur: **«Məhəmməd Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar** *(möminlər)* **kafirlərə qarşı sərt, bir-birinə** *(öz aralarında)* **isə mərhəmətlidirlər. Sən onları** *(namaz vaxtı)* **rüku edən və səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə nişanəsidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxartmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o da möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur.** *(Allahın bu təşbihi)* **kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət** *(günahlardan bağışlanma)* **və böyük mükafat** *(Cənnət)* **vəd buyurmuşdur!»** *(əl-Fəth, 29).*

Allah taala həmçinin buyurur: «*(İslamı)* **ilk əvvəl qəbul edib** *(bu işdə başqalarından)* **irəli düşən mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar.** *(Allah)* **onlar üçün əbədi qalacaqları,** *(ağacları)* **altından çaylar axan cənnətlər hazırlamışdır. Bu, böyük qurtuluşdur** *(uğurdur)*» *(ət-Tövbə, 100).*

Həmçinin buyurur: **«İman gətirib** *(Məkkədən Mədinəyə)* **köçənlər, Allah yolunda cihad edənlər,** *(Peyğəmbərlə mühacirlərə)* **sığınacaq verib kömək edənlər** *(ənsar)* **- məhz onlar həqiqi möminlərdir. Onları bağışlanma və tükənməz ruzi gözləyir!»** *(əl-Ənfal, 74).*

Allah taala buyurur: «*(Bu qənimət)* **yurdlarından qovulub çıxardılmış, mal-dövləti əlindən çıxmış, Allahdan mərhəmət və razılıq diləyən, Allaha və Onun Peyğəmbərinə kömək edən yoxsul mühacirlərə məxsusdur. Onlar** *(imanlarında, sözlərində və*

*işlərində)* **doğru olan kimsələrdir! Onlardan** *(mühacirlərdən)* **əvvəl** *(Mədinədə)* **yurd salmış və** *(Məhəmməd əleyhissəlama qəlbən)* **iman gətirmiş kimsələr** *(ənsar)* **öz yanlarına** *(şəhərlərinə)* **mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd** *(qəzəb)* **duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar.** *(Allah tərəfindən)* **nəfsinin xəsisliyindən** *(tamahından)* **qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə** *(Cənnətə)* **qovuşanlardır! Onlardan** *(mühacirlərdən və ənsardan)* **sonra gələnlər** *(tabiin)* **belə deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş** *(din)* **qardaşlarımızı bağışla! Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə** *(həsədə)* **yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!"»** *(əl-Həşr, 8-10)*.

Allah taala buyurur: **«And olsun ki,** *(Hüdeybiyyədə)* **ağac altında sənə bəyət etdikləri zaman Allah möminlərdən razı oldu.** *(Allah)* **onların ürəklərində olanı** *(sənə sadiq olacaqlarını, əhdə vəfa edəcəklərini)* **bildi, onlara** *(Öz dərgahından)* **arxayınlıq** *(rahatlıq, səbr, səbat, mənəvi qüvvə)* **göndərdi və onları yaxın gələcəkdə qazanılacaq bir qələbə ilə mükafatlandırdı»** *(əl-Fəth, 18)*.

Allah taala buyurur: **«Allah** *(müsəlmanlardan)* **bir Qisminin ürəyi** *(şəkk-şübhəyə düşüb Peyğəmbərdən və cihaddan)* **dönmək üzrə ikən Peyğəmbərə, çətin saatda onun arxasınca gedən mühacirlərə və ənsara tövbə nəsib etdi. Sonra da onların tövbələrini qəbul buyurdu** *(onları bağışladı)*. **Çünki O, həqiqətən, onlara qarşı çox şəfqətli, çox rəhmlidir!»** *(ət-Tövbə, 117)*.

Səhabələrin hicrət, cihad və yürüşlər vaxtı böyük fəziləti barədə çox saylı başqa ayələr də vardır. Bu ayələr onların paklığını sübut edən dəlillərdir. Allah taala onlardan, onlarsa Allahdan razı oldular. Bundan sonra insanlardan, onlardan razı olmağı və onların paklığını etiraf etməyi tələb etmək olarmı? Allah taalanın paklığını qeyd etmiş olduğu səhabələrə qarşı, insanın onlara tənə etməsinə yol vermək olarmı? Onlar haqqında nalayiq sözlər demək üçün heç bir əsas yoxdur. Bu ayələrdən sonra Məkkənin Fəthinə qədər İslamı qəbul etmiş səhabələrin paklığına şəkk-şübhə üçün yer ola bilərmi? Bu barədə olan mətnlər o qədər aydındır ki, onların heç bir şərhi və ya zənni

üçün yer yoxdur. Lakin bəzən subyektiv rəy təəssübkeşliyi insana üstün gəlir və bu da həqiqətin inkarına (bu həqiqət günorta günəşi qədər aydın və parlaq olsa belə) gətirib çıxarır.

Səhabələrin ali məqamını tam aydınlığı ilə bir daha sübut edən aşağıdakı hədisləri verək:

Peyğəmbər ﷺ demişdir:

*"Səhabələrdən heç kəsi söyməyin, əgər sizdən biriniz onlar qədər qızıl xərcləsə, heç nəsiz qalar"* (Müslim, 4/1968).

*"Səhabələrimə Allah kömək olsun. Məndən sonra onlara qərəzlə yanaşmayın. Onlara məhəbbət bəsləyənlərə mənim məhəbbətim olar. Onlara nifrət edənlərə mənim nifrətim çatar. Onları incidən, elə bil ki, məni incitmişdir. Məni incidən Allah taalanı incitmiş olur. Allahı incidən isə tezliklə öz cəzasına çatar"* (ət-Tirmizi, İbn Hibban, əs-Suyuti, "əl-Camiu əs-Sağir" 1/54).

*"Ən yaxşı nəsl mənim nəslimdir. Sonra onların ardıcılları və bu sonuncuların ardıcılları gəlir. Bunlardan sonra yalan baş alıb gedəcəkdir"* (Məqbul hədisdir).

Səhabələrin fəziləti barədə hədislər son dərəcədə çoxdur. Müsəlman milləti bütünlüklə səhabələrin paklığı məsələsində yekdildirlər. Lakin az saylı adamlar istisnadır. Onlar səhabələrin paklığı məsələsində fərqli fikirlərlə çıxış edirdilər. Onlar Peyğəmbərin ﷺ vəfatından sonra da öz fikirlərindən dönmədilər. Onların sayı bir əlin barmaqlarının sayından artıq deyildi. Bu adamların sayını bilmək heç gərək də deyildir. Belə ki, bu səhabələrin paklığını tam aydınlığı ilə sübut edən Kitab və Sünnəyə münasibətdə ixtilaf doğura bilər.

Allah taalanın və Onun Peyğəmbərinin səhabələrin paklığını göstərəndən sonra onlardan heç kəs başqa birisinin onun paklığını qəbul etməsinə möhtac deyildir. Hətta əgər bu adamların paklığı barədə Allahın və ya Rəsulun ﷺ heç bir kəlamı olmasaydı, onların İslama göstərdikləri yardım, onun müdafiəsi, Allahın Peyğəmbərinə ﷺ etdikləri köməklər, onunla birgə hicrət, onunla birgə cihad, din yolunda və ya onun mühafizəsi işində sərf etdikləri sərvət, onun həcmi (norma) və qaydalarını müəyyənləşdirmək, Allah taalanın əmrini və istəklərini bəndələrə çatdırmaq kimi işlərdə misilsiz xidmətləri müqabilində onların paklığını qəbul və etiraf etmək vacib olardı.

Bu adamlar İslamın mənafeyi naminə öz ən yaxın adamlarını (atalarını və ya oğullarını) qətlə yetirməkdən çəkinməmişlər. Allah taala onlar barədə buyurur: **«Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlarla – öz ataları, oğulları, qardaşları, yaxın qohumları olsalar belə – dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və Öz dərgahından onlara ruh** *(güc)* **vermişdir. Onları** *(ağacları)* **altından çaylar axan cənnətlərə daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan, onlar isə Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər** *(Allahın dininə kömək edən kimsələrdir)*. **Bilin ki, Allah firqəsi – məhz onlar nicat tapıb** *(əbədi)* **səadətə qovuşanlardır»** *(əl-Mücadələ, 22)*.

Bu, səhabələrin mətin imanına, pak İslamına, sədaqət və etibarına güclü sübutdur. Buna görə də onların arasında baş verən fikir ayrılığı ən düzgün bir şəkildə başa düşülməlidir. Baş verən hər hansı bir mübahisə, tərəflərdən hər birinin ictihadının məhsuludur. Bu o deməkdir ki, mübahisələrdə və fikir ayrılığında iştirak edən bütün səhabələr pakdırlar. Bu işdə ictihad edənlərdən haqlı olanlar iki əcr, xəta edilənlər isə bir əcr qazanırlar. Bu xəta bağışlanır.

Hicrətin 40-cı ilində böyük fitnədən sonra müsəlmanlar toplaşıb vahid rəyə gəldilər. Bu *icma* ili adlanır. Bu vaxt Həsən bin Əli *-Allah onların hər ikisindən razı olsun - radıyallahu anhumə-* xilafətdən, xəlifə Müaviyə bin Əbu Sufyanın xeyrinə imtina etdi.

Əl-Buxarinin "Səhih" əsərində göstərildiyinə görə, Peyğəmbər ﷺ minbərdə onunla bir yerdə olan nəvəsi Həsən haqqında bu sözləri demişdir: "*Mənim bu oğlum seyiddir* (ağadır). *Ola bilsin Allah onun vasitəsi ilə müsəmanların iki dəstəsi arasında əmin-amanlığı bərpa edəcəkdir*" (İbn Həcər, "Fəth əl-Bari", 8/96).

Səhabələrin paklığı barədə yazını müsəlman imamlarının səhabələri söymək barədə dedikləri ilə bitirək. Bu imamlardan biri olan Əbu Zəra ər-Razi demişdir: "Peyğəmbərin ﷺ səhabələrindən biri haqqında nalayiq sözlər deyən şəxs görsən, bil ki, o zındıqdır (dinsizdir). Çünki Peyğəmbər haqqdır, Quran haqqdır, onda deyilənlər haqqdır. Bütün bunları bizə çatdıran səhabələrdir. Bu dinsizlər Kitab və Sünnəni batil etmək üçün şahidlərə zərbə endirirlər.

Bununla birinci növbədə səhabələr zərbələrə məruz qalır" *(Xatib Bağdadi, "Rəvayət elminin kafiliyi", səh. 49).*

**5) Səhabələrin sayı**

Səhabələrin dəqiq sayını hesablamaq mümkün deyildir. Çünki onlar müxtəlif ölkələrə və vilayətlərə səpələnmişlər. Bu da onların çoxsaylı olmasını göstərir. Alimlərin onların sayı barədəki fikirləri təqribidir. Mərhum Əbu-Zərə ər-Razi demişdir: *"Peyğəmbər ﷺ onun barədə hədis deyən və onu dinləyən 114 min səhabənin əlini sıxmışdır" ("Fəth əl-Muğis", 4/39).*

Bu sözlərdən aydın olur ki, səhabələrdən Peyğəmbər ﷺ haqqında rəvayət söyləyənlər sayca çox olmuşlar və onun haqqında çoxlu xoş sözlər nəql etmişlər. Onlar öz rəvayətlərində Peyğəmbərlə ﷺ əlaqələrinə görə bir-birindən fərqləndikləri kimi fərqlənmişlər.

**6) Səhabələrin elmi**

Səhabələr Peyğəmbər ﷺ Sünnəsini, onun əməllərini və kəlamlarını bilmək səviyyəsinə görə eyni dərəcədə olmamışlar, bir-birindən seçilmişlər. Onlardan elələri olmuşdur ki, onlar zəruri olaraq Peyğəmbərin ﷺ yanında olmuş, vaxtlarının çoxunu ona xidmətə sərf etmişlər. Bu səhabələrdən Ənəs bin Maliki və Əbu Hüreyrəni – *radıyallahu anhumə-* göstərmək olar. Eləri də vardır ki, Peyğəmbərlə ﷺ səyahətlərdə, ticarət səfərlərində birlikdə olmuşlar, ölkələr gəzmişlər. Bu səhabələrdən bəziləri köçərilər (bədəvilər), bəziləri isə oturaq şəhərlilər olmuşlar.

Bu səbəbdən də səhabələr Peyğəmbər ﷺ haqqında malik olduqları məlumatların miqdarına görə bir-birindən fərqlənmişlər. Hər bir səhabənin bilik səviyyəsi barədə İbn Həzmin bu sözlərinə əsasən fikir yürütmək olar: "Onlar iki qrupdurlar, üçüncü ola bilməz: onun rəvayət və fətvalarını çox bilənlər və ikincisi - Peyğəmbərin ən çox istifadə etdiyi şəxslər. Peyğəmbərin ﷺ biliksiz bir adamdan faydalanması qeyri-mümkündür. Bu, onların Sünnəni bilməsinə ən böyük şəhadətdir" *(İbn Həzm, "Millətlər və dinlər", 4/136).*

Səhabənin biliyini və rəvayətlərini bilmək üçün bu kifayət deyildir. Peyğəmbərə ﷺ öz yaxınlığı ilə tanınan bəzi səhabələr hamıdan əvvəl bir-birinin ardınca İslamı qəbul etmişlər. Məsələn, Əbu Bəkr və Ömər bunlardandır. Onların elmi tam aydınlığı ilə özünü büruzə verə bilməmişdir. Bu, xüsusilə Əbu Bəkrə aiddir. Çünki o, Peyğəmbərdən ﷺ

sonra çox yaşamamışdır. Ömərin bir səhabə kimi böyük alim Əbu Həzmin qeyd etdiyi qruplardan birinə mənsubluğu baxımından demək olar ki, onun uzun müddətli hökmranlığı zamanı çoxlu yeni məsələlər meydana gəlmişdi və onların həlli yolları səhabənin elmi səviyyəsinə dəlalət edirdi. Bu onun yeni problemlərin həlli sahəsində tutduğu mövqeyini aydınlaşdırır.

İndi də Peyğəmbər ﷺ haqqında rəvayət edən səhabələrin və onların söylədikləri hədislərin sayı barədə müxtəsər məlumat verək:

- Peyğəmbər ﷺ haqqında hər biri 1000-dən artıq hədis rəvayət edən 7 səhabə;
- hər biri 200-dən artıq hədis söyləyən 11 səhabə;
- hər biri 100-dən artıq hədis söyləyən 21 səhabə;
- onlarla hədis söyləyən səhabələrin sayı yüzə yaxınlaşır;
- on və daha az sayda hədis söyləyən səhabələrin sayı 100-dən artıqdır;
- təqribən 300 səhabə vardır ki, onlardan hər biri bir hədis söyləmişdir.

Bununla aydın olur ki, arada minlərlə uydurma hədislər də vardır. Bunlar səhabələr adından, bidətçilər və yol azanlar tərəfindən uydurulmuşdur. Onlarda bütün səhabələrə və ya onlardan bəzilərinə nifrət hissi ifadə edilir. Buna görə də biz hər hansı bir zəif və ya istinad baxımından şübhəli olan hədisə etiraz edirik. Malik olduğumuz bu şərafətli elmə görə Allaha həmd olsun.

Peyğəmbər ﷺ haqqında hədislər söyləyən və söyləməyən səhabələrin hamısına bizim dərin hörmətimiz var, onların ali məqamını, yüksək kəramətini layiqincə qiymətləndiririk. Biz təəssübkeşliyə və ya subyektiv fikrə əsaslanıb bir səhabəni o birindən üstün tutmuruq. Hər bir səhabənin öz fəziləti və kəraməti vardır. İslam qarşısında və onu yaymaq yolunda olanlardan hər birinin özünə məxsus xidmətləri olmuşdur. Onlardan hər biri xeyir sahibidir. Allah taalanın buyurduğu kimi: **«Sizə nə olub ki,** *(mal-dövlətinizi)* **Allah yolunda xərcləmirsiniz? Halbuki göylərin və yerin mirası ancaq Allahındır. Sizlərdən fəthdən əvvəl sərf edənlər və vuruşanlar eyni deyillər. Onlar fəthdən sonra sərf edib və döyüşənlərdən dərəcə etibarilə daha üstündürlər. Bununla belə, Allah onların hamısına ən gözəl mükafat vəd buyurmuşdur. Allah sizin nə**

**etdiklərinizdən xəbərdardır!»** *(əl-Hədid,10).*

Onların hamısı səhabə olmaq şərəfinə nail olmuşlar, öz ardıcıllarına çatdırdıqları parlaq şəriətə sədaqətli idilər. Bu şəriəti həmin ardıcıllar özündən sonrakılara çatdırdılar və nəsilbənəsil ötürüldü və Allah taalanın himayəsi və nəzarəti sayəsində tam bir şəkildə bizə gəlib çatdı.

**7) İslam imamları səhabələri söymək barədə**

İslam alimləri belə bir yekdil fikirdədirlər ki, səhabələr pak adamlardır. Müsəlman onları tənqid etməməli, onlar barədə yalnız xoş sözlər deməlidir, onlar barədə mübahisələrdən uzaq olmalıdır.

İmam Əhməd demişdir: *"Əgər görsəniz ki, kimsə Peyğəmbərin ﷺ səhabələrini pis sözlərlə xatırlayır, onu İslama ədavətdə ittiham edin".*

İshaq bin Rahəveyh demişdir: *"Peyğəmbərin ﷺ səhabələrini söyən şəxs cəzalanmalı və həbs edilməlidir".*

İmam Malik demişdir: *"Peyğəmbəri ﷺ söyən adam öldürülməlidir, onun səhabələrini söyən, tərbiyə olunmalıdır".*

Qazi Əbu Yəla demişdir: *"Səhabələri söymək məsələsində fəqihlərin yekdil rəyi belədir: Buna qanunla icazə verilsə bu küfrdür, verilməsə – fitnəkarlıqdır".*

Şeyxül islam İbn Teymiyyə demişdir: *"Səhabələrin Peyğəmbərdən ﷺ sonra dindən üz döndərdiklərini yalnız az miqdarda, ən çox on nəfər iddia etmişdir və bununla başqalarını aldatmışlar, bu da şübhəsiz ki, küfrdür".*

Əbu Ərva əz-Zubeyri deyir: *"Bir gün imam Malikin məclisində oturmuşduq. Adamlar bəzi səhabələri söyən bir adam barədə danışanda imam Malik Qurandan ayələr oxudu və Allahın* **"kafirlər onlara qarşı qəzəblənir"** kəlamına çatanda dedi: *"Bu ayədə Rəsulullahın ﷺ səhabələrindən birinə qarşı qəzəb hissi olan həmən adam nəzərdə tutulur. Bu o deməkdir ki, bu adamın imanı təhlükə qarşısındadır. Ayədə aydın şəkildə səhabələrdən birinə qarşı qəzəb hissi bəsləyən şəxsdən danışılır".*

İmam Əhməd, Abdullah bin Məsuda istinadən rəvayət edir: *"Kədərlənən adam Rəsulullahın ﷺ səhabələri barədə kədərlənməlidir. Onlar bu millətin içində ən saf qəlbli, ən dərin bilikli, ən az borclu, ən doğru yol tutan, ən yaxşı vəziyyətdə olan adamlardır. Allah bu adamları*

*Peyğəmbərinə məsləkdaş və silahdaş seçmiş, öz dinini yaymağı onlara həvalə etmişdir. Onların fəzilətini dərk edin, onların yolunu tutun. Onlar haqq yolunun yolçularıdır".*

Əbu Davud ət-Təyalisi Abdullah bin Məsuddan ﵁ rəvayət edir: *"Allah öz bəndələrinin qəlblərinə və Məhəmmədin ﷺ qəlbinə nəzər salır. Onun qəlbinə risalə göndərir. Sonra bir daha bəndələrinin qəlbinə nəzər salıb görür ki, onların içində səhabələrin qəlbi ən safdır. Onları öz Peyğəmbərlərinə dost, onun dininə köməkçi etdi".*

Uveyyim bin Saidədən rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "*Allah məni və mənim səhabələrimi seçib ayırmışdır. Onları vəzirlər, qaynatalar, yeznələr etdi. Onları söyənə Allahın, mələklərin və bütün insanların lənəti çatacaqdır. Qiyamət günü Allah onlardan nə saflıq, nə də paklıq qəbul edər*".

**8) Əhli Beytin böyükləri iki şeyx (Əbu Bəkr və Ömər) barədə**

✓ İmam Əli ﵁ demişdir: "Məni Əbu Bəkr və Ömərdən – *radıyallahu anhumə-* üstün tutan hər kəs bir iftiraçı kimi şallaqla cəzalanmalıdır".

✓ Bir nəfər Əli ﵁ haqqında aşağıdakı rəvayəti verir:

*"O öz xütbəsində deyirdi: "Allahım, bizim işlərimizi haqq yolu göstərən Raşidi xəlifələrin işləri kimi yoluna qoy! Mən soruşdum: "Onlar kimlərdir? Onun gözləri doldu və dedi: "Onlar mənim sevimli yoldaşlarım Əbu Bəkr və Ömərdir. Onlar hidayət imamlarıdır. İslamın şeyxləridir, Qureyşin kişiləridir. Peyğəmbərdən ﷺ sonra bizim rəhbərimizdir. Onları rəhbər tutanlar məsumdurlar, onların yolunu tutanlar haqq yolunun yolçularıdırlar. Onlarla bağlı olanlar Allahın dəstələrinin üzvləridir".*

✓ "Nəfs zəkiyyə" ləqəbli Abdullahdan soruşdular:

*"Sən pəncələrə məsh çəkirsən?"*

O deyir:

*"Mən çəkirəm, çünki Ömər də məsh çəkirdi".*

Sual verən bir daha deyir:

"Mən soruşuram ki, sən başmaqlarına məsh çəkirsən?".

*O deyir:*

*"Mən sənə qısa şəkildə deyirəm: "Mən Ömərdən danışıram, sən də mənim rəyimi bilmək istəyirsən. Ömər məndən daha yaxşıdır. Yer üzü mənim kimilərlə doludur".*

Ondan yenə soruşurlar:

*“Bu təqiyyədirmi (dini və ya siyasi görüşlərin gizlədilməsi)?*

O deyir:

*“Biz qəbrlə minbər arasındayıq. Allahım, bu mənim həm gizli, həm də açıq dediyim sözlərdir. Məndən sonra heç kəsə qulaq asma. Kim deyir ki, Əli məğlub edildi? Peyğəmbər ﷺ ona bir şey əmr etmişdi, əgər onu yerinə yetirməsəydi, bu hörmətsizlik və böyük nöqsan olardı”.*

✓ Bir nəfər Zeynulabidinin yanına gəlib deyir:

*“Əbu Bəkr barədə mənə danış”.*

O deyir:

*“Siddiq haqqında?”*

Kişi soruşur:

*“Sən ona Siddiq deyirsən?”*

O deyir:

*“Ananın balası ölsün, onu “Siddiq” adıyla Rəsulullah ﷺ, mühacirlər və ənsarlar çağırmışlar. Ona Siddiq deməyəni İzzət və Cəlalət sahibi olan Allah nə dünyada, nə də axirətdə bağışlar. Sən də Əbu Bəkr və Öməri –radıyallahu anhumə– sev!”.*

✓ Cəfər bin Məhəmməd demişdir: *“Allahım, mən Əbu Bəkr və Öməri qəbul edirəm və onlara məhəbbətimi bildirirəm. Allahım, əgər mənim nəfsimdə bundan başqa bir şey olarsa, mənə qiyamət günü Məhəmmədin ﷺ şəfaəti çatmaz”.*

✓ Cəfər Sadiq demişdir: *“Əbu Bəkr və Ömərdən uzaq olandan mən də uzağam”.*

# KİTAB VƏ SÜNNƏDƏ SƏHABƏLƏRİN FƏZİLƏTİ

Allahın razılığını qazanmış səhabələrin kəramətini aydınlaşdırmaq işinə əvvəlcə Allahın onlar barədə dediyi kəlamdan başlayaq: «*(İslamı)* **ilk əvvəl qəbul edib** *(bu işdə başqalarından)* **irəli düşən mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar.** *(Allah)* **onlar üçün əbədi qalacaqları,** *(ağacları)* **altından çaylar axan cənnətlər hazırlamışdır. Bu, böyük qurtuluşdur** *(uğurdur)*» *(ət-Tövbə, 100)*.

Böyük alim və hafiz İbn Kəsir[3] bu ayəni belə təfsir etmişdir: *"Allah taala ilk mühacirlərdən, ənsarlardan və öz yaxşı əməlləri ilə*

---

[3] İbn Kəsir tanınmış və hörmətli imamdır. Əsil adı Abulfida İmadəddin İsmail bin Ömər bin Kəsir əl-Qurəşidir. Əslən Dəməşqdəndir. Hicri tarixi ilə 701-ci ildə Məcdəldə doğulmuşdur. Dörd yaşında ikən atasını itirmiş və qardaşının himayəsində böyümüşdür.

Tarixçi və hafiz əz-Zəhəbi İbn Kəsir haqqında yazır: "O, müfti, imam, dərin bilikli hədis alimi və bacarıqlı fəqih, rəvayətçi və təfsirçidir. Çox faydalı kitabların müəllifidir".

Hafiz İbn Həcər deyir: "O, hədislə məşqul olmuş, hədis mətnlərini və hədis elmində tanınmış şəxsiyyətləri dərindən öyrənmişdi. Çox hazırıqlı, təmiz, zəkalı bir adam imiş. Onun əsərləri hələ sağlığında hər tərəfə yayılmış, o öləndən sonrada adamlar bu əsərlərdən çox faydalanmışlar".

Tarixçi İbn Tubri Bərdi onun haqqında yazır: "O böyük şeyx, imam və alim İmədəddin Abulfidadır. Çox çalışqan adam imiş. Elmi biliklərə dərindən yiyələnmiş, əsərlər yazmışdır. Fiqh, təfsir, hədis sahələrində xüsusilə fərqlənmiş, hədisləri toplamaq və təsnif etmək işində uğurlar qazanmış, dərs demiş, hədisləri öyrətmiş və bu sahədə dərs kitabları hazırlamışdır. Ömrünün sonuna kimi hədis, təfsir, fiqh və ərəb dilçiliyi elmlərinin tədqiqi ilə məşğul olmuşdur. Allah ona rəhmət eləsin!".

O, fikri dəqiq və savadlı ifadə etməkdə məşhur olmuş, tarix, hədis və təfsir sahələrində ən yüksək məqama çatmışdır. Onun saysız-hesabsız şagirdləri olmuşdur. Bunlardan ən məşhuru "Təfsir əl-Quran əl-Azim" əsəridir. Bu əsər, rəvayətlərdən istifadə edilməklə yazılmış ən yaxşı təfsirdir və dəfələrlə çap olunmuşdur. O, həmçinin, "Əl-bidayə və ən-nihayə" adlı tarix kitabının da müəllifidir. Bu əsərdə peyğəmbərlərə aid hekayətlər, Məhəmməd peyğəmbərin ﷺ həyatı və öz dövrünə qədər ki İslam tarixi haqqında məlumatlar toplanmışdır. Onun görkəmli şəxsiyyətlər haqqında, Müslimin "Səhih" toplusunun şərhinə dair kitabları, dinin ehkamlarına dair böyük bir kitabı, Peyğəmbərin ﷺ həyat yolu haqqında iri həcmli əsəri vardır. Rəhmətlik İbn Kəsir hicri 774-cü ilində vəfat etmişdir. (Abdul-Qadir əl-Arnautun "İbn Kəsirin təfsiri"nə yazdığı müqəddimədən)

*onların yolunu tutanlardan öz razılığını, onlar üçün cənnət və rahat məişət hazırladığını bildirir".*

İmam əş-Şabi[4] demişdir: *"Mühacirlərdən və ənsarlardan olan ilk müsəlmanlar dedikdə Hüdeybiyyə döyüşü ilində Rizvan beyəti adlı sədaqət andı mərasimində iştirak edən səhabələr nəzərdə tutulur".* Bu hadisə və ona aid ayə (əl-Fəth, 18) barədə müfəssəl danışılacaq.

Əbu Musa əl-Əşari[5], Səid bin əl-Müseyyib[6], Məhəmməd bin Sirin[7], Həsən əl-Bəsri[8] və Qatadə[9] demişlər: *"Bu şəxslər Allahın*

---

[4] İmam əş-Şabi – Amir bin Şərahil əş-Şabi əl-Yəməni Əbu Amr öz dövrünün ən böyük alimidir. hicrətin 28-ci ilində anadan olmuşdur. Əli bin Əbu Talibi görmüş və onun imamlığı ilə namaz qılmışdır. Hər şeyi əzbər bilərdi. Bədəncə çox zəif idi, çünki ekiz uşaqlardan biri idi. Deyərmiş ki, bu dünyada heç kəs haqqında Əli barədə danışılan qədər yalan danışılmayıb.

O, həmçinin demişdir: "Mən 500-dən çox səhabə görmüşəm, onların hamısı Əbu Bəkri, Öməri, Osmanı və Əlini bir-birindən ayırmırdılar. İndi isə müsəlman milləti dörd dəstəyə parçalanmışdır: Əliyə məhəbbət bəsləyib Osmana nifrət edənlərə, Osmana məhəbbət bəsləyib Əliyə nifrət edənlərə, onların hər ikisinə məhəbbət bəsləyənlərə və onların hər ikisinə nifrət edənlərə". Ondan soruşurlar: "Sən hansılardansan?". Deyir: "Mən onlara nifrət edənlərə nifrət edirəm".

Rəhmətlik əş-Şabi hicrətin 104-cü ilində vəfat etmişdir. (əz-Zəhəbi, "Məşhur nəcib şəxsiyyətlərin bioqrafiyaları", 4/294)

[5] Əbu Musa əl-Əşari – böyük səhabə Abdullah bin Qeysdir. İslamı qəbul edib Həbəşistana mühacirət etmiş, Xeybərin fəthindən sonra Mədinəyə qayıtmışdır. Peyğəmbər ﷺ onu Yəmənin bir hissəsinə, Ömər isə Bəsrəyə vali təyin etmişlər. Əhvazın və daha sonra İsfahanın fəthində iştirak etmişdir. Daha sonra Osman onu Kufəyə təyin etmişdir. Gözəl səslə Quran oxuyarmış. Bir səhih hədisdə deyilir ki: "ona Ali-Davudun tütəklərindən biri verilmişdir". Bəsrə əhalisinə fəqihlik edirdi. Alimlər belə demişlər: "Müsəlman millətinin dörd qazisi var: Ömər, Əli, Əbu Musa və Zeyd bin Sabit".

Peyğəmbərin ﷺ ölümündən sonra Şam fəthlərin şahidi olmuşdur. Hicrətin 44-cü ilində vəfat etmişdir. (İbn Həcər əl-Əsqalani, "Səhabələrin fərqləndirməsinə dair doğru söz", 2/351).

[6] Səid bin əl-Museyyib – Əbu Məhəmməd əl-Qurəşi əl-Məxzumi Mədinəli alimdir, səhabə ardıcıllarının başçısı olmuşdur. Əmirəlmöminin xəlifə Ömər bin əl-Xəttabın dövründə anadan olmuşdur. Özünün dediyi kimi, bir hədis öyrənmək üçün gecə-gündüz yol gedib mətləbinə çatmağa razı imiş. Səhabələr sağ ikən fətvalar verərmiş. Ondan saysız-hesabsız adam elm öyrənirdi. O, yuxu yozmaq sahəsində dərin biliyə sahib olmuşdu. Hicrətin 95-ci ilində Allah taalanın rəhmətinə getmişdir. (əz-Zəhəbi, "Məşhur nəcib şəxsiyyətlərin bioqrafiyaları", 4/217)

[7]Məhəmməd bin Sirin – İmam və şeyxül-islam Əbu Bəkr əl-Ənsari əl-Bəsridir. Ömər bin əl-Xəttabın xəlifəliyinin sonuna iki il qalmış anadan olmuşdur. Otuzdan artıq səhabədən elm öyrənmişdir. Fərz, qəza və hesab məsələlərini yaxşı bilirmiş. Çox

*elçisi ilə birlikdə hər iki qibləyə*[10] *üz tütüb namaz qılmış səhabələrdir".* Möminlərin əmiri xəlifə Ömər bin əl-Xəttab *(r.a.)* bu ayəni eşidərkən demişdir: *"Mən fikirləşirdim ki, biz elə bir dərəcəyə yüksəlmişik ki, bizdən sonra o dərəcəyə yüksələ bilməzlər".*

Ubey bin Kəb[11] ona demişdir: "Bu ayənin təsdiqi əl-Cumuə

---

dindar adam olmuş, bir gündən-bir oruc tutmuşdur. Məhəmməd bin Sirin hicrətin 110-cü ilində vəfat etmişdir. Allah ona rəhmət eləsin!

[8] Həsən əl-Bəsri – Əbu Səid əl-Həsən əl-Bəsri Ömər bin əl-Xəttabın xəlifəliyinin sonuna iki il qalmış dünyaya gəlmişdir. Öz elmi və əməli ilə dövrün ən tanınmış adamı olmuşdur. Bəsrənin ağsaqqalı idi, fətvalar verərdi. Çox vüqarlı, təmkinli və əzəmətli görünüşü var idi. Olduqca kədərli, qəlbindəki Allah qorxusundan tez-tez ağlayan bir adam idi. Elə moizələr oxuyardı ki, onu dinləyən hər kəs ağlayardı. Daim öz Tanrısına ibadət edən zahid idi. Halal və haram məsələlərini onun kimi bilən yox idi. Çox məsələlərdə Ömər bin əl-Xəttabın rəyi ilə razılaşardı. Həsən əl-Bəsri hicrətin 110-cu ilində Allah taalanın rəhmətinə getmişdir. (əz-Zəhəbi, "Bioqrafiyalar", 4/563)

[9] Qatadə bin Dəamə əs-Sədusi – öz dövrünün çox məşhur hafizi, təfsirçilərə və hədis alimlərinə nümunə idi. Əslən Bəsrədən olub, gözləri gor idi. Hicrətin 60-ci ilində anadan olmuşdur. Deyərmiş: "Quranda elə bir ayə yoxdur ki, onda elm olmasın".

Məhəmməd bin Sirin demişdir ki, Qatadə insanlar arasında ən güclü yaddaşa malik insandır. O, heç vaxt öz rəyi ilə fətva verməzdi. Hər üç günə Quranı başdan-başa oxuyub bitirərdi.

İmam Əhməd demişdir: "Qatadə təfsiri və alimlər arasındakı ixtilafları hamıdan yaxşı bilən bir alim idi". Ona Cabirin səhifəsini (hədis toplusu) bir dəfə oxuyan kimi o onu əzbərləmişdir. Ərəb dili, ərəblərin tarixi və nəsəb (qeneoloqiya) elmlərində birinci alim olmuşdur. Hicrətin 117-ci ilində Vasitdə vəfat etmişdir. (əz-Zəhəbi, "Bioqrafiyalar", 5/269)

[10] İlk qiblə Beyt əl-Məqdis (Beytülmüqəddəs, Qüds, Yerusəlim) olmuşdur. Müsəlmanlar 16 ay bu qibləyə namaz qıldıqdan sonra Allah taaladan Allahın Haram (müqəddəs, toxunulmaz) evinə namaz qılmaq əmri gəldi. Çünki bu, peyğəmbərlər atası İbrahimin –aleyhisəlam– qibləsi olmuşdur. "İki qibləyə üz tutub namaz qılanlar" dedikdə Yerusəlimdəki əl-Əqsa məsçidinə üz tutub namaz qılınan vaxt namaz qılan ilk səhabələr nəzərdə tutulur. Bu barədə ətraflı məlumat almaq üçün İbn Kəsirin təfsirində əl-Bəqərə surəsinin 144-150-ci ayələrinin izahına baxmaq olar.

[11] Ubey bin Kəb Xəzəz qəbiləsindən olan ənsarlardandır. İkinci Üqbə beyətinin şahidi olmuş və özü də Peyğəmbərə beyət etmişdir. Böyük Bədr yürüşünün iştirakçısı olmuşdur. Dərin bilikli, Qüdrətli və Böyük Allahın Kitabını ən çox qiraət edən və səhabələrdən biri idi. Bu hədisdən göründüyü kimi, Peyğəmbər ﷺ Ubey haqqında belə xəbər vermişdir: "Mənin ümmətimin ümmətinə ən mərhəmətlisi olan Əbu Bəkrdir, Allahın dinində ən qüvvətlisi Ömər, ən həyalısı Osmandır, ən düzgün qərar çıxaran Əlidir, ən yaxşı Quran oxuyan Ubey bin

surəinin əvvəlində verilmişdir: **«Ərəblərdən savayı hələ onlara qoşulmamış başqalarına da** *(Peyğəmbər göndərən Odur)*. **O, yenilməz qüvvət, hikmət sahibidir!»**. Vay o adamın halına ki, bundan sonra onlara, o cümlədən Peyğəmbərdən ﷺ sonra səhabələrin ağası, onların ən yaxşısı, ən üstünü, yəni ən doğrucul insan və böyük xəlifə olan Əbu Bəkr bin Qühafəyə ﷺ nifrət etsin, onların hamısını və ya bəzilərini söysün!”.

Əfsuslar ki, hələ də bir qrup biçarə adamlar səhabələrin ən hörmətlilərinə qarşı çıxır, onları söyürlər. Biz belələrindən Allaha pənah aparırıq. Bu hərəkət onların ağıllarının təhrif olunduğuna, qəlblərinin yol azdığına dəlalət edir. Allahın razılığını qazanmış şəxsi söyən adamın Quranla, imanla bir əlaqəsi ola bilərmi?

Bu ayənin İbn Kəsir tərəfindən edilmiş təfsirini ixtisarla nəzərdən keçirək.

*Ayənin verdiyi mənalar:* ayə onu göstərir ki, Peyğəmbərlə ﷺ birlikdə hicrət köçü etmiş ilk müsəlmanlar və Mədinəyə hicrət etdikdən sonra Peyğəmbərə ﷺ tərəfdar çıxmış ənsarlar birincidirlər. Həmçinin, ayədən görünür ki, onlar bu işdə başqalarını qabaqlamışlar.

**«…yaxşı işlər görməkdə onların ardınca gedənlər…»** ifadəsi Allahın razılığını qazanmış səhabələrin rolunu göstərir.

Əzəmətli Quran nə əvvəl, nə də sonra batil şeylərin daxil ola bilmədiyi İlahi qanunlar məcəlləsi, Peyğəmbər ﷺ bu qanunların şərhçisi və təfsirçisidirsə, səhabələr Quranı rəhbər tutub onu əməli

---

Kəbdir. Mirasları Allahın qanunlarına görə ən düzgün bölüşdürən Zeyd bin Sabit, halal və haramın ən yaxşı bilən Müaz bin Cəbəldir. Göyün altında, yerin üstündə Əbu Zər kimi şirindil adam yoxdur. Hər bir millətin ən etibarlı adamı Əbu Übeydə bin əl-Cərrahdır”.

Ubey Allahın elçisinin ﷺ məktublarını və vəhyi yazan ilk katibi olmuşdur. O, həmçinin Əli bin Əbu Talibin sülh müqavilə fərmanını yazan katibi olmuşdur. Ubey həmdə Əbu Bəkrin Quranı toplamağı, yazmağı və ondan nüsxələr çıxarmağı tapşırdığı adamlardan biri idi. Bir dəfə Allahın elçisi ﷺ ondan soruşur: “Səncə Allahın Kitabında ən böyük ayə hansıdır?”. O: «Allahdan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur…» ayəsini (Ayətül kürsini) oxuyur. Peyğəmbər ﷺ əlini onun sinəsinə vurub deyir: “Verdiyim elm sənə halal olsun Əbul-Munzir!”

Əbu əl-Munzir onun künyəsi (ləqəbi) imiş. O, hicrinin 17-ci ilində Ömər bin əl-Xəttabın xəlifəliyi vaxtı Allah rəhmətinə getmişdir.

həyatda tətbiq etmiş ilk şəxslərdir. Buna görə də biz həmişə Qurana əməl etməyi və onu əməli həyatda tətbiq etməyi mütləq onlardan öyrənməliyik.

Haqq və ədalət Peyğəmbərin ﷺ qurmuş olduğu və səhabələrin bizə çatdırdığı ilk cəmiyyətdə, ilk siyasi əlaqələrdə və ilk dövlətdə mövcud olduğu üçün, Qurani Kərimin əməli həyata tətbiqi məsələsinə biz biganə qala bilmərik. Əgər biz bunu unutsaq, deməli, şəriəti təmamilə unuduruq. Biz mütləq bilavasitə şahidlərin dəlillərinə və rəvayət edənlərin dediklərinə əsaslanmalıyıq. Əgər biz onların əqidə və tərbiyəsini, göstərişlərini, dərin bilik və imanını öyrənib bunlara əməl etsək səhabələrə, hörmət və ehtiram göstərsək, onların yerini düzgün başa düşsək, bəzilərinin, onların insani təbiətindən irəli gələn xətalarını başa düşsək və Allahdan onları İslama mənsubiyyətdən xaric etməyən xətalarını və nöqsanlarının bağışlanmasını diləsək, bütün yaxşı işlərimizlə də onların ardıcılları olmuş olarıq.

Bu deyilənləri yuxarıdakı ayədə ifadə edilən fikirlə və Allah taalanın aşağıdakı ayədə buyurduğu ilə müqayisə edək: **«Hər kəs özünə doğru yol aşkar olandan sonra Peyğəmbərdən üz döndərib möminlərdən qeyrisinin yoluna uyarsa, onu istədiyi yola yönəldər və Cəhənnəmə varid edərik. Ora necə də pis yerdir!»** *(ən-Nisa, 115)*.

Müsəlmanın, nə Peyğəmbərin ﷺ sağlığında, nə də onun vəfatından sonra Peyğəmbərə ﷺ müxalif hərəkətlərə və sözlərə yol verməyə əsası yoxdur. Çünki onun dedikləri, gördüyü işlər, verdiyi əmrlər və göstərişlər etibarlı, sınaqdan çıxmış, sənəd və rəvayətlər vasitəsilə qorunub saxlanmışdır.

Müsəlman həmçinin, mömin camaatın tutduğu yol ilə getməlidir. Lakin bu bir qrup mömin müsəlmanlar kimlərdir? Səhabələrdən sonrakı nəsillərin dövründə İslam aləminə yad və artıq ünsürlər daxil oldu, yeni fəlsəfələr, adətlər və ənənələr onu dağıtdı, bir-birinə zidd olan müxalif fikirlər, natəmiz və qarışıq əqidələr meydana gəldi. Cəmiyyət natəmiz bir qatışığa çevrildi.

Yuxarıda göstərilən ayə Peyğəmbərə ﷺ və onunla birlikdə olanlara nazil olmuşdur. Bu ayədə haqqında danışılan möminlər səhabələr özləridir. Buna görə də Əbu Davudun və ət-Tirmizinin

əl-İrbaz bin Sariyəyə ﷺ əsaslanaraq rəvayət etdikləri səhih hədisində deyilir: "*Allahın elçisi bizə çox maraqlı bir moizə etdi. Ondan bizim qəlblərimiz riqqətə gяldi, gözlərimiz yaşardı. Biz dedik ki, ya Allahın elçisi, bu, vida moizəsinə bənzəyir. Belə isə bizə vəsiyyət et. O, belə cavab verdi: "Sizə Allahdan qorxmağı, Allahın əmrini bir həbəş quldan eşitsəniz belə, ona can-başla itaət etməyi vəsiyyət edirəm. Sizlərdən kim çox yaşasa, müsəlmanlar arasında çoxlu ixtilaflar düşdüyünü görəcək. Bu zaman siz mənim və doğru olan rəşidi xəlifələrin Sünnəsinə riayət etməlisiniz. Sünnədən öz arxa dişlərinizlə möhkəm yapışın! Nəbadə din işlərində qondarmalara yol verəsiniz! Bilin ki, hər bir qondarma yenilik, yol azmaq deməkdir!*".

Peyğəmbərə müxalif olan adam isə müsəlmanların ilk dəstəsinə və onlardan sonra gölən və bu birincilərin yolunu tutan hər bir İslam toplumuna müxalifdir. Çünki müsəlman ümməti Qiyamət gününə qədər arası kəsilməyən ana xətti təmsil edəcək topluma deyilir. Bunu bizə peyğəmbərlərin ağası belə xəbər vermişdir: *"Mənim ümmətimdən olan bir dəstə haqq deyib duracaq. Onları göməksiz qoyanlar, onlara zərər yetirə bilməyəcək, Allahın əmri gələnədək belə olacaq"* (İmam Müslimin[12] rəvayəti).

Bu dəstə İslam ümmətində ana xətti təmsil edən müsəlmanlardan ibarətdir. Çünki onlar Peyğəmbərin ﷺ və onunla birlikdə iman gətirənlərin izləri ilə gedirlər. Allahın salavatı və salamı olmuş Peyğəmbəri çoxsaylı hədislərdə müxtəlif münasibətlərlə bu barədə danışır.

Yuxarıda qeyd edilən hədisdə dediyi kimi: *"Siz mənim və məndən sonra doğru yolda olan rəşidi xəlifələrin Sünnəsinə əməl etməlisiniz. Ondan öz arxa dişlərinizlə möhkəm yapışın"*. Başqa bir səhih hədisdə buyurulur: "*Yəhudilər 71, xristianlar 72, mənim ümmətim isə 73 firqəyə parçalanacaq; bunların birindən başqa*

---

[12] İmam Müslim – Əbu əl-Hüseyn Müslim bin əl-Həccac əl-Qureyşidir. Hafiz imamlardan və məşhur hədis bilicilərindən biridir. Hədis öyrənmək və toplamaq üçün çox ölkələr gəzmişdir. Bu səyahətlər nəticəsində 300.000 hədis içərisindən seçdiyi səhih hədisləri əhatə edən "Əl-cami əs-səhih" ("Səhih hədislər toplusu") kitabını yazmışdır. Hündür boylu, saçı və saqqalı ağ bir adam olmuşdur. Əmaməsinin bir üzünü kürəyinin arasına sallayarmış. Ən bilikli və ağıllı adam kimi böyük hörmət qazanmışdı. Hicri tarixi ilə 206-ci ildə doğulmuş bu böyük insan cəmi 55 il yaşamışdır.

*hamısı oda vasil olacaq. Soruşdular: "O bir firqə hansıdır, ey Allahın elçisi?". Dedi: "Mənim və səhabələrimin mənsub olduğumuz tayfa"* ("Səhih hədislər silsiləsi"; 203/1492).

Bu hədislər son dərəcə qiymətli hədislər olub, Peyğəmbər ﷺ uzaqgörənliyinin nümunələridir. Allah onlar vasitəsilə öz Peyğəmbərinə ondan sonra ümmətinin başına gələcək hadisələr baradə məlumat vermişdir. Peyğəmbərdə ﷺ öz növbəsində bunları bizə çatdıraraq, həqiqi, aydın və düz yolu vəsiyyət etmiş və buyurmuşdur: *"Sizə iki şey qoyub gedirəm: Allahın Kitabını və mənim Sünnəmi. Nəbadə onlardan sonra yol azasınız. Onlar Cənnətdəki Hovuz başında mənim yanıma gələnədək bir-birindən ayrılmayacaqlar"* ("Mişkat əl-məsabih", 186).

Əbu Amr əz-Zubeydi Əbu Abdullah Cəfər əs-Sadiqdən[13] *-Allah ona rяhmяt elяsin-* soruşur: *"Deyilənə görə imanın elə dərəcələri və səviyyələri vardır ki, insanlar onlara görə Allahın dərgahında bir-birindən fərqlənirlər?* İmam cavab verir: *"Bəli vardır". Əbu Amr ona deyir: "Allah səndən razı olsun, onları mənim üçün sıra ilə say ki, başa düşüm".* İmam deyir: *"Allah möminləri bir-biri ilə cıdır günü atlar ötüşən kimi yarışdırır. Bundan sonra bu yarışda ona doğru can atmaqdakı fərqlərinə görə onlara üstünlük dərəcələri*

---

[13] İmam Cəfər əs-Sadiq – İmam Məhəmməd əl-Baqirin oğludur. O, Məhəmməd peyğəmbərin ﷺ özündən başlayaraq nəsəbinin yeddinci nəsli olduğu üçün onunla Peyğəmbərin ﷺ nəsəbi sona çatır. Anası Qasim bin Məhəmməd bin Əbu Bəkrin qızı Umm Fərva adlı qadın idi. İmam Cəfər əs-Sadiqin ana tərəfdən nəsəbi Əbu Bəkr əs-Siddiqə çatır. İmam Cəfər əs-Sadiq hicrətin 80-ci ilində anadan olmuşdur. O, öz elmini, biliklərini, fiqhi və hədisləri səhabələrin Mədinə alimlərindən öyrənmiş və bu sahələrdə uğurlar qazanmışdır. Çox bəsirətli və dərin bilikli bir alim olmuşdur. Öz nəslinə ifrat məhəbbət göstərənlərə qarşı kəskin etiraz etmiş, özləri haqqında yalandan qondarılan hədislərə qarşı amansız mübarizə aparmışdır. Siyasətdən və var-dövlət toplamaq istəyindən uzaq bir adam idi. Xəlifə Mənsur ona yazır: "Hamı bizim yanımıza gəlir. Sən niyə bizə baş çəkmirsən?". Cəfər əs-Sadiq ona belə cavab verir: "Bizim səndən qorxmağımız üçün bir əsas yoxdur. Səndə də axirətə aid heç bir şey yoxdur ki, onu səndən xahiş edək. Sən elə bir nemət içidə deyilsən ki, səni təbrik etməyə gələk. Yaxud sənə bir bədbəxtlik də üz verməyib ki, yanına təziyə verməyə gələk". Xəlifə yazır: "Bizimlə yoldaşlıq edib, bizə nəsihət verərsən". İmam ona cavab verir: "Dünyanı istəyən sənə nəsihət verə bilməz, axirəti istəyən isə sənə yoldaş ola bilməz".

Cəfər əs-Sadiq özü dünyanı yox, axirəti istəyən adam idi. O, çox bilikli, mömin, Allahdan qorxan, nəcib və cəsarətli bir adam olmuşdur.

*verir. Hər kəsə yarışda əldə etdiyi dərəcəni verir. Heç kəsin haqqı kəsilmir və heç kəsə güzəşt edilmir. Geridə qalana qabaqda yer verilmir, ümmətin yarışda irəlidə olanlarını arxada qalanlar üstələmir."*[14]

Allah o möminlərdən razı olsun ki, onlar Allahdan razı olmuşlar. Onların məqsədləri Allah taalanın onlardan razılığı olmuşdur. Mömin elə o adama deyilir ki, Allahı özündən razı salmaq üçün çalışır, əmək sərf edir, zəhmətə qatlaşır.

Allahdan razı olduğunu, Allaha məhəbbət bəslədiyini, Ona müxalif olmadığını, Ona bağlı, müti olduğunu iddia edən, həqiqətdə isə bu hissləri qəlbində bəsləsə də əməldə və işdə Ona qarşı çıxan, yaxud etiqadda Ona müxalif olan nə qədər adam var!

Bu məsələdə də Allah, səhabələri seçib ayırmış, onlara üstün dərəcələr vermişdir, çünki O onların qəlbində bəslədiyi hislərdən xəbərdardır, ona görə də onlara Öz razılığını bildirmişdir. Onlar da öz növbələrində iman və etiqadları, Allaha göstərdikləri qulluq və ibadət, öz əxlaqları və sədaqətləri ilə Allahı razı salmışlar, hər bir əməldə sadiqlik biruzə vermiş, yaxşı əməl sahibi olmuşlar.

Allah taala yalnız Ona tam sədaqətlə yerinə yetirilən, hər hansı bir şan və şöhrət istəyindən və başqa dünyəvi məqsəddən uzaq, həqiqi və savab olan əməldən razı qala bilər. Bütün bunlar Peyğəmbərin ﷺ dediklərinə uyğundur. Bunu başa düşmək üçün aşağıdakı ayədə deyilənlər barədə diqqətlə düşünmək lazımdır.

Bu əl-Kəhf surəsinin sonuncu ayəsidir. Keçmiş əməlisalehlərin, saf

---

[14] Məhəmməd bin Yəqub əl-Kuleyni – Şiələrin şeyxi, imami məzhəbinin alimidir. Çoxsaylı əsərlərin müəllifidir. Bağdadda yaşamış, elə orada da hicrətin 328-ci ilində vəfat etmişdir. (əz-Zəhəbi, "Bioqrafiyalar", 10/1247)

O, öz kitabını ona görə "əl-Kafi" adlandırmışdır ki, guya bu kitab kifayətdir və onların bu kitab olan yerdə əl-Buxari və ya Müslimə ehtiyacları yoxdur. Bu "əl-Kafi"nin doğruluq dərəcəsi haqqında düzgün təsəvvür yaratmaq üçün onu tədqiq etmiş Abdul əl-Hüseyn əl-Müzəffərin sözlərini verirəm: "Bu kitabı tənqid etmək üçün bunları bilmək kifayətdir ki, kitabda ümumiyyətlə 16119 hədis toplanmışdır. Bu hədislər öz etibarlılıq və səhihlik baxımından qruplaşdırıldıqda səhih hədislərin sayı 5073, yəni üçdə birindən az çıxır. Buradakı zəif hədislərin sayı isə 9485-dir, yəni yarıdan çoxdur. Qalanlarını etibarlı, inanılası və ya güclü hədis hesab etmək olar.

alimlərin bir çoxu, o cümlədən əl-Fazil bin İyaz[15] *-rahmətullahi aleyh-* bu ayəyə çox diqqətlə yanaşmışlar: **«De: “Mən də sizin kimi ancaq bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız yalnız bir olan Allahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!”»**.

Əl-Fazil demişdir: *“Allah yalnız sadiq və düzgün əməli qəbul edir”. Ondan soruşmuşlar: “Ey imam, əməli salehlik və düzgünlük nədən bilinir?”* O, cavab vermişdir: “Onun – heç bir şəriki olmayan Allah naminə edilməsindən və Peyğəmbərin ﷺ dediklərinə uyğun olmasından”.

Səhabələrin həyatından bir neçə misala nəzər salsaq onların özlərinin Tanrısından necə razı olduğlarını başa düşmək olur.

<u>Birinci misal</u>: Ənəsdən belə bir rəvayət edirlər: *“Əbu Təlhanın Umm Suleymdən olan oğlu ölür. Umm Suleyim öz adamlarına deyir ki, bu barədə Əbu Təlhaya heç nə deməsinlər, oğlunun ölüm xəbərini özü çatdıracaqdır. Əbu Təlha evə gələndə qadını ona çox mehribançılıq göstərir, şam yeməyinin verir, əri yeyib-içir, o isə öz təzə paltarını geyir, bəzənib-düzənir, qabaqkı dövrlərə nisbətən ərinə daha çox qayğı göstərir. Ərinin doyduğunu və onunla yaxınlıqdan sonra rahatlığını görəndən sonra soruşur: “Ey Əbu Təlha! Heç görmüsənmi bir adam borc versin, sonra öz borclarını tələb edəndə rədd edilsinlər?” Əbu Təlha deyir ki, yox. Umm Suleyim deyir: “Onda oğlunu itirdiyinə görə dözümlü ol!”. Əbu Təlha qəzəblənib deyir: “Niyə məni bulaşdırdıqdan sonra bu xəbəri (o bunu deyəndə arvadı ilə bir az əvvəl yaxınlıq etdiyinə işarə edir) verirsən?!”.*

O evdən çıxıb Peyğəmbərin ﷺ yanına gəlir və əhvalatı ona danışır. Peyğəmbər ﷺ deyir: *“Keçən bu gecə etdiyiniz hərəkətə görə hər ikinizə bərəkət verdi!”. Doğrudan da qadın hamilə oldu, cihada*

---

[15] Əl-Fazil bin İyaz – Əbu Əli ət-Təmimi ibadət və zühd imamlarından biridir. Xorasanda anadan olmuş və tanınmış alimlərindəndir. Sonralar Məkkəyə köçmüşdür. Yaxşı Quran oxuyar, çox oruc tutar, namaz qılarmış. Rəvayət elminin ən tanınmış etibarlı, alimlərindən biri idi. Onun hikmətli sözlərindən: “Əməli insanlar üçün etmək şirk, onu insanların xatirinə etmək riyadır. Allahın səni onlardan salamat etməsi ixlasdır”. Fazil bin İyaz hicrətin 187-ci ilində vəfat etmişdir.

*gedən vaxt yolda doğdu"* (Müslim, "Səhih" adlı hədislər toplusu, "Peyğəmbərin səhabələrinin fəzilətləri " fəsli).

<u>*İkinci misal:*</u> Möminllərin əmiri Ömər bin əl-Xəttab xəlifə olduğu zaman Abdullah bin Hüzafə əs-Səhmi rumlulara əsir düşür. Rumluların hökmdarı istəyir ki, əsir düşənlərin özlərinin Peyğəmbərinə ﷺ olan məhəbbətinin dərəcəsini görmək üçün onları dinləri ilə imtahana çəkib alçaltsın. O, əmr edir ki, Abdullahı həbsxanada tək otağa salıb onun yanına şərab, donuz əti qoysunlar və gözəl bir kəniz salsınlar ki, acsa donuz əti yesin, susasa şərab içsin və sərxoş olub cariyənin üstünə düşsün.

Üç gün belə davam edir. Ondan sonra kənizi oradan çıxarıb Abdullahın nə etdiyini soruşurlar.

Cariyə deyir: *"Ağa, Allaha and olsun ki, mənə heç nəzər də salmadı, başını əlləri arasına alıb, ən qaranlıq və ən dar güncdə hərəkətsiz qalmışdır".*

Onun özünü gətirib sorğu-suala tuturlar.

O deyir: *"Vallah, düzü Allah bizə donuz ətini və şərabı zərurət olduqda halal buyurub, lakin mən istəmədim ki, Allahın dinini məsxərəyə qoyasınız".*

Rum hökmdarı deyir: "Dinindən əl çək, mülkümün yarısı sənin olsun!".

O cavab verir: *"Allaha and olsun ki, bütün Yer və onun üstündəki hər şeyi də versələr, bu olmaz".*

Hökmdar deyir: "Qızımı sənə verərəm".

O deyir: *"Cənnət huriləri ondan yaxşıdır".*

Hökmdar deyir: *"Səni öldürəcəyəm".*

O deyir: *"İstədiyim budur".*

Hökmdar yağ dolu bir qazanın altında od qalayıb qaynatmağı əmr edir. Sonra əmr edib əsir müsəlmanlardan birini onun içinə atdırır. Əsirin əti sümüyündən ayrılıb çıxanda Abdullahın gözləri yaşarır. Rumlular elə zənn edirlər ki, o, ölümdən qorxur.

O isə deyir: *"Allaha and olsun ki, mən öz taleyimə ağladım ki, qardaşım Cənnətə məndən tez getdi. Mən arzu edərdim ki, yüz canım olaydı, Allah yolunda bir-bir çıxaydı".*

Rum hökmdarı ona təəccüb qalır və deyir: *"Başımı öp, səni azad edim".*

O deyir: *"Bu şərtlə ki, bütün qardaşlarımı da mənimlə birlikdə buruxasan".*

Rum hökmdarı razı olur və əsirlərin hamısını azad edir. Abdullah Ömərin yanına çatıb, baş verənləri ona danışanda, Ömər Abdullahın başını öpüb deyir: *"Hər bir müsəlman Abdullah bin Hüzafə əs-Səhminin başını öpməlidir".*

Üçüncü misal: Bu misal Peyğəmbərlя ﷺ birlikdə döyüşmüş bir kişi haqqındadır.

*Peyğəmbər ﷺ o gün əldə etdikləri qənimətlərdən öz payını ona vermək istədikdə etiraz edib deyir:*

*"Ey Allahın elçisi! Mən sənə bunun üçün sədaqət andı içməmişəm, mən and içmişəm ki, ox buramdan girib, buramdan çıxsın, - o bunu deyib boynunu göstərir - və Cənnətə gedim".*

*Peyğəmbər deyir:*

*"Sən Allaha sadiq ol ki, Allah da sənə sadiq olsun".*

*Qəti qələbədən sonra kişini itirdilər. Onu axtarıb ölülər arasında tapdılar. O, doğrudan da istədiyi və Peyğəmbərə ﷺ göstərdiyi yerdən yaralanmışdı.*

Görəsən, Allahın öz qulundan rizasından və qulun öz Tanrısından, Yardandan, sevgilisindən və ən məhrəm arzusunun yerinə yetirməsindən daha böyük və şirin bir şey varmı?! Allaha and olsun ki, yoxdur.

Bəndənin Allahdan razılığına səhabələrin qəlbində olan bu razılıqdan yaxşı misal ola bilərmi? Yox, heç vaxt yox! Quranda buna misal olacaq çoxlu ayə var. Səhabələrin qəhramanlıqlarına, fədakarlıqlarına və canlarından keçmələrinə dair misallar isə daha çoxdur.

Allah taala buyurur: «*(Ya Peyğəmbər! Hüdeybiyyə səfəri zamanı bir ağacın altında beyəti-rizvanla)* **sənə beyət edənlər, şübhəsiz ki, Allaha beyət etmiş olurlar. Allahın əli onların əlləri üstündədir. Kim** *(beyəti)* **pozsa, ancaq öz əleyhinə pozmuş olar. Kim Allahla etdiyi əhdi yerinə yetirsə,** *(Allah)* **ona böyük mükafat verər!**»;

**«And olsun ki,** *(Hüdeybiyyədə)* **ağac altında sənə bəyət etdikləri zaman Allah möminlərdən razı oldu.** *(Allah)* **onların ürəklərində olanı** *(sənə sadiq olacaqlarını, əhdə vəfa edəcəklərini)* **bildi, onlara** *(Öz dərgahından)* **arxayınlıq** *(rahatlıq, səbr, səbat, mənəvi qüvvə)* **göndərdi və onları yaxın gələcəkdə qazanılacaq bir**

**qələbə ilə mükafatlandırdı»** *(əl-Fəth, 10,18)*.

Bunlar səhabələri və xüsusən onlardan Allahın elçisi ﷺ ilə başlanğıcdan yoldaşlıq edib onunla birgə hicrət edən, onu müdafiə edənləri mədh edən açıq-aşkar ayələrdir. Onlar o kəslərdir ki, hələ Məkkə müşriklərin əlində olanda Peyğəmbərlə ﷺ birlikdə Ümrə ziyarətinə getməli olmuşlar.

O vaxt Məkkəyə necə daxil olmaq olardı ki, müşriklər onları oradan qovmuşlar və müsəlmanların üzərinə basqın edib onların kökünü kəsmək, onlardan canlarını qurtarmaq, Bədr, Uhud və başqa döyüşlərdə öldürülmüş adamlarının intiqamını almaq üçün hər an fürsət gözləyirdilər.

Onlar bununla İslamı qəbul edib Məkkədəki kübarların hakimiyyətini hədələyən bir təhlükəyə çevrilmiş o qulların onlara gətirdiyi bu rüsvayçılığı yuyub təmizləmək istəyirdilər. Həm də ona görə ki, müsəlmanlar Məkkədən Şama gedən ticarət yolunu təhlükə altına almış yeni bir qüvvə kimi meydana çıxmışdılar.

Belə olduqda bəs müsəlmanlar Məkkəyə necə girəcəkdilər? Bu böyük risq idi. Amma, sən demə, çox asan… Bəli, çox asan. Çünki müsəlmanlarda Allahın elçisinə ﷺ olan inam çox yüksək idi və təhlükələr onu sarsıda bilməzdi.

Özü də Peyğəmbər ﷺ yuxuda görmüşdü ki, dostları ilə birlikdə Allahın Məkkədəki müqəddəs evini ziyarət edir. Onlar Kəbəni təvaf etdilər, bəziləri Kəbənin başına tam, başqaları yarımçıq dolandılar. O gördü ki, bu ən qədim Allah evinə qurbanlıq mal-qara və dəvələr də aparıb. Peyğəmbər ﷺ bunu səhabəsinə danışdı.

Onlar qollarını çırmayıb səfərə hazırlaşdılar. Özləri ilə nə silah, nə sursat, nə də atlarını götürdülər. Yalnız bir neçə qılıncla yola düzəldilər ki, qılınclar da qınlarında idi. Peyğəmbərin ﷺ xəbərdarlıq etdiyi kimi, döyüşmək, toqquşmaq haqqında heç fikirləşmədilər də.

Peyğəmbər ﷺ ilə, ən dəqiq məlumata görə, 1400 silahdaşı gedirdi. Bu (hadisə) Peyğəmbərin ﷺ hicrətinin altıncı ilində baş vermişdir.

Onlar Məkkəyə yaxınlaşanda Qureyş qəbiləsi onlara meydan oxudu və onların Məkkəyə daxil olmasına mane oldu.

Peyğəmbər ﷺ onlara xəbər göndərdi ki, o vuruşmağa deyil, Beytullaha təzim etmək, qurban kəsmək, onun başına dolanmaq

üçün, bir sözlə, Ümrə ziyarətinə gəlib.

Qureyş qəbiləsi Peyğəmbərin ﷺ yanına elçilər göndərdi ki, mərasimin başlanma vaxtı haqqında yalan xəbər versinlər və onu aldatmağa çalışsınlar. Onlardan biri Urva bin Məsud əs-Səqafi idi ki, qəbilə kübarlarından sayılırdı.

O, Peyğəmbərlə ﷺ danışdı və öz adamlarının yanına qayıdıb dedi: *"Camaat, Allaha and olsun ki, mən hökmdarların, qeysərlərin, kəsraların, nəcaşilərin yanında olmuşam, heç bir hökmdarın səhabələrinin ona Məhəmmədin ﷺ səhabələrinin Məhəmmədə ﷺ təzim etdiyi kimi təzim etdiyini görməmişəm.*

*Allaha and olsun ki, işdir onun tüpürcəyi onlardan birinin əlinə keçsəydi, onu üzünə və dərisinə sürtər, o onlara bir əmr etsə, onu yerinə yetirmək üçün bir-birini qabaqlayır, dəstəmaz alsa, əl-ayağının suyuna sahib olmaq üstündə az qala döyüşürlər. O danışanda onun yanında səslərini kəsirlər, ona o qədər hörmət edirlər ki, gözlərini zilləyib üzünə dik baxmırlar. O sizə düzgün yol göstərir, onu qəbul edin!"*

Peyğəmbər ﷺ öz tərəfindən Osman bin Əfvanı müsəlmanların səfiri kimi göndərdi ki, Qureyş qəbiləsi ilə danışıb Allahın elçisinin ﷺ gəlişinin məqsədini onlara anlatsın, Qureyşin bəzi kişilərinə bəzi məsələləri çatdırsın və hicrət edə bilməyib burada qalmış müsəlmanlarla görüşsün. Lakin Osman gec qayıtdı.

Görünür, Qureyş qəbiləsi onu müəyyən vaxt üçün saxlamışdı ki, onun gətirdiyi xəbərlər haqqında fikir mübadiləsi etsinlər və sonra bir rəyə gəlsinlər. Buna görə də Osman gecikmişdi.

Belə xəbər yayıldı ki, Qureyş Osmanı öldürüb. Peyğəmbər ﷺ dedi: *"Onlarla döyüşmədən buradan getməyəcəyik!"*. Sonra öz səhabələrini and içməyə dəvət etdi. Onlar həyacana gəlib onun qarşısında and içdilər ki, ölərlər, ancaq meydandan qaçmazlar.

Bu and içmə mərasimindən ikiüzlülükdə ittiham olunan əl-Cidd bin Qeys adlı bir nəfərdən başqa heç kəs kənarda qalmadı. Peyğəmbər ﷺ bu andı ağac altında qəbul etdi.

Ömər bin əl-Xəttab onun əlindən tutmuşdu, Məqil bin Yəsər ağacın budağından yapışıb onu qaldıraraq Peyğəmbərin ﷺ başı üstündən uzaqlaşdırdı. Bu andiçmə mərasimi Rizvan beyti adlanır və Allah bu mərasimdən sonra «əl-Fəth» surəsindən yuxarıdakı ayələri

nazil etmişdir.

Allahın elçisi ﷺ ağac altında and içənlər haqqında demişdir: "*Siz bu gün Yerin ən yaxşı adamlarısınız*". Yenə də onlar haqqında söyləmişdir: *"Ağac altında and içmiş adamlardan heç biri də Cəhənnəmə düşməyəcək"* (İmam Əhməddən [16] rəvayət olunur). Böyük alim, hafiz ibn Kəsir bu ayələri belə təfsir edir: **«…sənə beyət edənlər, şübhəsiz ki, Allaha beyət etmiş olurlar»** ifadəsi də Uca Allahın **«Allahın elçisinə itaət edən Allaha itaət edir»** ifadəsi mənasındadır.

**«Allahın əli onların əlləri üstündədir»**, yəni O onların yanındadır, onların danışıqlarını eşidir, yerlərini görür, gizli məqsədlərini və fikirlərini bilir. Bütün nöqsanlardan azad olan Allah öz Elçisi ﷺ vasitəsilə qəbul edir.

---

[16] İmam Əhməd bin Məhəmməd bin Hənbəl əş-Şeybani hicri 164-cü ildə anadan olmuşdur. Hədis alimlərinin imamı olmuş, 40000 hədisi əhatə edən "Kitab əl-Müsnəd"i tərtib etmişdir. Minlərlə hədis əzbər bilirmiş.

İmam əş-Şafii onun haqqında demişdir: "Bağdaddan çıxdım və orada İbn Hənbəldən pak mömin, ondan bilikli şəriət alimi, ondan daha Allahpərəst və dindar adam görmədim. Mötəzililik ideyasını qəbul etmiş Abbasi xəlifəsi Mömin zamanı ona Quranın xəlq olunmuşlardan olduğunu təsdiq etmək təklif olunmuş, o bu təklifi qəbul etməmişdir. Döyülüb həbs olunmuş, lakin sözündən dönməmişdir. Öz əsrində elmdə, Allahpərəstlikdə və paklıqda heç kəs ona bərabər olmamışdır.

Hicri 241-ci ildə cümə günü sübh çağı vəfat etmişdir. Dəfnində təxminən 800000 kişi, 600000 qadın iştirak etmişdir. İki alim oğlu olmuşdur: Saleh və Abdullah.

İmam əd-Dövrəqi soruşmuşdur: "Kiminsə Əhmədi pislikdə yad etdiyini və onu İslama xəyanətdə itttiham etdiyini eşitmisinizmi?".

Əl-Ənbəri demişdir: "İmam Əhməd hüccətdir".

Qətibə isə belə söyləmişdir: "Əhməd ümmətin imamıdır".

Əl-İcli demişdir: "İmam Əhməd hədisin təshihi üçün bir meyardır: o, Peyğəmbərin ﷺ izləri ilə gedir, Sünnəyə əməl və xeyir işlər sahibidir".

Əbu Zərə belə demişdir: "İmam Əhməd minlərlə (rəvayətlə birlikdə) hədis bilirmiş. Ondan soruşmuşlar: "Bunları haradan bilirsən?" cavab vermişdir: "Yazıb-oxumağı onlar üzərində öyrənmişəm".

Hilal bin əl-Əla deimşdir: "Allahdan bu millətə öz zamanlarında məşhur olmuş dörd şəxs bəxş olunub: "Peyğəmbərin ﷺ hədislərini dərindən bilən əş-Şafii, sınağa dözmək nümunəsi olan Əhməd (əgər bu nümunə olmasaydı, dönüb kafir olardılar), Allahın Peyğəmbərindən böhtanı uzaqlaşdırmaq üçün Yəhya bin Müəyyən, hədisləri təfsir etməyə (aydınlaşdırmağa) Əbu Ubeyd əl-Qasim bin Səlam" ("Cami" ət-Tirmizinin "Töhfət əl-Əhvəzi" şərhindən).

**«...ağac altında sənə bəyət etdikləri zaman Allah möminlərdən razı oldu»** cümləsi ilə Allah taala ağac altında Peyğəmbər ﷺ qarşısında and içən möminlərdən razı qaldığını bildirir.

**«...onların ürəklərində olanı bildi...»** – yəni sədaqətlə, vəfa və can-başla belə etdiklərini bildi.

**«...onlara arxayınlıq göndərdi...»** – onlarda özlərinə inam və etdiklərindən razılıq hissi oyatdı.

**«...onları yaxın gələcəkdə qazanılacaq bir qələbə ilə mükafatlandırdı»** – qüdrət və dövlət sahibi Allahın onların əlləri ilə onlarla düşmənləri arasında etdiyi sülhdən və bununla Xeybər və Məkkənin, və habelə başqa ölkələrin və bölgələrin fəthindən sonra əldə olunmuş davamlı və ara verməyən ümumi xeyir və onların bu dünyada və axirətdə nail olduqları qüdrət, qabiliyyət və yüksəliş nəzərdə tutulur.

Bu haqda daha bir ayə: «Məhəmməd Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar *(möminlər)* kafirlərə qarşı sərt, bir-birinə *(öz aralarında)* isə mərhəmətlidirlər. Sən onları *(namaz vaxtı)* rüku edən və səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə nişanəsidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxartmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o da möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur. *(Allahın bu təşbihi)* kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət *(günahlardan bağışlanma)* və böyük mükafat *(Cənnət)* vəd buyurmuşdur!» *(əl-Fəth, 29)*.

İbn Kəsir öz təfsirində (Bu təfsir kitabı mötəbər təfsirlərdəndir, çünki o bu təfsirdə Quranın – Quranla, səhih hədislərlə və səhabələrin təfsirləri ilə təfsirini bir yerə toplamışdır) demişdir: *"Allah taala Məhəmməd haqqında xəbər verir ki, o, həqiqətən, şəksiz və şübhəsiz Allahın elçisidir"*. Daha sonra deyir: "**«Məhəmməd Allahın Peyğəmbəridir»** cümləsi cəmi bir mübtədadan və xəbərdən, ibarət olsada bütün gözəl vəsfləri əhatə edir".

Sonra səhabələrə ﵃ dua edib onlar haqqında deyir: **«Onunla birlikdə olanlar** *(möminlər)* **kafirlərə qarşı sərt, bir-birinə** *(öz aralarında)* **isə mərhəmətlidirlər».** Onun bu fikri Qüdrət və Cəlal sahibinin **«...Allah elə bir tayfa gətirər ki,** *(Allah)* **onları, onlar da** *(Allahı)* **sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə**

**qarşı sərt olar,…»** *(əl-Maidə, 54)* kəlamına uyğundur.

Bu isə möminlərin əlamətidir ki, onlar kafirlərə qarşı sərt və amansız, əməlisaleh adamlara qarşı rəhmli və xeyirxah, kafirlərin qarşısında qəzəbli və qaşqabaqlı, öz müsəlman qardaşlarının qarşısında yumşaq təbiətli olarlar.

Allah taalanın dediyi kimi: **«Ey iman gətirənlər! Yaxınlığınızda olan kafirlərlə vuruşun. Qoy onlar sizdən sərtlik görsünlər…»** *(ət-Tövbə, 123).*

Peyğəmbər ﷺ demişdir: *"Möminlərin bir-birinə qarşılıqlı məhəbbəti, rəhmliliyi, canıyanğılığı bədən üzvlərinin qarşılıqlı münasibətinə bənzəyir: üzvlərdən biri şikayətlənsə, bütün cəsəd onun səsinə səs verib oyaq qalır və qızdırır"* (Əhməd və Müslimdən rəvayət olunur, səhih hədisdir).

Peyğəmbər ﷺ həmçinin demişdir: *"Binanın daşları bir-birinə söykənən kimi, möminlər əl-ələ verib bir-birinə dayaq olmalıdırlar"* (əl-Buxaridən, Müslimdən, ət-Tirmizidən və ən-Nəsaidən rəvayət olunur, səhih hədisdir).

Nöqsansız və Uca Allahın: **«…sən onları** *(namaz vaxtı)* **rüku edən və səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən…»** kəlamından göründüyü kimi, Allah onları işgüzar və çoxlu namaz qılan kimi təsvir edir ki, bu da ən yaxşı təsvirdir.

O onları öz ibadətlərində Qüdrətli və Böyük Allaha sədaqətli təsvir edir və çoxlu savab bəxş edən Allah taalanın bunu nəzərə alacağını, yəni onlara Allahın fəzilətlərini əhatə edən Cənnəti, ruzi bolluğunu və Özünün onlardan razılığını qismət edəcəyini bildirir. Bu razılıq ən böyük nemətdir. Qüdrətli və Böyük Allahın özünün dediyi kimi: **«…Allahdan olan bir razılıq isə daha böyükdür…»** (ət-Tövbə, 72).

Uca Allahın **«…onların əlaməti üzlərində olan səcdə nişanəsidir…»** kəlamı haqqında İbn Abbas ؓ demişdir: *"Əlaməti üzlərindədir"* ifadəsi üzlərindəki sakit ifadəyə və gözəlliyə işarədir.

Əs-Sədi demişdir: *"Namaz qılmaq üzü gözəlləşdirir".*

Bəzi sələflər belə demişlər: *"Gecə çox namaz qılanın gündüz üzü gözəl olar (görünər)".*

Onların bəziləri də belə demişlər: "Xeyir iş qəlbə nur, üzə ziya, ruziyyə bolluq gətirər, insanların qəlbində o işi görənə məhəbbət

doğurar".

Səhabələrin ﷺ Allah taala qarşısında niyyətləri saf, əməlləri yaxşı idi, onlara baxanı öz simaları və yaxşı əməlləri ilə heyran qoyardılar.

İmam Malik[17] - *rahmətullahi aleyh*- demişdir: *"Mən eşitmişəm ki, Şamı fəth etmiş səhabələri ﷺ görəndə xristianlar deyərmişlər: "Allaha and olsun ki, bunlar bizim haqlarında eşitdiyimiz yaxşı kişilər, həvarilərdən də yaxşı adamlardır"*.

Onlar belə deməkdə haqlı idilər. Həqiqətən şan-şöhrətindən söhbət açılan bu zümrədən ən ədalətlisi və ən fəzilətlisi Peyğəmbərin ﷺ səhabələridir. Uğur sahibi Uca Allah nazil etdiyi Kitablarda, dildən-dilə keçmiş rəvayətlərdə həmişə onları tərif edir.

Bu münasibətlə Nöqsansız və Uca Allah belə deyib ki: **«...Bu onların Tövratdakı vəsfidir...»**. İncildə isə onlar, cücərti, yəni zoğ verib, onu "bəslənib", yəni möhkəmlənib, "yoğunlayıb", yəni böyüyüb və uzanıb, "öz gövdəsi üstündə dayanıb əkinçini (onu əkib becərəni) heyran qoyan" bitkiyə bənzədilir.

Yəni Peyğəmbərin ﷺ dostları onu bəsləyib, ona gömək edib tərəfini saxlamışlar. Onlar sanki bitki gövdəsində zoğlar bitən kimi onun ətrafına toplaşmışlar ki, o onlarla kafirləri qeyzləndirsin.

İmam Malik bu ayədə səhabələrə nifrət edənlərin, yaxud onları

---

[17] O, Mədinə şəhərinin imamı, Quran hafizi, ümmətin fəqihi, şeyxül-islam mədinəli Əbu Abdullah bin Ənəs bin Malikdir.

İmam əş-Şafii demişdir: "Malik alimlərin içərisində ulduzdur". Habelə demişdir: "Malik və əz-Zəhri olmasaydı, Hicazın elmi əldən getmişdi".

Malik özü demişdir: "Yetmiş adam mənim fətva verməyi bacardığıma şahidlik etməyincə mən fətva vermərəm". O deyirdi: "Allah səmada, Onun elmi isə hər yerdədir; istiva (Allahın ərşin üzərinə ucalması) məlumdur, keyfiyyəti (necə ucalması) məchul; ona inanmaq vacibdir, onun haqqında sorğu-sual bidətdir".

Abdullah bin əl-Mübarək danışarkən mən də onun yanında idim. Əqrəb onu 16 dəfə sancdı, onun rəngi dəyişdi, üzü saraldı, lakin hədisin arasını kəsmədi. Adamlar gedəndən sonra mən dedim: "Bu gün səndə qəribə bir iş gördüm". O dedi: "Peyğəmbərin ﷺ hədisinə hörmət naminə dözdüm".

O, 86 il yaşamışdır. Deyildiyinə görə, hicri 93-cü ildə doğulmuşdur. O, "Kitab əl-Muvatta"nı yazıb qurtarandan sonra xəlifə istəyir ki, bu kitabı bütün İslam ümmətinə vacib buyursun. İmam Malik –rahmətullahi aleyh- buna etiraz etmişdir. Bu, onun elmdə və onun qələmə alınmasında insafına sübutdur. Çünki heç bir kitab xətasız olmur.

kafirlikdə günahlandıranların küfrünü təsdiq edən məzmun görür. O deyir: "Çünki onlar səhabələri qəzəbləndirirlər və kim səhabələri qəzəbləndirsə, o bu ayəyə inanmır".

Bir qrup alim bu məsələdə onunla razılışır (İbn Kəsirdən sərbəst üslubda gətirilmiş sitat sona çatdı).

Səhabələrin fəzilətləri və onları təhdidlərə məruz qoymaqdan imtina etməyin zəruriliyi haqqında hədislər çoxdur. Onlara elə Allahın xeyir-duası və onlardan razılığı kifayət edər.

Uğurlu və Uca Allah daha sonra demişdir ki: **«...Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət...»**, yəni onların günahlarını bağışlamağı, və **«...böyük mükafat vəd buyurmuşdur!»**, yəni çoxlu savab və bol ruzi vəd etmişdir.

Sözlərinin əvəzi, hikmətlərinin inkarı olmayan, haqlı və doğruçu Allah həm də vəd etmişdir ki, səhabələrin ardınca gedənə də Allahın razılığı qismət olar, o da onların sırasına daxil edilər. Lakin öncüllükdə, fəzilətdə və kamalda bu ümmətdən heç kəs səhabələrə çata bilməz.

Bir dəfə Peyğəmbər üzünü səmaya tutur – o tez-tez belə edərmiş – və deyir: "*Ulduzlar səmanın əmin-amanlığına zəmanətdirlər, onlar getsələr, səmada nə isə qorxulu bir şey baş verər; mən səhabələrimin əmin-amanlığına zaminəm, getsəm, onlara nə isə qorxulu hadisə üz verər; səhabələrim ümmətimin əmin-amanlığına zamindirlər, onlar getsələr, ümmətin başına qorxulu bir hadisə gələr*" (İmam Müslim öz "Səhih"ində rəvayət etmişdir).

Burada "*əmin-amanlıq*" təhlükəsizlik mənasındadır. "*Səmadan ulduzların getməsi*" Qiyamət günündən və kainatın alt-üst olmasından, Peyğəmbərin ﷺ ölümü vəhyin kəsilməsi və səhabələrə üz verəcək zəiflik və bədbəxtlikdən xəbər verir. Çünki ərəblərdən çoxu onlardan uzaqlaşmış, farslar və rumlular onların üzərinə basqın edib, dinlərini ləğv etmək üçün ordular toplamışdılar.

Səhabələr İslam ümməti üçün onların parçalanmamasına, aralarındakı narazılığın aradan qaldırılmasına, düzgün yoldan azmamalarına və məğlub olmamalarına zəmanət idilər. Allahın elçisinin ﷺ dediyi kimi: "*Bir zaman gələcək ki, insanlar ölkələri fəth edərkən onlardan soruşulacaq: "Aranızda Peyğəmbərin səhabələrindən kimsə varmı?" Deyəcəklər: "Bəli". Onda qapılar*

*onların üzünə taybatay açılacaq. Yenə bir zaman gələcək ki, insanlar ölkələr fəth edərkən soruşulacaq: "Aranızda Peyğəmbərin səhabələrinin səhabəsi olmuş bir adam varmı?". Cavab verəcəklər: "Bəli". Qapılar onların üzlərinə taybatay açılacaq. Yenə bir zaman gələcək ki, insanlar ölkələr fəth edərkən onlardan soruşulacaq: "Aranızda Peyğəmbərin səhabələrinin səhabəsinin səhabəsi olan bir kəs varmı?". Deyəcəklər: "Bəli". Qapılar onların da üzünə taybatay açılacaq*" (əl-Buxaridən və Müslimdən rəvayət olunur).

Hədisin mənası budur ki, Allah ölkələrin qapılarını Peyğəmbərin səhabələrinin üzünə açır. Onlar olmasa, onların ardıcıllarının, onlar da olmasa, ardıcılların ardıcıllarının və onların da ardıcıllarının üzünə açır.

Bəni Umeyyə qəbiləsindən olan Müaviyyə bin Süfyan kimi əmirlər də belə edərdilər. Müaviyyə bir dəfə ordu göndərəndə döyüşdən qabaq ordunun sərkərdəsinə əmr edərdi ki, vaxtı ilə Peyğəmbərə ﷺ səhabəlik etmiş adamlardan biri gəlib Allaha yalvarıb-yaxarsın ki, O onlara qələbə göndərsin.

Bu, Peyğəmbərin ﷺ aşağıdakı hədisinin mənasına uyğun gəlir: "*Məni görmüş adama, yaxud məni görmüş adamı görmüş adama od toxunmaz*" (ət-Tirmizidən rəvayət olunan həsən hədisdir).

Buna görə də onları sevmək bizə vacibdir. Bu, imandandır. Bu mənada imam Müslimin "Səhih" adlı hədislər toplusunda Əbu Hüreyrədən رضي الله عنه rəvayət olunan səhih hədisi misal gətirmək kifayət edərdi. Orada deyilir: "*Peyğəmbər dedi: "Səhabələrimi söyməyin, səhabələrimi söyməyin! Mənim ruhum əlində olan Allaha and olsun ki, sizlərdən biriniz Uhud dağı boyda qızıl da xərcləsə, bu onların xərclədiyinin bir müddünə (kiçik həcm vahidi), heç müddünün yarısına da bərabər ola bilməz*".

Bu hədisin yaranmasına Xalid bin əl-Validin Abdur-Rəhman bin Aufu söyməsi olmuşdur. Belə ki, Xalid bin əl-Valid Məkkənin fəthi günü İslamı qəbul etmiş, Abdur-Rəhman bin Auf isə çoxdan Əbu Bəkr əs-Siddiqin vasitəçiliyi ilə müsəlman olmuşdu. Abdur-Rəhmanın səhabəliyi Xalidinkindən - *Allah onların hər ikisindən razı olsun!*- daha əvvəldir. Peyğəmbər ﷺ Allah yolunda cihad edərkən, o da onunla birgə olmuşdur.

Xalid bin əl-Validin də Peyğəmbəri ﷺ şəxsən görmüş və onunla

birlikdə cihadda iştirak etmiş səhabə olmasına baxmayaraq, Peyğəmbər ﷺ ona deyir ki, əgər kimsə dağ boyda qızıl belə xərcləsə, bu, Allahın elçisinin ilk silahdaşlarının xərclədiyi bir ovuc quru xurmaya, yaxud onun bir, hətta yarım dənəsinə bərabər ola bilməz.

Onda Peyğəmbəri ﷺ görməmiş, onunla birlikdə cihad etməmiş bizlər bu haqda nə deyə bilərik? Allah taala bu məsələni özünün əzəmətli bəyanatı ilə aydınlaşdırmışdır.

Qüdrətli və Böyük Yaradan demişdir: **«Sizlərdən fəthdən əvvəl** *(Allah yolunda)* **sərf edənlər və vuruşanlar** *(başqaları ilə)* **eyni deyillər. Onlar fəthdən sonra sərf edib döyüşənlərdən dərəcə etibarı ilə daha üstündürlər. Bununla belə, Allah onların hamısına ən gözəl mükafat vəd buyurmuşdur. Allah sizin nə etdiklərinizdən xəbərdardır!»** *(əl-Hədid, 10).*

İslam dininə mənsub bir kəsin səhabələrə tənə etdiyini eşidəndə və oxuyanda adam daha çox təəccüblənir. Özünün Məhəmməd Sünnəsinin əleyhinə yazdığı "Əzva" ("İşıqlar") əsərində Əbu Hüreyrəni رضي الله عنه tənqid edən Əbu Rəyyə, bu mövzuda bir kitab yazmış, yaxud yazılıb ona aid edilmiş, lakin sonra doğru yola qayıtmış Məhəmməd ət-Ticani əs-Səmavi belələrindəndir.

Müsəlman qardaşım, mənim səndən istədiyim odur ki, «əl-Fəth» surəsindən yuxarıda gətirilmiş 29-cu ayəyə nəzər salıb aşağıda göstərilən məsələlər haqqında fikirləşəsən və özün bir nəticə çıxarasan:

ayə Peyğəmbərə dua və onun həqiqətən Allahın elçisi olduğu qərarı ilə başlandı;

onunla birlikdə olub bilvasitə ondan sonra gələnləri, İslamda, imanda, əxlaqda, cihadda, məhəbbətdə və ibadətdə onunla yanaşı olanları qeyd etdi;

onların bir ümmətin əlamətlərini özlərində cəm etdikləri, kafirlərə qarşı amansız, bir-birinə qarşı rəhmli olduqları, bunun əsasında imanın dayanması bəlli oldu;

onların əməllərinin və niyyətlərinin Allah taala ilə bağlı olduğu, bu dünyanın nə özünü və nə də zinətini istəmədikləri, yalnız Allahın fəzilətini və razılığını dilədikləri məlum oldu;

üzlərində mütilikdən, ləyaqətdən, Allah qorxusundan, sədaqət və

nurdan ibarət xeyirxahlıq və ibadətin əks olunması aydın oldu;

bu əməllərə və sifətlərə malik adamların Allah tərəfindən hələ səhabələrin özlərinin xəlq edilməsindən əvvəl əvvəlki peyğəmbərlərin ümmətlərinə nümunə olmaq üçün göndərildiyi bildirildi. Həmin adamlar bütün tarix boyu məlum olan peyğəmbərlərin ardıcıllarının ən yaxşıları olmuşlar. Buna görə də, Allahın istədiyi kimi, səhabələr də bizə yaxşı bir nümunə olmalıdırlar;

onlar onları sevənlərin, onlara ehtiram edənlərin, onların fəzilətlərini və dindəki yerlərini bilənlərin xoşuna gəlirlər. Kafirlər, pis əməl sahibləri və düzgün yoldan azanlar isə onların əməllərindən və Allahın onlara göstərdiyi xeyirxahlıq və fəzilətdən, habelə onlardan razılığından qəzəblənirlər;

biz bu ayədən yəqin etdik ki, səhabələr bir-birini qarşılıqlı surətdə sevən qardaşlar kimi olmuş, bir-birinə qarşı həmişə təvazökarlıq göstərmiş və müti olmuşlar. İman onları elə böyütmüş və tərbiyələndirmişdi ki, hər bir qardaş öz qardaşına münasibətdə mütilik göstərir, ona təkəbbürlə yanaşmır, paxıllıq etmir, ona qarşı hiylə işlətmir, pislik etmirdi. Onların arasında bunun əksi olan bir hal baş verərsə, deməli arada onların özündən olmayan birisi var imiş ki, onların arasındakı münasibətləri pozur.

Bu deyilənləri bizim üçün tarix qoruyub saxlamışdır. Məsələn, Abdullah bin Səba bin əs-Sövda özü yəhudi olmuşdur. O, hiylə ilə İslamı qəbul edib, xilafəti yıxmaq və müsəlmanlar arasında təfriqə salmaq üçün gizli bir dəstə düzəltmişdir. Avam adamlar onun səhabələr arasında müharibə qızışdırmaq hiyləsinə uymuş və öz istədiyinə nail olmuşdur. Kafirlərə Allah lənət eləsin!

Guya səhabənin bu böyük şəxsiyyəti sürgün etmək istəmələrini yazıb ümməti aldatmağa çalışan bəzi müəlliflərin fikrinin əksi olan hədis burada təfsilatı ilə misal gətiriləcək.

Onun adını çəkib bəd əməllərindən danışılmış kitablar kifayət qədərdir. Hətta möminlərin əmiri Əli bin Əbu Talib onu axtarıb tapmaq istəmişdir ki, yandırsın. Çünki o, onun haqqında şayiə yaymışdır ki, o, yəni Əli bin Əbu Talib, Allah eləməmiş, ilahidir (tanrıdır). Bundan sonra ibn Səba İraqdan ölkələrə qaçıb gizlənmiş, İslam ümmətini parçalamaq işini gizli davam etdirmiş və möhtərəm səhabələrin guya Peyğəmbər ﷺ özündən sonra xilafəti Əli bin Əbu

Talibə tapşırması haqqında vəsiyyətinə xəyanət etdiklərini iddia edərək onları kafirlikdə günahlandırmışdı. Onun iddiasına görə, Əbu Bəkr və Ömər *-Allah onların hər ikisindən razı olsun!-* səhabələrin başqaları ilə gizli danışığa girib, Allah eləməmiş, xilafəti ələ keçirmiş və Quranda adı çəkilən və Peyğəmbərə ﷺ tövsiyə etdiyi Əmirəlmömininini hakimiyyətdən uzaqlaşdırmışlar.

Guya Allah da bu işin qəbahət olduğunu təsdiq edir. Guya elə buna görə də o və onun gizli dəstəsi yalançı hədislər uydurmağa və əlindən gələn hər şeyi etməyə məcbur olmuşlar.

Tarixçilərin Abdullah bin Səba haqqında yazdıqlarına baxaq.

Birinci: rafizi alimlərinin, hədis bilicilərinin və tarixçilərinin yazdıqları kitablarda və mənbələrdə: Rafizilяrin əsas kitabları İbn Səbanın şəxsiyyətini tamamilə açıq-aydın göstərmişdir. Belə ki, hicri üçüncü əsrdə əl-Həsən bin Musa ən-Növbəxti Abdullah bin Səbanı "Firəq əş-şiə" kitabında xatırladaraq deyir: "Əli əleyhis-səlamın səhabələrindən olan elm adamlarından bir qrupu demişlər ki, Abdullah bin Səba əvvəllər yəhudi olmuş, sonra İslamı qəbul edib Əli əleyhissəlama yaxınlıq etmişdir", "O, yəhudi ikən deyirdi ki, Yuşə bin Nuh Musadan sonra vəliəhddir. Əli əleyhissəlamın imamlığının fərz olması fikrini də birinci o yaymışdır. O, onun düşmənlərinin günahlarını üzə çıxarmış, müxalifləri haqqında məlumat vermişdir".

Yazıçı əlavə olaraq yazır: "O, Əbu Bəkr, Osman və digər səhabələri rüsvay etmiş və özü də onlardan uzaqlaşmış, sonra demişdir ki, bunu ona Əli əliyhessəlam əmr etmişdir. O, Əlinin رضي الله عنه ilahiliyini və tanrılığını söyləyən adam olmuşdur" *(əl-Həsən bin Musa ən-Növbəxti, "Firəq əş-şiə", 44)*.

Həmin sözü tarixçi və hədis bilicisi Abu Amr Məhəmməd bin Ömər bin Abdul-Əziz özünün "Rical əl-Kəşşi və tənqih əl-məqal" kitabında həmin sözü belə deyir: «Mən Əbu Abdullahın (imamlarından birinin) belə dediyini eşitmişəm: *"Allah Abdullah bin Səbaya lənət eləsin! O, Əmirəlmömininin tanrı olduğunu iddia edir. Bizə böhtan atanlara ar olsun! Sən bir millətə bax ki, bizim haqqımızda özümüz haqqımızda demədiklərimizi deyir. Bizi onlardan Allah qorusun!"»*.

Həmin kitabın 7-ci cildinin 98-ci səhifəsində yenə buna bənzər

sözlər var.

İmam Nemətullah "Ənvar nemaniyyə" adı ilə məşhur olan kitabının birinci cildinin 207-ci səhifəsində deyir: *"Deyildiyinə görə o yəhudi olmuş, sonra İslamı qəbul etmişdir. Yəhudi ikən, özünü müsəlman kimi qələmə verəndən sonra Əli haqqında dediyi kimi, Yuşə bin Nuhun Musa əleyhissəlamın vəliəhdi olduğunu deyirmiş"*.

İzah olunan bu rəvayətlər bəzi həqiqətlərə işarə edir:

- Abdullah bin Səba yəhudi olmuşdur;
- Əli əleyhissəlamın ﷺ imamlığı istilahının əsasını o qoymuşdur;
- o, səhabəyə ləkə yaxan, böhtan atan və onlardan uzaqlaşan, onları kafirlikdə töhmətləndirən birinci şəxs olmuşdur;
- o, İraqda üsuliddin kafedrasının dekanı professor Mürtəza əl-Əskəri, professor Mənzur əl-Pakistani, həmçinin misirli ədib-doktor Taha Hüseyn kimi bəzi müəlliflərin iddia etdikləri kimi uydurma şəxsiyyət deyil;
- məhz o, Əlinin *-radıyallahu anhu-* ilahiliyi nəzəriyyəsinin və onun Qiyamət günündən əvvəl öz düşmənlərindən intiqam almaq üçün dirilib gələcəyi fikrinin əsasını qoymuşdur. "Düşmənlər" isə o adamlardır ki, aralarında raşidi xəlifələr də olmaqla, neçə-neçə nəsillərin zamanında İslam ümmətinə başçılıq etmişlər.
- üç raşidi xəlifənin hakimiyyəti Əli bin Əbu Talibin ﷺ əlindən almasını iddia edən birinci adam da odur.

<u>*İkinci*</u>: Abdullah bin Səba şərqşunasların əsərlərində:

Misal üçün Vilyam Meyorun "Xilafət, onun şöhrətlənməsi və qürubu" adlı kitabını təqdim edək. Belə ki, o deyir (səh. 216, 217): "İbn əs-Sövda kimi tanınmış İbn Səba Ərəbistan yarımadasının cənubunun sakinlərindən olub, yəhudi idi, özünün müsəlman olduğunu elan etmişdir. Lakin o öz dövrünün hökumətinə qarşı inqilabi fikirlər bəsləməklə üzə çıxmışdı. Buna görə də inqilabi fikirləri üstündə bir neçə dəfə cəzalandırılıb, Kufə və Dəməşq şəhərlərinə sürgün edilmişdi. Axırda Misri özünə mərkəz seçmiş, burada İslam əqidələrinə zidd fikirlərini yaymağa başlamışdı. Bunlara belələri daxildir:

- Məhəmmədin də İsa kimi bir daha bu dünyaya qayıdacağı; Əlinin Peyğəmbərin vəliəhdi olması;

– xəlifə Osmanın xilafəti ələ keçirməsi;

– haqq və ədalətin onun hakimiyyətinin devrilməsini tələb etməsi və s. Həqiqət bundan ibarətdir ki, bu fikirlər bəzi adamların şüurunda özünə yer tapırdı”.

Professor Nikelson özünün “Tarix əl-ərəb” (səh. 215) kitabında Abdullah bin Səbaya xüsusi fəsil həsr etmişdir. O, orada deyir: «Abdullah bin Səba Yəmən Sənasının sakinlərindən olub, Osmanın zamanında özünün müsəlman olduğunu elan etmişdir, əslində yəhudi idi.

Tarixçilər deyirlər: *“O, Hicaza, Bəsrəyə, Kufəyə səfər etmiş, axırda Misirdə sakin olub İsanın ricəti (qayıdışı) kimi Məhəmmədin də ricəti haqqında qızğın təbliğata başlamışdır. İnandırmağa çalışmışdır ki, min peyğəmbər və hər peyğəmbərin də öz vəliəhdi olub, Əli də Məhəmmədin vəliəhdidir. Əbu Bəkr, Ömər və Osman birləşib xilafəti Əlinin əlindən almışlar”».*

Bu haqda əlavə məlumat üçün “Kitab əl-ibanə ən üsul əd-diyanə” kitabının (səh.7-8) tərcüməçisi şərqşünas alim Eatersi Klininin, “Hindistan şiələri” kitabının müəllifi Ci En Tahalstinin (kitabın birinci cildində), həmçinin ingiliscə “Ərəb tarixi” (səh. 248) kitabının müəllifi doktor Hettinin yazdıqlarını oxumaq maraqlı olardı.

Qəribədir ki, əvvəldə gördüyün kimi, tarix boyu səhabələrin pak və təmiz tarixini eybəcər hala salmaq istəyənlər olmuşdur. Onlar unutmuşlar ki, bu tarixə Allah Özü şahidlik etmiş, Onun elçisi də Tanrısının şahidlik etdiyi tarixi təsdiqləmişdir.

Peyğəmbərin ﷺ səhabələr haqqında nə fikirdə olduğu Müslimin rəvayət etdiyi bu səhih hədisdən bilinir: “*Sizin ən yaxşılarınız mənim yaşıdlarımdır (müasirlərimdir), sonra onlardan sonra gələnlər, sonra da onlardan sonra gələnlər… Onlardan sonra elə bir tayfa olacaq ki, soruşulmamış şahidlik edəcəklər, xainlik etdiklərindən onlara etibar olunmayacaq, nəzr deyib verməyəcəklər, bədənlərini piy basıb yağı üzə çıxacaq*” (Müslimin “Səhih”inin müxtəsər variantı, 1743).

İbn Səbanın dəvətini rədd edib Allahdan nazil olmuş qiymətli Kitaba və Allahın o Kitabda səhabələrin üstünlükləri və yaxşı cəhətləri haqqında etdiyi şahidliklərə inanan bütün həqiqi İslam alimləri də

onların fəzilətlərinə və xeyirxahlıqlarına şahidlik etmişlər.

Görkəmli alimlərin bəzi fikirlərini misal gətirmək yerinə düşərdi.

Birinci. Peyğəmbərin ﷺ böyük səhabələrindən olmuş Abdullah bin Məsudun dediklərini dinləmək maraqlı olar. O özü uzun ömür sürüb öz müasirlərindən sonra çox yaşamış, Kufədə və Bağdadda İslamı yaymışdır. Onun böyük elmi dərnəkləri olmuş və o bu dərnəklərdə adamlara elm öyrətmişdir.

O demişdir: "Allah Öz qullarının qəlblərinə baxıb, Məhəmmədin ﷺ qəlbinin Öz qullarının qəlblərindən ən yaxşısı olduğunu görmüş və onu təmizləyib Özü üçün seçmişdir. Ona görə də Məhəmmədin ﷺ Öz risaləsini (tapşırığını) insanlara çatdırmaq üçün Özünün elçisi etmişdir. Məhəmmədin ﷺ qəlbindən sonra başqa qullarının qəlblərinə baxmış, səhabələrin qəlblərinin Öz qullarının qəlblərindən ən yaxşıları olduğunu görmüşdür. Beləliklə, onları Öz peyğəmbərinin vəzirləri etmiş, onlar Onun dini uğrunda döyüşmüşlər. Demək, müsəlmanlar nəyi yaxşı hesab edirlərsə, o şey Allah yanında da yaxşıdır; müsəlmanlar nəyi pis hesab edirlərsə, o şey Allah yanında da pisdir. O cümlədən Məhəmmədin ﷺ səhabələri bütünlüklə (yekdilliklə) Əbu Bəkrin xəlifə olmasını istəmişlər" *(ət-Təyalisinin və İmam Əhmədin öz hədis toplularında verdikləri həsən isnadlı hədislərindəndir)*.

Xatib əl-Bağdadi[18] özünün "Əl-kifayə" əsərində (səh. 48) Əhməd bin Muhəmməd bin Süleyman ət-Tustərinin belə dediyini göstərir: *«Mən Əbu Zərə ər-Razinin[19] belə dediyini eşitmişəm: "Kimi*

---

[18] O, böyük hafiz və imam, Şamın və İraqın hədis bilicisi. Əbu Bəkr Əhməd bin Əli bin Mehdidir. Bir sıra əsərlərin müəllifidir. Hicri 392-ci ildə doğulmuşdur. İbn Makula onun haqqında demişdir: "Xətib Əbu Bəkr Peyğəmbərin hədislərini bilənlər, yadda saxlayanlar, mənimsəyənlər və təshih edənlərdən, səbəbini incəliklə izah edənlərdən, səhihini qəribindən, fərdini münkərindən və mətruhundan ayırmağı bilənlərdən axırıncı idi. Bağdad İmam əd-Darəqütnidən sonra onun kimi bir alim yetişdirməyib. Hörmətli, etibarlı, gözəl nitqli bir şəxs idi. Hicri 463-cü idə vəfat etmişdir, Allah ona rəhmət eləsin! ("Töhfət əl-Əhvəzi"nin müqəddiməsi, 173)".

[19] İmam Əbu Zərə ər-Razi: Abdullah bin Əbdülkərimdir. Hədisi Misirdə, Şamda, Məkkədə, Mədinədə və Xorasanda öyrənmişdir. Yaddaşda, zəkada, dində, sədaqətdə, elmdə və əməldə dövrünün alimlərindən idi. Alimlər onun yaddaşını müasiri İmam Əhmədin yaddaşına bənzədirdilər. İbn Rahveyh deyirdi ki, Əbu

*Allahın elçisinin səhabələrindən birinin əleyhinə danışdığını görsən, bil ki, o, zındıqdır. Çünki bizim Peyğəmbərimiz də, Quranımız da haqdır. Şübhəsiz Quranı və Sünnəni bizə çatdıran Allahın elçisinin səhabələridir və onların əleyhinə danışanlar da, şübhəsiz, bizim görkəmli adamlarımızı ləkələməklə Quranı və Sünnəni batil etmək və yaralamaq onlar üçün daha asandır. Odur ki, onlar zındıqdırlar"».*

Ət-Təbərani, əd-Daraqutni və bir çox elm adamı Ömər bin Abdul-Əzizin[20] öz valilərindən birinə belə yazdığını göstərmişlər: "Sonra isə mən sənə məsləhət görürəm ki, Allahdan qorxub Onun elçisinin Sünnəsinə əməl edəsən, onun əmrini heç nə artırmadan yerinə yetirəsən, onun Sünnəsinə qarşı çıxan, ona əhəmiyyət verməyən qondarmaçıların bidətlərini tərk edəsən.

Sonra, bil ki, elə bir bidət olmamışdır ki, ondan əvvəl onun batilliyinə dəlil olan bir şey olmasın. Sənin borcun isə Sünnəyə riayət etməkdir. Çünki Sünnəni qoyub getmiş şəxslər onun əleyhinə olan təhrif və səhvləri, xətaları və onun dərinliyini bilmiş və bunların hamısını nəzərə almışlar.

Allaha and olsun ki, onlar – yəni səhabələr daha güclü işlər görməyə, daha kəskin əməllər işləməyə qadir idilər. Yəni onların dinə əlavələr etməyə də gücləri çatardı. Lakin onlar dinə hamıdan düzgün əməl edirdilər. Sizin öhdənizə götürdüyünüz hər hansı bir işi fəzilət sayırsınızsa, bilin ki, onlar həmin işi sizdən daha yaxşı bacarar və daha yaxşı yerinə yetirərdilər. Çünki onlar hər bir xeyir işdə hamıdan birinci olmuşlar. Deyə bilərsən ki, onlardan sonra da xeyir işlər görülmüşdür".

Onu bəlkə də möminlərin yolu ilə getməyə, onların yolundan

---

Zərənin bilmədiyi hədisin əsli yoxdur. Əbu Zərə özü demişdi: "100000 hədisi başqaları "İxlas" surəsini bilən kimi bilirəm". Hicri 200-cü ildə anadan olmuş və 264-cü ildə vəfat etmişdir. Allah taala ona rəhmət eləsin! ("Töhfət əl-Əhvəzi", səh. 366).

[20] Əd-Daraqutni: Məşhur hafiz Abulhəsən Əli bin Ömər əl-Bağdadidir. "Sünnələr" kitabının müəllifidir. Təvəllüdü hicri 306-cı ildir. Tarixçilər onun haqqında demişlər: "Əl-Daraqutni yaddaşda, başa düşməkdə və Allahpərəslikdə əsrinin yeganəsi, qiraətdə və qrammatikada imamdır. Saysız-hesabsız əsərləri var. Fəqihlərin məzhəbləri haqqında mükəmməl məlumata malik idi, şairlərin divanlarını əzbər bilirdi. Hicri 385-ci ildə vəfat etmişdir. Allah ona rəhmət eləsin!"

sapan və onlara nifrət edən bir kəs etmişdir və yəqin ki, onlar (səhabələr), artıq o iş haqqında kifayət qədər danışmış, onu tamam-kamal təsvir etmiş, harada baş verib, harada baş vermədiyini söyləmişlər.

Beləliklə, bu haqda onlardan az bilən və pis danışan hər kəs müqəssir olduğu kimi, onlardan çox bildiyini iddia edən və bu haqda daha çox danışan hər kəs də bacarıqsızdır. Yəni kim onlar haqqında danışarkən bir kəlmə əksildir, müqəssirdir, kim ki, bir kəlmə artırır, onları bəyənmir, demək onların əqidələrinə hücüm edir. Onların dinini ixtisar edənlər üçün deyilir ki, o, dinin ətəyini kəsib gödəldib. Acgözlük etmiş başqaları üçün deyilir ki, onlar hədlərini aşıb ifrata varıblar.

Böyük alim İbn Kəsir "Əl-bidayə və ən-nihayə" kitabının 9-cu cildinin 225-ci səhifəsində bu sözlərin sahibi haqında deyir: "Allah İbn Abdul-Əzizə rəhmət eləsin! Yalnız və yalnız səhabələrin əqidəsinə və əməllərinə iman və məhəbbətlə dolu qəlbdən gələn bu sözlər nə gözəldir!".

Xatib əl-Bağdadi Ömər bin Abdul-Əzizin belə dediyini rəvayət edir: "Peyğəmbər ﷺ və ondan sonra onun xəlifələri qanunlar vermişlər. Onlara riayət etmək – Allahın Kitabını təsdiq etmək və Allaha itaət etmək deməkdir. Heç kimin onları dəyişməyə, əvəz etməyə onların əksinə hərəkət edən bir adamın rəyinə nəzər salmağa haqqı yoxdur. Kim bu qanunlara əməl etsə, düzgün yolda olar, kim dünyaya onların gözü ilə baxsa, uzağı görər (hər şeyi başa düşər). Kim onların əksinə hərəkət etsə və möminlərin yolundan başqa bir yolla getsə, Allah ona layiq olduğu cəzanı verər, onu Cəhənnəmdə yandırar və o adamın taleyi pis olar".

Səhabələrin bir-birini sevən adamlar, bir-birinə qardaş, Allahın Kitabının bir aydın ayəsində deyildiyi kimi, Qüdrət sahibi Allahın şahidliyi ilə, bir-birinə köməkçi olduqları haqqında uca Allah buyurur:

**«İman gətirib hicrət edənlər, Allah yolunda malları və canları ilə cihad edənlər** *(mühacirlər)* **və** *(Peyğəmbərlə mühacirlərə)* **sığınacaq verib kömək göstərənlər** *(ənsar)* **– məhz onlar bir-birinə dostdurlar** *(varisdirlər)***»** *(əl-Ənfal, 72)*.

Alim İbn Kəsir bu ayənin təfsirində deyir: «Allah taala möminləri siniflərə ayırmış və onları öz diyarlarından çıxıb mal-

dövlətlərindən əl çəkib Allahın dinini bərqərar etməkdə Onun və Onun elçisinin köməyinə gəlmiş və bu işdə öz mallarını və canlarını əsirgəməmiş mühacirlərə və ənsarlara bölmüşdür ki, onlar da o zaman öz mühacir qardaşlarına öz mənzillərində sığınacaq vermiş, mallarını onlarla bölüşmüş, döyüşdə Allahın və Onun elçisinin ﷺ köməyinə yetişmiş Mədinə sakinlərindən olan müsəlmanlardır.

Bunlar bir-birinin varisləridirlər, yəni onlardan hər birinin digəri üzərində hər hansı başqa bir adamdan haqqı çoxdur. Buna görə də Peyğəmbər ﷺ mühacirlər və ənsarlar arasında qardaşlıq yaratmışdır. Onlardan iki nəfər bir-birinə qardaş olmuşlar. Bununla da onlar əvvəlcədən qohumluq qaydasında mallarını bir-birinə miras edirdilər.

Allah Özü onları qardaş etmiş, onları bir ana bətnindən gəlmiş övladlar kimi miras və vərəsəlik ehkamı ilə bir-birinə bağlamışdır. Bəli, onlar bir ana bətninin - nübüvvətin (peyğəmbərlik risalətinin) övladlarıdır və bu ana bətnində Allahın elçisinin ﷺ köməyi ilə böyümüş və tərbiyə olunmuşlar.

Bu yerdə ənsarlarla mühacirlərin qardaşlığının imam əl-Buxarinin öz "Səhih" adlı hədislər toplusunda *("Fəth əl-Bari", 7-ci cild, səh. 141)* rəvayət etdiyi mənzərəsini misal gətirək: "Bu, Peyğəmbərin ﷺ Abdur-Rəhman bin Auf ilə Sad bin ər-Rabini qardaşlaşdırdığı zaman baş vermişdir. Sad bin ər-Rabi Abdur-Rəhmana demişdir ki, mən ənsarların ən dövlətlisiyəm, malımı səninlə yarı bölürəm". "Mənim isə iki arvadım var" – deyə o biri təklif etmişdir. "Bax gör xoşuna hansı gəlir, mənə de onu boşayım, iddəsi çıxandan sonra sən ona evlən".

Belə olduqda Sad demişdir: "Sənə çatan mal da sənin olsun, arvadın da. Allah sənin ömrünü onlarla birlikdə uzun eləsin! De görüm bazarınız haradadır?"

Ona Bəni Qeynuqa bazarını göstərmişlər.

Buna görə də Peyğəmbərin ﷺ onları mədh etməsi və onlar üçün belə dua etməsi təəccüblü deyil: *"Allahım Sənə yalvarıram! Ənsarları, ənsarların övladlarını və onların övladlarının övladlarını bağışla!"* (Müslimin "Səhih"inin müxtəsər variantı, № 1724).

Peyğəmbər ﷺ həmçinin demişdir: *"Ənsarları yalnız mömin adam sevər, yalnız münafiq (riyakar) onlara nifrət edər. Kim onları*

*sevsə, Allah da onu sevər, kim onlara nifrət etsə, Allah da ona nifrət edər”* (əl-Buxarinin “Fəth əl-Bari” şərhi, 7-ci cild, səh. 142; “Mənaqib əl-ənsar” kitabı).

Ənsarlar əkinçi, mühacirlər tacir idilər. Lakin onların heç bir malı yox idi.

Əl-Buxarinin “Səhih”inin şərhinin 141-ci səhifəsində böyük səhabə Əbu Hüreyrədən bu məzmunda bir rəvayət verilir: *«Ənsarlar Peyğəmbərə demişlər: “Xurma bağlarını bizimlə onlar arasında böl”. Peyğəmbər onlara “Yox!” – cavabı verəndə onlar demişlər: “Onda qoy bizə işləməkdə kömək edib məhsula şərik olsunlar”. Peyğəmbər razı olmur. Onda ənsarlar deyirlər: “Eşitdik və itaət etdik!”».*

Bu belə olur: Ənsarlar Peyğəmbərdən ﷺ öz xurma bağlarını onlarla mühacirlər arasında, mühacirlər orada işləsinlər deyə bölməyi xahiş edirlər. Peyğəmbər ﷺ deyir: *“Bəli, siz öz xurma bağlarınızda işləyəcəksiniz, mühacirlər isə sizə məhsulda şərik olacaqlar”.* Belə olduqda onların: “Eşitdik və itaət etdik” – deməkdən başqa çarələri qalmır.

Mühacirlərdən və ənsarlardan ibarət səhabələr Peyğəmbər ﷺ onlara bir əmr edərsə, Allah taalanın onlar haqqında əl-Bəqərə surəsinin 285-ci ayəsində xəbər verdiyi kimi, onu dərhal icra edərdilər: **«Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə inanmış və möminlər də iman gətirmişlər.** *(Onların)* **hamısı Allaha, Onun mələklərinə, kitablarına və bütün peyğəmbərlərinə iman gətirərək dedilər: “Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq. Eşitdik və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla!…”».**

Beləliklə, Peyğəmbərin ﷺ onlara verdiyi tərbiyə Allahın və Onun elçisinin əmrinə sözsüz tabe olmaq olmuşdur.

Səhabələrin Allaha və Peyğəmbərə ﷺ itaət mənzərələrindən başqa birinə fikir verək:

Abdullah bin Məsud demişdir: «Miqdad bin əl-Əsvədlə bağlı elə bir əhvalatın şahidi oldum ki, o dediyi sözə görə mənim ən sevimli dostum oldu. Bu o zaman baş verdi ki, Qureyşin Bədrə yollandığı və Əbu Süfyanın öz adamları ilə birlikdə xilas olduqları xəbəri Peyğəmbərə ﷺ çatdı.

O bu zaman öz adamları ilə məsləhətləşdi. Əbu Bəkr ayağa qalxıb öz sözünü dedi, o bəyəndi. Sonra Ömər qalxıb öz fikrini söylədi, yenə də Peyğəmbər ﷺ bəyəndi. Sonra Miqdad qalxdı və belə dedi: "Musanın, qövmü ona deyən kimi demirik: "Sən öz Tanrınla birlikdə gedib döyüşün". Sən bizimlə Bərk əl-Ğamada (Yəmən hüdudunda çox uzaq səhra sahəsidir, çox narahat və isti yer olduğu üçün ərəblər ora getməyə qorxurdular) da getsən, səni haqla Göndərənə and olsun ki, biz sənin sağından və solundan, qabağından və arxandan hücuma keçib səninlə birlikdə Onun iştirakı olmadan cihad edəcəyik".

Ənsarların başçısı Sad bin Muaz dedi: *"Ey Allahın elçisi, yoluna davam et, sən nəyi əmr etsən, biz səninləyik"»* ("Fəth əl-Bari" 7-ci cild, səh. 365).

Mühacirlərdən və ənsarlardan olan səhabələrin mövqeyi bu idi. Müşrik-ərəblər, Bəni Qeynuqa, Bəni Nəzir qəbilələrinin və Xeybər qalasının yəhudiləri və bədəvilər hər tərəfdən tökülüşüb müsəlmanların üzərinə yeridilər ki, onların kökünü kəsib birdəfəlik yox etsinlər. Şəhərdə qorxulu xəbərlər yayılmağa başladı. Kafirlər Mədinəni hər tərəfdən güclü mühasirəyə aldılar. Yemək və su tükəndi, ərzaq yolu tamilə kəsildi iş dayandırıldı, böyüklər də, kiçiklər də qorxuya düşdülər, heyvanlar həlak oldu. Bu zaman Salman əl-Farisi Allahın elçisinə ﷺ Mədinə ətrafında xəndək qazmağı məsləhət gördü. Peyğəmbər Salmanın – *radıyallahu anhu*- məsləhətini yerinə yetirməyi əmr etdi.

Səhabələr aclığa, qorxuya və çətinliyə baxmadan xəndək qazmağa başladılar. Onların gecə-gündüz cidd-cəhdlə işlədiklərini görən Peyğəmbər ﷺ dedi: *"Ey Allah, bu ki, axirət həyatıdır! Ənsarları və mühacirləri bağışla!" (əl-Buxari, "Səhih", "Mənaqib əl-ənsar" fəslindən).*

**«Yaralandıqdan sonra Allahın və Peyğəmbərinin dəvətini qəbul etmiş şəxslərdən yaxşı işlər görüb pis işlərdən çəkinənləri böyük bir mükafat gözləyir! O kəslər ki, xalq onlara: "Camaat sizə qarşı** *(qüvvə)* **toplamışdır, onlardan qorxun!" – dedikdə,** *(bu söz)* **onların imanı daha da artdı və onlar: "Allah bizə bəs edər. O nə gözəl vəkildir!" – deyə cavab verdilər. Sonra da Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan**

**geri döndülər və Allahın razılığını qazanmış oldular. Həqiqətən, Allah böyük bir fəzilət sahibidir»** *(Ali-İmran, 172-174)*.

Bu ayənin nazil olması səbəbi odur ki, Əbu Süfyan Uhud döyüşündə müsəlmanlara məğlub olduqdan sonra öz adamları ilə birlikdə Məkkəyə qayıtdı və belə qərara gəldilər ki, Mədinəyə qayıdıb bütünlüklə müsəlmanların kökünü kəssinlər.

Peyğəmbər ﷺ bundan xəbər tutdu. Müsəlmanlar da yaralarının ağrılarından inildiyə-inildiyə sakit oturmamışdılar. Peyğəmbər ﷺ onları Əbu Süfyanın üzərinə döyüşə göndərdi, özünə və ailəsinə Allahın salavatı və olmuş Peyğəmbər, Əbu Bəkr əs-Siddiq, Ömər, Osman, Əli, Zubeyr, Sad, Təlha, Abdur-Rəhman bin Auf, Abdullah bin Məsud, Huzeyfə bin əl-Yəməni, Əbu Ubeyd bin əl-Cərrah da daxil olmaqla yetmiş adamla yola düşdü.

Onlar Əbu Süfyanı axtarmaq üçün getdilər. Adamlar onları böyük dəstələrlə, düşmənlərin çoxluğu ilə qorxudub bu işdən yayındırmaq istədilər, onlar buna əhəmiyyət vermədilər, Allaha təvəkkül etdilər və Ondan kömək istədilər: **“Allah bizə bəs edər. O nə gözəl vəkildir!”** – dedilər.

Allahın və Onun elçisinin ﷺ çağırışına öz yaralarına, yorğunluqlarına baxmayaraq cavab vermiş səhabələr bunlardır. Bundan sonra kim bizim yanımıza gəlib belə iddia edə və ya təsdiq edə bilər ki, səhabələr Peyğəmbərin ﷺ əmrlərinə qarşı üsyan edirdilər. Bunu ancaq öz kitabında əl-Buxarinin Peyğəmbərin ﷺ Hüdeybiyyədə Qureyşlə sülh bağlayarkən baş vermiş hadisə haqqında rəvayətini tərcümə etmiş, sonradan düz yola qayıtmış Məhəmməd ət-Ticani əs-Səmavi kimi “qonaq” deyə bilər.

Orada belə şərt qoyulurdu ki: “Qureyşdən kim öz ağasından icazəsiz Məhəmmədin yanına gəlib müsəlman olmaq istəsə, Məhəmməd onu rədd etsin, kim kafir olub Qureyşə dönsə, onlar onu qəbul etsinlər. Bundan başqa, müsəlmanlar bu il geri qayıdıb Məkkəyə daxil olmasınlar və gələn il gəlsinlər.” *Peyğəmbər ﷺ bunu imzalayandan sonra Ömər onun yanına gəlib dedi: “Biz haqlı, düşmənimiz haqsız deyilmi?”. Peyğəmbər ﷺ dedi: “Bəli”. Ömər dedi: “Onda nə üçün dinimizin alçalmasına yol verək?”. Peyğəmbər ﷺdedi: “Mən Allahın elçisiyəm, Ona asi deyiləm, O isə mənim arxamdır”. Ömər dedi: “Sən demirdinmi biz Kəbəyə gəlib onun*

*başına dolanacağıq?”.*

Ömərin dediyinə görə o, sonra Əbu Bəkrin yanına gəlir və o da ona Allahın elçisi ﷺ kimi cavab verir.

Bu şübhənin cavabı belədir: Ömər müşriklərə nifrət edirdi və gözləmirdi ki, onların üzərinə yürüşdən geri dönsün. O belə zənn edirdi ki, Peyğəmbərin ﷺ bu əmri də onun: *“Dininizin işlərini siz hamıdan yaxşı bilirsiniz”* – dediyi zaman olduğu kimi cihad əmridir. Ömər həm də zənn etmişdi ki, bu, vəhylə bağlı olmayan dünyəvi işlərdəndir.

Başqa bir məsələ bundan ibarətdir ki, səhabələr adətən Peyğəmbərə ﷺ ictihad işlərində müraciət edərdilər. Məsələn, Hubab əl-Münzirin Bədr bulağına çatmamış hərbi düşərgə saldıqda Peyğəmbərə ﷺ müraciət etdiyi kimi.

O, Peyğəmbərdən ﷺ soruşmuşdur: “Allahın sənə nazil etdiyi, bizim nə irəli getməli nə də geri qalmalı olduğumuz mənzildir, yoxsa öz rəyi ilə, döyüş taktikasına uyğun olaraq seçdiyin mənzil?” Peyğəmbər ﷺ demişdir: *“Bəli bu, taktiki məsələdə seçilmiş mənzildir”.* Onda Hubab demişdir: “Ey Allahın elçisi, bu, məqsəd üçün yararlı deyil!”. (Bu etirazdır, yoxsa məsləhət?) Hubab sözünə belə davam etmişdir: “Bizə əmr et, düşmənə ən yaxın olan su quyusunun yanınacan gedək və arxamızda olan bütün su quyularını dolduraq. Sonra düşməndən aldığımız bu quyunun yanında bir hovuz tik və onu su ilə doldur, biz ondan içək, onları qoymayaq”. Peyğəmbər ﷺ bu rəyi bəyəndi və belə etdi.

Salman əl-Farsi ona xəndək qazmağı məsləhət görəndə də belə etmişdi.

Ğətfan qəbiləsinin iki başçısı ilə əl-Əhzab döyüşü zamanı onunla müharibə etməkdən çəkinsinlər deyə Mədinənin məhsulunun üçdən birini vermək haqqında razılaşərkən də belə etmişdi. O istəmişdi ki, bu məsələyə imza atarkən özünə şahidlər götürsün. Buna görə də Peyğəmbər ﷺ Övs və Xəzrəc qəbiləsinin başçıları Sad bin Muazı və Sad bin İbadəni çağırmaq üçün adam göndərmiş, bunu onların nəzərinə çatdırmış və bu məsələdə onlarla məsləhətləşmişdi. Onlar demişdilər: “Ey Peyğəmbər, bu sənin özünün istədiyin, yoxsa Allahın sənə əmr etdiyi əməl olunması zəruri olan bir işdir? Və ya bu sənin bizim üçün etdiyin bir işdir?”

Peyğəmbər ﷺ demişdi: *“Bəli, bu elə şeydir ki, mən onu sizin üçün edirəm. Allaha and olsun ki, bütün ərəblərin sizə bir kamandan ox atdığını görməsəydim, bunu etməzdim”.*

Belə olduqda Sad bin Muaz ona demişdi: “Ey Peyğəmbər, biz də onlar kimi Allaha şərik qoşanlardan və bütlərə ibadət edənlərdən idik. Nə Allaha ibadət edir, nə də Onu tanıyırdıq. Onlar hələ də Allaha ibadətdən qonaqpərvərlik və alver məqsədindən başqa bir xurma qədər də yemək istəmirlər. İndi Allahın bizi İslamla kəramətləndirib doğru yola saldığı bir vaxtda bizim buna ehtiyacımız yoxdur. Allaha and olsun ki, Allah onlarla bizim aramızdakı ixtilafı öz hökmü ilə həll etməyincə biz onlara qılıncdan başqa heç nə verməyəcəyik”.

Peyğəmbər ﷺ demişdi: *“Onda bilərsən”.*

Ömərin də mövqeyi belə idi. Bu etiraz deyil, aydınlaşdırma mövqeyi idi. O belə fikirləşirdi ki, bu, yalnız bir rəydən ibarətdir: onda biz niyə bu tayfa ilə barışmalı, İslama dəvəti dayandırmalı, müsəlman olub bizə gələnləri geri qaytarmalı, Məkkəyə daxil olmadan geri qayıtmalı və onlarla on il müddətinə sülh müqaviləsi bağlamalıyıq?

Lakin biləndə ki, bu, vəhydir, bununla Allah öz Peyğəmbərinə ﷺ kömək etmək istəmişdir, heç biri etiraz etmədi və öz Tanrısından bağışlanmasını istədi.

Belə fərz edək ki, o, xəta etmişdi. Biz onsuz da inanmırıq ki, Peyğəmbərdən ﷺ başqa günahsız bir adam var. Elə bir insan yoxdur ki, bir səhf buraxmasın və bunu bilərəkdən etsə belə, Allah onu bağışlamasın. Xətaya gəldikdə isə, Uca Allahın dediyi kimi, Allah bu milləti buna görə cəzalandırmır: **«...Ey Rəbbimiz, unutduqda və ya yanıldıqda bizi cəzalandırma!...»** *(əl-Bəqərə, 286)*.

Peyğəmbər ﷺ demişdir: *“Allah mənim ümmətimin xətasını, unutqanlığını və məcbur olub etdikləri günahları bağışlar”.*

Beləliklə, biz gərək Peyğəmbərin ﷺ səhabələrindən ədəb öyrənək və Peyğəmbərin ﷺ həyat tərzini həqiqətdə olduğu kimi və ətraflı başa düşək. Çünki o, Allahın göstərişi ilə əsasını qoyduğu birinci peyğəmbərlik məktəbidir.

Uca Allahın «əl-Cumuə» surəsinin 3-cü ayəsində nə dediyinə diqqət edək: **«***(Əksəriyyəti yazıb oxumaq bilməyən)* **ümmi ərəblərə**

**özlərindən peyğəmbər göndərən Odur.** *(Bu peyğəmbər)* **əvvəllər haqq yoldan açıq-aşkar azsalar da onlara** *(Allahın)* **ayələrini oxuyar, onları** *(günahlardan, şirk və küfrdən)* **təmizləyər, onlara Kitabı və hikməti öyrədər»**

Allah ət-Tövbə surəsinin 117-ci ayəsində buyurur:

**«Allah** *(müsəlmanlardan)* **bir qisminin ürəyi** *(şəkk-şübhəyə düşüb Peyğəmbərdən və cihaddan)* **dönmək üzrə ikən Peyğəmbərə, çətin saatda onun arxasınca gedən mühacirlərə və ənsara tövbə nəsib etdi. Sonra da onların tövbələrini qəbul buyurdu** *(onları bağışladı)*. **Çünki O, həqiqətən, onlara qarşı çox şəfqətli, çox rəhmlidir!»**

Alim İbn Kəsirin bu ayəni necə təfsir etdiyini birlikdə izləyək: «Mücahid demişdir: "Bu ayə Təbuk yürüşü zamanı nazil olmuşdur. Onlar bu yürüşə çətin şəraitdə, quraqlıq ilində, qızmar havada, ərzaq və su çatışmazlığından əziyyət çəkdikləri bir vaxtda çıxmışdılar".

Bu haqda Qatadə deyir: "Onlar Təbuk ilində Şama yola düşdülər. Yer-göy istidən alışıb-yanırdı. Bir sözlə, bütün çətinliklər onların qarşısına çıxırdı. O qədər çətinliyə düşmüşdülər ki, bir xurmanı iki adam arasında bölürdülər. Döyüşçülər xurmanı bir-birinə ötürüb, biri onu sorub üstündən su içir, sonra o biri sorub üstündən su içirdi. Allah onları bu yoldan çəkindirdi və qapıları onların üzünə bağlayıb onları bu yürüşdən geri qaytardı".

Abdullah bin Abbasdan رضي الله عنه rəvayət olunur ki, o, Ömər bin əl-Xəttabdan bu çətinlik haqqında danışmağı xahiş etmiş, Ömər رضي الله عنه demişdir: "Allah elçisi ilə birlikdə şiddətli istidə Təbukə yola düşdük. Bir yerə gəlib çatdıq. Orada sudan elə qıtlıq çəkdik ki, susuzluqdan yanmağa başladıq. Bizə elə gəlirdi ki, susuzluqdan boğazımız quruyub üzüləcək. Hətta bir nəfər su axtarmağa gedib qayıtmasaydı, hamı elə zənn edərdi ki, susuzluqdan ölüb. İş o yerə gəlib çıxdı ki, hərə dəvəsinin qarnını yarıb içərisindən çıxan peyini sıxıb suyunu içmək və qalanını da ciyərinin üstünə qoymaq (yəni qalan peyini sinəsinin üstünə qoyub sərinlənmək) istəyirdi".

Bu zaman Əbu Bəkr əs-Siddiq dedi: "Ey Allahın elçisi, Qüdrətli və Böyük Allah sənin duanı eşidir, bizim üçün dua etsənə". Peyğəmbər ﷺ dedi: *"Sən mənim dua etməyimi istəyirsən?"*. Əbu Bəkr dedi: "Bəli". Belə olduqda Peyğəmbər ﷺ əllərini göyə

qaldırdı, göy guruldayıb güclü yağış yağanadək aşağı salmadı. Güclü yağış yolda kəsildi. Adamlar yanlarındakı su qablarını doldurdular. Sonra yolumuza davam etdik və baxıb nə görsək yaxşıdır: bu düşərgədən o yana bir damcı da düşməyib (yəni yağış ancaq ordunun üstünə yağıb).

Xərclik, minik (minik üçün istifadə edilən at, dəvə və s. heyvanlar) ərzaq və su sarıdan qıtlıq çəkilən belə çətinliklərə ərəbcə "üsrət" deyilir.

Əziyyətin, üsrətin və ətraf aləmdən ayrılıb təklənməyin təsirindən az qalırdı ki, ordudan bəzi adamların qəlbləri doğru yoldan sapsın. Çünki insan gücü bu qədər ağırlığa tab gətirə bilməz. Lakin pak və müqəddəs Allah onları möhkəmləndirdi, saxladı və səhv yola düşməkdən çəkindirdi. Çünki insan ruhu necə olursa-olsun, şərin şiddətini görəndə şəkkə düşür. Lakin Allah taala onları bağışladı, onlara Allaha qayıtmaq, özünün dinində səmimiyyət və səbat ləzzəti bəxş etdi. Allaha həmd olsun ki, onlar, gördüyümüz kimi, ən böyük imtahandan müvəffəqiyyətlə çıxdılar».

Həmin hadisə ilə əlaqədər ikinci şübhə, ət-Ticaninin və "Müruc əz-zəhəb" ("Qızıl çəmənlikləri") kitabının müəllifi tarixçi əl-Məsudinin izah etdiklərinə görə, Hüdeybiyyə sülhü ilə əlaqədardır.

Belə ki, Peyğəmbər ﷺ müşriklərlə sülh imzalayıb çıxanda öz səhabələrinə dedi: *"Ayağa qalxın, qurbanlarınızı kəsin, sonra başınızı qırxın!".*

Bu hadisə Məkkədən xaricdə olmuşdu. Çünki Qureyş həmin il onlara Məkkəyə girməyə icazə verməmişdi.

Bu haqda bir rəvayətdə deyilir: "*Allaha and olsun ki, o, bunu üç dəfə dedisə də, onlardan bir adam ayağa qalxmadı. Heç kəsin ayağa qalxmadığını görəndə, o, Umm Sələmənin* –radıyallahu anhə- *yanına girdi və adamlardan gördüyü bu rəftarı ona danışdı. Umm Sələmə ona dedi: "Ey Allahın Peyğəmbəri, istəyirsənsə, bayıra çıx və öz qurbanlarını – dəvəni və inəyini kəsməmiş heç kəsə bir söz demə. Sonra dəlləyini çağır ki, sənin başını qırxsın"».*

*O bayıra çıxdı və Umm Sələmənin məsləhət gördüyü kimi etdi. Onun belə etdiyini görən səhabələr qalxıb qurbanlarını kəsdilər, bir-birinin başını qırxmağa başladılar, hətta peşmançılıqdan az qala əlləri sözlərinə baxmayıb bir-birini öldürsünlər".*

Bu nə üçün baş verdi? Çünki müsəlmanlar müşriklərin əlindən qeyzə gəlmişdilər, onlardan intiqam almaq istəyirdilər. Bu, insan nəfsinin təbiətidir. Lakin işlərin sonunu Allah taaladan başqa heç kəs bilmir. Bu çətin vəziyyətdə onların yerində sən nə edərdin?

Artıq sülh bağlanmışdı və onun bəndlərində bu kimi şərtlər vardı:

müsəlmanlarla müşriklər arasında müharibə on il müddətinə dayandırılır;

həmin müddətdə insanlar sakit otururlar və bir-birinə toxunmurlar. Lakin Qureyşdən kim öz ağasının izni olmadan Məhəmmədin yanına gəlsə, Məhəmməd onu qaytarır, Məhəmmədlə olanlardan kim Qureyşə gəlsə, onlar onu qaytarmırlar;

ərəblərdən kim Məhəmmədin hökmü altına keçib ona sədaqət andı içirsə, özü bilər. Kim Qureyşin hökmü altına geçib ona sədaqət andı içirsə, yenə öz işidir;

Məhəmməd bu il geri qayıdıb, Məkkəyə daxil olmur;

gələn il Məhəmməd gəlib səhabələri ilə birlikdə şəhərə daxil olanda üç-üç daxil olurlar, yanlarında yalnız süvari silahı ola bilər;

qılınclar qında olmalıdır. Özləri ilə bunlardan başqa heç nə götürməməlidirlər.

Əl-Buxarinin rəvayətinə görə, müsəlmanlar bunu eşidəndə belə demişlər: “Allah, bundan betərini saxla! Necə ola bilər ki, müsəlmanlığı qəbul edib bizim yanımıza gələn adam müşriklərə qaytarılsın?!”

Bu haqda danışıqlar gedən zaman Əbu Cündül dinir: “Ey müsəlmanlar, müşriklərə qaytarılsam, müsəlman olduğum üçün mənə zülm edəcəklər. Məgər başıma gələnləri görmürsünüz?” (Müşriklər ona çox əzab vermişdilər).

Əl-Buxarinin rəvayətinə görə, Suheyl qalxıb yanındakı ağacdan bir budaq qırır və onu Əbu Cündülün üzünə çırpır. Müsəlmanların ona yazıqları gəldi və ağladılar.

Beləliklə, müsəlmanlar zənn edirdilər ki, Peyğəmbər ﷺ müqavilə bağlayırdı ki, onlar düşmənlə müharibədən bir az vaxt qazanıb rahatlıq etsinlər, çünki o onlara qarşı mərhəmətli idi. Müsəlmanlar isə bunu istəmirdilər, onlar ölməyə hazır idilər və buna and içmişdilər. Belə ki, onlar İslama dəvətin dayandırılmasına

razı deyildilər. Onlar habelə gəlib müsəlman olmuş adamları müşriklərə qaytarılmasına da razı ola bilmirdilər. Çünki onların yanına qayıdacaq adamın aqibətinin nə olacağını bilirdilər. Onların qarşısında canlı nümunə – atası Suheylin Əbu Cündülə verdiyi əziyyət vardı.

Bu hadisə əvvəldə göstərildiyi kimi, Ğətfan qəbiləsi ilə sülh müqaviləsi bağlayıb Mədinənin məhsulunun üçdən birinin onlara verilməsi zamanı baş vermiş hadisəyə oxşayır. Lakin onlar axırda yəqin etdilər ki, məsələ təkcə məsləhətləşməkdən ibarət deyil, hər şey əslində Allahın müvəffəqiyyət verib – verməməsi ilə bağlıdır.

Beləliklə Peyğəmbər ﷺ onlara olmuş hadisədən özlərinə gəlməmiş qurban kəsmək, baş qırxmaq kimi işləri təklif edəndə onlar özlərindən asılı olmayaraq onun əmrini yerinə yetirməkdə yübanmışlar. Beləliklə, Allah onlardan razı olsun və onları Özündən razı salsın!

Bir səhabəni göyə qaldırmaq, onu yüksək dərəcədə mədh etmək və sevməkdən ötrü, onu mələklərdən və peyğəmbərlərdən olan məsumlar səviyyəsinə qaldırmaqdan ötrü Allahın bağışladığı, onun buna görə etdiyi tövbəsini qəbul etdiyi, müəyyən bir xəta buraxmış hər hansı başqa bir səhabəyə tənə etmək olmaz.

Peyğəmbərin ﷺ özünün dediyi kimi: *"Hər bir Adəm oğlu xəta edəndir, xəta edənlərin ən yaxşıları isə tövbə edənlərdir"* (Ət-Tirmizidən, İbn Macədən və əd-Dəramidən rəvayət olunur; "Mişkat əl-məsabih"də 2341 sayla verilmişdir).

İndisə başqalarını göyə qaldırmaqdan ötrü bütünlüklə səhabələrin pisləndiyinə aid bir misal çəkək. Özü də əvvəldə qeyd edildi ki, bu mədh olunanların özləri, dinin köməyinə yetişərək onu ilkin təsdiq etmiş digər səhabələrin pislənməsinə möhtac deyillər.

Bu misalı sizin üçün hicri 984-cü ildə vəfat etmiş Hüseyn Abdus-Səməd əl-Amilinin "Vüsul əl-əxyar ila üsul əl-əxbar" kitabından gətiririk.

84-cu səhifədə o belə deyir: «Ümümiyyətlə desək, biz görəndə ki, Əzəmətli İlahi və Onun möhtərəm elçisi ﷺ Əhl əl-Beyti mədh etmiş və qeyd etdiyimiz kimi, onların ardınca getməyi əmr etmişlər, həmçinin onun bütün səhabələrini məzəmmət etmiş və onların Peyğəmbərdən ﷺ sonra, bizim nəql etdiyimiz kimi, din yolundan

çıxdıqlarını göstərmişlər.

Peyğəmbərin ﷺ : *“Onların ardınca gedən heç vaxt yolundan azmaz”* – deyə xatırlatdığı pak Əhl əl-Beytin ardınca daha inamla getdik, onların hədislərini nəql etdik və şəriətimizin əsaslarını onlardan götürdük, bizim elm xadimlərinin kitablarında adları çəkilən və bizə düzgün yol öyrətmiş Salman, Miqdad, Ammar bin Yasir, Abu Zər və onlar kimi digər pak və parlaq səhabələrdən başqa, onun bütün səhabələrini inkar etdik».

Sən bu gözə toz atan və özünü qəsdən bilməməzliyə vuran saxtakara bax, gör necə də yalancasına və saxtakarcasına iddia edir ki, Allah və Onun elçisi, ﷺ səhabələri ümümiyyətlə pisləmiş və onların özlərinin Peyğəmbərindən ﷺ sonra din yolundan çıxdıqlarını göstərmişlər.

Biz ona deyirik ki, haqqında danışdıqlarının mətnləri səndə haradandır? Uca Allahın dediyi kimi, əgər doğru danışırsansa, onda dəlillərini göstər: **«Onlara söylə: “Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin!”»** *(əl-Bəqərə, 111)*.

Bu “müəllif” özü Peyğəmbərə, ﷺ onun qadını və sevgilisi, onun ən sevimli adamı əs-Siddiqin pak qızı, münafiqlərin onun haqqında uydurduqlarından yeddi səmanın üstündən o yana uzaq olan Aişə əs-Siddiqə böhtan atmışdır. Allah belələrini rüsvay etmək, bu qadını təmizə çıxarmaq üçün belə deyib: **«Həqiqətən,** *(Aişə barəsində)* **yalan xəbər gətirənlər öz içərinizdə olan bir zümrədir. Onu** *(o xəbəri)* **pis bir şey zənn eiməyin. O, bəlkədə, sizin üçünxeyirlidir. O zümrədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. Onlardan günahın böyüyünü öz üstünə götürəni isə çox böyük bir əzab gözləyir!»** *(ən-Nur, 11)*.

Burada “yalan” dedikdə Aişəyə atılan böhtan nəzərdə tutulur ki, guya –Allah eləməmiş!– o, zina etmişdir. “Dəstə” münafiqlərdən bir qrupdur ki, böyük günah işlətmiş və bu xəbəri qondarmış və yaymışdır. Bu şayiənin əsasını münafiqlərin Allahın böyük əzabla hədələdiyi başçısı İbn Səlul qoymuşdur. Bu hekayəti bütünlüklə təfsir kitablarından oxuya bilərsiniz.

Allah razı olmuş Aişənin paklığına Allahın şəhadəti və Peyğəmbərin ﷺ məhəbbəti ilə yanaşı, özləri mühəddislərin imamları, tərtib etdikləri hədis topluları ən səhih hədis kitabları olan

əl-Buxari və Müslimin Amr bin əl-Asdan rəvayət etdikləri bir hədisi misal gətirək:

"*Onun dediyinə görə Peyğəmbər onu "Zat əs-səlasi" adlı su mənbəyənin yanında döyüşən (hicri 8-ci ildə) orduya başçı göndərəndə, o, Peyğəmbərin yanına gəlir və ondan soruşur: "İnsanlardan ən çox kimi sevirsən?". Peyğəmbər deyir: "Aişəni". "Bəs kişilərdən?". Peyğəmbər deyir: "Onun atasını". O soruşur: "Sonra kimi?" Peyğəmbər deyir: "Öməri". Amr bin əl-As sözünü belə bitirir: "Sonra Peyğəmbər adamları bir-bir saydı, mən sakitcə dayanıb qulaq asır və qorxdum ki, məni axırda deyər".*

Aişənin Peyğəmbərin ﷺ yanında yeri bax, belədir! Bir tərəfdən isə Hüseyn Abdus-Səməd əl-Amili kimi bir "qonaq" gəlib Allah razı olmuş Aişəyə, Peyğəmbərə ﷺ görün necə böhtan atır: *«Peyğəmbər qız elçiliyi etməyə çıxdı və Aişənin yaşadığı evi göstərib üç dəfə dedi: "Fitnə buradadır"».*

Burası daha təəccüblüdür ki, bu açıq-aşkar yalanı digər bir "qonaq" ət-Ticani öz kitabında nəql etmiş və ona daha bir yalan əlavə edib demişdir ki, bu hədis əl-Buxarinin "Səhih"indədir. O elə fikirləşmişdir ki, insanlar cahildirlər, ondan sonra onun sözünü tədqiq edən olmayacaq. Onun kitabı bütünlüklə bu qəbilədən olan yalan və iftiralardan ibarətdir. O bilmir ki, ərəblər və əcəmlər arasında əl-Buxarinin və Müslimin topladıqları hədisləri əzbər bilənlər var.

Əl-Amili Peyğəmbər ﷺ haqqında ikinci dəfə belə yalan deyir: *«Peyğəmbər Aişənin evindən çıxdı və dedi: "Küfr buradan başlanır"».*

Peyğəmbərin ﷺ səhabələrinə və qadınlarına qarşı bu gizli qərəz və odlu nifrət nə deməkdir? Necə ola bilər ki, qadın kafir olsun, Peyğəmbər ﷺ də onunla birlikdə qalıb ünsiyyət etsin? Bu, Allahın elçisinə ləkə vurmaq deyilmi?

Bu "qonaq" əl-Amili sənin bu eşitdiklərinlə kifayətlənməyib Allah razı olmuş Əbu Bəkri və Öməri – Allah eləməmiş! – kafirlikdə günahlandırıb deyir: "Onlarda İslamdan bir zərrə qədər də əsər-əlamət yox idi". O, Allahın razı olmuş Osmanı da aşağıdakı sözü ilə kafir çıxarmağa çalışmışdır: "O, Allahın nazil etdiklərinə fikir vermədən hökm çıxarırdı".

Bizi Allah razı olmuş səhabələrin ən yaxşılarına qarşı bəslənən bu qərəz və nifrətdən Allah saxlasın!

Allah taala mühacir və ənsar səhabələrin sədaqətinə Özünün bu kəlamı ilə şəhadət edir: **«Allahın Öz Peyğəmbərinə fəth olunmuş məmləkətlərin əhalisindən verdiyi qənimət Allaha, Peyğəmbərə, qohum-əqrabaya, yetimlərə, yoxsullara və müsafirə məxsusdur. Bu ona görədir ki, içərinizdəki zənginlər arasında əldən-ələ düşən bir sərvət olmasın. Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir.** *(Bu qənimət)* **yurdlarından qovulub çıxardılmış, mal-dövləti əlindən çıxmış, Allahdan mərhəmət və riza diləyən, Allaha və Onun Peyğəmbərinə gömək edən yoxsul mühacirlərə məxsusdur. Onlar** *(imanlarında, sizlərində və işlərində)* **doğru olan kimsələrdir! Onlardan** *(mühacirlərdən)* **əvvəl** *(Mədinədə)* **yurd salmış və** *(Məhəmməd əleyhissəlama qəlbən)* **iman gətirmiş kimsələr** *(ənsar)* **öz yanlarına** *(şəhərlərinə)* **mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd** *(qəzəb)* **duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar.** *(Allah tərəfindən)* **nəfsinin xəsisliyindən** *(tamahından)* **qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə** *(Cənnətə)* **qovuşanlardır! Onlardan** *(mühacirlərdən və ənsardan)* **sonra gələnlər** *(tabiin)* **belə deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş** *(din)* **qardaşlarımızı bağışla! Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə** *(həsədə)* **yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!"»** *(əl-Həşr, 7-10)*.

Bu ayələrdən Bəni Nəzir kimi döyüşsüz məğlub edilmiş qəbilələrdən və tayfalardan əldə olunmuş qəniməti necə sərf olunmalı olduğu aydınlaşır.

Böyük alim İbn Kəsir deyir: "Allah taala qənimət malına sahib olmağa haqqı olan yoxsulların halını bəyan edərək deyir ki, onlar öz yurdlarından çıxarılmış və mal-dövlətləri əllərindən alınmışdır. Onlar Allahdan mərhəmət və razılıq diləyirlər. Yəni onlar Allahı razı salmaq və Onun razılığını qazanmaq üçün öz qövmlərinə

müxalif çıxmış öz yürdlarından qovulmuşlar. Onlar Allaha və Onun elçisinə kömək edən, doğru danışan adamlardır. Yəni bunlar öz sözlərini əməlləri ilə təsdiq edən adamlardır. Bunlar vətənlərini tərk edənlərin ən yaxşılarıdır".

Sonra ənsarları mədh edir, onların xidmətini, şərəf və hörmətlərini, onlarda həsəd olmadığını və özlərinin ehtiyacları olduğu şeydə başqalarına üstünlük verdiklərini bəyan edir.

Sonra deyir: **«…Onlardan** *(mühacirlərdən)* **əvvəl** *(Mədinədə)* **yurd salmış və** *(Məhəmməd əleyhissəlama qəlbən)* **iman gətirmiş kimsələr** *(ənsar)***…»,** yəni onlar hicrət yurdunda mühacirlərdən qabaq sakin olmuş və onlardan çox əvvəl iman gətirmişlər.

Allah taalanın **«…öz yanlarına** *(şəhərlərinə)* **mühacirət edənləri sevər…»** kəlamının mənası budur ki, onlar nəcib olduqlarından və özləri şərəfli adamlar olduqlarından mühacirləri sevir və onları öz mallarına varis edirlər **«…onlara verilən qənimətə görə ürəklərində həsəd** *(qəzəb)* **duymaz…»** yəni qəlblərində mühacirlərə Allahın onlara verdiyi yüksək yer, şərəf, zikrdə və rütbədə birincilik kimi üstün cəhətlərə görə paxıllıq hissi bəsləmirlər.

Bunu imam Əhmədin öz "Müsnəd" əsərində və ən-Nəsainin "Əməl əl-yaum və əl-leylə" kitabında Ənəsdən etdikləri rəvayət də sübut edir.

Hədisdə Ənəsin dilindən deyilir: *«Biz Peyğəmbərin ﷺ yanında oturmuşduq, bu zaman o dedi: "İndi sizin qarşınıza Cənnət əhlindən olan bir kişi çıxacaq". Bunu demişdi ki, ənsarlardan biri saqqalından dəstəmaz suyu dama-dama, başmaqları sol əlində olduğu halda çıxdı.*

*Ertəsi gün də Peyğəmbər ﷺ belə dedi və bu kişi birinci dəfədəki kimi çıxdı.*

*Üçüncü gün də Peyğəmbər ﷺ birinci və ikinci gün dediyi kimi dedi və kişi birinci dəfədəki kimi çıxdı.*

*Peyğəmbər ﷺ ayağa qalxanda Abdullah bin Amr bin əl-As dalınca getdi və ona yalvardı ki, onu evində qonaq saxlasın. Kişi onu üç gün saxladı. Abdullah bin Amr elə zənn edirdi ki, o bu üç gündə gecə yatmayıb ibadətlə məşğul olacaq. Lakin belə bir şey görmədi.*

*O, kişiyə Peyğəmbərdən ﷺ eşitdiklərini danışdı, özü də*

*Peyğəmbərin dediklərindən kişinin nə eşitdiyini soruşdu. Kişi dedi: "Sənin gördüyündən başqa heç nə eşitməmişəm".*

*Abdullah uzaqlaşanda kişi onu çağırdı və dedi: "Sənin gördüyündən başqa heç nə eşitməmişəm, lakin mən qəlbimdə müsəlmanlardan heç birinə qarşı kin bəsləmir və Allahın özünün verdiyi hər hansı bir xeyrə görə həsəd aparıram".*

*Abdullah dedi: "Sənin eşitdiyin və dözülməz olan şey elə budur? Elə o dözülməzdir ki, yalnız bunu eşitmisən"».*

Peyğəmbər ﷺ ənsarlara deyir: *"Qardaşlarınız öz mal-dövlətlərini atıb sizin yanınıza gяlmişlər". Ənsarlar deyirlər: "Mal-dövlətimizi onlarla bölərik". Peyğəmbər ﷺ deyir: "Bundan başqa nə edə bilərsiniz?". Onlar deyirlər: "Ey Allahın elçisi, daha nə etməliyik ki?". Peyğəmbər ﷺ deyir: "Onlar işləmək bacarmayan camaatdır, onları işləməkdən azad etməli və məhsulunuzu onlarla bölməlisiniz". Onlar deyirlər: "Oldu, ey Allahın elçisi!".*

Allah taalanın **«...özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar...»** kəlamında ehtiyac və zərurət nəzərdə tutulur, yəni onlar başqalarının ehtiyaclarını öz ehtiyacları olduğu halda, başqalarının həmin şeyə olan ehtiyaclarının ödənilməsini üstün tuturlar.

Bu məsələ bir səhih hədisdə də öz əksini tapmışdır. Peyğəmbər ﷺ demişdir: *"Ən yaxşı sədəqə – sədəqə verənin özünün ehtiyacı olduğu şeydə verdiyi sədəqədir".*

Allah taalanın dediyi kimi: **«Onlar öz iştahları çəkdiyi halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər»** *(əl-İnsan, 8).*

Həmçinin: **«malını qohum-əqrabaya, yetimlərə, yoxsullara, müsafirə, dilənçilərə və ... verən kimsələr...»** *(əl-Bəqərə, 177).*

Haqqında danışılan bu adamlar sədəqə verdikləri şeyi sevdikləri halda onu sədəqə vermişlər ki, başqaları ona möhtac qalmasınlar.

Beləliklə, ənsarlar xərclədiklərinə özlərinin ehtiyacı olduğu halda, başqalarının ehtiyaclarını özlərininkindən üstün tutmuşlar.

Bu mövqedən çıxış edən Əbu Bəkr əs-Siddiq bütün mal-dövlətini sədəqə vermişdi. Peyğəmbər ﷺ ona demişdi: *"Ey Əbu Bəkr, bəs ailən üçün nə saxlamısan?", Allah razı olmuş Əbu Bəkr cavab vermişdir: "Onlar üçün Allahı və Onun elçisini saxlamışam".*

İkrəmə bin Əbu Cəhlə və onun dostlarına Yərmuk döyüşü günü

su təklif olunanda da belə olmuşdu. Onlardan hər biri su üçün ciyəri yanan ağır yaralı olduğuna baxmayaraq, onu o biri yoldaşına verməyi əmr edir, o biri də onu üçüncüyə ötürdü. Su üçüncüyə çatmamış onlar bir-birinin dalınca ölürdülər. Beləliklə, suyu onlardan heç biri içmədi. Allah onlardan razı olsun və onları da özündən razı salsın!

Əl-Buxarinin Allah razı olmuş Əbu Hüreyrədən etdiyi rəvayətdə deyilir: *«Peyğəmbərin ﷺ yanına bir kişi gəlir və deyir ki, ey Allahın elçisi, acından ölürəm. Peyğəmbər ﷺ öz arvadlarının yanına adam göndərir ki, bir şey gətirsin, ona versinlər. Lakin onlarda da bir şey olmur. Belə olduqda, Peyğəmbər ﷺ deyir: "Elə bir kişi yoxdurmu ki, bu gecə bu adamı qonaq saxlasın, Allah da ona rəhm eləsin?".*

*Ənsarlardan bir kişi ayağa qalxır və deyir: "Mən, ey Allahın elçisi". Bunu deyib, o kişini də özü ilə ailəsinin yanına aparır və öz qadınına deyir: "Bu, Peyğəmbərin ﷺ qonağıdır, ondan heç nəyi əsirgəmə!". Qadın deyir: "Allaha and olsun ki, uşağın yeməyindən başqa heç nəyim yoxdur". Kişi deyir: "Uşaq şam yeməyi istəsə onu yuxuya ver, özümüz də bu gecə ac qalaq".*

*Qadın onun dediklərini edir. Ertəsi gün kişi Peyğəmbərin ﷺ yanına gəlir. Peyğəmbər ﷺ soruşur: "Qüdrətli və Böyük Allah filan kişiyə filan qadına heyran qalıb, – yaxud onların üzünə gülüb". Allah-talanın:* ***«…özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar…»*** *kəlamı beləlləri haqqındadır»* (Bu hədisi əl-Buxari, Müslim, ət-Tirmizi və ən-Nəsai rəvayət etmişlər).

Müslimin bir rəvayətində isə göstərilir ki, bu qonaqpərvər kişi Əbu Təlha əl-Ənsari olmuşdur.

Allah taalanın **«…nəfsinin xəsisliyindən** *(tamahından)* **qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə** *(Cənnətə)* **qovuşanlardır!…»** kəlamının mənası budur ki, kim xəsislikdən azaddır, o, səadət tapar, və nailiyyət qazanar.

İmam Əhməd öz "Müsnəd" əsərində Cabir bin Abdullah ilə bağlı bir hədisdə Peyğəmbərin ﷺ belə dediyini qeyd edir: *"Məbadə zülm edəsiniz, zülm Qiyamət gününün zülmətidir. Xəsis olmaqdan çəkinin, xəsislik sizdən əvvəl, xəsis adamları həlak etmişdir. Onları öz qanlarını tökməyə, öz məhrəmlərini – namuslarını özlərinə halal*

*etməyə məcbur etmişdir”.*

Bu hədisi yalnız Müslim rəvayət etmişdir.

Allah taalanın **«...onlardan** *(mühacirlərdən və ənsardan)* **sonra gələnlər** *(tabiin)* **belə deyirlər…»** kəlamında qənimət malından aralarındakı yoxsulların pay almaq haqqı olan üçüncü qism adamlar nəzərdə tutulur ki, onlar mühacirlər, ənsarlar və ehsanda (qəlbən ibadət etməkdə) onlardan sonra gələnlərdir.

**«…ehsanda onlardan sonra gələnlər…»**, onların yaxşı işlərini və gözəl əlamətlərini təkrar edən, gizlində və aşkarda onların təbliğatçısı olan adamlardır.

Rəhmətlik imam Malikin bu qiymətli ayədən çıxardığı nəticə nə gözəldir!

O deyir ki, səhabəyə söyüş yağdıran adama qənimət malından pay düşmür, çünki o, Allahın öz kəlamında mədh etdiyi səhabələrə xas olan bu xüsusiyyətlərə malik deyil: **«…“Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş** *(din)* **qardaşlarımızı bağışla! Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə** *(həsədə)* **yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!”»**

Bu ayələrdə mühacirlərdən və ənsarlardan olan səhabələrin fəzilətlərini, xidmətlərini və onların qəlblərində bəslədikləri haqqında Allah taalanın şəhadətlərini gördünmü? Bunlar aşağıdakılardır:

döyüşsüz əldə edilmiş mal haqqında Allahın hökmü budur ki, bu mal ən birinci Allaha və Onun elçisinə, ﷺ onlardan sonra yoxsul mühacirlərə və ənsarlara və daha sonra ibadəti qəlbən etməkdə onlardan sonra gələn adamlara çatır;

Allah taalanın mühacirləri öz mal-dövlətlərindən və obalarından əl çəkib hicrət etmələrinin Allahı özlərindən razı salmaq və Allaha və Onun elçisinə ﷺ kömək etmək məqsədilə olduğuna şəhadəti. Bu şəhadət də onların dünyanı istəmələri haqqında iftiraçı qərəzkarların uydurmalarına cavabdır;

Allahı razı salmaq və Onun razılığına nail olmaq istəyi, Allaha və Onun elçisinə ﷺ kömək istəyi, qəlblərin iradəsidir. Allah da onların qəlblərindəkinə şahidlik etmiş, niyyətlərini, istəklərini və əməllərini bəyənmişdir. Buna görə də demişdir ki, onlar sözdə, işdə və iradədə doğruculdurlar. Bu onlar haqqında yalanlar uyduranlara

və onların münafiq olduqlarını, yaxud – Allah eləməmiş – özlərinin Peyğəmbərindən ﷺ sonra ikiüzlülük edib, dindən dönmələrini söyləyib, onları söyləyənlərə cavabdır;

Allahın ənsarların mühacirləri sevməsinə şəhadət verməsi saxtakarlıqla onların bir-birinə düşmən olduqlarını saxtakarlıqla deyənlərə cavabdır. Həqiqət isə belədir ki, onlar bir-biri ilə əməkdaşlıq edib, bir-birini sevən qardaşlardır;

Allahın ənsarların qəlblərinin həsəddən azad və əllərində olandan öz mühacir qardaşlarına verməkdə xəsislikdən uzaq olmasına şəhadəti;

Allahın onların bu yolda səy göstərmələrinə və bununla da qənimətə, mala sahib olmaq haqqı qazanmalarına şəhadət verməsi. Allah kimə haqq qazandırsa (kimi təmizə çıxarsa), heç kəs o adamın haqqını əlindən ala bilməz, çünki Allah ruhların hara qayıtdığını, işlərin nə ilə nəticələndiyini bilir və layiq olmayanlara haqq qazandırmır. Allah, İslamdan üz döndərib mürtəd olan peyğəmbər göndərmədiyi kimi, gələcəkdə onun şəhadətinin əksinə hərəkət edəcək adamlar üçün şəhadət də vermir;

**«…ehsanda onlardan sonra gələnlər…»** qənimət malına sahib olmaq məsələsindəki yerlərinə görə belə adlandırılırlar. Onların əlamətləri Allahdan din qardaşlarının bağışlanmalarını istəmələri, qəlblərinin onlara qarşı kin, qəzəb və həsəddən azad olmasıdır. Çünki onlar əvvəlkilərin din qardaşlarıdır, əvvəlkilər olmasaydı, din bunlara gəlib çatmazdı.

Səhabələrin, xüsusilə Əbu Bəkr əs-Siddiqin, Ömərin, Osmanın, Əlinin və digər böyük səhabələrin fəzilətləri və üstün cəhətləri haqqında səhih hədislərdə göstərilənləri bilmək lazımdır ki, cəhalət, təəssübkeşlik kimi xəstəliklərə tutulmayasan.

# ƏBU BƏKR ƏS-SİDDİQİN ﷺ XİDMƏTLƏRİ VƏ FƏZİLƏTİ

Adı Abdullah İbn Əbu Qühafədir. Mürrə adlı yeddinci babasında nəsəbi Allahın elçisinin ﷺ nəsəbi ilə qovuşur. Yəni hər ikisi bir kökdəndir.

O, İslam dinini qəbul etmiş ilk kişidir. Hələ cahiliyə dövründə həmişə Peyğəmbərin ﷺ dostu olmuşdur. Peyğəmbər ﷺ ona İslam dini və Cəbrailin nazil olması haqqında danışanda, Allah razı olmuş Əbu Bəkr İslam dinini qəbul etməkdə və Peyğəmbərə verilmiş din və onun iman haqqında sözünü təsdiq etməkdə heç bir tərəddüd etmədi. Bütlərə ibadət etməkdən, etiqadda və əxlaqda cahiliyyə dövrünə xas fəsad işlərindən əl çəkdi.

Xalqa yaxın, insanların rəğbətini qazana bilən bir adam olan Əbu Bəkr Məkkə şəhərinin ən hörmətli və Qureyşin ən əsil-nəsəbli adamlarından biri, öz halallığı ilə tanınmış bir tacir idi. Adamlar ticarət məsələlərində məsləhət almaq üçün və gözəl ünsiyyətinə görə tez-tez onun yanına gələrdilər.

Özünə inanan adamları İslama dəvət edərdi. Osman bin Əffan, Sad bin Əbu Vaqqas, Zubeyr bin əl-Avam, Abdur-Rəhman bin Auf və Təlha bin Ubeydullah kimi Cənnət vəd olunmuş ilk müsəlmanlar onun vasitəsilə İslamı qəbul etmişlər (Allah onlardan razı olsun!).

Uca Allahın daha bir kəlamını nəzərdən keçirək: **«Əgər siz ona kömək etməsiniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu iki nəfərdən biri olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna** *(Əbu Bəkrə)*: **"Qəm yemə, Allah bizimlədir!" – dediyi zaman** *(göstərmişdir)*. **O vaxt Allah bir arxayınlıq nazil etmiş, onu sizin görmədiyiniz əsgərlərlə müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı. Yalnız Allahın sözü ucadır. Allah yenilməz qüvvət, hikmət sahibidir!»** *(ət-Tövbə, 40).*

Bu qətidir ki, o zaman Peyğəmbərə ﷺ onun özünün icazəsi ilə yol yoldaşı olan Allah razı olmuş şəxs Əbu Bəkr əs-Siddiqdir. Bu da Peyğəmbərin ﷺ Allah razı olmuş Əliyə onun yatağında yatıb Məkkədə qalmağa, onun Qureyşdən olan sakinlərinə əmanətləri qaytarmağa icazə verdiyi kimi olmuşdur.

Peyğəmbər ﷺ öz Allah razı olmuş səhabəsi və doğrucul (əs-Siddiq) vəzirinin müşayiəti ilə hicrət etmiş və onlar hər ikisi mağaraya birlikdə getmiş, lakin Əbu Bəkr ora Allahın elçisindən ﷺ əvvəl düşmüşdü ki, mağarada qurd-quşdan təmizləsin.

O zaman Allah razı olmuş Əbu Bəkr Peyğəmbərə ﷺ deyir ki: *"əgər bizi axtaranlardan biri öz ayaqlarının altına baxsa o bizi görəcək". Onda Peyğəmbər deyir: "Sən nə deyirsən, ey Əbu Bəkr! Üçüncüsü Allah olan iki nəfərə belə danışmaq yaraşarmı?"* (əl-Buxari və Müslim).

Əbu Səid əl-Xudrinin *(r.a.)* rəvayət etdiyi hədisdə də Əbu Bəkrin fəzilətlərindən biri haqqında danışılır. Orada deyilir ki, bir dəfə Peyğəmbər ﷺ minbərdən dedi: *"Allah bir quluna ya dünya gözəlliklərindən istədiyini, ya da Allahın yanında olan nemət seçməyi təklif etdi. O, Allahın yanındakı neməti seçdi". Bunu eşidən Əbu Bəkr ağladı və dedi: "Ata-anamızla birlikdə hamımız sənə fəda olaq, ey Allahın elçisi!". Biz ona təəccüb qaldıq. Adamlar bir-birinə dedilər: "Bu qocaya nə olub?". Sən demə, seçmək təklif olunan qul Allahın elçisi imiş, Əbu Bəkr də bizim aramızda bunu başa düşən yeganə adam!*

Bu fəzilət öz sahibi Əbu Bəkrin elmi mövqeyini və onun Peyğəmbərin ﷺ istədiyini necə tez başa düşdüyünü sübut edir.

Peyğəmbər ﷺ vəfat edərkən adamlar onun harada dəfn olunması haqqında müxtəlif fikirlər söyləyəndə də belə olmuşdur. Onlardan bəziləri deyirdilər ki, onu Məkkədə dəfn edək, bəziləri deyirdilər qəbristanda. Lakin Əbu Bəkr əs-Siddiq onlara Peyğəmbərin ﷺ bir hədisini xatırlatdı. Orada o demişdir: *"Allah heç bir peyğəmbəri dəfn olunmalı olduğu yerdən başqa bir yerdə öldürməyib"*.

Həmçinin Peyğəmbər ﷺ vəfatından sonra ənsarlar Allahın və Onun elçisinin ﷺ onları çox mədh etdiyindən elə zənn edirdilər ki, Peyğəmbərdən ﷺ sonra xəlifəlik etməyə onlar haqlıdırlar. Lakin Allah razı olmuş Əbu Bəkr əs-Siddiq onlara xatırlatdı ki, Peyğəmbər ﷺ belə demişdir: *"Qureyşdən iki adam qalanədək imamlar onlardan olmalıdır"*. Onlar bununla razılaşdılar, onun biliyinə və yaddaşına təslim oldular.

Üçüncü məsələ Vida həcci mərasimində Allahın aşağıdakı ayəni nazil etməsi ilə əlaqədərdır: **«...Bu gün dininizi sizin üçün kamil**

**etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim…»** *(əl-Maidə, 3)*

Bunu eşidən Əbu Bəkr ağladı. Çünki o, dərhal başa düşdü ki, Allahın elçisinin ﷺ vəzifəsi sona yetdi. Din kamilləşib, Allahın neməti tamama yetəndən sonra Yer üzündən vəhyin kəsilməsindən başqa bir şey qalmır.

Onun biliyinə dəlalət edən üstünlüklərindən biri də Allah razı olmuş Əli bin Əbu Talib və Allah razı olmuş Abbas bin Abdul-Muttəlib onun yanına Allahın elçisinin Xeybər torpağından qalmış mirası ilə əlaqədər gələndə üzə çıxmışdı.

Onlar demişlər ki, Peyğəmbərin ﷺ qohumları olduqları üçün həmin maldan onlara miras qaydası ilə pay düşür. Əbu Bəkr bir qrup digər səhabənin yanında onları Allaha and verib soruşmuşdu ki, siz filan gün Peyğəmbərin ﷺ belə dediyini eşitmisinizmi: *"Biz peyğəmbərlər özümüzdən sonra qoyub getdiklərimizi miras qoymuruq. Bizdən qalanlar sədəqədir. Şübhəsiz, o maldan Məhəmməd ailəsi də yeyə bilər".* Onlar ikisi də bu sözü xatırlayıb, razı qaldılar və geri döndülər.

Bir rəvayətə görə Allah razı olmuş Fatimə Xeybərin xumsundən qalmış maldan, Allahın onun atasına qənimət etdiyi paydan ona düşən mirası istəmək üçün adam göndərərkən belə olmuşdur.

Onun üstün cəhətlərindən biri də Peyğəmbərin ﷺ kəlamından bəlli olur: *"Adamlardan öz dostluğu və xərclədiyi malla mənim boynumda ən çox haqqı olan Əbu Bəkrdir. Ümmətimdən İslamla əlaqədər olmadan bir nəfəri özümə dost seçməli olsaydım, Əbu Bəkri seçərdim. Əbu Bəkrin alaqapısından (girişindən) başqa, məscidə açılan bütün alaqapıları bağlamaq lazımdır!"* (əl-Buxari və Müslim).

Cubeyr bin Mütimin rəvayət etdiyi bir hədisdə deyilir: *«Peyğəmbərin ﷺ yanına bir qadın gəldi. Peyğəmbər ﷺ ona əmr etdi ki, başqa vaxt gəlsin. Qadın dedi: "Birdən gəlib səni tapmasam?". O, ölümü nəzərdə tuturdu. Peyğəmbər ﷺ dedi: "Məni tapmasan, Əbu Bəkrin yanına gələrsən"»* (əl-Buxari və Müslim).

Allah razı olmuş Əbu Bəkrin xidmətləri və üstün cəhətlərindən daha biri: Allahın elçisi ﷺ özünün ölümü ilə nəticələnən xəstəliyi zamanı Əbu Bəkrə əmr etmişdi ki, onun yerinə adamlarla birlikdə

namaz qılsın. Buradan səhabələrin çoxu belə nəticə çıxarmışdı ki, Peyğəmbər ﷺ Əbu Bəkri ondan sonra ümmətin imamı olmağı həvalə etmişdir. Onda səhabələr dedilər: "Ən yaxşımızı seçdik, onun yolunda heç nəyimizi əsirgəmərik. Peyğəmbər ﷺ onu bizim axirətimiz (namaz) üçün qəbul etdi, biz niyə onu dünyamız üçün qəbul etməyək?".

Əbu Bəkrin müsəlmanların imamlığına və xəlifəliyinə təqdim və təyin olunmasına sübutu kimi Allah razı olmuş Aişənin dediyi bu sözləri gətirmək olar: *«Peyğəmbərin vəfatı ilə nəticələnən xəstəliyi zamanı dedi: "Atan Əbu Bəkri və öz qardaşını mənim yanıma çağır, istəyirəm vəsiyyət yazdırım. Qorxuram ki, (məndən sonra) hərə ürəyindən keçirib desin ki, mən hamıdan başam, Allah və müsəlmanlar isə Əbu Bəkrdən başqa onların hamısını rədd etsinlər"»* (Müslimə görə bu hədis səhih hədisdir).

Bu hədis ət-Ticaninin Peyğəmbərin ﷺ özündən sonra Əlini xəlifə etmək istəməsini və bu məqsədlə oradakılara vəsiyyət yazmaq əmr etməsini deməklə şübhə toxumu səpmək istədiyini başa düşməyə imkan verir.

Bu hədisi əl-Buxarinin "Səhih" əsərində olduğu kimi təqdim edirik ki, əl-Buxarinin, Müslimin və digər Sünnə bilicilərinin hədisləri artıq-əskik olmadan rəvayət etməkdə necə etibarlı olduqları aşkar olsun.

Əl-Buxarinin və Müslimin *-Allah hər ikisindən razı olsun!-* İbn Abbasdan *-Allah ondan və atasından razı olsun!-* rəvayət etdikləri bir hədisdə deyilir: *"Bilmirəm, cümə axşamı idi, yoxsa yox. Peyğəmbərin ağrıları şiddətləndi. O dedi ki, gəlin mən sizə bir vəsiyyət edim yazın ki, bu vəsiyyətdən sonra heç vaxt düzgün yoldan azmayasınız". Oradaki adamlar mübahisəyə başladılar. Peyğəmbərin yanında mübahisə etmək isə olmaz. Onlardan bəziləri dedilər: "Peyğəmbərə ağrı güc gəlib ona görə belə deyir. Bir halda ki, əlinizdə Quran var, əlavə vəsiyyət yazmaq nəyə lazımdır".*

Peyğəmbərin ﷺ ailə üzvləri arasına bu məsələ ilə əlaqədər ixtilaf düşdü. Elələri oldu ki, dedilər gətirib yazın ki, ondan sonra yolunuzu azmayasınız, elələri də oldu ki, başqa cür dedilər.

Bir rəvayətə görə, səs-küyün mübahisənin artdığını görəndə Peyğəmbər ﷺ onları öz yanından qovmuşdur.

Üçüncü rəvayətə görə, kağız-qələm gətirməyə Ömər mane olmuşdur. Bu, doğrudur. Lakin Ticani sanki Ömərin ürəyinə giribmiş kimi deyir: "Ömər bildi ki, Allahın elçisi Əli bin Əbu Talibi xəlifə təyin edəcək, buna görə də kağız-qələm gətirilməsinə etiraz etdi".

Ticaninin bu sözü onun özünün qeybi bilmək iddiasında olduqdan xəbər verir. Lakin həqiqət bunun əksini göstərir.

Əslində səhabələr özləri üçün belə yəqin etmişdilər ki, ümmət üçün imam olmağa Əbu Bəkrdən yaxşı və ləyaqətli bir adam yoxdur. Həm də ona görə ki, Peyğəmbər ﷺ xəstə olarkən onun yanında olan adamlar onun Aişəyə öz atasını və qardaşını çağırmasını əmr etdiyini eşitmişdilər. O demişdi ki, Əbu Bəkrə yazılı vəsiyyət etmək istəyir ki, o olmayanda hər yetən imamlıq iddiasına düşməsin.

Başqa bir cəhət ondan ibarət idi ki, əgər bu kağız-qələm məsələsi olmasaydı, Aişə Peyğəmbərin ﷺ tələb etdiyini gətirər, o özü də buna israr edərdi. Lakin o bilirdi ki, din məsələlərindən deyil, Allahın elçisindən sonra əmirlərin və imamların təyin olunmasını Allah bizə fərz buyurmamışdır. Əksinə, bu məsələ ümmətin öz ixtiyarına buraxılmışdır, ümmət özünə münasib adamı maneəsiz və məcburiyyətsiz seçə bilər. Buna görə ölümündən dörd gecə əvvəl son dəfə onun yanında söz-söhbət uzananda onları öz yanından çıxarmaq əvəzinə, əmr etdi ki, kağız-qələm gətirsinlər.

Dördüncü məsələ ondan ibarət idi ki, o yazılı vəsiyyət etmək istədiyinin səbəbini rəy müxtəlifliyinin qarşısını almaq kimi izah etmişdi. Bu, Peyğəmbəri ﷺ bu, və ya digər adamı təyin etmək istədiyindən deyil, onun bu ümmətə ürəyi yanıb şəfqət göstərdiyindən idi. O öz ümmətinin ixtilafdan ziyan çəkməsini istəmirdi.

Allaha həmd olsun ki, Əbu Bəkr, Ömər və Osmanın hakimiyyətə gəlməsində heç kəs fikir ayrılığı izhar etməmişdi. İxtilaf onlardan sonra üzə çıxıb bu günümüzə qədər davam etmişdir.

Çünki hələ də elə adamlar var ki, bu üç xəlifənin əmirliklərinə və fəzilətlərinə tənə edirlər.

Görəsən Peyğəmbərin ﷺ istədiyi kimi onun təyin olunması haqqında yazılı fərman belə adamlara gəlib çatsaydı, onlar hay-küyə

və həyacana son qoyardılarmı? Yoxsa bu elə bir düyündür ki, ümmət onu heç vaxt aça bilməyəcək?

Əslində bu iddia çoxdan öz əhəmiyyətini itirib. Artıq əmirlərdən, sultanlardan heç biri qalmayıb. Bəs iş bitəndən, səhabələr Əbu Bəkrin xəlifəliyini qəbul edəndən sonra bu körük basmaq nə üçündür?

Bundan başqa, Peyğəmbərin ﷺ bu məsələni həll etməyə vaxtı vardı. Çünki bu kağız-qələm məsələsi onun ölümündən dörd gecə əvvəl, cümə axşamı günü olmuşdu. Əgər bu belə zəruri olsaydı və Peyğəmbər ﷺ bilsəydi ki, bu sonradan bəyəniləcək, həmin müddətdə hər şeyi onlara bildirər və yazardı və Allah da Öz elçisini ﷺ ondan sonra Öz dərgahına aparardı.

Budur, səhabələrin özlərinin hətta Allahın elçisinin ﷺ sağlığında Əbu Bəkrin fəzilətli adam olduğu qərarına gəldikləri haqqında şəhadətləri qarşınızdadır.

Çünki məsələ hamıya tamamilə aydın idi. Əli bin Əbu Talibə gəlincə, onun bu məsələdə mövqeyi aşağıdakılardan məlum olur…

Məhəmməd bin əl-Hənifiyyədən rəvayət olunur: "Atamdan (Allah razı olmuş Əli bin Əbu Talibdən) soruşdum ki, Peyğəmbərdən sonra ən yaxşı adam kimdir?" Cavab verdi ki, Əbu Bəkr. Dedim sonra kim? Dedi: "Ömər. Qorxurdum ki, deyər Osman." Soruşdum: "Sonra da sən? Dedi ki, mən yalnız müsəlmanlardan biriyəm" *(İmam əl-Buxarinin öz "Səhih"ində verdiyi rəvayət)*.

Abdullah bin Ömər *(r.a.)* demişdir: "Peyğəmbərin ﷺ zamanında heç kimi Əbu Bəkrə bərabər tutmazdıq, ondan sonra Öməri, ondan sonra da Osmanın adını çəkərdik, daha sonra isə Peyğəmbərin ﷺ qalan səhabələrindən birini digərindən üstün tutmazdıq" *(əl-Buxarinin rəvayəti)*.

İbn Abbas *-Allah ondan və atasından razı olsun!-* demişdir: «Mən çarpayısının üstündə uzadılmış (ölmüş) Ömər üçün dua oxuyan adamların arasında dayanmışdım, bu zaman dirsəyini mənim çiynimə qoymuş bir nəfərin belə dua etdiyini eşitdim: "Allah sənə rəhmət eləsin! Mən arzu edirəm ki, Allah səni o iki dostunun yanına aparsın, çünki mən Peyğəmbərin dəfələrlə belə dediyini eşitmişəm: *"Mən Əbu Bəkr və Ömərlə birlikdə filan yerdə idik…" "Mən Əbu Bəkr və Ömərlə birlikdə filan işi görürdük…"; "Mən Əbu Bəkr və*

*Ömərlə birlikdə düşdük…”; “Mən Əbu Bəkr və Ömərlə birlikdə filan yerə daxil olduq…”; “Mən Əbu Bəkr və Ömərlə birlikdə filan yerdən qalxdıq…”.*

Geri dönüb nə görsəm yaxşıdır? Bu sözləri deyən Allah razı olmuş Əli bin Əbu Talib imiş…» *(əl-Buxarinin və Müslimin haqqında həmfikir olduqları hədis).*

Fikir ver, bu Əmirəlmöminin Əli bin Əbu Talibin -ﷺ *və onu da Özündən razı salsın!-* şəhadətidir.

Huzeyfə bin əl-Yəmənidən rəvayət olunur: «Peyğəmbər ﷺ dedi: *“Görəsən məndən sizə nə qalacaq? Məndən sonra Əbu Bəkrdən və Ömərdən nümunə götürün!”*» *(Bu hədisi ət-Tirmizi öz hədis toplusunda rəvayət etmiş və həsən hədis adlandırmışdır. Əl-Əlbani də öz “əl-Mişkat” əsərində onunla razılaşmışdır).*

Əbu Bəkrdən ﷺ rəvayət edirlər ki, bir kişi Peyğəmbərə ﷺ demişdir: *“Yuxuda gördüm ki, səmadan tərəziyə oxşar bir şey endi, sən və Əbu Bəkr özünüzü çəkdirdiniz, sən ağır gəldin, sonra Əbu Bəkr və Ömər özlərini çəkdirdilər, Əbu Bəkr ağır gəldi. Sonra Ömərlə Osman özlərini çəkdirdilər, Ömər ağır gəldi. Sonra tərəzi göyə çəkildi”. Bu sözdən sonra Peyğəmbərin halı pisləşdi. Yəni bu, ona çox pis təsir etdi. O belə dedi: “Bu, Peyğəmbərin xəlifələrinin ardıcıllığına işarədir, sonra – Allah hakimiyyəti istədiyinə verəcək”* (Bu hədisi ət-Tirmizi rəvayət etmiş və demişdir ki, həsən-səhih hədisdir. Əl-Əlbani və Əbu Davud da onunla razılaşmışlar).

Bütün bu xidmətlər və üstünlüklər, hətta bizim bu mövzuda zəif və uydurma rəvayətlərdən imtina etdiyimizə baxmayaraq olduqca çoxdur.

Bir neçə hədisi göstərək: *“Mən elmin şəhəriyəm, Əbu Bəkr onun hasarı, Ömər onun yeri, Əli isə qapısı”*. Bu, uydurma hədisdir.

Elə ki, Peyğəmbər ﷺ vəfat etdi və müsəlmanlar özlərinin Peyğəmbərdən ﷺ sonra özlərinin ən ləyaqətlisinə sədaqət andı içdilər. Bir çox ərəb qəbilələri İslamdan üz döndərdi. Bu qəbilələr içərisindən əl-Əsvəd əl-Ənsi, Müseylimə, Səcah kimi özlərinin peyğəmbər olduqlarını iddia edənlər də oldu.

Bəzi qəbilələr zəkat verməkdən boyun qaçırdılar. Onlar öz şübhələrini aşağıdakı ayədəki sözlərlə əsaslandırırdılar: **«Onların mallarından sədəqə al. Bununla onları təmizləmiş, pak etmiş**

**olarsan. Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır. Allah eşidəndir, biləndir!»** *(ət-Tövbə, 103)*

Ərəblər belə deyirdilər ki, biz, bizim üçün namaz qılan, yəni dua edən Peyğəmbərə ﷺ sədəqələr (zəkat) verirdik. İndi o ölüb, biz də başqasına sədəqə verməyəcəyik. Onlar Əbu Bəkrin yanına gəlib bu fikirlərini ona bildirdilər və zəkatı verməmək, yalnız namaz qılmaq üçün izn istədilər.

Allah razı olmuş Əbu Bəkr bu təklifi rədd etdi və dedi ki, zəkat Allahın mal-dövlət üzərində haqqıdır, Allaha and olsun ki, mən namazla zəkat arasında fərq qoyanlarla ölüm-dirim döyüşünə girməyə hazıram.

Səhabələrdən çoxu Qiblə əhli ilə döyüşməkdən imtina etmək istəyir və deyirdilər ki, biz namaz qılıb: "Allahdan başqa məbud yoxdur, Məhəmməd Allahın elçisidir" – deyib şəhadət verənlərlə necə döyüşək?

Peyğəmbər ﷺ özü bir vaxt demişdir: *"Mənə əmr olunub ki, insanlar Allahdan başqa heç bir məbudun olmadığına, Məhəmmədin Allahın elçisi olduğuna şəhadət verməyincə, namaz qılıb, zəkat verməyincə onlarla döyüşüm. Bunu etsələr, öz canlarını və mallarını məndən qorumuş olarlar. Yalnız onların üzərinə düşən haqqı ödəyərlər, və haqq-hesablarını Allah kəsər"*.

Əbu Bəkr demişdir: "Zəkat tövhid (Allahın təkliyinə şəhadət) haqqıdır. Allaha and olsun ki, mənə Allahın elçisinə verdikləri zəkatdan bir qırıq çatı (heyvanın başına bağlanan ip nəzərdə tutulur) belə az versələr, mən buna görə onlarla vuruşaram".

Buna görə də Qurani Kərimin səhabələrdən və onların ardıcıllarından olan təfsirçilərindən çoxu bu aşağıdakı ayənin mənasını Əbu Bəkrlə əlaqələrdirməkdə haqlıdırlar. Həmin ayə əl-Maidə surəsinin 54-cü ayəsidir: **«Ey iman gətirənlər! Sizdən hər kim dinindən dönsə,** *(bilsin ki)* **Allah** *(onun yerinə)* **elə bir tayfa gətirər ki,** *(Allah)* **onları, onlar da** *(Allahı)* **sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər…»**

Belə deyirlər ki, Allahın elçisinin ﷺ zamanında bir nəfər də öz dinindən dönməmişdir. Bu hadisə Allah razı olmuş Əbu Bəkr əs-

Siddiqin xəlifəliyi dövründə baş vermişdir. Ayədə də o və onunla birgə olan səhabələr nəzərdə tutulur. Onlar o adamlardır ki, Allah onları dindən dönənlərə qarşı döyüşə qaldırmışdır. Onlar Allahın, O da onların sevimlisidirlər. Onlar dindən üz döndərənlərə qarşı cihad etmiş və gördüyün kimi, Allah qarşısında tənə edənlərin tənəsindən qorxmamışlar.

Bu təfsirin doğru olduğu oradan da bilinir ki, bu ayədə gələcək zamandan söhbət gedir, çünki Peyğəmbərin ﷺ sağlığında dindən geri dönmək halı olmamışdır. Allah taala bunun belə olub-olmadığını hamıdan yaxşı bilir.

Əbu Bəkr əs-Siddiqin ﵁ xəlifəliyinin doğru-düzgün olduğunu göstərən sübutlardan biri də Allah taalanın bu qiymətli ayədəki sözüdür: **«Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə – yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, onlar üçün onların Allahın Özü bəyəndiyi dinini möhkəmləndirəcəyini və onların qorxusunu sonra əmin-amanlıqla əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra da küfr edənlər, şübhəsiz ki, əsl fasiqlərdir»** *(ən-Nur, 55)*

Böyük alim İbn Kəsir bunu belə təfsir edir: «Bu Allah taaladan Onun elçisinə ﷺ verdiyi vəddir ki, onun ümmətini yer üzünün xəlifələri (varisləri) etsin, onların köməyi ilə ölkələrdə sülh olsun, əvvəllər insanlardan gözlədikləri qorxunu onlar üçün əminamanlıq və onların insanlar üzərində hökmranlığı ilə əvəz etsin.

Qürur və bolluq sahibi və hər şeydən uca Allah artıq dediyini etmişdir. Biz Ona alqış deyir və minnətdarlığımızı bildiririk. Peyğəmbərin ﷺ Məkkəni, Xeybəri, Bəhreyni, Ərəbistan yarımadasının digər bölgələrini, bütünlüklə Yəmən torpağını fəth etməmiş, Şamın və Həcər qəbiləsinin atəşpərəslərindən can vergisi almamış, Rum hökmdarı, Misirin və İsgəndəriyyənin sahibi Müqəvqis, Əmman hökmdarları, Allah rəhmət etmiş və kəramət vermiş Əsməhədən sonra hakimiyyətə gəlmiş Həbəşistan hökmdarı Nəcaşi ona hədiyyələr göndərməmiş ülməməsi də Allahın bu vədini yerinə yetirməsi ilə əlaqədardır.

Peyğəmbər ﷺ öləndən sonra Allah ona bütün kəramətlərini qismət elədi. Belə ki, ondan sonra onun xəlifəsi (davamçısı) Əbu

Bəkr əs-Siddiq onun işini davam etdirməyə başladı.

O Peyğəmbərin ﷺ ölümündən sonra Ərəbistan yarımadasında başlayan qarımaqarışıqlığı qaydaya saldı. İslam ordularını Allah razı olmuş Xalid bin əl-Validin sərkərdəliyi ilə farsların üzərinə göndərdi və bu ordu fars diyarının bir hissəsini fəth etdi.

Başqa bir ordunu Allah razı olmuş Əbu Ubeydənin sərkərdəliyi ilə Şama, üçüncünü Amr bin əl-Asın sərkərdəliyi ilə Misir ölkəsinə göndərdi. Allah bu ölkələri onlara təslim etdi.

Allah Əbu Bəkr əs-Siddiqə Ömər əl-Fəruqu (yaxşını yamandan ayırmağı bacaran Öməri) özündən sonra xəlifə etmək ilhamı verməklə İslam əhlinə böyük səadət bəxş etmişdir. Ömər ondan sonra var gücü ilə işə başladı.

Dünyaya peyğəmbərlərdən sonra onun kimi güclü təbiətə və mükəmməl ədalətə malik başqa bir adam gəlməyib. Onun hökmdarlığı zamanı bütünlüklə Şam ölkələrinin, axıra kimi Misir diyarının, Fars ərazilərinin əksəriyyətinin fəthi başa çatdı. O Kəsranın qürurunu sındırdı və onu olduqca alçatdı. Qeysərinin əlini gödəltdi və o əlini Şam ölkəsindən çəkib Konstantinopala qayıtmağı məcbur oldu. Ömər onların mal-dövlətini Peyğəmbərin ﷺ vəd etdiyi kimi, Allah yolunda sərf etdi.

Sonra Osmanın xəlifəliyi zamanı İslam məmləkətlərinin ərazisi Yer kürəsinin ən ucqar şərqinə və qərbinədək uzandı. Avropada Əndəlüsə və Kiprədək çatdı. Avropanın cənub-qərbində, Atlantik okeanı sahillərində yerləşən Qeyrəvan (Kayraun), Sibtə (Şimalı Afrika) ölkələri, şərqdə Çin ölkəsinin ucqarları fəth olundu. Kəsra öldürüldü və torpağı torba ilə daşındı.

Aşağıdakı səhih hədisdə Peyğəmbərin ﷺ belə dediyi göstərilir: *"Allah Yer kürəsinin səthini açıb mənə göstərdi. Mən orada mənim üçün ayrılmış torpaqların şərq və qərb hüdudlarını gördüm. Mənim ümmətimin mülkü mənim üçün ayrılmış torpaqlar qədər artacaq".*

İmam Müslim öz "Səhih" əsərində göstərir ki, Peyğəmbər ﷺ demişdir: *"Nə qədər ki, hamısı Qureyşdən olan on iki kişi onlara hökmdarlıq edəcək, adamların işi yaxşı gedəcək".*

Artıq bu Peyğəmbərin uzaqgörənliyi həqiqətə çevrilmişdir. Bu hədisdən məlum olur ki, müsəlmanların işlərinin qaydasında olması üçün onlara on iki ədalətli xəlifənin başçılıq etməsi zəruridir. Burada şiə imamları nəzərdə tutulmur. Şiə imamlarından çoxunun

həqiqətdə heç bir hakimiyyəti olmamışdır. Haqqında danışılan on iki kişi isə Qureyşdən olmalı, bir-bir hakimiyyət başına gəlib xalqı ədalətlə idarə etməli idilər.

Bundan əlavə burada belə bir şərt qoyulmur ki, onlar hökmən bir başa bir-birinin ardınca gəlmişdilər. Ardıcıllıq deyiləndə onların bu ümmətdən olub, müxtəlif fasilələrlə bir-birindən sonra hakimiyyətə gəlməsi nəzərdə tutulur. Onlardan dördü isə bir-birindən bilavasitə sonra hakimiyyətə gəlmişlər ki, bunlar Əbu Bəkr, Ömər, Osman və Əlidir (Allah onlardan razı olsun!).

Onlardan sonra müəyyən vaxt keçmiş, sonra Allah kimi istəmişsə, o başçı olmuşdur. Daha sonra Allah taalanın bildiyi vaxtda onların qalanları hakimiyyətdə olaçaqlar. Onlardan biri də adı Peyğəmbərin ﷺ adına, kunyəsi (təxəllüsü) kunyəsinə uyğun gələn Mehdi əl-Müntəzərdir (gözlənən Mehdidir) ki, indiki dövrdя zülmlə dolu olan yer üzünü yaxşılıq və ədalətlə dolduracaq» *(İbn Kəsirin təfsirindən 3/ 398-399).*

Yuxarıdakı ayədən bu nəticələri çıxara bilərik:

Allah möminlərə vəd etmişdir ki, onlara qorxularını əmin-amanlıqla əvəz edəcək. Səhabələrin zamanında, düşmənlərin çox, onların az olmasına baxmayaraq, belə olmuşdur. Allah taala onları düşmənləri üzərində qalib çıxarmış, onlara öz ölkələrində əmin-amanlıq qismət etmiş. Sayca onlardan qat-qat çox olan əcəmlər onlardan qorxmuş, onlara hər şeyin haq-hesabını vermişlər.

Biz isə bu əsrdə əmin-amanlığın heç dadını da bilmirik. Hər hansı bir anda düşmən gözlənilmədən üstümüzə basqın edib, qanımızı, malımızı və namusumuzu əlimizdən ala bilər. İqtisadi böhranlar bizi sıxır. Mənəvi qorxu içərisində yaşayırıq, çünki məğlubiyyət və zəiflik hiss edirik. Maddi qorxu içərisində yaşayırıq, çünki Allahdan uzaqlaşmışıq;

bu ayə həm də rəşidi xəlifələrin xəlifliklərinin doğruluğuna aydın və açıq-aşkar bir dəlildir;

Əbu Bəkr əs-Siddiqin رضي الله عنه ən böyük xidmətlərindən biri də budur ki, on səkkiz yaşlı Usamə bin Zeyd Peyğəmbərin ﷺ şəxsən bayraq bağladığı ordusunu təchiz etmişdi. Bu zaman Peyğəmbər ﷺ Allah rəhmətinə getdi, orduya xəbər yolda çatdı və Usamə öz ordusu ilə birgə geri qayıtdı.

Lakin Əbu Bəkr hakimiyyətə gələn kimi səhabələrdən çoxunun

Rum ölkəsinə ordu göndərməməyi israr etdiklərinə baxmayaraq, gizli hazırlığa başladı. Onlar belə deyirdilər ki, ordunu öz dinindən üz döndərənlərlə vuruşmaq üçün göndərmək daha yaxşı olar.

Əs-Siddiq bu təklifi qətiyyətlə rədd etdi ki, Allaha and olsun ki, Peyğəmbər ﷺ öz əli ilə bağladığı bayrağı açmaram! Mədinədə itlər möminlərin analarının ayaqlarından yapışsa da (yəni Peyğəmbərin arvadlarını düşmənlərdən qorumaq üçün belə lazım gəlsə, bu ordunu burada saxlamayacağıq) Usamənin ordusunu Ruma göndərəcəyəm.

Əbu Bəkr səhabələr onun haqlı olduğunu başa düşənədək israrla öz əmrinin üstündə dayandı. İşi başa düşəndən sonra onlar onun sözünü təsdiq etdilər və əmrinin əleyhinə çıxmadılar. Çünki o, Peyğəmbərin ﷺ əs-Siddiq (doğrucul) adlandırdığı adam idi.

Beləliklə, o, ordunu göndərdi. Onun yanında məsləhətləşmək üçün yalnız Ömər bin əl-Xəttab qaldı. Ömərin buna haqqı vardı.

Ordu öz dinindən üz döndərmək istəyən hər hansı qəbilənin yanından keçər-keçməz onlar öz dinlərinə qayıdır və öz-özlərinə belə deyirlər: “Onlar zəif olsaydılar Rumla döyüşə çıxmazdılar”. Bu, İslamın və müsəlmanların köməyinə gəldi, qəbilələrdən bir çoxunun din yolundan çıxmasına mane oldu, Ərəblərdən ürəklərində ata-babalarının intiqamını almaq üçün Mədinə üzərinə hucum etmək kimi pis fikir gəzdirən, cahiliyyə dövrünə qaytarmaq istəyənlərə aman vermədi. Ordu Rumu istila edib qalibiyyətlə və qənimətlə, sağ-salamat geri qayıtdı.

Bir dəfə Peyğəmbər ﷺ, Əbu Bəkr, Ömər, Osman, Əli, Təlha və Zubeyrlə birlikdə Hira dağında idi. Birdən qaya parçası yerində oynadı. Peyğəmbər ﷺ dedi: *“Sakit dayan, sənin üstündə bir Peyğəmbərdən, bir doğrucul adamdan bir şəhiddən başqa heç kim yoxdur”* (İmam Müslimin öz “Səhih”ində rəvayət etdiyi hədis).

Əbu Bəkr əs-Siddiqin رضي الله عنه xidmətlərindən və üstün cəhətlərindən bizə gəlib çatan bunlardır. Biz də Allahın köməyi və gücü ilə onun xilafətinin, müsəlmanların ona inanmasının və aralarında heç bir müxalifətçi olmadan onun ətrafına toplaşmasının necə mümkün olduğunu bəyan etmək istəyirik.

Biz inanırıq ki, Peyğəmbər ﷺ özündən sonra, nə Əbu Bəkrin nə də başqa bir nəfərin xəlifə olması haqqında heç nə deməmiş və yazmamışdır. Bu məzmunda elə işarələr və eyhamlar olmuşdur ki, onları yalnız dərrakəli adam başa düşə bilər.

İmam Əhməd, Peyğəmbərin ﷺ həyatından yazan digər

müəlliflər və tarixçilər öz səhih rəvayətlərində belə demişlər ki, Peyğəmbər ﷺ ölüm yatağında olanda Əbu Bəkr müsəlmanlarla birlikdə sübh namazını qılırmış. Bu zaman Peyğəmbər ﷺ ağrının ara verdiyini görüb ayağa qalxır, otağın pərdəsini qaldırıb namaz qılmaq üçün səf-səf düzülmüş müsəlmanlara baxır. Bu onun xoşuna gəlir. Peyğəmbər ﷺ gülümsəyir. Bunu görən müsəlmanlar fərəhlərindən namazı yarımçıq qoymaq istəyirlər. Əbu Bəkr də istəyir ki, bir az gözləsin, Peyğəmbər ﷺ gəlib öz yerinə keçib camaatın namazına imamlıq etsin. Peyğəmbər ﷺ onlara işarə edir ki, namazlarını davam etdirsinlər və pərdəni salır.

Bu, Peyğəmbərin ﷺ ömrünün son anları idi. Əbu Bəkr namazı qurtardıqdan sonra onun yanına gəldi. Aişəyə dedi ki, deyəsən Allahın elçisinin ﷺ ağrısı kəsilib. Sonra atına minib Mədinənin şərqindəki evinə getdi.

Peyğəmbər ﷺ həmin gün günəş işığı güclənən vaxtda vəfat etdi. Səhabələr ölüb-ölməməsi haqqında müxtəlif fikirdə idilər. Biri deyirdi ölüb, biri deyirdi ölməyib. Bu o qədər davam etdi ki, əs-Siddiq gəlib onun üzünü açdı və öpdü. Sonra belə dedi: "Atam anam sənə fəda olsun! Sən öləndən sonra da sağlığındakı kimi gözəlsən!..".

Sonra tez çıxıb məscidə getdi, minbərin yanında dayanıb, adamları çağırdı. Onlar gəlib əyləşdilər və qulaq asmağa başladılar. O dedi: "Kim Məhəmmədə ibadət edirdi, bilsin ki, Məhəmməd artıq ölmüşdür. Kim Allaha ibadət edirdi, bilsin ki Allah sağdır, O ölmür. Allah taalanın bu sözünü xatırlayın: **«Məhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişlər. Əgər o ölsə, və ya öldürülsə, siz geri dönəcəksiniz?...»** *(Ali İmran, 144)*.

Allaha and olsun ki, adamlar onlara üz vermiş bədbəxtlikdən, Allahın elçisinə olan məhəbbətlərinin çoxluğundan Allahın bu ayəni Əbu Bəkr oxumazdan əvvəl nazil etdiyini xatırlamalıdılar. Lakin bundan sonra onu hər kəs xatırladı və yeri gəldikdə oxumayan olmadı. Ömər bu barədə belə demişdir: "Allaha and olsun ki, elə ki, Əbu Bəkrin bu ayəni oxuduğunu eşitdim, onda başa düşdüm ki, bu ayədə deyilənlər doğru imiş. Özümü yaralı kimi hiss etdim, sustaldım, hətta ayaq üstə dura bilmədim. Ayaqlarımın mənə gücü çatmırdı, hətta yerə yıxıldım".

Adamlar bu zaman ağlayır, həyacan keçirirdilər. Əbu Bəkr mübahisəni kəsdi və çətinliyi aradan qaldırdı. Hamısı onun yanına qayıtdılar. Ənsarların arasına söz-söhbət düşdü onlar və Bəni

Saidənin talvarı altına toplaşdılar. Onlardan bəzilərində xilafətin başında ənsarlardan olması fikri baş qaldırmışdı. Bəziləri isə belə bir ortaq hakimiyyət fikri irəli sürdülər ki, bir əmir mühacirlərdən, biri də ənsarlardan olsun.

Bu hal Əbu Bəkr gələnədək davam etdi. Əbu Bəkr əs-Siddiq gəlib onların şübhələrinə son qoydu. O bildirdi ki, valilər Qureyşdən olmalıdır. Ənsarlar onun bu fikrini qəbul etdilər, ondan razı qaldılar və ona sədaqət andı içdilər.

Peyğəmbərin ﷺ vəfatının səhəri günü adamlar məsçidə toplaşıb Əbu Bəkrə sədaqət andı içdilər. Bəziləri elə dünən and içmişdilər. Sonra Əbu Bəkr minbərə qalxıb dedi: "Allaha həmd olsun! Mən Ona Onun layiq olduğu kimi tərif deyirəm".

Sonra adamları nəzədən keçirdi. Zubeyri onların arasında görmədi. Onu dəvət etdi, o gəldi. Əbu Bəkr dedi: "Dedim ki, Peyğəmbərin ﷺ bibisi oğlu və şagirdi (həvarisi) kimi bəlkə bir söz deyəsən, müsəlmanların dilini (yığıncağını) açasan". Zubeyr dedi: "Ey Allahın elçisinin xəlifəsi, heç bir iradım yoxdur" – deyib ayağa qalxdı və ona beyət etdi (sədaqət andı içdi).

Əbu Bəkr adamlara bir də nəzər saldı, onların içərisində Əlini görmədi. Onu dəvət etdi, o gəldi. Əbu Bəkr ona dedi: "Sən əmisi oğlu və kürəkənisən. Mən istərdim ki, bir söz deyəsən, müsəlmanlar eşitsinlər". Əli dedi: "Ey Peyğəmbərin xəlifəsi, heç bir iradım yoxdur". Bunu deyib o da Əbu Bəkrə sədaqət andı içdi. Sonra Əbu Bəkr dedi: "Beləliklə, mən sizin ən yaxşınız olmasam da – o bunu təvazökar olduğundan və özünü təmizə çıxarmağa ehtiyac duymadığı üçün dedi, – sizin hökmdarınız oldum. Əgər yaxşı xəlifə olsam, mənə kömək edərsiniz, pis olsam, mənə xəbərdarlıq edərsiniz, səhvlərimi düzəldərsiniz. Doğru söz sədaqətdir, yalan söz isə xəyanət. Sizin zəifiniz mənim yanımda güclü olacaq, Allah qoysa dərdinə çarə qılacağam. Güclü mənim yanımda zəif olacaq, Allahın izni ilə ondan haqq alacağam. Allahın bədbəxtliyə uğratmadığı heç bir tayfa Allah yolunda cihaddan əl çəkməz, Allahın bəlaya düçar etmədiyi tayfa əxlaqsızlığa yol verməz. Nə qədər ki, Allaha və Onun elçisinə itaət edirəm, mənə itaət edin. Elə ki, Allaha və Onun elçisinə asi oldum, mənim sizin üzərinizdə itaətim olunmaq haqqım qalmır".

Sonra camaat qarşısında üzrxahlıq edib dedi: "Allaha and olsun ki, mən nə gündüz, nə gecə, nə gizli, nə də aşkar əllaməlik fikrinə düşməmişəm". Mühacirlər onun bu sözlərini qəbul etdilər. Əli və Zubeyr isə ona dedilər: "Biz yalnız ona görə qəzəbləndik ki, zirzəmi

məşvərətinə gecikmişdik. Biz də Əbu Bəkri bu mənsəbə ən layiqli adam kimi tanıyırıq. Sən Peyğəmbərlə mağarada yoldaşlıq etmiş adamsan. Biz sənin şərəfli adam olduğunu və haqqındakı səmavi xəbəri bilirik. Bizə məlumdur ki, Peyğəmbər ﷺ hələ sağ ikən sənə bizimlə birgə namaz qılmağı əmr etmişdi".

Əbu Bəkr onların hər ikisindən razı qaldı və üzünü müsəlmanlara tutub dedi: "Durun namazınızı qılın, Allah sizə rəhmət eləsin!" *(Bu hədis yaxşı isnadladır. Əlavə məlumat üçün bax: İbn Kəsirin "Əl-bidəyə və ən-nihayə" kitabı 5/ 219).*

Beləliklə, Əbu Bəkr əs-Siddiqin xilafəti iki il üç ay davam etdi. O, hicri tarixinin 13-cü ilində, bazar ertəsi günü, axşam çağı 15 gün davam edən xəstəlikdən sonra vəfat etdi və həmin gecə dəfn olundu. O, xəstə olanda Ömər onun yerinə camaatla namaz qılırdı. Ölüm yatağında ikən özündən sonra möminlərə əmirlik etməyi Ömər bin əl-Xəttaba vəsiyyət etmişdi. Onun bu vəsiyyətini Osman bin Əffan yazmışdı. Vəsiyyət müsəlmanlara oxunmuşdu. Hamı – onu, dinləmiş, qəbul etmiş və ona itaət etmişdi.

O da Peyğəmbərlə ﷺ eyni yaşda vəfat etmişdi. Allah onları həyatda dost və silahdaş etdiyi kimi, torpaqlarını da bir-birinə qarışdırmış, onlar bir yerdə dəfn olunmuşlar. Allah ondan razı olsun və onu da Özündən razı salsın!

# ÖMƏR ƏL-FARUQUN ؓ XİDMƏTLƏRİ VƏ FƏZİLƏTİ

Ömər bin əl-Xəttab qüvvətli, möhkəm əzələli, üzünün rəngi qırmızıya çalan, böyük ayaqları, əlləri olan, enlikürək, ucaboylu bir kişi idi. Boyu elə uca idi ki, adamlarla birlikdə yol gedəndə başı hamıdan hündürdə görünərdi. Onun haqqında hamı belə deyərdi: "Ömərin dili şirin, yerişi iti, zərbəsi ağırdır".

O, həyatı boyu heç kəsdən qorxmamışdır. Cahiliyyə dövründə İslamdan kənarda qalması Qureyşin bütünlükdə müsəlmanlara verdiyi əzab-əziyyətə bərabər tutulurdu. İslamı qəbul edəndən sonra müsəlmanların tərəfində bütün İslam tərəfdarlarının birlikdə müşriklərə müqavimətinə bərabər idi.

Onun ciddiyəti, ağlı və ədaləti hamıya nümunə göstərilirdi. Hətta o səhabələrin arasında yeganə adam idi ki, Allahın elçisi ﷺ ilə çox şeyi müzakirə edərdi və bəzən Allahın elçisinə ﷺ təkliflər verər və təklifləri qəbul olunardı.

O, İslamın düşmənlərinə güclü təzyiq göstərər, lakin bunu həddini aşmaqla, özünü qəsdən ciddi göstərməklə və amansızlıqla deyil, onlara hər şeydən üstün gəlməklə edərdi.

O, İslamı qəbul etdiyi gün mömin camaatın üzvlərinin sayı qırxa çatdı. Müsəlman olduğundan bir neçə an keçməmişdi ki, şücaətli qəlbində öz dininə və qardaşlarına qarşı məsuliyyət hissi baş qaldırdı.

Ömər bin əl-Xəttabın islam dinini qəbul etməsi Peyğəmbərə ﷺ vəhy gəlməsinin altıncı ilində, Peyğəmbərin ﷺ əmisi Allah razı olmuş Həmzə bin Abdul-Muttəlibin İslamı qəbul etməsindən üç gün sonra baş vermişdir.

Peyğəmbər ﷺ Allah taalaya Ömərin müsəlman olması üçün aşağıdakı hədisdə göstərildiyi kimi dua etmişdir: *"Ey Allah, İslamı Sənin ən çox sevdiyin iki kişi ilə: Ömər bin əl-Xəttab və Əbu Cəhl bin Hişamla qüvvətləndir"*. Onların ikisindən Ömər ؓ Allahın daha çox sevdiyi bəndəsi olmuşdur.

Ömər ağlasığmaz qüvvəyə malik bir adam idi. Onun İslamı qəbul etməsi müşriklər arasında rüsvayçılıq və alçaqlıq kimi səs-küyə səbəb oldu, müsəlmanlara isə qüvvət, şərəf və sevinc paltarı

geyindirdi.

İbn İshaq (1/349) Ömərə isnadla belə rəvayət etmişdir: «İslamı qəbul etdikdən sonra, Məkkədə kimin Peyğəmbərə daha çox ədavət bəslədiyini fikirləşdim və xatırladım ki, o adam Əbu Cəhldir. Onun evinə gəldim, qapını döydüm və o, bayıra çıxdı. Mənə xoş gəldin dedi, sonra soruşdu: "Nə üçün gəlmisən?". Dedim: "Gəlmişəm ki, Allaha və Onun elçisi Məhəmmədə və onun gətirdiyi xəbərin düzgün olduğuna inandığımı sənə deyim". O, qapını üzümə çırpdı və dedi: "Allah sənə də, gətirdiyin xəbərə də lənət eləsin!"».

Abdullah bin Abbas *-Allah onların hər ikisindən razı olsun!-* Ömər bin əl-Xəttabdan soruşmuşdur: "Sənə niyə əl-Faruq deyirlər?". Ömər ﵁ demişir: «Mən İslamı qəbul edəndə Peyğəmbərə dedim: "Ölsək də, qalsaq da haqlı deyilikmi?" Peyğəmbər ﷺ dedi: "Əlbəttə, and olsun mənim ruhum əlində Olana, siz ölsəniz də qalsanız haqlısınız". Onda mən dedim: "Belə isə gizlənmək nə üçündür? Səni haqla yer üzünə Göndərənə and olsun ki, aşkara çıxmaq lazımdır".

Biz iki sıra düzülüb küçəyə çıxdıq. Sıranın birində Həmzə, o birində mən gedirdim. Müşriklər eşitsinlər deyə ayaqlarımızı yerə elə bərk vururduq ki, səsi həvəng – dəstənin səsinə oxşayırdı. Qureyş camaatı məni və Həmzəni müsəlmanların arasında görəndə onları bu vaxtadək görünməmiş kədər bürüdü. Peyğəmbər o gün məni əl-Faruq adlandırdı» *(İbn əl-Cövzinin "Tarixi-Umər" ("Ömərin tarixi") əsəri, 1/ 349; Mübarəkfurinin "Ər-rəhiq əl-məxtum" ("Bağlı boxça") əsəri, 105).*

Suheyb bin Sinan ər-Rumidən ﵁ belə rəvayət olunur: "Ömər müsəlman olan kimi, islam dini gizlindən aşkara çıxdı, onun açıq təbliğatı başlandı. Biz dövrə vurub Kəbənin ətrafında əyləşdik, onun başına dolandıq, bizə qarşı kobudluq edənlərdən ədalətli olmağı tələb etməyə başladıq və yeri gələndə onlara kobud cavablar verdik" *(Abulfərəc bin əl-Cövzinin "Tarix-Umər bin əl-Xəttab" əsəri, 3)*.

Abdullah bin Məsud demişdir: "Ömər müsəlman olandan biz həmişə olmuşuq. Onun İslamı qəbul etməsi müsəlmanların qələbəsi, hicrət etməsi – onların arxalı olması, əmirliyi isə müsəlmanlara Allahın mərhəməti idi. Ömər İslamı qəbul edənədək biz Kəbədə

namaz qıla bilmirdik" *(əl-Buxarinin "Səhih" toplusu, "Ömər bin əl-Xəttabın İslamı qəbul etməsi", fəsli, 1/ 545)*.

Əl-Faruq – Ömərə İslamı qəbul etdiyi gündən haqla nahaqqı, gizli ilə aşkarı, qorxu ilə şücaəti, qələbə ilə təqibi bir-birindən fərqləndirdiyi üçün verilmiş addır.

Peyğəmbər ﷺ bir dəfə demişdir: *"Yuxuda mənə bir qədəh süd verdilər. O qədər içdim ki, gördüm dırnaqlarımın altından süd çıxır. Sonra artıq qalan südü Ömər bin əl-Xəttaba verdim". Demişlər: "Ya Allahın elçisi yuxuda gördüyün nə imiş?". Demişdir: "Elm"* (əl-Buxari və Müslim).

Peyğəmbər ﷺ demişdir: *«Yatmış idim, yuxuda köynək geyinmiş adamlar gördüm. Bəzilərinin köynəkləri döşlərinə çatır, bəziləri ondan da qısa idi. Onların arasında Ömər bin əl-Xəttabı gördüm, əynində köynək vardı, yerlə sürünürdü. Dedilər: "Ey Allahın elçisi, yuxuda gördüyün nə imiş?" dedi: "Din"»* (əl-Buxari və Müslim).

Peyğəmbər ﷺ demişdir: *"Əbu Bəkr və Ömər peyğəmbərlərdən və mürsəllərdən (elçilərdən) sonra əvvəlincilərdən və axırıncılardan olan Cənnət əhlinin böyüklərinin ağasıdırlar"* (ət-Tirmizi və İbn Macə Allah razı olmuş Əli bin Əbu Talibdən rəvayət etmişlər. Səhih hədisdir).

Peyğəmbər ﷺ demişdir: *"Allah haqqı Ömərin dilinə və qəlbinə ölçüb-biçmişdir"* (ət-Tirmizi rəvayət etmiş və həsən hədis adlandırmışdır).

Peyğəmbər ﷺ daha sonra demişdir: *"Sizdən əvvəl gəlmiş millətlərdə də dedikləri gerçəkləşən adamlar olmuşdur, mənim ümmətimdə belə bir adam olsa, Ömər olacaq"* (əl-Buxari və Müslimin "Səhih"lərində verilmiş, onların haqqında həmfikir olduqları hədisdir).

İnsanın sözünün doğrulması, yəni gümanla dediyi bir fikrin sonralar həyata keçməsi Allahın qəlbə saldığı ilham növlərindən biri olub, bir çox adama nəsib olur, lakin az halda özünü deyildiyi şəkildə göstərir. Ömərin rəyinə uyğun olaraq nazil olmuş Quran ayələri bu qəbildəndir.

Allah razı olmuş Ənəsin dediyinə görə Ömər belə demişdir: «Üç şeydə mənim rəyim Tanrımın rəyinə uyğun gəlib.

Birinci Peyğəmbərə müraciət etmişəm ki, ey Allahın elçisi, nə

olar İbrahimin durduğu yeri namaz yeri seçək? Bu münasibətlə əl-Bəqərə surəsinin 125-ci ayəsi nazil oldu: **«…İbrahimin durduğu yeri** *(özünüzə)* **namazgah edin!…».**

İkincisi, bir dəfə dedim ki, ey Allahın elçisi, sənin qadınlarının yanına namuslu adamlar da girir, namussuzlar da, gəlsənə onlara əmr edəsən üzlərini örtsünlər? Bu münasibətlə əl-Əhzab surəsinin 53-cü ayəsi nazil oldu: **«…Onlardan** *(Peyğəmbərin zövcələrindən)* **bir şey soruşduqda, pərdə arxasından soruşun…».**

Peyğəmbərin qadınları dilbir olub bu sözə qarşı çıxdılar və ondan xahiş etdilər ki, digər adamların arvadları kimi, onların üzünə dünyanı açsın. Mən onda belə dedim: "Birdən o sizi boşasa və Tanrısı onun üçün sizi sizdən də yaxşı qadınlarla əvəz etsə necə olar?" Bu münasibətlə də ayə nazil oldu. Bu, ət-Təhrim surəsinin 5-ci ayəsidir: **«Əgər o sizi boşasa, ola bilsin ki, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr – müsəlman, mömin, itaətkar, tövbəkar, ibadət edən, oruc tutan dul qadınlar və ya bakirə qızlar versin!»** *(əl-Buxari).*

Ömərə qərəzlə yanaşanlar isə belə rəvayət edənlərə tənə etmək istəmişlər, çünki bu və ya digər halda Quranın Öməri rəyinə müvafiq nazil olması onlara ağır gəlir. Onlar onun Bədr əsirləri və şərab haqqında rəyləri kimi rəylərini və onların Qurana müvafiq olduğunu danmaq istəyirlər.

Bilmək lazımdır ki, Allahın kəlamı Ömərdən qat-qat aşağı səviyyəli, bəzən hətta kafir kimi tanınan birsinin sözünə belə uyğun gələ bilər. Çünki onu kimin söyləməsindən asılı olmayaraq, həqiqət həqiqətdir.

ən-Nəml surəsinin 34-cü ayəsində Allahın Səbə məlikəsi ilə eyni fikirdə olduğunu görmüsənmi? «*(Bəlqis)* **dedi: "Hökmdarlar bu ölkəyə girdikləri zaman onu xarabazara çevirər, xalqının böyüklərini də zəlil edirlər».**

Allah bundan bilavasitə sonra onu təsdiq edib deyir: **«Onlar məhz belə hərəkət edərlər».**

Ömər bin əl-Xəttab o adamdır ki, Allahın əmrini yerinə yetirməkdə kəskinlik göstərir, öz müsəlman qardaşlarına qarşı təvazökarlıq edər və öz Tanrısının qarşısında daim müti olardı.

Bir dəfə o, möminlərin əmiri ikən adamları yığıncağa dəvət edib

minbərə qalxdı və dedi: “Ey adamlar, vaxt olub ki, mən bir ovuc xurma və ya kişmiş müqabilində Bəni Məxzdən olan xalalarımın qoyunlarını otarmışam”. Sonra o minbərdən düşdü.

Ora toplaşanlar dəhşət içində idilər. Abdur-Rəhman bin Auf ona yaxınlaşıb dedi: “Ey əmirəlmöminin, bununla nə demək istəyirsən?”. Ömər cavab verdi: “Ey Aufun oğlu, öz nəfsimlə təklikdə qaldıqda o mənə dedi ki, sən möminlərin əmirisən, səninlə Allah arasında heç kəs yoxdur, kim səndən üstün ola bilər?… Ona görə də istədim ki, ona həddini tanıtım!!!”.

Bu adam o kişidir ki, Beytülmüqəddəsin açarlarını ələ aldı, onu xristianlardan azad etdi. Əbu Ubeydə Amr bin əl-Cərrah Qüds şəhərini mühasirəyə alıb mühasirəni gücləndirəndə rahiblər ona dedilər ki, biz kitablarımızda oxumuşuq ki, sizin əmiriniz açarları alacaq, xəbər göndər, qoy gəlib onları qəbul etsin. Əbu Ubeydə bunu eşidib Ömərə xəbər göndərdi ki, gəlib onları qəbul etsin. Ömər Mədinədən öz nökəri ilə bir dişi qatıra minib gəldi. Qatıra gah özü, gah nökəri minir, gah da minməyib heyvana istirahət verirdilər. Şəhərə yaxınlaşanda minmək növbəsi nökərə yetişdi, Ömər isə qatırının dalınca gedirdi. Qoşunun sərkərdəsi Əbu Ubeydə onu görüb qaça-qaça onun yanına gəldi və dedi: “Ey əmirəlmöminin, niyə palçıqda piyada gedirsən? Rahiblər səni belə görsələr, bizi zəif sayar – güclərini toplayıb müqavimət göstərərlər”. Onun cavabında Ömər tarixin bu günədək qoruyub saxladığı bu kəlamını dedi: “Allah bizi İslamla şərəfləndirənədək bir ad-sanımız yox idi, indi biz Ondan qeyrisindən şərəf istəsək, Allah bizi şərəfsiz edər”.

Bəli, ey əmirəlmöminin, Allaha and olsun ki, səndən sonra İslamı tərk etdik və zəlil olduq. Allah bizi zəlil edib güclüləri hər yerdə bizə hakim etdi. Biz indi zir-zibil qarışmış sel kimi çoxluğumuza baxmayaraq, dinimizə qayıtmasaq, əvvəlki nəsil kimi təvazökar olmasaq, məhəbbətlə dolu nümunяvi həyat tərzi keçirməsək və səmimi olmasaq, heç vaxt şərəfli olmayacağıq.

Bir dəfə Ömər paraqdan çıxıb qaçmış bir erkək dəvəni axtarmağa gedəndə qarşısına Əli bin Əbu Talib çıxır və ondan soruşur ki, ey əmirəlmöminin hara belə? O, Əliyə cavab verir: “Sədəqə dəvələrindən bir nər qaçıb, onu axtarıram”. Allah razı olmuş Əbulhəsən (Əli) deyir: “Ora bax, dalınca gələnləri yordun!…”, Ömər təngənəfəs ona cavab

verir: “Məhəmmədi haqla göndərənə and olsun, əgər bir keçi belə Fərat sahilinə getsəydi, Ömərdən Qiyamət günü ona görə haqq hesab çəkilərdi”.

O, olduqca Allahdan qorxan, təvazökar, öz nəfsini saxlayan bir adam idi. Tez-tez öz-özünə müraciətlə deyərdi: “Ad-sansız bir adam idin, Allah səni ucaltdı. Yolunu azmış birisi idin, Allah sənə düz yol göstərdi. Zəif idin, Allah sənə güc verdi. Bəs sən sabah öz Tanrının yanına getsən, Ona nə cavab verəcəksən?”.

Bir gün o, Əbu Musaya deyir: *“Ey Əbu Musa, Peyğəmbərlə ﷺ birlikdə İslamı qəbul etməyimizin, onunla birgə hicrət etməyimizin, şəhadət verməyimizin və dinə əməl etməyimizin hamısı bizə qaytarılıb, əl-ələ, baş-başa qalsaq, bu səni sevindirərdimi?”* Əbu Musa cavab verir: “Ey Ömər, Allaha and olsun ki, yox! Biz cihad etmiş, namaz qılmış, oruc tutmuş, çoxlu yaxşı işlər görmüşük, köməyimizlə çox adam İslamı qəbul edib. Bizim Allahdan mükafat istəməyə haqqımız var”. Ömər gözlərindən yaş axa-axa ona deyir: “Mən isə, Ömərin ruhu əlində Olana and olsun ki, razı olardım ki, bütün bunlar mənə qaytarılandan sonra uduzmayıb əl-ələ, baş-başa qalım”. Görün o, Allahdan nə dərəcədə qorxmuş və Onun böyüklüyündən necə çəkinmişdir!

Onun Allahpərəsliyi, ümməti üçün Allahdan qorxması və öz ümmətinə qayğısına aid bir misal gətirək: «Bir gün Azərbaycan valisi Utbə bin Fərqəd onun yanına hədiyyə ilə bir adam göndərir. Hədiyyə yeməli şey imiş. Ömər ondan dadır, ləzzətli və iştah açan olduğunu görür. Göndərilmiş adamdan soruşur: “Orada bütün müsəlmanlar bundan yeyirlər?”, kişi deyir: “Yox, bu əyanlar yeməyidir”. Ömər qabın ağzını bağlayıb həmin kişiyə deyir: “Dəvən hanı? Bu yükünü də götür, Utbənin yanına qayıt! Ona de ki, Ömər deyir ki, Allahdan qorx, sənin doyunca yediyin şeydən müsəlmanlar doyubmu?”».

Ömər vali təyin etdiyi adamın əlini öz əlinə alıb ona deyərdi: *“Mən səni müsəlmanların qanlarına və namuslarına ağalıq etmək üçün yox, onlarla birlikdə namaz qılmaq, aralarında düzgün mal bölgüsü aparmaq və ədalətlə hökm çıxarmaq üçün təyin etdim”.* Sonra ona deyərdi: “Məbadə şöhrətli minik minəsən, zərif paltar geyəsən, gen-bol yemək yeyəsən və qapını ehtiyacı olanların üzünə bağlayasan!”.

Bir gün Ömər minbərə qalxır ki, xütbə söyləsin. Allaha həmd edəndən sonra öz xütbəsini başlayıb belə deyir: “Allah sizə rəhm etsin, eşidin…”. Lakin müsəlmanlardan biri ayaq üstə durub deyir: “Allaha and olsun ki, eşitmirik, Allaha and olsun ki, eşitmirik!”. Ömər səbirsizliklə soruşur: “Niyə eşitmirsən, Salman?!”. Salman cavab verir, ki sən bu dünyada özünü bizdən üstün tutmusan: bizim hərəmizə bir əbalıq parça vermisən, özünə ikisini götürmüsən! Belə olduqda xəlifə adamların sıralarına göz gəzdirir və deyir: “Abdullah bin Ömər haradadır?”. Abdullah qalxır ki, ey Əmirəlmöminin, mən buradayam... Ömər adamların qarşısında ondan soruşur: “İkinci əbanın sahibi kimdir?”, Abdullah cavab verir ki, mənəm, ey Əmirəlmöminin! Ömər üzünü Salmana və digər adamlara tutub deyir: “Bildiyiniz kimi mən boyca ucayam, əbam mənə qısa gəldiyi üçün Abdullah öz əbasını da mənə verdi, mən də onunla öz əbamı uzatdım”.

Salman gözlərindən yaş axa-axa deyir: “Alllaha həmd olsun! İndi de, eşidək və itaət edək!”.

Misrin valisi və fatehi Amr bin əl-Asın oğlu Məhəmməd bir misirli ilə yarışır, misirli ona qalib gəlir. Valinin oğlu qəzəblənib misirlini vurur və deyir ki, yadda saxla, mən möhtərəm əyan oğluyam. Misirli valinin oğlundan şikayət etmək üçün Mədinəyə gedir. Ömər valiyə əmr edir ki, oğlunu da götürüb tez Mədinəyə gəlsin.

Gəlin hədisin ardını bizə Ənəs bin Malik rəvayət etsin: «Allaha and olsun ki, dediklərim doğrudur: Ömərin yanında oturmuşdum, elə bu vaxtı Amr bin əl-As geyimli-keçimli daxil oldu. Ömər dönüb nəzəri ilə onun oğlunu Məhəmmədi axtardı. O, atasının arxasında durmuşdur. Ömər soruşdu: “Misirli hanı?”. Misirli dedi: “Mən burdayam, ey Əmirəlmöminin!…”, Ömər dedi: “Şallağı götür, onunla möhtərəm əyanın oğlunu vur…”. Misirli onu o qədər döydü ki, o, haldan düşdü. Biz deməmiş ondan əl çəkmədi. Ömər isə hey deyirdi: “Vur əyan oğlunu!!!” sonra Ömər dedi: “Şallağın yerini dəyiş – yəni onu Amrın daz başına vur! – Allaha and olsun ki, onun əlində hakimiyyət olmasaydı, onun oğlu səni vura bilməzdi”. Misirli dedi: “Ey Əmirəlmöminin, məni vuranı doyunca, döyüb ürəyimdən tikanı çıxartdım…” Ömər dedi: “Amma, Allaha and olsun, əgər sən onu (Amrı) vursaydın özün əl çəkməyincə aranıza girən

deyildik…”. Sonra Ömər Amra tərəf döndü və dedi: “Ey Amr, analarından azad doğulmuş adamları nə vaxtdan qul etməyə başlamısan?!”. Sonra misirliyə tərəf dönüb dedi: “Arxayın get, bir şeydən şübhələnsən, mənə yaz!…”».

Ömər müzakirəyə ehtiyacı olan işlərdə başqaları ilə məsləhətləşsə də, Allahın elçisinin ﷺ ardınca gedib onun yolunu izləməkdə yüksək dərəcədə aludəçiliyə yol verərdi…

Hikmətini başa düşmədiyi məsələlərə özünü tamamilə həsr edər. Bunu yalnız ona görə edərdi ki, etibarlı Allahın elçisinin ﷺ də əvvəllər bu işi belə etdiyini bilirdi. Məsələn, Kəbədəki qara daşı öpür, sonra ona müraciət edərək deyir: “Sən nə ziyanı, nə xeyri olan bir daşsan. Allaha and olsun ki, Allahın elçisinin ﷺ səni öpdüyünü görməsəydim, mən də öpməzdim”.

Bir dəfə o, Allah razı olmuş Abbasın navalçasını yerindən qopardır ki, yağış suyu məscidin həyətinə axmasın. Lakin elə ki Abbas ona xəbər verir ki, bu navalçanı həmin yerə Allahın elçisi ﷺ qoyub, Ömər tez navalçanı gətirib, Abbasa and verir ki, onun çiyninə çıxıb navalçanı Allahın elçisinin ﷺ öz əlləri ilə qoyduğu yerə qoysun.

Bir gün, minbərdən camaata xütbə oxuyarkən deyir: “Qadınların mehrini qırx uqiyyədən (1 uqiyyə = 37,44 q) artıq etməyin. Kimin mehri bundan artıq olsa, artığı xəzinəyə qatılacaq”. Bu vaxt qadınlardan biri ayağa qalxıb deyir: “Sən bunu edə bilməzsən!” Ömər deyir: “Niyə ki?” qadın ona cavab verir: “Çünki Allah taala buyurur: **«…onlardan birinə çoxlu mal vermiş olsanız da, ondan heç bir şeyi geri almayın! Məgər bu malı böhtan atmaq və aşkar bir günah iş görməklə geri alacaqsınız?!»** *(ən-Nisa, 20)*”. Bunu eşidəndə Ömərin üzü sevincdən işıq saçırdı. O gülür və bu məşhur kəlamını söyləyir: “Qadın doğru dedi, Ömər – səhv”.

Ey Əmirəlmöminin! Bu vaxt sənin əleyhinə uyduranlar, səni eybəcər şəklə salmaq istəyənlər, sənin guya axmaq bir adam olduğunu, heç nə bilmədiyini deyənlər harada idilər?

Allah, Özün şahidsən! Məgər insan da heç nəyi unutmayan, heç bir səhv etməyən günahsız bir məxluq ola bilərmi? Lakin ibrət insanın etdiyi səhvdən önun səhvini etiraf etməsindən götürülməlidir. Bu zaman Ömər, qadını inkar etdimi? Adamların qarşısında təkəbbür

göstərdimi? Yox! Əksinə, o dərhal öz sözünü geri götürdü. Allah taalanın kəlamına tabe oldu, qadının sözünü təsdiq etdi.

Bəs o zaman İslam qadının hüququnu alır deyənlər harada idilər? Bu əhvalatdan göründüyü kimi, qadın müsəlmanlar arasında xəyalına gətirmədiyi hörmətə layiq görüldü. Budur o, İslam dövlətinin ən böyük dövlət xadiminə irad tutur, onun biliyinə hörmət edilir, rəyi nəzərə alınır.

Bir dəfə Məzinə qəbiləsindən olan bir kişinin bir dişi dəvəsini oğurlamış az yaşlı nökərləri Ömərin yanına gətirirlər. Ömər onların saralmış üzlərini, arıq bədənlərini görən kimi soruşur: "Bunların ağası kimdir?…". Deyirlər: "Hatib bin Əbu Bəltəə". Ömər əmr edir ki, onu çağırsınlar. O gəlir. Ömər soruşur ki, bunların ağası sənsən? – "Bəli, ey Əmirəlmöminin" – deyə o, cavab verir. Ömər deyir: "Əgər sizin onları çox işlədib ac saxlamağınızdan xəbərdar olmasaydım, az qala onları cəzalandıracaqdım. Onlar aclıqdan məcbur olub oğurluq ediblər, cəza sənin özünə düşür!…". Sonra dəvənin sahibindən soruşur: "Ey məzəni, dəvənin qiyməti nədir?". Kişi deyir: "Dörd yüz…" Ömər Hatibə deyir: "Get ona səkkiz yüz ver!!!". Sonra üzünü nökərlərə tutub deyir: "Gedin bir də belə etməyin!!!".

Allaha and olsun ki, əsil ədalət və insaf budur!

Bir gecə Ömər adəti üzrə adamlar yatandan sonra tək-tənha gəzintiyə çıxır ki, öz qövmündən arxayın olsun, onların əhvalından xəbər tutsun və ehtiyacları haqqında məlumat toplasın… O, Mədinənin kənarına çatanda bir köma görür. Oradan qadın iniltisi eşidir: Özünü tələsik kömaya yetirir. Kömanın qapısında bir kişi oturmuşdu. Kişinin inildiyən qadını əri olduğunu və qadının doğum ağrılarından əziyyət çəkdiyini öyrənir. Görür ki, bir nəfər yoxdur ki, qadına kömək etsin. Çünki bu kişi və onun arvadı bədəvilərdir, burada təkbaşına müvəqqəti məskən salmış adamdılar. Ömər tez evinə qayıdır. Öz həyat yoldaşı İmam Əli bin Əbu Talibin qızı Umm Gülsümə deyir: "Sənin elə bir mükafatın varmı ki, Allah Özü onu sənin yanına gətirib çıxarmış olsun?…". Umm Gülsüm deyir: "Xeyir olsun?!". Ömər deyir: "Bir qərib qadın ağrı çəkir, hayına çatan yoxdur". Umm Gülsüm məsələni başa düşüb deyir: "Əlbətdə icazə versən mən gedib ona kömək edərəm…".

Ömər ayağa qalxıb zahı qadının nəyə ehtiyacı olarsa hamısını: ərzaq, qab-qacaq, un, yağ hazırlayır, doğulacaq uşağı bükmək üçün pal-paltardan cırıb əski-üskü götürür. Əmirəlmöminin qazanı bir çiyniyə, unu bir çiyninə qoyub arvadına deyir: “Ardımca gəl…”. Onlar kömaya çatırlır. Əmirəlmömininin xanımı Umm Gülsüm o qadına doğuşda kömək etmək üçün içəri daxil oldu. Əmirəlmöminin isə kömanın yanında sacayaq quraşdırıb, qazan asır, altına od qalayıb, zahı qadın üçün yemək hazırlamağa başlayır. Qadının əri minnətdarlıqla ona baxırmış… Bəlkə də o öz-özü ilə danışıb deyirmiş ki, bu yaxşı ərəb xəlifəliyə Ömərdən daha çox layiqdir.

Birdən kömadan körpənin çığırtısı eşidilir… Anası onu sağ-salamat dünyaya gətirmişdi. Elə bu vaxt Allah razı olmuş Umm Gülsüm kömadan uca səslə deyir: “Əmirəlmöminin, dostuna muştuluq tut, oğlu oldu!!!”. Bədəvi ərəbi dəhşət bürüyür. Özü utandığındın geri çəkilir. İstəyir ki, bu iki ifadə etsin: “Əmirəl-möminin”, lakin qəfil səadətdən və bu təzə xəbərdən özünü itirdiyindən dodaqları sözünə baxmır. Ömər bütün bunları müşahidə edib, kişiyə işarə edir ki, öz yerində qalsın, narahat olmasın. Sonra Əmirəlmöminin qazanı götürüb kömaya yaxınlaşır və öz arvadını cağırır: “Umm Gülsüm, qazanı al, uşağın anasını yedizdirib-doyuzdur…”. Umm Gülsüm qadını yedizdirir, qadın doyandan sonra qazanı içərisində qalan xörəklə birlikdə Ömərə qaytarır. Ömər isə onu bədəvi ərəbin qabağına qoyub deyir: “Doyunca ye, uzun müddət yuxusuz qalmış, çoxlu əziyyət çəkmişsən…”. Sonra kişiyə: “Sabah səhər açılanda şəhərə yanıma gəl, əmr edim xəzinədən sənə lazım olan şeyləri versinlər, körpənin haqqını təyin edək!” – deyib, arvadı ilə birlikdə yola düzəlir *(“Əl-bidayə və ən-nihayə” əsərinin “Xüləfa ər-Rəsul” (“Peyğəmbərin xəlifələri”) fəslindən)*.

Ömər dəfələrlə belə xeyirxahlıqlar etmişdir. Bizim gördüyümüz mənzərə kimi belə bir mənzərə Günəşin altındakı hər şeydən: taxt-tacdan, bəzək-düzəkdən və şöhrətdən üstündür. Yeni özünü və səhabələrdən olan qardaşlarını Allahın dünyaya qədər göylərə ucaltdığı bu insanın ruhundan gələn təvazökarlıq, sadəlik, mehribanlıq və məhəbbət hər şeydən yüksəkdir. Ömər hakimiyyətlə fəxr edən kişilərdən deyildi, çünki o, sultanlıqlardan qat-qat yüksək adam idi. O, öz əzəmətini özündən kənarda olan bir şeydən borc

almaz, əksinə, ona yaxınlaşan, onunla əlaqə yaradan hər bir kəsə əzəmət verərdi. O özünün qəsdən sadə göstərməyə çalışmırdı, sadəlik onun nəfəs alarkən udduğu hava idi. *("Tarix xüləfa ər-Rəsul" ("Peyğəmbərin xəlifələrinin tarixi"))*.

Demək lazımdır ki, səhabələrin tarixinə və həyatına aid heç bir məlumatı olmayan çoxlu adam var. Onlar ona görə bu barədə bir şey bilmirlər ki, başqalarını yamsılamağa qarışmış bu dünya onları əyləndirmişdir. Yaxud ona görə ki, bu nəsli ləkələməklə siyasi mənafelər güdən adamlar olduqları üçün onlar üzürlüdürlər. Onlar bu məqsədlə Ömərin və Əlinin *-Allah onların hər ikisindən razı olsun!-* guya düşmən olduğunu təsvir edirlər. Guya xəlifə Əli olmalı idi, lakin Ömər bu mənsəbi ondan qəsb etmişdir.

Ay Allah, görəsən, Əli Xəlifə olmaq istəyirdimi və görəsən, Ömər mənsəbə həris idimi? Allah haqqı yox! Xəlifəlik şərəf deyil, əksinə məsuliyyət, tapşırıqdır. Siz ona fikir verin ki, Ömər Əlinin kürəkəni, deməli, yaxın qohumu idi. Əli öz qızı Umm Gülsümü ona nişanlamış, ərə vermişdi. Umm Gülsüm Ömərə oğlu Zeydi və qızı Ruqiyyəni bəxş etmişdi. Bəs qərəzkarlar bu hekayət və əhvalatları haradan ixtira edirlər. Şübhə yoxdur ki, öz qərəzlərini şiddətindən və şeytanın onlar üçün etdiyi təsvirlərdən!

İnanmaq asandırmı ki, müsəlmanların xəlifəsi və imamı, olmuş, Allah ölkələr fəth etməyə açıq-aşkar imkan verdiyi, Yer kürəsinin hökmdarlarının qorxudan qarşısında tir-tir əsdiyi, mal-dövlət, xəzinələr çayları kimi qarşısına axan "Ömər" adlı bu kişi? İraqdan əl-Əhnəf bin Qeysin başçılığı ilə ziyarətinə gələn nümayəndə heyyətini qarşılarkən aşağıdakı əhvalat baş verir?

Bu hadisə yay vaxtı baş verir. Onlar gözlənilmədən onun yanına gəlib çıxırlar. Hava şiddətli isti və bürkü olur. Onlar gəlib çıxanda Ömərin başı sədəqə dəvələrindən bir erkək dəvəni müalicə etməyə qarışmış imiş. O, dəvənin yarasına qətran sürtməklə məşğul imiş. Elə ki, qonaqlarını, onların da arasında əl-Əhnəfi görür, onu çağırır: "Ey Əhnəf, paltarını çıxart, Əmirəlmömininə bu nəri dərmanlamaqda kömək et! O, sədəqə dəvələrindəndir, onda ümmətin yoxsullarının və yetimlərinin payı var".

Bu gözlənilməz hadisədən özünü itirmiş nümayəndələrdən biri deyir: "Ey Əmirəlmöminin, Allah səni bağışlar, bu işi sədəqə

Sahibinin qullarından birinə Həvalə et!”. Ömər ona cavab verir: “Hansı qul məndən və Əhnəfdən yaxşı qul ola bilər?…” bunu deyib dəvənin yarasını qatranlamaqda davam edir.

Bir gecə o, Mədinədə tək gəzən bir qadınla qarşılaşır. Qadın böyük bir su tuluğu aparırdı. O, qadına yaxınlaşıb niyə gecənin bu vaxtı su daşıdığını soruşur. Öyrənir ki, onun uşaqları var, lakin xidmət edəni yoxdur və ona görə də gözləyir ki, gecə öz pərdəsini çəksin və o, şəhərdən çıxıb öz tuluğunu su ilə doldursun. Ömər tuluğu qadından alıb onu evinəcən ötürür, evə çatanda tuluğu ona verib deyir: “Sabah səhər Ömərin yanına get, sənə bir nökər versin”, qadın deyir: “Ömərin işi çoxdur, mən onu harada taparam?”, Ömər deyir: “Sabah onun yanına get, Allah qoysa taparsan…”.

Qadın bu yaxşı adamın məsləhətinə əməl edir. Lakin Ömərin yanına gedib onun qarşısında duranda heyrətindən çığırır: “Deməli, o sən imişsən?” Əmirəlmöminin gülür, sonra ona bir nökər və xərclik verməsini əmr edir…

Bu sadəlik, bu ədalət, bu Allahpərəslik, bu doğruluq İslamın və insanlığın düşmənlərini heç də sevindirmirdi. Bunlar oda ibadət edən, Kəsranı ilahiləşdirən atəşpərəslərin xoşuna gəlmirdi. Çünki Ömər onun taxt-tacını sarsıtmış, xəzinələrini Allah yolunda sərf etmişdi. Bunlar Ömərin Peyğəmbərin ﷺ nəsihətinə əməl edib Ərəbistan yarımadasından qovub çıxartdığı yəhudilərin də xoşuna gəlmirdi.

Məlumdur ki, Peyğəmbər ﷺ ölüm yatağında olanda demişdir: “Yəhudiləri Ərəbistan yarımadasından çıxarın! Orada iki din olmamalıdır”. Çünki onlar Peyğəmbərin ﷺ sağlığında Xeybərdə olduqları vaxt və tez-tez müsəlmanların üzərinə hücum edirdilər. Ömər رضي الله عنه onun bu arzusunu həyata keçirmiş, onları oradan çıxarmışdır. Atəşpərəslərlə yəhudilər bir yerə toplaşıb hiylə qurmuş, Ömər namaz qılarkən qəddar iki tiyəli xəncəri onun kürəyinə sancmışdır. O gün Əbu Luluə namaz qılan müsəlmanlardan 13 nəfərini xəncərlə vurmuş, özü özünü də xəncərlə öldürmüşdür. Bu hadisə həftənin üçüncü günü olmuşdur.

Əmirəlmöminin Ömər bin əl-Xəttab yaralı halda öz evinə gətirilmişdir. Babat özünə gələndə birinci soruşduğu bu olmuşdur: “Müsəlmanlar əsr (ikindi) namazını tamamladılarmı?”. Cavab

vermişlər ki, bəli. O, soruşmuşdur: “Məni kim vurdu?”, demişlər ki, Əbu Luluə Firuz əl-Məcusi. O demişdir: “Allaha həmd olsun ki, ömrümü iman sahibi olduğunu iddia edib, amma bir dəfə də səcdə etməmiş bir adamın əlində bitirdi”.

Ömər öləndə vəsiyyət etdi ki, ondan sonra Peyğəmbər ﷺ vəfat edib dünyanı tərk edərkən rəftarlarından razı getdiyi altı nəfərdən birini əmirəlmöminin təyin etmək üçün şura keçirilsin. Həmin səhabələr bunlardır: Osman, Əli, Təlha, Zubeyr, Abdur-Rəhman bin Auf və Sad bin Əbi Vəqqas. O onların arasında Səid bin Zeyd bin Amr bin ən-Nəfil əl-Ədvinin adını çəkmədi. Çünki Səid bin Zeyd Ömərin öz qəbiləsindən idi. Bu adamlar Peyğəmbərin ﷺ Cənnətə düşəcəkləri müjdəsini almış adamlar idilər.

Ömər ölüm yatağında ikən Aişədən *–radıyallahə anhə-* öz iki dostunun yanında dəfn olunmağa izn istədi. Allah razı olmuş Aişə xanım ona icazə verdi.

İslamın Faruqu üç gündən sonra öldü və Peyğəmbər hücrəsində iki dostunun yanında dəfn olundu. O, bu dünyada onlarla birlikdə olduğu kimi, məzarda da onlarla yanaşı uyuyur. Əmirəlmöminin Ömər bin əl-Xəttabın ölümü hicrətin 23-cü ilinin Məhərrəm ayının birinci gününə təsadüf etmişdir. O, 10 il yarım xəlifəlik etmişdir. Allah ondan razı qalmış və onu da Özündən razı salmışdır *(“Əl-bidayə və ən-nihayə”, 7/ 142)*.

# SƏHABƏLƏRİN

# HƏYATINDAN

# SƏHİFƏLƏR

Allahım, mən peyğəmbərim
Məhəmmədin ﷺ səhabələrini sevdim.
Bu məhəbbətimi bir daha biruzə verirəm
və onu daha da dərinləşdirirəm.
Böyük qorxu günü *(qiyamət günü-tərc.)*
məni onlardan birinə bağışla!
Sən bilirsən ki, mən onları yalnız Sənə görə sevdim,
ya ərhəmər rahimin
(Sən ey rəhimli olanların ən rəhimlisi!-tərc).

# ƏNƏS İBN MALİK ƏL-ƏNSARİ

*"Allahım, ona mal-dövlət və övlad bəxş et,*
*Işlərini xeyirli-bərəkзtli et!"*

Allahın peyğəmbəri ﷺ onun üçün bu duanı etmişdir.

Anası Qumeysa[21] Ənəs ibn Malikə şəhadəti öyrədən və ürəyini İslam peyğəmbəri Abdullahın oğlu Məhəmmədə ﷺ sevgi hissləri ilə dolduran vaxt o, hələ ömrünün çiçəklənmə dövrünü yaşayırdı.

Əvvəlcə Ənəs onu qulaq gözü ilə sevmişdir. Şübhəsiz ki, bəzən qulaq gözlərdən əvvəl aşiq olur.

Bu balaca uşaq öz peyğəmbərini görmək üçün neçə dəfə Məkkəyə getməyi və ya onun Yəsribə gəlməsini arzulamışdı. Əziz peyğəmbəri ilə görüş onu çox xoşbəxt edərdi.

* * *

Üstündən çox vaxt keçmədi ki, Peyğəmbər ﷺ və yol yoldaşı Əbu Bəkr əs-Siddiq şanslı və bəxtəvər Yəsrib şəhərinə təşrif buyurdular. Hər bir evdə sevinc, hər bir qəlbdə fərəh var idi.

Bütün gözlər və ürəklər Peyğəmbəri ﷺ və onun yol yoldaşını Yəsribə gətirən mübarək yola dikilmişdi.

Uşaqlar hər səhər "Məhəmməd gəldi" – deyə qışqıracaqları üçün yola çıxırdılar. Ənəs də yola çıxan kiçik uşaqların arasında olurdu. Lakin heç kimi görmədən məyus halda evə qayıdırdı.

* * *

Nurlu və ətirli səhərlərin birində Yəsrib camaatı qışqırmağa başladı: Məhəmməd və onun dostu şəhərə yaxınlaşırlar. Camaat hidayət və xeyirxahlıq peyğəmbərini gətirən mübarək yola tərəf axışmağa başladı. Onlar dəstə-dəstə yola düzülən quş qatarını

[21] Anasının adının Rumeysa və ya Qumeysa olduğu bildirilir.

xatırladırdı. İçlərində üzlərindən sevinc, qəlblərindən fərəh yağan uşaqlar da var idi. Ənəs ibn Malik əl-Ənsari də onlardan biri idi.

* * *

Peyğəmbər ﷺ və dostu Əbu Bəkr əs-Siddiq şəhərə girdilər və dəstə-dəstə toplaşmış kişilərdən ibarət kütlənin içərisindən keçdilər. Evdə qalan qadınlar və kiçik uşaqlar isə evlərin damlarına çıxıb gələnlərə tamaşa edirdilər və bir-birilərindən soruşurdular: "Bunlardan hansı odur?"

Həmin gün əlamətdar gün oldu. Ənəs ibn Malik ömrünün axırına kimi həmin günü böyük şövqlə xatırlayırdı.

* * *

Peyğəmbər ﷺ hələ Mədinədə tam yerləşməmişdi ki, Ənəsin anası Qumeysə bint Milhan əlində o tərəf bu tərəfə fırlanan saçı hörüklü bu balaca uşağı onun yanına gətirdi. Peyğəmbəri hörmətlə salamladıqdan sonra dedi: "Ey Allahın elçisi, ənsarlardan elə bir kişi və ya qadın qalmadı ki, sənə bir şey verməsin. Mənim isə sənə bu oğlumdan başqa verə biləcəyim bir şey yoxumdur. Onu götür, sənə lazım olan işlərində xidmət etsin!"

Peyğəmbər ﷺ bu balaca uşağı gülər üzlə qarşıladı. Mübarək əlləri ilə başını sığalladı, yumşaq barmaqları ilə hörüklərini oxşadı və onu öz ailəsinə qatdı.

* * *

Ənəs ibn Malik və ya Uneys[22] Peyğəmbərin ﷺ xitmətinə girməklə sevindiyi gün on yaşında idi. Peyğəmbərin ﷺ vəfat etdiyi günə qədər Ənəs onun himayəsində yaşadı. Onun Peyğəmbərlə ﷺ dostluğu bütöv on il davam etdi. O, Peyğəmbərin ﷺ elm çeşməsindən içib, hikmət baxçasından dərib təbiətini, sevilən xüsusiyyətləri

[22] Tərcüməsi ənəscik, yəni kiçik Ənəs deməkdir. Bəzən onu bu cür də çağırırdılar.

əzbərləmişdi. O, heç kəsin bilmədiyi sirləri öyrənmiş, heç kəsin şahidi olmadığı hadisələrə şahidlik etmişdir.

* * *

Ənəs ibn Malik Peyğəmbərdən ﷺ bir övladın öz atasından görmədiyi sevgi və qayğını görmüşdür. O, Peyğəmbərin ﷺ əxlaqından bəhrələnmiş, sevilən xüsusiyyətlərini mənimsəmişdir. Ənəs ibn Malikin bu mehriban münasibət barəsində dediklərinə nəzər yetirək. Çünki o, bu barədə ən çox söz haqqı olan kəsdir.

Ənəs ibn Malik deyir ki, Allahın elçisi ﷺ insanların ən əxlaqlısı, ən ürəyiaçığı və mehribanı idi.

O, bir gün məni bir işin dalınca göndərdi. Evdən çıxdım. Bazarda uşaqların oynadığını gördüm. Onlara qoşulub mən də oynadım. Elə təzə oynayıb qurtarmışdım ki, arxamda bir nəfərin dayandığını və paltarımdan tutduğunu hiss etdim. Arxaya çevrildikdə Peyğəmbəri ﷺ gördüm. Gülümsəyərək məndən soruşdu: *"Ey Uneys, səni göndərdiyim yerə getdinmi?"*

Mən də utancaq halda "Bəli, indi gedirəm, ya rəsulallah!" dedim.

Allaha and olsun ki, on il onun xidmətində oldum, ancaq bir dəfə də olsun, elədiyim bir şey üstə mənə "niyə etdin?" və ya eləmədiyimə "niyə eləmədin?" demədi.

* * *

Allahın elçisi ﷺ Ənəsi çağırdığı zaman sevgisindən bəzən ona Ənəscik və ya oğulcuğazım deyərdi. Peyğəmbər ﷺ ona çoxlu tövsiyələr və nəsihətlər verərdi. Ənəsin qəlbi və zəkası peyğəmbər ruhu ilə dolmuşdu. Bu tövsiyələrdən biri belə idi: *"Ey oğlum! Bacardığın qədər insanlara qarşı fırıldaq işlətmədən səhərini aç, axşamını keçir. Ey oğlum, bu mənim sünnətimdir. Kim mənim sünnətimi yaşadarsa, məni sevmiş olar. Məni sevən isə mənimlə Cənnətdə birgə olar". "Ey oğlum! Evinə gəldiyin zaman salam ver ki, həm sənə, həm də ailən üçün bərəkətli olsun!"*

* * *

Ənəs ibn Malik Peyğəmbərin ﷺ vəfatından sonra səksən ildən bir qədər artıq ömür sürdü. Bu müddət ərzində o, qəlbləri Peyğəmbərin ﷺ möhtəşəm elmi ilə canlandırdı. Ağıllar onun sayəsində peyğəmbər zəkası və təfəkkürü ilə müdrikləşdi.

O, bu müddət ərzində səhabələr və tabeyinlər[23] arasında Peyğəmbərin ﷺ hidayət yolunu və əqidəsini yaymış, onun hikmətli kəlamlarını və ibrətamiz əməllərini təbliğ etmişdir.

Ənəs bu uzun ömrünü müsəlmanlara bilmədikləri şeylərdə dayaq olmaqla keçirtdi. Onlar hər hansı bir məsələnin başa düşülməsində çətinliyə düşərkən ona üz tutur, ondan məsləhət alırdılar.

Buna misal olaraq din barədə mübahisə edən bəzi kimsələr bir dəfə Ənəsin yanına gəldilər və ondan Qiyamət günü Peyğəmbərin ﷺ hovuzunun mövcud olub-olmayacağı barədə soruşdular. Ənəs təəssüf hissi ilə onlara belə cavab verdi: "*Düşünməzdim ki, sizin kimi (peyğəmbərin) hovuzu barəsində mübahisə edən kimsələri görəcəyim vaxta kimi yaşayım. Məndən öncə nə qədər qoca qarılar gördüm. Onların biri belə namaz qılan deyildilər. Ancaq Allaha dua edirdilər ki, onlara Peyğəmbərin ﷺ hovuzundan su içirtməyi nəsib etsin*".

* * *

Ənəis ibn Malk ömrü boyu Rəsulullahın ﷺ xatirələri ilə yaşamışdır. Onunla ilk dəfə görüşən gün çox sevinmiş, vidalaşanda isə çox göz yaşı tökmüşdü. Peyğəmbərin ﷺ söylədiklərini və etdiklərini təkrarlamaqdan yorulmazdı. Sevdiklərini sevər, nifrət etdiklərinə nifrət edərdi. Həyatında yaşadığı iki günü heç unutmaz və tez-tez xatırladardı: Peyğəmbərlə ﷺ qarşılaşdığı ilk gün və onunla vidalaşdığı son gün. Birincisini xatırlatdığı zaman sevincini birüzə verər, ikincisini xatırlatdıqda isə kədərlənərdi. Həm özü ağlayar, həm də ətrafdakıları ağladardı.

Ənəs deyir ki, Pergəmbəri ﷺ bizə gəldiyi gün də gördüm, bizdən

---

[23] Tabeyinlər Peyğəmbərin ﷺ səhabələrindən sonraki dövrdə yaşayan bir qrup möminlərdir. Hədis alimləri onları bir neçə qismə ayırmışlar. Onların fikrincə ilkinləri Cənnətlə müjdələnmiş on nəfəri görən, digərləri isə kiçik və ya gec vəfat etmiş səhabələri görən möminlərdir..

ayrıldığı gün də. Həyatımda bu iki günə bənzəyən başqa günlər yaşamadım. Mədinəyə daxil olduğu gün oradakı hər şeyə nur qatdı. Rəbbinə qovuşub bizi tərk etdiyi gün isə Mədinəyə qaranlıq çökdü. Mədinəni son görüşü bazar ertəsinə təsadüf edirdi. Evinin pərdəsi qaldırılmış, son dəfə şəhərə tamaşa etmişdi. Üzü Quranın vərəqi kimi olmuşdu. Həmin gün insanlar Əbu Bəkrin arxasında dayanıb ona baxırdılar. Hamı iztirab və çaşqınlıq içində idi. Əbu Bəkr onlara sakit olmalarını tövsiyə edirdi.

Günün sonunda Peyğəmbər ﷺ vəfat etdi. Onu dəfn etdiyim vaxt üzünü son dəfə gördük. Həyatımızda ondan daha nurlu sifətin şahidi olmamışdıq.

* * *

Peyğəmbər ﷺ Ənəs ibn Malik üçün bir neçə dəfə dua edib. Onun dualarından biri belədir: *"Allahım! Onun malını və zürriyyətini artır, hər işinə xeyir ver!"*

Nöqsansız və pak olan Allah Öz Peyğəmbərinin ﷺ duasını qəbul etdi. Ənəs ibn Malik ənsarlar arasında ən varlısı və ən çox zürriyyətə sahib olanı idi. O uzun ömür yaşadı və yüzdən artıq övlad və nəvəsini görməyə müyəssər oldu. Yüz üç il ömür sürdü. Ənəs *(Allah ondan razı olsun!)* Qiyamət günü Peyğəmbərin ﷺ şəfaətini qazanmaq üçün çox dua edər və tez-tez deyərdi: *"Dua edirəm ki, Qiyamət günü Allahın elçisi ilə qarşılaşım və ona belə deyim: "Ya rəsulallah, bu, sənin kiçik xidmətçin Ənəsdir!"*

* * *

Ənəs ibn Malik ölüm xəstəliyinə tutulduğu zaman ailəsinə belə dedi: "Mənə "Lə ilahə illallah! Muhamməddun rəsulullah!" kəlməsini dedizdirin!" O, ruhunu tapşırıncaya qədər şəhadət kəlməsini təkrar etdi. Vəsiyyət etdi ki, Rəsulullahın ﷺ ona bağışladığı əsanı da onunla birgə basdırsınlar.

* * *

Allahın bəxş etdiyi bol nemətə və xeyir-bərəkətə görə Ənəs ibn Malik əl-Ənsari nə xoşbəxt biridir! O, tam on il Allahın elçisinin himayəsində yaşadı. O, Əbu Hüreyrə və Abdullah ibn Ömərdən sonra hədis rəvayət edənlərin üçüncüsü idi. Allah ondan və anası Qumeysadan razı olsun![24]

* * *

[24] Ənəs ibn Malik əl-Ənsari haqda əlavə məlumat almaq üçün bax:

1. "Əl-İsabə" 1/71;
2. "Əl-İstiab" 1/71;
3. "Təhzib ət-təhzib" 1/376;
4. "əl-Cəm beynə rical əs-Sahiheyn" 1/35;
5. "Əsdul qabə" 1/258;
6. Zəhəbi "Tarixul İslam" 3/329; və s.

# SƏİD İBN AMİR ƏL-CUMƏHİ

*«Səid ibn Amir öz axirətini dünyasıyla satın almış, Allahı və Onun peyğəmbərini hər kəsdən üstün tutmuşdur»*
(tarixçilər)

Cavan Səid ibn Amir əl-Cuməhi Qureyşin rəhbərlərinin çağırışına cavab olaraq hiylə ilə əsir aldıqları və Məhəmmədin səhabələrindən biri olan Xübeyb ibn Adinin qətl səhnəsinə tamaşa etmək üçün Məkkə yaxınlığındakı Tənim adlı yerə toplaşmış minlərlə adamın biri idi.

Cavanlığının gur çağında olması, öz gənclik qüvvəsi və iradəsi ona yaşlılarla çiyni-çiyinə ayaqlaşmaq, hətta axının önündə Qureyşin Əbu Sufyan ibn Hərb, Sərvan ibn Ümeyyə və başqa şeyxlərilə yanaşı getmək imkanı verirdi.

Bununla o, Qureyşin əsirini yaxından görmək fürsəti əldə etdi: Onun əllərinə qandal salınmışdı, arxasınca gedən qadınlar, uşaqlar və cavanlar onu ölüm meydanına tərəf itələyirdilər. Məqsəd bu adam vasitəsilə Məhəmməddən intiqam almaq, onu öldürməklə Bədrdə qətlə yetirilənlərin qanını yerdə qoymamaq idi.

* * *

Bu çoxsaylı toplum öz əsirilə qətl yerinə çatdı. Gənc Səid ibn Amir əl-Cuməhi diqqətlə Xübeybə baxırdı. O, taxta xaça doğru gedə-gedə qadın və uşaqların çığırtıları içində eşidilən sakit və inamlı bir səslə deyirdi:

-İstəsəniz, qoyun, ölümümdən qabaq iki rükət namaz qılım. Bunu edin...

Ona baxdı: Xübeyb üzünü Kəbəyə tərəf çevirdi, iki rükət namaz qıldı. Necə gözəl, necə kamil!

Sonra gördü ki, o üzünü qəbilə başçılarına tutub deyir:

-Vallah, əgər deməsəydiniz ki, mən ölümün qorxusundan namazımı uzadıram, mən daha çox namaz qılardım.

O öz gözləri ilə gördü ki, qəbiləsi Xübeybi diri-diri parçalayır, bir-birinin ardınca bədənindən tikələr kəsib atır və deyirlər:

-Sən istərdinmi yerində Məhəmməd olsun, səninsə canın qurtarsın?

Gözü yaşlı Xübeyb deyirdi:

-Məhəmmədin əlinə bir tikanın batması müqabilində mən, Vallahi, sağ-salamat, ailəm, valideynlərimlə birgə olmağımı istəməzdim.

Adamlar əllərini havada silkələyə-silkələyə uca səslə bağırırdılar:

-Öldürün! Onu öldürün!

Sonra Səid ibn Amir yenə Xübeybə baxdı. O, xaçın üstündən gözlərini səmaya dikib deyirdi:

-Pərvərdigara, onları hesaba sal, əzabla qətlə yetir! Heç kəsi boş buraxma!

Son nəfəsində bunları deyə bildi. Səid ibn Amir ona dəyən qılınc və nizə zərbələrinin sayını hesablaya bilmədi.

* * *

Qureyş Məkkəyə qayıtdı. Böyük hadisələr içində Xübeyb də, onun ölümü də unuduldu.

Lakin yeniyetmə cavan olan Səid ibn Amir əl-Cuməhinin zehnindən Xübeybin surəti bir an belə getmirdi.

Yatanda yuxusuna girərdi, oyaq olanda xəyalına gələrdi, taxta xaç önündə sakitlik və inamla iki rükət namaz qılan kimi qarşısında görünərdi. Qureyşə müraciət etdiyi səsinin zingiltisi hələ də qulağından getməmişdi. Qorxurdu ki, onu ildırım vursun, üstünə qaya uçsun...

Beləliklə, Xübeyb Səidə qabaqlar bilmədiklərini öyrətdi. Öyrətdi ki, həqiqi həyat ölümə qədər əqidə yolunda cihad deməkdir. Öyrətdi ki, möhkəm iman xarüqələr yaradır, möcüzələr törədir. Başqa bir şey də öyrətdi: Tərəfdarlarının belə böyük məhəbbət bəslədiyi adam səmadan dəstək alan peyğəmbərdir.

Bu vaxt Allah-təala onun ürəyini İslam üçün açdı. Camaat içinə çıxıb Qüreyş bütləri və tanrıları ilə əlaqəni kəsdiyini, bu bütləri və sənəmləri atıb İslamı qəbul etdiyini bildirdi.

* * *

Səid ibn Amir Mədinəyə hicrət etdi. Peyğəmbərin ﷺ qulluğunda durdu, onunla birlikdə Xeybər və sonrakı döyüşlərdə iştirak etdi.

Rəsulu Əkrəm öz Rəbbinin hüzuruna Onun rizasını qazanmış halda varid olduqda Səid ondan sonra onun xəlifələri Əbu Bəkrin və Ömərin əlində siyrilmiş qılınca çevrildi, dünyasıyla axirətini qazanan, Allahın savabını və rizasını ruhun və bədənin başqa şəh-vətlərindən üstün tutan misilsiz bir nümunəvi həyat yaşadı.

* * *

Allah peyğəmbərinin ﷺ hər iki xəlifəsi Səid ibn Amiri səmimiyyət, sədaqət və imanı ilə tanıyırdılar, onun nəsihətlərinə qulaq asır, dediklərini nəzərə alırdılar.

Xilafətinin ilk günündə Səid ibn Amir Ömər ibn Xəttabın yanına gəlib deyir:

–Ya Ömər, insanlara münasibətdə Allahdan qorx! Allaha münasibətdə insanlardan qorxma! Sözün əməlinə zidd olmasın. Əməlin təsdiq etdiyi söz ən yaxşı sözdür. Ya Ömər, Allahın işlərini idarə etməyini sənə tapşırmış olduğu adamlara müsəlmanların ən uzaq və ən yaxın meyarları baxımından diqqətlə bax. Özünə və ailənə rəva bildiyini onlara da rəva bil. Özünə və ailənə rəva görmədiyini onlara da rəva görmə. Haqqa bütün varlığınla bağlan, Allahına arxalanıb kafirin iradından qorxma!

Ömər ondan soruşur:

–Bunu kim bacarar, ya Səid!

–Sənin kimi Allahın ona Məhəmməd ümmətinin həvalə etmiş olduğu, onunla Allahı arasında heç kəsin durmadığı bir adam bunu edə bilər.

* * *

Bundan sonra Ömər ibn Xəttab Səidi özünə köməyə çağırıb deyir:

–Ya Səid, səni Homs (Suriyada indiki Homs şəhəri) əhalisinə vali təyin edirik.

Səid buna belə cavab verir:

–Ya Ömər, Səni Alaha and verirəm ki, məni haqq yolundan azdırma!

Ömər qəzəblə deyir:

-Vay halınıza! Bu ağır yükü (xilafəti-tərc.) boynuma qoyub kənara çəkildiniz!

-Yox, Allaha and olsun, səni tək qoymaram!

Onu Homsa vali qoydular.

Ömər ondan soruşur:

-Sənə maaş təyin etməyək?

-Maaşla mən nə edəcəyəm, ya Əmirəlmöminin? Beytül maldan aldığım ehtiyacımdan çoxdur.

O, Homsa gəldi.

* * *

Aradan bir az keçəndən sonra Əmirəlmöminin yanına yerli sakinlərdən daha çox inandığı adamlardan bir neçəsi gəldi. Ömər onlara deyir:

-Kasıbların adını yazıb mənə verin ki, onların ehtiyaclarını ödəyim.

Onlar siyahı yazırlar: Filankəs, filankəs... və həmçinin Səid ibn Amir!

Ömər soruşur:

-Bu Səid ibn Amir kimdir?

-Bizim valimizdir!

-Valiniz kasıbdır ?

-Bəli, Allaha and olsun, artıq uzun bir müddətdir ki, evində ocaq yanmır.

Ömər bunu eşidəndə çox ağladı, göz yaşlarından saqqalı islanmışdı.

Sonra min dinar götürüb kisəyə qoyur və nümayəndələrə verib deyir:

-Ona salamımı yetirin və deyin ki, əmirəlmöminin bu məbləği göndərdi ki, onu ehtiyaclarını ödəməyə sərf edəsən.

* * *

Nümayəndələr qayıdanda pul kisəsini Səidə verirlər. O, dinarları görəndə kisəni özündən uzaqlaşdırıb deyir:

-Biz Allaha məxsusuq, Ona da qayıdırıq! ("İnna lillahi və inna ileyhi raciun").

Elə bil ki, böyük bir bəla baş vermişdi və yaxud bir müsibətə düçar olmuşdu.

Arvadı böyük bir nigarançılıqla qışqırdı:

–Ya Səid, sənə nə oldu? Əmirəlmöminin ölüb?

–Yox, bundan da böyük bir bəla baş verib!

–Müsəlmanların başına bir iş gəlib?

–Yox, daha böyük bir bəla!

–Bundan da böyük nə ola bilər?

–Dünya içərimə daxil olub ki, axirətimi korlasın, evimə fitnə-fəsad düşdü!

–Ondan canını qurtar!

Arvadın işdən heç xəbəri yox idi.

Səid deyir:

–Sən məni bu işə ruhlandırarsan?

–Bəli.

Dinarları kisədən çıxarıb kasıb müsəlmanlara payladı.

* * *

Bu hadisədən az vaxt keçmişdi ki, Ömər ibn Xəttab ﷺ Şam ölkəsinə gəlir. Ayrı-ayrı bölgələri gəzəndə Homsa gəlir. O zaman bu şəhərin adını Kuveyfə, yəni kiçik Kufə qoymuşdular. Kufə əhli həmişə öz valilərindən və başqa məmurlarından xəlifəyə şikayət edərmişlər. Bu cəhətdən Homs da Kufəyə oxşayırdı.

Ömər şəhərə gələn kimi əhali onu salamlamaq üçün gəlir. Ömər onlardan soruşur:

Sizin valiniz necədir?

Onlar şikayət edib, onun biri o birindən daha pis görünən dörd əməlini sadalayırlar.

Ömər deyir:

–Onu sizə böyük qoydum. Allahdan rica elədim ki, məni peşman etməsin. Ona çox-çox inanırdım.

Bu barədə Ömər özü bunları deyir:

Onlar valilərilə birlikdə yanıma gələndə soruşdum:

–Nədən şikayətiniz vardır?

–Günortadan qabaq yanımıza gəlmir.

Soruşdum:-Sən buna nə deyirsən, ya Səid?

O bir qədər susub dedi:

-Allaha and olsun, mən bunu demək istəmirdim. Lakin bunu mütləq deməliyəm. Ailəmdə qulluqçu yoxdur. Hər səhər dururam, ailəm üçün xəmir yoğururam, gözləyirəm ki, gəlsin. Bundan sonra çörək bişirirəm. İşimi bitirdikdən sonra camaat içinə çıxıram.

Ömər deyir: Mən camaatdan soruşdum:

-Siz bu adamdan yenə şikayət edirsiniz?

-O gecə vaxtı heç kəsi qəbul etmir!

Səiddən soruşdum:

-Buna nə deyirsən, ya Səid?

-Allaha and olsun, mən doğrudan da bunu da demək istəmirdim! Mən gündüzümü əhaliyə, gecəmi Allah-təalaya həsr edirəm.

Mən camaatdan soruşdum:

-Yenə də şikayətiniz vardır?

-Ayda bir gün, o bizimlə görüşmür.

Soruşdum:

-Bu nə deməkdir, ya Səid?

O dedi:

-Ya əmirəlmöminin, evimdə qulluqçu yoxdur. Əynimə geydiyimdən başqa paltarım yoxdur. Ayda bir dəfə onu yuyuram, gözləyirəm ki, qurusun. Sonra axşam üstü geyinib camaat içinə çıxıram.

Mən yenə camaatdan soruşdum:

-Daha hansı şikayətiniz vardır?

-Bəzən huşunu itirir, məclisdəkilər içində huşsuz hala düşür.

Səiddən soruşdum ki, bu nə deməkdir?

O dedi:

-Mən müşrik olanda Xübeyb ibn Ədinin qətl səhnəsinin şahidi oldum. Onu tikə-tikə doğrayanda bir qadın ondan soruşdu: «İstərdin ki, sənin yerində Məhəmməd olsun?» O isə deyirdi: «Allaha and olsun, Məhəmmədin əlinə bir tikanın batması müqabilində mən sağ-salamat, ailəm və valideynlərimlə olmağımı istəməzdim...». Allaha and olsun, mən bunu heç vaxt unutmaram. Unutmaram ki, mən ona kömək etmədim. Elə zənn edirəm ki, Allah günahımdan keçməz! Bu huşu itirmə xəstəliyinə də o gündən tutulmuşam.

Bunu eşidən Ömər deyir:

–Allaha şükr olsun ki, zənnim məni aldatmamışdır!

Bundan sonra min dinar pulu Səidə göndərdim ki, ehtiyaclarını ödəsin.

Arvadı bunu görəndə deyir:

–Bizə zinət bəxş edən, işinin müqabilində sənə mükafat verən Allaha şükr olsun! Bu pullara ev üçün lazım olan şeyləri al, bir xidmətçi götür.

Səid soruşur:

–Sən bundan bir xeyir görəcəksən?

–Necə yəni?

–Biz bu pulları bizə dilənməyə gələnlərə verərik. Biz bundan da artıq bir şeyə möhtacıq.

–Bu nə deməkdir?

–Allaha gözəl bir pay verərik.

–Bəli, xeyir qazandın.

O, məclisi tərk etməzdən qabaq dinarları kisələrə qoydurdu və öz adamlarından birinə dedi:

–Bunu filan dul qadına çatdır, bunu filan yetimlərə, bunu filan şəxsin övladları olan filan kasıblara, filan ailənin filan yoxsul üzvlərinə ver.

* * *

Səid ibn Amir əl-Cuməhi Allahın rizasını qazanmışdı. O elə adamlardan idi ki, ən kasıb bir vəziyyətdə belə özgələrinə əl tutmağı daha vacib bilirdilər[25].

* * *

---

[25] Səid ibn Amir əl-Cuməhi haqqında əlavə məlumat almaq üçün bax:

1. «Tahzib əl-Tahzib», 4/51;
2. «İbn Əsakir», 6/145-147;
3. «Sifət əs-Səfva», 1/273;
4. «Hilyə əl-Üvliya», 1/244;
5. «Tarix əl-İslam», 2/35;
6. «Əl-İsabə», 2/48;
7. «Nəsəb əl-Qureyş», 399.

# TUFEYL İBN AMR ƏL-DAUSİ

*«Pərvərdigara! Onun xeyirxahlıq istəyində möcüzənlə ona kömək et!»*
Allah peyğəmbərinin ﷺ duasından

Tufeyl (əl-Tufeyl) ibn Amr əl-Dausi cahiliyyədə Daus qəbiləsinin ağası, ərəblərin ən tanınmış və hörmətli şəxsiyyətlərindən, əl-Muruatın az saylı sahiblərindən biri idi.

Onun qazanı həmişə ocaq üstə olardı, qapısı daima müsafir üzünə açıq olardı.

Acı yedirərdi, zəifi, qorxağı müdafiə edərdi, kirayə istəyənə icarə verərdi.

Bu keyfiyyətlərilə o, çox ağıllı, dərrakəli, şair, həssas qəlbli, incə təbiətli, uzaq-görən, şirin dil, mərd bir adam idi. Hər sözü bir sehr idi.

* * *

Tufeyl qəbiləsinin Tihamədəki[26] məskəninin tərk edib Məkkəyə yollandı. O, Peyğəmbərlə ﷺ Qüreyş kafirləri arasında gedən mübarizənin şahidi oldu. Hər tərəf özünə ənsar[27] axtarmaqda idi. Hərə özünə tərafdar toplayırdı. Peyğəmbər ﷺ öz Rəbbinə əsaslanıb dəvətilə çıxış edirdi, onun silahı iman və haqq idi. Qüreyş kafirlərisə hər növ silahla onun çığırışına qarşı çıxır, hər bir vasitə ilə insanları ondan uzaqlaşdırmaq istəyirdilər.

Tufeyl gördü ki, buna hazır olmadan bu mübarizənin iştirakçısı olmuşdur, özü də istəmədən onun içinə girmişdir.

Lakin o, Məkkəyə bu məqsədlə gəlməmişdi, Məhəmməd, Qüreyş məsələsi heç onun fikrinə belə gəlməmişdi.

Burda Tufeyl ibn Amr əl-Dausinin bu mübarizə ilə bağlılığı

[26] Ərəbistan yarımadasının Qırmızı dənizə çıxan sahil bölgəsi.
[27] tərafdar, köməkçi

haqqında heç vaxt yaddan çıxmayan hekayəsi başlayır. Gəlin onu dinləyək, o, çox qəribə bir hekayətdir:

* * *

Onu Tufeyl özü belə danışır:

Məkkəyə gəldim. Qüreyşin ağaları məni görən kimi yanıma gəldilər, çox böyük ehtiram və hörmətlə məni salamladılar, ən mötəbər bir yerdə yerləşdirdilər.

Bundan sonra şeyxlər və əyanlar yığılıb mənə dedilər:

-Ya Tufeyl! Sən bizim şəhərə gəlmisən. Özünün peyğəmbər olduğunu iddia edən bu kişi bizim işlərimizi puç etdi, birliyimizi pozdu, sıralarımızı parçaladı. Biz qorxuruq başımıza gələnlər sənə də toxunsun, sənin qəbilənə olan başçılığına zərər yetirsin. Sən o kişiylə danışma, ona qulaq asma. Onun sözləri sehr kimidir: Oğulu atadan ayırır, qardaşı qardaşdan, əri arvaddan».

Tufeyl deyir:

«Allaha and olsun! Onlar mənə qəribə hekayələr danışır, mənim və qəbiləm üçün onun əməllərinin təhlükəsilə bizi qorxudurdular. Nəhayət mən ona yaxınlaşmamaq, onunla danışmamaq və onunla ünsiyyətdə olmamaq qərarına gəldim.

Mən Kəbə ətrafına təvaf etmək, təzim etdiyimiz bütlərdən təbərrğk üçün həcc etdim, qulaqlarıma pambıq tıxadım ki, Məhəmmədin dediklərindən bir söz belə eşitməyim.

Lakin mən məscidə girən kimi onu gördüm: Kəbədə bizimkindən fərqli olan bir tərzdə namaz qılırdı, bizdən fərqli bir şəkildə ibadət edirdi. Bu hal məni özünə cəlb etdi, onun ibadəti məni diqqətə gətirdi. Mən ona yaxınlaşdığımı hiss etdim, istəmədən yavaş-yavaş ona tərəf gedirdim, nəhayət, onun lap yanında durdum.

Allahın istəyi belə idi ki, qulağıma onun bəzi sözləri çatsın. Mən çox gözəl sözlər eşitdim. Özüm-özümə dedim:

-Anan ölsün, yetim qalasan, ey Tufeyl...

Sən şair, ağıllı bir kişisən. Yaxşını pisdən ayırırsan. Bu kişinin dediklərini eşitməyə sənə nə mane olur... Yaxşı söz desə, qəbul edərsən, pis olsa rədd edərsən!

* * *

Bir qədər gözlədim. Məhəmməd ﷺ evə gedəndə arxasınca düşdüm. Evə girəndə mən də girdim və dedim:

–Ya Məhəmməd! Sənin tayfandan olanlar sənin haqqında bunu, onu danışırlar. Allaha and olsun məni elə qorxutdular ki, hətta qulaqlarıma pambıq tıxadım ki, dediklərini eşitməyim. Amma Allahın istəyi belə oldu ki, sənin dediklərindən bəzi sözlər qulağıma çatsın. Eşitdiklərim xoşuma gəldi. Mənə öz çağırışın barədə danış.

O danışdı, mənə İxlas və Fələq surələrini oxudu. Vallahi, onun dediklərindən daha yaxşı bir şey eşitməmişdim, bundan da ədalətli bir iş görməmişdim.

Bu vaxt əllərimi ona uzatdım, «La ilahə illallah və Mühəmmədən rəsulullah» şəhadətini deyib müsəlman oldum».

* * *

Tufeyl hekayəsinə davam edərək deyir:

– Bundan sonra Məkkədə bir müddət qaldım, İslami məsələləri öyrəndim, mənə müyəssər olan qədər Quran ayələrini əzbər öyrəndim. Evə qayıtmaq qərarına gəldikdə dedim:

–Ya Rəsulullah! Mən ailəm və nəslim arasında böyük hörmətə malik bir adamam. Mən qayıdıram ki, onları da İslama dəvət edim. Allaha dua et ki, mənə bu işdə kömək olacaq bir möcüzə nazil etsin.

Peyğəmbər ﷺ dua etdi:

–Allahummə, onun üçün bir möcüzə nazil et!

Mən öz qəbiləmə yola düşdüm. Qəbilənin yerləşdiyi məntəqənin yaxınlığındakı təpəyə çatanda birdən iki gözümün arasında çırağa bənzər bir işıq parıltısı peyda oldu. Mən bunu görüb dedim:

–Pərvərdigara, bu işığı mənim üzümə salma, onlar elə fikirləşərlər ki, bu, bir cəzadır, onların dinindən üz döndərdiyim üçün mənə verilmişdir.

İşıq məndən uzaqlaşıb eşilmiş dərilərin asıldığı yerdə göründü, sanki asılmış bir çıraq idi. Mən təpədən düşüb onların arasına gəldim. Bu vaxt ixtiyar bir qoca olan atam qabağıma gələndə dedim:

–Məndən uzaq dur, ata. Nə mən səndənəm, nə sən məndənsən.

Atam təəccüblə soruşdu:

-Nə üçün, oğul?

-Mən müsəlman olmuşam. Məhəmmədin ﷺ dinin qəbul etmişəm.

-Oğlum, sənin dinin mənim də dinimdir.

-Onda get, yuyun, libasını təmizlə. Sonra gəl, öyrəndiklərimi sənə də öyrədim.

Atam getdi, yuyundu, paltarını təmizlədi. Bundan sonra mən ona İslamı anlatdım və o, müsəlman oldu.

Arvadım yanıma gələndə dedim:

-Məndən uzaq dur, nə mən səndənəm, nə də sən məndənsən.

O soruşdu:

-Nə üçün? Atam-anam sənə qurban?

-Bizi bir-birindən İslam ayırır. Mən müsəlman olub Məhəmmədin ﷺ dinini qəbul etmişəm.

O dedi:

-Sənin dinin mənim də dinimdir.

-Onda get, Zil Şəra suyundan təmizlən.

Zil Şəra əl-Daus qəbiləsinin bütüdür. Onun ətrafında dağdan axıb gələn su vardır.

-Atam-anam sənə qurban, qorxuram ki, Zil Şəradan uşaqlara bir zərər toxunsun.

Mən dedim:

-Sənə də, Zil Şərana da nə deyim?! Sənə dedim ki, get yuyun, özü də orada, camaatdan kənar yerdə. Mən sənə zəmanət verirəm ki, bu dilsiz-ağızsız daş heç nə edə bilməz.

Arvad gedib yuyundu. Gələndən sonra ona da İslamı anlatdım, müsəlman oldu.

Bundan sonra əl-Daus qəbiləsini İslama dəvət elədim. Əbu Hureyrədən başqa hamı mənə «yox» dedi. O isə ən birinci müsəlmanlardan biri idi.

* * *

Tufeyl söhbətinə davam edir:

Məkkəyə Peyğəmbərin ﷺ hüzuruna gəldim. Əbu Hureyrə də mənimlə idi. Peyğəmbər ﷺ məndən soruşdu:

-Nə xəbər, ya Tufeyl?

-Üstünə pərdə çəkilmiş qəlblər, güclü küfr...

Daus qəbiləsində fitnə-fəsad və üsyan ruhu hakimdir.

Peyğəmbər ﷺ qalxdı, dəstəmaz alıb namaza durdu. Əllərini göyə qaldırdı.

Əbu Hureyrə deyir ki, mən bunu görəndə bərk qorxdum. Qorxdum ki, Peyğəmbər ﷺ dua edər və mənim qəbiləm həlak olar. Mən yalvarıb «Vay qəbiləmizin halına» sözlərini deyə bildim».

Lakin Peyğəmbər ﷺ dua edərək deyirdi:

-Pərvərdigara! Dausu hidayət elə... Pərvərdigara Dausu hidayət elə... Pərvərdigara Dausu hidayət elə!

Bundan sonra Tufeylə üzünü tutub dedi:

-Get qəbilənə, onlarla ol, onları İslama dəvət et.

* * *

Tufeyl deyir:

-Mən Daus torpağında qalıb Peyğəmbər ﷺ Mədinəyə hicrət edənə qədər onları İslama dəvət etməklə məşğul oldum.

Bu müddət ərzində Bədr, Uhud və Xəndək müharibələri baş verdi. Mən Dausdan olan səksən nəfər müsəlman döyüşçü ilə Peyğəmbərin ﷺ hüzuruna gəldim. Allah peyğəmbəri ﷺ bunu görəndə çox sevindi. Xeybər döyüşündən qənimət alınmış oxları başqa müsəlmanlar kimi bizə də verdi. Biz dedik:

-Ya Rəsulullah! Hər bir döyüşdə qoy sənin sağ cinahında biz olaq. Bizim şüarımız: «Məbrur» (Xeyirxah-tərc.) olsun.

Peyğəmbər ﷺ Məkkəni fəth edənə kimi onunla qaldım. Peyğəmbərə ﷺ dedim:

-Ya Rəsulullah! Məni Amr ibn Həmələnin bütü Zil Kəffeyn olan yerə göndər, qoy onu yandırım.

Peyğəmbər ﷺ ona icazə verdi. Tufeyl bütün qoyulduğu yerə gəldi. Bütə çatanda ətrafına kişilər, qadınlar və uşaqlar toplaşıb ona bir zərər dəyəcəyini gözləməyə başladılar. Elə bilirdilər ki, ildırım çaxacaq, odu da Zil Kəffeynin odu olacaq və Tufeyli yandıracaq.

Lakin Tufeyl bütün pərəstişkarları içində ona yaxınlaşdı. Bütün düz ürəyinin başına od vurdu və bu şeri dedi:

*Ya Zil Kəffeyn, sənə abid deyiləm,*
*Səndən qat-qat ulu bir tarixim var.*
*Ürəyinə od vurub sənə lənət deyirəm.*

Od bütünlüklə bütü bürüyüb yandıranda onunla Daus qəbiləsində qalmış şirk və küfr də məhv olub getdi. Bütün qəbilə ən sabit bir iman sahibi olan müsəlman oldular.

* * *

Bundan sonra Tufeyl ibn Amr əl-Dausi Peyğəmbərin ﷺ qulluğunda durdu. O vaxta qədər ki, Peyğəmbər ﷺ Allahın hüzuruna köçdü.

Peyğəmbərdən ﷺ sonra xilafət onun yaxın səhabəsi əs-Siddiqə keçəndə Tufeyl öz canı və qılıncı ilə Allah peyğəmbərinin ﷺ xəlifəsinin qulluğunda durdu.

* * *

Riddə döyüşündə[28] Tufeyl müsəlman ordusunun önündə idi. Yalançı peyğəmbər Müseyliməyə qarşı oğlu Amrla birlikdə vuruşurdu.

Yəmaməyə yol üstə olanda bir yuxu gördü. Dostlarına dedi:

-Bir yuxu görmüşəm. Onu mənə yozun.

Dedilər ki, nə görmüsən?

O deyir:

-Gördüm ki, başımı qırxmışlar. Ağzımdan bir quş çıxdı. Bir qadın məni öz qarnının içinə saldı. Oğlum Amr məni tələsik çağırdı. Lakin mənimlə onun arasında keçilməz bir sədd meydana gəldi.

Dedilər ki, xeyirdir.

Mən isə, vallahi, bunu belə şərh edərdim:

[28] dindən üz döndərənlərlə, mürtədlərlə döyüş

-Başımın qırxılması o deməkdir ki, o kəsiləcəkdir. Ağzımdan çıxan quşsa, mənim ruhumdur. Məni öz qarnına salan qadınsa, torpaqdır ki, məni ağuşuna alacaq. Mən onda dəfn olunacağam. Mən arzu edirəm ki, şəhid kimi ölüm. Oğlumun məni tələsik istəməsi o deməkdir ki, o məndən, Allahın izni ilə, mənim nail olacağım şəhadəti istəyir. Lakin o buna sonradan nail olacaqdır.

* * *

Yəmamə müharibəsində möhtərəm səhabə Tufeyl ibn Amr əl-Dausi ən böyük rəşadət nümunəsi göstərib döyüş meydanında şəhid oldu.

Oğlu Amrsa son gücünə qədər döyüşdü, çoxlu yaralar, sağ qolunun kəsilməsi onu zəiflətdi.

Atasını və qolunu döyüş meydanında qoyub Mədinəyə döndü.

* * *

Ömər ibn Xəttabın xilafətində Amr ibn Tufeyl onun yanına gəlir. Faruq üçün (Ömər üçün-tərc.) yemək gətirirlər. Xəlifə yanında olanların hamısını süfrəyə çağırdı. Lakin Amr kənara çəkildi. Ömər soruşdu:

-Sənə nə oldu? Bəlkə sən qolundan xəcalət çəkib süfrədən kənarda qalırsan?

Amr dedi:

-Bəli, ya Əmirəlmöminin!

Ömər dedi:

-Allaha and olsun! Sən bu xörəyi öz kəsilmiş qolunla qarışdırmasan, mən onu dilimə vurmaram. Vallahi, səndən başqa aramızda ondan sonra Cənnətə gedəcək bir kəs yoxdur. «O» dedikdə Xəlifə Amrın kəsilmiş qolunu nəzərdə tuturdu.

* * *

Atasından sonra Amr şəhidlik arzusuyla yaşayırdı. Yərmuk döyüşündə Amr da birincilər sırasında iştirak edirdi. Şəhid olana

qədər o vuruşdu. Atasının nail olduğu səadətə çata bildi.

* * *

Allah Tufeyl ibn Amr əl-Dausiyə rəhmət eləsin. O, şəhid və şəhid atası idi.[29]

* * *

[29] Tufeyl ibn Amr əl-Dausi haqqında əlavə məlumat almaq üçün bax:

1. «əl-İsabə», 2/225;
2. «Əı-İstiab», 2/230;
3. «Sifət əs-Səfva», 1/245-247;
4. «Əsdu əl-Ğabə», 3/54-55;
5. «Sira Aləm Nubələ», 1/248-250;
6. «Muxtəsər tarix Dəməşq», 7/59-64;
7. «Əl-Bidayə vən-Nihayə», 6/337;
8. "Şuhədə əl-İslam, 138-143".

# ABDULLAH İBN HÜZEYFƏ ƏL-SƏHMİ

*«Hər bir müsəlman Abdullah ibn Hüzeyfənin başını öpməlidir. Mən ən birinci bunu edirəm».*
Ömər ibn Xəttab.

Bu hekayəmizin qəhrəmanı Abdullah ibn Hüzeyfə əl-Səhmi adlı bir səhabədir.

Ona qədər milyonlarla ərəb kimi bu adam da ona heç bir diqqət yetirilmədən yaddan çıxarılaraq tarixdən yan ötə bilərdi.

Lakin əzəmətli İslam Abdullah ibn Hüzeyfə əl-Səhmiyə o zaman dünyanın iki böyük sahibi-Fars şahı Kisra[30] və Rum qeysəri (Bizans imperatoru-tərc.) ilə görüşmək fürsəti vermişdi. Bu hər iki görüşdən qalan xatirələr tarixdə qalmış və dillər əzbəri olmuşdur.

* * *

Onun Fars şahı Kisra ilə görüşü Hicrətin altıncı ilində baş verdi. Peyğəmbər ﷺ öz bir qrup səhabəsini məktubla Əcəm hökmdarlarının yanına göndərib onları İslama dəvət etmək qərarına gəldi.

Peyğəmbər ﷺ bu vəzifənin təhlükəliliyini düzgün başa düşürdü. Bu elçilər əvvəllər heç vaxt olmadıqları qərib ölkələrə getməli idilər. Onlar bu ölkələrin dillərini bilmir, şahlarının xasiyyətindən xəbərsiz idilr.

Ən nəhayət, elçilər bu hökmdarları öz dinlərini tərk edib, səltənətindən əl çəkib dünənə qədər onların bəzi təbəqələrilə bir dində olan millətin dininə girməyə çağıracaqdır. Bu ağır və təhlükəli bir səfər idi. Ora gedəni itirilmiş, qayıdanı isə dünyaya yenidən gəlmiş hesab etmək olardı.

Peyğəmbər ﷺ öz səhabələrini bir yerə topladı, Allaha həmdü səna oxuyub təşəhhüd edərək dedi:

-Mən sizin bəzilərinizi əcəm hökmdarlarının yanına göndərmək istəyirəm. Amma siz, Bəni İsrail İsa ibn Məryəmə qarşı çıxdığı kimi, mənə qarşı çıxmayın.

---

[30] Kisra- Xospov.

Allah peyğəmbərinin ﷺ səhabələri dedilər:

–Ya Rəsulullah! Sən nə desən, biz edərik, hara istəyirsən bizi göndər!

Peyğəmbər ﷺ səhabələrdən altı nəfəri seçdi ki, ərəb və əcəm hökmdarlarına məktub aparsınlar. Bu altı nəfərin biri də Abdullah ibn Hüzeyfə əl–Səhmi idi. O, Peyğəmbərin ﷺ məktubunu Fars hökmdarı Kisraya çatdırmaq üçün seçilmişdi.

* * *

Abdullah ibn Hüzeyfə dəvəsini yola hazırladı. Arvadı və oğlu ilə vidalaşdı. O, uca dağları, alçaq vadiləri tək–tənha, yalnız Allahın mövcudluğu ilə ötüb keçdi, nəhayət Fars ölkəsinə gəlib çatdı. Şahın yanına girmək üçün izn istədi. Şahın əyanlarına malik olduğu məktub barədə danışdı.

Kisra divan qurmağı və sarayı bəzəməyi əmr etdi. Farsın böyükləri məclisə çağrıldı. Bundan sonra Abdullah ibn Hüzeyfəyə içəri girməyə icazə verildi. Abdullah ibn Hüzeyfə Fars hökmdarının hüzuruna əynində ərəblərin geydiyi incə və gözəl üslubda biçilmiş əba olaraq daxil oldu. O başını yuxarı tutmuşdu, qamətini düz saxlayırdı, onun qabırğaları arasında İslam izzəti döyünürdü, ürəyində iman nuru yanırdı.

Kisra onu görən kimi adamlarından birinə məktubu ondan almağı əmr etdi.

Lakin Abdullah dedi:

–Yox, Allah peyğəmbəri ﷺ mənə bu məktubu sənə əlbəəl çatdırmağı tapşırmışdır. Mən Allah peyğəmbərinin sözündən çıxa bilmərəm.

Kisra adamlarına dedi:

–Qoyun yanıma gəlsin...

Abdullah Kisraya yaxınlaşdı, məktubu ona verdi.

Kisra Hira[31] əhlindən olan bir ərəb katibi çağırdı və məktubu açmağı əmr etdi. Məktubu oxudular. Onda deyilirdi:

*«Bismilləhir Rəhmanir Rəhim. Allahın elçisi Məhəmməddən*

---

[31] Nəcəflə Kufə arasında İraq şəhəri.

*Farsın böyük hökmdarı Kisraya məktub. Hüda yolunu tutanlara salam olsun...»*

Kisra məktubun bu sözlərini eşidəndə bərk qəzəbləndi, sinəsini qəzəb alovu bürüdü, üzü qızardı, hirsindən boynunun damarları şişdi. Səbəb də bu idi ki, Allah peyğəmbəri ﷺ məktubu öz adı ilə başlayırdı. Kisra məktubu katibin əlindən qapıb parça-parça etdi. Orada nələr yazıldığını bilmədən çığırırdı:

-Mənə bunu yazır?! O mənim qulum ola-ola.

Sonra əmr etdi ki, Abdullah ibn Hüzeyfəni onun məclisindən çıxartsınlar. Onu bayıra çıxartdılar.

Abdullah ibn Hüzeyfə Kisranın məclisindən çıxanda bilmirdi Allahın onun barədə hökmü necə olacaqdır. Onu öldürəcəklər, yoxsa sərbəst buraxacaqlar? Lakin o özünə toxtalıq verərək dedi:

-Vallahi, heç nə eynimə deyildir. Hər bir halda mən Allah peyğəmbərinin məktubunu ünvanına çatdıra bilmişəm.

Bundan sonra dəvəsinə minib yola düşdü. Kisranın qəzəbi sakitləşəndən sora Abdullahı yanına gətirməyi əmr etdi. Lakin onu tapa bilmədilər...

Çox axtardılar, lakin izinə düşə bilmədilər.

Ərəbistan yarımadasına gedən yol boyu onu aradılar, amma o, çoxdan bu yerləri keçib getmişdi.

* * *

Abdullah ibn Hüzeyfə Peyğəmbərin ﷺ hüzuruna gəlib Kisranın onun məktubunu parça-parça etdiyini xəbər verdi. Peyğəmbər ﷺ yalnız bunu dedi: «Allah onun dövlətini parçalayıb məhv etdi».

Kisra öz növbəsində Yəməndəki canişini Badana yazırdı: «Hicazda meydana gələn bu adamın yanına öz iki güclü adamını göndər. Onlara tapşır ki, onu mənim hüzuruma gətirsinlər». Badan öz iki seçmə adamını Peyğəmbərin ﷺ yanına göndərdi. Onlara bir məktub da vermişdi. Məktubda deyilirdi ki, Peyğəmbər ﷺ yubanmadan bu adamlara qoşulub Kisranın sarayına getməlidir.

O həmçinin bu iki nəfərdən Peyğəmbər ﷺ barədə məlumat toplamağı və bu məlumatlarla da geri dönməyi tələb etmişdir.

* * *

Bu iki adam yubanmadan səfərə çıxdılar. Onlar Taifə çatanda Qureyşin tacirlərilə rastlaşdılar, Məhəmməd ﷺ barədə soruşdular. Onlar bildirdilər ki, o, Yəsribdədir. Tacirlər fərəh və sevinc içində Məkkəyə döndülər. Qureyş başçılarını salamlayıb dedilər:

–Sevinin və şadlanın! Kisra Məhəmmədə qarşıdır. Şər sizdən yan keçdi!

Həmən iki nəfər Mədinəyə üz tutdular, ora çatanda Peyğəmbərlə ﷺ görüşdülər. Badanın məktubunu verib dedilər:

–Şahənşah Kisra bizim şahımıza yazıb ki, o bizi göndərsin, biz də səni onun yanına aparaq. Biz gəlmişik ki, sən bizimlə gedəsən. Bizimlə razılaşsan, Kisra ilə danışarıq, onun sənə xeyri dəyər, sən əziyyətə düşməzsən. Əgər razılaşmasan, onun gücünün, heybətinin və qüdrətinin şahidi olacaqsan. O səni də, sənin adamlarını da həlak etməyə qadirdir.

Peyğəmbər ﷺ gülümsədi və onlara dedi:

–Bu gün gedin öz mənzilinizə, sabah gəlin.

Onlar ertəsi gün Peyğəmbərin ﷺ yanına qayıdanda dedilər:

–Sən bizimlə Kisranın görüşünə getməyə hazırsanmı?

Peyğəmbər ﷺ onlara dedi:

–Bu gündən etibarən siz Kisranı görməyəcəksiniz. Allah onu həlak etdi. Oğlu Şirəvehy onu öldürüb hakimiyyəti ələ keçirmişdir. Bu hadisə filan ayın, filan gününün gecəsi baş vermişdir.

Onlar dəhşətlə Peyğəmbərin ﷺ üzünə baxaraq dedilər:

–Bilmirsən nə deyirsən? Bunu Badana yazaq!?

Peyğəmbər ﷺ dedi ki, bəli, ona bunu da deyin:

–Mənim dinim şah Kisranın çatdığı səviyyəyə çatacaqdır. Əgər sən müsəlman olsan, malik olduqlarının hamısı əlində qalmaqla, səni öz tayfana hakim qoyaram.

* * *

İki elçi Peyğəmbərin ﷺ yanından çıxıb Badanın sarayına

gəldilər. Baş vermişlər barədə ona danışdılar. Badan dedi ki, əgər onun dedikləri doğrudan da baş veribsə, deməli Məhəmməd həqiqi peyğəmbərdir. Əgər belə olmasa, onda baxarıq.

Aradan bir az keçmişdi ki, Badana Şirəveyhin məktubu çatdı. Məktubda deyilirdi:

*«Mən Kisranı öldürdüm. Mən onu millətimizin qisasını almaq üçün öldürdüm. O, millətin ən şərəfli adamlarını məhv etmişdir, arvadlarını əsir almış, var-dövlətlərini ələ keçirmişdir. Bu məktub sənə çatan kimi öz adamlarından mənə beyət qəbul elə».*

Badan bu məktubu oxuyub bir kənara qoydu. Bundan sonra Badan İslamı qəbul etdiyini bildirdi. Yəməndə olan farslar da onunla birlikdə İslamı qəbul etdilər.

Bu, Abdullah ibn Hüzeyfənin Fars şahı Kisra ilə görüş hekayəsidir.

* * *

Bəs onun Bizans imperatoru ilə görüş hekayəsi necədir?

Onun imperatorla görüşü Ömər ibn Xəttabın xəlifəliyi dövründə baş vermişdir. Bu görüş hekayəsi çox maraqlıdır.

* * *

Hicrətin on ikinci ilində xəlifə Ömər ibn Xəttab rumlarla vuruşmaq üçün böyük bir ordu göndərdi. Bu orduda Abdullah ibn Hüzeyfə də var idi. Rum qeysərinə müsəlman ordusundan dərin və möhkəm iman və əqidə sahibi, Allah və Onun Peyğəmbəri yolunda hər cür fədakarlığa hazır olmaları barədə xəbərlər çatmışdı.

O öz əsgərlərinə əmr etmişdi ki, əgər müsəlmanlardan kimsəni əsir alsalar, diri saxlayıb onun yanına gətirsinlər. Allahın istəyi belə oldu ki, Abdullah ibn Hüzeyfə əl-Səhmi onlara əsir düşmüş oldu. Onu imperatorun yanına gətirib dedilər:

-Bu adam Məhəmmədin səhabələrindəndir, onun dinini birinci qəbul edənlərdəndir. Əsir düşdü. Onu yanına gətirmişik.

Rum imperatoru uzun müddət ərzində Abdullah ibn Hüzeyfəyə baxdıqdan sonra dedi:

-Mənim sənə bir təklifim var!

-Nə təklif?

-Sənə təklif edirəm ki, xristianlığı qəbul edəsən. Etsən, sən azadsan. Sənə hörmət edərəm.

Əsir tam inam və qürurla cavab verdi:

-Heyhat... Ölüm sənin etdiyin təklifdən min dəfə xoşdur.

İmperator dedi:

-Mən görürəm ki, sən möhkəm adamsan. Mənim təklifimi qəbul etsən, sənə təşəkkürümü bildirərəm, səltənətimi səninlə bölüşdürərəm.

Əli-qolu qandallanmış əsir gülümsədi:

-Allaha and olsun! Əgər sən bütün mülkünü mənə versən, üstünə də bütün ərəblərin mülklərini gəlsən ki, mən hətta bir göz qırpımı müddət qədər də Məhəmmədin dinindən dönüm, mən bunu etmərəm.

İmperator dedi:

-Onda səni öldürürəm.

-Sən istədiyini edə bilərsən.

İmperator onu çarmıxa çəkdirməyi əmr etdi. Öz nişançısına yunanca dedi:

-Onun qolunun lap yanından oxla vurun.

Ox atıla-atıla ona xristianlıq təklif edilirdi. Əsir isə bunu rədd edirdi. Daha sonra imperatorun əmrilə onun qıçları bağlanan yerə oxlar sancıldı. Yenə də xristianlıq təklif etdilər və yenə də rədd cavabı aldılar.

İmperatorun əmrilə işgəncəni dayandırdılar və əsiri taxta xaçdan açıb aşağı saldılar. O, bir qazan gətizdirdi. Qazanın içi yağla doldurulub od üstə qoyuldu. Qazan qaynadı. İki müsəlman əsirini çağırdılar. Onlardan birinə əmr etdi ki, özünü qazanın içinə atsın. Əsir özünü qazana atdı. Onun əti yanıb tikə-tikə oldu. Sümükləri çılpaq qaldı. İmperator üzünü Abdullah ibn Hüzeyfəyə çevirdi. Bir də onu xristianlığa çağırdı. Abdullah əvvəlkindən daha çox bir inad və inamla bu təklifi rədd etdi. İmperatorun kefi pozuldu. Əmr etdi ki, onu qaynar qazana atsınlar. Abdullaha qədər onun iki əsir yoldaşı bu qazana atılmışdı. Abdullahnı qazana tərəf aparanda gözləri yaşarmışdı. Adamlar ona baxıb:

O ki, ağlayır-dedilər.

İmperator elə zənn etdi ki, əsir qorxmuşdur və onu yanına gətirməyi əmr etdi.

Abdullahı onun hüzuruna gətirəndə imperator bir daha xristianlığı təklif etdi və dedi:

-Vay sənin halına, sən niyə ağladın?

-Məni ağladan o oldu ki, özüm-özümə dedim: İndi də qaynar qazana atılacağam. Bu qazana yalnız mən atılıram. Mənsə istəyirdim ki, sayım bədənimdəki tüklərin sayı qədər olsun, hamımız bu qazana atılaq, özü də Allah yolunda!

İmperator dedi:

-Sən mənim başımı öpsən, səni azad edərəm!

Abdullah soruşdu:

-Bütün əsir müsəlmanları da?

-Bəli, bütün əsir müsəlmanları.

Abdullah deyir: «Özüm-özümə dedim: bu, bir Allah düşmənidir. Onun başını öpərəm, məni də buraxar, bütün qalan əsir müsəlmanları da! Bunda mənə nə eyib var?»

Abdullah ona yaxınlaşıb imperatorun başını öpdü. Rum imperatoru bütün müsəlman əsirini bir yerə toplamağı əmr etdi. Onun əmrilə hamı azad edildi.

* * *

Abdullah ibn Hüzeyfə Ömər ibn Xəttabın ﵁ yanına gəldi. Baş vermişlər barədə danışdı. Faruq çox sevindi. Əsirlərə baxıb dedi:

-Hər bir müsəlman Abdullah ibn Hüzeyfənin başını öpməlidir. Mən ən birinci bunu edirəm.

Qalxıb onun başını öpdü.[32]

* * *

[32] Abdullah ibn Hüzeyfə haqqında əlavə məlumat almaq üçün bax:

1. «əl-İsabə», 2/296;
2. «Sira Nəbəviyyə İbn Hişam», mündəricat;
3. «Həyatus-Sahabə: Muhəmməd Yusif Kəndəhləvi», mündəricat;
4. «Təhzib ət-Təhzib», 5/185;
5. «İmtə əl-Əsma», 1/308, 444;
6. «Husn əs-Səhabə», 305;
7. "Əl-muhbar", 77;
8. «Tarix əl-İslam Əz-Zəhəbi», 2/88.

# ÖMEYR İBN VƏHB

*«Ömeyr ibn Vəhb bəzi övladlarımdan*
*daha çox mənim üçün sevimli olmuşdur»*
Ömər ibn Xəttab

Ömeyr ibn Vəhb əl-Cüməhi Bədr döyüşündən canını qurtararaq qayıda bilmişdi. Lakin o, oğlu Vəhbi müsəlmanların əlində əsir qoyaraq gəlmişdi. Ömeyr qorxurdu ki, müsəlmanlar onun oğlundan atasının əvəzini çıxsınlar, ona Peyğəmbərə ﷺ verilən əzab və əziyyətə cavab olaraq cəza versinlər, səhabələrə vurulan böyük zərərin müqabilində əsiri incitsinlər.

* * *

Bir səhər Ömeyr Kəbəni təvaf etmək ğzğn məscidə gəldi ki, bütlərə nəzir versin, təbərrğk etsin. Səfvan ibn Ümeyyə də burada idi. O, Hğcrənin yanında oturmuşdu. Ömeyr ona yaxınlaşıb «Sabahın xeyir! Ey qüreyşin ağası»-deyə salamlaşdı. Səfvan dedi:

-Sabahın xeyir, ey Əbu Vəhb, otur, bir qədər söhbət edək, vaxtı söhbətlə öldürək.

Ömər Səfvan ibn Ümeyyənin qarşısında oturdu. Onlar Bədr döyüşündən qalan xatirələri bölüşdürməklə söhbətə başladılar. Onlar bundan böyük bir faciə olduğunu qeyd edib Məhəmmədə və onun səhabələrinə əsir düşənləri, müsəlmanların qılıncına tuş gəlib qətlə yetirilən və dərin quyularda torpaqlanan Qureyşin tanınmış adamlarını yada saldılar.

Səfvan ibn Ümeyyə dərindən ah çəkib dedi:

-Yox, Vallah, onlardan sonra yaşamağa heç dəyməz.

Ömeyr onun dediklərini təsdiqlədi, bir qədər susub dedi:

-Kəbənin sahibinə and olsun, əgər borclar olmasaydı, onları ödəməyə imkan olsaydı, məndən sonra ev-eşiyimin, ailəmin dağıdılması, kimsəsiz qalması qorxusu olmasaydı, gedərdim, Məhəmmədi öldürərdim, onun işini bitirərdim, şər əməllərinə son

qoyardım.

Sonra sakit səslə söhbətinə davam etdi.

-Oğlum Vəhbin onların əlində olması mənim Yəsribə getməyimə şübhə yeri qoymur.

* * *

Səfvan ibn Ümeyyə Ömeyr ibn Vəhbin sözlərini razılıqla qarşıladı və fürsəti əldən vermək istəməyib ona üz tutub dedi:

-Ya Ömeyr! Bütün borclarımı üzərimə götürürəm, nə qədər olursa-olsun, onları mən ödəyərəm. Ailənisə nə qədər canım sağdır öz uşaqlarıma qataram. Var-dövlətim çoxdur, hamıya çatar, hamıya rifah təmin edər.

Ömeyr dedi:

-Onda bu söhbət aramızda qalsın, heç kəs bu barədə bilməsin.

Səfvan razılaşdı.

* * *

Ömeyr ibn Vəhb məsciddən çıxanda ürəyi Məhəmmədə ﷺ qarşı nifrət hissi ilə alovlanırdı. Planını həyata keçirtmək üçün istifadə edəcəyi silahları hazırlamağa başladı. Onu bu səfərdən kiminsə çəkindirəcəyindən qorxmurdu. Belə ki, qüreyşli əsirlərin adamları öz yaxınlarını qurtarmaq üçün Yəsribə axışırdılar.

Ömər ibn Vəhb qılıncını gətizdirdi, Onu itilədilər və zəhər sürtdülər. Sonra miniyini (dəvəsini) də hazırladı, ona yaxınlaşıb belinə atıldı.

* * *

Ömeyr Mədinəyə üz tutdu, tam nifrət və şər içində idi.

Ömeyr Mədinəyə çatıb məscidə tərəf getdi. O, Allah peyğəmbərini ﷺ axtarırdı. Qapıya yaxınlaşanda dəvədən düşdü.

Ömər ibn Xəttab رضي الله عنه bu vaxt məsciddə idi. Bəzi səhabələrlə qapı ağzında oturub Bədr döyüşündən, Qüreyşin əsir və ölülərindən

danışırdılar, mühacir və ənsar müsəlmanların qəhrəmanlarını, Allahın onlara bəxş etdiyi qələbəni xatırlayır, düşmənə verdikləri ölüm, itim və əzab-əziyyəti yada salırdılar.

Ömər başını yana çevirəndə Ömeyr ibn Vəhbin dəvədən yerə düşdüyünü, əlində sıyrılmiş qılınc məscidə tərəf gəldiyini gördü. Qorxu içində ayağa qalxıb dedi:

-Bu it Allahın düşməni Ömeyr ibn Vəhbdir. Yalnız şər törətməyə gəlmişdir. Müşriklər Məkkədə bizə qarşı çıxanda Bədrdən qabaq bizə qarşı casusluq edərdi.

Daha sonra dedi:

-Allah peyğəmbərinin yanına gedin. Onun ətrafına toplaşın. Bu xəbis və murdar adama ona yaxınlaşmağa imkan verməyin.

Ömər Peyğəmbərin ﷺ yanına gəlib dedi:

-Ya Rəsulullah, bu, Allah düşməni Ömeyr ibn Vəhbdir. Qılıncını sıyırıb üstümüzə gəlibdir. Şübhəsiz ki, niyyəti yalnız şərdir.

Peyğəmbər ﷺ buyurdu:

-Onu yanıma gətirin!

Ömər Faruq Ömeyr ibn Vəhbin yanına gəlib ətəyindən bərk-bərk yapışıb boğazına qılıncını asdığı ipi doladı və onu Peyğəmbərə ﷺ tərəf dartdı.

Peyğəmbər ﷺ onu bu vəziyyətdə görəndə Ömərə dedi:

-Onu burax, onu burax və kənara çəkil.

Ömər onu boşladı və kənara çəkildi.

Peyğəmbər ﷺ buyurdu:

-Yaxın gəl, Ömeyr.

Ömeyr yaxınlaşanda dedi:

-Sabahın xeyir olsun! (Cahiliyyə dövründə ərəblər bu cür salamlaşırdılar).

Peyğəmbər ﷺ ona dedi:

-Allah-təala bizə böyük kəramət göstərib daha yaxşı salam bəxş etmişdir, ey Ömeyr! O, bizə salamla kəramət bəxş etmişdir. Bu Cənnət əhlinin salamıdır.

Ömeyr dedi:

-Vallahi, sən də bu salamı bu yaxınlara qədər işlədirdin.

Peyğəmbər ﷺ ona dedi:

–Sən bura nə üçün gəlmisən, ya Ömeyr?

–Gəlmişəm ki, bu əsirləri buraxasınız, mənə bir yaxşılıq edəsiniz.

–Bəs əlindəki bu qılınc nədir?

–Bu ən pis qılıncdır. Sən Bədr günü bizə bir şey qoydunmu?!!!

–Düzünü de, ya Ömeyr, nə üçün gəlmisən?

–Mən yalnız buna görə gəlmişəm.

–Yox, sən Səfvan ibn Ümeyyə ilə Hğcrənin qarşısında oturmuşdunuz. Qəlibdə (quyuda) dəfn edilənləri, Qüreyşin itirdiyi adamları xatırlayıb demisən: «Əgər borcum olmasaydı, uşaqlarım olmasaydı gedib Məhəmmədi öldürərdim». Səfvan ibn Ümeyyə ailənin saxlanmasını öz üzərinə götürdü ki, sən gəlib məni öldürəsən... Sənin bu işinə mane olan Allahdır.

Ömeyr bir an özünü itirdi. Özünə gələn kimi bunu dedi:

–Mən şəhadət verirəm ki, sən Allahın peyğəmbərisən.

Sonra sözünə davam edərək dedi:

–Ya Rəsulullah, biz səni həmişə yalançı hesab edirdik. Sənin bizə çatdırdığın Səma xəbərlərini, sənə gələn vəhyləri biz qəbul etmirdik. Mənim Səfvan ibn Ümeyyə ilə olan söhbətimdən bizim ikimizdən başqa heç kəsin xəbəri yox idi. Vallahi, mən indi əmin oldum ki, bu xəbər sənə yalnız Allah vasitəsilə çatmışdır. Allaha həmd və səna olsun ki, bizi öz ayağımızla sənin hüzuruna gətirmişdir ki, İslamı qəbul edək.

Bundan sonra «La ilahə illallah və Mühəmmədən rəsulullah» şəhadətini verib müsəlman oldu.

Peyğəmbər ﷺ buyurdu:

–Din qardaşımıza şəriəti və Quranı öyrədin, əsirini azad edin!

* * *

Müsəlmanlar Ömeyr ibn Vəhbin müsəlman olmasına ürəkdən sevindilər. Hətta Ömər ibn Xəttab ﵁ demişdi:

–Ömeyr ibn Vəhb Peyğəmbərin ﷺ hüzuruna gələnə qədər donuz ondan mənim üçün daha istəkli idi. İndisə mən onu öz bəzi övladalarımdan artıq istəyirəm.

* * *

Ömeyr yalnız özü İslamı qəbul etməklə kifayətlənmədi. O, İslam təliminin təbliği ilə məşğul oldu. Onun qəlbi Quran nurundan qidalanırdı. O, həyatının ən gözəl və ən dəyərli günlərini yaşayırdı. Hətta o, Məkkəni də, Məkkədə olanları da unutmuşdu.

* * *

Səfvan ibn Ümeyyə özünə arxayın bir tərzdə Qüreyş məclislərini gəzə-gəzə deyirdi:

-Bu yaxınlarda çox xoş bir xəbər eşidəcəksiniz. Bu xəbər sizə Bədr acısını da unutduracaq.

Lakin vaxt uzanırdı. Səfvan ibn Ümeyyənin gözləməyə səbri çatmırdı. Yavaş-yavaş narahat olmağa başladı. Özünü yanar göz üzərində oturmuş hiss edirdi. O, gəlib-gedənlərdən Ömeyr barədə soruşmağa başladı. Heç kəsdən sakitləşdirici bir cavab ala bilmirdi. Nəhayət, bir müsafir gəlib dedi:

-Ömeyr artıq müsəlman olmuşdur...

Bu xəbər onu ildırım kimi vurdu.

O elə zənn edirdi ki, bütün Yer üzü müsəlman olsa belə, Ömeyr heç vaxt İslamı qəbul etməz.

* * *

Ömeyr ibn Vəhb isə dini, fiqh elmini öyrənirdi, Rəbbinin kəlamından müyəssər olanı əzbərləyirdi.

Bir gün Peyğəmbərin ﷺ yanına gəlib dedi:

-Ya Rəsulullah! Mənim Allah nurunu söndürmək əzmində olmağımdan və İslam dinində olanlara işkəncələr verməyimdən artıq bir müddət keçmişdir. Mən istərdim ki, icazə verəsən Məkkəyə gedib, Qüreyşi Allaha və Onun Peyğəmbərinə dəvət edim. Əgər bu çağırışımı qəbul etsələr yaxşı iş görmüş olarlar, yox əgər rədd etsələr, vaxtilə Allah Peyğəmbərinin ﷺ səhabələrinə verdiyim əziyyət və işgəncələri bu adamlara öz dinlərində qaldıqlarına görə verəcəyəm.

Peyğəmbər ﷺ ona icazə verdi. O, Məkkəyə çatan kimi Səfvan ibn Ümeyyənin evinə gəlib dedi:

-Ya Səfvan! Sən Məkkənin ağalarından, Qüreyşin ağıllı adamlarından birisən. Sən görmürsən ki, siz daşlara ibadət edir, qurban kəsirsiniz. Heç bu cür din ağla batandır?

Mənsə şəhadət verirəm ki, Allahdan başqa ibadət haqqı olan tanrı yoxdur, Məhəmməd Allahın elçisidir.

* * *

Ömeyr Məkkədə İslamın təbliğinə başladı. Onun vasitəsilə çoxları müsəlman oldu.

* * *

Allah-təala Ömeyr ibn Vəhbin savabını artırsın, qəbrini nurla doldursun![33]

* * *

---

[33] Ömeyr ibn Vəhb haqqında əlavə məlumat almaq üçün bax:

1. «əl-İsabə», 3/36;
2. «Sira Nəbəviyyə İbn Hişam», mğndəricat;
3. «Həyatus-Sahabə: Muhəmməd Yusif Kəndəhləvi», mündəricat;
4. «Tabaqat İbn Səd», 4/146

# BƏRAƏ İBN MALİK ƏL-ƏNSARİ

*«Əsgərlərin onun görünməsilə həlak olması qorxusundan Bəraəni müsəlman ordusuna başçı qoymayın».*
Ömər ibn Xəttab

O, saçları bir-birinə qarışmış, kül rəngli, zəif bədənli, sür-sümüyü üzə çıxan bir adam idi. O, heç vaxt diqqəti cəlb etməzdi. Biri ona gözünün ucu ilə təsadüfən baxsaydı tezcə iyrənib yana baxardı.

Bununla belə o, təkbətək mübarizədə yüzlərlə müşriki qətlə yetirmişdi. Bura hələ ümumi döyüşlərdə başqa döyüşçülərlə birlikdə qətlə yetirənlər daxil deyildir.

O, cəsarətli, igid, qəhrəman, qorxmaz bir adam idi. Onun barədə Ömər Faruq sərhədlərdəki canişinlərinə yazırdı: *«Əsgərlərin onun görünməsilə həlak olması qorxusundan Bəraəni müsəlman ordusuna başçı qoymayın».* Peyğəmbərin ﷺ xidmətçisi Ənəs ibn Malikin qardaşı Bəraə ibn Malik əl-Ənsari budur.

Əgər mən Bəraə ibn Malikin qəhrəmanlıqlarını sadalamağa başlasam söhbət uzanar, məclisimizsə bunun üçün dardır.

Buna görə Bəraənin saysız-hesabsız igidliklərindən yalnız biri barədə danışmağı lazım bilirəm. Bu hekayə o biriləri barədə səndə təsəvvür yaradar.

* * *

Bu hekayət Peyğəmbərin ﷺ vəfatının və Allahın hüzuruna köçməsinin ilk anlarından başlayır. Peyğəmbərin ﷺ vəfatından sonra ərəb qəbilələri dəstə-dəstə Allahın dininə qarşı çıxmağa başladılar, hətta İslamdan çıxdılar. Yalnız Məkkə, Mədinə və Taif əhalisi, habelə Allaha imana qəlbləri sabitləşmiş ayrı-ayrı qruplar İslama sadiq qaldılar.

* * *

Siddiq رضي الله عنه bu kor və öldürücü fitnə qarşısında sarsılmaz bir dağ kimi dözdü.

Onun əmrilə ənsar və mühacirlərdən ibarət on bir ordu təşkil edildi, bu orduların başında on bir sərkərdə qoyuldu və onlar Ərəbistan yarımadasının hər yerinə göndərildi ki, mürtədləri hüda və haqq yoluna qaytarmağa, qılınc gücünə olsa da yol azmışları düz yola yönəltməyə başlasın.

Mürtədlər içində ən güclü və ən çox saylı yalançı Müseylimənin səhabələri olan Bənu Hənifə qəbiləsi idi.

Müseylimənin qohum və müttəfiqlərindən ibarət qırx min ən qorxunc döyüşçü onun ətrafına toplaşdı. Bu adamlardan çoxu Müseyləmənin ətrafına imana görə yox, təəssübkeşliyə görə toplaşmışdı. Onlardan bəziləri hətta deyirdi:

–Mən şəhadət verirəm ki, Müseylimə yalançı, Məhəmmədsə haqqdır. Lakin yalançı Rabiə (Müseylimə) bizim üçün doğruçu Mudardan (Peyğəmbərdən ﷺ) daha istəklidir[34].

* * *

Müseylimə İkrimə ibn Əbu Cəhlin başçılıq etdiyi ilk müsəlman ordusunu məğlub etdi və geri döndərdi.

Siddiq Müseyliməyə qarşı Xalid ibn Validin başçılığı ilə ikinci ordunu göndərdi. Bu orduda ənsar və mühacirlərdən olan ən tanınmış səhabələr toplanmışdı. Onlardan ən birincilər sırasında və ön cərgələrdə Bəraə ibn Malik əl-Ənsari və bir çox müsəlman bahadırları dururdular.

* * *

Hər iki ordu Nəcddə Yəmamə adlı yerdə üz-üzə durdu. Tezliklə döyüş başladı. Az keçmişdi ki, qüvvələr nisbəti Müseylimənin tərəfdarlarının xeyrinə dəyişdi. Müsəlman döyüşçülərinin ayaqları altında yer titrədi. Onlar yavaş-yavaş öz mövqeylərindən çəkilirdilər.

Müseylimənin tərəfdarları hətta Xalid ibn Validin çadırını ələ keçirə bildilər, onun dayaqlarını yandırdılar. Az qaldı ki, onun arvadını ya öldürsünlər, ya da ki, əsir götürsünlər.

---

[34] Rəbiə və Mudar ərəb qəbilələridir.

Bu anda müsəlmanlar qorxunc təhlükəni hiss etdilər. Onlar başa düşdülər ki, bu dəfəki məğlubiyyət bu gündən etibarən İslamın mövcudluğuna son qoyacaq, Ərəbistan yarımadasında Vahid və Şəriksiz Allaha ibadət edən qalmayacaqdır.

Xalid ordusu ilə məşğul oldu, onu yenidən təşkil etdi. Mühacirləri ənsarlardan, bədəviləri başqalarından ayırdı.

Onun əmrilə bir nəsildən olanlar bir bayraq altında birləşdilər ki, hər dəstənin döyüşdə yeri aydın görünsün, müsəlmanların hansı tərəfdən daha çox təhlükəyə məruz qaldığı görünsün.

İki ordu arasında çox qanlı bir döyüş baş verdi. Buna qədər müsəlmanlar belə bir döyüş görməmişdilər. Müseyliмənin tərəfdarları döyüş meydanında sarsılmaz dağ dözümü nümayiş etdirdilər, çoxlu itkilər versələr də geri çəkilmədilər. Müsəlmanlar da igidlik və qəhrəmanlıq xarüqələri yaratdılar. Bunlar toplansaydı böyük qəhrəmanlıq dastanları meydana gələrdi.

* * *

Budur, Sabit ibn Qeys-ənsarların bayraqdarıdır. Əyninə kəfən geyib özünə yerdə bir çala qazdı və yarıyacan ona girdi. Öz mövqeyində mətanətlə dayanıb ordusunun bayrağını şəhid olan ana kimi əldə saxladı.

* * *

Budur, Zeyd ibn Xəttab ﷺ - Ömər ibn Xəttabın ﷺ qardaşı, müsəlmanlara müraciət edib deyir:

-Camaat, dişinizi dişinizə sıxın, düşmənlərə zərbələr vurub irəliyin!

Camaat, Allaha and olsun, mən bundan sonra-Müseylimə məğlub edilənə və ya mən özüm Allahla görüşüb öz borcumu ödəyənə qədər bir söz belə demərəm.

Bundan sonra düşmənlərin üzərinə hücuma keçdi və şəhid oldu.

* * *

Budur, Səlim Mövla Əbu Hüzeyfə. O, mühacirlərin bayraqdarı

idi. Adamları qorxdular ki, o zəiflik göstərsin və yaxud tərəddüd etsin. Ona dedilər:

-Qorxuruq ki, sən tərəfdən təhlükəyə məruz qalaq.

O isə dedi:

-Əgər mən tərəfdən təhlükə görünsə, bilin ki, ən pis Quran daşıyıcısı mənəm.

Sonra düşmən üzərinə hücuma keçdi və yaralandı.

* * *

İndi də Bəraə ibn Malikin ﷺ qəhrəmanlığından danışaq:

Xalid döyüşün son dərəcə şiddətləndiyini və qızışdığını görəndə Bəraə ibn Malikə üz tutub dedi:

-Ey gənc ənsari, düşmən üzərinə!

Bəraə ənsarlara üz tutub dedi:

-Ey ənsarlar! Sizdən heç kəs Mədinəyə qayıtmaq barədə fikirləşməsin. Bu gündən sonra sizin üçün Mədinəyə yol yoxdur! Olan vahid Allah və sonra Cənnətdir!

O müşriklər üzərinə yeridi. Müşriklər də ona qarşı çıxdılar. Bəraə onların sıralarını pozurdu, qılıncını düşmən əsgərlərinin boynuna sancırdı. Nəhayət, düşmən sarsıldı. Yer Müseylimə əsgərlərinin ayağı altında titrədi. Onlar tarixdə «Ölüm bağı» kimi tanınan hündür hasarlara alınmış bağa çəkildilər. Burada çoxlu adam öldürüldüyünə görə adı «Ölüm bağı» qalmışdır.

* * *

«Ölüm bağı»nı hər tərəfdən hündür hasar əhatə edirdi. Müseylimənin minlərlə əsgəri bu bağa çəkilib qapıları bağladılar. Hündür və möhkəm divarlar arxasında gizləndilər. Müsəlmanlarsa nizələri yağış kimi onların üstünə yağdırırdılar. Onların üstünə əsil nizə yağışı yağırdı.

Bu vaxt müsəlmanların qorxmaz igidi, qəhrəman Bəraə ibn Malik irəli çıxıb dedi:

-Əsgərlər! Məni qalxanın ğstğnə qoyub nizələrlə qaldırın və bağın içinə- qapı ağzına atın. Şəhid olsam heç, olmasam qapını

açaram.

Hamının gözü qarşısında Bəraə ibn Malik qalxanın üstünə oturdu. O balaca və yüngül çəkili bir adam idi. On nizə üstündə onu qaldırıb minlərlə düşmən əsgəri içinə-«Ölüm bağı»na atdılar. Onun əsgərlərin başı üstünə düşməsi ildırım çaxmasına bənzədi.

Qapı ağzında onlarla vuruşdu, düşmənə qılınc zərbələri endirib on nəfəri qətlə yetirdi və qapıları açdı. Bu an onun balaca bədənində səksəndən artıq qılınc, ox və nizə yarası var idi. Müsəlmanlar «ölüm bağı»na qapılardan və divarları aşaraq doluşdular.

Özünü bağın divarları ilə qoruyan mürtəd əsgərlərinə öldürücü zərbələr endirdilər. Onlardan təqribən iyirmi min əsgər öldürdülər, özlərini Müseyliməyə çatdırıb onu qətlə yetirdilər.

* * *

Bəraəni müalicə üçün evə apardılar. Xalid ibn Valid özü onun müalicəsi ilə bir ay məşğul oldu. Nəhayət, Allahın iznilə Bəraə sağaldı. Allah onun əlilə müsəlman əsgərlərinə qələbə bəxş etdi.

Bəraə ibn əl-Ənsari hələ də «Ölüm bağı» günü əldən çıxmış şəhadət səadətinə çatmaq arzusuyla yaşayırdı.

* * *

Beləliklə, o, özünün ən böyük arzusuna yetmək və mübarək Peyğəmbərinə yoldaş olmaq ümidiylə bir-birinin ardınca müharibələrdə iştirak edirdi. Nəhayət, Fars ölkəsində Tüstər müharibəsində vuruşdu.

Farslar möhkəm bir qalaya çəkildilər. Müsəlmanlarsa hər tərəfdən onları mühasirəyə aldılar, möhkəm bir hasar qurdular. Mühasirə uzandı, farsların durumu ağırlaşdı.

Onlar qalanın üstündən dəmir zəncirlər atmağa başladılar. Bu zəncirlərin uclarına qızdırılmış metal asılırdı. Bu qızmış iti mancanaqlar müsəlmanların bədəninə yapışır, ya onları öldürür, ya da ki, ölümcül vəziyyətə salırdı.

Bu mancanaqlar Bəraənin qardaşı Ənəs ibn Malikin bədəninə də yapışmışdı. Bunu görən Bəraə var gücü ilə qalanın divarlarına atıldı və qardaşının dartan zəncirdən yapışdı. O, mancanaqları qardaşının bədənindən ayırmağa başladı.

Onun əli qızdırılmış metallara dəyib yanırdı, tüstü çıxırdı. Qardaşını xilas edənə qədər metalları onun bədənindən araladı. İşini qurtarandan sonra yerə yıxıldı. Onun əlləri elə yanmışdı ki, yalnız sümük qalmışdı, ət yox idi.

Bu döyüşdə Bəraə ibn Malik əl-Ənsari Allaha dua etdi ki, ona şəhidlik ruzisi bəxş etsin. Allah onun duasını qəbul etdi. O, yerə sərildi. Allahla görüş sevincilə şəhadətə yetdi.

* * *

Allah-təala Bəraə ibn Malikin üzünü Cənnət mehrilə sərinlətdi, onu Məhəmməd salavatullahın qonşusu və həmsöhbəti edib həm Özü ondan razı qaldı, həm də onu razı saldı.[35]

* * *

[35] Bəraə ibn Malik haqqında əlavə məlumat almaq üçün bax:

1. «əl-İsabə», 1/143;
2. "əl-İstiab", 1/137;
3. «Sira Nəbəviyyə İbn Hişam», mğndəricat;
4. «Həyatus-Sahabə: Muhəmməd Yusif Kəndəhləvi», mündəricat;
5. «Tabaqat əl-Kubra», 3/441, 7/17, 121;
6. «Tarix Təbəri», 2/88;
7. "Əl-Kamil fit-tarix", mündəricata bax.

# ƏRƏBLƏRİN DUL QADINI UMMU SƏLƏMƏ

Ummu Sələmə, bilirsənmi kimdir, Ummu Səlimə?!

Atası Məxzum qəbiləsinin tanınmış ağalarından, ərəblərin nadir cəngavərlərindən biridir. Hətta onun haqqında deyərdilər: «O, müsafirlərin ərzaq təminatçısıdır». Beləki, onun mülkündən keçən və ya ona qonaq olan müsafirlər özlərilə yol azuqəsi götürməzdilər.

Əri Abdullah ibn Əbdül Əsəddir ki, İslamı qəbul edən ilk on nəfərdən biridir. Ona qədər yalnız Əbu Bəkr Siddiq və az miqdarda adam müsəlman olmuşlar. Onları da barmaqla saymaq olardı.

Adı Hinddir. Künyəsi Ummu Sələmədir. Bu künyəsiylə də tanınır.

* * *

Ummu Sələmə əriylə birgə İslamı qəbul etdi. İlk müsəlman qadınlardan biri idi.

Ummu Sələmənin və ərinin İslamda olması xəbəri yayılan kimi Qüreyşin təlatümü başladı. Onları başqalarına dərs olsun deyə söyüb danladılar. Elə sözlər deyirdilər ki, qayalar belə titrəyirdi. Onlarsa zəifləmədilər, qorxmadılar və heç tərəddüd belə etmədilər.

Verilən əzab və əziyyət son həddə çatdıqda Peyğəmbər ﷺ onlara mühacirlərin ilk sırasında Həbəşistana getmək icazəsi verdi. Ummu Sələmə Məkkədə təmtəraqlı bir imarət, şan-şöhrət, tanınmış əsil-nəcabət qoyaraq bütün bunların əvəzinə Allahdan mükafat və Onun rizasını qazanmaq diləyilə qürbət həyatı sürdülər.

* * *

Ummu Sələmənin və onun yol yoldaşlarının Həbəşistanda Allahın Cənnətə sakin etdiyi və üzünə nur saldığı Nəcaşidən hər cür hörmət və qayğı görmələrinə baxmayaraq vəhy vətəni olan Məkkənin şövqində idilər. Onlar hüda mənbəyi olan Allah Peyğəmbəri üçün də darıxırdılar. Onun və ərinin ürəyi bu şövqlə yanırdı.

Həbəşistana çatan xəbərlərdən aydın oldu ki, Məkkədə müsəlmanların sayı getdikcə artır. Həmzə ibn Əbdül Müttəlibin və Ömər ibn Xəttabın müsəlman olması onların gücünü artırmışdı, Qüreyşin təzyiqini müəyyən qədər zəiflətmişdi. Mühacirətdə

olanlardan bir dəstə Məkkəyə qayıtmaq qərarına gəldi. Şövq və vüsal hissi onları çəkirdi.

* * *

Ummu Sələmə və əri geri dönənlərin başında idilər.

Lakin tezliklə geri dönənlərə aydın oldu ki, onlara çatan məlumatlar mübaliğəli imiş. Həmzə və Ömərdən sonra müsəlmanların irəli atdıqları hər addım Qüreyşin daha şiddətli müqavimətiylə qarşılaşdı.

Müşriklər müsəlmanlara əzab vermək, onları incitmək, ən pis əziyyətlərə məruz qoymaq və əvvəllər heç görmədikləri pislikləri etmək işində çox ustalaşmışdılar.

Belə olduqda Peyğəmbər ﷺ müsəlmanlara Mədinəyə hicrət etmək icazəsi verdi.

* * *

Ummu Sələmə və əri öz dinlərini qoruyaraq və Qureyşin əziyyətlərindən xilas olaraq hicrət edənlərin ön sırasında idilər.

Lakin Ummu Sələmənin və ərinin səfəri heç də onların düşündükləri qədər asan olmadı. Bu hicrət son dərəcə ağrılı-acılı oldu, bu səfər ağla batmaz bir faciə ilə müşayət olundu.

* * *

İndi də sözü Ummu Sələməyə verək ki, öz faciəsindən danışsın.

Onun keçirtdiyi hisslər çox dərin, yaratdığı təsəvvür çox aydın və hərtərəflidir.

Ummu Sələmə deyir:

- Əbu Sələmə Mədinəyə getmək qərarına gəldi. Bunun üçün dəvəni hazırladı. Məni dəvəyə mindirdi. Övladımız Sələmə də qucağımda idi. O heç nəyə baxmadan qatırın cilovundan yapışaraq irəli keçdi.

Məkkəni tərk etməmişdən biz mənim mənsub olduğum Bəni Məxzum qəbiləsinin adamları ilə üzləşdik. Onlar qabağımızı kəsib Əbu Sələməyə dedilər:

-Öz həyatını puç edirsən, bəs bu arvadın günahı nədir?

O bizim qızımızdır. Nə üçün onu özünlə götürüb bizdən ayıraraq

başqa ölkəyə gedirsən?!

Onlar Əbu Sələmənin üstünə atıldılar və məni ərimin qəbiləsi olan Bəni Əbdül Əsəd gördü. Onlar görəndə ki, məni və oğlumu Əbu Sələmənin əlindən aldılar bərk qəzəbləndilər və dedilər:

-Yox, vallah, biz uşağı sizin qızınızın yanında qalmağa qoymarıq, siz onu öz ərindən ayırmısınız. O bizim oğlumuzdur, biz onu müdafiə edəcəyik.

Onlar uşağı dartışdırmağa başladılar. Uşağın bir qolunu parçaladılar, gözümün qarşısında onu yaralı halda özləri ilə apardılar. Bir an özümün tək-tənha, qolu-qanadı qırılmış bir vəziyyətdə gördüm.

Ərim canını və dinini xilas edərək Mədinəyə üz tutdu. Yaralı oğlumu Bəni Əbdül Əsəd qəbiləsi aparıb gizlətdi. Məni isə qəbiləm Bəni Məxzum apardı. Mən onlarla qaldım. Məni ərimdən və oğlumdan ayırdılar, bu ayrılıq bir ilə qədər davam etdi.

Hər səhər mən faciəm baş vermiş yerə gəlir, orada otururdum, mənim, ərim və oğlumun başına gələnləri xatırlayırdım. Səhərdən axşama qədər günüm ağlamağla keçirdi.

* * *

Bir ilə qədər biz bu vəziyyətdə qaldıq. Bir gün əmi oğullarımdan biri yanıma gəldi, mənim halımdan xəbərdar oldu, mənə rəhmi gəldi və qəbiləmə dedi:

-Bu yazığı niyə buraxmırsınız? Onu ərindən və uşağından ayırmısınız.

Nəhayət onların ürəyi yumşaldı və rəhmə gəlib mənə dedilər:

-İstəyirsən ərinin yanına get.

Lakin mən necə oğlumu, ciyər paramı Məkkədə Bəni Əbdül Əsədin əlində qoyub Mədinəyə ərimin yanına gedə bilərdim?! Mənim bu narahatçılığım necə sakitləşə bilərdi, Gözümün yaşı necə quruya bilərdi?! Mən hicrətdə, körpə oğlum Məkkədə, onun haqqında heç nə bilmirdim!!

* * *

Bəziləri mənim nə qədər acılar çəkdiyimi, qəm və kədərə qərq olduğumu gördülər, mənə yazıqları gəldi, ürəkləri parçalandı. Onlar

Bəni Əbdül Əsədlə mənim barəmdə danışdılar. Onların da mənə rəhmi gəldi və uşağı mənə qaytardılar.

Mən mənimlə Məkkəyə səfərə çıxa biləcək bir şəxsi axtarmaq üçün Məkkədə qalıb gözləyə bilməzdim. Qorxurdum ki, gözlənilməz bir hadisə baş verər və ərimlə görüşümə mane olar. Buna görə dəvəni yola hazırlamağa başladım. Oğlumu qucağıma alıb yola çıxdım Mədinəyə əriminn yanına üz tutdum. Tək-tənha idim, heç kəs yanımda yox idi.

Məkkə yaxınlığında Tənim adlı yerə çatanda Osman ibn Təlha ilə rastlaşdım. O soruşdu:

-Yolçuların təminatçısının qızı hara gedir?

-Mədinəyə, ərimin yanıma getmək istəyirəm.

-Səninlə heç kəs getmir?

-Yox, vallah, mənimlə olan yalnız Allahdır, bir də bu körpə uşaq.

-Yox, vallah, səni tək qoymaram. Özüm səni Mədinəyə çatdıraram.

Allaha and olsun mən ərəblər arasında ondan nəcib və şərafətli bir kişi görmədim. Bir mənzil başına çatanda dəvəmi otuzdurar, gözləyərdi ki, mən dəvənin belindən düşüm, sonra dəvənin yükünü yerə qoyub onu ağac kölgəsinə aparıb bağlayardı.

Bundan sonra məndən aralanıb başqa bir ağac kölgəsində yerə uzanardı. Səfər vaxtı çatanda dəvəni yenidən hazırlayar və mənə verərdi. Sonra mənim dəvəyə miniyimi gözləyib deyərdi:

-Min!

Mən minib dəvənin belində rahatlanandan sonra gəlib cilovu tutardı və dəvəni apardı.

Mədinəyə çatana kimi hər gün mənimlə bu cür davranardı. Mədinə yaxınlığındakı Quba kəndində Bəni Amr ibn Aufun adamları arasında axtarıb ərimi tapdı və mənə dedi:

-Ərin bu kənddədir. Allahın xeyir və bərəkətilə qal!

Bundan sonra o, Məkkəyə qayıtdı.

* * *

Parçalanmış bir ailənin üzvləri uzun ayrılıqdan sonra birləşdilər. Ummu Sələmənin gözləri ərini görəndə yaşardı. Əbu Sələmə də

arvadını və uşağını görüb çox sevindi. Bundan sonra hadisələr inkişaf edərək bir göz qırpımında dəyişilirdilər.

* * *

Əbu Sələmə Bədr döyüşündə iştirak edib böyük zəfərlə bütün müsəlmanlarla birlikdə qayıtdı.

* * *

Uhud döyüşündə ən qızğın çağında iştirak etdi, qəhrəmanlıq göstərdi. Lakin bu döyüşdən sonra ağır yaralı halda qayıtdı. Onu müalicə etdilər, sanki yaralar sağalırdı. Lakin bu zahirən belə idi. Daxildən isə yara ağır idi. Tezliklə yaralar açıldı və Əbu Sələmə yatağa düşdü.

Əbu Sələmə yaraları müalicə edilə-edilə arvadına dedi:

-Ya Ummu Sələmə, mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: «Birinə bir müsibət baş verəndə deməlidir: "İnna lillahi və inna ileyhi raciun"» (Biz Allaha məxsusuq və Ona da qayıdırıq).

Pərvərdigara, mənim bu müsibətimi də nəzərə al. Pərvərdigara, məndən sonra ona (arvadıma-tərc.) məndən daha yaxşı olanı qismət elə.

Allah onu da qismət elədi.

* * *

Əbu Sələmə bir neçə gün yataqda qaldı. Bir gün səhər vaxtı Peyğəmbər ﷺ onun yanına gəldi. Peyğəmbərin ﷺ ziyarəti bitməmişdi ki, o hələ qapı ağzında olarkən Əbu Sələmə həyatla vidalaşdı. Peyğəmbər ﷺ mübarək əlləriylə öz dostunun gözlərini yumdu. Peyğəmbər ﷺ əllərini göyə qaldırıb dedi:

-Pərvərdigara, Əbu Sələməni bağışla, onu Özünə daha çox yaxınlaşdır. Onun övladları və ailəsi üzərində Özün nəzarətçi ol. Bizi və onu bağışla, ya Rəbbil aləmin! Qəbrini genişləndir, onu nurlandır.

Ummu Sələmə Əbu Sələmənin Peyğəmbər ﷺ haqqında

dediklərini yada saldı və dedi:

–Allahım, mənim bu müsibətimi nəzərə al.

Lakin o, aşağıdakı sözləri deməyi lazım bilmədi: «Pərvərdigara, məndən sonra ona (arvadıma–tərc.) məndən daha yaxşı olanı qismət el!» Axı onun üçün Əbu Sələmədən daha yaxşı kim ola bilərdi.

* * *

Lakin çox keçmədi ki, dua müstəcəb oldu. Müsəlmanlar Ummu Sələmənin dərdinə əvvəllər heç kəslə olmayan bir şəkildə şərik çıxdılar. Ona «Ərəblərin dul qadını» adı verdilər.

Onun Mədinədə körpə uşaqdan başqa bir yaxını qalmamışdı. Bu uşaqsa körpə cücəni xatırladırdı.

Mühacirlər və ənsarlar Ummu Sələmənin onlar üzərindəki haqqını başa düşdülər.

* * *

Əbu Sələmənin yas müddəti bitən kimi Əbu Bəkr onun yanına gəlib onunla evlənmək istədiyini bildirdi, lakin o razı olmadı. Sonra Ömər ibn Xəttab gəlib eyni təklifi verdi, lakin Ummu Sələmə yenə də razı olmadı. Daha sonra Peyğəmbər ﷺ gəlib evlənmək təklifini etdi. Ummu Sələmə ona dedi:

–Ya Rəsulullah! Mənim xasiyyətimdə üç əlamət vardır: Mən çox qısqanc qadınam, qorxuram məndən səni qəzəbləndirən bir hərəkət görəsən və buna görə Allah mənə əzab versin.

Mən artıq yaşı ötmüş qadınam. Mən həm də ailəli, uşaqlı qadınam.

Peyğəmbər ﷺ ona dedi:

–Sənin qısqanc olmağın barədə deməliyəm ki, Allaha dua edəcəyəm ki, səni ondan xilas etsin. Qaldı sənin yaşına, mən də elə

sənin kimiyəm. Uşaq, ailə isə sənin uşağın, ailən elə mənimkidir.

Peyğəmbər ﷺ Ummu Sələmə ilə evləndi. Allah onun duasını eşitdi və ona Əbu Sələmədən yaxşı bir adamı qismət elədi.

* * *

Bu gündən etibarən Məxzumiyyəli Hind yalnız Sələmənin anası olmadı, o bütün möminlərin anası oldu.

* * *

Allah-təala Ummu Sələmənin üzünü Cənnət mehi ilə sərinləşdirdi. Ondan razı qaldı və onu da razı saldı! [36]

* * *

[36] Ummu Sələmə haqqında əlavə məlumat almaq üçün bax:

1. "Əl-İstiab", 2/78;.
2. "Əl-İsabə", 2/242;
3. "Əsəd əl-Qabə", 5/588-589;
4. "Təhzib əl-Təhzib", 12/455-465;
5. "Taqrib əl-Təhzib", 2/627;
6. "Sıfat əl-Safva", 2/20-21;
7. "Şazarat əl-Zəhəb", 1/69-70;
8. "Tarix əl-Zəhəbi", 3/97-98;
9. "Əl-Bidayə və ən-Nəhayə", 8/214-215;
10. "Əl-Aləm va maracuhu", 9/104.

# SÜMAMƏ İBN USƏL

*«Qüreyşi iqtisadi blokadaya alır..»*

Bəli, Qüreyşi iqtisadi blokadaya alırdı. Hicrətin altıncı ilində Peyğəmbər ﷺ Allaha imana çağırışının əhatə dairəsini genişləndirmək qərarına gəldi. Bu məqsədlə ərəb və əcəm hökmdarlarına səkkiz məktub yazdı. Bu məktubları göndərərək onları İslamı qəbul etməyə dəvət etdi.

Məktub göndərilənlər arasında Sümamə ibn Usəl əl-Hənəfi də var idi. Bu heç də təəccüblü deyildir.

Sümamə cahiliyyə dövründə ərəblər arasında sözü keçən adamlardan idi...

O Bəni Hənifə qəbiləsinin ağalarından Yəmamə vilayətinin mütləq hakimlərindən biri idi.

* * *

Sümamə Peyğəmbərin ﷺ məktubunu həqarət və qəzəblə qəbul etdi. O öz günahları ilə qürrələndi, haqq və xeyir çağırışını eşitməkdə qulaqları kar oldu. Şeytan ona hakim kəsildi və onu Allah Peyğəmbərini ﷺ öldürməyə və çağırışını da onunla diri-diri basdırmağa sövq etdi.

O Peyğəmbərin ﷺ öldürmək üçün fürsət axtarırdı, xüsusilə gözlənilmədən onun üzərinə hücum edib həlak etməyi nəzərdə tutmuşdur. Az qalmışdı ki, bu ağır cinayət həyata keçirilsin.

* * *

Sümamənin əmilərindən biri onu son anda fikrindən daşındırmaqla bu işə mane oldu və Peyğəmbər ﷺ bu şərdən xilas oldu. Lakin Sümamə Peyğəmbərdən ﷺ əl çəksə də onun səhabələrini dinc qoymurdu. O onlara bir pislik etmək üçün fürsət gözləyirdi. O, hətta səhabələrdən bir neçəsini ələ keçirib ən pis bir şəkildə öldürdü də. Peyğəmbər ﷺ onun qanını halal bildi və bunu

bütün səhabələrə çatdırdı.

Bundan bir müddət keçəndən sona Sümamə Ümrə ziyarətinə getmək qərarına gəldi. O, Yəmamə torpağından çıxıb Məkkəyə üz tutdu. O, Kəbə ətrafına dolanmaq və bütlərə qurban kəsmək niyyətində idi.

* * *

Sümamənin yolu Mədinəyə yaxınlaşanda onun başına gözlənilməz bir hadisə gəldi. Belə ki, Peyğəmbərin ﷺ kəşfiyyat dəstələrindən biri ətrafı gəzirdi ki, Mədinəyə gələ biləcək düşmən qüvvələrini və ya ona zərər toxundurmaq istəyənlərin qarşısını alsın.

Dəstə Sümaməni tanımadan onu əsir götürdü. Əsiri Mədinəyə gətirdilər və məscid qoruyucularına təhvil verdilər. Peyğəmbərin ﷺ özünün əsir barədə son qərar qəbul etməsini, onun haqqında müvafiq əmr verməsini gözlədilər. Peyğəmbər ﷺ məscidə gələndə Sümaməni qolu bağlı gördü və səhabələrinə dedi:

–Bilmirsiniz kimi tutmusunuz?

–Yox, ya Rəsulullah!

–Bu Sümamə ibn Usəldir. Onunla yaxşı davranın.

Bundan sonra Peyğəmbər ﷺ adamları arasına gəlib dedi:

–Əlinizdə olan yeməklərdən toplayıb onu Sümamə ibn Usələ göndərin.

Əmr etdi ki, bir dişi dəvə ayırsınlar, səhər–axşam südünü sağıb Sümaməyə versinlər. Peyğəmbər ﷺ onunla görüşüb danışana qədər bütün bunlar həyata keçirildi. Peyğəmbər ﷺ Sümamənin yanına gəlib onu İslama dəvət edərək dedi:

–Sənə nə olub Sümamə?

–Ya Məhəmməd, yaxşıyam. Məni ödürsəniz onda deməli özünüzdən daha yaxşı, əsil nəcabətli bir adamı öldürmüsünüz. Bağışlasanız təşəkkür qazanarsınız. Yox əgər var–dövlət istəsəniz, istə nə qədər istəyirsən verərlər.

Peyğəmbər ﷺ onu iki gün də bu vəziyyətdəə qoydu. Ona yemək və içmək verirdilər, dəvə südü içirdirdilər. Peyğəmbər ﷺ yenə də gəlib soruşdu:

–Təzə nə var, ya Sümamə?

O dedi:

–Məndə olan yenilik yalnız əvvəllər sənə dediyimdir: Yaxşılıq eləsən təşəkkür edərəm... Öldürərsən, deməli əsil-nəcabətli bir adamı, bir şəxsi öldürmüsən. Mal-dövlət istəsən istə, nə qədər istəsən verərlər...

Peyğəmbər ﷺ yenə onu tərk etdi. Səhəri gəlib ona dedi:

–Təzə nə deyirsən, ya Sümamə?

–Dediyimi demişəm: Yaxşılıq eləsən təşəkkür qazanarsan, öldürərsən əsil-nəcabətli bir şəxsi öldürmüsən. Var-dövlət istəyirsən verərlər sənə, sən istə.

Peyğəmbər ﷺ öz səhabələrinə üz tutub dedi:

–Sümaməni buraxın... Qandallarını açın və buraxın getsin. Sümamə Rəsulullahın ﷺ məscidini tərk etdi. Yola çıxıb Mədinə yaxınlığındakı Bəqa adlı yerə çatdı. Burada su vardı, dəvəsini saxladı. Özü təmizləndi, ən yaxşı bir tərzdə pak oldu. Bundan sonra məscidə tərəf üz tutdu. Gəlib müsəlmanların toplusuna çatdı və dedi:

–Mən şəhadət edirəm ki, Allahdan başqa ibadət haqqı olan tanrı yoxdur, şəhadət verirəm ki, Məhəmməd Onun qulu və elçisidir.

Bundan sonra özünü Peyğəmbərə ﷺ tutub dedi:

–Ya Məhəmməd, Allaha and olsun, yer üzündə səndən artıq nifrət bəslədiyim bir adam yox idi. İndi isə səndən mənim üçün daha istəkli bir adam yoxdur. Sənin dinindən daha artıq nifrət etdiyim bir din yox idi. Bu din indi mənim üçün ən sevimli bir dindir. Vallahi, sənin şəhərindən artıq nifrət etdiyim bir şəhər yox idi. İndi sənin şəhərin mənim üçün başqa yerlərdən daha əzizdir.

Daha sonra sözünə davam edib dedi:

–Sənin səhabələrinin qanını tökmüşəm. İndi mən nə etməliyəm?

Peyğəmbər ﷺ dedi:

–Sənə bir iradımız yoxdur, ya Sümamə. İslam özündən qabaq olanı nəzərə almır.

Onun İslamı qəbul etməsilə Allaha bəxş etdiyi nemət münasibətilə ona müjdə verdi.

Sümamənin üzü güldü. O dedi:

–Vallah, mən sənin səhabələrindən öldürdüklərimdən qat-qat artıq müşrik öldürücəyəm. Özümü, qılıncımı və adamlarımı sənin və dininin qələbəsi yolunda qurban verəcəyəm. Ya Rəsulullah! Sənin

dəstən məni tutmamışdan mən Ümrə ziyarətinə gedirdim. İndi mənə nə məsləhət bilirsən?

–Get ümrəni yerinə yetir. Amma Allahın və Onun Peyğəmbərinin şəriətinə əsasən!

Peyğəmbər ﷺ bu münasibətlə riayət edilən şəriət qaydalarını ona öyrətdi.

* * *

Sümamə Ümrə ziyarətinə getdi. Gəlib Məkkənin mərkəzinə çatdı və gurultulu bir səslə dedi:

–Sənin hüzurundayam, Pərvərdigara, sənin hüzurundayam! Sənin hüzurundayam, ey şəriki olmayan! Sənin hüzurundayam!

Həmd və nemət Sənə məxsusdur. Mülk də Sənindir, Sənin şərikin yoxdur.

* * *

O, yer üzündə ilk müsəlmandır ki, Məkkəyə girib bu sözləri demişdir. Qüreyş bu sözləri eşidəndə qəzəb və qorxu içində toplaşdılar, qılınclar qından çıxarıldı. Onlar səs gələn tərəfə yönəldilər ki, bu sözləri onların məbədinin içində deyən adamı tutsunlar. Kütlə Sümamənin ətrafına toplaşanda o səsini daha da qaldırdı. Vüqar və qürurla irəli baxırdı. Bir Qüreyşli gənc irəli atılıb Sümaməni qətlə yetirmək istədi. Lakin ona mane olub dedilər:

–Vay halına, heç bilirsən bu kimdir?! Bu Sümamə ibn Usəl–Yəmamə hökmdarıdır... Vallah, ona bir pislik eləsək, onun adamları bizim ərzağımızı kəsər, biz acından ölərik.

* * *

Ondan sonra camaat qılıncları geri qaytarıb Sümaməyə yaxınlaşaraq soruşdular:

–Sənə nə olub, ya Sümamə?!! Nə olub ki, öz dinini və ataların dinini tərk etmisən! Məhəmmədin dinini qəbul etmisən!

Sümaə onlara cavab verdi:

–Mənə heç nə olmayıb, mən ən gözəl olan Məhəmmədin dinini qəbul etmişəm.

Sözünə davam edərək dedi:

–Bu evin sahibinə and içirəm ki, mən Yəmaməyə qayıdandan sonra bircə buğda dənəsi belə görməyəcəksiniz, o vaxta qədər ki, son nəfərə kimi onun dinini qəbul edəsiniz!

* * *

Sümamə ibn Usəl Qüreyşin gözü qarşısında Ümrə ziyarətini Peyğəmbərin ﷺ əmr etdiyi şəriətə əsasən icra etdi. Bütlərə deyil, Allaha qurban kəsdi.

Ziyarətdən sonra öz ölkəsinə qayıdıb Qüreyşə veriləcək ərzağı saxlamağı əmr etdi. Onun əmrinə tabe olub yerinə yetirdilər və Qüreyşə veriləsi nemətlərin qarşısını aldılar. Sümamənin Qüreyşə elan etdiyi iqtisadi blokada getdikcə öz səmərəsini verirdi. Qiymətlər qalxdı, adamlar arasında aclıq başlandı. Qüreyşin vəziyyəti ağırlaşdı, onlar qorxurdular ki, özləri də, ailələri də acından ölsünlər. Bu halda Allah Peyğəmbərinə ﷺ bir məktub yazdılar:

–Bizim bildiyimzə görə sən özün qohumluğu gözləyən adamsan, başqalarını da buna sövq edirsən. Lakin sən bizimlə qohumluğu qırdın, atalarımızı qılıncdan keçirtdin, övladlarımızı acından ölməyə məhkum etdin. Sümamə ibn Usəl bizim ərzağımızı kəsib bizi ac qoymuşdur. Əgər lazım bilsən, ona yaz ki, bizə zəruri olan ərzağı göndərsin.

Peyğəmbər ﷺ Sümaməyə yazdı ki, ərzağ göndərməyə başlasın və o da blokadanı dayandırdı.

* * *

Sümamə ömrü boyu dininə vəfalı, Peyğəmbərə ﷺ sədaqətli qaldı.

* * *

Peyğəmbər ﷺ öz ülvi səma yoldaşının hüzuruna köçəndən sonra ərəblər dəstə-dəstə və ya tək-tək Allahın dinindən çıxmağa başladılar.

Yalançı Müseylimə Bəni Hənifə qəbiləsinin də camaatı özünə

inama çağırdı. Sümamə ona qarşı çıxıb onun qəbiləsinə dedi:

-Ya Bəni Hənifə, siz bu qaranlıq, zülmət və işıqsız bir işlə üzbəüz qalmısınız. Bu yolu tutana Allah-təaladan heç bir şəfa və əhf omaz. Allahın əmrinə tabe olmayan bəlaya düşər.

Ya Bəni Hənifə! Eyni bir vaxtda iki peyğəmbər ola bilməz. Allah elçisi Məhəmməddən sonra peyğəmbər yoxdur. Ona şərik çıxan peyğəmbər yoxdur. Sonra mübarək Ğafir surəsindən bu ayələri oxudu: **«Ha, mim! Kitabın nazil edilməsi yenilməz qüvvət və sonsuz bilik sahibi olan Allahdandır. Günahları bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli və mərhəmətli sonsuz olan Allahdandır»** (Ğafir, əl-Mumin, 1-3).

Sonra bu sözləri də dedi:

-Allahın bu kəlamı hara, Müseylimənin dediyi: «Ey qurbağa! Quruldadığını qurulda, nə su içməyə mane olursan, nə su bulandırırsan!»

* * *

Öz qəbiləsindən müsəlman qalanları bir yerə toplayıb mürtəd-lərlə cihada başladı. Allah yolunda, Onun haqq sözünün təntənəsi yolunda döyüşdü. Allah-Təala Sümamə ibn Usəli xeyir və bərəkətlə mükafatlandırdı. Möminlərə vəd etdiyi Cənnətlə ona kəramət bəxş etdi.[37]

* * *

[37] Sümamə ibn Usəl haqqında əlavə məlumat almaq üçün bax:

1. «əl-İsabə», 1/203;
2. «Sira Nəbəviyyə İbn Hişam», mündəricat;
3. «əı-İstiab», 1/203;
4. «əı-Aləm lilzərkəli və muracia», 2/86;
5. «Əsdu əl-Ğabə», 1/246.

# ƏBU ƏYYUB ƏL-ƏNSARİ

*Konstantinopolun divarları altında basdırıldı!*

Bu möhtəşəm səhabə Xalid ibn Zeyd ibn Kuleybdir. Bəni Nəccar qəbiləsindəndir. Onun künyəsi Əbu Əyyubdur. Özü ənsarlardandır. Müsəlman ümmətinə mənsub bir adam var ki, Əbu Əyyub əl-Ənsarini tanımasın?!

Allah onun adını həm qərbdə, həm də şərqdə tanıtmışdır, insanlar içində yüksək dərəcələrə qaldırmışdır. Allahın ona verdiyi ən böyük qiymət bütün müsəlman evləri arasında yalnız onun evini Peyğəmbərin ﷺ sakin olması üçün seçməsi oldu. Bu Peyğəmbər ﷺ Mədinəyə köçəndən sonra baş verdi və Əbu Əyyub onunla fəxr edirdi.

Peyğəmbərin ﷺ onun evində yerləşməsinin çox maraqlı, şirin və ləzzətli bir tarixi vardır.

* * *

Peyğəmbər ﷺ Mədinəyə çatanda şəhər sakinləri onu ən hörmətli və ən aziz qonağı qarşıladıqları kimi qarşıladılar. Onun görüşünə hamı gəlmişdi. Gözlər heyranlıqla, elə bil ki, ən istəkli məhbuba baxırdılar.

Onlar qəlblərinin ən dərin qatlarını onun üçün açdılar; evlərinin qapılarını açdılar ki, ən istəkli evdə yerləşsin.

Peyğəmbər ﷺ Mədinə yaxınlığındakı Quba adlı yerdə dörd gün qaldı. Orada möminlər üçün tarixdə ilk olan məscidin əsasını qoydu.

Sonra dəvə ilə oradan yola çıxdı. Yəsrib ağaları yol üstə durdular. Hər kəs istəyirdi ki, Peyğəmbər ﷺ onun evinə sakin olmaqla onu şərəfləndirsin.

Ağalardan hər biri dəvənin qabağına çıxıb Peyğəmbəri ﷺ öz evinə dəvət edib deyirdilər:

–Bizim evdə qal, ya Rəsulullah! Səni də adamlarını təmin edib qoruyacağıq.

Peyğəmbər ﷺ onlara dedi:

–Onu boşlayın, o əmr almışdır.

Dəvə öz yoluna davam edir. Gözlər intizarla onu müşaiyət edir,

qəlblər xoş müjdə arzusuyla döyünürdülər.

Bir evin yanından ötüb keçəndə evin sakinləri qəmlənir, kədər və qüssəyə qərq olurdular. Başqalarının qəlbindəsə ümid çırağı yanırdı.

Dəvə isə yoluna davam edirdi. Camaat onun arxasınca həsrətlə baxırdı. Onlar həmən o xöşbəxt adamı görmək arzusunda idilər. Nəhayət dəvə Əbu Əyyub əl-Ənsarinin evinin qabağındakı meydana çatıb burada dayandı. Lakin Peyğəmbər ﷺ dəvədən düşmədi.

Dəvə yenə yola çıxdı, bir qədər yol getdi. Peyğəmbər ﷺ onun cilovunu boş buraxmışdı. Bir az keçmişdi ki, dəvə yenə öz əvvəlki yerinə qayıdıb dayandı. Bu vaxt Əbu Əyyub əl-Ənsarinin ürəyi sevinc hissi ilə doldu. O, Peyğəmbərin ﷺ qabağına çıxıb onu salamladı. O, Peyğəmbərin yükünü özü götürdü, sanki bütün dünyanın xəzinələri onun əlində idi.

Əbu Əyyubun evi birinci mərtəbədən və onun üstündə tikilmiş mansardan (tavan altında otaq) ibarət idi. Mansar boşaldıldı, adamlar və şeylər başqa yerə köçürüldü ki, burada Rəsulullah yerləşsin.

Lakin Peyğəmbər ﷺ birinci mərtəbəni seçdi və Əbu Əyyub onun istəyinə tabe oldu. Peyğəmbər ﷺ istədiyi yerdə yerləşdi.

Gecə oldu. Yatmaq vaxtı çatdı. Peyğəmbər öz yatağına girdi. Əbu Əyyub və arvadı yuxarı mərtəbəyə çıxıb qapını bağladılar. Əbu Əyyub arvadına üz tutub dedi:

-Vay halına! Biz nə etdik? Heç ola bilər ki, Allah Peyğəmbəri ﷺ altda qalsın, biz isə ondan yuxarı qalxaq?! Heç ola bilərmi biz Peyğəmbərin ﷺ üstündə yeriyək?! Biz Peyğəmbərlə ﷺ vəhy arasını kəsək?! Biz, həlak olmağa məhkumuk.

Ərlə arvadın qolu-qanadı sındı, onlar peşman və narahat idilər. Bilmirdilər ki, neyləsinlər!

Onlar mansarda Peyğəmbərin ﷺ yatdığı yerin üstündə olmayan küncünə çəkilməyincə yatmadılar. Onlar hətta yeriyəndə də otağın yan tərəflərində, ortadan kənarda gəzirdilər.

* * *

Sübh açılanda Əbu Əyyub Peyğəmbərə ﷺ dedi:

-Allah haqqı, bu gecə heç gözümüzü yummamışıq, nə mən, nə də Ummu Əyyub yatıb.

Peyğəmbər ﷺ soruşdu:

-Nə üçün, ya Əbu Əyyub?

-Fikirləşdim ki, evin damındayam, sənsə mənim altımda. Qorxuram hərəkət edim üstünə toz-torpaq tökülsün, sənə əziyyət olsun. Həm də səninlə vəhy arasında durmaqdan qorxuram.

Peyğəmbər ﷺ ona dedi:

-Ya Əbu Əyyub, narahat olma. Yanımızda çoxlu adamlar gəldiyindən bizim aşağıda yerləşməyimiz daha yaxşıdır.

Əbu Əyyub deyir:

-Allah Peyğəmbərinin ﷺ əmrinə tabe oldum.

* * *

Gecə oldu. Soyuq bir gecə idi. Otaqda olan bardaq sındı. Suyu yerə dağıldı. Mənlə Ummu Əyyub yeri qurutmağa başladıq. Əlimizdə yorğan kimi istifadə etdiyimiz qətfədən başqa bir şey yox idi. Suyun Peyğəmbərin ﷺ üstünə axıb töküləcəyindən qorxub onu qurutmağa başladıq.

Səhər açılanda Peyğəmbərin ﷺ yanına gəlib dedi:

-Atam, anam sənə fəda olsun. Mən səndən yuxarıda qala bilmərəm, sənin məndən aşağıda olmağınla razılaşmaram. Ona bardaq əhvalatını danışdım. O mənimlə razılaşdı və yuxarı qalxdı. Mən Ummu Əyyubla aşağı mərtəbəyə qayıtdıq.

Peyğəmbər ﷺ təqribən yeddi ay Əbu Əyyubun evində yaşadı. Bu onun üçün dəvənin birinci dəfə dayandığı boş meydanda məscid tikilənə qədər belə davam etdi. Peyğəmbər ﷺ arvadlarıyla məscidin ətrafında tikilmiş evlərdən birinə köçdü. O, Əbu Əyyubun qonşusu oldu. O öz qonşularından kəramət qazandı.

* * *

Əbu Əyyub Allah Peyğəmbərini ﷺ onun qəlbinə tamamilə hakim kəsilmiş bir məhəbbətlə sevirdi. Peyğəmbər ﷺ də Əbu Əyyuba elə bir məhəbbət hissi bəsləyirdi ki, bununla evin icarə haqqı belə ödənildi və o, Əbu Əyyubun evinə öz evi kimi baxmağa başladı.

İbn Abbas bunu demişdir:

«Bir gün Əbu Bəkr ؓ günün günorta çağı məscidə gəldi. Onu

görən Ömər ﷺ soruşdu:

–Nə olub, ya Əbu Bəkr? Belə vaxta səni bayıra çıxmağa nə vadar edib?

–Məni bayıra çıxmağa məcbur edən aclıqdır.

Ömər dedi:

–Mən də, vallah, elə buna görə çıxmışam.

Onlar bir-birilə danışdıqları vaxt Peyğəmbər ﷺ bayıra çıxıb soruşdu:

–Bu vaxt bayıra çıxmağa sizi nə vadar edib?

–Vallah, biz ona görə çıxmışıq ki, qarnımızdakı aclıq ağrısına dözə bilmirik.

Peyğəmbər ﷺ dedi:

–Allaha and olsun! Mən də elə buna görə evdə qala bilmədim. Gəlin mənimlə.

Onlar Əbu Əyyub əl-Ənsarinin ﷺ qapısı ağzına çatdılar.

Əbu Əyyub hər gün Peyğəmbər ﷺ üçün yemək hazırlayırdı. Əgər Peyğəmbər ﷺ gəlməsəydi onda yeməyi öz ailəsinə verərdi.

Qonaqlar qapı ağzında dayananda Ummu Əyyub onları qarşıladı və dedi:

–Allah Peyğəmbəri və onun yol yoldaşlarına salam olsun!

Peyğəmbər ﷺ ondan soruşdu:

–Əbu Əyyub hardadır?

Əbu Əyyub Peyğəmbərin ﷺ səsini eşidəndə yaxınlıqdakı xurma ağacının altında işləyirdi, tez gəlib dedi:

–Allah Peyğəmbərinə və onunla gələnlərə salam olsun! Ya Rəsulullah, sən, axı bu vaxtlar gəlməzdin?!

Peyğəmbər ﷺ dedi:

–Düz deyirsən.

Əbu Əyyub gedib bir xurma budağı kəsdi və onda yetişmiş və yetişməmiş meyvələr var idi.

Peyğəmbər dedi:

–Mən istəməzdim ki, sən budağı kəsəsən. Məgər onun meyvəsini bizim üçün dərə bilməzdin?

–Ya Rəsulullah! İstədim ki, sən onun həm yetişmiş, həm də yetişməmiş meyvələrini yeyəsən. Həm də sənin üçün bir heyvan da kəsərik.

Əbu Əyyub bir çəpiş tutub kəsdi. Sonra arvadına dedi:

–Xəmir yoğur, bizə fətir bişir. Sən yaxşı çörək bişirirsən.

Cəmdəyin yarısını xörək bişirdi, ikinci yarısınısa qızartdı.

Yemək hazır olandan sonra onu Peyğəmbərin ﷺ və onun yoldaşlarının qabağına süfrəyə qoydu. Peyğəmbər ətdən bir tikə götürüb fətirin arasına qoyaraq dedi:

–Ya Əbu Əyyub! Bu tikəni tez Fatiməyə çatdır. O çoxdan belə şey yeməyib.

Yeyib doyduqdan sonra Peyğəmbərin ﷺ gözləri yaşararaq dedi:

–Allaha and olsun! Bu nemət barədə sizi Qiyamət günü sorğu-suala tutacaqlar. Yeməyə başlayanda, əlinizi yeməyə uzadanda deyin: «Bismillah». Doyanda deyin: «Bizi doyduran, nemətlər bəxş edən, bizi üstün tutan Allaha həmdü səna olsun!»

Bundan sonra Peyğəmbər ﷺ ayağa durub Əbu Əyyuba dedi:

–Sabah yanıma gəl!

Biri Peyğəmbərə ﷺ bir yaxşılıq etsəydi o mütləq əvəzini çıxmaq istəyərdi. Lakin Əbu Əyyub onun dəvətini eşitmədi.

Ömər رضي الله عنه dedi:

–Ya Əbu Əyyub, Peyğəmbər ﷺ sənə əmr etdi ki, sabah onun evinə gələsən!

Əbu Əyyub dedi:

–Baş üstə, ya Rəsulullah!

* * *

Səhəri Əbu Əyyub Peyğəmbərin ﷺ evinə gələndə ona bir kiçik cariyə bağışladı. O, Peyğəmbərə ﷺ evdə qulluq edirdi. Peyğəmbər ﷺ dedi:

–Xeyirli olsun, ya Əbu Əyyub. Biz bu cariyədən yalnız yaxşılıq görmüşük.

Əbu Əyyub balaca qızcığazla evinə gələndə arvadı Ummu Əyyub soruşdu:

–Bu kimindir, ya Əbu Əyyub?

–Bizimdir, Peyğəmbər ﷺ onu bizə hədiyyə etmişdir.

–Nə qədər əzəmətli bir hədiyyə, nə gözəl bir hədiyyə?!

–Bizə onunla yaxşı davranmağı tövsiyə etdi.

–Nə edək ki, Peyğəmbərin tövsiyəsini yerinə yetirək?

Əbu Əyyub dedi:

-Vallah, onu azad etməkdən Peyğəmbərin ﷺ tövsiyəsinə əməl etməyin daha yaxşı bir yolunu görmürəm.

Arvad bununla razılaşaraq dedi:

-Savab iş görmüş olarsan. Sən savab qazanarsan.

Cariyəni azat etdi.

Bu Əbu Əyyub əl-Ənsarinin həyatından bəzi səhifələrdir. Sülh vaxtı belə yaşadı. İndi də sənə fürsət veririk ki, onun müharibə vaxtı əməllərinə heyran qalasan.

* * *

Əbu Əyyub əl-Ənsari bir qazi kimi həyat sürürdü. Onun barədə deyilirdi: Elə bir hərbi yürüş yoxdur ki, onda iştirak etməsin. O, Peyğəmbərin ﷺ dövründən başlayan Müaviyənin dövrünə qədər bütün döyüşlərdə iştirak etmişdi. Yalnız daha mühüm işlərlə məşğul olan hallarda yürüşə getməzdi.

Onun sonuncu döyüşü Müaviyyə oğlu Yezid başda olmaqla Konstantinopola ordu göndərdiyi vaxt olmuşdur. Bu vaxt o çox qoca bir şeyx idi, yaşı səksənə yaxınlaşırdı. Lakin bu onun orduya qoşulmasına mane olmadı.

Lakin bir az vaxt keçmişdi ki, Əbu Əyyub xəstələndi və döyüşdə iştirak edə bilmədi. Yezid onu geri qaytarmaq istəyərək dedi:

-Sənin nəyə ehtiyacın vardır, ya Əbu Əyyub!

Əbu Əyyub dedi:

-Məndən müsəlman əsgərlərinə salam yetir. Onlara de: Əbu Əyyub sizə düşmən torpaqlarının içərilərinə soxulmağı tövsiyə edir, ən uzaq bölgələrə çatın. Onu (Əbu Əyyubu) da özünüzlə aparın, meyidini ayaqlarınızın altında -Konstantinopolun divarları dibində basdırın.

* * *

Bundan sonra onun pak nuru bədənini tərk etdi.

* * *

Müsəlman əsgərlər Peyğəmbərin ﷺ səhabəsinin istəyinə əməl etdilər. Bir-birinin ardınca düşmən əsgərlərinin üzərinə hücum

etdilər. Əbu Əyyubun meyidi də onlarla idi.

Şəhər divarlarının dibində onun qəbrini qazdılar və onu burada dəfn etdilər.

* * *

Allah Əbu Əyyub əl-Ənsariyə rəhmət eləsin! O təqribən səksən yaşında olsa da yalnız əla döyüş atının belində Allah yolunda döyüşdə ölməyi qəbul etdi! [38]

* * *

[38] Əbu Əyyub əl-Ənsari haqqında əlavə məlumat almaq üçün bax:

1. «əl-İsabə», 1/405;
2. «Tarix əl-İslam Əz-Zəhəbi», 2/327-328;
3. «Xulasat təzhib təhzib əl-Kamil», 100-101;
4. «İbn Xayyat», 89,140, 190, 303;
5. "əl-Camii beynəl rical əs-Sahiheyn", 1/118-119;
6. "Təhzib ət-Təhzib», 3/90-91;
7. «Tabaqat əl-Kubra», 3/484-485;
8. «Sıfatus-Safva», 1/186-187;
9. «Əsdul-Ğabə», 5/143-144;
10. "Təqrib ət-Təhzib", 1/213;
11. "Şəzərat əz-Zəhəb", 1/57;
12. "Təcrid əsma əs-Səhabə", 1/121 və s.

# AMR İBN ƏL-CƏMUH

*Öz əyri qıçı ilə Cənnətə ayaq basmaq istəyən qoca.*

Amr ibn əl-Cəmuh cahiliyyə dövründə Yəsribin rəhbərlərindən, Bəni Sələmənin tanınmış ağalarından, Mədinədə adı dillər əzbəri olmuş cəngavərlərdən biri idi.

Cahiliyyə əyan və əşrəflərinin belə bir adəti var idi ki, onların hər biri özünə evdə bir büt qoyardı ki, səfərə gedəndə, bir iş görəndə ondan təbərrğk diləsin. Qurbanlıq vaxtı bu bütə qurban kəsərdilər, çətinə düşəndə ona üz tutardılar.

Amr ibn əl-Cəmuhun bütünə «Mənat» adı verilmişdi. Onu çox nəfis bir ağacdan düzəltdirmişdi...

Bu bütə münasibətdə çox israfçılıq edərdi, ona xüsusi qayğı göstərərdi, gözəl boyalarla onu rəngləyərdi.

* * *

Yəsrib evləri bir-birinin ardınca ilk çağırışçı Musab ibn Umeyr vasitəsilə İslama qoşulanda Amr ibn əl-Cəmuhun yaşı altmışı ötmüşdü.

Onun üç oğlu-Muavvaz, Muaz və Xəllad da İslamı onun gözü qabağında müsəlman oldular. Onların Muaz ibn Cəbəl adlı bir yaşıdları da İslamı qəbul etdi.

Anaları Hind də öz üç oğlu ilə birlikdə İslama iman gətirdi, halbuki, din haqqında heç nə bilmirdi.

Amr ibn əl-Cəmuhun arvadı Hind gördü ki, Yəsrib əhalisinin əksəriyyəti müsəlman olmuşdur. Özü də əşrəflər içində ərindən və bir neçə adamdan başqa heç kəs şirk sahibi deyildir.

O ərini sevir və ona hörmət edirdi. O istəmirdi ki, əri kafir kimi ölüb cəhənnəmə getsin.

Amr da öz növbəsində övladlarının öz ata-babalarının dinindən dönməsindən və bu çağırışçı Musab ibn Umeyrə qoşulmasından qorxurdu. Bu adam qısa bir müddət ərzində çoxunu öz dinindən döndərə bilmiş və Məhəmmədin dininə daxil etmişdi.

O arvadına dedi:

-Ya Hind, sən uşaqları bu kişi ilə (yəni Musab ibn Umeyrlə) görüşməyə qoyma. Gözlə görək o nə deyir.

Arvad dedi:

-Baş üstə, istəyirsənmi oğlun Muazın bu adam haqqında nələr dediyini biləsən?

Amr dedi:

-Vay halına, məgər Muaz öz dinindən dönüb, mənimsə bundan xəbərim yoxdur?!

Əməli saleh qadının yaşlı kişiyə ürəyi yandı. O bu çağırışçının bəzi məclislərində iştirak etmişdi və az da olsa bildikləri var idi.

Kişi dedi:

-Onu yanıma çağırı!

Oğlan onun hüzuruna gələndə ata dedi:

-O kişinin dediklərindən bəzilərini mənə danış.

Oğlan dedi:

**«Bismilləhir rəhmanir rəhim. Əl-Həmdü lillahir rəbbil aləmin, ər-Rəhmanir rəhim. Maliki yəumiddin. İyyakə nəbudu və iyyakə nəstəin. İhdina sıratal müstəqim. Sıratəlləzinə ənəmta əleyhim ğeyril məğdubi əleyhim vəladdallin.** (Rəhimli və mərhəmətli Allahın adı ilə!. Aləmlərin sahibi, Rəbbi, din gününün sahibi, mərhəmətli və rəhimli Allaha həmd olsun. (Allahım!) Biz yalnız Sənə ibadət edir, yalnız Səndən kömək diləyirik. Bizi düz yola-nemətlər bəxş etdiyin, qəzəbinə düçar olmayan və yol azmayan kəslərin yoluna yönəlt» (Mübarək «Fatihə» surəsi).

Amr dedi:

-Nə yaxşı sözlər, nə gözəl sözlər?! Onun bütünün kəlamı belədir?!

Muaz dedi:

-Atacan, bundan da yaxşısı vardır. Sən onun ardınca gedərsənmi? Sənin tayfan bütünlüklə onun dinini qəbul etmişdir.

Şeyx bir qədər susdu, sonra dedi:

-Mən Mənatla məsləhətləşməmiş heç nə deməyəm. Baxım görüm nə deyir.

Oğlan ona dedi:

-Atacan. Mənat sənə nə deyə bilər? O dilsiz, ağızsız və kar bir

taxtadır.

Şeyx hiddətlə dedi:

-Sənə dedim ki, onsuz heç nə etmərəm.

* * *

Amr ibn əl-Cəmuh bundan sonra Mənatın yanına gəldi. Onlar bütlə danışmaq istədikdə onun arxasında bir qoca qarı otuzdurardılar. Bu qadın onları razı salan cavabı bütün əvəzinə verirdi. Bunu müşriklər iddia edirdilər.

Amr ibn əl-Cəmuh gəlib bütün qarşısında ayaq üstə durdu. O öz sağlam qıçı üstə dururdu, belə ki, onun o biri qıçı çox əyri idi.

O, bütə ən xoş sözlərlə təriflər yağdırdı və dedi:

-Ya Mənat! Sən yəqin bilirsən ki, Məkkədən bizə gələn bu çağırışçı səndən başqa heç kəsə pislik istəmir. O bizim sənə ibadət etməyimizə son qoymaq üçün gəlmişdi. Mən ona beyət etmək istəmədim, baxmayaraq ki, ondan gözəl sözlər eşitdim. Səninlə məsləhətləşmək istədim. Mənə yol göstər!

Mənat ona cavab vermədi.

O dedi:

-Bəlkə sən qəzəbləndin... Mən sənə əziyyət verəcək bir iş görmərəm. Eybi yoxdur, bir neçə gün gözləyəcəyəm ki, qəzəbin soyusun.

* * *

Amr ibn əl-Cəmuhun övladları atalarının Mənat bütünə bağlılığını bilirdi. Onlar bilirdilər ki, o, uzun müddət bu bütlə yaşamışdır. Lakin onlar həm də hiss etdilər ki, bütün onun qəlbindəki yeri titrəməkdədir. Onlların vəzifəsi onu onun özündən xilas etməkdir. İman yolu belə idi.

* * *

Amr ibn əl-Cəmuhun oğulları dostları Muaz ibn Cəbəllə birlikdə gecə vaxtı Mənatın qoyulduğu yerə gəldilər. Onu götürüb Bəni Sələmənin zir-zibilini atdıqları çuxura atdılar. Bundan sonra öz evlərinə döndülər.Bu işdən heç kəsin xəbəri olmadı.

Səhər açıldı. Amr öz bütünün yanına gedirdi ki, onu salamlasın. Amma onu görmədi və dedi:

-Vay halınıza! Kim bizim tanrımıza qarşı təcavüz etmişdir?

Heç kəs ona cavab verə bilmədi.

O, bütü evin içində və çölündə axtarmağa başladı. Qəzəb və hiddət içində ora-bura çırpınırdı. Çox axtardı, nəhayət onu başı üstə çuxura atılmış vəziyyətdə tapdı. Onu çıxarıb yudu, təmizlədi və yerinə qaytarıb dedi:

-Vallahi, bilsəydim bunu kim edib, onu abırdan salardım,

İkinci gecə gənclər yenə Mənatın yanına gəlib keçən gecə etdiklərini etdilər. Səhəri şeyx yenə bütün yanına gəldi, çuxura atılıb çirkaba bulaşmış tapdı. Yenə götürdü, yudu və təmizləyib, yerinə qoydu.

Hər gecə gənclər bu bütlə eyni hərəkəti təkrarladılar. Şeyx təngə gəlib qılıncını onun boynundan asaraq dedi:

-Ya Mənat! Vallahi, mən bilmirəm gördüyün bu oyunları başına kim açır. Əgər səndə bir xeyir varsa şəri özündən uzaqlaşdır. Budur qılınc da səndədir.

Bundan sonra gedib yatağına girdi.

Gənclər şeyxin dərin yuxuya getdiyinə əmin olduqdan sonra yenidən bütün yanına gəldilər, qılıncı onun boynundan çıxartdılar, onu bayıra aparıb ölü bir it leşinə bağladılar. Sonra onları Bəni Sələmənin zibil tökdüyü bir quyuya atdılar.

Şeyx yuxudan durduqda yenə bütü görmədi, axtarıb onu başı üstə quyuya atılmış və it leşinə bağlanmış halda tapdı. Qılınc onun boynundan açılmışdı.

Bu dəfə bütü quyudan çıxartmadı, atıldığı yerdə də saxladı. Yalnız nəzmlə bu misraları dedi:

*Vallah olsaydın doğruçu tanrı,*
*Özünü qoruyardın sən barı!*
*Ölü itlə bir səni tapdım,*
*Bununla da dinini atdım!*

* * *

O tezliklə Allahın haqq dininə qovuşdu.

Amr ibn əl-Cəmuh iman şirinliyini tezliklə daddı. Amma şirkdə keçirtdiyi vaxta görə peşimançılıq bir an belə onu rahat buraxmadı. O həm ruhu, həm də bədəni ilə yeni dinə qovuşmuşdu, özünü, mal-dövlətini və uşaqlarını Allaha və Onun Peyğəmbərinə itaətə həsr etmişdi.

* * *

Az bir vaxt keçmişdi ki, Uhud döyüşü baş verdi. Amr ibn əl-Cəmuh gördü ki, onun hər üç oğlu Allah düşmənləriylə döyüşə hazırlaşırlar. Onlar meşə aslanı kimi gedib gəlir, şəhadət səadətinə çatmaq və Allahın rizasını qazanmaq istəyilə alışıb yanırdılar. Onların bu hərəkəti onu da riqqətə gətirdi, o da Allah Peyğəmbərinin ﷺ bayrağı altında cihada getmək qərarına gəldi.

Lakin gənclər atalarının bu istəyinə mane olmağa çalışdılar.

O böyük şeyx, yaşı xeyli ötmüş bir qoca idi. Bununla yanaşı onun qıçı çox əyri idi. Allah-təala onu döyüşdən üzürlü bilmişdi.

Oğullar ataya dedilər:

-Atamız! Allah səni üzürlü bilmişdir.

Allahın sənə rəva bilmədiyi bir yükü sən necə üzərinə götürürsən?

Qoca çox qəzəbləndi. Peyğəmbərin ﷺ yanına şikayətə gələrək dedi:

-Ya Peyğəmbər! Oğullarım məni bu xeyir işdən kənarlaşdırmaq istəyirlər. Onlar mənim əyri qıç olmağımı bəhanə gətirirlər. Vallah, mən bu əyri qıçımla Cənnətə ayaq basmaq arzusundayam!

Peyğəmbər ﷺ onun oğullarına dedi:

-Qoyun getsin. Bəlkə Allah-təala ona Cənnət səadəti bəxş etdi.

Onlar Allah Peyğəmbərinin ﷺ əmrinə tabe olub atalarına yol verdilər.

Döyüşə getmək vaxtı çatanda Amr ibn əl-Cəmuh arvadı ilə vidalaşdı, sanki bu son görüş idi.

Sonra üzünü qibləyə tutub hər iki əlini səmaya qaldıraraq dedi:

-Pərvərdigara, mənə şəhadət rizasını bəxş et! Məni ailəmə peşman qaytarma!

* * *

Öz üç oğlunun əhatəsində Bəni Sələmə tayfasının çox saylı üzvlərilə birgə yola düşdü.

Döyüş alovu şiddətlənəndə camaat Allah Peyğəmbərinin ﷺ ətrafından dağılışdığı vaxt Amr ibn əl-Cəmuh ən birinci sırada öz bir sağlam qıçı üstə qalxıb bu sözləri deyirdi:

-Mən Cənnətə müştağam, mən Cənnətə müştağam.

Onun arxasında oğlu Xəllad dayanmışdı. Şeyx və onun oğlu Peyğəmbəri ﷺ müdafiə edərək döyüşürdülər. Bu o vaxta qədər davam etdi ki, döyüş meydanında iki şəhid torpağa sərildi. Ata ilə oğlunun şəhadəti arasında bir neçə anlıq fasilə var idi.

Döyüş qurtardıqdan sonra Peyğəmbər ﷺ Uhud şəhidlərini torpağa tapşırmağa başladı. O öz səhabələrinə dedi:

-Onları qanları və yaraları ilə birlikdə dəfn edin. Mən onlara şahidəm. Sonra bunları dedi:

-Allah yolunda müsəlmanın qanı sel kimi axacaqdır. Bu qan zəfaran rəngində olacaqdır. Müşk-ənbər ətri verəcəkdir.

Daha sonra dedi:

-Amr ibn əl-Cəmuhu Abdullah ibn Amrla birgə dəfn edin. Onlar dünyada bir-birinə çox bağlı və sadiq idilər.

* * *

Allah təala Amr ibn əl-Cəmuhdan və onun Uhud döyüşündəki şəhid yoldaşlarından razı olsun, qəbrlərini nurla doldursun.[39]

* * *

---

[39] Amr ibn əl-Cəmuh haqqında əlavə məlumat almaq üçün bax:

1. «əl-İsabə», 2/529;
2. «Sıfatus-Safva», 1/265.

# ABDULLAH İBN CƏHŞ

*Əmirəlmöminin adı almış ilk adam*

İndi haqqında söhbət açacağımız, səhabə Peyğəmbərlə ﷺ son dərəcə sıx bağlı, İslamı ilk qəbul edənlərdən biridir.

O, Peyğəmbərin ﷺ bibisi oğludur. Anası Umeymə bint Əbdül Müttəllib Peyğəmbərin ﷺ bibisidir. O, həmçinin Peyğəmbərin ﷺ qaynıdır. Onun bacısı Zeynəb bint Cəhş Rəsulu Əkrəmin ﷺ arvadı, möminlərin analarından biri olmuşdur.

O, İslamda ilk hərbi hissə başçısı olmuşdur. O, həmçinin əmirəlmöminin adı almış ilk adamdır.

Bu adam Abdullah ibn Cəhş əl-Əsədidir.

* * *

Abdullah ibn Cəhş Peyğəmbər ﷺ Dərul Ərqəməyə girənə qədər müsəlman olmuşdur, İslamı ən birinci qəbul edənlərdəndir.

Peyğəmbər ﷺ öz səhabələrinə Qüreyşin verdiyi əzab və əziyyətdən xilas olmaq üçün Mədinəyə hicrət icazəsi verəndə Abdullah ibn Cəhş ikinci mühacir idi. Bu tərəfdə onu yalnız Əbu Sələmə qabaqlaya bilmişdi.

Baxmayaraq ki, Allah yolunda hicrət etmək, ailədən, evdən baş götürüb getmək Abdullah ibn Cəhş üçün, yeni bir iş deyildi- buna qədər o və yaxınları Həbəşistana hicrət etmişdi- onun bu dəfəki hicrəti daha böyük və əhatəli idi. Onunla ailəsi və qohumları da hicrət etdi. Onun ata qohumlarından olan arvad və kişilər, qocalar və cavanlar, uşaqlar və yeniyetmələr də ona qoşulmuşdular.

Onun evi müsəlman evi, qəbiləsi iman qəbiləsi idi.

* * *

Onlar Məkkədən təzəcə aralanmışdılar ki, ürəklərini doğma yerlər üçün şövq və kədər hissləri bürüdü. Onlar aclıq və tənhalıq

içində yola çıxdılar. Elə bil əvvəllər nə bir dost var idi, nə bir sirdaş, nə də böyük imarətdə birgə keçirilən gecələr, həm söhbətlər olmuşdur.

* * *

Abdullah ibn Cəhş və onun adamları təzəcə hicrət yoluna düşmüşdülər ki, Qüreyş rəhbərləri Məkkədən hansı müsəlmanların çıxıb getdiyini, hansılarının qaldığını müəyyənləşdirmək məqsədilə şəhər məhəllələrini bir-bir gəzməyə başladılar. Bu rəhbərlər arasında Əbu Cəhl və Ütbə ibn Rabiə də var idi.

Ütbə Bəni Cəhş evlərinə baxanda orada küləyin at oynatdığını, toz-torpağın havaya sovrulduğunu, yiyəsiz evlərin qapılarını bir-birinə çırpdığını görəndə dedi:

-Bəni Cəhşin yurd-yuvası boş qaldı, sakinləri üçün göz yaşı axıdır...

Əbu Cəhl dedi:

-Onlar üçün yurdunun göz yaşı axıtdığı bu adamlar kimlərdir?!

Bundan sonra Əbu Cəhl evlərin ən gözəli, ən zəngini olan Abdullah ibn Cəhşin evini seçdi və ev sahibi kimi dolanmağa başladı.

Əbu Cəhlin onun mülkünə yiyələnməsi xəbəri Abdullah ibn Cəhşə çatanda bunu Peyğəmbərə ﷺ bildirdi. Peyğəmbər ﷺ dedi:

-Ya Abdullah! Məgər sən Allahın onun əvəzinə sənə bəxş etdiyi Cənnət evinə razı olmursan?!

-Əlbəttə, ya Rəsulullah!

-Bu sənin əcrindir.

Abdullah bu sözlərdən sonra sakitləşdi. Sevincdən gözləri yaşardı.

* * *

Birinci və ikinci hicrətlərin bütün çətinliklərinə səbirlə dözən Abdullah ibn Cəhş Mədinədə sakin oldu.

Qüreyşdən məruz qaldığı ağır əzab və əziyyətdən sonra ənsarların himayəsi altında rahatlıq tapmaqda idi. Lakin Allahın istəyilə həyatda ən ağır imtahana, İslamı qəbul etdiyi gündən məruz

qaldığı ən çətin təcrübəni keçməli oldu.

İndi gəl bu ağır və acı təcrübənin hekayətini dinləyək:

* * *

Peyğəmbər ﷺ öz səkkiz səhabəsini İslamın ilk hərbi aksiyasını həyata keçirtmək üçün göndərdi. Bunların arasında Abdullah ibn Cəhş və Səd ibn Əbu Vəqqas da var idi. Peyğəmbər ﷺ onlara dedi:

–Sizə aclığa və susuğluğa dözümlü olmağı əmr edirəm.

Bundan sonra dəstəyə əmirliyə Abdullah ibn Cəhşi təyin etdi. O möminlər arasında hərbi dəstəyə təyin edilən ilk başçı oldu.[40]

* * *

Peyğəmbər ﷺ Abdullah ibn Cəhşin gedəcəyi yeri göstərdi və ona bir məktub verib yalnız iki gün yol getdikdən sonra onu açmağı əmr etdi.

Hərbi dəstə iki günlük yol qət edəndən sonra Abdullah məktubu açdı. Onda deyilirdi:

«Bu məktubu oxuyandan sonra yoluna davam elə Nəxləyə (Taiflə Məkkə arasında) çatıb Qüreyşə göz ol və bizə onların hərəkətləri barədə məlumat ver...».

Abdullah məktubu oxuyub qurtaranda dedi:

–Baş üstə, Allah Peyğəmbərinə tabeyik!

Öz yoldaşlarına üz tutub dedi:

–Allah Peyğəmbəri bizə Nəxləyə qədər gedib Qüreyşə göz qoymağı və aldığımız məlumatları ona çatdırmağı əmr etmişdir. Kiminsə mənimlə könülsüz getməyini yasaq etmişdir. Kim şəhadət istəyir qoy mənimlə getsin. Kim istəmir, qoy qayıtsın. Günahkar saymarıq.

Camaat dedi:

–Allah Peyğəmbərinin ﷺ əmrinə tabeyik. Allah Peyğəmbəri ﷺ hara əmr etsə, biz də ora səninlə gedərik.

Dəstə yoluna davam edərək Nəxləyə çatdı və kəşfiyyat aparmağa və Qüreyş haqqında məlumat toplamağa başladı.

---

[40] Bəzilərinin fikrincə İslamda ilk hərbi əmir (komandir-tərc.) Həmzə İbn Abdul Müttəlib ؓ olmuşdur.

Beləki, onlar Qüreyşin dörd nəfərdən ibarət karvanı ilə rastlaşdılar. Bu dörd nəfər Amr ibn əl-Həzrəmi, Həkəm ibn Keysan, Osman ibn Abdullah və qardaşı Müğeyrə idi. Onların karvanında Qüreyşin ticarət malları var idi. Yük dəridən, kişmişdən və başqa bu kimi Qüreyşin ticarət mallarından ibarət idi.

Bu vaxt səhabələr bir-birilə məsləhətləşmə apardılar. Bu gün haram ayların[41] sonuncu günü idi.

Onlar dedilər:

-Əgər onlarla döyüşsək, onda haram ayında onları öldürmüş oluruq və bununla da bu aya hörmətsizlik göstərərək bütün ərəblərin nifrətinə məruz qalarıq. Yox, əgər bu fürsəti əldən versək, bir gün keçəcək və karvan haram torpağa[42] daxil olub təhlükəsizlik təminatı qazanacaq.

Müşavirə keçirib karvana hücum etmək və yükü ələ keçirtmək qərarına gəldilər.

Döyüş çox az davam etdi. Onlardan birini öldürdülər, ikisini əsir aldılar və biri də qaçıb getdi.

* * *

Abdullah ibn Cəhş və yoldaşları hər iki əsir və qatırla Mədinəyə döndülər. Onlar Peyğəmbərin ﷺ hüzuruna gələndə o, onları danladı, hərəkətlərini pislədi və dedi:

-Vallahi, mən sizə döyüşməyi əmr etməmişdim. Mən sizə Qüreyşə nəzarət etməyi əmr etmişdim, onların hərəkətlərinə göz qoyub mənə məlumat verməyi tapşırmışdım.

Əsirləri son qərar qəbul edilənə qədər saxladı, bir şey götürmədən qatırı buraxdı.

Abdullah ibn Cəhş və yoldaşları pis vəziyyətdə idilər, onlara aydın oldu ki, Allah Peyğəmbərinin ﷺ əmrini pozaraq adam öldürmüşlər.

Onların halı həm də ona görə daha çox pisləşdi ki, müsəlman qardaşları onları çox danlayırdılar. Onlar döyüşçülərdən üz döndərərək hər dəfə onları acılayıb deyirdilər:

-Bu adamlar Allah Peyğəmbərinin ﷺ əmrini pozmuşlar!

Onların narahatlığı Qüreyşin bu hadisəni bəhanə edərək Peyğəmbərə ﷺ qarşı müharibəyə başlamaq istəməsi xəbərini eşidəndən sonra daha da artdı. Onlar Peyğəmbəri ﷺ qəbilələr

---

[41] Bunlar ərəblərin müharibəni qadağan etdikləri Zül Qaidə, Zül Hiccə, Məhərrəm və Rəcəb aylarıdır.

[42] Yəni döyüşün haram edildiyi Məkkə torpağına.

arasında pisləyərək deyirdilər:

–Məhəmməd haram ayını pozdu, onda qan axıtdı, qənimət aldı, adamları əsir götürdü.

Abdullah ibn Cəhşin və onun yoldaşlarının onların törətdiyi əmələ görə çəkdikləri əzab hissi barədə heç soruşma, nə də ki, onların Allah Peyğəmbərindən ﷺ onu məruz qoyduqları narahatlığa görə necə xəcalət çəkdikləri barədə soruş!

Onların narahatçılığı daha da artdığı, dərd-bəlaya daha çox düçar olduğu bir vaxtda onlara şad bir xəbər çatdı:

* * *

Allah sübhənəhu-təala onların əməlindən razı qalmışdı. Bu haqda Öz peyğəmbərinə vəhy göndərmişdir.

İndi artıq onların sevinci və fərəhinin hüdudu barədə soruşma! Adamlar onların yanına axışıb gələrək onları təbrik edir, salamlayır, onlar barədə nazil olan mübarək ayəni oxuyurdular. Peyğəmbərə ﷺ bu hadisə münasibətilə aşağıdakı ayə nazil olmuşdu:

«(Ya Məhəmməd!) **haram olan ayda səndən vuruşmaq haqqında soruşanlara de: «O ayda vuruşmaq böyük günahdır, lakin allah yolunu qapamaq, onu inkar etmək, haram məscidə girməyə mane olmaq və oradakıları kənara çıxarmaq allah yanında daha böyük günahdır. Din naminə fitnə salmaqsa həmən ayda vuruşmaqdan daha pisdir.** (Məkkə müşrikləri) **bacarsalar, sizi dininizdən döndərincəyə qədər sizinlə vuruşacaqlar. Sizdən hər kəs öz dinindən dönərək kafir kimi ölərsə, belə adamların bütün əməlləri dünya və axirətdə heç olacaqdır. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar!»** (əl-Bəqərə, 217).

* * *

Bu mübarək ayələr nazil olanda Peyğəmbər ﷺ də sakitləşdi, əhval-ruhiyyəsi yaxşılaşdı. Qatırı götürdü, əsirlərin əvəzinə qənimət aldı. O, Abdullah ibn Cəhşin və onun yoldaşlarının əməlindən razı qaldı. Belə ki, onların bü döyüşü müsəlmanların həyatında böyük bir hadisə idi.

Bu döyüşdə əldə edilən qənimət İslam tarixində ilk qənimət idi. Öldürülən adam müsəlmanların axıtdıqları qan müqabilində öldürülən ilk müşrik idi. İki əsir ilk əsirlər idi. Döyüşdə qaldırılan bayraq Peyğəmbərin ﷺ əli dəydiyi ilk bayraq idi. Komandir olan Abdullah ibn Cəhş möminlərin ilk əmiri idi.

* * *

Bundan sonra Bədr döyüşü baş verdi. Abdullah ibn Cəhş bu döyüşdə imanına layiq bir kəramət nümayiş etdirdi.

* * *

Daha sonra Uhud döyüşü baş verdi. Abdullah ibn Cəhş və onun döyüş yoldaşı Səd ibn Əbu Vəqqasın bu döyüşdəki hekayəti yaddan çıxmır.

Sözü Sədə verək ki, özünün və yoldaşının başına gələnləri bizə danışsın: Səd ibn Əbu Vəqqas deyir:

–Uhud döyüşü vaxtı Abdullah ibn Cəhşlə rastlaşdım. O mənə dedi:

–Allaha dua etmirsən?

Dedim ki, edək. Bir kənara çəkildim və dua etdim. Mən dedim:

–Ya Rəbb! Mənə düşmən tuş gətirsən, çox güclü bir düşməni mənə qismət elə. Qoy bu düşmən heybətli, qəzəbli və çılğın olsun. Mən onunla, o mənimlə döyüşəcəyik. Mənə zəfər qismət elə, qoy onu qətlə yetirim, qanına qəltan edim. Abdullah ibn Cəhş duama «AMİN» deyib özü də dua etdi:

–Pərvərdigara! Mənə çox kinli və qəzəbli bir düşmən qismət elə! Qoy o, çox güclü olsun, onunla döyüşərəm, o da mənimlə vuruşacaqdır. Mənə üstün gəlib burnumu və qulağımı kəsəcəkdir: Sabah səninlə görüşəndə məndən soruşacaqsan: «Burnunu və qulağını nə üçün kəsməlidirlər?»

Mən belə deyərəm: «Sənin və Sənin Peyğəmbərinin yolunda!»

Düz buyurursan!»

Səd ibn Əbu Vəqqas sözünə davam edərək deyir:

–Abdullah ibn Cəhşin duası mənimkindən daha yaxşı oldu.

Günün axırında onu gördüm. Həlak olmuşdu, cəsədi doğranmışdı. Burnu və qulağı ağacdan iplə asılmışdı».

* * *

Allah Abdullah ibn Cəhşin duasını qəbul etdi. Ona şəhadət kəraməti bəxş etdi. O da dayısı Həmzə ibn Əbdül Müttəllib kimi böyük kəramət sahibi oldu.

* * *

Rəsul Əkrəm onları bir qəbrdə basdırdı. Onun mübarək göz yaşları onların pak bədənlərini yuyur, şəhadət kəramətini daha da artırırdı.[43]

* * *

---

[43] Abdullah ibn Cəhş haqqında əlavə məlumat almaq üçün bax:

1. «əl-İsabə», 2/286;
2. «İmtəa əl-Əsməa», 1/55;
3. «Hilyə əl-Üliya», 1/108;
4. «Husn əs-Səhabə», 300;
5. "Məcmuəa əl-Vasaiq əs-Siyasi", 8.

# ƏBU UBEYDƏ İBN ƏL-CƏRRAH

*"Hər millətin öz mühafizəsi var.*
*Bu millətin mühafizi Əbu Ubeydədir".*
Məhəmməd, Allahın Rəsulu

O, üzdən çox yaraşıqlı idi, gözəgəlimli zahiri görünüşə, boylu-buxunlu bədən quruluşuna və hündür boya malik idi. O, həyatsevər və insanları özünə cəzb edən birisi idi, insanlar da onunla görüşməyə həmişə meyl edirdilər.

Bununla yanaşı o, çox iltifatlı, həddindən artıq təvazökar və utancaq insan idi. Amma təhlükəli və mürəkkəb vəziyyətlərdə o, qəzəblənmiş aslana bənzəyirdi. Öz parlaqlığı və əzəməti ilə o, qılınca oxşayırdı, onun kimi iti və parlaq idi.

Məhəmmədin millətinin mühafizi Əbu Ubeydə ləğəbini almış Amir ibn Abdullah ibn Əl-Cərrah Əl-Fihri Əl-QuraySi məhz belə idi.

Onu xarakterizə edən Abdullah ibn Ömər demişdir: "Qureyşlilər arasında ən tanınmış, əqidəli və vicdanlı insan üç nəfər oldu. Onlar səninlə danışsalar, heç vaxt yalan deməzlər, sən onlarla danışsan, heç vaxt yalan söz eşitməzsən. Bunlar Əbu Bəkr Əs-Siddiq, Osman ibn Affan və Əbu Ubeydə ibn Əl-Cərrah idi."

* * *

Əbu Ubeydə islamı ilk qəbul edənlərdən biri oldu. Əbu Bəkr islamı qəbul etdiyi günün səhərisi, Əbü Ubeydə islamı qəbul etdi. O, Əbd Əl-Rəhman ibn Aufu, Osman ibn Məzunu və Əl-Ərqəmə ibn Əbu Əl-Ərqəməni Peyğəmbərin yanına gətirmiş Əbu Bəkirin vasitəsilə müsəlman oldu. Onun yanında hamısı həqiqət sözünü elan etdilər və üzərində islam ucalan bir əsas, bğnüvrə oldular.

* * *

Əbu Ubeydə Məkkənin ilk müsəlmanları ilə birgə əvvəldən axıradək çox acı və amansız günlər yaşadı, başı daşdan daşa dəydi. Onlarla birlikdə o, Yer üzündə başqa heç bir dinin davamçılarının bəxtinə çıxmayan dərd, bədbəxtliklər, təqiblər və amansızlığa düçar oldu.

Əbu Ubeydə, Allaha və Onun Rəsuluna hər bir vəziyyətdə sədaqətini qoruyaraq, bütün sınaqlara mətanətlə dözdü. Lakin Bədr günü Ubeydənin başına gələn dərd, öz ağırlığı və faciəsinə görə, bütün təsəvvürləri və gözlədiklərini ötüb keçdi.

* * *

Bədr günü, Əbu Ubeydə, ölümün gözünə xor baxaraq və bütpərəstlərin ürəklərinə qorxu salaraq, döyüşçülərin birinci sırasında hədsiz mərdliklə vuruşurdu. Ölümdən qorxmayaraq, Əbu Ubeydə düşmənə o qədər amansızcasına hücum edirdi ki, qureyşlilərin süvari dəstəsi hər dəfə ona rast gələndə, yan keçirdi.

Lakin düşmənlərdən biri, Əbu Ubeydə harda olursa olsun, daima onun qarşısında peyda olurdu. Əbu Ubeydə, onu görən kimi yan keçirdi və onunla qarşılaşmaqdan çəkinirdi.

Bu döyüşçü yenə hücum etdi. Əbu Ubeydə onu hər cür ötüb keçmək istəyirdi, lakin o, bütün yolları kəsib, Əbu Ubeydə və düşmən döyüşçülərinin arasında dayanıb, vuruşmağa mane olurdu.

Nəhayət, Əbu Ubeydənin səbri tükəndi və o, düşmən döyüşçüsünün başına dəhşətli zərbə endirib, onu iki yerə böldü. Düşmən Əbu Ubeydənin ayaqları önündə yerə yıxıldı.

Hörmətli oxucu, ölmüş əsgərin kim olduğunu zənn etməyə çalışma...

Məgər mən sənə demədim ki, Əbu Ubeydənin başına gələn bədbəxtlik öz ağırlığı və faciəsinə görə bütün təsəvvürləri və gözlədiklərini ötüb keçdi?

Əgər bilsən ki, ölən əsgər Əbu Ubeydənin atası-Abdullah ibn Əl-Cərrah idi, onda heyrətə gələrsən.

* * *

Əbu Ubeydə öz atasını deyil, - atasının simasında bütpərəstliyi məhv etmişdir. Qüdrətli Allah Əbu Ubeydə və onun atasına dair Quranın müqəddəs ayəsini nazil etdi. Allah demişdir:

"(Ya Peyğəmbər!) **Allaha və axirət gününə inanan hez bir tayfanın Allah və Onun Peyğəmbəri əleyhinə zıxanlarla –üz**

**ataları, oğulları, qardaşları, yaxın qohumları olsalar belə – dostluq etdiyini gürməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və Üz dərgahından onlara ruh** (güc) **vermişdir** (iman, hidayət nuru əta etmişdir)**.** (Allah) **onları** (ağacları) **altından zaylar axan cənnətlərə daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər** (Allahın dininə kümək edən kimsələrdir)**. Bilin ki, Allahın firqəsi məhz onlar nicat tapıb** (əbədi) **səadətə qovuşanlardır".** ("Əl-Mücadilə", 22)

* * *

Əbu Ubeydə özü nəinki müdafiəçi və mühafiz, hətta müsəlmanların müdafiəsi üçün nəzərdə tutulan xüsusi dəstələrin təşkilatçısı olub. Bu dəstələr bir çox döyüşlərdə qəhrəmancasına vuruşublar.

Bir dəfə Peyğəmbər ﷺ öz adamlarından ibarət dəstəni qüreyşlilərin karvanını ələ keçirtmək üçün yola salmışdır. Əbu Ubeydənin də bu dəstənin başçısı təyin etdi. Yeməyə başqa bir şey tapmadıqdan Peyğəmbər ﷺ ona bir kisə xurma verdi. Hər gün Əbu Ubeydə bir döyüşçüyə bir xurma verirdi. Onlar xurmaları sovurub, üstündən su içirdilər. Axşamadək əsgərlərin rasionu bir xurmadan ibarət olub.

* * *

Uhud döyüşündə müsəlmanlar məğlubiyyətə uğradılar və döyüş meydanında bütpərəstlərin səsləri eşidilirdi: – Məhəmmədi mənə göstərin... Məhəmmədi mənə göstərin.

Peyğəmbəri ﷺ bütpərəstlərin nizələrindən öz bədənləri ilə qorumaq üçün onun ətrafında sıx toplaşan on nəfərdən biri də Əbu Ubeydə idi.

Döyüşdən sonra üzə çıxdı ki, Peyğəmbərin ﷺ bir dişi çıxmış, alnı yarılmış, yanağına isə zirehindən qopmuş iki halqa batmışdır. Əbu Bəkr Peyğəmbərə ﷺ yaxınlaşıb, yanağındakı halqaları çıxartmaq istədi, lakin Əbu Ubeydə ona dedi: "Xahiş edirəm, bu işi

mənə saxla.” Əbu Bəkr razılaşıb, bir tərəfə keçdi. Əbu Ubeydə Əbu Bəkrin Peyğəmbərə ﷺ ağrı verəcəyindən ehtiyat edirdi. Əbu Ubeydə öz ön dişi ilə halqanın birini möhkəmcə ilişdirib, qəfil dartaraq onu çıxartdı. Amma dişini sındırdı.

Əbu Ubeydə o birisi dişi ilə ikinci halqadan yapışdı və onu çıxartdı, lakin o biri dişini də sındırdı.

Əbu Bəkr bu hadisədən sonra dedi: “Bütün dişsizlərin içərisində Əbu Ubeydə ən yaxşısı idi”.

* * *

Peyğəmbərin ﷺ tərəfdarı olduqdan sonra, Əbu Ubeydə onun vəfatınadək daima yanında idi. Saqifə günündə Ömər ibn Əl-Xəttab Əbu Ubeydəyə dedi[44]:“Əlini uzat və mən sənə and içim. Mən eşitmişəm ki, Peyğəmbər ﷺ belə deyib: “Hər millətin öz mühafizi var, və bu millətin mühafizi sənsən””.

Əbu Ubeydə dedi:

- Peyğəmbərin ﷺ namazda imam olmağa tapşırdığı insandan daha yüksək ola bilmərəm. O, Peyğəmbər ﷺ vəfat etməmiş namazı idarə etdi.

Bundan sonra insanlar Əbu Bəkr Əs-Siddiqə and içdilər. Əbu Ubeydə isə onun yanında ən yaxşı məsləhətçi və xeyirli işlərdə sədaqətli köməkçi oldu.

* * *

Özündən sonra Əbu Bəkr xəlifəliyi Əl-Faruqa tapşırdı. Əbu Ubeydə ona həmişə itaət edib və yalnız bircə dəfə onun sözündən çıxıb.

Bilirsənmi, Əbu Ubeydə hansı işdə xəlifəyə itaət etmədi?!

Bu, Əbu Ubeydə ibn Əl-Cərrahın Şamda olduğu və Allahın, onun əliylə bütün ölkəyə sahib çıxanadək müsəlman qoşunlarını qələbədən qələbəyə apardığı vaxtda baş verdi. Şərqdə müsəlmanlar

[44] Saqifə günü - Əbu Bəkrə and içdikləri gün. Bu hadisə Bəni Səadə tayfasının örtüsü (saqifə) altında baş vermişdir.

Fərata, şimalda isə Kiçik Asiyaya çatdılar.

Elə o zaman da bütün Şamda o vaxtadək görünməyən taun epidemiyası yayılmışdır və o çox insanı tələf etdi.

Ömər ibn Əl-Xəttab Əbu Ubeydənin yanına aşağıdakı məzmunlu məktubla adam göndərdi:

- Mənim bir vacib işim çıxdı və burda sənsiz heç cür keçinə bilmərəm. Əgər sən bu məktubu gecə alsan, səhərin açılmasını gözləmədən yanıma gəl. Məktub sənə səhər yetişsə, onda sən axşamı gözləmədən mənim yanıma gəlməlisən.

Əl-Faruqun naməsini oxuyan Əbu Ubeydə dedi: Mən başa düşdüm, əmirin mənə hansı vacib işi düşüb. O, yanında qalmayacaq birini saxlamaq istəyir.

Sonra Əbu Ubeydə davam etdi:

"Ey Əmirəl-möminin! Mən anladım sənin nəyinə lazımam. İş ondadır ki, mən müsəlman qoşunlarındayam və onların başlarına gələnlərdən özümü qorumaq fikrim yoxdur... Allah mənim və onların aqibətini həll etməyənədək, mən onlardan ayrılmaq istəmirəm.

Mənim göndərdiyim məktubu alsan, məni azad et və burda qalmağıma icazə ver".

Məktubu oxuyan Ömər elə darıxmışdır ki, onu gözü yaşlı görən yaxınlar soruşdular:

- Ey əmirəl-möminin, məgər Əbu Ubeydə vəfat edib?

- Yox, - o dedi. - Amma onun ölümü yaxındır.

Əl-Faruqun ürəyinə damdığı baş verdi və tezliklə Əbu Ubeydə tauna tutuldu. O, ölümün yaxınlaşmasını hiss edib əsgərlərə tapşırıq verdi:

- Mən sizə bir məsləhətlə müraciət edirəm. Əgər siz onu qəbul etsəniz, o sizə əbədi rifah gətirəcək:

"Namaz qılın, ramazan ayında oruc tutun, həccə gedin, bir-birinizlə məsləhətləşin, öz əmirlərinizlə səmimi olun və onları aldatmayın, dünya həyatına məftun olmayın. İnsan hətta min il yaşasa belə, onsuz da ölüm gözləyir, siz indi gördüyünüz kimi..."

Allahın salamı və mərhəməti olsun sizə.

Üzünü Muaz ibn Cəbələ tutub dedi: "Ey Muaz, insanların imamı ol".

Əbu Ubeydə bu sözləri deyən kimi vəfat etdi. Muaz yerindən qalxıb, insanlara müraciət etdi:

– Ey müsəlmanlar, bu insanın vəfatı ilə bağlı, sizə böyük bəla üz verib. Allaha and olsun ki, bütün ömrüm boyu mən bundan daha əqidəli və ürəyitəmiz insan görməmişəm. O, kiməsə nifrət etməkdən və yaxud azacıq da olsa pislik etməkdən çox uzaq idi. Heç kim uşaqları onun tək sevmirdi və insanlarla onun tək səmimi deyildi. Ona rəhmət olunması üçün dua edin və Allah da sizə rəhm edər.[45]

* * *

[45] Əbu Ubeydə ibn Əl-Cərrah haqqında əlavə məlumatlar üçün bax:

1. İbn Sad "Təbəqat";
2. "Əl-İsabə", 2/252;
3. "Əl-İstiab", 2/3 nəşr;
4. "Hilyə əl-Övliyə", 1/100;
5. "Əl-Bidayə və əl-Tarix", 5/87;
6. "İbn Asakir", 7/157;
7. "Sifət əl-Səfva", 1/142;
8. "Əşhər məşəhur əl-İslam", 504;
9. "Tarix əl-Xamis", 2/244;
10. "Ər-Riyad əl nədra", 307

# ABDULLAH İBN MƏSUD

*“Əgər bir kəsə Quranı nazil olduğu kimi oxumaq zövq verirsə, qoy o kəs bunu İbn Umm Əbd etdiyi kimi etsin”.*
Məhəmməd Peyğəmbər

O vaxtlar o, həddi-buluğa çatmamış cavan bir oğlan idi və Məkkənin dağ yaylaqlarında qureyş başçılarından biri olan Uqbə ibn Muaytın qoyunlarını otarırdı.

İnsanlar onu İbn Umm Əbd deyə çağırırdılar, əsil adı isə Abdullah, atasının da adı Məsud idi.

* * *

Onun haqqında peyda olan peyğəmbər haqqında xəbərlər onun da qulağına çatırdı. Lakin o, buna heç bir əhəmiyyət vermirdi, çünki bir tərəfdən o azyaşlı idi, o biri tərəfdən isə Məkkənin o vaxtkı cəmiyyətinin həyatından çox uzaq idi. Hər gün səhər tezdən o Uqbənin qoyunlarını yaylağa aparır, axşam isə hava qaralanda onlarla birlikdə evə qayıdırdı.

* * *

Günlərin bir günü Məkkəli çoban Abdullah ibn Məsud gördü ki, uzaqdan ona tərəf iki yaşlı və sanballı kişi yaxınlaşır. Kənardan baxanda hiss olunurdu ki, onlar çox yorğundular və susuzluqdan boğazları quruyub. Onlar çobana yaxınlaşdılar və salamlaşıb dedilər:

– Qulaq as, cavan oğlan, bu keçini bizim üçün sağ, susuzluğumuzu yatıra bilək. Bu susuzluq bizi qurudub və bizə işgəncə verir.

Oğlan cavab verdi:

– Mən bunu etmərəm, çünki bu keçi və qoyunlar mənimki deyil, mən sadəcə olaraq onlara nəzarət edirəm.

Bu sözlər kişilərə xoşagəlməz təsir bağışlamadı, əksinə onların üzlərində razılıq hissi bilindi.

Onlardan biri Abdullaha dedi:

– Mənə cavan sağılmayan bir keçi göstər. Oğlan yanında dayanmış balaca bir keçini göstərdi. Kişi, keçini tutub, Allahın adını təkrarlayaraq, əmcəyini sığalladı.

Abdullah heyrətlə buna baxaraq, özlüyündə fikirləşdi:

– Görəsən cavan keçilər nə vaxtdan sağılmağa başlayıblar? Lakin onun gözü önündə keçinin əmcəyi şişdi və ondan süd axdı.

O biri kişi yerdən oyuqlu bir daş götürüb, onu keçinin əmcəyinin altında dolana qədər saxladı. Onlar ikisi içdilər, Abdullahı da içirtdilər. O, dedi: “Mən öz gözlərimə inanmadım. Biz içəndən sonra, keçini möcüzəli şəkildə sağan kişi dedi:

– Yığıl! Keçinin əmcəyi öz adi şəklinə düşənədək azalmağa başladı.

Onda mən bəxtəvər kişiyə dedim:

– Dediyin sözləri mənə də öyrət.

– Sən onları öyrəndin, oğlan, – kişi dedi.

* * *

Bu hadisə Abdullah ibn Məsudun həyatında islam dövrünün başlanması oldu.

İş ondadır ki, keçini sağan kişi Peyğəmbər ﷺ idi. Onun yoldaşı isə Əbu Bəkr idi.

O gün, onlar qureyşlilərin verdiyi sıxıntı və məhrumiyyətlərə dözməyib daşlı cığırlarla yola düşdülər.

* * *

Cavan oğlan Peyğəmbəri ﷺ və onun yoldaşını sevdi və sonradan onlara qarşı möhkəm bağlılıq hiss etdi. O da, öz növbəsində Peyğəmbərin ﷺ və Əbu Bəkirin xoşuna gəldi və onlar onun sədaqətini və doğruluğunu yüksək qiymətləndirdilər.

Tezliklə Abdullah İbn Məsud islamı qəbul etdi və Peyğəmbərdən xahiş etdi ki, onu öz yanına işləməyə götürsün.

Peyğəmbər ﷺ onu özünə qulluqçu götürdü.

O gündən keçmiş çoban Abdullah ibn Məsud taleyin seçilmişi olub, xalqların və millətlərin başçısının xidmətinə keçdi.

* * *

Abdullah ibn Məsud Peyğəmbərin ﷺ daim arxasınca kölgə tək gəzməyə başladı. O, öz sahibini bütün səfərlərdə müşayiət edirdi, evdə və evdən kənarda onunla birlikdə idi.

Peyğəmbər ﷺ yatanda, Abdullah onu oyadırdı, dəstəmaz alanda, onu yad baxışlardan gizlədirdi. Peyğəmbər ﷺ bir yerə çıxmaq istədikdə, onun səndəl ayaqqabılarını geyindirirdi və o, evə girəndə, onları ayağından çıxardırdı. Abdullah Peyğəmbərin ﷺ əsasını və diş fırçasını özü ilə gəzdirirdi. Peyğəmbər ﷺ təklikdə qalmaq istəyəndə isə, o, Peyğəmbərin qarşısında otağın qapısını açırdı.

Öz növbəsində Peyğəmbər ﷺ Abdullaha istədiyi vaxt içəri daxil olmağa icazə verirdi. O, Abdullahı özünün ən gizli işlərində belə müvəkkil etmişdir və buna görə də insanlar onu Peyğəmbərin ﷺ mühafizi adlandırmışdılar.

* * *

Abdullah ibn Məsud Peyğəmbərin ﷺ evində tərbiyə almış, onun məsləhətlərini özünə rəhbər tutmuş, onun xasiyyətinin və əxlaqının bir çox cəhətlərini mənimsəyib, hər şeydə ona bənzəməyə çalışırdı. Abdullah haqqında hətta deyirdilər ki, o, öz əqidəsi və xasiyyəti ilə daha çox Peyğəmbərə ﷺ bənzəyirdi.

Peyğəmbər ﷺ məktəbində tərbiyə almış Abdullah, səhabələr arasında Quranın ən yaxşı qiraətçisi, mənasını dərinliklə dərk edən və Allahın qanunu sahəsində hamıdan çox bilən oldu. Bunu təsdiqləyən bir hekayə var. Ərəfat dağında dayanmış Ömər ibn Əl-Xəttabın yanına bir nəfər yaxınlaşıb dedi:

– Ey əmirəlmöminin, mən Kufədən gəlmişəm. Orada Quranı əzbərdən yazan bir nəfər var.

Bunu eşidən Ömər qəzəbindən az qalmışdır ki, partlasın. O, hirslə soruşdu:

– O kimdir?

Adam cavab verdi: "O insan – Abdullah ibn Məsuddur. Ömər sakitləşib, yavaş-yavaş özünə gəldi və dedi:

– Allaha and olsun ki, ondan yaxşı quran oxuyan başqa birisini tanımıram və bu haqda sənə bir hekayə danışaram. Sonra Ömər davam etdi: "Bir dəfə axşamçağı Peyğəmbər ﷺ Əbu Bəkirin yanında idi və onlar müsəlmanların cari işlərini müzakirə edirdi. Mən də orda idim. Peyğəmbər ﷺ ayağa qalxanda, biz də onun arxasınca getdik. Sonra biz məsciddə tanımadığımız bir nəfəri namaz qılarkən gördük. Peyğəmbər ﷺ dayandı, bir az ona qulaq asdı, sonra üzünü bizə tutub dedi:

– Əgər bir kəsə Quranı nazil olduğu kimi oxumaq zövq verirsə, qoy o kəs bunu ibn Umm Əbd etdiyi kimi etsin..."

Sonra Abdullah ibn Məsud namaz qılmağa başladı. Peyğəmbər ﷺ isə bu sözləri təkrarlayırdı:

– İstə və sən alacaqsan... İstə və sən alacaqsan. Mən özüm özümə dedim: "Allaha and olsun ki, səhər mən Abdullah ibn Məsudun yanına gedib, Peyğəmbərin ﷺ onun namazını nümunəvi hesab etdiyini ona söyləyəcəyəm. "Səhər onu sevindirmək məqsədi ilə yanına gələndə, artıq Əbu Bəkirin məni qabaqladığını və Abdullaha bu şad xəbəri verdiyini bildim.

Allaha and olsun ki, hər dəfə mən xeyirli işlərdə Əbu Bəkirlə yarışanda, o, məni qabaqlayırdı.

* * *

Abdullah ibn Məsud Allahın kitabını o qədər yaxşı bilirdi ki, hətta özü barədə belə deyirdi: "Allaha and olsun ki, mən Allahın kitabının istənilən ayəsinin nə vaxt və nə ilə əlaqədar nazil olduğunu hamıdan yaxşı bilirəm. Əgər eşitsəm ki, bunu məndən yaxşı bilən bir insan var, onda o, harada olursa olsun onun yanına gələrəm."

* * *

Abdullah ibn Məsud belə deməklə heç bir şeyi şişirtmirdi. Ömər ibn Əl-Xəttab səfərlərinin birində karvana rast gəldi. Artıq axşam

idi və qaranlıqda insanları tanımaq mümkün deyildir. Abdullah ibn Məsud da bu karvanda idi. Ömər öz adamlarından birinə karvançılara belə sual verməyi əmr etdi:

- Bu adamlar hardandırlar?

Abdullah cavab verdi:

- Dərin vadidən.

Ömər bunu soruşmağı əmr etdi:

- Yolunuz haradır?

Abdullah dedi:

- Köhnə evə.

Ömər dedi: "Bunların aralarında oxumuş adam var." Və belə sual verməyi əmr etdi:

- Quranda ən böyük olan nədir?

Abdullah ona cavab verdi: **"Allahdan başqa hez bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. O nə mğrgü, nə də yuxu bilər..."** (əl-Bəqərə, 255)

Ömər dedi:

- Onlardan soruş, Quranda ən müdrik olan nədir?

Abdullah cavab verdi: **"Həqiqətən, Allah ədalətlə göstəriş verib, başqalarına yaxşılıq etməyi və qohumlara kömək etməyi əmr edir."** (ən-Nəhl, 90)

Ömər dedi:

- Soruş onlardan, Quranda hər şeyi əhatə edən nədir?

Abdullah belə cavab verdi: **"Kim** (dünyada) **zərrə qədər yaxın iş gürmüşdürsə, onu** (onun xeyrini) **gürəcəkdir** (mğkafatını alacaqdır)**. Kim də zərrə qədər pis iş gürmüşdürsə, onu** (onun zərərini) **gürəcəkdir** (cəzasını zəkəcəkdir)**".** (əz-Zilzal, 7-8)

Ömər dedi:

- Onlardan soruş, Quranda ən zox vahimələndirən nədir?

Abdullah cavab verdi: **"Bu nə sizin istəyinizlə, nə də kitab əhlinin istəyi ilə olmayacaq. Pislik edən hər kəs, bunun əvəzini alacaq və Allahdan savayı özünə nə dost, nə yardımçı tapmaz".** (ən-Nisa, 123)

Ömər dedi:

- Bəs Quranda ən ümidverici nədir?

Abdullah cavab verdi: **"De: "Ey özlərinə qarşı günah etmiş qullarım! Allahın rəhminə olan ümidinizi itirməyin, çünki Allah bütün günahları bağışlayır. Həqiqətən o, çox bağışlayan, rəhimlidir".** (əz-Zumər, 53)

Ömər dedi:

- Öyrən gör, Abdullah ibn Məsud onların arasındadır?

Onlar cavab verdilər:

- Allaha and olsun ki, bu belədir!

* * *

Abdullah ibn Məsud Allahdan qorxan biri idi. O, çox savadlı Quran qiraətçisi idi. Bununla yanaşı o, həm də ən ciddi vəziyyətlərdə belə böyük gücə, qətiyyətə, mərdliyə və hünərə malik idi.

Bircə onu demək kifayətdir ki, Peyğəmbərdən ﷺ sonra o Yer üzündəki ilk müsəlman idi ki, Quranı insanlara ucadan azıq-aşkar oxuyurdu.

Bir dəfə Peyğəmbərin ﷺ səhabələri Məkkədə yığılmışdılar. O vaxt onlar azsaylı və zəif idilər. Onlar dedilər:

- Allaha and olsun ki, qureyşlilər bir dəfə də olsun bu Quranı eşitməyiblər. Onu görəsən kim onlara oxuya bilər?

Abdullah ibn Məsud dedi: "Mən oxuyaram!" Peyğəmbərin ﷺ səhabələri dedilər: "Onların sənə zərər verəcəyindən çox ehtiyat edirik. Biz istərdik ki, bu insanı xalq müdafiə etsin və əgər qureyşlilər ona pislik etmək istəsələr, ona yardım etsin.". Abdullah dedi: "İmkan verin, bunu edim. Allah məni qoruyar və müdafiə edər".

Səhərisi gün Abdullah İbrahimin daşının yanına, müqəddəs əraziyə gəldi. Qureyşlilər Kəbə ətrafında oturmuşdular. Abdullah daşın yanında durub, oxudu: **"Rəhman və Rəhim Allahın adıyla..."** - Onun səsi möhkəmləndi və gücləndi. **"Rəhman olan Quranı öyrətdi, insanı yaratdı. O, ona sadə nitqi öyrətdi...".** (ər-Rəhman, 1-4)

O, oxumağı davam etdi, qureyşlilər isə ona qulaq asırdılar. Sonra onlar qışqırdılar: "İbn Umm Əbd nə danışır?! "Onun başına dərd gəlsin! O, Məhəmmədin gətirdiyindən bir hissə oxuyur..."

Sonra onlar Abdullanı üzündən vurmağa başladılar, amma Abdulla, Allah ona imkan verdiyi qədər oxumağa davam etdi. Sonra qana boyanmış Abdullah öz yoldaşlarının yanına qayıtdı.

Onlar dedilər:

– Bu, məhz bizim qorxduğumuz şeydir!

Abdullah onlara dedi:

– Allaha and olsun ki, bu günkü kimi Allahın düşmənləri mənim gözümdə alçalmamışdalır. Əgər istəyirsinizsə, sabah səhər də onların yanına çıxmağa hazıram.

Yoldaşları ona dedilər: "Bu qədər yetər. Sən onların nifrət etdiyini onlara oxudun.

* * *

Abdullah ibn Məsud xəlifə Osmana qədər yaşamışdır. O, ölümcül xəstələnəndə, Osman ona baş çəkməyə gəldi. O, Abdullahdan soruşdu:

– Nədən şikayətlənirsən?

– Öz günahlarımdan, – Abdullah cavab verdi.

– Bəs sən nə istəyirsən? – Osman soruşdu.

– Mənim Sahibimin mərhəmətini, – Abdullah cavab verdi.

– Mən, sənin illər boyu imtina etdiyini sənə bağışlamağı əmr edirəm, – Osman dedi.

– Bu mənə lazım deyil, – Abdullah dedi.

– Qoy bu səndən sonra sənin qızlarına qalsın, – Osman təklif etdi.

– Sən qorxursan ki, mənim qızlarım yoxsul qalarlar? – Abdullah soruşdu.

– Mən onlara tapşırmışam ki, hər gecə "Əl-Vaqiə" surəsini

oxusunlar... Mən eşitmişəm ki, Peyğəmbər ﷺ belə deyib: *"Hər gecə "Əl-Vaqiəni oxuyanın başına heç vaxt nə səfalət, nə də yoxsulluq gəlməz".*

* * *

Gecə gələndə isə o, Allahı zikr edərək və Qurandan ayələr oxuyaraq vəfat etdi.[46]

* * *

---

[46] Abdullah ibn Məsud haqqında əlavə məlumat üçün bax:

1. "Əl-İsabə", 2/368;
2. "Əl-İstiab", 2/316;
3. "Əsəd-Əl-Qaba", 3/384-390;
4. "Təzkara əl-Hafiz"; 1/12-15;
5. "Əl-Bidəyə və Əl-Nihayə", 7/162-163;
6. "Təbəqat" Əl-Şəarani", 29-30;
7. "Şəzərat Əl-Zəhəb", 1/38-39;
8. "Tarix Əl-İslam" Əl-Zəhəbi, 2/100-104;
9. "Seyr Ələm Əl-Nübələ", 1/461-500;
10. "Sifət əl-Səfva", 1/154-166;
11. "Musnəd əl-İmam Əhməd", 5/210; və s.

# SALMAN ƏL-FARİSİ

*“Salman bizim həmyerlimiz və səhabəmizdir”*
Məhəmməd, Allahın rəsulu

Bizim hekayəmiz – daima həqiqətə can atan və Allahı axtaran insanın tarixçəsidir...

Bu Salman Əl-Farisin ﷺ hekayəsidir.

Gəlin Salmanın özünə söz verək ki, öz hekayəsinin əsas hadisələrini bizə şəxsən özü danışsın...

Bu cəhətdən məhz onun öz hisslər daha dərin, şəxsi hekayəsi isə daha dəqiq və doğru olar...

Beləliklə, Salman rəvayət edirdi:

– Mən Asbahan vilayətindən idim və Cəyyan kəndində doğulmuşdum.

Mənim atam bu kəndin kəndxudası idi və orada ən tanınmış və varlı adam idi.

Mən dünyaya gələndə, atam hamıdan çox məni sevdi. Zaman keçdikcə onun mənə qarşı məhəbbəti daha güclü oldu. Nəhayət, o, məni evdə bağladı və küçəyə buraxmadı.

Mən o qədər qeyrətli atəşpərəst məcusi idim ki, ibadət etdiyim müqəddəs alovun qoruyucusuna çevrildim. Mənə tapşırıq verilmişdir ki, bu od nə gündüz, nə gecə qısa müddətlik olsa belə, heç vaxt sönməsin.

Mənim atamın böyük məhsuldar mülkü var idi. Onu şəxsən özü idarə edib məhsulunu yığırdı.

Bir dəfə onun bir işi çıxdığından o, öz mülkünə gedə bilmədi və mənə dedi:

– Oğlum, özün görürsən ki, işlərim mənə imkan vermir, mən özüm mülklə məşğul olum. Ona görə də sən özün ora get və bir günlük onu idarə et.

Mən yubanmadan yola düşdüm. Bir azdan mülkə gedən yolun yaxınlığında xaçpərəst kilsələrindən birini gördüm. Yanından ötəndə orada dua edən insanların səslərini eşitdim, bu da mənim diqqətimi çəkdi.

* * *

Atam məni uzun müddət insanlardan uzaq, evin içində bağlı saxladığından, mən nə xaçpərstlər, nə də başqa dinlərin nümayəndələri barədə heç bir şey bilmirdim.

Kilsədə dua edənlərin səslərini eşidib, ora girdim ki, onların nə etdiyini görüm.

Orada olanları müşahidə etdikdən sonra anladım ki, onların dua etməsi mənim xoşuma gəldi və mən onların dinini qəbul etmək istədim. Mən dedim:

– Allaha and olsun ki, bu bizim dinimizdən yaxşıdır. Mən gün batanadək orada qalıb, atamın mülkünə gedib çıxmadım.

Mən o insanlardan soruşdum:

– Bu dinin kökü haradadır?

– O, Şamdadır, – onlar cavab verdilər,

Mən gecənin bir saatında evə döndüm. Burada məni atam qarşıladı və məndən nə etdiyimi soruşdu. Mən ona cavab verdim:

– Ay ata! Mən, öz kilsələrində dua edən insanların yanına getdim. Onların dinində gördüklərim çox xoşuma gəldi və mən gün batana qədər orada qaldım.

Mənim etdiklərimə görə çox narahat olan atam qışqırdı:

– Oğlum, bu dində xeyir yoxdur! Sənin və sənin əcdadlarının dini qat-qat yaxşıdır.

Mən atama etiraz etdim:

– Heç də belə deyil! Allaha and içirəm ki, onların dini bizimkindən yaxşıdır.

Atam mənim bu sözlərimdən qorxdu. O, mənim mürtəd olacağımdan ehtiyat edərək, ayaqlarıma qandal salıb, məni evdə bağladı.

* * *

Əlimə düşən ilk imkandan istifadə edərək xaçpərəstlərə bu sözləri ötürməyi xahiş etdim: "Əgər yanınızdan Şama gedən karvan keçsə, mütləq mənə xəbər verin".

Tezliklə Şama gedən bir karvan xaçpərəstlərin yanında dayandı. Bu haqda məlumatı alan kimi, mən qandallardan canımı qurtarıb, gizlincə həmin karvana qoşuldum. Karvan Şama yetişəndə, mən adamları dindirməyə başladım:

– Burada sizin dininizdə ən böyük olan kimdir?

– Bu yepiskopdur, – mənə cavab verdilər. – Kilsənin başçısı.

Mən onun yanına gəlib dedim:

– Mən xaçpərəstliyi qəbul etmək istəyirəm. Sənin yanında olub, sənə xidmət edib, səndən öyrənib, səninlə birgə dua etmək istəyirəm.

– Gəl gir! – yepiskop dedi. Mən onun yanında xidmət etməyə başladım.

Lakin tezliklə məlum oldu ki, yepiskop pis adamdır. O, öz vətəndaşlarına ianə verməyi əmr edirdi, buna görə də onlara mükafat vəd edirdi. İanənin bir hissəsi yepiskopa verilirdi ki, o, onu Allah yolunda xərcləsin. Lakin o, pulları özünə götürürdü, kasıblar və imkansızlar isə heç nə almırdılar. Beləliklə, o, yeddi böyük küpə qızıl yığa bildi.

Mən bunu görən kimi, ona çox nifrət etdim. O, öldükdən sonra, xaçpərstlər onun dəfni üçün yığıldılar. Mən onlara dedim.

– Sizin keşişiniz pis adam olub. O, sizə ianə verməyi əmr edirdi, əvəzinə isə mükafat vəd edirdi. Siz pul gətirəndə, o, pulları mənimsəyir və imkansızlara heç nə vermirdi.

– Bəs sən bunu hardan bilirsən? – adamlar soruşdular.

– Onun xəzinəsini sizə göstərə bilərəm, – mən cavab verdim.

– Hə, onu bizə göstər, – onlar dedilər. Mən onlara yepiskopun pul gizlətdiyi yeri göstərdim, onlar da oradan qızıl və gümüş ilə dolu olan yeddi küpə çıxartdılar. Bunu görən insanlar dedilər:

– Allaha and içirik ki, biz onu dəfn etməyəcəyik. Sonra onlar onu çarmıxa çəkib daşqalaq etdilər.

Tezliklə yepiskop olmaq üçün başqa birisi seçildi və mən ona qulluq edirdim. Yer üzündə onun kimi tərki-dünya və dindar ikinci bir adam yox idi. O, gecə-gündüz Allaha ibadət edirdi. Mən onu çox sevdim və ona bağlandım. Bir müddət ona xidmət etdim. Onun ölmək vaxtı gəlib çıxdı və mən ondan soruşdum:

– Ey mənim ağam, sizdən sonra kiminlə olmağımı istərdiniz?

O cavab verdi:

– Ey mənim oğlum, iş belədir ki, mənim kimi ola biləcək yeganə bir adam indi Mosulda yaşayır. O, əyilməz və sarsılmaz biridir. Onun yanına düşməyə çalış.

Ağam öldükdən sonra, mən həmin adamın yanına Mosula gedib, öz əhvalatımı danışdım. Və onu bu sözlərlə tamamladım:

– Mənim ağam vəfat edəndən sonra, mən onun sözü ilə sənin yanına gəldim. Ölməmişdən qabaq mənim sahibim dedi ki, sən də onun kimi həmişə həqiqətə can atırsan.

O, mənə dedi: "Yanımda qal". Bir qədər vaxt keçdikdən sonra mən əmin oldum ki, bu yaxşı insandır. Ancaq tezliklə vəfat etdi. Ölümündən qabaq mən ondan soruşdum:

– Ey mənim sahibim. Gördüyün kimi, Allahın əmrini yerinə yetirmək vatı gəlib çıxdı. Sən məni yaxşı tanıyırsan. Mənə kimin yanına etməyi əmr edəcəksən? Kimə məsləhət görürsən?

O, mənə dedi:

– Oğlum, Allaha and olsun ki, bizə bənzəyən bircə adam tanıyıram. O, Nassabində yaşayır və bu da onun adı. Get onun yanına.

Mən Nassabində yaşayan həmin insanın yanına xidmət etməyə getdim. Ona öz hekayətimi və keçmiş sahibimin sözlərini danışandan sonra o, mənə dedi: "Bizimlə qal".

Bir müddət keçəndən sonra mən bildim ki, mənim yeni sahibim, əvvəlki iki sahibim kimi xeyirxah və əqidəli insandır. Allaha and olsun ki, lap az vaxt keçdi ki, mənim yeni sahibim vəfat etdi. Ölməmişdən qabaq mən ondan soruşdum:

– Sən məni tanıdın. Məni indi kimə məsləhət görə bilərsən?

O, mənə cavab verdi: "Oğlum, Allaha and olsun ki, bizim işimizə sadiq olan biri varsa, o da Ammuriyada yaşayan filankəsdir. Xidmət etmək üçün ancaq onun yanına get."

Mən o adamın yanına gedib, öz əhvalatımı ona danışdım, o, mənə dedi: "Mənimlə yaşa". Allaha and olsun ki, o insana xidmət edib əmin oldum ki, o, öz yoldaşlarından heç də pis deyil. Onun yanında işləməklə mən bir neçə inək və qoyun qazandım.

Bir müddət keçdikdən sonra onun da ölmək vaxtı gəlib çatdı. O, ölüm ayağında ikən, mən ondan soruşdum:

– İndi sən məni tanıyırsan. Məni kimə məsləhət görürsən və mənə nə etməyi əmr edirsən?

O, dedi: “Oğlum, Allaha and olsun ki, mən yer üzündə elə bir adam tanımıram ki, bizim kimi dinimizin tərəfdarı osun. Amma İbrahimin şəriətini təbliğ edən Peyğəmbərin Ərəbistanda peyda olması vaxtıdır. Sonradan o, öz vətənini tərk edib, qara daşlar və qayalar arasında palmalar bitən yerə köçəcək. Bu Peyğəmbər fərqləndirici xüsusiyyətlərə malik olacaq. O, yalnız ona bağışlananı yeyəcək, ianələrdən isə heç bir şey yeməyəcək. Onun çiyinləri arsında peyğəmbərlik nişanı olacaq. Əgər sən o ölkəyə gedə bilsən, bunu et”.

Mənim sahibim öldükdən sonra, mən Ammuriyada yaşamağa qaldım. Günlərin bir günü ora Kəlb qəbiləsindən olan bir dəstə ərəb taciri gəldi. Mən onlara təklif etdim: “Əgər siz məni özünüzlə ərəblərin torpağına aparsanız, mən sizə öz inəklərimi və qoyunlarımı verərəm”.

Onlar razılaşdılar və mən öz mal-qaramı onlara verdim.

Biz Mədinə və Şam arasında yerləşən vadiyə çatanda, tacirlər razılaşmanı pozub, məni yəhudilərdən birinə satdılar. Mən həmin adama qulluq etməyə başladım.

Bir gün o adamın Bəni Qurayzə qəbiləsindən olan bacısının oğlu gəlib məni sahibimdən aldı və Yəsribə apardı. Elə burada mən daşlı vulkanik yerdə palmaları gördüm. Bu yer haqqında mənim Ammuriyadakı sahibim danışmışdı. Elə Mədinəni də onun təsvirinə əsaslanaraq tanıdım. Mən yeni sahibimlə orada məskunlaşdım.

O zaman Peyğəmbər ﷺ Məkkədə öz xalqı arasında moizə edirdi. Lakin mən bu haqda heç nə bilmirdim. Çünki bütün gün ağır qul işi ilə məşğul idim.

* * *

Tezliklə Peyğəmbər ﷺ Yəsribə köçdü. Allaha and olsun ki, bir dəfə mən sahibimə məxsus olan palmanın başına dırmaşıb, orada nə isə eləyirdim. Sahibim isə palmanın altında oturmuşdu. Bu vaxt onun yanına qardaşı oğlu gəlib dedi: “Allah Bəni Qayla (Aus və Xəzrac) qəbiləsinə qarşı müharibə başlayıb. İndi onlar Quba adlı

meydanda yığılışıblar. Orada bu gün Məkkədən gələn və özünü peyğəmbər adlandıran bir nəfər də var.

Bu sözləri eşidən kimi əsməcə tutdu və mən güclü həyəcan hiss etdim. Mən hətta qorxdum ki, sahibimin başının üstünə yıxıla bilərəm. Palmadan tez düşüb həmin adama dedim: "Sən nə dedin? Bu xəbəri bir də təkrarla..." Bu ədəbsizliyə görə mənə acığı tutan ağam məni möhkəmcə vurub dedi:

– Sənin nə işinə qalıb? Get işinlə məşğul ol!

* * *

Axşam düşəndə yığdığım xurmalardan bir az götürüb, Peyğəmbər ﷺ yaşadığı evə getdim. İçəriyə girib dedim:

– Mənə deyiblər ki, sən saleh insansan, sənin yanında uzaqdan gəlmiş imkansız yoldaşların var. Mən özümlə ianə kimi bir az yemək gətirmişəm. Sonra buna başqalarından daha layiqli sayıram. Sonra mən xurmaları ona tərəf qoydum. O, öz yoldaşlarına dedi:

– Yeyin... Lakin özü yemədi.

Mən özüm özümə dedim: "Birinci xəbər özünü doğrultdu". Mən qayıdıb xurma yığmağa başladım. Peyğəmbər ﷺ Mədinəyə qayıdanda, mən yenə də onun yanına gəlib dedim: "Mən gördüm ki, ianə kimi gətirdiyim xurmaları yemədin. Bu xurmaları isə sənə ehtiramımı bildirərək, bağışlayıram. Peyğəmbər ﷺ bir az xurma yeyib, öz yoldaşlarına xurma yeməyi əmr etdi.

Mən özüm özümə dedim: "İkinci xəbər də özünü doğrultdu".

Ondan sonra mən Mədinənin Baqi qəbristanlığına getdim. Orada Peyğəmbər ﷺ yoldaşlarından birini dəfn edirdi. O, oturmuşdur. Əynində iki plaş var idi. Onunla salamlaşıb, kürəyinə baxmağa çalışdım. Ammuriyadakı sahibim mənə haqqında danışdığı peyğəmbərlik nişanını görmək istəyirdim.

Peyğəmbər ﷺ görəndə ki, mən onun kürəyinə baxmağa cəhd göstərirəm, mənim bunu niyə etdiyimi dərhal anladı. O, öz geyimini çiyinlərindən yerə atdı, və mən onun kürəyindəki peyğəmbərlik nişanını gördüm. Onu Peyğəmbər kimi qəbul edib, gözlərimdə yaş,

əyildim ki, onu öpüm.

Allahın Rəsulu ﷺ dedi:

– Sənə nə oldu?

Mən ona öz hekayətimi danışdım və bu ona çox təsir etdi. O şad oldu ki, onun yoldaşları da bunu şəxsən mənim özümdən eşitdilər. Bu əhvalat onların xoşuna gəldi. Onlar buna heyran qaldılar.

* * *

Salman Əl-Farisi həqiqəti axtarmağa başladığı gündə ona salam olsun!

Salman Əl-Farisi bu həqiqəti bildiyi və ona iman gətirdiyi gündə ona salam olsun!

Onun vəfat etdiyi və diriləcəyi gün də ona salam olsun.[47]

* * *

---

[47] Salman Əl-Farisi barədə əlavə məlumat almaq üçün bax:

1. "Əl-İsabə", 2/62;
2. "Əl-İstiab", 2/56;
3. "Əl-Cərah və Əl-Təadil", 1-ci c., 2-ci h., 296-297-ci səh.;
4. "Əsəd Əl-Qaba", 2/328-332;
5. "Tahzib Əl-Tahzib", 4/137-139;
6. "Taqrib Əl-Tahzib", 1/315;
7. "Əl-Cəmia beynə ricəl əl-Səhiheyn", 1/193;
8. "Təbəqat" Əl-Şəarani, 30-31-ci səh.;
9. "Sifət Əl-Səfva", 1/210-225;
10. "Şəzərat Əl-Zəhəb", 1/44;
11. "Tarix Əl-İslam" Əl-Zəhəbi; 2/158-163;
12. "Seyr Əələm Əl-Nübələ", 1/362-405.

# İKRİMƏ İBN ƏBU CƏHL

*"Sizin yanınıza mömin mühacir İkrimə gələcək. Onun atasını söyməyin. Ölünü pisləmək diriyə ziyan verir, ölünün isə qulaqlarına çatmır."*
Məhəmməd, Allahın rəsulu

*"Səyahət edən atlını salamlayıram".* Peyğəmbər İkriməni belə salamlayırdı.

Allahın Rəsulu ﷺ öz çağırışını yayan zaman İkrimənin otuz yaşı var idi. Qureyşlilər arasında o, nəcib, varlı və kübar biri idi. Məntiqə uyğun olaraq, o, islamı Sad ibn Əbu Vəqqas, Musab ibn Umeyr və Məkkənin başqa tanınmış sakinləri kimi qəbul etməli idi. Əgər atası olmasaydı.

Siz nə fikirləşirsiniz, onun atası kim idi? O, Məkkənin böyük pəhləvanı, bütpərəstlərin başçısı, kəskin və şiddətli işgəncələr ustası idi. Bu işgəncələrin vasitəsilə Allah möminlərin imanlarının möhkəmliyini və onlar buna davam gətirdilər. Onun fitnələri vasitəsilə Allah müsəlmanların inanclarının möhkəmliyini və onlar buna davam gətirdilər. Onun fitnələri vasitəsilə Allah müsəlmanların inaclarının düzlüyünü sınayırdı, onlar da öz dözümünü isbat etdilər. Onu demək kifayət edər ki, onun atasının adı Əbu Cəhl idi.

Onun atası belə idi. Oğlunun bütöv adı İkrimə ibn Əbu Cəhl Əl-Məxzumi idi. O, qureyşlilərin qəhrəmanı və ən bacarıqlı at sürəni idi.

* * *

Atası başçı olduğundan İkrimə Məhəmmədə qarşı çıxmağa məcbur idi. Peyğəmbərin ən qəddar düşməni olaraq o, səhabələrə böyük ziyan və müsəlmanlara şiddətli işgəncələr verirdi. Bununla da öz atasını çox sevindirirdi.

Bədr döyüşündən əvvəl Əbu Cəhl Əl-Lat və Əl-Uzzaya (qureyşlilərin bütləri) and içdi ki, Məkkəyə yalnız Məhəmmədi

yıxıb yerlə yeksan etdikdən sonra qayıdacaq. Əbu Cəhl Bədrə gəlib qurban kəsməklə, şərab içməklə və müğənniləri dəvət etməklə böyük qonaqlıq verdi. Döyüş zamanı Əbu Cəhlin oğlu İkrimə onun dayağı və sağ əli idi. Lakin Əl-Lat və Əl-Uzza Əbu Cəhli eşitməyib, ona döyüşdə heç bir köməklik etmədilər. Çünki onlar ümumiyyətlə bir şey eşitmək iqtidarında deyildilər və heç cür kömək edə bilməzdilər.

Bədr döyüşündə Əbu Cəhl öldü. Oğlu İkrimə öz gözlərilə gördü ki, müsəlmanların nizələri atasının bədənini sancdılar və onu qan apardı. İkrimə öz qulaqlarıyla atasının ağzından çıxan ölümqabağı qışqırığı eşitdi.

* * *

Qureyşlilərin başçısının meyitini Bədrdə qoyan İkrimə Məkkəyə qayıtdı. Sarsıdıcı məğlubiyyət ona imkan vermədi ki, atasının bədənini basdırmaq üçün onu Məkkəyə gətirsin. O, atasının bədənini müsəlmanların ixtiyarına buraxıb, qaçmağa məcbur oldu. Onlar da onu başqa bütpərəstlərin bədənləri ilə birgə Qalib adlı qurumuş quyuya atdılar. Orada onları qum basdı.

* * *

Bu gündən etibarən İkrimənin islama olan münasibətlərdə yeni dönüş baş verdi. Əgər əvvəllər o, atasının vəsvəsəsi üzündən islamla düşmənçilik edirdisə, indi o, intiqam yolunu tutdu.

Bədr döyüşündə ataları öldürülən başqa insanlarla birgə İkrimə bütpərəstlərin ürəklərində Məhəmmədə və müsəlmanlara qarşı nifrət alovunu yandırmağa başladılar. O, Ühüd döyüşünə qədər qureyşlərin qəlblərində intiqam hissini bacarıqla alovlandırırdı.

* * *

İkrimə ibn Əbu Cəhl öz dəstəsi ilə Ühüdə getdi. Onun arvadı Umm Hakim Bədr döyüşündə ərlərini itirmiş başqa qadınlarla birgə İkrimənin dalınca gedirdilər. Onlar döyüşçülərin arxasında durub, öz qavallarında çalaraq, onları döyüşə ruhlandırmalı idilər. Onlar

həmçinin qureyş süvariləri arxasında dayanıb, onlara qaçmağa mane olmalı idilər.

* * *

Qureyşlilər öz sağ cinahında Xalid ibn Əl-Validin rəhbərliyi altında atlılar yerləşdirdilər. Sol cinahda atlılara İkrimə ibn Əbu Cəhl rəhbərlik edirdi. O vaxt üçün onlar bütpərəstlərin iki ən bacarıqlı at sürəni idi və bu da Məhəmməd və onun tərəfdarları ilə döyüşdə həlledici oldu. Bütpərəstlər böyük qələbə çaldılar və Əbu Süfyan belə dedi:

– Bu sizə Bədr gününə görə!

* * *

Xəndək döyüşündə bütpərəstlər Mədinəni uzun müddət ərzində mühasirədə saxladılar. Lakin bu mühasirə İkriməni bezdirdi və onun səbri tükəndi. O, xəndəyin ən ensiz yerini seçib, öz süvari dəstəsini hücuma apardı. Bu ağılsız hərəkətin nəticəsində İkrimə və onun adamlarından bir neçəsi xəndəyi keçməyə nail oldular, lakin bu toqquşmada Amr ibn Vud əl-Amiri həlak oldu. İkrimə özü isə qaçmaqla xilas oldu.

* * *

Əl-Fəth günü qureyşlilər qərara aldılar ki, Məhəmməd ﷺ və onun səhabələrinə qarşı çıxmağa onların gücü yetməz. Buna görə də Məhəmməd ﷺ Məkkəyə daxil olmaq icazəsi verildi. Həm də Peyğəmbər ﷺ öz adamlarına əmr verdi ki, Məkkə sakinlərinə qarşı hərbi tədbirləri yalnız cavab olaraq tətbiq etsinlər.

* * *

Lakin İkrimə ibn Əbu Cəhl öz adamlarından ibarət bir dəstə ilə birgə, qureyşlilərin yekdilliklə qəbul etdiyi qərara qarşı çıxdı. Onlar böyük bir dəstə ilə toqquşmaya girdilər. Bu kiçik çaxnaşmada Xalid

ibn Əl-Valid onları məğlub etdi. İkrimənin tərəfdarlarından bəziləri öldürüldü, bəziləri isə qaçdılar. İkrimə də qaçanların arasında idi. Bu hadisədən sonra İkrimə divara dirənmiş oldu. Müsəlmanlara tabe olan Məkkə ondan üz döndərdi. Peyğəmbər ﷺ əvvəllər ona qarşı çıxan bütün qureyşliləri bağışladı.

Lakin bu bağışlanma bəzi adları çəkilən adamlardan ibarət dəstəyə aid deyildi. Peyğəmbər ﷺ onları, hətta Kəbənin divarları arxasında gizlənsələr belə öldürməyi əmr etdi.

Bu siyahıda İkrimə ibn Əbu Cəhlin adı birinci idi. Buna görə də o, Məkkəni gizlincə tərk edib, Yəmənə yola düşdü, çünki yalnız orada özünə sığınacaq tapacağına ümid edirdi.

* * *

Bu vaxt İkrimənin arvadı Umm Hakim və Əbu Süfyanın arvadı Hind Bint Utbə başqa on nəfər qadınla birgə Peyğəmbər ﷺ evinə ona öz sədaqətinə and içməyə gəldilər. Onlar onun yanına gələndə, gördülər ki, yanında iki zövcəsi, qızı Fatimə və həmçinin Əbd Əl-Müttalib nəslindən olan başqa qadınlar da var. Çarşab geyinmiş Hind Peyğəmbərə ﷺ müraciət etdi:

– Ey Allahın Rəsulu! Allaha həmd olsun ki, bu dini bizə göndərdi. Sənə müraciət edirəm ki, sən qohumlarınla yaxşı davranasan. Mən həqiqətən iman gətirmiş bir qadınam.

Sonra üzünü açıb dedi:

– Mən Hind bint Utbəyəm, ey Allahın Rəsulu.

Səni salamlayıram, – Allahın Rəsulu ﷺ dedi:

Hind davam edirdi:

– Ey Allahın Rəsulu, Allaha and olsun ki, Yer üzündə sənin evindən daha çox nifrət etdiyim ev yox idi. İndi isə bütün Yer üzündə sənin evindən daha çox sevdiyim ev yoxdur.

– Bu lap ağ oldu, – Peyğəmər ﷺ dedi.

Bundan sonra Umm Hakim, İkrimə ibn Əbu Cəhlin arvadı islamı qəbul edib dedi:

– Ey Allahın Rəsulu. İkrimə sənin əlindən Yəmənə qaçıb. O, qorxurdu ki, sən onu öldürərsən. Sən ona rəhm etsən, Allah da sənə rəhm edər.

Peyğəmbər ﷺ ona dedi:

- O, təhlükəsizlikdədir.

İkrimənin arvadı öz bizanslı nökəri ilə birgə ərinin dalınca getdi. Yolun bir hissəsini getdikdən sonra, nökər Hindi yoldan çıxartmaq istədi, Hind isə onun hər cür xəbərdar edib, tələblərini rədd edirdi. Nəhayət, onlar ərəblərin yaşadıqları bir yerə çatdılar. Burda Hind onları köməyə çağırdı və onlar bizanslı nökərin əl-qolunu bağlayıb, özlərinə saxladılar.

Hind yolunu davam edib, İkriməni Qırmızı dənizin sahilində, Tihama bölgəsində tapdı. Bu zaman İkrimə müsəlman olan dənizçi ilə danışıb, onu o biri sahilə aparmağı xahiş edirdi.

Dənizçi onu öyüd verirdi:

- Sən gəl səmimi ol, mən də səni aparım.

İkrimə soruşdu:

- Necə səmimi olum?

Dənizçi ona dedi:

- De: “Mən şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur və həqiqətən Məhəmməd Allahın Rəsuludur”.

İkrimə qışqırdı:

- Axı mən elə bundan qaçırdım!

Bunlar beləcə söhbət edirdilər ki, Umm Hakim İkriməyə yaxınlaşıb dedi:

- Xala oğlu, mən yaxşıların ən yaxşısı, ədalətlilərin ən ədalətlisi və xeyirxahların ən xeyirxahı olan Məhəmməd ibn Abdullahın yanından gəlmişəm. Mən ondan sənün üçün təhlükəsizlik istədim. O, sənin təhlükəsizliyinə zəmanət verdi və indi sən batmazsan.

- Sən onunla danışdın?! – İkrimə soruşdu.

- Bəli, - o, cavab verdi. - Mən onunla danışdım və o, sənin təhlükəsizliyinə zəmanət verdi. Umm Hakim onu yola gətirməyə və xəbərdar etməyə davam edirdi. Nəhayət İkrimə razılaşıb, Umm Hakimlə qayıtdı.

Yolda Umm Hakim İkriməyə bizanslı nökərin hərəkətləri haqqında danışdı. İkrimə həmin yerə çatanda bizanslını öldürdü.

Yolda onlar gecələməyə dayandılar. İkrimə öz arvadıyla yaxınlıq etmək istədikdə, arvadı buna qətiyyən imkan vermədi. O, dedi: “Mən müsəlmanam, sən isə bütpərəst”. Buna təəccüblənən İkrimə dedi: “Yəqin bu çox ciddidir ki, sən məni rədd etdin”.

İkrimə hələ Məkkəyə çatmamışdır ki, Peyğəmbər ﷺ öz

səhabələrinə dedi: “Sizin yanınıza mömin mühacir İkrimə gələcək. Onun atasını söyməyin. Ölünü pisləmək diriyə ziyan verir, ölünün isə qulaqlarına çatmır.”

İkrimə öz arvadıyla birlikdə Peyğəmbərin ﷺ oturduğu yerə gəldilər. Peyğəmbər ﷺ üst geyimini belə geyməyib, böyük sevinclə ona tərəf can atdı. Peyğəmbər ﷺ oturandan sonra, İkrimə onun qarşısında dayanıb dedi:

– Ey Məhəmməd, Umm Hakim mənə xəbər verdi ki, sən mənə təhlükəsizlik bəxş etdin.

– Tamamilə doğrudur, – Peyğəmbər ﷺ dedi. – Sən təhlükəsizlikdəsən.

İkrimə soruşdu:

– Sən nəyə dəvət edirsən, ey Məhəmməd?

– Mən səni Allahdan başqa Tanrı olmadığına, mənim isə Allahın qulu və rəsulu olduğuma şəhadət verməyə çağırıram. Namaz qılmağı, zəkat verməyi söz ver...

Sonra Peyğəmbər ﷺ islamın bütün ərkanlarını sadaladı.

İkrimə dedi:

– Allaha and olsun ki, sənin dediklərin həqiqətdir. Sən xeyir iş görməyi əmr edirsən. Hələ öz çağırışlarınla bizə müraciət etməmişdən qabaq da ən doğru və əməli-saleh insan idin.

Sonra İkrimə əlini uzadıb dedi: “Şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur və həqiqətən, Məhəmməd onun qulu və rəsuludur.

O, davam etdi:

– Ey Allahın Rəsulu, mənə yaxşı sözlər öyrət ki, mən onları deyim.

– Sənin deməli olduğun sözlər bunlardır: “Şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur və həqiqətən Məhəmməd Onun qulu və rəsuludur, – Peyğəmbər ﷺ dedi:

– Bəs ondan başqa? – İkrimə soruşdu.

Allahın Rəsulu ﷺ dedi:

– Sən deməlisən: “Allah və burda olanlar şahid olsunlar ki, mən əsil mühacir müsəlmanam.

Bundan sonra Allahın Rəsulu ﷺ ona dedi:

– Bu gün məndən istədiyini xahiş edə bilərsən və sən onu alacaqsan.

İkrimə dedi:
– Mən səndən xahiş edirəm ki, sən mənim bütün əvvəlki düşmənçiliyimi, mənim tərəfimdən sənə qarşı yönələn bütün hərəkətlərimi və mənim şəxsən sənin üzünə və yaxud arxanca dediyim bütün acı sözlərimi bağışlayasan.
Allahın Rəsulu ﷺ dedi:
– Ey Allah! Bu insanın sənin nurunu söndürməyə yönəltdiyi bütün düşmənçiliyini və bütün hərəkətləri bağışla. Onun məni biabır etmək cəhdlərinin hamısını bağışla. İkrimənin üzü sevinclə işıqlandı və o, dedi:
– Ey Allahın Rəsulu, Allaha and içirəm ki, indi mən Allah əleyhinə xərclədiyimdən qat-qat çox, Allah yolunda xərcləyəcəyəm. Və əgər mən Allah əleyhinə vuruşurdumsa, indi mən Allah yolunda qat-qat artıq vuruşacağam.

* * *

O gündən etibarən o, döyüş meydanlarında cəsur cəngavər, məscidlərdə çalışqan qiraətçi və Allahın sadiq bəndəsi oldu. Üzərində Quran yazılmış səhifələri üzünə qoyan İkrimə:
– Mənim Sahibimin kitabı... Mənim Allahımın sözü..., – deyib, Allahdan qorxaraq, ağlayırdı.

* * *

krimə, Peyğəmbərə ﷺ verdiyi vədi canla-başla yerinə yetirirdi. İslamı qəbul edən İkrimə müsəlmanların bütün döyüşlərində iştirak edirdi. Hər bir yürüşdə o, öndə idi. Yarmuk döyüşündə isə İkrimə, isti bir gündə susamış insanın soyuq suya can atdığı kimi, döyüşə can atırdı.
Döyüşlərin birində müsəlmanlar çox ağır vəziyyətə düşdülər. İkrimə öz atından yerə enib, qılıncının qınını qırdı və bizanslıların ən çox toplaşdığı yerə can atdı. Xalid ibn Əl-Valid ona tərəf qaçıb dedi:
– Bunu etmə, İkrimə! Onlar səni öldürsələr, bu müsəlmanlar üçün ağır itki olacaq.
İkrimə ona dedi:
– Məni rahat burax, Xalid... Sən artıq çoxdandır ki, Peyğəmbərin ﷺ səhabəsisən. Atamla mən isə Peyğəmərin ﷺ ən qatı düşmənləri olmuşduq. Keçmişimin günahlarını yumağa imkan ver. Bir çox

döyüşlərdə mən Peyğəmbərin ﷺ əleyhinə vuruşdum. İndi nə olmalıdır, mən bizanslıladan qaçmalıyam? Bu heç vaxt olmayacaq!

Sonra o, müsəlmanları harayladı:

– Kim ölümə getməyə and içər?

Dörd yüz müsəlmanla yanaşı İkrimənin əmisi Əl-Haris ibn Hişam və Dırar ibn Əl-Əzvar da ölməyə and içdilər. Onlar Xalidin hakim məntəqəsi uğrunda düşmənlərlə şiddətli döyüşə girdilər və onu qəhrəmancasına müdafiə etdilər.

Bu döyüş müsəlmanların parlaq və inandırıcı qələbəsi ilə bitdikdən sonra, döyüş meydanında həqiqi din uğrunda yaralanmış üç döyüşçü var idi. Bunlar Əl-Haris ibn Hişam, Ayyaş ibn Əbu Rabina və İkrimə ibn Əbu Cəhl idi. Əl-Haris su içmək istədi və adamlar su gətirəndə, İkrimə Əl-Harisə baxıb dedi:

– Onu içizdirin.

Əl-Haris dedi:

– Ayyaşı içizdirin!

Adamlar əllərində su Ayyaşın yanına yaxınlaşanda, gördülər ki, o artıq keçinib. Adamlar o biri iki döyüşçünün yanına qayıdanda, gördülər ki, onlar da öz yoldaşının arxasınca getdilər. Allah onların hamısından razı olsun.

Allah onlara Cənnət hovuzu Kövsərin suyunu içirtsin ki, onlar heç vaxt susamasınlar.

Allah onları əbədilik Firdovsun həmişə yaşıl olan çadırlarında yerləşdirsin.[48]

* * *

---

[48] İkrimə ibn Əbu Cəhl haqqında əlavə məlumat üçün bax:

1. “Əl-İsabə”, 2/496;
2. “Tahzib Əl-Əsma”, 1/338;
3. “Xülasət əl-Tahzib”, 228-ci səh.;
4. “Zayl əl-Müzəyyal”, 45-ci səh.;
5. “Tarix Əl-İslam”, Əl-Zəhəbi, 1/380;
6. “Rahbət əl-Amal”, 7/224;
7. “Əl-Mustadrək”,3/241.

# ZEYD ӘL-XEYR

*"Həqiqətən, səndə Allahın və onun Rəsulunun xoşuna gələn iki xüsusiyyət var: dözüm və kamal."*
Məhəmməd, Allahın Rəsulu

İnsanlar metallara bənzərdilər: "cahilliyədə ən yaxşı olanlar islamda da ən yaxşıları olurlar.

Sizin diqqətinizə bir səhabənin iki simasını çatdırırıq. Onlardan biri cahiliyyə dövründə, digəri isə islamın vaxtlarında formalaşmışdı.

İslamdan qabaqkı dövrdə adamlar bu səhabəni Zeyd Əl-Xayl deyə çağırırdılar, o, islamı qəbul etdikdən sonra Allahın Rəsulu ﷺ onu Zeyd Əl-Xeyr adlandırdı.

* * *

Bu insanın birinci siması barədə bir çox kitablarda yazılır.

Məsələn, Əl-Şeybəni Bəni Amir qəbiləsindən olan bir şeyxin hekayəsini danışır:

-Bir dəfə bizim yerlərdə indiyədək görünməmiş quraqlıq baş verdi. Bütün otlar və taxıl məhv oldu. Bizim nəsildən bir kişi ailəsi ilə birlikdə İraqın, Nəcəf ilə Kufə arasında yerləşən Əl-Hira şəhərinə yola düşdü. Bu şəhərə çatdıqda ailəsini orada saxladı və onlara dedi: "Yanınıza gələnədək məni burada gözləyin".

Sonra həmin adam and içdi ki, o ya öz uşaqları üçün pul tapacaq, ya da öləcək. Özü ilə bir az qida götürüb yola düşdü. Gecə düşəndə qarşısında çadır gördü, çadırın yanında da ayaqları cidarlanmış dayça var idi. Kişi özü-özünə dedi: "Bu da birinci qənimət". O dayçaya yaxınlaşıb ipləri açmağa başladı.

Onun dayçaya minib yolu davam etmək niyyəti var idi. Lakin ona müraciət edən səsi eşitdi: "Dayçanı rahat burax və özün üçün qəniməti özün axtar tap". Kişi dayçanı qoyub yolunu davam elədi.

* * *

O, yeddi gün ərzində yol getdi. Nəhayət dəvə saxlanılan yerə gəlib çıxdı. Yanında örtüyü dəridən olan böyük çadır yerləşirdi, bu da firavanlığın və əmin-amanlığın əlaməti idi. Kişi özü-özünə dedi: "Bu yerdə mütləq dəvələr, çadırda isə - onun sakinləri olmalıdır".

Gün batmaq üzrə idi. Kişi çadırın içinə baxıb, onun ortasında qoca adamın oturduğunu gördü. Kişi qocadan gizli kezib onun arxasında oturdu.

Tezliklə gün batdı və böyük at üstündə qüvvətli və ucaboylu bir atlı göründü. Onun həm sağında, həm də solunda qul var idi. Onların arxasınca təxminən yüz başdan ibarət dəvə sürüsü gəlirdi. Dəvələrin başçısı olan iri dəvə yerə oturdu, dişi dəvələr isə onun ətrafında oturdular. Atlı qullardan birinə dedi:

- Bu dəvəni sağ, - o, əliylə iri bir dəvəni göstərdi. Sonra isə qocaya süd ver içsin.

Qul bir dolça süd sağıb, qocanın qabağına qoyub uzaqlaşdı. Qoca süddən bir-iki qurtum içdi.

Kişi hekayəni danışmağa davam edirdi:

"Mən gizlincə yaxınlaşıb dolçanı götürdüm və südün hamısını içdim. Sonradan qul gəldi, dolçanı götürüb qışqırdı:

- Ağa, o, bütün südü içib.

Atlı sevindi və o biri dəvəni göstərib dedi:

- İndi isə bunu sağ və südü qocanın qabağına qoy. Qul tapşırığı yerinə yetirdi, qoca da süddən bir qurtum içib dolçanı yerə qoydu.

Mən dolçanı götürüb südün yarısını içdim ki, şübhə oyatmayım. Bundan sonra atlı ikinci qula qoyun kəsməyi əmr etdi. Qul bu tapşırığı yerinə yetirəndən sonra atlı özü kömürlərin üstündə əti qızartdı və özü qocanı yedizdirdi. Qoca doyduqdan sonra atlı qullarla birgə yedi. Bundan sonra hamı yatmağa hazırlaşırdı və tezliklə dərin yuxuya getdi.

Dəvələrin başçısına yaxınlaşıb, iplərini açıb, belinə çıxdım və

irəliyə çapdım. Bütün sürü onun arxasınca gəldi. Mən bütün gecəni dayanmadan getdim. Səhər açılanda mən ətrafa baxdım, lakin heç bir yerdə təqib edəni görmədim.

Mən ətrafa baxdım və uzaqda böyük quşa bənzər bir şey gördüm. O yaxınlaşanda mən gördüm ki, bu atlıdır. Tezliklə mən dünənki adamı tanıdım. O, öz dəvələrinin dalınca gəlmişdi.

Mən başçı dəvənin ayaqlarını cidarlayıb, ox qabından ox götürdüm və onu kamana qoydum. Özüm isə dəvənin qabağında dayandım. Uzaqda dayanmış atlı mənə qışqırdı:

– Başçının ayaqlarını aç!

– Heç vaxt! Hirada öz ailəmi, arvadları və uşaqları ac qoyub, and içdim ki, onların yanına pul ilə qayıdacağam, ya da öləcəyəm, – mən dedim.

Atlı qışqırdı:

– Özünü ölmüş saya bilərsən. Başçının ayaqlarını aç, sən, dədəsiz!

– Bu heç vaxt olmayacaq! – mən dedim.

– Başına dərd gəlsin! – atlı qışqırdı. – Bədbəxt bambılı. Dəvənin ipini aç!

Onun üstündə üç düyün var idi.

–Mənim oxumun hansı düyünə düşməsini istəyirsən?

Mən ortadakı düyünü göstərdim. Onun atdığı ox düyünə elə batdı ki, sanki atlı oxu öz əliylə oraya basdı. Sonra o, eləcə ikinci və üçüncü düyünə də ox atdı. Mən öz oxumu ox qabına qoydum və təslim olmağa hazırlaşdım. O, mənə yaxınlaşıb, kamanımı və qılıncımı əlimdən aldı, mənə isə əmr etdi: “Otur mənim arxamda”. Mən onun arxasında oturanda o soruşdu:

– Sən nə düşünürsən, mən sənə nə edəcəm?

– Mən ən pis şeyləri düşünürəm, – mən dedim.

– Nədən?! – atlı soruşdu.

– Axı, mən sənə qarşı pislik etdim, sənə zərər verdim. Lakin

Allah sənə mənim üzərimdə qələbəni bəxş etdi, - mən dedim.

O, soruşdu:

- Sən fikirləşirsən, keçən gecə atam Muhəlhillə birlikdə yeyib içdikdən sonra mən sənə pislik edə bilərəm? Mən, Muhəlhilin adını eşidib soruşdum:

- Deməkk, sən Zeyd Əl-Xaylsan?

- Bəli, - deyə, atlı cavab verdi.

- Onda xeyirxah əsarətçi ol! - mən dedim.

- Sənin başına pis bir şey gəlməz, - o, dedi və biz dayanacağa getdik. Yolda o, mənə dedi:

- Allaha and olsun ki, o dəvələr mənim olsaydı, mən onların hamısını sənə verərdim. Lakin iş ondadır ki, onlar mənim bacılarımdan birinə məxsusdur. Sən gəl bir müddət bizimlə yaşa. Tezliklə mən yürüşə çıxıb, bol qənimətlə qayıdacağam.

Elə üç gündən sonra o, Bəni Nümeyrə qarşı yürüşə çıxdı. O, yüzə yaxın dəvə ələ keçirib mənə bağışladı. Sonra o, mənə Əl-Hiraya gedən yolda məni mühafizə edəcək adamlar da verdi.

* * *

Bu, Zeyd Əl-Xaylın cahiliyyə dövründəki siması idi. Onun islam dövründəki simalar barəsində də həmçinin bir çox kitablarda danışılır.

Peyğəmbər ﷺ haqqında xəbərlər Zeyd Əl-Xaylın qulaqlarına çatanda o, Peyğəmbərin ﷺ dəvətinin bir hissəsi ilə maraqlanıb onu diqqətlə öyrəndi. Sonra o, Peyğəmbər ﷺ ilə şəxsən görüşməkdən ötrü, özü ilə Yəsribə getmək üçün qəbiləsinin başçılarını dəvət etdi. Zeyd ilə birgə böyük nümayəndə heyəti də yola düşdü. Onun tərkibinə Zurr ibn Sadus, Malik ibn Cübeyr, Amir ibn Cuveyn və başqa ağsaqqallar da daxil idi. Onlar Mədinəyə gələn kimi Peyğəmbər ﷺ məscidinə üz tutdular. Orada öz atlarını saxlayıb

bağladılar.

Təsadüfən elə alındı ki, onlar məscidə daxil olduqları vaxt Peyğəmbər ﷺ minbərdə oturub müsəlmanlara xütbə oxuyurdu. Peyğəmbərin sözləri içəri girənləri sarsıtdı, müsəlmanların ona bağlılığı və onun dediklərinə böyük diqqət isə heyrətamiz idi.

Peyğəmbər ﷺ onları gördü və müsəlmanlara üz tutaraq dedi: "Mən sizin üçün Əl-Uzza və ibadət etdiyiniz hər bir şeydən daha yaxşıyam... Mən sizin üçün, Allahın əvəzinə ilahiləşdirdiyiniz qara dəvədən daha yaxşıyam."

* * *

Allah Rəsulunun ﷺ nitqi Zeyd Əl-Xayla və onun yoldaşlarına müxtəlif təsir bağışladı. Bəziləri çağırışa cavab olaraq həqiqəti qəbul etdilər. Bəziləri isə onu qəbul etməkdən imtina etdilər və təkəbbğrləndilər.

Beləliklə insanların bir hissəsi Cənnətə, o biri hissəsi isə Cəhənnəmə düşməli idilər.

Zurr ibn Sadusa gəlikdə isə, o, möminlərin diqqətini cəzb edən və onların ürəklərini şiddətlə döyündürən Peyğəmbərin ﷺ parlaq nitqini eşidən kimi, onun qəlbinə həsəd daxil oldu və canına da qorxu düşdü. O, yanında duranlara dedi:

- Həqiqətən, mən ərəbləri fəth edən insanı görürəm, lakin Allaha and olsun ki, o, məni fəth etməyəcək. O, sonradan Şama gedib, başını qırxdırdı və xaçpərəstliyi qəbul etdi.

Zeydin və başqalarının aqibəti isə başqa oldu. Peyğəmbər ﷺ xütbəni deyib qurtaran kimi, Zeyd Əl-Xayl müsəlmanların arasında durdu. O, çox qüvvəli, görkəmli və ucaboylu bir insan idi; hətta o, atın belinə mindikdə, onun ayaqları yerə çatırdı, sanki at qatır imiş... Beləliklə, o, insanların arasında dayanıb, öz gur səsi ilə dedi: "Ey Məhəmməd! Mən şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur

və sən Allahın Rəsulusan. “Peyğəmbər ﷺ ona yaxınlaşıb soruşdu:

- Sən kimsən?

- Mən Muhəlhilin oğlu Zeyd Əl-Xayləm, - Zeyd cavab verdi.

Peyğəmbər ﷺ ona dedi:

- Sən Zeyd Əl-Xayl deyil, Zeyd Əl-Xeyrsən. Səni, öz dağların və düzlərindən göndərən və ürəyini islam qarşısında açan Allaha şükürlər olsun.

O vaxtdan Zeydi hamı Zeyd Əl-Xeyr deyə çağırdılar. Sonra Peyğəmbər ﷺ Zeydi öz evinə gətirdi. Peyğəmərin ﷺ yanında Ömər ibn Əl-Xəttab və bir neçə yaxın səhabə də var idi. Onlar evə girəndə Peyğəmbər ﷺ öz oturacağını Zeydə təklif etdi. Lakin Zeyd özünün Peyğəmbərin ﷺ yanında oturmağa layiq olmadığını düşünüb, oturacağı o yana itələdi. Peyğəmbər ﷺ Zeydə öz oturacağını üç dəfə təklif etdi, o da, hər dəfə imtina edirdi.

Məclis başlananda Peyğəmbər ﷺ Zeydə dedi:

- Ey Zeyd, sən yeganə insansan ki, mənə sənin haqqında səninlə görüşənədək danışıblar. Və bu təsvir də həqiqətlə düz gəlir.

Sonra o, davam etdi.

- Ey Zeyd, həqiqətən, səndə Allaha və onun Rəsuluna xoş olan iki xüsusiyyət var.

Zeyd soruşdu:

- Ey Peyğəmbər, bunlar hansı xüsusiyyətlərdir?

- Dözüm və kamal, - Peyğəmbər ﷺ belə cavab verdi.

Zeyd dedi:

- Məni özünə və öz Rəsuluna faydalı hesab edən Allaha şükürlər olsun!

O, Peyğəmbərə ﷺ üz tutub dedi:

- Ey Peyğəmbər, mənə üç yüz atlı ver, və mən sənə söz verirəm ki, bizanslılara qarşı uğurlu yürüş təşkil edərəm və onları cəzalandıraram.

Peyğəmbər ﷺ ona: “Sən necə də xeyirli adamsan, Zeyd! Sən əsil

kişisən!” deyib Zeydin ruh yüksəkliyini daha artırdı.

Zeydin yanında qəbiləsindən olanların hamısı islamı qəbul etdilər. O, öz yoldaşları ilə birlikdə evə qayıtmaq üçün hazırlaşdı. Peyğəmbər ﷺ onu Nəcdə yola salanda dedi: “Bu necə də gözəl insandır! O, Mədinə epidemiyasından özünü qoruya bilsə, bizim üçün çox vacib biri olacaq!

Elə o vaxt Mədinədə qızdırma epidemiyası güclənmişdi. Zeyd Əl-Xeyr Mədinəni tərk etdiyi vaxt xəstəlik onu yaxaladı. O, öz yoldaşlarına dedi: “Biz cahiliyyə dövründə çox axmaqlıqlar etmişik, lakin indi, Allaha and olsun ki, mən Qüdrətli Allahla görüşənədək müsəlmana əl qaldırmaram.”

* * *

Xəstəliyin hər saat gücləndiyinə baxmayan Zeyd Əl-Xeyr öz doğmalarının yanına, Nəcdə tələsirdi. O, öz qəbiləsinə qayıtmağı və Allahın onlara islamı onun əlləriylə nazil etməsini çox istəyirdi. O, ölümünü, ölüm isə onu qabaqlamağa tələsirdi. Ölüm tez gedən oldu, və Zeyd vətənindən bir az aralı yerdə keçindi. O, islamı qəbul etdikdən sonra ta ölənədək heç bir günah işlətməmişdir.[49]

* * *

---

[49] Zeyd Əl-Xeyr haqqında əlavə məlumat üçün bax:

1. “Əl-İsabə”, 1/572;
2. “Əl-İstiəb”, 1/563;
3. “Əl-Ağani”, bax mündəricat;
4. “Tahzib ibn Əsakir”, bax mündəricat;
5. “Simt Əl-Luli” (Mirvari boyunbağı), bax mündəricat;
6. “Hizanat Əl-Ədəb Əl-Bağdadi,” 2/448;
7. “Zeyl Əl-Müzeyil”, 33-cü səh.;
8. “Simər Əl-Qulub”, 78-ci səh.;
9. “Əl-Şəar və Əl-Şüəra” (Şairlik və şairlər), 95-ci səh.;
10. “Hüsn əs-Səhabə”, 248-ci səh.

# HADİ İBN XATİM ƏL-TAİ

*"Sən iman gətirdin, çünki onlar kafir idilər; sən qəbul etdin, çünki onlar üz döndərdilər; sən sadiq idin, çünki onlar xain idlər; sən irəliyə getdin, çünki onlar arxaya çəkildilər.*
Ömər ibn Əl-Xəttab

Uzun müddət davam edən nifrət dövründən sonra, hicrətin 9-cu ilində ərəb hökmdarlarından biri islamı qəbul etdi. İnadlı inkar və imtinadan sonra o, həqiqi dinə gəldi və nəhayət, Allahın Rəsuluna ﷺ təslim oldu. Bu hökmdar Hadi ibn Xatim Əl-Tai idi. Onun atası səxavətlilik nümunəsi idi.

* * *

Hadi atasının ölümündən sonra hakimiyyətə varis oldu. Bütün qənimətin dörddə bir hissəsini ona vermək qərara alındı və bütün komandanlar onun rəhbərliyi altına keçdilər.

Nəcib Peyğəmbər ﷺ haqq yola dəvətini elan edəndə, və ərəb qəbilələri biri birinin dalınca islamı qəbul etməyi başlyanda, Hadi gördü ki, yaxın gələcəkdə Peyğəmbərin ﷺ islam çağırışı onun hakimiyyətinə son qoya bilər və o, daha hökmdar olmayacaq. Buna görə də Hadi, hələ Peyğəmbəri ﷺ görməmiş ona güclü düşmənçilik və qiyabi olaraq böyük nifrət hiss etməyə başladı. Onun islama qarşı bu düşmənçiliyi təxminən iyirmi il sürdü. Nəhayət, Allah onun qəlbini islam üçün açdı.

* * *

Hadi ibn Hatimin islama gəlməsi tarixi o qədər maraqlıdır ki, gəlin onun özünə imkan verək danışsın. Belə hekayə həmişə düzgün olur. Hadi danışırdı:

"Mən Peyğəmbər ﷺ haqqında eşidəndə, ona qarşı heç bir ərəbin hiss etmədiyi nifrəti hiss etdim. Mən tanınmış insan, xaçpərəst idim, öz xalqımı mirbaa əsasında idarə edirdim, yəni ərəb dünyasında olan

başqa hökmdarların etdikləri kimi, qənimətin dörddə bir hissəsini özümə götürürdüm.

Peyğəmbər ﷺ haqqında eşidən kimi, ona nifrət etdim.

Onun işi geniş dairə aldıqdan, özü böyük gücə sahib çıxdıqdan və onun orduları və dəstələri ərəblərin torpaqlarına yayıldıqdan sonra, mən dəvələrimi otaran nökərimə dedim:

– Bura bax, yetim, sürüdən bütün kök və sakit dişi dəvələrini seç və onları say. Qoy onların mənim yaxınlığımda olsunlar. Bizim torpağımıza Məhəmmədin ordusunu, ya da bir dəstəsinin gəlməsini eşitsən, dərhal mənə xəbər ver.

Bir gün səhər nökərim yanıma gəlib dedi:

– Ey hökmdarım! Sənin torpağına Məhəmməd gəldiyi halda etməli olduğunu indi etmək vaxtıdır.

Mən qışqırdım:

– Nə olub? Dərhal cavab ver!

– Mən evlərin arasında bayraqlar gördüm, – nökər cavab verdi, – Mən onlar haqqında soruşanda, mənə dedilər ki, bu Məhəmmədin qoşunlarıdır.

Mən nökərə əmr etdim:

– Dərhal mən dediyim dişi dəvələri hazırla və mənim yanıma gətir.

Sonra mən öz doğmalarıma və uşaqlarıma dedim ki, yubanmadan yola hazırlansınlar. Biz öz doğma torpaqlarımızı tərk etməli idik. Biz öz dindaşlarımız xaçpərəstlərə qoşulmaq və onların yanında sığınacaq tapmaq üçün sürətələ Şama tərəf hərəkət edirdik.

Tələsik yola düşərkən, mən bütün qohumlarımı bir yerə toplamağın qeydinə qalmadım. Biz təhlükəli məsafəni ötüb keçdikdən sonra mən bütün qohumlarımın yanımda olub olmadığını yoxlamaq istədim və aşkar olundu ki, bacılarımdan birini tay qəbiləsindən olan bəzi adamlarla birlikdə vətənimdə, Nəcddə

qoymuşam.

Mənim yolumu davam etməkdən başqa bir çarəm qalmamışdı, çünki bacımın dalınca qayıtmağa imkan yox idi.

Öz yoldaşlarımla birlikdə nəhayət Şama çatdım və dindaşlarımın yanında məskunlaşdım. Mənim gözlədiyim və qorxduğum şey bacımın başına gəldi.

* * *

Mən Şamda olanda mənə xəbər verdilər ki, Məhəmmədin atlı dəstəsi bizim kəndlərimizə basqın etdilər. Mənim qəbiləmdən olan bir çox adam, həmçinin mənim bacım da əsarətə düşdülər. Onları Yəsribə gətirdilər və məscidin yanındakı ağılda yerləşdirdilər. Peyğəmbər ﷺ onların yanından keçəndə, bacım qalxıb dedi: "Ey Allahın Rəsulu! Mənim atam ölüb, himayəçim isə yoxa zıxıb. Məni azad et və rəhm eylə. Onda Allah da sənə rəhm edər". Peyğəmbər ﷺ ondan soruşdu: "Sənin himayədarın kimdir?"

– Hadi ibn Xatim, – deyə, bacım cavab verdi.

– Allahdan və Onun Rəsulundan qaçan?! – Peyğəmbər ﷺ dedi və getdi.

Səhərsi gün Peyğəmbər ﷺ onun yanından keçəndə o, yenə eyni sözlərlə ona müraciət etdi. Peyğəmbər ﷺ də ona eynilə dünənki kimi cavab verdi.

Artıq üçüncü gün Peyğəmbər ﷺ onun yanından keçəndə o, heç nə demədi, çünki cavab almaq ümidini itirdi. Lakin Peyğəmbərin ﷺ yanındakı adamlardan biri bacıma işarə verdi ki, o, qalxıb Peyğəmbərə ﷺ müraciət etsin.

Bacım dedi: "Ey Allahın Rəsulu, atam ölüb, himayəçim isə itib. Mənə yaxşılıq et, Allah da sənə rəhm edər!"

Peyğəmbər ﷺ cavab verdi: "Mən bunu etdim".

Bacım dedi: "Mən Şamda olan qohumlarıma qoşulmaq istəyirəm".

Peyğəmbər ﷺ ona dedi: "Öz xalqından olan bir adam tap, səni

Şama qədər müşayiət etsin. Belə bir adam tapmamış yola düşmə, onu tapan kimi mənə xəbər ver".

Peyğəmbər ﷺ uzaqlaşan kimi, Hadinin bacısı ona işarə verən adam haqqında adamlardan soruşdu. Ona dedilər ki, o Əli ibn Əbu Talib idi.

Mədinəyə etibarlı bir adamla karvan gələnədək bacım orada qaldı. Sonra Peyğəmbərin ﷺ yanına gəlib dedi:

– Ey Allahın Rəsulu! Mənim qəbiləmin karvanı gəlib çıxdı. Onların arasında məni müşayiət edəcək etibarlı bir adam var.

Peyğəmbər ﷺ ona geyim və minik dəvə bağışladı, həmçinin yolda xərcləmək üçün bir miqdar pul da qoydu. Hadinin bacısı karvanla yola düşdü.

* * *

Bundan sonra biz onun haqqında müntəzəm olaraq xəbər alır və onun hərəkət etməsinə nəzarət edirdik.

Mənim Peyğəmbərə ﷺ qarşı hiss etdiklərimin hamısını nəzərə alsaq, bacımla onun görüşləri və onun bacıma olan xoş münasibəti haqqında bizə danışılanlar inanılmaz və ağıla sığmaz idi.

Allaha and olsun ki, bir gün doğmalarımın arasında oturarkən gördüm ki, bizə tərəf bir dəvə hərəkət edir. Onun üstündə kəcavədə qadın oturmuşdu. Mən qışqırdım:

– Bu ki, Hatimin qızıdır! Dəqiq, bu odur!

Qarşımda dayanıb məni danlamağa başladı:

– Ay səni qəddar! Doğmalarını və oğlunu götürdün, atanın başqa uşaqlarını və qızlarını isə saxladın!

– Yaxşı, bacı! – mən dedim. Ona yalnız xoş sözlər deyib, sakitləşdirirdim. Nəhayət, o sakitləşib öz sərgüzəştləri haqqında danışdı. Bütün bunlar başqalarının dedikləri ilə düz gəlirdi. Mənim bacım qəti və ağıllı qadın olduğundan, mən ondan xəbər aldım:

– Sən o insan barədə nə düşünürsən? (Mən Peyğəmbəri ﷺ nəzərdə tuturdum).

Bacım mənə dedi:

– Allaha and içirəm ki, sən tezliklə ona qoşulacaqsan. Əgər bu Peyğəmbərdirsə, o, keçmişə qarşı iltifatlıdır. Əgər o, hökmdar olsa, sən alçalmazsan.

* * *

Hadi davam edirdi:

– Mənim əlimdə nə toxunulmazlıq, nə də mühafizə vasitəsi olmadan Mədinəyə, Peyğəmbərin ﷺ yanına getmək üçün yola düşdüm. Peyğəmbərin ﷺ dediyi sözlər mənim qulaqlarıma çatdı:

– Mən çox istərdim ki, Allah Hadinin əlini mənim əlimlə birləşdirsin.

Mən məscidə, onun yanına getdim və onu orda salamladım. O, soruşdu: "Bu kimdir?"

– Hadi ibn Xatim, – mən özümü təqdim etdim.

O, qalxıb, mənim əlimdən tutdu və öz evinə apardı. Allaha and olsun ki, biz onun evinə yaxınlaşanda, onu orada yaşlı qadın və balaca oğlan gözləyirdi. Onlar Peyğəmbəri ﷺ saxladılar və qadın öz işini başa salmağa başladı. Məsələ həll olunanadək, Peyğəmbər ﷺ onlarla qaldı, mən isə onu gözlədim...

Mən özüm özümə dedim: "Yox, bu hökmdar deyil." Sonra o, əlimdən tutub məni içəri saldı. Orada o, yumşaq dəri döşəkçəni götürüb mənə atdı və dedi: "Otur". Mən ondan çəkinib etiraz etdim:

– Yox, yaxşısı budur, sən otur.

– Yox, sən! – Peyğəmbər ﷺ qətiyyətlə dedi.

Mən sözünə tabe olub, döşəkçənin üstünə oturdum. Evdə başqa döşəkçə olmadığından o, yerdə oturdu. Mən özüm özümə dedim: "Allaha and olsun ki, hökmdar özünü belə aparmır".

Sonra o, mənə dönüb dedi:

– Demək belə, Hadi ibn Hatim, sən xaçpərəstlik və sabianlıq arasındakı dinə xidmət edən rakusi deyildinmi?

– Hə, idim, – mən cavab verdim.

Sonra o, soruşdu:

– Sən öz xalqına mirbaa əsasında rəhbərik edirdin? Dinin sənə icazə vermədiyini onların əlindən alırdın?

– Bəli, mən belə edirdim, – mən dedim. Bildim ki, bu Allah tərəfindən göndərilmiş bir Peyğəmbərdir.

Sonra o, mənə dedi:

– Hadi, bəlkə islamı qəbul etməyə sənə müsəlmanların kasıblığı və ehtiyacları mane olur? Allaha and olsun ki, tezliklə elə bir vaxt gələcək ki, müsəlmanların o qədər pulları olacaq ki, onları qoymağa yer olmayacaq. Bəlkə, sənə bu dini qəbul etməyə mane olan müsəlmanların azsaylı olmaları və onların düşmənlərinin çoxsaylı olmalarıdır. Allaha and olsun ki, tezliklə elə bir vaxt gələcək ki, bu evi ziyarət etmək üçün bir qadın Yəməndən öz dəvəsi ilə yola düşəcək və o, bu yolda Allahdan başqa heç kimdən qorxmayacaq. Bəlkə sənə bu dini qəbul etməyə mane olan var-dövlətin və hakimiyyətin müsəlmanların əllərində olmasıdır. Amma Allaha and olsun ki, çox tez bir vaxtda müsəlmanların qarşısında qapılarını açan Babilistanın qar kimi ağappaq olan sarayları haqqında eşidəcəksən, Xosrov ibn Hurmuzun xəzinələri isə müsəlmanların olacaq.

Mən soruşdum: “Xosrov ibn Hurmuzun xəzinələri?”

– Bəli, Xosrov ibn Hurmuzun xəzinələri, – Peyğəmbər ﷺ cavab verdi.

Hadi dedi:

– Bundan sonra mən həqiqi dini tanıdığıma şəhadət verirəm və islamı qəbul edirəm.

* * *

Hadi ibn Hatim uzun həyat yaşadı və tez-tez deyirdi: “Xəbərin ikisi özünü doğrultdu və üçüncüsü qalıb. Allaha and içirəm ki, o da baş verməlidir. Mən öz dəvəsi ilə Yəməndən bu evə qədər qorxusuz yol gedən qadın görmüşəm.

Xosrovun xəzinələrini hücum edib əldə edən atlı dəstəsinin ilk

sırasında mən idim.

Allaha and olsun ki, Peyğəmbərin ﷺ dediyi üçüncü xəbər də baş verəcək.

* * *

Allah elə elədi ki, Peyğəmbərin ﷺ sözləri düz çıxdı. Xəlifə Ömər ibn Əbdul-Əzizin hökmranlığı vaxtında üçüncü xəbər də baş verdi. Müsəlmanların o qədər çox var-dövləti oldu ki, kasıbları zəkatdan pul götürməyə çağırırdılar, lakin heç kim pul dalınca gəlmirdi.

Peyğəmbər ﷺ doğruçu idi və onun sözləri də düz çıxdı.

Hadi ibn Hatim isə axıradək öz andına sadiq qaldı.[50]

* * *

[50] Hadi ibn Hatim haqqında əlavə məlumat üçün bax:

1. "Əl-İsabə", 2/468;
2. "Əl-İstiəb", 3/140;
3. "Əsəd Əl-Ğaba", 3/392-394;
4. "Tahzib Əl-Tahzib", 2/166-167;
5. "Taqrib - Əl-Tahzib", 1/16;
6. "Xülasət tahzib tahzib Əl-Kamal", 263-264-cü səh.;
7. "Təcrid Əsma Əl-Səhabə", 1/405;
8. "Əl-Cəmia beynə ricəl əl-Səhihen", 1/398;
9. "Əl-İbar", 1/74;
10. "Əl-Tarix Əl-Kəbir", 4-cü c.1-ci his., 43-cü səh.;
11. "Tarix Əl-İslam" Əl-Zəhəbi, 3/46-48;
12. "Şəzərat Əl-Zəhəb", 1/74;
13. "Əl-Məarif", 136-cı səh.;
14. "Əl-Muammirun", 64-cü səh;
15. "İbn Kəsir",5/65;
16. "Fəth əl-Bari", 6/610;
17. "Dəlail ən-Nubuvva", 472.
18. "Dalail ən-Nubuvva", 472.

# ƏBU ZƏR ƏL-QİFARİ

*"Nə yer, nə də göylər Əbu Zərdən daha səmimi bir insan görmədi".*
Məhəmməd, Allahın Rəsulu

Məkkəni kənar aləmlə birləşdirən Vaddan vadisində Qifarilər tayfası yaşayırdı.

Onlar qureyşlilərin Şama gedən və oradan qayıdan ticarət karvanlarının verdiyi vergi hesabına dolanırdılar. Ola bilər ki, onlar həm də vergi ödəməkdən imtina edən karvanları soymaqla məşğul olurdular.

Əbu Zər ləğəbi ilə tanınan Cundub ibn Cunada həmin tayfadan idi. Lakin o, öz həmyerlilərindən cəsarəti, dərrakəsi və uzaqgörənliyi ilə fərqlənirdi.

Allahı tanımayan xalqının ibadət etdilkəri bütlər ona çox ağır təsir bağışlayırdı. Ərəblərin düşdüyü küfr və onların əqidələrinin mənasızlığını Əbu Zəri çox hiddətləndirirdi. O, insanların əqlini və qəlbini həqiqətlə dolduracaq və onları zülmətdən nura çıxaracaq yeni peyğəmbərin peyda olmasını həsrətlə gözləyirdi.

* * *

Öz köç yerində olarkən Əbu Zər Məkkədə peyda olmuş peyğəmbər haqqında eşidib, qardaşı Anisə dedi:

– Dərhal Məkkəyə get və özünü peyğəmbər adlandırıb, göylərdən ilahi vəhy aldığını israr edən o adamı mütləq tap. Onun danışdıqlarına qulaq as, sonra mənə danışarsan.

* * *

Anis Məkkəyə gəlib orada Peyğəmbərlə ﷺ görüşüb ona qulaq asdı. Sonra öz qəbiləsinə qayıdanda, Əbu Zər artıq onu səbrsizliklə gözləyirdi. O, Anisdən yeni peyğəmbər haqqında böyük maraqla soruşmağa başladı. Anis dedi:

– Allaha and olsun ki, mən insanları yüksək mənəviyyata

çağıran insanı gördüm, onun nitqi şerlərə bənzəyir.

Əbu Zər soruşdu:

– Bəs insanlar onun haqqında nə danışırlar?

– Onlar deyirlər ki, o, sehrbaz, falçı və şairdir, – deyə Anis cavab verdi.

Əbu Zər qışqırdı:

– Allaha and olsun ki, sən mənim marağımı və ehtiyacımı təmin etmədin. Mən gedib onunla görüşən zaman, sən mənim ailəmin qeydinə qala bilərsən?

Anis cavab verdi:

– Əlbəttə. Amma sən Məkkə sakinləri ilə ehtiyatlı ol.

* * *

Əbu Zər özü ilə bir qədər ərzaq və su götürüb, Peyğəmbərlə ﷺ şəxsən görüşüb, özü hər şeyi öyrənmək üçün səhər tezdən Məkkəyə yola düşdü.

* * *

Məkkəyə gələn Əbu Zər onun sakinlərindən çox ehtiyat edirdi. O, məkkəlilərin öz ilahlarına olan qeyrətli münasibətləri və özünü Məhəmmədin davamçısı adlandıran hər bir insana qarşı şiddətli cəzalar haqqında xəbərdar idi.

Buna görə də, Əbu Zər heç kimi Məhəmməd haqqında dindirib soruşmadı. O, bilirdi ki, dindirdiyi adam Məhəmmədin tərəfdarlarından, yaxud onun düşmənlərindən olacaq.

* * *

Gecə düşəndə, Əbu Zər məsciddə gecələməyə qərar verdi. O, yatmağa hazırlaşanda, onun yanından Əli ibn Əbu Talib keçirdi. O, qarşısında yolçunun dayandığını görüb, ona dedi:

– Qulaq as, gəl gedək bizə.

Əbu Zər Əli ilə gedib onun evində gecələdi. Səhər o, öz əşyalarını toplayıb məscidə getdi. Əbu Zər və Əli bir-birindən heç nə soruşmadılar.

Əbu Zər o biri günü məsciddə keçirtdi, lakin Peyğəmbəri ﷺ yenə də görmədi. Axşam o, məsciddə gecələməyə hazırlaşanda, yenə Əli yanından keçib ona dedi:

– Üz sığınacağının harada olduğunu bilmək vaxtı gəlib çıxmadımı?

Sonra Əli Əbu Zəri evinə apardı, və o, orada ikinci gecəni də keçirtdi. Birinci dəfə olduğu kimi, onlar yenə heç nə danışmadılar.

Üçüncü gecə Əli öz yoldaşından soruşdu:

– Sən Məkkəyə gəlməyinin məqsədi haqqında mənə danışarsan?

Əbu Zər cavab verdi:

– Sən mənim istədiyimi mənə göstərməyə söz versən, onda sənə bu haqda danışaram.

Əli Əbu Zərə bunu etməyə söz verdi. Əbu Zər dedi:

– Mən uzaqdan Məkkəyə gəlmişəm ki, yeni Peyğəmbərlə görüşüb, onun nitqlərini eşidim.

Əlinin üzü güldü və dedi:

– Allaha and olsun ki, bu insan həqiqətən Allahın Rəsulunun yanına gəlib. Bu ki..., bu...

Qulaq as! Səhər mənim arxamca gedərsən. Əgər mən təhlükəli bir şey görsəm, onda dayanacağam, guya istirahət etmək istəyirəm. Mən yoluma davam edəndə, sən də mənim girdiyim evə qədər dalımca gəl.

* * *

Əbu Zər Peyğəmbəri ﷺ görmək həsrəti ilə bütün gecəni yata bilmədi. O, Peyğəmbərə ﷺ nazil olan ilahi vəhylərdən bir şey eşitmək istəyirdi. Bunu səbrsizliklə gözləyirdi.

Səhər Əli öz qonağı ilə birlikdə nəcib Peyğəmbərin ﷺ evinə yola düşdü. Əbu Zər fikrini heç bir şeyə yönəltməyən Əlinin dalınca Peyğəmbərin ﷺ evinə qədər gəldi. Onlar içəri girəndə, Əbu Zər dedi:

– Sənə salam olsun, ey Allahın Rəsulu!

– Sənə də Allahın salamı, rəhməti və bərəkəti olsun.

Əbu Zər ilk insan idi ki, Peyğəmbəri ﷺ islam salamıyla salamladı. Bundan sonra belə salam vermək geniş yayıldı.

* * *

Peyğəmbər ﷺ Əbu Zərə yaxınlaşıb onu islama dəvət edib, ona Quran oxumağa başladı. Əbu Zər yerindən tərpənmədən, haqq sözləri elan edib, yeni dinə keçdi. O, islamı qəbul etmiş dördüncü, ya beşinci adam oldu.

Öz hekayəsinin son hissəsini danışmağa Əbu Zərin özünə imkan verək:

– Bundan sonra mən Məkkədə Allahın Rəsulunun yanında qaldım. O, mənə Quran oxuyub, mənə islamı öyrətdi. Sonra o, mənə dedi:

– Məkkədə heç kimə demə ki, islamı qəbul etmisən. Əks halda, mən qorxuram ki, onlar səni öldürərlər.

Mən dedim:

– Allaha and içirəm ki, mən məscidə gəlib qureyşlilərin arasında haqq sözləri elan etməyənədək, Məkkəni tərk etməyəcəm.

Allahın Rəsulu ﷺ heçnə demədi. Mən məscidə gəlib, qureyşlilərin toplandığı və söhbət etdiyi yerə yaxınlaşıb tən ortada durub ucadan dedim:

“Ey Qureyş xalqı! Mən şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur və həqiqətən də, Məhəmməd Allahın Rəsuludur!”

Qureyşlilər mənim sözlərimi eşidən kimi, güclü həyəcan keçirdib, cuşa gəldilər, öz yerlərindən qalxıb, qışqırdılar:

“Bu mürtədi tutun!” Mənim yanıma qaçıb, döyməyə başladılar. Məni tanıyan Əl-Abbas ibn Əbdul-Müttalib mənə cumub, vəhşiləşmiş izdihamdan qorumağa çalışdı. O, qışqırdı: “Başınıza dərd gəlsin! Siz Qifar tayfasından olan adamı öldürürsünüz, bəs sizin karvanlarınız axı onların ərazilərindən keçir. Onu rahat buraxın!

Mən özümə gəlib, Peyğəmbərin ﷺ yanına qayıtdım. O, məni belə halda görüb qışqırdı:

– Axı mən sənin islama keçdiyini elan etməyi qadağan

etmişdim!

Peyğəmbər ﷺ mənə dedi:

– Öz xalqının yanına qayıt və onlara gördüklərini və eşitdiklərini danış. Onları islama dəvət et. Bəlkə Allah sənin vasitənlə onlara xeyir verdi, səni isə onların vasitəsi ilə mükafatlandırdı... Bununla da Allah, mənim peyda olduğumu sənə sübut etdi. Sonra mənim yanıma qayıt...

Əbu Zər davam edirdi:

"Mən öz xalqımın yanına qayıdanda qardaşım Anis məni qarşılayıb soruşdu:

– Hə, sən nə etdin?

– Mən islamı qəbul etdim, – mən cavab verdim. – Mən bunu tamamilə səmimi şəkildə etdim...

Mən bunu dediyim yerdə, Allah onun qəlbini açdı və o, dedi:

– Mənim sənin dinindən dönmək fikrim yoxdur. Mən də islamı və həqiqi dini qəbul edirəm.

Sonradan anam bizə yaxınlaşdı və biz onu islama dəvət etdik. O, dedi: "Mən sizin dininizdən dönmək istəmirəm". Və o, islamı qəbul etdi.

O gündən möminlər ailəsi Qifar tayfasını usanmadan düz yola, Allaha çağırmağa başladı. Qəbilədən olanların bir çoxu islamı qəbul edib, namaz qılmağa başladılar.

Qalanlar isə dedilər: "Biz öz dinimizə qalacağıq, Peyğəmbər ﷺ Mədinəyə gəldikdə isə islamı qəbul edərik".

Peyğəmbər ﷺ Mədinəyə daxil olanda, onlar müsəlman oldular. Peyğəmbər ﷺ dedi: "Allah qifariləri bağışladı. İslamı qəbul edən Allahın iltifatını qazandı."

* * *

Bədr, Ühüd və Xəndək döyüşləri zamanı Əbu Zər öz qəbiləsi ilə qaldı, sonradan Mədinəyə yollandı. Orada Peyğəmbərdən ﷺ xahiş etdi ki, o, onu öz yanına xidmət etməyə götürsün. Peyğəmbər ﷺ onu öz səhabələrinin sıralarına qəbul etdi və Əbu Zərə onun yanında olmaq və ona xidmət etmək səadəti nəsib oldu. Allahın Rəsulu ﷺ həmişə başqalarından daha çox Əbu Zərə üstünlük verirdi

və ona çox hörmət edirdi. Onu hər dəfə görəndə, əlini sıxırdı, onun üzü isə həqiqi sevinclə işıqlanırdı.

* * *

Peyğəmbər ﷺ Allahın dərgahına getdikdən sonra, Əbu Zər öz sahibini itirmiş Mədinədə, həqiqi və dahi rəhbərini itirmiş möminlər məclislərində qala bilmədi. Əbu Zər Şama yola düşdü və Əbu Bəkr Əs-Siddiq və Əl-Faruqun xəlifəlıyi vaxtında orada yaşadı.

Osman xəlifə olanda, Əbu Zər Dəməşqdə yaşayırdı. Burda o, müsəlmanların dünya həyatına necə həris olduqlarına əmin oldu. Bu isə onun üçün qətiyyən qəbul edilməz idi. Osman ibn Affan onu öz yanına Mədinəyə çağırdı və o, ora getdi. Lakin burada da o, insanların hər cür yolla dünya nemətlərini əldə etmək istəyinə məətəl qaldı. Bununla yanaşı, insanlar onun düzlüyündən və ciddiliyindən narazı idilər. Osman ona Mədinənin kəndlərindən biri olan Əl-Rabzaya köçməyi əmr etdi. Əbu Zər oraya köçüb, dünya əyləncələrinə tamamilə biganə qalaraq, hamıdan ayrı yaşayırdı. Peyğəmbər ﷺ və onun səhabələri kimi, altruist[51] olaraq, o, gələcək həyata daha çox üstünlük verirdi.

* * *

Bir dəfə onun yanına bir adam gəlib, evinə girən kimi ətrafına baxıb nə isə axtardı. Evdə bir dənə də olsun əyləncə tapmayıb soruşdu:

– Ay Əbu Zər, bəs sənin əyləncələrin hanı?

Əbu Zər ona belə cavab verdi:

– Bizim evimiz (gələcək həyatımız) ordadır və bütün əyləncələrimiz də ordadır.

Əbu Zərin nəyi nəzərdə tutduğunu anlayan bu adam ona dedi:

---

[51] altruist – üz mənafeyini unudub başqalarının qeydinə qalan, başqalarına təmənnasız yardım etməyə hazır olan adam.

– Axı bizim bu evimizdə (dünya həyatımızda) da biz yaşadığımız müddətdə sevinc və əyləncə olmalıdır.

Əbu Zər buna belə cavab verdi:

– Axı evin yiyəsi bizi burda qoymaz.

* * *

Şamın əmiri Əbu Zərə üç yüz dinar göndərib bu sözləri ona ötürdü:

– Bu pulları öz ehtiyacların üçün istifadə et.

Lakin Əbu Zər pulları geri qaytarıb, əmirə bu sözləri ötürdü:

– Şamın əmiri Allahın qullarının arasında məndən daha layiqli və imkansız birini tapmadı ki?

* * *

Hicrətin 32-ci ilində Allah öz sadiq və tamahsız qulunu yanına götürdü. Bu qul haqqında Allahın Rəsulu ﷺ demişdir:

– Nə yer, nə də göylər Əbu Zərdən daha səmimi bir insan görmədi.[52]

* * *

---

[52] Əbu Zər haqqında əlavə məlumat üçün bax:

1. "Əl-İsabə", 4/62;
2. "Əl-İstiəb", 4/61;
3. "Tahzib Əl-Tahzib", 2/420;
4. "Təcrid Əsma Əl-Səhabə", 2/175;
5. "Təzkirat Əl-Hifəz", 1/15-16;
6. "Hilyət Əl-Övliyə", 1/156-170;
7. "Sifət Əl-Səfva", 1/238-245;
8. "Təbəqat" Əl-Şəarani, 32-ci səh.;
9. "Əl-Məarif", 110-111-ci səh.;
10. "Şəzərat Əl-Zəhəb", 1/39;
11. "Əl-İbar", 1/33;
12. "Züəmə Əl-İslam", 167-173-cü səh.

# ABDULLAH İBN UMM MƏKTUM

*"Kor olan birisi. Allah ona görə on altı ayə nazil etdi. Bunlar oxunub və həmişə oxunacaq."*
Quran təfsirçisi

Bu insan kimdir ki, nəcib Peyğəmbər ﷺ ona görə göyün yeddinci qatından ciddi, acıqlı və qorxunc töhmət aldı?!

Bu insan kimdir ki, ona görə Cəbrail – nəcib mühafiz Peyğəmbərin ﷺ ürəyinə ilahi vəhy ötürdü?!

Bu insan Allahın Rəsulunun ﷺ müəzzini İbn Umm Məktum idi.

* * *

Abdullah ibn Umm Məktum Peyğəmbərlə ﷺ qohumluq əlaqələri ilə bağlı olan Məkkəli qureyşli idi. O, möminlərin anası Xədicə bint Xüveylidin dayısı oğlu idi. Onun atası Qeys ibn Zahid, anası isə Ətiqə bint Abdullah idi. Lakin o, daha çox Umm Məktum (gizli, gizlənmiş) adıyla tanınırdı, çünki kor oğlan doğmuşdur.

* * *

İlahi nurun başlanğıcını Abdullah ibn Məktum Məkkədə, Allah onun qəlbini dinə açanda və o, ilk müsəlmanlardan biri olanda gördü.

İbn Umm Məktum Məkkədə müsəlmanların bütün məhrumiyyətlərini və onunla bağlı dərd və qurbanları yaşayıb, layiqincə mətanət və fədakarlıq göstərdi...

O, yoldaşları kimi, qureyşlilər tərəfindən təhqir olunub, təqib və istehzaların acısını daddı. Lakin bu sınaqlar onu sındırmadı, onun qətiyyətini sarsıtmadı və inamını zəiflətmədi...

Əksinə, bütün bunlar onun Allahın dini və kitabı ilə əlaqəsini daha möhkəm dərinləşdirdi, Peyğəmbərlə ﷺ yaxınlaşdırdı.

* * *

Abdullah ibn Umm Məktum nəcib Peyğəmbərə ﷺ və Quranın öyrənilməsinə can atırdı. Bunun üçün o, əlinə düşmüş heç bir imkanı buraxmırdı...

Bu can atma hərdən elə güclü olurdu ki, Peyğəmbərin ﷺ onun üçün ayırdığı vaxtdan istifadə edib, Peyğəmbərlə ﷺ təmasda olan başqa insanların vaxtını da tutmaq istəyirdi...

Bu dövrdə Allahın Rəsulu ﷺ qureyş başçıları və tanınmış adamlarla məşğul idi, var gücü ilə onları islama gətirməyə can atırdı. Günlərin bir günü o, Utbə ibn Rabiə, onun qardaşı Şeybə ibn Rabiə, Əbu Cəhl adını almış Amr ibn Hişam, Ümeyyə ibn Xələf və Allahın qılıncı adını almış Xalidin atası – Əl-Valid ibn Əl-Muğira ilə görüşdü. Peyğəmbər ﷺ onlarla danışıqlar aparmağa başladı. O, səmimi qəlbdən arzulayırdı ki, qüreyş başçıları onun dəvətini qəbul edib onun tərəfdarlarına pislik etməkdən əl çəksinlər.

* * *

Bu gərgin anda Abdullah ibn Umm Məktum onun yanına gəlib, Allahın Kitabından ayə oxumağı xahiş etdi. Sonra o, dedi:

– Ey Allahın Rəsulu, Allahdan öyrəndiklərindən bir şey də mənə öyrət.

Peyğəmbər ﷺ qaşqabaqla ona baxdı və imtina edib, qureyşlilərin yanına, onları islamı qəbul etməyə inandırmaq ümidi ilə tələsdi. Onlar müsəlman olsaydılar, bu Allahın dininin qüdrətini sübut edib, Onun Rəsulunun ﷺ dəvətinə çox kömək edərdi. Onlarla söhbətini qurtaran Peyğəmbər ﷺ evə doğmalarıyla görüşə tələsirdi. Birdən o, hiss etdi ki, Allah onun nəzərini bulandırdı, başında isə bir taqqıltı başlandı.

Sonra ona ilahi vəhy nazil oldu:

“(Peyğəmbər) **qaşqabağını tüküb üzünü zevirdi. Yanına korun** (Abdullah ibn Ummi-Məktumun) **gəlməsindən dolayı. Nə bilirsən, bəlkə də, o** (səndən islama dair soruşub üyrənəcəkləri ilə) **təmizlənəcəkdir! Yaxud üyğd dinləyəcək və bu üyğd ona fayda verəcəkdir!** (Var düvlətinə güvənib sənin üyğd-nəsihətinə qulaq asmağa) **ehtiyac hiss etməyənə** (düvlətliyə) **gəldikdə, Sən ğzğnğ**

**ona tərəf zevirirsən** (onun süzünə qulaq asırsan)**. Onun** (küfrdən) **təmizlənməsindən sənə nə?! Yüyürə-yüyürə sənin yanına gələn** və (Allahdan) **qorxan kimsəyə gəldikdə isə, sən ondan ğz zevirirsən! Xeyr!** (Belə yaramaz, bir daha belə etmə)**. Həqiqətən, bu** (ayələr) **bir üyüd-nəsihətdir. Kim istəsə, ondan üyğd alar.** (Bu Quran Allah dərgahında) **zox mühtərəm** (mütəbər) **səhifələrdə** - (Qədir-qiyməti) **yüksək** (şanı uca)**, tərtəmiz səhifələrdədir** (Şeytan onlara toxuna bilməz)**.** (O, Allahla peyğəmbərlər arasında olan) **elzi mələklərin əlləri ilə** (lüvhi-məhfuzdan küzürülür, yaxud o, elzi mələklərə etibar edilmişdir)**.** (O mələklər ki, Allahın yanında) **zox mühtərəm,** (Allaha) **zox mütidirlər."** (Əbəsə, 1-16).

O gündən indiyədək oxunan bu on altı ayəni Cəbrail mühafiz nəcib Peyğəmbərin ﷺ ürəyinə Abdullah ibn Umm Məktuma görə nazil etdi. Onlar Allah yer üzünə sahib çıxacaq günə qədər oxunacaq.

* * *

O gündən etibarən Peyğəmbər ﷺ şəhərə çıxanda Abdullah ibn Umm Məktuma tez-tez baş çəkirdi. Əlinə imkan düşən kimi Abdullahın evində keçirilən məclislərdə olurdu, onun işləriylə maraqlanırdı və onun ehtiyacı olanda ona yardım edirdi.

Bu qəribə deyil! Peyğəmbər ﷺ göyün yeddinci qatından kəskin və acıqlı töhməti Abdullah ibn Umm Məktuma görə almadımı?

* * *

Qureyşlilər Peyğəmbər ﷺ və onun sirdaşlarına qarşı sıxıntı və təqibləri gücləndirəndə, Allah müsəlmanlara hicrət etməyə icazə verdi. Öz dinini xilas edərək, vətəni tərk etməyə hamıdan tez Abdullah ibn Um Məktum hazırlaşdı...

Peyğəmbərin ﷺ səhabələrindən Mədinəyə birinci olaraq o və

Musab ibn Umeyr[53] gəldilər.

Abdullah ibn Umm Məktum Yəsribə yetişən kimi, Musab ibn Umeyr ilə birlikdə insanlarla görüşüb, onlara Quranı oxuyur və Allahın dininin məğzini başa salırdı.

* * *

Peyğəmbər ﷺ Mədinəyə gəldikdən sonra Abdullah ibn Umm Məktumu və Bilal ibn Rabahanı müsəlmanlar üçün mğəzzin elan etdi. Onlar hər gün, gündə beş dəfə tövhid sözləri ilə möminlərə müraciət edərək, onları xeyir iş görməyə və saədətə çatmağa çağırırdılar.

Bilal azanı, İbn Umm Məktum isə iqaməni verirdi. Hərdən elə olurdu ki, azanı İbn Umm Məktum, iqaməni isə Bilal verirdi.

Ramazan ayında Bilalın və İbn Umm Məktumun daha bir vəzifəsi var idi. Birinin çağırışı ilə müsəlmanlar sübh çağından qabaq sonuncu dəfə yeməyini yeyirdilər, o birisinin çağırışı ilə isə oruclarını başlayırdılar. Bilal gecə çağırış verərək insanları oyadırdı, İbn Umm Məktum isə şəfəqin gəlməsini müşahidə edirdi və heç vaxt çaşmırdı.

Peyğəmbər ﷺ İbn Umm Məktuma o qədər böyük qiymət verirdi ki, Mədinədən bir yerə gedəndə, öz işlərini ona tapşırırdı. Dəfələrlə belə olmuşdu, həmçinin Peyğəmbər ﷺ Məkkəni fəth etməyə gedəndə belə.

* * *

Bədr döyüşündən sonra Allah Peyğəmbərə ﷺ Qurandan bir sıra ayə göndərdi. Burada O, din uğrunda vuruşanları tərifləyib, onlara bir yerdə oturanlarla müqayisədə daha çox üstünlük verdi. Bu ayələr müsəlmanları cihada ruhlandırmaq və passiv olanları tərpətmək üçün göndərilmişdir. Bu ayələr İbn Umm Məktuma çox təsir etdi və o, cihadda iştirak edə bilmədiyinə görə çox əziyyət çəkirdi.

---

[53] Musab ibn Ğmeyr: ilk müsəlmanlardan biri və Məkkədən kənarda islamın təbliğçisi. Ühüd döyüşündə həlak olub.

O, bir dəfə Peyğəmbərə ﷺ dedi:

– Ey Allahın Rəsulu, mənim imkanım olsaydı, mücahid olardım.

Sonra o, mütiliklə Allaha dua edib, Ondan xahiş etdi ki, onun üçün və onun kimilər (yəni fiziki qüsurlar üzündən cihadda iştirak edə bilməyənlər) üçün xüsusi olaraq ayə göndərsin. Onun səsi səmimi idi:

– İlahi mənə bəraət qazandır... İlahi, mənim üçün bəraət nazil et.

Çox yaxın bir vaxtda Uca Allah onun duasını qəbul etdi.

* * *

Allahın Rəsuluna ﷺ nazil olan ilahi vəhyləri onun sözlərindən qeydə alan Zeyd İbn Sabit rəvayət edirdi.

– Peyğəmbər ﷺ qəfil huşunu itirəndə, mən onun yanında idim. Onun ayağı mənim ayağımın üzərinə düşdü və mən hiss etdim ki, indiyədək belə ağırlıq görməmişəm.

Peyğəmbərə ﷺ vəhy nazil oldu və o, dedi:

– Zeyd, yaz!

Mən onun bu sözlərini yazdım: **“Yerindən tərpənməyən möminlər və Allah yolunda vuruşanlar eyni deyildir...”**

İbn Umm Məktum yerindən sıçradı və dedi: “Ey Allah Rəsulu! Bəs cihad etməyi bacarmayanlar necə olsun?!” Onun sözü elə ağzında qalmışdı ki, Peyğəmbər ﷺ yenə transa[54] düşdü. O, birinci dəfə olduğu kimi indi də çox ağır idi.

Peyğəmbər ﷺ dedi:

– Zeyd, yazdığını oxu!

Mən oxudum: **“Yerindən tərpənməyən möminlər eyni deyildir...”**

– Yaz! – Peyğəmbər ﷺ əmr etdi. – **“Şikəst olanlardan savayı.”**

Beləliklə, İbn Umm Məktumun arzuladığı müstəsna nazil oldu.

Allahın İbn Umm Məktumu və onun kimiləri cihada getmək borcundan azad etməsinə baxmayaraq, onun qəlbi bir yerdə oturmaqla barışa bilmirdi. İbn Umm Məktum Allah yolunda aparılan

---

[54] Trans- hipnoz, ekstaz вя s. zamanı şüurun tutulması, özünü itirmя, huşunu itirmя.

müqəddəs müharibədə iştirak etməyi qət etmişdir.

Məlumdur ki, böyük insanlara böyük işlər gərəkdir və onlar aza qane olmurlar. O gündən etibarən İbn Umm Məktum necə olursa olsun növbəti yürüşü ötürməyə çalışırdı.

O, özünə döyüş meydanıda bir iş tapmaq istəyirdi. O, təklif etdi ki, onu döyüşçülər arasında yerləşdirib bayraqdar etsinlər ki, o, müsəlmanların döyüş bayrağını aparsın və onu qorusun. O, dedi: “Mən koram və qaçmağa bir yerim yoxdur”...

* * *

Hicrənin 14-cü ilində Ömər İbn Əl-Xəttab farsların dövlətini darmadağın edib, onların hakimiyyətini və qüvvətini tamamilə qırmaq üçün, onlara qarşı böyük vuruşa başlamağa qərar verdi. Beləliklə, o, müsəlman ordularına başqa ölkələrə yol açmaq istəyirdi. O, öz vəlilərinə dedi: “Dərhal yubanmadan mənim yanıma silahı olanları, atlıları və dərrakəsi olan başqa insanları, ümumiyyətlə, yardım edə biləcək hamını göndər”.

Əl-Faruqun çağırışını eşidən müsəlmanlar böyük dəstələrlə Mədinəyə axışmağa başladılar. Kor mücahid Abdullah İbn Umm Məktum da onların arasında idi. Bu böyük orduya başçılıq etməyi Əl-Faruq Sad ibn Əbu Vaqqasa tapşırdı. O, ona şəxsən özü təlimlər verib yola saldı. Müsəlmanların ordusu Qadusiyyəyə yaxınlaşanda Abdullah İbn Umm Məktum zirehini geyib, döyüşçülərin arasında dayandı. O, müsəlmanların bayrağını aparmağı və onu ölənədək qorumağı qət etmişdir.

* * *

Üç gün çəkmiş şidətli və qorxunc döyüşdə iki ordu toqquşdu. Müsəlman istilalarının tarixi indiyədək döyüşün belə miqyaslarını görməmişdi. Üçüncü günü müsəlmanlar qalib gəlməyə başladılar. Dünyada ən böyük olan dövlətlərdən biri yıxıldı...

Ən qəddar imperiyalardan biri məhv olundu...

Bütpərəstlərin torpağında tövhid bayrağı ucaldı...

Bu parlaq qələbə uğrunda müsəlmanlar Allaha yüzlərlə

döyüşçünün ömrünü qurban verdilər.

Abdullah İbn Umm Məktum da həqiqi din uğrunda şəhid olanların içərisində idi...

Onun qana batmış cansız bədəni döyüş meydanında tapıldı. O, əllərində müsəlmanların döyüş bayrağını sıxırdı.[55]

* * *

[55] Abdullah İbn Umm Məktum haqqında əlavə məlmat üçün bax:

1. "Əl-İsabə", 2/523;
2. "əl-İstiab", 2/501;
3. "Əl-Təbəqat Əl-Kübra", 4/205;
4. "Sifət Əl-Səfva", 1/237;
5. "Zeyl Əl-Muzeyil", 36-37-ci səh.;
6. "Həyat Əl-Səhabə" (bax: mündəricata);

Qeyd: İbn Umm Məktumun adı barədə müxtəlif rəvayətlər var. Mədinənilər onu Abdullah, iraqlılar isə Ömər adlandırırlar. Atası Qeys ibn Zahidin adı isə hər kəs tərəfindən dəyişilmədən çəkilir.

# MƏCZƏƏ İBN SAUR ƏL-SADUSİ

*«Məczəə ibn Saur Əl-Sadusi- təkbətək döyüşlərdə yüzə qədər bütpərəst öldürmüş igid cəngavərdir. Onun döyüş meydanında şiddətli toqquşmalar zamanı nə qədər düşmən öldürdüyünü təsəvvür elяmək olar».*

Tarixçilər

Budur sizin qarşınızda Allahın döyüşçülərindən olan igid qəhrəmanlar geyimlərini Qadisiyyə tozundan təmizləyərək, Allahın onlara göndərdiyi qələbəyə sevinirlər.

Onlar döyüş meydanında şəhid olmuş qardaşlarına Allahın bəxş etdiyi mükafata görə də çox sevinirlər.

Onlar öz parlaqlığı və əzəmətinə görə Qadisiyyə döyüşündən geri qalmayan yeni bir döyüşə girməyi səbirsizliklə gözləyirlər.

Onlar Xosrovu darmadağın etmək üçün xəlifə Ömər ibn əl-Xəttabın cihadı davam etdirmək qərarını gözləyirlər.

* * *

İgid və uğurlu döyüşçülərin gözləməsi uzun sürmədi. Tezliklə Mədinədən Kufəyə Əl-Faruqun elçisi gəlib çıxdı. Onun gətirdiyi fərmanda Əl-Faruq Kufədəki canişini Əbu Musa Əl-Əşariyə belə təlimatlar verdi: O öz qoşunlarıyla birgə Kufədən çıxıb Bəsrəyə gələn müsəlman qoşunlarına birləşməli idi. Sonradan birləşmiş qoşunlar Ahvaz[56] istiqamətində irəliləməli, Hurmuzana çatıb, onun ordusunu darmadağın etməli və farsların ölkəsinin mirvarisi olan Tustar şəhərini azad etməli idilər.

Xəlifənin Əbu Musaya göndərdiyi fərmanda deyilirdi kİ, o, özü ilə Bəni Bəkr qəbiləsinin başçısı igid cəngavər Məczəə ibn Saur Əl-Sadusi yürüşə götürməli idi.

* * *

[56] Ahvaz - İranın qərbində, İran körfəzinin sahilində yerləşən əyalətlərdən biridir.

Müsəlmanların xəlifəsinin fərmanını yerinə yetirən Əbu Musa Əl-Яşari ordusunu topladı və Məczəə İbn Saur Əl-Sadusini sol cinahda yerləşdirdi. Döyüşçülər Bəsrədən gəlmiş müsəlman qoşunları ilə birlikdə Allah yolunda öz hərbi yürüşünə başladılar.

Müsəlmanlar şəhərləri və qalaları düşməndən azad edirdilər, Hurmuzan isə onların təzyiqi altında mövqedən mövqeyə keçərək arxaya çəkilirdi. Nəhayət, o, Tustar şəhərinə yaxınlaşıb, onun müdafiəçiləri ilə birləşdi.

* * *

Hurmuzanın məskunlaşdığı Tustar İranın ən gözəl şəhərlərindən biri idi. O, çox səfalı yerdə yerləşirdi və ən möhkəm qala istehkamlarına malik idi.

Tustarın həmçinin qədim tarixi var idi. O, öz formasıyla atı xatırladan bir təpədə tikilmişdir. Ducayl adlı böyük çay isə şəhəri su ilə təmin edirdi. Təpənin ən hündür nöqtəsində hovuzu olan ev çeşməsi yerləşirdi. Onun həmçinin müxtəlif heyvanların başları şəklində olan fəvvarələri də var idi. Heyvanların ağızlarından su tökülürdü. Bunu Sabur xan tikdirmişdi. Hovuzun və fəvvarələrin su ilə təmin edilməsi xüsusi olaraq qazılmış yeraltı yolların vasitəsilə yerinə yetirilirdi. Tustarın bu hovuzu, onun fəvvarələri və su kəmərləri ilə birlikdə memarlıq möcüzələrindən biri oldu. Bütün qurğu möhkəm metal sütunlarla bərkidilmiş iri, hamar yonulmuş daşlardan düzəldilmişdir. Hovuzun və qaleriyaların (yeraltı yolların) üzlüyü qurğuşundan idi.

Tustar nяhяng və hündür divarlarla əhatə edilmişdir. Tarixçilər bu divar haqqında belə deyirdilər: «Bu bəşəriyyət tarixində ilk qala divarı idi ki, şəhəri bütövlüklə əhatə edirdi».

Hurmuzan bu divar boyunca böyük xəndək qazdırdı. Bunu keçmək çox çətin idi. Xəndəyin arxasında farsların ən yaxşı qoşunları yerləşdirildi.

* * *

Müsəlmanların orduları Tustarın xəndəyinin qıraq tərəfində yerləşib, onu on səkkiz ay ərzində döyüşə-döyüşə keçməyə nəticə-

siz olaraq cəhd edirdilər. Bu vaxt ərzində müsəlmanlar farslarla səksən döyüş kezirdilər. Bu vuruşmaların hər biri iki tərəfdən olan cəngavərlərin təkbətək döyüşü ilə başlanır, bunlardan sonra əsas qüvvələr amansız çaxnaşmaya girirdilər.

Bu təkbətək döyüşlərdə Məczəə şəxsən özü yüz düşmən cəngavəri öldürmüşdü və onun adı farslarla qorxu, müsəlmanların qəlblərində isə cəsarət və igidlik yaradırdı.

Onu əvvəllər tanımayanlar nədən xəlifənin bu igid qərhəmanın hücuma keçən ordunun sıralarında olmasını təkid etdiyini yalnız indi anladılar.

* * *

Bu səksən döyüşün sonuncusunda müsəlmanlar düşmənə elə amansızcasına hücum etdilər ki, farslar qorxdular və xəndəyin üzərində olan körpülərdən geri çəkilib, bu alınmaz qalanın qapılarını bağlayıb, şəhərdə gizləndilər.

* * *

Müsəlmanların uzun müddət qəliz vəziyyətdə qaldıqlarından sonra, indi onlar daha çətin bir işə düşdülər. İndi farslar hündür qala divarlarından və qüllələrdən onlara ox atırdılar. Bununla yanaşı, onlar yuxarıdan uclarına bərk qızdırılmış qarmaq birləşən dəmir zəncirlər endirməyə başladılar.

Elə ki, müsəlman döyüşçülərindən bir nəfər divara dırmaşmağa başlayırdı və yaxud ona yaxınlaşırdı, farslar tez o zəncirləri endirib, igidi qarmağa ilişdirirdilər və özlərinin yanına, yuxarıya qaldırırdılar. Qızdırılmış qarmaq adamların bədənini yandırıb parçalayırdı. Döyüşçünün əlləri və ayaqları qopub düşürdü və o, əzablar içində ölürdü.

* * *

Müsəlmanların vəziyyəti getdikcə pisləşirdi. Müsəlmanlar Allah tamamilə tabe olaraq, mütiliklə Ona dua etməyə başladılar ki, Allah

onlara nicat versin və Onun və müsəlmanların düşmənləri üzərində qələbə bəxş etsin.

* * *

Bir gün Əbu Musa Əl-Яşari Tustarın hündür divarlarını, onları hücumla almaq imkansızlığından yaranmış ümidsizliklə seyr etdikdə gördğ ki, birdən onun önünə qala divarlarından atılan ox düşdü. Oxa baxan Əbu Musa gördü ki, oxa məktub bağlanıb. Bu məktubda yazılmışdı: «Ey müsəlmanlar! Mən sizə inandım. Sizdən özüm üçün, əmlakım üçün, doğmalarım və yaxınlarım üçün zяmanяt vərəqəsi istəyirəm. Onun əvəzinə isə sizə elə bir yol göstərərəm ki, o yolla siz şəhərə daxil ola bilərsiniz».

Əbu Musa bu insan üçün zəmanяt vərəqəsi yazıb onu öz oxu ilə birgə həmin adama göndərdi. Bu adam müsəlmanların mühafizə vərəqəsinə inandı, çünki bilirdi ki, onlar vədləri yerinə yetirir və əhdlərə sadiq qalırlar. Bu adam gecənin düşməsini gözlədi və müsəlmanların yanına gəldi.

O, Əbu Musaya dedi: «Biz bu xalqın başçılarındanıq. Hurmuzan mənim böyük qardaşımı öldürüb, onun əmlakını mənimsədi və qohumlarına hücum etdi. Onun mənə qarşı da pislik edəcəyindən ehtiyat edib, öz həyatım və uşaqlarımın həyatı üçün qorxmağa başladım. Mən sizin ədalətinizi onun zülmündən, sizin sadiqliyinizi onun vəfasızlığından üstün tuturam. Mən qəti qərara gəlmişəm ki, sizə Tustara daxil olmaq üçün gizli yol göstərim. Mənə cəsur və ağıllı birini ver. Mənim bircə xahişim budur ki, həmin adam yaxşı üzməyi bacarsın və mən ona yol göstərərəm.

* * *

Əbu Musa Əl-Яşari Məczəə İbn Saur Əl-Sadusini öz yanına çağırıb, ona vəziyyəti açıqlayıb dedi:

– Mənə yardım üçün öz adamlarından ağıllı və qətiyyətli birini ver. Üstəlik o, yaxşı üzməyi bacarmalıdır.

Məczəə dedi:

– Əmir, icazə ver o adam mən olum!

Əbu Musa ona dedi:

– Yaxşı, əgər sən bunu istəyirsənsə, onda qoy Allahın xeyir-duası səninlə olsun.

Sonra Əbu Musa ondan xahiş etdi ki, yolu yaxşı yadda saxlasın və Hurmuzanın yerini təyin edib, onun orada olub-olmadığını öyrənsin. Bundan başqa isə heç bir şey etməsin.

* * *

Gecənin qaranlığından istifadə edən Məczəə ibn Saur fars bələdçisi ilə birgə çayı şəhərlə birləşdirən yeraltı qalireyaya daxil oldu. Hərdən yol o qədər genişlənirdi ki, suyun dayaz yerindən keçmək mümkün olurdu, hərdən isə o dərəcədə ensizləşirdi ki, onlar üzərək gedirdilər. Hərdən qalireyadan yan qollar ayrılırdı və burada dönüş əmələ gəlirdi. Hərdən isə qalireya düz olurdu.

Nəhayət, onlar şəhərя aparan çıxışa yaxınlaşdılar. Bələdçi Məczəyə qardaşının qatili Hurmuzanın yerini göstərdi. Məczəə Xurmuzanı görən kimi, onu boynundan vurmaq üçün nişan aldı, lakin Əbu Musanın səs-küy qaldırmamaq xahişini yada salıb, özünü saxladı və səhər açılanadək həmin yolla geri döndü.

* * *

Əbu Musa üzməyi bacaran müsəlmanlardan üç yüz ən cəsur və dözümlü əsgər seçib, Məczəəni onlar üçün başçı təyin etdi. Əbu Musa onları yola salanda öz təlimatlarını verdi: şəhərə hücum edərkən onlar yalnız «Allahu əkbər» deyərək zikr etməli idilər.

Məczəə döyüşçülərə əmr verdi ki, onlar öz geyimlərini yüngülləşdirsinlər ki, su onları ağırlaşdırmasın. Silahlardan isə ancaq qılıncları saxlamağı və onları geyimin altından bədənlərinə möhkəm bağlamağı əmr etdi...

Qaranlıq düşən kimi dəstə yola hazır oldu.

* * *

Məczəə ibn Saur öz igid döyüşçüləri ilə birgə iki saat ərzində təhlükəli qalereyanın çətinliklərini aşırdılar. Hərdən onlar gücsüz halda dayanır, lakin sonra öz yolunu inadla davam etdirirdilər. Məczəə şəhərə çıxan yola çatanda gördü ki, yeraltı qalereya onun iki yüz iyirmi nəfərini udub və cəmi səksən əsgəri qalıb...

* * *

Məczəə və onun yoldaşları şəhərə daxil olan kimi, qılınclarını çıxarıb qalanın müdafiəçilərinə hücum çəkdilər. Onlar yollarına çıxan hər kəsi öldürürdülər. Qala qapılarına çatan döyüşçülər «Allahu əkbər» sözlərilə onları açdılar. Qalanın daxili tərəfində deyilən bu sözlər qıraqdan gələn eyni sözlərə qarışdı. Müsəlman döyüşçüləri və Allahın düşmənləri arasında elə şiddətli və qanlı döyüş baş verdi ki, müharibələr tarixində belə bir şey görünməmişdir.

* * *

Döyüş ən yüksək nöqtəyə çatanda, Məczəə ibn Saur vuruşanlar arasında Hurmuzanı gürdü. Məczəə qılıncla ona tərəf cumdu. Lakin əsgərlər Hurmuzanı onun nəzərindən gizlətdilər. Hurmuzanı ikincə dəfə görən Məczəə ona tərəf cumdu. Onlar bir-birinə ölümcül zərbələr endirdilər, lakin Məczəənin qılıncı hədəfdən yayındı. Hurmuzanın qılıncı isə dəqiq idi.

İgid cəngavər yerə yıxıldı və Allahın etdiyindən xoşbəxtlik hiss edərək öldü.

Müsəlmanlar Allah onlara qələbə bəxş edənədək və Hurmuzan əsir götürülənядək döyüşü davam etdirdilər.

* * *

Döyüşçülər Mədinəyə qayıdanda çox şad idilər. Onlar Hurmuzanın əyninə qızılla tikilmiş padşah libası geyindirib, başına daş-qaşla bəzədilmiş tac qoydular ki, xəlifə onu özü şəxsən görsün.

Bununla yanaşı qaliblər xəlifəyə onun qəhrəman cəngavəri Məczəə ibn Saurun döyüşdə həlak olması ilə əlaqədar dərin hüznlə baş sağlığı verməyə tələsirdilər.[57]

* * *

[57] Məczəə ibn Saur haqqında əlavə məlumat üçün bax:

1. «Millətlər və hökmdarlar tarixi», Əl-Tabari, 4/216, «On yeddinci ilin hadisələri haqqında»;
2. «Xəlifə İbn Xəyyatın tarixi», 1/117;
3. «İslam tarixi», Əl-Zəhəbi, 2/30;
4. «Müacam Əl-Buldan liyaqut ində Tustar»;
5. «Əl-İsabə», 3/364;
6. «Əsəd Əl-Ğabə», 4/30.

# USEYD İBN ƏL-HUDEYR

*«O mələklər sənə qulaq asırdılar, ey Useyd...»*
Məhəmməd, Allahın Rəsulu

İslam tarixində ilk təbliğçilər dəstəsinin tərkibində məkkəli cavan – Musab ibn Umeyr Yəsribə (Mədinəyə) gəlmişdir.

O, Əl-Xəzrac[58] qəbiləsinin başçılarından birinin evində, Əsəd ibn Zuraranın yanından qaldı. Əsədin evində özünə məskən quran Musab insanları Allah yoluna dəvət etməyə, onlara Allahın rəsulu olan Məhəmməd ﷺ haqqında danışmağa başladı.

Tədricən Yəsrib sakinlərinin çox hissəsi cavan təbliğçi Musab ibn Umeyrin məclislərini ziyarət etməyə başladılar.

İnsanları cəlb edən onun söhbətlərindəki yumşaqlıq, dəlillərinin sadəliyi və inandırıcılığı, müraciətindəki lütfkarlığı və həmçinin iman nuru ilə işıqlanan gözəl və xoş sifəti idi. Bundan əlavə, insanları ona cəzb edən onun Quranı bilməsi idi. O, insanlar üçün zaman-zaman Quranı öz yumşaq, təsirli və məftunedici səsi ilə oxuyurdu. Onun səsinin təsiri altında qəddar ürəklər yumşalır, gözlərə isə yaş gəlirdi. Elə bir məclis olmurdu ki, ondan sonra iman uğrunda döyüşənlərin sıraları yeni müsəlmanlarla artmasın.

* * *

Günlərin bir günü Əsəd ibn Zurara öz qonağı- təbliğçi Musab ibn Umeyr ilə evdən çıxıb, Bəni Əbd Əl-Əşhal qəbiləsindən olan dəstəni qarşılamağa və onlara İslamı qəbul etməyi təklif etmək üçün yola düşdülər. Qəbilənin bağlarından birinə gedib, palmalar kölgəsində, şirin suyu olan quyunun yanında əyləşdilər.

Musabın yanında bir dəstə müsəlman və ona qulaq asmaq istəyən bir neçə başqa adam var idi. Musab bu insanlarla söhbət etməyə başladı. O, onları İslama dəvət edirdi. Adamlar onu

---

[58] Əl-Xəzrac – Yəmən ərəblərindən bir qəbilə. Qardaş qəbiləsi olan Əl-Aus ilə birgə Mərib bəndinin dağıdılmasından sonra Hicaza köçüb, Mədinədə məskunlaşdı.

sözlərinin parlaqlığına məftun olub, onu diqqətlə dinləyirdilər.

* * *

Bir adam Əl-Aus qəbiləsinn başçıları Useyd ibn Əl-Hudeyrə və Sad ibn Muaza xəbər verdi ki, yaxınlıqda məkkəli təbliğçi peyda olub və onu özü ilə Əsəd ibn Zurara gətirib.

Sad ibn Muaz Useyd ibn Əl-Hudeyrə dedi:

- Qulaq as Useyd, zəif insanları İslama şirin sözlərlə cəlb etməyə və bizim tanrılarımızı ləkələməyə gələn o məkkəli cavanın yanına get. Onun bu hərəkətlərinin qarşısını al və ona xəbərdarlıq et ki, bir daha buralarda görsənməsin.

Sonra o, davam etdi:

- Əgər o, mənim xalam oğlu Əsəd ibn Zuraranın qonağı və onun müdafiəsi altında olmasaydı, mən səni bu əziyyətdən azad edərdim.

* * *

Useyd öz nizəsini götürüb həmin bağa yollandı. Əsəd ibn Zurara Useydin onlara yaxınlaşdığını görüb, Musaba dedi:

- Ey Musab! Bu qəbilə başçısıdır, onların ən dərrakəli və ən yaxşı adamıdır. Onun adı Useyd ibn Əl-Hüdeyrdir. O, islamı qəbul etsə, çox adam onun dalınca gedər. O, Allahın qarşısında doğruçu olacaq. Sən onu inandırmağa çalışmalısan.

Useyd adamların qarşısında dayanıb Musaba və onun yoldaşına dedi:

-Sizi bura nə gətirib və siz niyə bizim zəif insanlarımızı yoldan çıxardırsınız? Əgər sizin həyatınız sizə lazımdırsa, burdan gedin.

Musab nurla dolu üzünü Useydə çevirib, ona səmimiliklə müraciət etdi:

- Ey qəbilə başçısı! Bəlkə başqa bir şeydə sənin üçün daha çox xeyir ola bilər?

- O nədir elə?- Useyd soruşdu.

- Bizimlə əyləşib bizə qulaq asmaq. Əgər bizim dediklərimiz sənin xoşuna gəlsə, onu qəbul edərsən. Əgər bizim sözlərmiz xoşuna gəlməsə, sən bizi qova bilərsən və heç vaxt sizin yanınıza

qayıtmarıq- Musab cavab verdi.

- Düz deyirsən- Useyd dedi. O, nizəni torpağa batırıb, yerdə əyləşdi.

Musab ona yaxınlaşıb, islamın həqiqəti barəsində danışmağa başladı. O öz nitqini Quran ayələri ilə əsaslandırırdı.

Useydin üzü açıldı və o dedi:

- Sənin dediklərin və oxuduqların necə də gözəldir! Siz islamı qəbul etmək istəyəndə nə edirsiniz?

Musab dedi:

-Sən qüsl edib, paltarını təmizləyib. Şəhadət verməlisən ki, Allahdan başqa İlah yoxdur və Məhəmməd Onun Rəsuludur. Sonra da iki rükət namaz qılmalısan.

Useyd bulaq suyu ilə yuyunub, kəlmeyi-şəhadəti söylədi və iki rükət namaz qıldı.

O gündən etibarən Useyd islam tərəfdarlarının sıralarına daxil oldu. O vaxt o, məşhur ərəb cəngavərlərindən və Əl-Aus qəbiləsinin başçılarından biri idi. Xalq ona Əl-Kamil adını onun dərrakəsi və nəcib əsili olduğuna görə vermişdi. O, eyni zamanda qələm və qılınc ustası idi, çünki ox atma və gözəl at sürmə qabiliyyəti var idi və bununla yanaşı özü yazmağı və oxumağı sevir və bacarırdı. Bu isə onun yaşadığı cəmiyyətdə çox nadir hal hesab olunurdu, çünki o vaxt az adam oxumağı və yazmağı bacarırdı. Useydin arxasınca Sad ibn Muaz islamı qəbul etdi, sonra isə islam dininə Əl-Aus qəbiləsindən bir çox adam keçdi.

Bu islamlaşdırma hərəkatının sayəsində Mədinə Peyğəmbərin ﷺ hicrət etdiyi yer, onun etibarlı sığınacağı və həmçinin böyük islam dövlətinin əsası oldu.

* * *

Useyd ibn Əl-Hudeyr quranı çox sevdi və ona bağlandı. Bu, Quranı məhz Musab ibn Umeyrin ağzından eşitdikdən sonra baş verdi. Useyd Qurana, susamış insanın su çeşməsinə yapışdığı kimi yapışmışdı. Quran onun əsas marağı və məqsədi oldu.

O vaxtdan etibarən onu ya Allah yolunda müharibə edən igid mühacirlər sıralarında, ya da fədakarcasına Allahın kitabını oxuyan

görmək olardı.

Useydin mülayim lətif səsi, aydın tələffüz etmə qabiliyyəti var idi. O, həmçinin gözəl deklamasiya[59] söyləyirdi. O, ən çox gecə vaxtı, sakitlikdə, yuxu insanların gözünü bağlayanda və onların qəlblərini təmizləyəndə, quran oxumağı xoşlayırdı.

Nəcib səhabələr həmişə Useydin Quran oxumağa başladığını gözləyirdilər və onun oxuduğunu dinləməyə can atırdılar.

Quranı, Məhəmmədə ﷺ nazil olduğu tərzdə, poetik təsirli və ifadəli oxunuşunu dinləyənlər necə də xoşbəxt idilər.

Səma sakinləri də, yer sakinləri kimi Useydin qiraətindən zövq alırdılar.

Bir dəfə gecə vaxtı Useyd ibn Əl-Hudeyr öz evinin arxasında yerləşən çəmənlikdə əyləşmişdi. Oğlu Yəhya onun yanında yatmışdı, cihad üçün hazırlanmış atı isə yaxınlıqda bağlanmışdı.

Gecə sakit, səma isə təmiz və şəffaf idi. Ulduzlar öz yumşaq, sayrışan işığını yerə salırdılar. Useyd də çox istədi ki, bu xeyirli mənzərə məftunedici Quranla bəzədilsin. O, incə və mülayim səsi ilə oxumağa başladı:

**«Əlif, Lam, Mim. Bu,** (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) **hez bir şəkk-şğbhə olmayan, mğttəqilərə** (Allahdan qorxanlara, pis əməllərdən zəkinənlərə) **doğru yol güstərən Kitabdır. O kəslər ki, qeybə** (Allaha, mələklərə, qiyamətə, qəza və qədərə) **inanır,** (lazımınca) **namaz qılır və onlara verdiyimiz ruzidən** (ailələrinə, qohum-qonşularına və digər haqq sahiblərinə) **sərf edirlər. O kəslərki, sənə göndərilənə** (Qurana) **və səndən əvvəl göndərilənlərə** (Tüvrat, İncil, Zəbur və s.) **iman gətirir və axirətə də şəksiz inanırlar.»** (Əl-Bəqərə, 1-4).

Birdən Useyd eşitdi ki, at səksənib, dairə üzrə qaçmağa başladı. O, az qalmışdır ki, yedəyini qırsın. Useyd susan kimi onun atı da sakitləşdi.

Useyd davam etdi: **«Məhz onlar üz Rəbbi tərəfindən** (güstərilmiş) **doğru yoldadırlar. Nicat tapanlar** (axirət əzabından

[59] Deklamasiya- bədii qiraət

qurtarıb Cənnətə qovuşanlar) **da onlardır.»** (Əl-Bəqərə, 5).

At səksənib, yenə də cüvlan etdi və yedəkləri qırmağa yenə cəhd etdi.

Useyd susdu... At sakitləşdi...

Bu, hallar neçə dəfə təkrar olundu. Useyd Quran oxumağa başlayan kimi, at cuşa gəlib cummağa başlayırdı. Useyd susan kimi, at da sakitləşirdi.

Oğlu Yəhyanın üstünə atın çıxacağından qorxan Useyd, ona yaxınlaşıb yuxudan oyatmaq istədi. Elə bu vaxt o, səmaya nəzər salıb gördü ki, orada çətirə bənzər gözəl bir bulud var. Buludun kənarlarında çıraqlara oxşayan işıq mənbələri var idi. Onlar hər tərəfə nur saçırdılar. Bulud yuxarı qalxmağa başladı və sonunda yoxa çıxdı.

Səhərisi günü Useyd Allahın Rəsulunun ﷺ yanına gəlib, gecə gördüklərini ona danışdı. Peyğəmbər ﷺ ona dedi: «Bu mələklər sənə qulaq asırdılar, ey Useyd. Əgər sən oxumağa davam etsəydin, bunu bütün insanlar görərdi və onlar gizlənməzdilər».[60]

* * *

Useyd Qurana vurğun olduğu kimi, Peyğəmbərə ﷺ məftun olmuşdu. Onun öz sözlərinə görə, o, Quran oxuyanda, yaxud Peyğəmbəri ﷺ onun xütbəsi və söhbətləri zamanı görəndə və eşidəndə, qəlbi təmiz və şəffaf olurdu.

Useyd Peyğəmbərə ﷺ toxunub onu öpmək istəyirdi. Tezilklə onun əlinə belə imkan düşdü.

Günlərin bir günü Useyd məclisdəkiləri öz zarafatları və hekayətləri ilə əyləndirirdi. Onun zarafatlarının birində heyran olan Peyğəmbər ﷺ onun böyründən itələdi. Useyd qışqırdı:

– Ey Peyğəmbər, bu məni incitdi!

Peyğəmbər ﷺ təklif etdi:

– Onda məni cəzalandır.

Useyd dedi:

– Sənin əyində köynək var, amma sən məni itələyəndə mənim

---

[60] Bu hədisi bütövlüklə Əl-Büxari və Müslim rəvayət edirlər.

əynimdə köynək yox idi.

Peyğəmbər ﷺ köynəyi çıxaran kimi Useyd onu bərk qucaqlayıb böyrünü öpərək dedi:

– Sən mənə həm anasan, həm ata, ey Peyğəmbər. Mən səni tanıyandan bu mənim ən böyük arzum idi, o da yerinə yetdi.

* * *

Peyğəmbər ﷺ Useydi eyni məhəbbətlə sevirdi. O, heç vaxt unutmurdu ki, Useyd islamı ilk qəbul edənlərdən olub, Uhud döyüşü zamanı islamı qəhrəmancasına qorumuş və orada yeddi ölümcül yara almışdı.

Peyğəmbər ﷺ Useydin öz xalqı arasında olan nüfuzu və hörməti haqqında yaxşı bilirdi. O, öz xalqından olan bir kəs üçün Peyğəmbərdən ﷺ xahiş edəndə Peyğəmbər ﷺ həmişə onun xahişini yerinə yetirirdi.

Useyd özü danışırdı:

«Bir dəfə mən Peyğəmbərin ﷺ yanına gəlib, ənsarlardan olan və çox hissəsi qadınlar olan bir imkansız ailə haqında ona danışdım. Peyğəmbər ﷺ dedi:

– Useyd, biz əlimizdə olan bütün vəsaitləri artıq xərcləmişik. Sən təzə ianələr haqqında eşidən kimi o ailəni bizim yadımıza sal.

Bundan sonra, Xeybərdən vəsaitlər gələndə, Peyğəmbər ﷺ onları müsəlmanlar arasında böldü. O, ənsarları, o cümlədən də həmin imkansız ailəni mükafatlandırdı. Mən ona dedim:

– Ey peyğəmbər! Sənin onlar üçün etdiklərinə görə Allah səni rəhməti ilə mükafatlandırsın.

O isə dedi:

– Ey ənsarlar, Allah sizə ən yaxşı mükafat versin. Mən sizi tanıdığım müddətdə, siz həmişə təvazökarlıq və səbr nümunəsi olmusunuz. Məndən sonra isə siz hərisliklə qarşılacaqsınız...

Ömər ibn Əl-Xəttab xəlifə olanda müsəlmanlar arasında pul və mal bölüşdürürdü, mənə isə yalnız pal-paltar göndərdi və mən də

bunu az dəyərli bir şey sandım...

Bir dəfə, mən məsciddə olanda yanımdan bir cavan keçdi. Mən gördüm ki, onun əynində olan geyim Ömərin mənə göndərdiyi ilə eynidir. Həmçinin bu geyim oğlanın əyninə əməlli-başlı böyük idi: ətəkləri yer ilə sürünürdü. Burada Allahın Rəsulunun ﷺ bu sözləri yadıma düşdü: «Məndən sonra siz hərisliklə qarşılacaqsınız». Mən dedim: «Allahın Rəsulu ﷺ düz danışardı». O oğlan dərhal Ömərin yanına gedib mənim sözlərimi ona çatdırdı. Mən namaz qılarkən, Ömər gəldi və dedi:

- Useyd, dua et!

Mən namazı qılıb qurtarandan sonra o, mənə yaxınlaşıb soruşdu:

- Sən nələr danışırsan?

Mən ona gördüklərimi və danışdıqlarımı söylədim.

Ömər dedi:

- Allah səni bağışlasın! Bu geyimi mən ən yaxşı ənsarlardan birinə, Aqabədə Peyğəmbərə ﷺ and içən, Bədr və Uhud döyüşlərində iştirak etmiş adama yollamışdım. Bu qureyşli oğlan isə geyimi o adamdan pulla alıb və onu əyninə geyib. Məgər sən fikirləşirsən ki, Peyğəmbərin ﷺ sənə dedikləri mənim vaxtımda baş verəcək?

Mən dedim:

- Ey əmirəlmöminin, Allaha and içirəm ki, mən düşünürdüm ki, bu sənin vaxtında baş verməyəcək».

* * *

Bundan sonra Useyd ibn Əl-Hudeyr çox yaşamadı. Ömərin xəlifəliyi dövründə Allah onu öz yanına apardı.

Öləndən sonra onun dörd min dirhəm həcmində borcu qalmışdı. Varislər borcu qaytarmaqdan ötrü Useydə məxsus olan torpağı satmağa qət etdilər. Ömər bunu biləndə dedi:

-Mən öz qardaşım Useydin övladlarını özgə xərcinə dolanan dilənçi vəziyyətində qoya bilmərəm.

Sonradan o, borc verən şəxslərlə danışdı və onlar belə şərtə qane oldular: dörd il ərzində Useydın torpağından min dirhəmlik məhsul almaq.[61]

* * *

[61] Useyd ibn Əl-Hudeyr haqqında əlavə məlumat üçün bax:
1. Əl Buxari və Müslim, («Səhabələrin fəzilətləri»);
2. «Cəmiə Əl-Üsul», 9/378;
3. «Əl-Təbəqat», İbn Sad, 3/603;
4. «Təhzib əl-Təhzib» 1/347;
5. «Əsəd əl-Ğabə», 1/92;
6. «Həyat əs-Səhabə», (4-cü fəslin mündəricatına bax);
7. «Əl-Ələm və məraci əhu», 1/330;
8. “Əl-İsabə”, 1/49.

# ABDULLAH İBN ABBAS

*«Həqiqətən, bu igid oğlandır; onun hər şeylə maraqlanan dili və dərrakəli qəlbi var».*
Ömər ibn Əl-Xəttab.

Bu, Allahın rəsulunun ﷺ görkəmli səhabəsi və şöhrəti hər tərəfi bürümğş bir favorit idi.

Yaşına görə o, Peyğəmbərin ﷺ bilavasitə silahdaşı olmalı idi, amma səhabələr dəstəsində olduğu üçün məşhur oldu.

O, Peyğəmbərin ﷺ nəsil-nəcabət xətti üzrə əmisi olduğuna görə məşhur oldu.

O, Məhəmmədin ﷺ ğmmətində ən yüksək müvqe tutan alim və tükənməz elm dəryası kimi məşhurlaşdı. O, məşhur mömin kimi tanındı, çünki gündüzlər oruc tutub, gecələr ibadət edərdi, sübh çağı bağışlanma diləyərdi və Allahdan qorxduğu üçün o qədər ağlayırdı ki, göz yaşları onun yanaqlarında iz qoymuşdu.

Bu, Məhəmmədin ﷺ ğmmətinin ən məşhur ilahiyyatçısı, Allahın kitabını ən yaxşı bilən, onun ən nüfuzlu təfsirçisi, Quranın dərinliklərinə və sirlərinə nüfuz edən ən bəsirətli tədqiqatçısı olub.

* * *

İbn Abbas hicrədən 3 il öncə doğulmuşdu. Peyğəmbər ﷺ öləndə isə onun cəmi 13 yaşı var idi. Onunla belə, o, müsəlmanlar üçün Əl-Buxari və Muslim tərəfindən onların hədis toplusunda qeyd olunmuş Peyğəmbər ﷺ haqqında 1660 hədis qoruyub saxlamışdı.

* * *

Onu, doğulan kimi Peyğəmbərin ﷺ yanına apardılar və uşağın boğazını öz tüpürcəyi ilə islatdı. Sonra isə anası onu yedizdirdi. Beləliklə, ibn Abbasın daxilinə ilk öncə düşən uğurlu peyğəmbərin ﷺ təmiz tüpürcəyi olub. Bununla o, möminliyi və müdrikliyi əldə etmiş oldu. «Kimə müdriklik verilirsə, o böyük xeyrin sahibi olur».

* * *

Oğlan böyüyüb, yeddi yaşına çatanda Allahın Rəsulunun ﷺ ayrılmaz yoldaşı oldu və çəkinmədən onun arxasınca kölgə tək gəzməyə başladı. Peyğəmbər ﷺ dəstəmaz almağa hazırlaşanda, İbn Abbas onun üçün su hazırlayırdı. Peyğəmbər namaz qılanda isə oğlan onun arxasında durub namaz qılırdı. Peyğəmbər ﷺ səfərə çıxdıqda, İbn Abbas onunla gedirdi. Beləliklə, sözün əsil mənasında Peyğəmbərin ﷺ kölgəsi və onun ayrılmaz yoldaşı oldu.

Bütün bunlarla yanaşı, onun şüurlu qəlbi və iti ağlı var idi, bu da ona hər şeyi əla yadda saxlamağa imkan verirdi.

* * *

İbn Abbas özü haqqında delə danışır: «Bir dəfə Allahın Rəsulu ﷺ dəstəmaz almaq istədi. Mən dərhal su hazırladım və o, buna çox sevindi. Namaza başlamamışdan qabaq o, mənə işarə elədi ki, mən onun yanında durum. Lakin mən həmişə olduğu kimi, arxasında dayandım. Namazdan sonra o, mənə tərəf əyilib soruşdu:

– Abdullah, mənim yanımda durmağa sənə nə mane oldu?

Mən cavab verdim:

– Ey peyğəmbər, sən mənim gözümdə o qədər böyük və qüdrətlisən ki, mən sənin yanında dayanmağa layiq deyiləm.

Peyğəmbər ﷺ əllərini göyə qaldırıb dedi:

– Allahım! Ona müdriklik bəxş et!

Allah öz peyğəmbərinin duasını qəbul edib, haşimilər nəslindən olan bu oğlana elə bir müdriklik verdi ki, bunu ən müdrik filosoflar belə yuxularında görməmişdilər.

Şübhəsiz ki, sən Abdullah ibn Abbasın müdrikliyi haqqında təsəvvürü əldə etmək istərdin. Bu da sənin marağını razı salacaq bir gerçək hadisə.

* * *

Bəzi tərəfdarlar Əlidən imtina edib, onu Müaviyə ilə olan ixtilafında köməksiz buraxanda, İbn Abbas Əliyə dedi:

– Ey əmirəlmöminin, icazə ver gedib həmin adamlarla söhbət edim.

Əli dedi:

– Axı mən qorxuram, onlar sənə ziyan vura bilərlər.

Abdullah isə cavab verdi:

– Allah istəsə, bu baş verməz. Mən buna ümid edirəm.

Sonra o, həmin adamların yanına getdi. O, onları ən mömin adamlar kimi tanıyırdı.

Adamlar onu görən kimi qışqırdılar:

– Ey İbn Abbas, səni salamlayırıq... Səni bizim yanımıza gətirən nə olub?!

– Mən sizinlə danışmağa gəlmişəm,– o dedi.

– Onunla danışmayın!–deyə bəziləri qışqırdı.

– Danış, biz səni eşidirik– o biriləri qışqırdı.

– Mənə xəbər veriblər ki, siz Peyğəmbərin ﷺ əmisi oğlu və həmçinin qızının əri olan adamı nədəsə təqsirləndirirsiniz və ondan narazısınız. O, Peyğəmbərə ﷺ iman gətirmiş ilk adam olub. Bu belədir?!–Abdullah soruşdu.

– Biz onun üç işindən narazıyıq – adamlar dedilər.

– Bu nə işlərdir belə?– Abdullah soruşdu.

Onlar cavab verdilər:

– Birincisi, o, Allahın şəriətində insanları hakim təyin etdi[62]..; ikincisi, o, Aişə və Müaviyə ilə müharibə edəndə qənimət almırdı və əsir götürmürdü..; üçüncüsü, o, əmirəlmöminin fəxri adını öz üzərindən götürdü, halbuki müsəlmanlar ona and içib, onu özlərinə rəhbər seçdilər.

Abdullah dedi:

– Yaxşı, bəs əgər mən sizə Allahın Kitabından və Peyğəmbərin ﷺ hədislərindən sizin təkzib edə bilməyəcəyiniz şeylər oxuyub danışsam, siz öz sözlərinizdən və öz fikrinizdn imtina edərsiniz?

– Bəli– deyə onlar cavab verdilər.

Abdullah dedi:

– Onun Allahın şəriətində insanları hakim təyin etməsinə dair sizin iddianız xüsusunda sizi inandırıram ki,Uca Allah buyurur:

**«Ey iman gətirənlər! Ancaq əyninizdə ihram varkən ov ovlamaq halal sayılmaz. Amma sizlərdən onu** (heyvanı)

---

[62] Bu ittihamın məğzi ondan ibarətdir ki, Əli razılıq verdi ki, onun Müaviyə ilə mübahisəsində Əbu Musa Əl-Aşari və Amr ibn Əl-As hökm çıxartsınlar.

**biləršəkdən öldürən olsa, qoy o kəs bunun əvəzinə öldürdüyü heyvana bənzəyən bir dördayaqlı heyvanı –arasında iki ədalətli insanın təyin etdiyi üzrə – qurban gətirsin».** (əl-Maidə, 95)

Sizi and verirm Allaha! İnsanların məhkəməsi harada daha ədalətlidir: insanların qanı, onların həyatı və barışmalarına dair məsələdə, yaxud qiyməti dirhəmin dörddə biri qədər olan bir dovşan xüsusunda?!

- Əlbəttə ki, müsəlmanların qanı və onların barışmalarına dair məsələdə - adamlar cavab verdilər.

- Necədir, birinci işlə qurtardıq?- Abdullah soruşdu.

- Hə, Allaha and içirik - adamlar cavab verdilər.

Abdullah davam etdi.

- Siz deyirsiniz ki, Əli vuruşurdu, lakin qadınları Peyğəmbər ﷺ tək əsir götürmürdü. Məgər siz öz ananız Aişənin əsir götürmək və kənizlərlə rəftar olunduğu kimi onunla rəftar etmək istəyirdniz?! Əgər siz hə desəniz, kafir olarsınız. Əgər siz desəniz ki, Aişə sizin ananız deyli, onda da küfrə düşmüş olarsınız. Uca Allah (Həmd olsun Ona!) buyurub: **«Peyğəmbər möminlərə onların özlərindən daha çox yaxındır. Onun üvrətləri müminlərin analarıdır.»** (əl-Əhzab, 6)

Beləliklə, özünüz üçün istədiynizi seçin.

Sonra o soruşdu:

- Nə oldu, bu iş də bitdi?

- Hə, Allaha and olsun- deyə adamlar cavab verdilər.

Abdullah davam etdi:

- Siz həmçinin dediniz ki, Əli əmirəlmöminin adından imtina etdi. Xatırlatmaq istəyirəm ki, Hüdeybiyyə günü Allahın rəsulu ﷺ bütpərəstlərdən tələb etdi ki, onlar sülh müqaviləsində belə yazsınlar: «Məhəmməd, Allahın rəsulu belə qət edib» Bütpərəstlər isə ona etiraz edərək dedilər: «Əgər biz sənin Allahın Rəsulu olduğuna inansaydıq, səni evdən qovmazdıq və səninlə müharibə etməzdik. Sən yazmalısan: «Məhəmməd ibn Abdullah». Peyğəmbər ﷺ onların tələblərini yerinə yetirdi və dedi: «Allaha an içirəm ki, mən Allahın Rəsuluyam, hətta onlar mənə şər atsalar belə».

Hə necədir, bu işlə də qurtardıq?

Allaha and içirik ki, hə! – adamlar cavab verdilər.

Bu görüşün, onun gedişatı zamanı Abdullah ibn Abbasın göstərdiyi müdrikliyin və onun tapdığı təkzibedilməz sübutların nəticəsi iyirmi min insanın yenidən Əlinin tərəfdarları sıralarına keçməsi oldu. Qalan dörd min isə Əliyə qarşı öz düşmənçiliyində və yanılmalarında israrlı olmağa davam edirdilər.

* * *

Cavan Abdullah ibn Abbas özünün biliklərə can atması yolunda hər imkanı istifadə edirdi və bunun üçün də böyük səylər göstərirdi. Hələ ki, Allahın Rəsulu ﷺ sağ idi, ibn Abbas bilikləri bu bitməz-tükənməz çeşmədən alırdı. Nəcib Rəsul ﷺ Allahın qarşısında durduqdan sonra, Abdullah bilik axtarışında ikən daha çox bilən səhabələrə müraciət edib, onların yanında inadkarlıqla oxuyub öyrənirdi.

O özü barədə belə danışırdı:

– Mən biləndə ki, Allahın Rəsulunun ﷺ səhabələrindən kimsə yeni hədis danışır, günorta yuxusu zamanı həmin adamın evinin qapısı önünə gəlib, astanası qarşısında öz geyimimi sərirdim, külək isə üstümə bolluca qum və toz səpirdi. Mən evə girmək üçün icazə alsaydım, məni içəri buraxardılar, lakin mən qəlbimi rahatlamaq üçün belə edirdim.

Evdən çıxan sahib, mən bu vəziyyətdə ikən, üstümə çığırdı və soruşurdu: «Ey Allahın Rəsulunun əmisi oğlu, səni bura nə gətirib? Əgər sən mənim dalımca bir kəsi göndərsəydin, özüm yanına gələrdim». Mən isə cavab verirdim: «Mən sənin yanına gələndə, daha ədalətli olur. Elm və biliklər özləri gəlmir, onlara can atmaq lazımdır».

Sonradan mən hədis barədə soruşurdum...

* * *

İbn Abbas özünü bilik axtarışında nə dərəcədə alçaldırdısa, alimləri o dərəcə yüksəldirdi.

Quran katibi, Mədinənin mühakimə üsulu, islam hüququ, quran

qiraəti və varislik işləri üzrə ən böyük mütəxəssisi Zeyd ibn Sabit, yola hazırlaşarkən minik heyvanının belinə dırmaşanda, haşimi oğlan Abdullah ibn Abbas onun qabağında nökər kimi durub üzəngini və yedəklərini tuturdu.

Zeyd ona dedi:

- Ey Peyğəmbərin əmisi oğlu, sən bunu etməyə məcbur deyilsən.

İbn Abbas isə etiraz etdi:

- Bizə alimlərlə belə rəftar etmək əmr olunub.

- Öz əlini mənə göstər- deyə Zeyd ondan xahiş etdi.

İbn Abbas öz əlini ona uzadanda, Zeyd əyildi və İbn Abbasın əlini öpüb dedi:

- Bizə isə Peyğəmbərimizin ﷺ nəslinin üzvləri ilə belə rəftar etmək əmr olunub.

* * *

Beləcə, İbn Abas inadla və fasiləsiz olaraq öyrənməyə davam edirdi. O, dərin və həcmli biliklər əldə etdi.

Allahın Rəsulunun ﷺ görkəmli davamçısı Məsruq ibn Əl-Əcdəə onun haqqında belə danışırdı:

- Mən ibn Abbası görəndə deyirdim: «Bu ən yaxşı insandır». Onun nitqini eşidəndə, deyirdim: «Bu ən gözəl natiqdir». Onunla söhbət etdikdən sonra isə deyirdim: «Bu ən savadlı və təcrübəli adamdır».

* * *

O, əldə etmək istədiyi bilikləri alan kimi müəllim olub, insanları öyrətməyə başladı.

Onun evi müsəlman universitetinə döndü. Bəli, məhz universitetə, sözün əsil mənasında, biz indiki vaxtda bunu anladığımz kimi.

İbn Abbasın universiteti və bizim universitetlərimiz arasında olan yeganə fərq ondan ibarətdir ki, müasir universitetlərdə onlarla, hətta hərdən yüzlərlə professor var. İbn Abbasın universiteti isə bir professorun, yəni İbn Abasın səyləri sayəsində yaradılmışdır.

Onun yoldaşlarından biri danışırdı:

– İbn Abbasın simasında mən bütün şuranı görürdüm. Əgər bütün qureyşlilər bununla fəxr etsəydilər, o, həqiqi fəxr obyektinə çevrilərdi.

Mən görürdüm ki, onun evinə aparan yollarda izdiham şəklində gedirdilər. Onlar o qədər çox idilər ki, yollarda əsil basabas və tıxaclar əmələ gəlirdi.

Bir dəfə mən onun yanına gəlib dedim ki, onun evinin qapıları önündə çoxlu adam yığılıb. Bunun cavabında o, mənə dedi:

– Mənə dəstəmaz üçün su ver.

O, dəstəmaz alıb oturdu və mənə dedi:

– Küçəyə çıxıb, onlara de: «Kim Quran və onun mənasına dair sual vermək istəyir, qoy içəri girsin». Mən çıxdım və onun sözlərini adamlara çatdırdım. Daxil olanlar İbn Abasın evini və onun öz otağını doldurdular. Onlar nə sual verirdilərsə, hamısının tam cavabını alırdılar. Bundan əlavə, onun cavabları verilən sualda əmələ gələn problemi daha geniş əhatə edirdi. Sonra İbn Abbas onlara deyirdi:

– İndi isə öz qardaşlarınıza imkan verin.

Bundan sonra onlar gedirdilər. O, mənə deyirdi:

– Çıx və onlara de: «Vacib göstərişlər barəsində sual vermək istəyənlər girsinlər».

Mən evdən çıxıb xalqa ibn Abbasın sözlərini çatdırdım. Ev yenidən başqa insanlarala dolurdu və o, onların bütün suallarına bütöv cavab verirdi və əmələ gəlmiş problemin çərçivələrini daha da genişləndirirdi. Sonra ibn Abbas dinləyicilərə deyirdi: «İndi isə öz qardaşlarınıza imkan verin». Bundan sonra insanlar dağılışırdılar və o, mənə deyirdi:

– Çıx və onlara de: «Qoy ərəb dili, poeziya və ərəb ədəbiyyatı, dilşünaslığı, ğslubu üzrə sual vermək istəyən girsin». Ev yenidən insanlarla dolurdu və ibn Abbas onların bütün suallarına dolğun cavablar verirdi.

Hekayətçi yenə davam edirdi: «Əgər bütün qureyşlilər onunla fəxr etsəydilər, bu onlara şöhrət gətirərdi».

* * *

İbn Abbas bütün elmləri həftənin günləri üzrə bölüşdürdü ki, onu evinin qapıları önündə bir daha belə həngamə olmasın.

Həftənin bir gününü o yalnız Quran təfsirinə həsr edirdi. O biri günü ibn Abbas fiqhə (müsəlman hüququna) həsr etmişdi. Üçüncü gün məşğələlər yalnız poeziya üzrə keçirilirdi. Bir gün Allahın Rəsulunun ﷺ hərbi yürüşlərinə həsr olunurdu. Bir gün də ərəblərin tarixinin öyrədilməsi üçün nəzərdə tutulmuşdur.

Elmi mübahisədə ibn Abbas yanına gələn hər bir alimin üzərində qələbə çalırdı. Ona verilən hər bir suala, o, həmişə dolğun cavab verirdi.

* * *

Öz bilikləri və hər bir işin məğzini dərin dərketmə qabiliyyəti sayəsində, ibn Abbas öz cavanlığına baxmayaraq mömin xəlifələrin məsləhətçisi oldu.

Əgər Ömər ibn Əl-Xəttaba dolaşıq br sual çatdırırdılar və yaxud o, çətin bir probelmlə qarşılaşırdı, onda o, Peyğəmbərin ﷺ səhabələrindən ibarət şeyxlər şurasını toplayırdı. Şurada mütləq Abdullah ibn Abbas iştirak edirdi. Burada xəlifə ibn Abbası ən hündür və şərəfli yerdə oturdub, ona deyərdi: «Bu iş bizim üçün çox çətin oldu. Yalnız sən bunu və buna bənzər qeyri-sualları həll edə bilərsən».

Bir dəfə xəlifəni məzəmmət etdilər ki, o, İbn Abbası açıq-aşkar hamıdan seçir, onu şeyxlərin yanında otuzdurur, halbuki o, yaşca onlardan çox cavandır. Buna cavab olaraq Ömər dedi: «Həqiqətən bu igid oğlandır, onun hər şeylə maraqlanan dili və dərrakəli ürəyi var».

* * *

İbn Abbas insanların bir hissəsini ciddiyyətlə təlim etməyə başladıqda, qalanlarının qarşısında olan borcunu da unutmurdu. Bütün istəyənlər üçün o, xüsusi məclislər keçirib, orada moizə oxuyub, öyüd-nəsihət verirdi. O, öz xütbəsi zamanı günah işləmiş insanlara müraciət edərək deyirdi:

– Ey gunah işləmiş kəs! Ümid etmə ki, bu nəticəsiz keçəcək. Günahın ardınca gələn günahdan daha pisdir. Əgər sən günah

etdiyin zaman sağında və solunda duranlardan utanmırsansa, bu günahın özündən də təhlükəlidir.

Əgər sən günah zamanı gülürsən və anlamırsan, Allah səninlə nə edir, bu günahdan da pisdir.

Əgər sən günah işlədikdən sonra sevinirsənsə, bu günahın özündən də pisdir.

Əgər sən günah edə bilmədiyinə görə üzüldünsə, bu hiss günahdan da pisdir.

Əgər sən günah işlədiyin vaxt küləyin əsməyindən diksinirsən, amma eyni zamanda Allahın sənə baxdığı halda ürəyin sakitdirsə, sən daha da böyük günah işlədirsən!

Ey günah işləmiş şəxs!

Bilirsənmi, Eyyubun günahı nə idi, Allah ona bədbəxtlik göndərəndə və onun var-dövlətini əlindən alanda? Onun günahı ondan ibarət idi ki, məzlum və kasıb bir insan Eyyubdan xahiş edəndə ki, onu zülmdən qurtarsın, Eyyub ona rədd cavabı verdi.

* * *

İbn Abbas vəd verib, vədləri yerinə yetirməyə və özlərinə icazə verdiklərini başqalarına qadağan edən adamlardan deyildir. O, gündüz oruc tutub, gecələr namaz qılanlardan idi.

Abdullah ibn Muleykə onun haqqında danışırdı:

- Bir dəfə İbn Abbas Məkədən Mədinəyə gedəndə mən onu müşayiət edirdim. Biz yolda ikən bir evdə gecələməli olduq. O gecə mən gördüm ki, o, oxuyur: **«Ülüm həqiqətən gəlir. Bu sənin qorxub qaçdığın şeydir».** (Qaf, 19) O, ağlaya- ağlaya, bu ayəni səhər açılanadək təkrarlayırdı.

Danışılanlar kifayət edər ki, biz Abdullah ibn Abbasın nə qədər gözəl və yüksək mənəviyyatlı insan olduğunu anlayaq. O, Allahdan qorxaraq, bütün gecə boyu elə ağlayırdı ki, onun göz yaşları yanaqlarında dərin izlər qoymuşdu.

* * *

İbn Abbas öz alim şöhrətinin ən yüksək nöqtəsinə çatmışdı.

Bir dəfə xəlifə Müaviyə ibn Əbu Süfyan Həccə getmək üçün yola düşdü. Həmçinin Abdullah ibn Abbas da Həccə getməyə hazırlaşdı.

Müaviyəni yolda dövlət adamlarından ibarət bir dəstə müşayiət edirdi.

Abdullah ibn Abbası müşayiət edən dəstə daha böyük idi və elm axtaran tələbələrindən ibarət idi.

* * *

İbn Abbas yetmiş bir il yaşadı. Bu illər ərzində o, bizim dünyamızda elm, biliklər, müdriklik və möminlik mənbəyi olmuşdur. O, vəfat edəndə, onun cənazə namazını Məhəmməd ibn Əl-Hənəfiyyə qılmışdır.[63]

Onun ölümündən sonra Allahın Rəsulunun ﷺ səhabələrindən və onun müasirlərindən olan tərəfdarlardan lap az qalmışdır.

Onlar İbn Abbası son mənzilə yola salanda, qiraətçinin səsini eşitdilər. O deyirdi:

**«Ey xatircəm olan kəs! Dün Rəbbinə, sən Ondan razı olaraq, o da səndən! Bəndələrimin zğmrəsinə daxil ol! Cənnətimə varid ol!»**[64] (əl-Fəcr, 27-30)

* * *

---

[63] Məhəmməd ibn Əl-Hənəfiyyə: Məhəmməd ibn Əli ibn Əbu Talib. Hənəfiyyə soyadını o, öz anasından, onu Həsən və Hüseyndən ayırd etmək üçün almışdır. Onların anası peyğəmbər ﷺ qızı Fatimə, Məhəmmədin anası isə Hənəfiyyə qəbiləsindən bir qadın olub.

[64] Abdullah ibn Abbas haqqında əlavə məlumat üçün bax:

1. «Cəmiə Əl-Üsul», 2-ci hissə, «Səhabəlrin fəzilətləri» fəsli;
2. «Əl-İsabə», 2/330;
3. «Əl-İstiəb», 2/350;
4. «Əsəd əl-Ğabə», 3/192;
5. «Sifət əl-Saəfva», 1/746;
6. «Həyat əs-Səhabə» (4-cü fəslin mündaricatına bax);
7. «Əl-Ələm və Muraciəhu».

# ƏL-NOMAN İBN MUQARRİN ƏL-MUZANİ

*«Həqiqətən, imanın evləri var və münafiqliyin də evləri var. Bəni Muqarrin evi isə imanın evlərindəndir».*
Abdullah ibn Məsud.

Muzeyn qəbiləsi Yəsrib yaxınlığında Mədinə ilə Məkkəni birləşdirən yol üstündə yaşayırdı.

Allahın rəsulu ﷺ Mədinəyə köçəndə, Muzeyn qəbiləsinin adamları onun haqqında xəbərləri Mədinəyə gedən və oradan qayıdan yolçulardan alırdılar. Peyğəmbər ﷺ haqqındakı bütün xəbərlər xoş idi.

Bir axşam əl-Muzeyn qəbiləsinin başzısı Əl-Noman ibn Muqarrin üz qəbiləsinin şeyxləri və qardaşları arasında oturmuşdu. O, onlara dedi:

- Ey insanlar! Allaha and içirəm ki, biz Məhəmməd haqqında xeyirxahlıqdan başqa heç nə bilmirik. Biz onun çağırışında rəhmdillik, əl tutma və ədalətdən başqa bir şey eşitməmişik. İnsanlar izdiham şəklində ona qoşulduğu halda biz niyə yubanırıq?

Sonra o dedi:

- Mənə qaldıqda isə, mən qərara gəlmişəm ki, sabah onun yanına gedim. Mənə qoşulmaq istəyənlər, sübh çağı yola düşməyə hazır olmalıdırlar.

Görünür, Əl-Nomanın sözləri insanların qəlblərinə toxundu. Səhər açılmağa başlayanda Əl-Noman özğnğn on qardaşını və Muzeyn qəbiləsindən dörd yüz atlını Yəsribə, Peyğəmbərlə ﷺ görüşə getmək üçün və Allahın dininə keçmək üçün hazır olduqlarını gördü.

Əl-Noman bu qədər insanla Peyğəmbərin ﷺ və müsəlmanların yanına əliboş gedəcəyindən özünü narahat hiss edirdi. Lakin bu il baş vermiş quraqlıq Muzeyn qəbiləsinin bütün məhsulunu məhv etmişdir.

Özünün və qardaşlarının evini axtarıb gəzəndən sonra, Əl-Noman quraqlığın insanlar üçün saxladığı cüzi nemətləri toplayıb, onları Allahın rəsuluna ﷺ aparıb bağışladı. Bundan sonra o, öz

yoldaşlarıyla birlikdə elan etdi ki, onlar islamı qəbul edirlər.

* * *

Bütün Yəsrib, Əl-Noman və onun yoldaşları haqqında şad xəbəri eşidən kimi şad oldu. İş ondadır ki, indiyədək heç bir ərəb tayfası islam dinini belə hamılıqla qəbul etməmişdi. İlk dəfə idi ki, bir atadan olan on bir oğul və onlarla birlikdə död yüz atlı müsəlman oldu.

Əl-Noman islamı qəbul edəndə, nəcib Peyğəmbər ﷺ də çox sevindi. Uca və Qüdrətli Allah onun hədiyyələrini qəbul edib, bu haqda Quran ayəsini nazil etdi: **«Və köçəri ərəblər arasında elələri var ki, onlar Allaha və Qiyamət gününə inanırlar və öz ianələrinə Allaha yaxınlaşmaq və Peyğəmbərin xeyir-duasını almaq üçün bir vasitə kimi baxırlar. Bəli! Həqiqətən, bu onlar üçün Tanrıya yaxınlaşmaq üçün vasitədir. Allah onları Öz rəhmətinə qəbul etməyə yubanmaz. Həqiqətən, Allah Bağışlayan və Rəhimlidir!»** (ət-Tüvbə, 99)

* * *

Əl-Noman, Allahın Rəsulunun ﷺ bayrağı altında durub, onun bütün hərbi yürüşlərində heç bir qətiyyətsizlik və tərəddüd keçirtmədən iştirak edirdi.

Əs-Siddiq xəlifə olanda, Əl-Noman Muzeyn qəbiləsindən olan adamlarla birgə qətiyyətlə onun tərəfində durdu, bu da mürtədlərin qiyamının ləğv edilməsinə böyük təsir göstərdi.

* * *

Xəlifəlik Əl-Faruqa keçəndə isə Əl-Noman onun zamanında elə mühüm rol oynadı ki tarix daima bu haqda ən gözəl tərzdə və böyük minnətdarlıqla danışır.

* * *

Qadisiyyə döyüşündən qabaq müsəlman qoşunlarının koman-

danı Sad ibn Əbu Vaqqas Xosrov Yəzdəgirdin yanına, onu sülhə dəvət etmək məqsədilə başda Əl-Noman ibn Muqarrin olmaqla nümayəndə heyəti göndərdi.

Farsların dövlətinin paytaxtı olan Əl-Mədəinə çatan müsəlmanlar Xosrovun onları qəbul etməyi xahiş etdilər. Müsəlmanların nümayəndə heyəti Xosrovun yanına gələndə, o, tərcüməzini çağırıb ona dedi:

- Onlardan soruş: «Siz bizim torpağımıza gətirən nə olub və siz niyə bizə qarşı müharibəyə başladınız? Yəqin siz bunu çox istədiniz və bizə hücum etməyə cəsarət etdiniz, çünki bizim diqqətimiz sizdən yayındı və biz sizinlə müharibə etmək istəmədik».

Əl-Noman ibn Muqarrin öz yoldaşlarına üzünü çevirib dedi: «Əgər etiraz etmirsinizsə, mən sizin adınızdan cavab verə bilərəm. Yox əgər kimsə özü danışmaq istəyirsə, mən etiraz etmirəm. Qoy birinci o danışsın». Onlar dedilər: «Yox, sən danış». Sonra onlar Xosrova müraciət edib dedilər: «Bizim adımızdan bu adam danışacaq. Onun dediyinə qulaq as». Əl-Noman, Allaha həmd və minnətdarlıq etdikdən sonra dedi:

- Allahın bizə yazığı gəldi və o, bizə xeyirxahlığa yol göstərən və yaxşılıq etməyi əmr edən Peyğəmbər göndərdi. O, bizə şərin nə olduğunu göstərir və bunu bizə qadağan edir. O, deyib ki, əgər biz onun dəvətini qəbul etsək, Allah bizə bu və o biri dünyada mükafat verəcək. Budur, lap az vaxt keçdi ki, Allah bizim darlığımızı genişliklə, bizim alçalmamızı – ucalıqla, bizim düşmənçiliyimizi isə qardaşlıqla və rəhmdilliklə dəyişdi.

O, bizə əmr etdi ki, insanları xeyr gətirən şeyə dəvət edək, həmçinin birinci qonşularımızdan başlamağı əmr etdi.

Biz sizi yaxşını daha da yaxşı edən və insanları buna sövq edən dinimizi qəbul etməyə çağırırıq. Bu din bütün şəri üzə çıxarır və ondan çəkindirir. O, möminləri allahsızlıq zülmündən və onun özbaşınalığından həqiqi dinin nuruna və onun ədalətinə gətirib çıxarır.

Əgər siz islamı qəbul etməyə razı olsanız, biz sizin üçün Allahın Kitabını qoyacağıq ki, siz ona uyğun yaşayasınız və öz işlərinizi onun göstərişlərinə uyğun olaraq həll edəsiniz. Onda biz geri çəkilərik və sizinlə vuruşmarıq.

Əgər siz Allahın dinini qəbul etməkdən imtina etsəniz, biz sizdən cizyə alıb, sizi qoruyarıq. Əgər siz cizyə verməkdən imtina etsəniz, biz sizinlə müharibə edəcəyik.

Yəzdəgird bu nitqi eşidib çox qəzəbləndi və dedi:

– Həqiqətən, mən bütün yer üzərində sizdən abırsız millət görməmişəm. Heç bir yerdən sizdən daha xırda ayrılmış və yoxsul xalq yoxdur. Bizim canişinlər sərhəd vilayətlərdə sizin millətlə məşğul olurdular və sizi bizə tabe olmağa məcbur edirdilər.

Bir az sakitləşəndən sonra o dedi:

– Əgər sizi bizə qarşı çıxmağa məcbur edən ehtiyacdırsa, biz sizin adamlarınız üçün ərzaq verməyi əmr edərik, sizin başçılarınızı və tanınmış adamları yaxşı geyindirərik və sizin ürəyinizdə sizinlə mülayim rəftar edən öz hökmdarımızı təyin edərik.

Nümayəndələrdən birinin cavabı Xosrovda yenidən qəzəb oyatdı və o qışqırdı:

– Heyf ki, elçiləri öldürmək olmaz, yoxsa mən sizi öldürərdim!. Gedin burdan, sizin burada daha işiniz yoxdur! Öz başçınıza çatdırın ki, mən onun qarşısına sərkərdəm Rüstəmi göndərirəm ki, o, onu və sizi Qadisiyyə xəndəyində basdırsın.

Hökmdarın əmri ilə bir torba torpaq gətirdilər. O, öz adamlarına dedi: «Bunu onların içində ən tanınmışın belinə qoyun və onu beləcə, hamının gözü önündə mənim dövlətimin paytaxtının qapılarından çıxanadək aparın». Saray adamları nümayəndələrə müraciət etdilər:

– Sizdə ən tanınmış kimdir?

Birinci olaraq, Asim ibn Ömər hay verdi. Yükü onun belinə qoyub, Əl-Mədəinin qapıları arxasına çıxartdılar. Orada o, torpaq torpasını öz dəvəsinin belinə qoyub, onu Sad ibn Əbu Vaqqasa çatdırdı. Bununla o, öz komandanına Allahın farslar ölkəsini müsəlmanların üzünə açıq edəcəyi və müsəlmanlara onların üzərində hakimiyyət verəcəyi haqqında xəbər gətirdi.

Sonra Qadisiyyə döyüşü baş verdi və xəndək minlərlə cəsədlə doldu. Lakin bütün bu öldürülənlən müsəlman döyüşçüləri deyil, Xosrovun əsgərləri idi.

* * *

Farslar, Qadisiyyədə məğlubiyyətə uğradıqdan sonra, bununla barışmadılar. Onlar bütün gücünü yığıb, öz ordularını topladılar və onların sayı yüz əlli minə çatdı.

Onların qoşunlarının belə çoxsaylı olmaları haqqında xəbərlər Əl-Faruqa çatdıqda, o, özü bu qorxunc təhlükəyə qarşı yürüşə çıxmağı qət etdi. Lakin müsəlmanlardan olan sanballı adamlar onu bu fikirdən daşındırdılar və xəlifəyə bu ciddi məsələnin öhdəsindən gələ biləcək mötəbər bir komandanı ordu başçısı təyin etməyi məsləhət gördülər.

Ömər dedi:

– Mənə bunu bacaran birini göstərin.

Adamlar dedilər:

– Ey əmirəlmöminin, öz komandalarını özün hamıdan yaxşı tanıyırsan.

Ömər dedi:

– Allaha and içirəm ki, mən müsəlman ordusuna başçılıq etməyə elə bir adam təyin edəcəyəm ki, o, iki ordu görüşəndə, cəld və qəti hərəkət edəcək. Bu adam Əl-Noman ibn Muqarrin Əl-Muzanidir.

– Hə, bu məhz o adamdır, hamı razılaşdı.

Ömər ona məktub yazdı. Orada deyilirdi:

«Deməк belə, mənə xəbər verdilər ki, kafirlərin qoşunlarının böyük dəstələri Nahavənd şəhərinin ətrafında toplaşıblar. Bu məktubu alan kimi, dərhal Allahın əmri ilə hazırlaşıb, Onun köməyi və dəstəyi ilə qoşunlarla birgə yürüşə çıx. Yürüş zamanı çətin yollardan istifadə etmə ki, qoşunlar yorulmasın. Mənim üçün hər bir müsəlmanın həyatı yüz min dinardan daha bahadır. Salam olsun sənə».

* * *

Əl-Noman öz ordusu ilə düşmənə tərəf can atdı. Yolun kəşfiyyatı üçün o, irəliyə atlı dəstələr yolladı. Atlılar Nahavəndə yaxınlaşanda, onların atları qəfil dayandı. Atlılar atları tələsdirməyə başladılar, lakin heyvanlar yerlərindən tərpənmədilər. Atlılar işin nə yerdə olduğunu aydınlaşdırmaq üçün yerə enəndə, məlum oldu ki, onların dırnaqlarına mismar başlıqlarına oxşayan dəmir qırıntılar batıb. Atlılar yerə baxıb gördülər ki, farslar Nahavəndə gedən yola

belə dəmir tikanlar səpirlər ki, müsəlmanların atlılarının və süvarilərinin şəhər yaxınlaşmasına mane olsunlar.

* * *

Atlılar, Əl-Nomana bu haqda xəbər verib, ondan nə edəcəkləri barədə məsləhət aldılar. Əl-Noman onlara yerlərində qalmağı, gecə isə tonqallar yandırmağı əmr etdi. Düşmən bunu görməli idi. Döyüşçülər tonqalların verdiyi işıqda özlərini elə aparmalı idilər ki, guya düşməndən və məğlub olmaqdan qorxurlar. Bununla onlar düşməni onlara qarşı hücuma keçməyə və yerə tökdükləri dəmir tikanları yığmağa məcbur etməli idilər.

Bu hiylə alındı və müsəlman avanqardın qarışıq şəkildə geri çəkildiyini görən farslar, adamlarını yolları təmizləməyə göndərdilər. Müsəlmanlar gözlənilmədən onlara hücum edib şəhərə gedən yolları zəbt etdilər.

* * *

Əl-Noman ibn Muqarrin öz ordusu ilə birgə Nahavəndin ətrafında düşərgə salıb, düşməni öz hücumu ilə qabaqlamağı qət etdi. O, öz əsgərlərinə dedi: «Mən üç dəfə «Allahu əkbər» deyəcəyəm. Mən bunu birinci dəfə deyəndə, qoy hələ hazır olmayan hazırlaşsın. Mən bunu ikinci dəfə deyəndə, qoy hər kəs öz şəxsi silahını üzərində bərkitsin. Mən üçüncü dəfə «Allahu əkbər» deyəndə, bu hücuma bir işarə olacaq. Mən irəli gedəcəyəm, siz də arxamca gəlin».

* * *

Əl-Noman ibn Muqarrin üç dəfə «Allahu əkbər» dedi və vəhşi aslan kimi düşmənlərin üstünə cumdu. Müsəlman döyüşçülər coşan sel tək onun arxasınca can atdılar. Bu iki ordu arasında çox şiddətli döyüş baş verdi.

Farsların ordusu ayrı-ayrı hissələrə bölünmüşdü. Təpələr və düzlər farsların cəsədləri ilə örtülmüşdür, onların qanı isə sel kimi

axırdı. Onların qanının üzərində sürüşmüş Əl-Nomanın atı yıxıldı, Əl-Noman özü isə ölümcül zədə aldı. Onun qardaşı Əl-Nomanın əlindən düşmüş müsəlman bayrağını dərhal qaldırdı, onun bədənini isə paltarla örtdü ki, müsəlmanlardan onun həlak olduğunu gizlətsin.

Müsəlmanlar, tarixə «fəthlərin fəthi» adıyla daxil olan bu parlaq qələbəni çalanda, hamı öz qəhrəman komandanı Əl-Noman ibn Muqarrin barədə soruşmağa başladılar...əl-Nomanın qardaşı, onun bədənin üzərindən paltarı qaldırıb dedi:

– Budur sizin əmir! Allah onu qələbə ilə xoşbəxt edib, həyatını şəhid ölümü ilə bitirdi.
[65]

* * *

[65] Əl-Noman ibn Muqarrin haqqında əlavə məlumat üçün bax:
1. «Əl-İsabə», 3/563;
2. «İbn Əl-Əsir», 2/211 və 3/7;
3. «Tahzib Əl-Tahzib», 10/456;
4. «Futuh Əl-Buldan» 311-ci səh;
5. «Şərh əlfiyyə», 3/76;
6. «Əl-Ələm», 9/9;
7. «Əl-Qadasiyyə», 66-73-cü səh., «Əl-Nəfəis» nəşr., Beyrut.

# SUHEYB ƏR-RUMİ

*«Sövdələşmə əlverişli idi, ey Əbu Yəhya,*
*sövdələşmə əlverişli idi».*
Məhəmməd, Allahın rəsulu.

Suheyb ər-Rumi...

Ey müsəlmanlar, bizlərdən Suheyb ər-Rumi ilə kim tanış deyil və onun tərcümeyi halından heç olmazsa bir hissəsini və onun başına gələn hadisələrdən bir şey bilmir?!.

Lakin çoxlarına məlum deyil ki, Suheyb heç də bizanslı olmayıb. O, əslən ərəb olub. Onun atası Bəni Humeyr, anası isə Bəni Təmim qəbiləsindən olub.

Suheybin bizanslılara aid edilməsinin uzun tarixi var və bu tarix bir çox sanballı əsərlərdə ifadə edilir.

Peyğəmbər ﷺ öz dəvəti ilə çıxış etməzdən iyirmi il əvvəl, qədim şəhər olan Əl-Əbullanı, İran hökmdarı tərəfindən təyin olunan Sinan ibn Malik Əl-Numeyri idarə edirdi.

Onun uşaqlarının arasında ən sevimlisi beşyaşlı oğlu Suheyb idi.

* * *

Suheybin ifadəli sifəti, kürən saçları və oynaq gözləri var idi. O, coşğun fəaliyyəti ilə seçilirdi. Şən və adamayovuşan bir uşaq idi. Onun təmiz və incə qəlbi atasının ürəyinə sevinc verərək, onu gündəlik qayğıların yükündən azad edirdi.

* * *

Bir gün Suheybin anası balaca oğlu ilə birlikdə, öz nökərlərinin və yaxınlarının müşayiəti ilə istirahət üçün İraqda yerləşən Əl-Saniy kəndinə yola düşdü. Bu vaxt bizans qoşunlarından bir bölmə həmin kəndə hücum etdi. Müdafiəçiləri tələf edən bizanslılar kəndi soyub, onun sakinlərini, o cümlədən Suheybi də əsir götürdülər.

* * *

Suheyb Bizansın qul bazarlarının birində satıldı. O vaxtdan o, əldən-ələ keçib, müxtəlif ağalara xidmət edirdi. Onun da taleyi Bizans saraylarını dolduran başqa quların taleyi kimi idi.

* * *

Bu həyat tərzi Suheybə imkan verdi ki, o, Bizans cəmiyyətinin dərinliklərinə nüfuz edərək, onu daxildən, bütün təfərrüatı ilə öyrənsin. O, öz gözü ilə Bizans saraylarının necə dəhşətli günahlar və eyblər yuvaları olduğunu gördü. O, öz qulağı ilə çox çirkin və eybəcək şeylər eşidirdi və bütün bunlar onu bu cəmiyyətə nifrət etməyə vadar etdi. O, özü-özünə deyirdi: «Belə bir cəmiyyəti yalnız tufan təmizləyə bilər».

* * *

Suheybin Bizansda böyüməsinə, onun sakinləri arasında və onun torpağında boya-başa çatmasına və ərəb dilini tamamilə unutmasına baxmayaraq, o, həmişə ərəb olduğunu və səhradan çıxdığını xatırlayırdı.

* * *

Onun Vətən həsrəti, o, köləlikdən azad olanadək və öz xalqının yanına qayıdanadək davam etdi.

Xaçpərəst falçılardan biri Suheybin sahibinə belə sözlər demişdir:

- Ərəbistan yarımadasında, Məkkədə, İsa ibn Məryəmin vəzifəsini təsdiqləyəcək və insanları zülmətdən işığa çıxaracaq bir peyğəmbərin peyda olması vaxtı gəlib çıxıb.

Suheyb bu sözləri eşidəndən sonra onun Vətən həsrəti daha da artdı.

* * *

Suheybin əlinə imkan düşən kimi, o, öz sahibindən qaçıb,

şəhərlər Anası, ərəblərin torpağının və gözlənilən peyğəmbərin peyda olacaq yerin mərkəzi –Məkkə şəhərinə tərəf yola düşdü.

Suheyb Məkkədə məskunlaşdı və orada müəyyən bir vaxt yaşadı. Yerli sakinlər onun çox güclü xarici tələffüz tərzinə və kürən saçlarına görə onu Suheyb ər-Rumi (yəni bizanslı Suheyb) adlandırdılar.

* * *

Suheyb, Məkkənin başçılarından biri olan Abdullah ibn Cudanla müqavilə bağlayıb, ticarətlə məşğul olmağa başladı və bu da ona böyük gəlir və çoxlu var-dövlət gətirdi. Amma müvəffəqiyyətli ticarət işləri və böyük gəlirlər Suheybi o xaçpərəst falçının sözlərini unutmağa məcbur edə bilmədi. Hər dəfə o sözlər onun yadına düşəndə o, özü-özündən səbirsizliklə soruşurdu:

- Bəs bu nə vaxt baş verəcək?!

Bu sualın cavabını almaq üçünsə lap az vaxt qalmışdı.

* * *

Günlərin bir günü Suheyb öz növbəti səfərindən Məkkəyə qayıdanda, ona xəbər verdilər ki, Məhəmməd ibn Abdullah missiya ilə göndərilib və insanları tək Allaha inanmağa, ədalətə və xeyir işlərə çağırır, insanlara böyük və kiçik günahları qadağan edir.

Suheyb soruşdu:

- Bu sizin Əmin adlandırığınız insan deyilmi?

- Bəli, bu məhz odur- ona cavab verdilər.

- Bəs o harada yaşayır? – Suheyb soruşdu.

Ona cavab verdilər:

- O Safə dağının ətəyində yerləşən Əl-Ərqam ibn Əbu Əl-Ərqamın evində yaşayır. Amma ehtiyatlı ol ki, qureyşlilərdən kimsə səni görməsin, çünki əgər onlar səni orada görsələr, sənə xətər yetirərlər. Sən burada özgə adamsan, sənin milliyyətin də səni qorumaz. Sənin burada heç qohumların da yoxdur ki, sənə kömək edə bilsinlər.

* * *

Suheyb, ehtiyatlı olaraq və tez-tez geriyə baxaraq Əl-Ərqamın evinə doğru getdi. Evin qapısı önündə o, əvvəllər tanıdığı Əmmar ibn Yasiri gördü. Bir an tərədüd edən Suheyb ona yaxınlaşıb soruşdu:

- Əmmar, sənə burada nə lazımdır?

Əmmar isə öz növbəsində ondan soruşdu:

- Bəs sənə?

Suheyb dedi:

- Mən bu evə girib, bu adamla görüşüb, onun dediklərini dinləmək istəyirəm.

- Mən də məhz bunu istəyirəm- Əmmar cavab verdi.

- Onda gəl Allahın xeyir-duası ilə girək- Suheyb təklif etdi.

* * *

Əmmarla birgə Peyğəmbərin ﷺ yanına daxil olan Suheyb ibn Sinan ər-Rumi ona diqqətlə qulaq asdı. Peyğəmbərin ﷺ sözləri onların qəlblərində iman nurunu yandırdı və onlar ikisi birdən əllərini ona uzadıb, təntənəli surətdə Allahdan başqa tanrı olmadığına və Məhəmmədin Onun qulu və Rəsulu olduğuna şəhadət verdilər. O gündən başlayaraq, onlar daima Peyğəmbəri ﷺ müşayiət edir, onun qonşuluğundan və onun mömin nəsihətlərindən ləzzət alırdılar. Gecə düşəndə və hər şey sakitləşəndə, onlar gecənin qaranlığından istifadə edərək, Peyğəmbərin ﷺ evini tərk etdilər. Lakin onların hər biri öz ürəyində bütün dünyanı işıqlandıra biləcək bir nur aparırdı.

* * *

Suheyb, Bilal, Əmmar, Sumayyə, Xəbbab və başqaları ilə birgə qureyşlilərin əlindən çox təhqirlərə dözdü. Onlarla başqa möminlər kimi o da elə işgəncələrə məruz qalmışdır ki, onlara dözmək çox çətin idi. Lakn bütün bunları o, mərdliklə və könül rahatlığı ilə

qarşıladı, çünki bilirdi ki, cənnətə aparan yol nifrət etdiklərinin öhdəsindən gəlməkdən keçir.

* * *

Allahın Rəsulu ﷺ səhabələrinə Mədinəyə köçməyə icazə verəndə, Suheyb qərara gəldi ki, Peyğəmbəri ﷺ və Əbu Bəkri müşayiət edəcək. Lakin qureyşlilər Suheybin bu qərarından xəbər tutub, ona mane olmaq üçün, hər bir şeyə əl atdılar. Suheybin dalınca hətta xəfiyyələr də nəzarət edirdilər ki, o, qureyşlilərin əlindən qaçıb, ticarətlə məşğul olarkən qazandığı bütün qızıl-gümüşünü apara bilməsin.

* * *

Allahın Rəsulu ﷺ və Əbu Bəkrin hicrətindən sonra Suheyb onlara qoşulmaq üçün imkan axtarırdı, lakin belə imkan heç cür ələ düşmürdü, çünki xəfiyyələr ona ciddi nəzarət edirdilər. Və Suheybə hiylə işlətməkdən başqa bir şey qalmırdı.

Soyuq gecələrin birində Suheyb tez-tez həyətə, guya ayaq-yoluna çıxırdı. Hər dəfə o, evə qayıdan kimi yenə həyətə qaçırdı. Xəfiyyələr bir-birinə baxıb dedilər: «Rahat olun. Əl-Lat və Əl-Uzza onun qarnında iş eləyiblər». Sonradan onlar öz yataqlarına qayıdıb, dərin yuxuya getdilər. Suheyb onların aralarından keçib, Mədinəyə tərəf yola düşdü.

* * *

Tezliklə, Suheyb qaçdıqdan sonra, xəfiyyələr oyanıb, onun aradan çıxdığını bildilər. Onlar dərhal atlarına minib, Suheybin dalınca çapdılar və nəhayət ona çatdılar.

Təqibçilərin yaxınlaşdığını hiss edən Suheyb ucalıqda mövqe tutub, oxqabından oxu götürdü və yay ipini çəkərək dedi:

– Ey qureyşlilər! Allaha and içirəm ki, mən bütün insanlar içində ən dəqiq və ən bacarıqlı oxatanam. Mən əlimdəki oxlardan hərəsi ilə bir adamı öldürməmişdən öncə siz məni tuta bilməzsiniz. Sonra mən sizinlə qılıncımla vuruşacağam.

Təqibçilərdən biri dedi:

– Allaha and içirik ki, biz səni sağ-salamat və əlində pul getməyə qoymarıq. Sən Məkkəyə kasıb dilənçi şəklində gəlmişdin, sonradan isə varlandın və indi əldə etdiklərinə nail oldun.

Suheyb soruşdu:

– Bəs əgər mən sizə öz pullarımı versəm, siz mənə yoluma davam etməyə imkan verəcəksiniz?

– Hə!-deyə onlar cavab verdilər.

* * *

Suheyb onlara Məkkədə pullarını harada saxladığını danışdı. Onlar Məkkəyə qayıdıb, onun pulunu götürəndən sonra onu buraxdılar.

Suheyb Mədinəyə, öz dini ilə Allaha tərəf can atmağa tələsirdi. O, xərclədiyi pullar haqda heç də peşman olmadı. O, yolda hər dəfə yorğunluq hiss edəndə, qəlbində Peyğəmbərə ﷺ qarşı can atma əmələ gəlirdi və o, öz yoluna davam edirdi.

O, Mədinədən iki mil aralıqda yerləşən Quba kəndinə çatanda, onu Peyğəmbər ﷺ gördü. Suheybin sağ-salamat gəlməsinə çox sevinən Peyğəmbər ﷺ dedi:

– Sövdələşmə əlverişli idi, ey Əbu Yəhya, sövdələşmə əlverişli idi...

O, bu sözləri üç dəfə dedi.

Suheybin üzü sevinclə işıqlandı və o dedi:

– Allaha and içirəm, ey Peyğəmbər sənin yanına gələndə məni yolda heç kəs qabaqlamayıb. Bu xəbəri sənə çatdıran Cəbrail olub.

* * *

Həqiqətən də, sövdələşmə əlverişli oldu. Bu, səmadan nazil olan vəhy ilə təsdiqləndi. Buna Cəbrail şahidlik etdi. Peyğəmbərə ﷺ Allahın bu sözləri nazil oldu:

**«Və insanların arasında eləsi ver ki, Allahın rizasını almaq üçün, özünü satmağa hazırdır və Allah öz bəndələrinə qarşı şəfqətlə doludur».** (əl-Bəqərə, 207)

Xoşbəxtdir Suheyb ibn Sinan ər-Rumi və Allah ona rəhmət eləsin!.[66]

* * *

[66] Suheyb ər-Rumi haqqında əlavə məlumat üçün bax:
1. «Əl-İsabə», 2/195;
2. İbn Sadın «Təbəqəti», 3/226;
3. «Əsəd əl-Faba» 3/30;
4. «Əl-İstiəb» 2/174;
5. «Sifət əs-Səfva» 1/169;
6. «Əl-Bidəyyə və əl-Nəhayyə», 7/318-319;
7. «Həyat əs-Səhabə», (4-cü hissənin mündəricatına bax);
8. «Əl-Ələm və məraciəhu».

# ƏBU ƏD-DARDA

*«Bütün dünya Əbu əd-Dardanın müdafiəsinə sinəsini sipər elədi»*
Əbd ər-Rəhman ibn Auf

Xalq arasında Əbu ər-Darda kimi tanınan Uveymir ibn Malik əl-Xəzraci səhər tezdən durub öz bütünün yanına gəldi. O, bütü evin ən layiqli yerinə qoymuşdu. O, bütə dükanındakı ən yaxşı və incə ətirli yağlar çəkdi. Sonra o, bütə, Yəməndən gələn tacirlərdən birinin Əd-Dardaya bağışladığı ən gözəl ipəkdən tikilmiş yeni geyimlər geyindirdi.

Əbu əd-Darda evdən çıxıb dükana yola düşdü. Yəsribin bütün küçələri Bədr döyüşündən qayıdan Məhəmmədin davamçıları ilə dolu idi. Qaliblərin önündə əsir qureyşlilər gedirdilər. Onları görən əd-Darda başqa tərəfə döndü, lakin burada da Xəzrac qəbiləsindən olan bir oğlanla üz-üzə gəldi. Əd-Darda ondan Abdullah ibn Ravaha haqqında soruşdu. Xəzraclı oğlan ona cavab verdi:

- O, döyüşdə əsl qəhrəmanlıq möcüzələri göstərib, evə sağ-salamat, həm də böyük qənimətlə qayıtdı.

Bu sözlər əd-Dardanı sakitləşdirdi.

Oğlan əd-Dardanın Abdullah ibn Ravaha haqqında soruşmasından heç təəccüblənmədi. Hamı onları bağlayan qardaşlıq haqqında bilirdi. Əbu əd-Darda Abdullah ibn Ravaha ilə hələ cahiliyyə dövründə qardaş olmuşdu. İslam gəldikdə, ibn Ravaha onu qəbul etdi, Əbu əd-Darda isə yeni dindən imtina etdi.

Lakin belə belə ixtilaf bu iki insanı bağlayan sıx münasibətləri qırmadı. Abdullah ibn Ravaha daima Əbu əd-Dardanı ziyarət edir, ona xəbərdarlıq edir, islamı qəbul etməyə çağırır və əd-Dardanın bütpərəst olaraq yaşadığı hər gün üçün heyfslənirdi.

* * *

Əd-Darda dükana gəlib, alış-verişlə məşğul olmağa başladı.

Bu an o, evində nə baş verdiyini bilmirdi. Bu vaxt da Abdullah ibn Ravaha dostunun evią tərəf gedirdi. O, öz fikrini həyata keçirməyi qəti qərara almışdır...

Əd-Dardanın evinə yaxınlaşan Abdullah gördü ki, evin giriş qapısı açıqdır, əd-Dardanın anası isə həyətdədir. Abdullah ona müraciət etdi:

- Salam olsun sənə, ey Əd-Dardanın anası!

- Sənə də salam, ey Əbu Əd-Dardanın qardaşı!- o cavab verdi.

- Bəs Əbu əd-Darda hanı?- Abdullah soruşdu.

- O, dükana gedib və tezliklə qayıtmalıdır- deyə qadın cavab verdi.

- Girməyə icazə verərsən?- Abdullah soruşdu.

- Xoş gəldin – deyə əd-Dardanın anası onu içəri buraxdı. Sonra isə qadın, öz otağına keçib ev işləriylə və uşaqlarla məşğul olmağa başladı.

* * *

Abdullah ibn Ravaha Əbu əd-Dardanın bütü yerləşdirdiyi otağa keçdi və özü ilə gətirdiyi çəkici çıxartdı. O, bütü sındıraraq dedi: «Həqiqətən də Allaha şərik qoşduqları hər bir şey yalandır! Həqiqətən də Allaha şərik qoşduqları hər bir şey yalandır!»

O, bütü sındırdıqdan sonra evdən çıxdı.

* * *

Əd-Dardanın anası büt dayandığı otağa girib gördü ki, büt qəlpələrə bölünüb və onlar dağınıq şəkildə yerə səpələnib... O, öz yanaqlarına sillələr vuraraq qəmgin halda deyirdi: «Sən məni məhv etdn, ey İbn Ravaha. Sən məni məhv etdin, ey İbn Ravaha».

* * *

Tezliklə Əbu əd-Darda evə qayıdıb, arvadının büt olan otağın qapısı önündə otruduğunu gördü. O, qorxa-qorxa ərinə baxırdı.

- Nə olub? – Əbu əd-Darda soruşdu.

- Sən olmayanda qardaşın Abdullah ibn Ravaha gəlib, bütün başana bu oyunu açıb-arvadı dedi: - Özün baxa bilərsən.

Bütə baxan əd-Darda onun bir yığım daşa çevrildiyini gördü. O, çox qəzəblənib, Abdullahdan intiqam almaq istədi. Lakin çox çəkmədi ki, o, sakitləşdi və olanlar barədə düşünüb dedi: «Əgər bu

bütdə xeyir olsaydı, o, mütləq özünü qoruyardı və şəri uzaqlaşdırardı».

O, dərhal Abdullah ibn Ravahanın yanına getdi, sonra isə onlar birlikdə Allahın Rəsulunun ﷺ yanına getdilər. Orada Əbu əd-Darda İslamı qəbul etdiyini elan etdi. Bu axırıncı bütpərəst idi ki, o dairədən İslamı qəbul etdi.

* * *

Əbu əd-Darda tam səmimiliklə Allaha və Onun rəsuluna ﷺ iman gətirdi. O, biləndə ki, yoldaşları Allahın dininin və Kitabının öyrənilməsində, dini ayinlərdə, öz qəlblərinin xilası üçün və Allaha birləşmək üçün möminliyin əldə edilməsində onu nə qədər qabaqlayıblar, keçmişdə bu qədər xeyri əldən buraxdığı üçün çox peşman oldu.

Əbu əd-Darda qərara aldı ki, gecə-gündüz usanmadan bilik qazanıb, öz yoldaşlarına çatsın və onları ötsün.

O, öz ibadətində bütün dünyəvi şeylərdən imtina edərək biliklərə can atırdı. Əbu əd-Darda Allahın kitabını inadla oxuyub öyrənirdi, ayələri əzbərləyir, onların mənası barəsində düşünürdü.

Ticarətin onu ibadətdən aldığı sevincdən məhrum etdiyini və onu bütün təhsil toplantılarını ziryarət etməyə mane olduğunu görən əd-Darda heç bir tərəddüd və peşmançılıq çəkmədən bu işi buraxdı.

Bir nəfər ona bu haqda sual verəndə, o, belə cavab verdi:

- Mənim Peyğəmbərlə ﷺ olan əhdi-peymanımdan qabaq mən tacir idim. İslam dinini qəbul etdikdən sonra, mən eyni zamanda həm ticarətlə, həm də ibadətlə məşğul olmaq istədim. Amma bu alınmadıqda, mən ticarəti buraxıb özümü bütövlüklə ibadətə həsr etdim. Allaha and içirəm ki, mən indi istəyərdim ki, məscidin qabağında dükanım olsun. Onda mən camaat namazını ötürməzdim, sonra isə ticarətlə məşğul olub, gündəlik ğç yüz dinar əldə edərdim.

O sual verənə baxıb davam etdi:

- Mən demirəm ki, Uca və Qüdrətli Allah ticarəti qadağan edib, sadəcə olaraq mən elə birisi olmaq istərdim ki, ticarət məni Allahı zikr etməkdən yayındırmasın.

* * *

Əbu əd-Darda nəinki ticarəti buraxdı, o, hətta bütün dünyəvi şeylərdən imtina etdi. Dünyəvi cah-cəlal və bər-bəzək onun pisinə gəlirdi. O, quru çörəklə və öz çılpaqlığını örtmək üçün ən kobud geyimlə kifayətlənirdi.

Bir dəfə, soyuq gecələrdən birində onun evinə bir dəstə adam gəldi. O, onları isti yeməklə təmin etdi, lakin yatmağa yorğan vermədi. Adamlar yatmağa hazırlaşanda bu barədə danışdılar və onlardan biri dedi:

- Mən gedib bu haqda ona deyərəm.

O birisi isə dedi:

- Bunu etmə.

Lakin həmin adam Əbu əd-Dardanın yanına getmək qərarına gəldi. Onun otağının qapısına yaxınlaşan adam gördü ki, Əbu əd-Darda uzanıb, arvadı isə yanında oturub. İkisinin də əynində, onları istidən ya da soyuqdan qoruya bilməyəcək yüngül bir geyim var idi.

Adam Əbu əd-Dardaya dedi:

- Mən görürəm ki, sən də bizim kimi yatırsan. Bəs sizin əşyalarınız hanı?!

Əbu əd-Darda ona belə cavab verdi:

- Bizim evimiz oradadır və biz əşyaları əldə edən kimi, onları ora göndəririk. Əgər bizim evimizdə bir şey olsaydı, onu mütləq sizə verərdik. Bizim o biri evimizə gedən yolda bir ciddi maneə var. Onu yalnız yüksüz, heç bir şeylə yüklənməmiş şəkildə keçmək olar. Ona görə də biz bu maneənin öhdəsindən müvəffəqqiyətlə gəlmək üçün ağır heç bir şeyə sahib olmaq istəmirik.

- Sən anladın? - o, həmin adamdan soruşdu.

Bəli, anladım- deyə adam cavab verdi. Xeyrini görəsən.

* * *

Xəlifə Əl-Faruq Əbu əd-Dardanı Şama canişin təyin etmək istədi, lakin o, imtina etdi. Ömər təkid edəndə Əbu əd-Darda ona dedi:

- Əgər sən istəyirsən ki, mən onların yanına gedib onlara Allahın Kitabını və Peyğəmbərin ﷺ Sünnəsini öyrədim və onlarla birgə namaz qılım, onda mən hazır.

Bu sözlər Öməri çox sevindirdi. Beləliklə, Əbu əd-Darda Dəməşqə yola düşdü. Oraya gedən əd-Darda insanların çoxunu

təmtəraq, cah-cəlal və dünyəvi əyləncələrə qapıldığını gördü. O, bundan dəhşətə gələrək, adamları məscidə çağırdı. Hamı yığılandan sonra, o, insanların qarşısında durub dedi:

– Ey Dəməşq sakinləri, siz dinimizə görə bizə qardaş və evimizə görə qonşusunuz. Siz düşmənlərmizlə mübarizədə bizim müttəfiqlərimizsiniz.

Ey Dəməşq sakinləri! Mənə mehriban yanaşıb mənim məsləhətlərimi qəbul etməyə sizə nə mane olur? Mənə sizdən heç nə lazım deyil. Mən sizə məsələhət verirəm, mənim xərclərimi isə başqaları ödəyir.

Mən görürəm ki, ölüm tədricən sizin alimlərinizi aparır, sizin cahil insanlarınız isə təhsil almır!

Mən görürəm ki, siz Uca və Qüdrətli Allahın zəmanət verdiyini həvəslə götürürsünüz, amma eyni zamanda Onun sizə əmr etdiyi ilə hesablaşmırsınız!

Məgər mən görmürəm ki, siz yeyə bilmədiyinizi toplayırsınız?!

Siz yaşamayacağınız evləri tikirsiniz!

Siz çata bilməyəcəklərinizə ümid edirsiniz!

Sizdən qabaq da ümid bəsləyən xalqlar var idi, amma çox vaxt keçmədi ki, onlar kül oldular.

Onların bütün ümidləri şöhrətpərəstlik və özü-özünü aldatma olub.

Və onların evi qəbir oldu.

Ey Dəməşq sakinləri, siz xatırlayırsınız Ad qüvmğnğn başına nələr gəldi. Onların nə qədər pulları və övladları var idi!

Bəs bu gün kim onların mirasını məndən heç olmazsa iki dinar verib alar?

Burada yığışanlar elə ağlaşmağa başladılar ki, onların ağlaşmaları hətta məscidin divarları arxasında da eşidilirdi.

* * *

Həmin gündən etibarən Əbu əd-Darda fəal surətdə Dəməşqdəki məclisləri ziyarət etməyə və bazarları gəzməyə başladı. O, suallara cavab verir, savadsızlara elm öyrədir, boyun qaçıranların ipini çəkir və bunun üçün hər imkandan istifadə edirdi.

* * *

Bir dəfə Əbu əd-Darda küçədə bir neçə adamın bir nəfəri əhatə edib, onu söyə-söyə döydüklərini gördü. Onlara yaxınlaşan əd-Darda nə olduğunu xəbər aldı.

Onlar dedilər:

- Bu adam böyük günah edib.

Əbu əd-Darda soruşdu:

- Bəs bu adam quyuya düşsəydi necə, siz onu oradan çıxarardınız?

- Əlbəttə - deyə onlar cavab verdilər.

- Onda onu söyüb döyməyin, - Əbu əd-Darda onlara dedi: - Ona xəbərdarlıq edib, nəsihət verin. Alaha şükür edin ki, O, sizə onun etdiyini etməyə imkan vermədi.

- Bəs sən ona nifrət etmirsən? – adamlar ondan soruşdular.

Əbu əd-Darda onlara belə cavab verdi:

- Mən onun etdiyinə nifrət edirəm. Amma əgər o, öz günah işlərini buraxsa, mənim qardaşım olar.

Həmin adam hönkürtü ilə ağlayıb, tövbə etdiyini dedi.

* * *

Bir dəfə bir gənc Əbu əd-Dardanın yanına gəlib ona müraciət etdi: «Ey Allahın rəsulunun ﷺ səhabəsi, mənə nəsihət ver!»

Əbu əd-Darda ona dedi: «Oğlum! Allahı yaxşı günündə yad et, O da səni dərd gələndə yad edər. Oğlum! Bilik topla, oxu, sənə deyilənlərə qulaq as! Çalış cahil olma, yoxsa səni fəlakət gözləyir. Oğlum! Qoy məscid sənin evin olsun. Mən özüm eşitmişəm ki, Allahın Rəsulu ﷺ demişdir: *«Məscidlər hər bir möminin evidir»*. Uca və Qüdrətli Allah, evi məscid olanlara əmin-amanlıq, rəhmət və Onun iltifat yoluyla getməyə imkan verib.

* * *

Bir dəfə cavanlardan ibarət dəstə yolun üstündə durub, şən halda söhbət edirdi və keçənlərə baxırdı. Onlara yaxınlaşan Əbu əd-Darda dedi: «Ey mənim balalarım! Müsəlmanın evi- onun rahatlandığı hücrədir. Bazarlarda heç bir işiniz olmadan oturub, vaxtınızı boş yerə sərf etməyin».

* * *

Əbu əd-Darda Dəməşqdə olanda Müaviyə ibn Əbu Süfyan oğlu Yəzid üçün əd-Dardanın qızına elçi yolladı. Lakin Əbu əd-Darda qızını Müaviyənin oğluna verməkdən imtina edib, onu sadə bir müsəlmana ərə verdi. Bu oğlan möminliyi və əxlaqı ilə seçilirdi. İnsanlar bunu biləndə aralarında söz-söhbət gəzməyə başladı ki,Yəzid ibn Müaviyə Əbu əd-Dardanın qızına elçi göndərib, lakin o, ona rədd cavabı verib və qızını sadə bir müsəlmana ərə verib. Əbu əd-Dardadan bunun səbəbini soruşanda o, dedi:

- Mən bu hərəkətlə qızım üçün xeyir istədim.

- Necə yəni? – onlar maraqlandılar.

Əbu əd-Darda cavab verdi:

- Təsəvvür edin ki, qızım gözəl bir evdə yaşayır, nökərlər də ona qulluq edirlər. Bu halda onun imanı necə olar?!

* * *

Əbu əd-Darda Şamda olanda, oraya xəlifə Ömər ibn Əl-Xəttab təşrif buyurdu. Axşam o, dostu əd-Dardanı ziyarət etməyə gəldi. Ömər onun evinə gəlib, qapını itələdi və gördü ki, üstündə heç bir cəftəsi də yoxdur. Ömər tamamilə qaranlıq olan evə girəndə Əbu əd-Darda onun addımlarını eşidib, onu salamladı və öz yanında otuzdurdu. Qaranlıqda biri-birini görməyən dostlar söhbət etməyə başladılar. Ömər Əbu əd-Dardanın yastığına əl vurmaq istədikdə, yastığın əvəzinə at çulu olduğunu gördü. Onun döşəyinin içi xırda daşlarla dolu idi,yorğanı isə elə nazik idi ki, onu Dəməşq soyuqlarından heç qorumurdu.

Ömər qışqırdı:

- Allah sənə rəhm etsin! Məgər mən sənə kömək etmirdim?! Məgər mən sənə pul göndərmirdim?!

Əbu əd-Darda dedi:

- Ömər, Peyğəmbərin ﷺ bizə danışdığı hədis yadındadırmı?

Ömər soruşdu:

- Hansını deyirsən?

Əbu əd-Darda dedi:

- Məgər o, deməmişdir: *«Qoy sizin hərənizin dünya malı bir atlının yükü olduğu qədər olsun»?*

- Hə, o belə deyirdi - Ömər cavab verdi.

- Bəs biz ondan sonra nə etdik, Ömər?! – Əbu əd-Darda soruşdu.

Ömər və Əbu əd-Darda hönkürüb ağladılar. Onlar səhər açılanadək ağlayırdılar.

* * *

Əbu əd-Darda Dəməşqdə olarkən onun sakinlərini xəbərdar edir, onlara oxumağı və Allahın Kitabını və Hikmətini öyrədirdi. Onun ölmək vaxtı gələndə, yoldaşları onun yanına gəlib soruşdular:

- Nədən şikayətlənirsən:

- Öz günahlarımdan- Əbu əd-Darda cavab verdi.

- Bəs nə istəyirsən?- ondan soruşdular.

- Allahın məni bağışlamasını – o cavab verdi.

Sonra o, ətrafındakılara dedi: «Mənə deyin: Allahdan başqa tanrı yoxdur və Məhəmməd Allahın Rəsuludur». O, bu sözləri can verənədək təkrarlayırdı.

* * *

Əbu əd-Darda öləndən sonra, Auf ibn Malik Əl-Əşcai yatıb yuxusunda böyük yaşıl və kölgəli çəmənlik gördü. Çəmənlikdə dəridən düzəldilmiş böyük çadır dayanmışdır, ətrafında isə böyük sürü qoyun var idi.

O soruşdu:

- Bunlar kimindir?

Ona dedilər:

- Bu Əbd ər-Rəhman ibn Aufa məxsusdur. Çadırdan çıxan Əbd ər-Rəhman ona dedi:

- Ey ibn Malik, Qüdrətli Allah bütün bunları bizə Quranın vasitəsi ilə göndərib. Əgər sən bu yolla getsəydin, onda heç vaxt görmədiyini görərdin və heç vaxt eşitmədiyini eşidərdin və həmçinin də heç fikirləşmədiyin bir şey tapardın.

İbn Malik soruşdu:

- Ey Əbu Məhəmməd, bəs sənin danışdıqlarının hamısı kimin üçündür?

O cavab verdi:

-Qüdrətli Allah bütün bunları yaşadığı vaxt dünyəvi nemətləri qəbul etməyən Əbu əd-Darda üçün hazırlayıb.[67]

* * *

[67] Əbu əd-Darda haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə», 3/45;
2. «Əl-İstiəb», 3/15 və 4/159;
3. «Əsəd əl-Qaba», 4/159;
4. «Hilyət əl-Övliyə», 1/308;
5. «Hüsn əs-Səhabə», 218-ci səh.;
6. «Sifət əs-Səfva», 1/257;
7. «Tarix əl-İslam», 2/107;
8. «Həyat əs-Səhabə» (mündəricatına bax);
9. «Əl-Kəvakib əl Dəriyə», 1/45;
10. "əl-Əaləm lilzərkali", 5/281.
11. «Əl-Ələm», 1/281.

# ZEYD İBN HARİSA

*«Allaha and içirəm ki, Zeyd ibn Harisa ona tapşırılan işə layiq idi və insanlar arasında mənim sevimlim idi».*
Məhəmməd, Allahın Rəsulu

Sələbin qızı Suadə öz qəbiləsini, Bəni Manı ziyarət etməyə getmişdir. Yolda onu oğlu Zeyd idn Harisa Əl-Kabi müşayiət edirdi.

O, öz qohumlarının evində məskunlaşmışdı ki, Bəni Əl-Qayn qəbiləsinin atlılar dəstəsi onun qəbiləsinə hücum etdi. Onlar bütün əmlakı ələ keçirib, dəvələri götürüb, insanları da əsir aldılar...

Onun səkkiz yaşlı oğlu Zeyd ibn Harisa da əsir düşənlərin arasında idi. Oğlanı Ukazdakı bazarda satışa qoydular və onu orada Qureyşin varlı başçılarından biri olan Hakim ibn Hazam ibn Xuveylid dörd yüz dirhəmə aldı. O, Zeyddən başqa bir neçə oğlan da aldı və onlarla birgə Məkkəyə qayıtdı.

* * *

Onun bibisi Xədicə bint Xuveylid qardaşı oğlunun qayıtdığını bilən kimi onunla görüşməyə gəldi. Hakim ona dedi:

– Qulas as, bibi, mən Ukaz bazarında bir dəstə oğlan almışam. Xoşuna gələni özün üçün seç. Qoy bu, mənim sənə hədiyyəm olsun.

Xədicə xanım oğlanların üzlərinə baxıb, Zeyd ibn Harisanın ağıllı baxışlarını özlüyündə qət etdi və məhz onu seçdi. O, oğlanı götürüb evinə getdi.

* * *

Xədicə tezliklə Məhəmməd ibn Abdullaha ərə getdi. Ərinə yaxşı hədiyyə vermək istəyən Xədicə Zeydi seçib, onu ərinə bağışladı.

Bəxtəvər oğlan Məhəmməd ibn Abdullahın himayəsinə keçib, daima onun nəcib mühitində olurdu və onun yüksək mənəviyyatına qoşulurdu.

Bu zaman isə onun təsəlli tapmayan anası oğlunun itməsi ilə kədərlənərək özünə yer tapmayıb və sakitləşə bilməyib fasiləsiz ağlayırdı.

Onun dərdi çox böyük idi. Çünki o, heç bilmirdi ki, oğlu sağdır ya yox, onu tapmaq ümidi var ya bütün cəhdlər faydasızdır.

Zeydin atası da o vaxt onu fasiləsiz olaraq müxtəlif yerlərdə axtarır, yolçuları dindirir və dərd içində ürək parçalayan qəmgin şeirlər yazırdı:

Mən Zeydin başına nələr gəldiyini bilmədən onun yasını tuturdum...

O, sağdırmı və ümid varmı, yoxsa mən artıq onu görmədən həyat yolumu bitirməliyəm?

Alaha and içirəm ki, mən heç nə bilmirəm və kədərli halda soruşuram:

Səni dağlar yoxsa düzlər qaçırtdılar?

Sübh vaxtı günəş mənə onu xatırladır

Və qürub vaxtı da mən onu xatırlayıram...

Mən yorulmadan dəvəmin belində onu ömrüm boyu axtaracağam.

Ölüm məni yaxalayanadək...

Hər bir insan ölməlidir,

Hətta ümid onu aldatsa belə.

* * *

Zeydin qəbiləsindən bir neçə adam ziyarət mövsümündə müqəddəs yerə gəldilər. Onlar qədim ibadətgahın ətrafında dövrə vuraraq, Zeydlə üz-üzə gəldilər. Onlar Zeydi, Zeyd də onları tanıdı. Onlar söhbətə başladılar, hər iki tərəfdən suallar yağmağa başladı. Ziyarət ayinlərini bitirən adamlar, evlərinə qayıdıb, Harisaya gördüklərini və eşitdiklərini danışdılar.

* * *

Harisa özü ilə, sevimli oğlunu azad etdirmək üçün kifayət qədər pul götürüb, dərhal yola hazırlandı. Harisanı səfərdə qardaşı Kaab müşayiət etməyi qərara aldı. İki atlı Məkkəyə tərəf var gücü ilə çaparaq getdilər. Oraya çatan kimi ikisi də Məhəmməd ibn Abdullahın yanına gəlib dedilər:

- Ey Əbd Əl-Mütəllib oğlu, siz Allahın qonşularısınız. Hər yardım istəyənə kömək edirsiniz, acları yedirdirsiniz və bəlaya

düşənləri xilas edirsiniz.

Biz sənin yanında olan oğlumuzun dalınca gəlmişik. Çoxlu pul gətirmişik ki, onu səndən alaq. Bizim xahişimizi yerinə yetir və əvəzinə istədiyini tələb et.

Məhəmməd soruşdu:

- Sizin oğlunuz kimdir ki?

Qardaşlar dedilər:

- Bu səndə olan oğlandır. Adı Zeyd ibn Harisadır.

Məhəmməd onlardan soruşdu:

- Bəs sizdə onu pulla almaqdan daha yaxşı olan bir şey var?

Qardaşlar qışqırdılar:

- Məhz nə?

Məhəmməd dedi:

- Onu öz yanınıza çağırın. Qoy o, mənimlə sizin aranızda özü seçim etsin. Əgər o, sizi seçsə pulsuz-pərəsiz sizindir. Yox, əgər o, məni seçsə, onda Allaha and olsun ki, bununla razılaşaram.

Qardaşlar dedilər:

- Sən ədalətlə hərəkət edirsən!

Məhəmməd Zeydi çağırıb, ondan soruşdu:

- Bu adamlar kimdir?

O cavab verdi:

- Bu mənim atam Harisa ibn Şurahil, bu isə əmim Kaabdır.

Məhəmməd dedi:

- Mən sənə seçmək imkanı verirəm: istəsən, onlarla gedə bilərsən, ya da mənimlə qal.

Zeyd heç bir tərəddüd etmədən dərhal dedi:

- Əlbəttə, mən səninlə qalıram.

Zeydin atası qışqırdı:

- Sənin başına dərd gəlsin, Zeyd! Sən köləliyi ana-atadan üstün tutursan?!

Zeyd atasına dedi:

- Bu adam mənə elə bir şey verib ki, mən heç vaxt ondan ayrılmaram.

* * *

Zeydin bu hərəkətini görən Məhəmməd onun əlindən tutub, müqəddəs yerə gətirdi. Qureyşlilərin gözü önündə onunla Daşın

yanında durub, onlara müraciət etdi:

– Ey Qureyş qəbiləsi! Şahidlik edirəm ki, bu mənim oğlum və varisimdir...

Zeydin atası və əmisi bu təntənəli andı eşidəndən sonra, onların qəlbləri rahatlandı. Uşağı Məhəmməd ibn Abdullahın yanında saxlayan qardaşlar sakitləşib razı halda evə döndülər.

O gündən Zeyd ibn Harisa Zeyd ibn Məhəmməd adını aldı. O, peyğəmbər ﷺ olanadək və islam övladlığa götürülməni ləğv edənədək bu adı daşıdı. Uca Allah bu haqda aşağıdakı ayəni nazil etdi: **«Onları atalarının adlarıyla çağırın»**. (əl-Əhzab, 5) Bundan sonra Zeydi əvvəllər olduğu kimi, Zeyd ibn Harisa deyib çağırdılar.

Zeyd Məhəmmədi öz anası və atasından üstün tutanda, heç bilmirdi ki, necə nailiyyət əldə edib.

O bilmirdi ki, onun sahibi öz doğmalarından və yaxınlarından üstün tutduğu şəxs bütün insanların ağası və Allahın bütün yaratdıqları üçün Rəsuldur.

Onun ağlına belə gəlmirdi ki, şərqdən qərbə qədər möminlik və ədalət mənbəyi olan bir səmavi dövlət əmələ gələcək, Zeyd özü isə bu nəhəng dövlətin bğnüvrəsinə ilk daşı qoyacaq...

Zeyd belə bir şey haqda heç düşünmürdü də.

Allah Özü istədiyi kəsə Öz şəfqətini nazil edər. Və onun şəfqəti böyükdür.

Zeyd öz seçimini etdiyi gündən cəmi bir neçə il keçmişdir ki, Allah həqiqi dinini öz Peyğəmbərinə- Məhəmmədə ﷺ göndərdi. Zeyd ibn Harisa isə bu dinə iman gətirən ilk insan oldu.

Məgər bu birincilikdə kimsə onunla rəqiblik edə bilər? Zeyd ibn Harisa Allahın Rəsulunun ﷺ katibi, onun müvəkkili, hərbi yürüşlərdə komandan, peyğəmbər ﷺ Mədinədə olmayan vaxtlarda isə onun canişinlərindən biri oldu.

* * *

Zeyd Peyğəmbərə ﷺ üstünlük verib sevdiyi kimi, nəcib Peyğəmbər ﷺ də Zeydi doğma insan sayaraq, eləcə onu sevdi. Zeyd uzun müddət Peyğəmbərin ﷺ yanında olmayanda o çox darıxırdı və Zeyd qayıtdıqda çox sevinirdi. Onu kimsəni qarşılamadığı tək qarşılayırdı.

Peyğəmbərin ﷺ Zeydlə görüşlərinin birində onu necə qarşıladığını Aişə ﵂ belə təsvir edir:

– Zeyd ibn Harisa  Mədinəyə gələndə, Allahın Rəsulu ﷺ mənim evimdə idi. Zeyd qapını döyəndə, Allahın Rəsulu ﷺ bir təhər öz çılpaqlığını örtüb, qapıya tərəf cumdu. O, Zeydi qucaqlayıb öpdü. Allaha and olsun ki, nə bu vaxta qədər, nə də ondan sonra mən bir daha onu belə yarıçılpaq şəkildə görməmişdim.[68]

Müsəlmanlar Peyğəmbərin ﷺ Zeydə qarşı olan bu böyük məhəbbəti haqqında biləndə, onu «Sevimli Zeyd» adlandırdılar və ona «Allahın Rəsulunun sevimlisi» ləqəbini verdilər. Sonradan Zeydin oğlu Usaməni də həmçinin «Allahın Rəsulunun sevimlisi» və «sevimlinin oğlu» adlandırdılar.

* * *

Hicrətin səkkizinci ilində Allah bir sevimlini başqa sevimli ilə ayrılıq zamanı hisslərinin möhkəmliyini yoxlamaq istədi.

Allahın rəsulu ﷺ Əl-Haris ibn Umeyr Əl-Əzdini məktubla Bəsrə hökmdarının yanına yolladı. Məktubda o, onu islamı qəbul etməyə çağırırdı. Əl-Haris İordaniyanın Şərqində yerləşən Mutaya çatanda, qəssasili əmirlərdən biri Şurahbil ibn Amr ona hücum etdi. Əl-Harisi qandalladılar, sonralar isə edam etdilər.

Bu hadisə Peyğəmbəri ﷺ çox qəzəbləndirdi, çünki onun nümayəndələrini heç vaxt öldürmürdülər.

Allahın Rəsulu ﷺ Mutaya yürüş üçün üç min döyüşçüdən ibarət ordu toplayıb, öz sevimlisi olan Zeydi bu orduya başçı təyin etdi. O dedi: *«Əgər Zeyd həlak olsa, komandanlıq Cəfər ibn Əbu Talibə keçir, Cəfər öldürülsə, onda Abdullah ibn Ravaha başçı olacaq. Əgər Abdullah da həlak olsa, qoy onda müsəlmanlar özləri özünə komandan seçsinlər».*

* * *

Ordu, İordaniyanın Şərqində yerləşən Maanaya çatanadək irəliləyirdi.

Bizans imperatoru İrakli yüzminlik ordusu ilə qəssasilərin

---

[68] Bax: «Cəmiə əl-Üsul», 10/25. Bu hədisi Ət-Tirmizi bildirir.

müdafiəsinə keçdi. Onun ordusuna ərəb bütpərəstlərin yüz mindən ibarət qoşunu da qoşuldu. Bu böyük ordu müsəlmanların mövqelərinin yaxınlığında yerləşdi.

* * *

Müsəlmanlar iki gecəni Maanada məsləhətləşərək keçirdilər.

Biri dedi:

– Gəlin Allahın Rəsuluna ﷺ düşmən ordusunun sayı haqqında yazaq, sonra isə onun göstərişlərini gözləyək.

O birisi isə dedi:

– Ey insanlar, Allaha and olsun ki, biz sayla və güclə deyil, öz imanımız vasitəsilə vuruşuruq. Gəlin irəliyə, öz məqsədimizə doğru gedək.

Allah sizə hər iki vəziyyətdə müvəffəqiyyət təmin edib: istər qələbə olsun, istərsə də iman uğrunda döyüşüb həlak olma.

* * *

Muta torpağında iki ordu üz-üzə gəldi. Müsəlmanlar bizanslılarla heyrətləndirən cəsurluqla vuruşurdular. Onların ürəklərində iki yüz minlik ordunun əleyhinə çıxan bu üç min döyüşçüyə qarşı hörmət yarandı.

Zeyd ibn Harisa Allahın Rəsulunun ﷺ bayrağı altında qəhrəmancasına döyüşürdü. Axırda yüzlərlə düşmən nizəsi onun bədənini sancdı və o, qan tükərək döyüş meydanında yerə sərildi.

Ondan sonra bayrağı Cəfər ibn Əbu Talib götürdü və onu həlak olanadək qəhrəmancasına qorudu.

İndi bayraq Abdullah ibn Ravahanın əlinə keçdi. O, düşmənləri tələf edirdi, lakin sonunda, özündən əvvəlkilər kimi həlak oldu.

Ravaha qəhrəmancasına həlak olandan sonra, müsəlmanlar yenicə islam dininə keçmiş Xalid ibn Əl-Validi özlərinə komandan seçdilər. O, ordunu labüd görünən məğlubiyyətdən xilas etdi.

* * *

Peyğəmbər ﷺ Mutada olan döyüş haqqında və onun təyin etdiyi üç komandanın həlakı haqqında eşidəndə indiyədək görünməyən

kədərə düşdü. O, çox darıxırdı və özü şəxsən qəhrəmanların ailələrinə başsağlığı verdi.

Allahın Rəsulu ﷺ Zeyd ibn Harisanın evinə gələndə, onun kiçik qızı ağlayaraq, Peyğəmbərin ﷺ üstünə cumdu. Peyğəmbər ﷺ hönkürərək ağladı.

Sad ibn Ubadə ondan soruşdu:

- Ey peyğəmbər, bu nədir?

Peyğəmbər ﷺ cavab verdi:

- Bu bir sevimlinin o biri sevimli üçün a□lamas□d□r.[69]

* * *

[69] Zeyd ibn Harisa haqqında əlavə məlumat üçün bax:

1. Müslim «Səhihi»,7/113, «Səhabələrin fəziləti» fəsli;
2. «Cəmiə əl-Üsul» (Rəsulun hədisləri), 10/25,26;
3. «Əl-İsabə»,1/563;
4. «Əl-İstiəb», 1/544;
5. İbn Hişam, «Əl-Sira əl Nübuviyyə» (dördcğ fəslin mündəricantına bax);
6. «Sifət əs-Səfva», 1/147;
7. Əl-Baqdadi, «Xazanat əl-Ədəb», 1/363;
8. «Əl-bidəyyə və əl-Nihayyə» (hicrənin səkkizinci ilinin hadisələri;
9. «Həyat əs-Səhabə», (4-cü hissənin mündəricatına bax).

# USAMƏ İBN ZEYD

*«Həqiqətən, Allahın Rəsulu ﷺ Usamənin atasını sənin atandan daha çox sevirdi. Allahın Rəsulu ﷺ onu da səndən daha çox sevirdi»*
Əl-Faruqun öz oğlu ilə söhbətindən

Beləliklə, indi hicrətin 7-ci ilində, Məkkədəyik, Allahın rəsulu ﷺ onun səhabələri kimi qureyşlilərin təqiblərinə məruz qaldığı zamandayıq.

Qayğılar və dəvətin həyata keçirilməsiylə əlaqədar olan ağırlıqlar onun həyatını dərd-bəladan ibarət bir zəncirə çevirdi.

O, belə bir ağır vəziyyətdə olarkən, onun həyatı sevinclə doldu. Bir nəfər gəlib ona Umm Aymənin oğlu olduğunu xəbər verdi. Peyğəmbərin ﷺ üzü nurla doldu və səadət onun üzündəki qırışları düzəltdi. Allahın Rəsuluna ﷺ bu qədər sevinc gətirən bəxtəvər körpə kim idi?

Bu oğlanın adı Usamə ibn Zeyd idi. Allahın rəsulunun ﷺ silahdaşlarından heç biri onun bu körpənin doğulması ilə bağlı sevincinə təəccüblənmədi, çünki onlar hamısı Peyğəmbərin ﷺ körpənin valideynlərini necə yüksək dəyərləndirdiyini bilirdilər.

Oğlanın anası Baraka Əl-Həbəşiyə idi, xalq arasında ona Umm Aymən deyirdilər. Bir zamanlar o, Peyğəmbərin ﷺ anası, Vahbın qızı Əminəyə məxsus idi. O, Peyğəmbərə ﷺ tərbiyə verib və anasının ölümündən sonra onun dayəsi oldu. Allahın rəsulu ﷺ dünyaya göz açdığından bəri, dayəsindən başqa bir ana tanımırdı. O, onu ən dərin və səmimi məhəbbətlə sevdi. O, tez-tez deyərdi: *«Bu mənim ikinci anam və ailəmin bir üzvüdür»*.

Beləliklə, bu bəxtəvər uşağın anası idi, onun atası isə Allahın Rəsulunun ﷺ «sevimlisi» və islamın gəlişinə qədər onun oğulluğu olan Zeyd ibn Harisa idi. Zeyd Peyğəmbərin ﷺ ayrılmaz yoldaşı, onun sirlərinin mühafizi, ailəsnin üzvi və islam dövründə onun ən sevdiyi insan olub.

Bütün müsəlmanlar Usamə ibn Zeydin doğulmasına sevindilər. Onlar həmişə peyğəmbəri ﷺ sevindirən hər bir şeyə şad olurdular. Müsəlmanlar Allahın Rəsulunun ﷺ ürəyinə xoşbəxtlik salan hər bir

şeyə sevinirdilər.

İnsanlar bu bəxtəvər körpəni «sevimli», «sevimlinin oğlu» adlandırdılar.

* * *

Müsəlmanlar kiçik Usaməni belə adlandıranda, heç nəyi şişirtmirdilər. Allahın Rəsulu ﷺ onu elə çox sevdi ki, bu sevgiyə bütün dünya həsəd aparırdı. Usamə Peyğəmbərin ﷺ nəvəsi Əl-Həsən ibn Fatimə Əl-Zəhra ilə eyni yaşda idi. Əl-Həsən bəyaz dərili, gözəl oğlan idi. O öz babası, Allahın Rəsuluna ﷺ çox bənzəyirdi.

Usamə isə öz efiopiyalı anasına çox bənzəyirdi. Onun kimi yastıburun, qaradərili idi.

Lakin Allahın rəsulu ﷺ onların ikisini də eyni dərəcədə sevirdi. O, bir dizi üstə Usaməni, o biri dizi üstə isə Əl-Həsəni otuzdurardı. Sonra ikisini də sinəsinə basıb deyirdi: *«Allahım! Həqiqətən mən onları sevdim, Sən də onları sev!»*

Aşağıdakı hədisdə Allahın Rəsulunun ﷺ Usaməyə olan böyük məhəbbəti göstərilir.

Bir dəfə, astanada toqquşan Usamə yıxılıb alnı yar□ldı. Yaradan qan axdı və Peyğəmbər ﷺ Aişədən xahiş etdi ki, qanaxmanı dayandırsın. Lakin Aişə bunu etmədi. Onda Peyğəmğər ﷺ özü Usaməyə yaxınlaşdı və onun yarasından qanı sovurub, tüpürməyə başladı. O, Usaməni mehriban və xoş sözlərlə sakitləşdirdi.

* * *

Usamə böyüdükdə, Allhın Rəsulu ﷺ onu uşaqlıqda sevdiyi qədər sevməyə davam edirdi.

Tanınmış qureyşlərdən biri Hakim ibn Hazam Peyğəmbərə ﷺ bahalı bir geyim bağışlamışdır. Hakim onu yəməndə Yəzan adlı bir hökmdardan əlli qızıl dinar verib almışdır. Bu qureyşli hələ bütpərəst olduğu üçün Peyğəmbər ﷺ bunu ondan hədiyyə kimi qəbul etməkdən imtina edib, bu geyimi ondan pulla aldı. Və onu cəmi bircə dəfə, cümələrin birində əyninə geyindikdən sonra

Usamə ibn Zeydə bağışladı. Usamə bunu geyinib, mühacir və ənsarların cavanları arasında qürurla gəzirdi.

* * *

Usamə ibn Zeyd yetkinləşəndə, onun yüksək və nəcib əqidə-əxlaq xüsusiyyətləri üzə çıxdı və bu da Peyğəmbərin ﷺ layiqli sevimlisi edirdi.

O, iti ağıla, bənzərsiz igidliyə və cəsurluğa malik idi. Bütün sualların mühümlük dərəcələrini təyin edir, onları, hərəsini öz vaxtında, müdrikliklə həll edirdi. O, təmiz əxlaqlı, çox mehriban, insanlar tərəfindən sevilən, mömin və Allahdan qorxan biri idi. O, bütün rəzilliklərdən iyrənirdi və bu da Allaha xoş idi.

* * *

Uhud döyüşü günü Usamə ibn Zeyd Peyğəmbərin ﷺ səhabələrinin oğulları ilə birgə döyüş meydanına gəlib, Allah yolunda müqəddəs müharibədə iştirak etmək arzusunu bildirdi. Allahın rəsulu ﷺ onlardan bir neçəsini qəbul edib, digərlərini azyaşlı olduğu üçün geri göndərdi. Usamə ibn Zeyd də geri göndərilənlərin arasında idi. O, Peyğəmbərin ﷺ bayrağı altında cihadda iştirak edə bilmədiyinə görə kədərlənib, gözü yaşlı evə qayıtdı.

* * *

Xəndək döyüşü günlərində Usamə ibn Zeyd səhabələrin ailələrindən olan yaşıdları ilə birgə yenə də döyüş meydanına gəldi. O, boyca hündür görünmək üçün var gücü ilə yuxarıya can atırdı və ümid edirdi ki, Alahın Rəsulunun ﷺ ona yazığı gəldi və o, Usaməyə qalmağa icazə verdi. Usamə əlində qılınc on beş yaşında olarkən Allah yolunda müqəddəs müharibədə iştirak etdi.

* * *

Hüneyn döyüşündə müsəlmanlar məğlubiyyətə uğrayanda,

Usamə ibn Zeyd Peyğəmbərinin ﷺ əmisi Abbas, onun əmisi oğlu Əbu Süfyan ibn Əl-Haris altı başqa səhabə ilə birgə döyüş meydanında axıra kimi dayandılar. Bu mömin- qəhrəmanların kiçik dəstəsinin sayəsində Allahın Rəsulu ﷺ geriyə çəkilən müsəlmanların bütpərəstlər tərəfindən məhv edilməsinin qarşısını alaraq, məğlubiyyəti qələbəyə çevirə bildi.

* * *

Muta döyüşündə Usamənin hələ on səkkiz yaşı tamam olmamı□dır. O, atası Zeyd ibn Harisanın bayrağı altında döyüşürdü. O, öz atasının həlak olmasını gözləri ilə gördü, lakin bu onu nə zəiflətmədi, nə də sındırmadı. Cəfər Usamənin gözü önündə öldürüləndən sonra, Usamə Abdullah ibn Ravahanın bayrağı altında döyüşməyə davam etdi. Abdullah həlak olandan sonra, Usamə Xalid ibn Əl- Validin bayrağı altında, bu kiçik ordu bizanslıların caynağından çıxanadək döyüşdü.

* * *

Atasının ölümünə mətanətlə dözən Usamə onun günahsız bədənini Şamın çöllərində buraxıb Mədinəyə qayıtdı. O, atasının atının belində oturmuşdu.

* * *

Hicrətin on birinci ilində nəcib Peyğəmbər ﷺ bizanslılara qarşı yürüşə çıxmaq üçün ordu toplamağı əmr verdi. Əbu Bəkr, Ömər, Sad ibn Əbu Vaqqas, Əbu Ubeydə ibn əl-Cərrah və Peyğəmbərin ﷺ başqa görkəmli silahdaşları bu qoşunlarda idilər. Allahın rəsulu ﷺ bu orduya başçılıq etmək üçün o vaxt hələ iyirmi yaşı tamam olmayan Usamə ibn Zeydi komandan təyin etdi. O,Usaməyə əmr etdi ki, atlılar dəstəsi ilə əl-Balqa vilayətindən və Qəzza yaxınlığında əl-Dərum qalasından keçsin.

Ordu yürüşə çıxmaq ərəfəsində ikən Allahın rəsulu ﷺ xəstələndi. Onun xətsəliyi güclənəndə, hərbi hazırlıqlar dayandırıldı.

Usamə özü danışır: «Peyğəmbərin ﷺ xəstəliyi güclənəndə, mən o birilərlə birgə onu ziyarət etməyə gəldim. Mən girib gördüm ki, o, xəstəlik əlindən elə zəifləyib ki, danışmağa belə heyi yoxdur və dinməzcə yerində uzanıb. O, əlini göyə qaldırdı və sonra üstümə qoydu. Mən anladım ki, o, mənə xeyir-dua verir».

* * *

Tezliklə, Alahın rəsulu ﷺ bu həyatla vidalaşdı və müsəlmanlar Əbu Bəkrə and içdilər. O, Usaməyə yürüşə çıxmağı əmr verdi. Lakin ənsarlardan bir dəstə hərbi yürüşü təxirə salmağı vacib bildi. Onlar Ömərdən xahiş etdilər ki, o, Əbu Bəkrlə danışsın. Onlar Ömərə dedilər:

– Əgər o yürüşə çıxmağı təkid etsə, onda ona de, Usamədən yaşca böyük olan birini komandan seçsin.

Əs-Siddiq Ömərin ağzından ənsarların bu sözlərini eşidəndə qəzəbindən öz yerindən sıçrayaraq, Əl-Faruqun saqqalından yapışıb qışqırdı:

– Ey □bn əl-Xəttab, görüm sənin anan yetim qalıb, oğlunu itirsin! Onu Peyğəmbər ﷺ komandan təyin edib, sən isə mənə əmr edirsən onu bu işdən uzaqlaşdırım?! Allaha and olsun ki, belə olmayacaq.

Ömər ənsanların yanına qayıdanda, onlar ondan söhbətin nəticəsi haqqında soruşdular. Ömər dedi:

– Rədd olun, siz, anasızlar! Sizə görə mən Allahın Rəsulunun xəlifəsindən payıma düşənləri aldım!

* * *

Ordu, cavan başçının rəhbərliyi altında yürüşə çıxanda, Allahın Rəsulunun xəlifəsi, atın belində oturmuş Usaməni piyada yola salırdı. Usamə ona dedi:

– Ey Allahın Rəsulunun xəlifəsi! Allaha and olsun ki, ya sən ata minəcəksən, ya da mən atımdan düşəcəyəm.

Əbu Bəkr ona cavab verdi:

– Yox, Allaha and içirəm ki, nə sən atdan düşəcəksən, nə də

mən ata minəcəyəm. Məgər mən Allah yolunda bir saat piyada gedə bilmərəm?!

Sonra o davam etdi:

– Allah sənin imanını qorusun, sənə əmin-amanl□q və işlərində müvəffəqiyyət göndərsin. Mən səndən Peyğəmbərin ﷺ sənə əmr etdiyini yerinə yetirməyini xahiş edirəm.

O, Usaməyə tərəf əyilib dedi:

– Əgər sən Ömərin, burada mənə kömək etməsini mümkün hesab edirsənsə, onda ona icazə ver mənimlə qalsın.

Beləliklə, Usamə Ömərə qalmağa icazə verdi.

Usamə ibn Zeyd öz ordusuyla birgə yürüşə çıxıb, Peyğəmbərin ﷺ bütün əmrlərini yerinə yetirdi. Müsəlmanların atlılar dəstələri Əl-Balqa vilayətini və Fələstindəki Əl-Dərum qalasını ələ keçirtdi və bununla da müsəlmanların ürəklərindən bizanslıların qüdrəti haqqındakı heybəti qopardılar. Bu yürüş vasitəsi ilə Şamda, Misirdə və Atlantik okeana qədər bütün Şimali Afrikada gələcək istilalar üçün yol açıldı...

Usamə yürüşdən atasının atının belində qayıtdı. O, özü ilə saysız-hesabsız qənimət və böyük qazanc gətirdi. Hətta onun haqqında belə demişdilər:

«Heç kim Usamə ibn Zeydin ordusu kimi, az itki verən və belə çox qənimət ələ keçirən başqa bir ordu görməmişdir».

* * *

Usamə ibn Zeyd bütün ömrü boyu müsəlmanların ehtiram etdiyi bir kəs olaraq qaldı və müsəlmanlar da bununla Peyğəmbərə ﷺ öz sadiqliyini və məhəbbətini nümayiş etdirdilər.

Əl-Faruq Usaməyə öz oğlu Abdullaha təyin etdiyi maaşdan daha çox verirdi.

Abdullah atasına dedi:

– Qulaq as, ata, sən Usaməyə dörd minlik, mənə isə üç minlik maaş təyin etdin. Onun atasının xidmətləri səninkilərdən çox olmayıb, Usamənin xidmətləri isə mənimkilərdən çox deyil.

Əl-Faruq oğluna belə cavab verdi:

– Bizim aramızda necə də böyük fərq var. Allahın Rəsulu ﷺ onun atasını

sənin atandan çox sevirdi. Usaməni isə səndən çox sevirdi...

Bundan sonra Abdullah ibn Ömər ona verilən maaşın həcmiylə razılaşdı.

Ömər ibn Əl-Xəttab hər dəfə Usamə ibn Zeydi görəndə, ona deyirdi:

– Mənim əmirimi salamlayıram!

Bu salama təəccüblənən adamı görən Ömər ona başa salırdı: «Onu Allahın Rəsulu mənə əmir təyin edib».

* * *

Allah bu alicənab insanlara qarşı rəhimli olub. Tarixdə Allahın Rəsulunun səhabələrindən daha böyük, mükəməl və nəcib şəxsiyyət olmayıb.[70]

* * *

---

[70] Usamə ibn Zeyd haqqında əlavə məlumat üçün bax:

1. «Cami яl-Usul»,10/27;
2. «Əl-İsabə» (Mustafa Məhəmmədin nəşri), 1/46;
3. «Əl-İstiəb», 1/34-36;
4. «Təqrib əl-Tahzib», 1/53;
5. «Tarix əl-islam», 2/270-272;
6. «Əl-Təbəqat Əl-Kübra», 4/61-72;
7. «Cira Nябяviyya li İbn Hişam»;
8. «Əl-İbər», 1/95;
9. «Tarixi yaradan qəhrəmanlarımız haqqında», Əbul-Futuh Əl-tuansi, 33-39-cu səh.;
10. «Fagət-fəth əş-Şam və Misir», 33-51-ci səh.;
11. «Əl-Ələm və Məraciəhu», 281-282-ci məh.

# SƏİD İBN ZEYD

*«Ey Allah, əgər Sən məni bu xeyirdən məhrum edirsənsə, onda oğlum Səidi bundan məhrum etmə»*
Səidin atası Zeyd

Hamıdan aralı dayanan Zeyd ibn Amr ibn Nufeyl, bayramlardan birini qeyd edən qureyşliləri müşahidə edirdi. O, başlarında taftadan düzəldilmiş bahalı çalmalar, əyinlərində bahalı yəmən çiyinliklər olan kişiləri görürdü. O, gözəl geyimlər geyinmiş və bayram üçün bəzənmiş qadınları və uşaqları da gördü. Çobanlar rəngbərəng örtüklərlə və çullarla bəzədilmiş mal-qaranı öz bütlərinin yanında kəsmək üçün qovurdular.

Kəbənin divarına beli ilə söykənən Zeyd onlara müraciət etdi:

– Ey qureyş xalqı! Qoyunları Allah yaradıb. O, onlar üçün göylərdən yağış göndərir ki, onlar su içsinlər və o, onlar üçün yerdən otlar çıxardır ki, onlar yeyib doysunlar. Siz isə onları Onun adına qurban kəsmirsiniz. Mən görürəm ki, siz cahil xalqsınız.

Əmisi Əl-Xəttab, Ömər ibn Əl-Xəttabın atası ona yaxınlaşıb üzündən vurub dedi:

– Səni görüm itəsən! Biz sənin bu sayıqlamanı dinlədik və ona dözdük. Amma indi bizim səbrimiz tükəndi.

Bundan sonra o, öz qəbiləsində olan dərrakəsiz insanları Zeydə qarşı qaldırdı və onlar onu uzun müddət ağır işgəncələrə məruz qoydular. Zeyd Məkkədən qaçmalı və Hira dağında gizlənməyə məcbur oldu. Əl-Xəttab qureyş cavanlarına ona nəzarət etməyə və onu Məkkəyə buraxmamağa əmr etdi. Ona görə də Zeyd Məkkəyə gizlincə gəlməli olurdu.

* * *

Zeyd ibn Amr ibn Nüfeyl qureyşlilərdən gizlincə Varaqa ibn Nofəllə, Abdullah ibn Cəhşlə, Osman ibn Əl-Harislə və Əbd Əl-Müttəlibin qızı, Məhəmməd ibn Abdullahın bibisi Umeymə ilə görüşdü. Onlar, ərəblərin düşdüyü yanılmanın, səhvlərinin dərinliyini müzakirə edirdilər.

Zeyd öz yoldaşlarına dedi:

- Allaha and içirəm ki, siz başa düşməlisiniz ki, sizin xalqınızın heç nəyi yoxdur. Onlar İbrahimin dinini dəyişdirib, onun məsləhətini pozdular. Elə isə, əgər xilas olmaq istəyirsinizsə, özünüz üçün inandığınız bir dini seçin.

Bu dörd nəfər yəhudilərin, xaçpərəstlərin və başqa din alimlərinə müraciət edib, onlardan İbrahimin həqiqi dinini öyrənib tapmaq istədilər.

Varaqa ibn Nofəl xaçpərəstliyi qəbul etdi.

Abdullah ibn Cəhş və Osman ibn Əl-Harisə gəldikdə isə, onlar müəyyən bir fikrə gələ bilmədilər.

* * *

Zeydin başına isə bu iş gəldi. O danışır:

- Mən yəhudilik və xaçpərətsliklə tanış olandan sonra, onlardan imtina etdim, çünki etibar etdiyim şeyi elə də tapmadım. Bundan sonra mən hər yerdə ciddi surətdə İbrahimin dininə qulluq edən bir ümmət axtardım. Nəhayət, mən Şama çatdım. Mənə demişdilər ki, orada Kitabın biliklərinə sahib olan bir rahib var. Mən onu tapıb, ona ba□□ma gələnləri izah etdim. O, məni dinlədi və sonra dedi:

- Ey məkkəli qardaşım, görürəm ki, sənə İbrahimin dini lazımdır! Düzdür?

-Bəli! Bu elə mənim istəyimdir – mən ona cavab verdim.

Rahib dedi:

-Sən bu gün hələ peyda olmamış bir dini axtarırsan. Qayıt evinə. Allah sizin xalqınızdan İbrahimin dinini yeniləşdirəcək birini göndərəcək. Sən bu adamı tanıyan kimi ondan yapış.

Zeyd geriyə, Məkkəyə, peyğəmbəri tapmaq üçün tələsdi. O, yolda ikən Allah öz peyğəmbərini, Məhəmmədi ﷺ həqiqi din ilə göndərdi. Lakin Zeyd onu tanımağa macal tapmadı.O, Məkkəyə çatmamış köçəri ərəblərin hücumuna məruz qaldı. Və onlar Zeydi Allahın Rəsulunu ﷺ görməkdən məhrum edib öldürdülər.

Zeyd ölüm ayağında olarkən nəzərini səmaya yönəltdi və dedi:

- Allahım! Əgər sən məni bu xeyirdən məhrum etdinsə, onda mənim oğlum Səidi bundan məhrum etmə.

* * *

Uca Alah Zeydin duasını qəbul etdi. Allahın Rəsulu ﷺ insanları islama dəvət etməyə başlayanda, Səid ibn Zeyd Allahın dininə ilk iman gətirənlərdən və onun peyğəmbərinin missiyasını qəbul edənlərdən oldu.

Burada təəccüblü bir şey yoxdur, çünki o, qureyşlilərin hərəkətlərinin pisləndiyi bir evdə tərbiyə aldı. O, bütün ömrü boyu həqiqəti yorulmadan axtaran atasının təsiri altında böyüyüb... O, ölüm ayağında olarkən  də belə inadla və təkidlə həqiqətə can atırdı.

İslamı qəbul edən tək Səid olmadı. Onunla birgə arvadı Fatimə (Əl-Xəttabın qızı və Ömər ibn Əl-Xəttabın bacısı) islam dininə iman gətirdi.

Qureyşli cavan öz həmyerlilərinin əlindən o qədər əzablara və alçatmalara dözmüşdür ki, bütün bunlar artıqlaması ilə onu yeni dindən döndərməyə kifayət edərdi. Lakin qureyşlilər onu nəinki öz dinindən imtina etməyə məcbur edə bilmədilər, hətta əksinə, o, öz arvadıyla birgə ən sanballı və zəhmli qureyşllərdən birini islama gətirdi. Məhz onlara görə Ömər ibn Əl-Xəttab islam dinini qəbul etdi.

* * *

Səid ibn Zeyd bütün cavanlıq enerjisini islama xidmət etmək üçün həsr etdi. O, islamı hələ iyirmi yaşı tamam olmamış qəbul etdi. O, Allahın rəsulu ilə birgə Bədr döyüşündən başqa, bütün hərbi yürüşlərdə və əməliyyatlarda iştirak etmişdir. Bədr döyüşü zamanı isə o, Peyğəmbərin ﷺ vacib bir tapşırığını yerinə yetirməklə məşğul idi.

Səid başqa müsəlmanlarla birlikdə Xosrovun və Bizans imperatorunun hakimliyinin devrilməsində iştirak edirdi. Müsəlmanların bütün döyüşlərində o, mətanət, mərdlik və cəsarət möcüzələrini göstərdi.

Səid belə qəhrəmanlıqlardan birini də Yərmuk döyüşündə göstərmişdi. İndi isə gəlin sözü bu qəhrəmanın özünə verək. Qoy o, həmin gün baş vermiş hadisələrin bir hissəsi haqqında danışsın.

* * *

Beləliklə, Səid ibn Zeyd danışır:

– Yərmuk döyüşü günü biz təxminən iyirmi dörd min nəfər idik, bizə qarşı çıxan bizanslıların ordusu isə yüz iyirmi min nəfərdən ibarət idi. Onlar böyük dağa bənzəyərək, sanki görünməyən bir əllə idarə olunan nəhəng kütlə şəklində üzərimizə gəlirdilər. Əsgərlərin önündə, əllərində xaç gəzdirən yepiskoplar, patriarxlar və dualar oxuyan keşişlər gəlirdilər. Ordu onların dualarını təkrarlayırdı və bütün bunlar göy gurultusunun səsinə bənzəyirdi.

Müsəlmanlar bu böyük gücün yaxınlaşdığını görəndə, düşmənin belə çoxsaylı olması onları mat qoydu və onların ürəklərinə qorxu düşdü.

Belə vəziyyətdə Əbu Ubeydə ibn Əl-Cərrah müsəlmanların qarşısında durub, onları döyüşə ruhlandırmaq üçün dedi:

– Ey Allahın qulları! Allaha kömək edin və O, sizə sarsılmazlıq bəxş edərək köməyinizə gələr.

Ey Allahın qulları! Mətanətli olun, çünki mətanət- küfrdən xilas olmaq üçün vasitədir və bu da sizə Allahın iltifatını qazanmağa və biabırçılıqdan yaxa qurtarmağa kömək edər. Nizələrinizi düşmənə yönəldir və qalxanlarla örtünün. Mən Allahın izni ilə sizə başçılıq etdiyim zaman siz Uca və Qüdrətli Allahı qəlblərinizdə zikr etməkdən başqa bir şey söyləməyin.

Səid öz hekayəsini davam edirdi: «Bundan sonra müsəlmanların arasından bir nəfər çıxıb Əbu Ubeydəyə dedi:

– Mən elə bu saat ölməyi qət etdim. Sən Allahın Rəsuluna bir söz ötürmək istərdin?

Əbu Ubeydə ona belə dedi:

– Hə, ona məndən və bütün müsəlmanlardan bizim salamımızı yetir və de: «Ey Allahın Rəsulu! Biz bildik ki, Alahımızın bizə vəd etdiyi əsil həqiqətdir!»

Səid davam edirdi: «Mən bu adamın sözlərini eşidib onun öz qılıncını qınından çıxardıb Allahın düşmənlərinin üstünə cumduğunu görəndə, dizlərimlə torpağa möhkəm dirəndim. Sonra nizəmi irəli çıxartdım və bizə tərəf yaxınlaşan ilk düşmən atlısını sancdım. Mən

düşmənin üstünə cumdum və Allah ürəyimdəki qorxunu yox etdi.

Allah müsəlmanlara qələbə bəxş edənə qədər, onlar bizasnlılara cəsarətlə və amansızcasına hücum etdilər və onlarla qəhrəmancasına döyüşməyə davam etdilər».

* * *

Bundan sonra Səid ibn Zeyd Dəməşqin fəthində iştirak edirdi. Dəməşq əhalisi müsəlmanlara tabe olandan sonra, Əbu Ubeydə ibn Əl-Cərrah Səidi Dəməşqin canişini təyin etdi. Beləliklə o, burada ilk müsəlman canişin oldu.

* * *

Umeyyəlilərin zamanında Səid ibn Zeydin başına belə bir hadisə gəlmişdir.

Uveysin qızı Ərva elan etdi ki, guya Səid ibn Zeyd onun torpağının bir hissəsini mənimsəyib. Sonra da qadın bu haqda qarşısına çıxan hər bir müsəlmana danışmağa başladı. O, hətta buna dair şikayət yazıb, onu Mədinəyə, Mərvan ibn Əl-Hakama göndərdi. Mərvan bu işi aydınlaşdırmaq üçün Səidin yanına öz adamlarını göndərdi. Çətin vəziyyətə düşən Peyğəmbərin səhabəsi dedi:

– Onlar hesab edirlər ki, mən onu sıxışdırıram?! Mən onu necə sıxışdırıram ki?! Mən özüm Allahın Rəsulunun bunu dediyini eşitmişəm: «Əgər bir kəs bir qarış torpağı xaincəsinə mənimsəsə, o, Qiyamət günü hər tərəfdən yeddi divarla əhatə olunacaq».

Ya Alah, o deyir ki, mən onunla ədalətsiz hərəkət etmişəm! Əgər o, yalan danışırsa, qoy kor olsun və mənimlə hansı quyuya görə iddia edirsə, qoy həmin quyuya düşsün! Mənim haqqımdan daha aydın olan, müsəlmanlara mənim o qadını incitmədiyimi və ədalətli olduğumu göstərən nurdur.

* * *

Bundan sonra bir az zaman keçdi və Aqiq vadisi ilə indiyədək görünməyən sel axıb keçdi. Bu sel sərhədlərin üstünü yuyub, onları açıq-aşkar göstərdi. Müsəlmanlara aydın oldu ki, Səid düz deyirmiş.

Bundan sonra bir ay keçdi və qadın kor oldu. O öz sahəsində gəzişərkən həmin quyuya düşdü.

Abdullah ibn Ömər dedi:

- Biz uşaq olanda, eşitmişdik ki, bir kişi o birisinə dedi: «görüm Allah səni Ərvanı kor etdiyi kimi kor etsin».

Burada təəccüblü bir şey yoxdur, çünki Allahın Rəsulu ﷺ deyirdi: «Məzlumun duasından qorxun, çünki onunla Allah arasında maneə yoxdur».

Belə olmasaydı, məzlum Səid ibn Zeyd Cənnətin on mömi-nindən biri necə olardı?![71]

* * *

[71] Səid ibn Zeyd haqqında əlavə məlumat üçün bax:

1. "Əl-İsabə", 2/46;
2. "Əl-İstiab", 2/2;
3. «Təbəqat», İbn Sad, 3/275;
4. «Tahzib ibn Əsakir», 6/127;
5. «Sifət əs-Səfva», 1/141;
6. «Hilyət əl-Övliya», 1/95;
7. «Ər-Riyad əl-Nadira», 2/302;
8. «Həyat əs-Səhabə» (14-cü hissənin mündəricatına bax).

# UMEYR İBN SAD
(erkən yaşlarında)

*Umeyrdən tək bir dənədir.*
Ömər əl-Xəttab

Umeyr ibn Sad uşaqlığın ən erkən çağından yetimliyin və yoxsulluğun acısını dadmışdır. Onun atası dünyasını dəyişəndə uşağına nə sərvət, nə də ailəni dolandıran birini saxlamamışdır. Lakin Umeyrin anası tezliklə əl Ausun[72] varlı adamlarından biri olan Əl-Culəs ibn Suveydə ərə getdi. O, uşağı öz ailəsinə qəbul edib, ona lazım olan hər şeyi verdi. Əl-Culəsin səmimi diqqəti və sevgisi Umeyri yetim olduğunu unutmağa məcbur etdi.

Umeyr Əl-Culəsi doğma atası kimi o da öz növbəsində Umeyri öz oğlu kimi sevdi. Umeyr boy atdıqca Əl-Culəs onun ağlına və istedadına heyran olub, onu gündən günə daha da çox sevirdi. Umeyrin etdiyi bütün işlərdə bacarığı görünürdü, hərəkətlərinə doğruluq məxsus idi.

* * *

Umeyrin on yaşı tamam olmamışdan bir az qabaq o islam dinini qəbul etdi. Bu din onun azad cavan ürəyinə daxil oldu. İslam onun büllur kimi şəffaf qəlbinin vahələrində dərindən kök atıb, orada özünə bərəkətli torpaq tapdı. Umeyr, cavanlığına baxmayaraq, heç vaxt namaza gecikmirdi, həmişə Allahın Rəsulu ﷺ arxasında namazını qılırdı. Umeyrin anası onu hərdən əri ilə, hərdən də tək məscidə getməyini və yaxud oradan qayıtdığını görüb həmişə sevinirdi.

* * *

Beləliklə, gənc Umeyr ibn Sadın həyatı bolluq və razılıq içində keçirdi. Onun əmin-amanlığına heç bir təhlükə yox idi. Bütün bunlar

---

[72] Əl Aus – Mədinədə yaşayan və Allahın Rəsulunu ﷺ qorumağı və onu öz himayəsində saxlamağı üzərinə götürmüş çoxsaylı bir qəbilə.

Allah həddi-buluğa çatmamış bu oğlanı ciddi və ağır bir sınağa çəkmək istədiyi bir vaxta qədər sürdü. Umeyrin bəxtinə o yaşda olan yeniyetmənin payına çox nadir halda düşən ağır və şiddətli bir həyat imtahanı yazılmışdır.

* * *

Hicrətin 9-cu ilində Allahın Rəsulu ﷺ Təbuka[73] bizanslılara qarşı yürüş etmək haqqında öz qərarını bildirdi. O müsəlmanlara buna hazırlaşmağı və lazım olan bütün ləvazimatla təchiz olunmağı əmr etdi.

Adətən hərbi yürüşə çıxmağa hazırlaşan Allahın Rəsulu ﷺ öz həqiqi niyyətlərini ört-basdır edərək, əsil məqsədini bildirmirdi və gedəcəyi bölgəni deyil, başqa vilayətin adını çəkirdi. Lakin bu dəfə Peyğəmbər ﷺ Təbukun uzaqda yerləşdiyini, yolun çətinliyini və düşmənin gücünü nəzərə alaraq, dərhal insanlara yürüşün məqsədi Təbuk olduğunu açıqladı. Bütün müsəlmanlar qarşılarında duran bu hərbi məsələnin mürəkkəbliyini bilməli idilər. Çünki onlar buna ciddi şəkildə hazır olmalı idilər və bu vəzifənin yerinə yetirilməsi üçün lazım olan hər şeyi təmin etməli idilər.

Yayın gəlməsinə, güclü isti havanın mövcudluğuna, meyvələrin yetişməsinə və kölgənin insanları özünə cəlb etməsinə və qəlblərdə taqətsizliyin və tənbəlliyin yaranmasına baxmayaraq, bütün insanlar öz Peyğəmbərinin ﷺ dəvətini eşidib fəal şəkildə hazırlaşmağa və təchiz olunmağa başladılar.

Lakin bununla yanaşı münafiqlərin[74] bir dəstəsi insanlardakı qətiyyəti sarsıtmağa, onların meylini qırmağa, hər cür şübhələr yaymağa və öz yığıncaqlarında Allahın Rəsulunu ﷺ və onun səhabələrini pisləməyə, ifşa etməyə, onları kafir kimi qələmə verməyə başladılar.

* * *

---

[73] Təbuk – Şamın sərhədlərindəki yer. Burada müsəlmanlarla bizanslılar arasında məşhur döyüş baş vermişdir.

[74] Münafiqlər – daxilində küfr gizlədən, zahirən isə özlərini islam tərəfdarları kimi göstərən insanlar.

Ordu yürüşə çıxmazdan qabaq günlərin bir günü məscidə namazını qılan gənc Umeyr ibn Sad evə qayıdırdı. O müsəlmanların fədakar şövqünə və onların istənilən qurbanlara hazır olduqlarına əmin oldu, və bütün bunlardan onun qəlbi gözəl təəssüratlarla dolub aşırdı.

Umeyir mühacir və ənsarlardan olan qadınların Allahın Rəsulunun ﷺ yanına gəldiklərini, öz cəvahirlərini çıxarıb, ona verdiklərini gördü. Onlar istəyirdilər ki, Peyğəmbər ﷺ bu vəsaitlə Allah yolunda müharibə aparan ordunu təchiz etsin.

Umeyr öz gözlərilə gördü ki, «Osman ibn Əffan içində min qızıl dinar olan torbanı gətirib onu Peyğəmbərə ﷺ verdi.

O həmçinin gördü ki, Əbd ər Rəhman ibn Auf içində iki yüz qızıl olan torbanı çiyninə atıb nəcib Peyğəmbərin ﷺ yanına gəlib, bu sərvəti ona verdi.

O, hətta qılınc almaq üçün öz yorğan-döşəyini satan insanı da gördü.

Umeyrin gözü önündə yenidən bu nadir və parlaq mənzərələr keçirdi. Eyni zamanda o, əl-Culəsin Allahın Rəsulu ﷺ ilə birgə yürüşə çıxmağa tələsmədiyinə və böyük imkanlarına və var-dövlətinə baxmayaraq, ümumi işə öz payını verməsini yubatmasına çox təəccüblənirdi.

Əl-Culəsin qəlbində lazımi qeyrəti və şövqi oyatmağa çalışan Umeyr ona gördüyü və eşitdiyi hadisələr haqqında danışmağa başladı. O, xüsusilə möminlərin bir dəstəsinin Allahın Rəsulunun ﷺ yanına gəldiklərini və onları da ordu tərkibinə daxil etmək xahişi ilə Peyğəmbərə ﷺ yalvarmaqlarını da danışdı. Lakin Peyğəmbər ﷺ onlara bütün könüllüləri mindirmək üçün minik heyvanlarının olmadığını səbəb gətirərək, onları qəbul etmədi. Xahiş edənlər gözlərində yaşlar geri döndülər. Onlar cihadda iştirak edə bilmədiklərinə və döyüş meydanında qəhrəmancasına həlak ola bilmədiklərinə görə çox kədərləndilər.

Lakin Əl-Culəs Umeyrin danışdıqlarına heç qulaq asmırdı və sonunda onun ağzından oğlanı mat qoyan və çox təəccübləndirən

sözlər çıxdı.

Umeyr onun belə dediyini eşitdi: «Əgər Məhəmməd özünün qabaqcadan xəbər vermələrində səmimidirsə, onda biz qatırlardan da pisik...

* * *

Bunu eşidən Umeyr çaşdı və özünü itirdi. O heç cür təsəvvür edə bilməzdi ki, Əl-Culəs kimi ağıllı və hörmətli bir insanın ağzından belə sözlər çıxa bilər. Buna bənzər bir şey deyən insan dərhal və tamamilə özünü dindən kənarda qoyur və beləcə bütövlüklə kafirlər sırasına keçir.

Müasir hesablama maşınları müvafiq tapşırığı alıb öz hesablamalarına başladığı kimi gənc Umeyr ibn Sadın da beyni, bu vəziyyətdə nə etmək lazım olduğu haqda düşünməyə başladı.

Əl Culəsin sözləri barəsində susub onu ört-basdır etmək Allaha və Onun Rəsuluna ﷺ xəyanət olar, bu elə də islama zərər vurar. Eşitdiyini hamıya bildirmək isə Umeyr üçün ikinci ata olmuş insana itaətsizlik və onun oğulluğu üçün etdiyi bütün yaxşılıqlara yamanlıq olar. Əl-Culəs bu yetimə ev və sığınacaq verdi, onu yoxsulluqdan çıxarıb, ona itirdiyi atasını əvəz etdi.

Bu gənc indi iki çətin variantdan birini seçməli oldu. Bunlardan biri o birisindən acınacaqlı idi. Bununla belə o tezliklə öz seçimini etdi...

Umeyr Əl-Culəsə dönüb dedi: «Culəs, Allaha and içirəm ki, Məhəmmməd ibn Abdullahdan sonra sən Yer üzündə mənim üçün ən çox istəkli adamsan. Mənim üçün bu qədər yaxşılıq edən, mənim üçün bu qədər yaxın və sevimli olan başqa birisi yoxdur. Mən sənin dediklərini danışsam, səni ələ verib biabır etmiş olaram. Əgər mən bunları gizlətsəm, onda öz əqidəmə xəyanət edib qəlbimi və imanımı məhv edərəm. Mən Allahın Rəsulunun yanına getmək və sənin sözlərin haqqında ona danışmaq qərarına gəldim. İşlərinin nə yerdə olduğundan xəbərin olsun».

* * *

Gənc Umeyr ibn Sad məscidə gedib, Əl-Culəs ibn Suveyddən eşitdiklərini Peyğəmbərə ﷺ danışdı. Peyğəmbər ﷺ oğlanı yanında saxladı, özü isə sahəbələrindən birini Əl-Culəsin dalınca göndərdi. Bir az vaxt keçdikdən sonra Əl-Culəs gəlib çıxdı. O Allahın Rəsulu ﷺı salamlayıb onun qarşısında əyləşdi. Peyğəmbər ﷺ Əl-Culəsdən soruşdu.

– Umeyir ibn Sadın səndən eşitdiyi sözlər nədir?!

Və ona söhbətin nədən getdiyini xatırlatdı. Əl-Culəs qışqırdı: «Ay Allahın Rəsulu, bu böhtan və yalandır, çünki mən belə bir şey deməmişəm».

Allahın Rəsulunun ﷺ sahəbələri gah Əl-Culəsə, gah da onun oğulluğu olan Umeyr ibn Sada baxmağa başladılar, sanki onların üzlərində qəlblərinin gizlətdiklərini oxumaq istəyirdilər.

Onlar bir-birilə pıçıldaşmağa başladılar. Ürəyi düz olmayanlardan[75] biri isə dedi: «Bu oğlan nəinki öz atasına hörmət etmir, hətta ona yaxşılıq edənə pislik edir». Başqaları isə dedilər: «Axı bu oğlan Allaha tabe olaraq böyüyüb, onun üzünün cizgiləri isə onun düzlüyündən və səmimiliyindən xəbər verir»,

Allahın Rəsulu ﷺ üzünü Umeyrə çevirib gördü ki, onun üzü qızarıb, gözlərindən isə yanaqlarına və sinəsinə yaşlar tökülür. Umeyr yalvarırdı: «Allahım, Peyğəmbərinə mənim sözlərimə dair aydınlıq nazil et... Allahım, Peyğəmbərinə mənim sözlərimə dair aydınlıq nazil et...»

Əl-Culəs özünü təmizə çıxartmağa başladı: «Ey Allahın Rəsulu, mənim sənə dediyim əsil həqiqətdir. İstəyirsənsə, bizlərdən hər birimiz sənin qarşında düz danışdığına and içə bilər. Mən sənin qarşında Allaha and içirəm ki, Umeyrin sənə danışdıqlarından heç birisini deməmişəm».

Əl-Culəs öz andını bitirdikdən sonra orada olanların baxışları Umeyr ibn Sada dikildi, Allahın Rəsulunun ﷺ üzü isə ilahi sakitliklə nurlandı. Peyğəmbərin ﷺ bütün sahəbələri anladılar ki, ona ilahi vəhy nazil oldu.

Onlar öz söhbətlərini kəsib, dərin sükut içində yerlərində

[75] Ürəyi düz olmayanlar – yəni münafiqlik əlaməti olanlar.

dondular və baxışlarını Peyğəmbərə ﷺ yönəltdilər. Bu vaxt bilindi ki, Əl-Culəs möhkəm narahatlıq və qorxu keçirtməyə başladı. Umeyr isə səbirsizliklə gözləyərək, tərpənmədən yerində qaldı. Qalanları da Peyğəmbərin ﷺ üzündən ilahi vəhyin əlamətləri itənədək, bu hissləri keçirtdilər.

O, təntənəli surətdə Uca Allahın sözlərini oxudu: «(Münafiqlər) **Allaha and içirlər ki, Peyğəmbər haqqında nalayiq sözlər deməyiblər.** (And olsun ki) **onlar küfr sözünü demiş, islamı** (zahirən) **qəbul etdikdən sonra kafir olmuş, müvəffəq ola bilmədikləri bir işə** (Təbuk döyüşündən qayıdarkən Peyğəmbərə qarşı hazırladıqları sui-qəsdə) **girişmişdir.** (Münafiqlərin Peyğəmbərə və möminlərə qarşı) **kin-kudurət bəsləmələrinin səbəbi yalnız Allahın və Peyğəmbərin öz nemətləri ilə onları varlandırmasıdır. Bununla belə, əgər** (ikiüzlülüklərindən və digər yaramaz əməllərindən) **tövbə etsələr, onlar üçün xeyirli olar. Yox, əgər** (imandan) **üz döndərsələr, Allah onları dünyada və axirətdə şiddətli bir əzaba mübtəla edər».** (Tövbə, 74).

Bunu eşidən Əl-Culəs dəhşətə gəlib diksindi və qorxudan az qalmışdır ki, nitqi kəsilsin. Bir az vaxt keçəndən sonra O, Allahın Rəsuluna ﷺ dedi: «Ya Rəsulallah, mən tövbə edirəm... Həqiqətən, tövbə edirəm...», «Ya Rəsulallah, Umeyr düzünü deyib, mən isə yalançı olmuşam. Allaha yalvarıram, mənim tövbəmi qəbul etsin. Ya Rəsulallah, sənin fidyən olum!»

Bu sözlərdən sonra Rəsulallah ﷺ gənc Umeyrə baxıb gördü ki, o sevindiyindən ağlayır. Rəsulallah ﷺ nəcib əlini uzadıb, Umeyrin qulağına toxundu və dedi: «Oğlan, sənin qulağın eşitdiyindən razıdır. Sənin Rəbbin sənə inandı».

* * *

Bu hadisədən sonra Əl-Culəs islama qayıdıb nümunəvi müsəlman oldu.

Rəsulallah□n ﷺ səhabələri onun düz yolda olduğuna inandılar, çünki o, Umeyrə hər cür nemətləri təmənnasız bəxş edirdi. Umeyrin adı çəkiləndə isə o, həmişə deyirdi: «Allah mənim əvəzimə onu

xeyirlə mükafatlandırdı. O məni allahsızlıqdan qoruyub, boynumdan alovlu ilməni çıxartdı».

Lakin Rəsulallah□n ﷺ səhabələrindən olan gəncin həyatındakı bu hadisə hələ ən parlaq əhvalat deyil. Onun həyat yolunda bu hadisəni öz parlaqlığı ilə geridə qoyan daha gözəl epizodlar olub.

Gəlin Umeyr ibn Sadla yenidən onun gənclik günlərində görüşək.

* * *

# UMEYR İBN SAD
(gəncliyində)

*«Mən istərdim ki, mənim Umeyr ibn Sada bənzər adamlarım olsun ki, müsəlmanların işlərində onların köməyinə arxalana bilim»,*
Ömər ibn Əl-Xəttab

Biz artıq Rəsulallah□n ﷺ gözəl səhabəsi olan Umeyr ibn Sadın həyatındakı parlaq və ürəyəyatan bir hadisə ilə tanış olduq.

İndi isə gəlin Umeyr böyüyəndən sonra onun həyatında baş vermiş başqa bir hadisə ilə tanış olaq. O öz parlaqlığı və nəhəngliyinə görə birincisindən heç də geri qalmır.

Homs[76] sakinləri həmişə öz hökmdarlarından narazılıqlarını bildirib onlardan çox şikayət edirdilər. Hər dəfə onların yanına yeni canişin gələndə onlar dərhal onda eyblər tapıb, qəbahətlərini sayırdılar və bunu müsəlmanların xəlifəsinə çatdırıb ondan xahiş edirdilər ki, o bu canişini başqası ilə onlar üçün daha uyğun olanı ilə əvəz etsin.

Sonunda Əl-Faruq onlar üçün nöqsansız və eyibsiz bir canişin göndərmək qərarına gəldi.

Döyüşçü oxqabında bir-bir oxları diqqətlə yoxladığı kimi, Əl-Faruq da bütün silahdaşlarını belə səylə sınadı və qərara gəldi ki, Umeyr ibn Saddan başqa heç kim bu məsələnin öhdəsindən gələ bilməz.

Bu zaman Umeyr Allah uğrunda vuruşan ordunun başında dayanmışdır. Bu ordu Şamın şimali-şərqində hərbi yürüşdə idi. O, şəhərləri azad edir, qalaları darmadağın edir, qəbilələri özünə tabe edir və ayaq basdığı hər yerdə məscid tikdirirdi.

Bütün bunlara baxmayaraq əmirəlmöminin Umeyri geriyə çağırıb, onu Homsa canişin təyin etdi və oraya getməyə əmr etdi. Umeyrin ən çox sevdiyi iş Allah yolunda cihad olduğu üçün. Bu qərar onun xoşuna gəlmədi, amma o, əmrə tabe oldu.

* * *

[76] Homs – Suriyanın mərkəzi hissəsində Dəməşq və Hələb arasında yerləşən şəhər. Burada Xalid ibn Əl-Validin qəbri yerləşir.

Umeyr Homsa gəlib adamları ümumi namaza çağırdı. Namazı bitirdikdən sonra o, adamlara müraciət etdi. Allaha təriflər söyləyib və Ona şğkrünü bildirəndən sonra Umeyr Məhəmmədə ﷺ salavatdan sonra dedi:

«Ey insanlar! Həqiqətən, islam sarsılmaz qala və möhkəm qapılardır. İslamın dayağı ədalət, onun qapıları isə həqiqətdir. Qala yıxılsa və qapılar dağıdılsa, onda bu dinin müqəddəsliyi və toxunulmazlığı tapdalanmış olar. Hökmdarın gücü isə şallağa sahib olma qabiliyyətində və başların qılıncla kəsilməsində deyil. Bu güc ədalətli və qanuni hökmranlıqdadır».

Bundan sonra Umeyr qısa xütbəsindəki ifadə etdiyi əsas qanuna müvafiq olaraq öz vəzifələrini yerinə yetirməyə başladı.

* * *

Homsda rəhbərlik etdiyi bir il ərzində Umeyr ibn Sad əmirəl-mömininə bir dənə də olsun məktub yazmadı və müsəlmanların xəzinəsinə vergilərdən nə bir dirhəm, nə də bir dinar göndərmədi..

Ömərin qəlbinə şübhələr dolmağa başladı, çünki o öz canişinlərinin özbaşınalığına görə çox qorxurdu. Onun üçün nöqsansız yalnız Allahın Rəsulu ﷺ olub.

Ömər öz katibinə dedi: «Umeyr ibn Sada namə yaz və orada qeyd et: «Əmirəlmömininin bu naməsini alsan, Homsu tərk et və müsəlmanlar üçün yığılan vergilərin bütün məbləğini götürüb, onun yanına gəl»,

* * *

Umeyr ibn Sad Ömərin naməsini alan kimi, ərzaqla dolu bir torba hazırladı, çiyninə bir kasanı və dəstəmaz üçün qabı asaraq, əlinə nizəsini götürüb, Homsu və bu əmirliyin ərazisini tərk edib, piyada yola düşdü. O Mədinə istiqamətində irəliləyirdi. Mədinəyə yaxınlaşan Umeyr çox yorğun və solğun görünürdü. Onun uzun dağılmış saçlarında ağır yolçuluğun çətinlikləri bütövlüklə əks olunmuşdu.

* * *

Umeyr Ömər ibn Əl-Xəttabın yanına gələndə o, Umeyrin görkəminə təəcüblənib soruşdu:

– Umeyir sənə nə olub?

Umeyr cavab verdi:

– Ey Əmirəlmöminin, mənə heç bir şey olmayıb. Şükür olsun Allaha, mən sağlamam və tam qaydasındayam. Mən özümlə bütün dünyanı aparıram və onu buynuzlarından tutub sürüyürəm.

Ömər soruşdu:

– Sən hansı dünyanı özünlə gətirmisən?! (O, Umeyrin müsləmanların xəzinəsi üçün pul gətirdiyini fikirləşirdi).

Umeyr cavab verdi:

– Mən özumlə ərzaq torbasını, yemək üçün, baş yumaq və paltar yumaq üçün kasanı və eləcə də dəstəmaz üçün və içməli su üçün tuluq gətirmişəm. Beləliklə, ey əmirəlmömininin, bütün dünya mənim yükümdə toplanıb, israfa isə nə mənim, nə də başqalarının ehtiyacı yoxdur.

Ömər soruşdu:

– Sən piyadə gəlmisən ki?

– Hə, Əmirəlmömininin, – Umeyr cavab verdi.

– Bəs sənin camaatın sənə bir minik heyvanı vermədilər ki, sən onunla gələsən? – Ömər soruşdu.

– Yox, onlar özləri mənə heç nə vermədilər, mən də onlardan xahiş etmədim,- Umeyr dedi.

– Bəs sənin müsəlmanların xəzinəsi üçün gətirdiyin hanı?

Ömər soruşdu.

– Mən heç nə gətirməmişəm, – Umeyr dedi.

Axı niyə: – Ömər qışqırdı.

Umeyr onu başa saldı:

– Mən Homsa gələndə oranın ən mömin sakinlərini topladım və onlara vergiləri yığmağı tapşırdım. Hər dəfə onlar müəyyən məbləğ yığanda mən onlarla məsləhətləşib pulları yerli sakinlərdən ən layiqliləri arasında bölüşdürdüm.

Ömər öz katibinə əmr etdi: «Umeyri yenidən Homsa canişini təyin etmək haqqında qərarı təzələ».

Umeyir etiraz etdi: «Nəbada! Bu elə mənim heç istəmədiyim bir şeydir. Ey Əmirəlmömininini, mən daha heç vaxt nə sənin, nə də səndən sonra başqa birisinin canişini olmaq istəmirəm»,

* * *

Sonradan Umeyr Ömərdən Mədinənin kənarındakı kənddə, qohumlarının yanında yaşamaq üçün icazə aldı. Və Ömər buna razılıq verdi.

Umeyr doğma kəndinə getdikdən sonra bir az müddət keçdi, və Ömər öz silahdaşlarının doğruluğunu və mötəbərliyini yoxlamaq istədi. O, Əl-Haris adlı bir yaxın adamına dedi:

– Ey Haris, Umeyr ibn Sadın yanına get «onun evində qonaq kimi qal. Əgər görsən ki, o bolluq içində yaşayır, onda heç nə olmamış kimi geri dön. Əgər görsən ki, o çox kasıbdır, onda bu pulları ona ver, və əl-Harisə içində yüz dinar olan pul kisəsini verdi.

* * *

Umeyr ibn Sadın kəndinə gələn Əl-Haris adamlardan onun haqqında soruşdu və onlar onun evini göstərdilər. Umeyr ilə görüşən Əl-Haris dedi: «Allahın sənə salamı və rəhməti olsun!»

Umeyr dedi:

– Sənə də Allahın salamı, rəhməti və xeyir-duası olsun. Haradan gəlirsən?

– Mədinədən, – deyə Əl-Haris cavab verdi.

– Hə, orada müsəlmanların işləri necədir? – Umeyr soruşdu.

– Hər şey qaydasındadır, – Əl-Haris cavab verdi.

– Bəs əmirəlmömininin necədir? – Umeyr soruşdu.

– Sağ-salamatdır, – Əl-Haris cavab verdi.

– O insanları yenə də cəzalandırır? – Umeyr soruşdu.

– Hə, əlbəttə o öz oğlunu da günahına görə döydğ – Əl-Haris cavab verdi.

Umeyr ucadan dedi: «Allahım, Ömərə yardım et! Onun sənə qarşı olan güclü məhəbbətində əminəm!»

* * *

Əl-Haris Umeyr ibn Sadın evində üç gün qonaq oldu. Hər gün Umeyr ona arpa unundan hazırlanmış bir kökə verirdi.

Üçüncü gün kəndin sakinlərindən biri Əl-Harisə dedi: «Sən Umeyr üçün ağır yük oldun, onu çox zətin vəziyyətdə qoydun. Onların bu arpa unundan olan kökədən savayı yeməyə bir şeyləri yoxdur. Onu da özlərindən kəsib sənə verirlər. Onlar aclıq keçirirlər, çox kasıbdırlar. Əgər etiraz etmirsənsə, yaşamağa mənim evimə keç, mən səni məmuniyyətlə qəbul edərəm».

* * *

Bundan sonra Əl-Haris pul kisəsini çıxardıb, onu Umeyrə verdi,

Umeyr soruşdu: «Bu nədir?»

Əl-Haris cavab verdi: «Bu pulları sənə əmirəlmöminin göndərib!»

Umeyr dedi: Pulları ona qaytar. Ona mənim salamımı yetir və de ki, Umeyrin pula ehtiyacı yoxdur.

Bu zaman söhbətə Umeyrin arvadı müdaxilə etdi. O dedi: «Umeyr, onları götür. Əgər onlara ehtiyacın varsa, onları xərcləyərsən. Əgər onlar sənə lazım deyilsə, onları lazım olan yerə sərf et, çünki burada imkansız adam çoxdur».

Bu sözləri eşidən Əl-Haris dinarları Umeyrin əllərinə verib, tələsik getdi. Umeyr pulları balaca kisələrə yerləşdirib, onları hər gün imkansızlara, ilk növbədə yürüşlərdə həlak olan döyüşçülərn yetimlərinə paylamağa başladı.

* * *

Əl-Haris Mədinəyə qayıtdıqda Ömər ondan soruşdu:

– Hə, Haris, sən nə gördün?

– Onun çox yoxsul olduğunu, – deyə Əl-Haris cavab verdi.

– Sən dinarları ona verdin? – Ömər soruşdu
– Bəli, əmirəlmöminin, – Əl-Haris dedi.
– Bəs o dinarları neylədi? – Ömər soruşdu.
– Bilmirəm, – Əl-Haris dedi. – Mən düşünmürəm ki, o bu pullardan bir dirhəm belə özünə götürər.

Əl-Faruq Umeürə belə məzmunlu məktub göndərdi: «Mənim məktubumu alsan, yanıma gələnədək onu əlindən buraxma».

* * *

Umeyr ibn Sad Mədinəyə gəlib tezliklə əmirəl-mömininin hüzurunda dayandı. Ömər onu salamlayıb yanında oturdu.

Sonra isə soruşdu: «Umeyr, sən dinarlarla neylədin?»

Umeyr ucadan dedi: «Ömər, əgər sən onları mənə vermisənsə, onda sənin onlarla nə işin var?!»

Ömər dedi: «Mən qəti qərara gəlmişəm ki, sən mənə bu haqda danışmalısan».

Umeyr cavab verdi: «Mən onları özüm üçün saxladım ki, onlar mənə nə var-dövlətin, nə də insanların kömək edə bilməyəcəkləri o gündə mənə xeyir gətirsinlər».

Ömərin gözləri yaşla doldu və o dedi: «Təsdiq edirəm ki, sən elə insanlardansan ki, onlar özləri böyük ehtiyac içində ikən həmişə başqalarına yardım etməyə çalışırlar».

Sonra o əmr verdi ki, Umeyrə bir dəvənin yükü qədər ərzaq və iki dəst geyim versinlər.

Umeyr dedi:

– Bizim ərzaqdan ehtiyacımız yoxdur, ey əmirəl-möminin. Mən qohumlarımın yanında ikən çəki ölçüsündə arpa saxlamışam. Biz onu yeyib qurtaranadək qüdrətli Allah bizə ruzi yetirər. Hə, paltarları isə arvadım üçün götürərəm. Onun geyimi o qədər köhnəlib ki, o demək olar ki, artıq çılpaq gəzir.

* * *

Onun əl-Faruq ilə bu görüşündən sonra tez bir zamanda Allah Ümeyür ibn Sada onun sevimli Peyğəmbəri Məhəmməd ibn Abdullaha ﷺ qovu□mağa icazə verdi. Umeyr artıq uzun müddət onunla görüşməyə can atırdı. O heç bir dünyəvi ağırlıqlara və qayğılarla yüklənmiş şəkildə, təmiz qəlbi ilə və inamlı addımlarla gələcək həyatın yoluyla getdi. O, bu həyatdan özü ilə Allahın nurunu, onun öyüdünü, möminliyi və əxlaqı apararaq getdi...

Umeyrin vəfatı haqqında xəbər Ömərə çatanda onun ürəyi kədərlə doldu və o dedi: «Elə istərdim, mənim Umeyr ibn Sad kimi adamlarım olsun ki, müsəlmanların işlərində onlara arxalana bilim».

* * *

Allah Umeyr ibn Saddan razı olsun, ona rahatlıq versin. Umeyr insanlar arasında nadir bir nümunə Məhəmməd ibn Abdullahın məktəbində isə ən yaxşı şagird olub...[77]

---

[77] Umeyr ibn Sad haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə» 3/32;
2. «Əl-İstiəb», 2/487;
3. «Əsəd əl-Qaba», 1/293;
4. «Siyər əələm əl-Nübələ», 1/86 və ilaaxır;
5. «Həyat əl-Səhabə» /4-cü hissənin mündəricatına bax./;
6. «Qadət fəth əl-İraq və Əl-Cəzair», 513-cü səh. ;
7. «Əl-Ələm» 5/264.

# ƏBDÜRRƏHMAN İBN AUF

*«Sənin verdiyinə görə Allah sənə xeyir-dua versin. Vermədiyinə görə də Allah sənə xeyir-dua versin».*
Rəsuləllahın duasından

O islamı qəbul etmiş ilk səkkiz nəfərdən biri idi. O Cənnətlə mücdələnən on nəfərdən biri olub. O həmçinin Əl-Faruqdan sonra xəlifə seçilən gündə şuranın altı üzvündən biri olub.

Rəsulallah ﷺ Mədinədə müsəlmanları topladığı zaman o, Mədinə gənclərinin arasında idi.

İslamdan qabaqkı dövrdə onun adı Əbd Amr idi. O islam dinini qəbul etdikdən sonra Rəsulallah ﷺ ona Əbdürrəhman (Rəhmanın qulu) adını verdi.

Əbdürrəhman ibn Auf belə idi. Allah ondan razı olsun və ona rahatlıq versin.

* * *

Əbdürrəhman ibn Auf islam dinini nəcib Peyğəmbər ﷺ Əl-Ərqamın[78] evinə girməmişdən qabaq və Əs-Siddiq islamı qəbul edəndən iki gün sonra qəbul etdi. Bütün ilk müsəlmanlar kimi Əbdürrəhman da ağır sınaqlara dözdü. O da onlar kimi davam gətirdi. O möhkəm və doğruçu idi. Bir çox başqa müsəlmanlar kimi o da öz inamını xilas edərək Həbəşistana köçdü.

Allahın Rəsulu ﷺ və onun səhabələrinə Mədinəyə köçməyə icazə veriləndə Əbdürrəhman Allah və Onun Rəsulu uğurunda hicrət edənlərin önündə idi.

Allahın Rəsulu ﷺ mühacirlərin ənsarlarla qardaşlaşmasına başlayanda o, Əbdürrəhmanı Sad ibn Rabiə əl-Ənsari ilə qardaşlaşdırdı.

Sad ona dedi: «Qardaşım! Mən Mədinədə ən böyük sahibkaram.

[78] Əl-Ərqam ibn Əbd Mənəf Əl-Məhzumi adlı bir məkkəlinin evi «islam evi» adlandırılmışdır, çünki məhz bu evdə Rəsulallah ﷺ insanları islama çağırırdı.

Mənim iki bacım var. Bundan əlavə mənim iki arvadım var. İki bağdan urəyinə yatan birini seç, və mən onu sənə verim. Həmçinin arvadlarımdan xoşuna gələnini seç, mən onunla boşanım ki, onunla evlənə biləsən».

Əbdürrəhman qardaşı əl-Ənsariyə dedi: «Allah sənə, yaxınlarına və mal-dövlətinə xeyir-dua versin... Amma istərdim ki, mənə bazarı göstərəsən...» Sad Əbdürrəhmana bazarı göstərdi və o, orada alver etməyə, mal alıb mal satmağa, gəlir əldə etməyə və vəsait toplamağa başladı.

Çox tez bir zamanda Əbdürrəhman mehr[79] üçün lazım olan vəsaitləri toplayıb evləndi və Rəsulallahın ﷺ yanına gəlib ətrafına xoş qoxular saçmağa başladı. Peyğəmbər ﷺ təəccüblü halda soruşdu: «Sənə nə olub?»

Əbdürrəhman dedi: «Mən evlənmişəm».

Onda Rəsulallah ﷺ soruşdu: «Bəs arvadına hansı mehri verdin?!»

Əbdürrəhman cavab verdi: «Mən ona bir navat qızıl verdim».

Allahın Rəsulu ﷺ dedi: «Özü də mütləq qonaqlıq təşkil et. Heç olmasa bir qoyun kəs. Allah sənə bu var-dövlətində xeyir-dua versin!».

Əbdürrəhman buna cavab olaraq dedi: «Mənim yanıma o qədər adam gəldi ki, mən hətta düşünürəm ki, istədiyim daşı qaldırsam, onun altında ya qızıl, ya da gümüş taparam».

* * *

Bədr döyüşündə Əbdürrəhman ibn Auf Allah uğrunda qəhrəmancasına vuruşurdu və döyüş zamanı Allahın düşməni Umeyr ibn Osman ibn Kab Ət-Teymiyyəni öldürdü.

Uhud döyüşündə döyüşçülərin ürəklərinə qorxu düşəndə o, möhkəmlik göstərdi, və məğlub olunanlar geriyə çəkiləndə o səbatı saxladı. O döyüşdən çıxanda bədənində iyirmidən çox yara var idi, onlardan bəziləri elə ciddi və böyük idi ki, onların içinə əl rahat girirdi.

[79] Mehr – nigah bağlanan zaman ərin arvada verdiyi əmlak.

Bütün bu qəhrəmanlarla yanaşı Əbdürrəhman ibn Aufun döyüş meydanındakı cihadı onun öz mülkünü ianə vermək cihadı ilə heç bir müqayisəyə girmirdi.

Bir dəfə hərbi yürüşün keçirilməsi üçün dəstəni silahlandırmaq istəyən Rəsulallah ﷺ səhabələrinə müraciət etdi. Öz ianələrinizi verin, çünki mənim hərbi ekspedisiya yollamaq fikrim var».

Əbdürrəhman ibn Auf evə qaçıb sonra tez Peyğəmbər ﷺ-in yanına qayıtdı və dedi: «Ya Rəsulallah! Məndə dörd min var idi, onlardan ikisini Rəbbimə borc verdim, ikisini isə övladlarıma saxladım». Bunu eşidən Rəsulallah ﷺ ucadan dedi: «Sənin verdiklərinə görə Allah sənə xeyir-dua versin... Vermədiklərinə görə də Allah sənə xeyir-dua versin...»

* * *

Rəsulallah ﷺ ömründəki sonuncu olan Təbuk[80] hərbi yürüşünü təşkil etmək istəyəndə, onun həm döyüşçülərə həm də vəsaitlərə böyük ehtiyacı var idi. Bizanslıların ordusu çoxsaylı idi. Mədinədə isə həmin il quraqlıq baş vermişdi. Qoşunları irəlidə uzun və ağır keçid gözləyirdi, ərzaq az idi, minik heyvanlarının çatışmamazlığı o qədər az idi ki, Peyğəmbərin ﷺ yanına gəlib, onları yürüşə götürməyi xahiş edəndə, o , onları geri qaytarmağa məcbur oldu. Çünki onlar üçün minik heyvanları yox idi. Bu insanlar kədərlənib gözlərində yaş çıxıb getdilər.

Bunları «ağlağanlar», yürüşdə iştirak edənlərə isə «ağır vəziyyətdə olan ordu» adlandırdılar. Belə vəziyyəti görən Rəsulallah ﷺ öz səhabələrinə Allah yolunda ianələr verməyə əmr etdi. O qeyd etdi ki, bu yaxşı əməl Allahın tərəfindən qəbul olunacaq.

Bütün müsəlmanlar bir nəfər kimi Peyğəmbərin bu çağırışını yerinə yetirməyə cumdular. İlk ianə verənlərdən biri də iki yüz ünsiyə qızıl həcmində öz payını gətirən Əbdürrəhman ibn Auf oldu. Bu barədə Ömər ibn Əl-Xəttab Rəsulallaha ﷺ dedi: «Əbdürrəhmanın etdiyi günahdır. O öz qohumlarına və yaxınlarına

[80] Şamla Ərəbistan yarmadasının sərhədində yerləşən romalıların və bizanslıların əllərində olan şəhər indi ərazi baxımından Səudiyyə Krallığının tərkibinə daxildir.

heç nə saxlamadı...

Allahın Rəsulu ﷺ soruşdu: «Ey Əbdürrəhman öz yaxınlarına bir şey saxladınmı?»

O cavab verdi: «Bəli, mən xərclədiyimdən daha zoxunu və daha yaxşısını onlar üçün saxladım!»

Allahın Rəsulu ﷺ soruşdu: «Bu nə qədərdir ki?»

Əbdürrəhman cavab verdi: «Bu Allahın və onun Peyğəmbərinin vəd etdiyi onun ruzisi, xeyiri və mükafatıdır».

* * *

Müsəlman ordusu Təbuka yürüşə çıxdı. Bu yürüşdə Allah Əbdürrəhmanı elə bir şərəflə mükafatlandırdı ki, bu hörmətə müsəlmanlardan heç kim layiq görülməmişdir.

Bir dəfə namazın vaxtı çatmışdır, amma Rəsulallah ﷺ yerində yox idi. Onda Əbdürrəhman müsəlmanları yığıb, imamın yerini tutdu. Və özü ümumi namaza rəhbərlik etməyə başladı. Birinci rğkət təzəcə qurtarmışdır ki, Rəsulallah ﷺ namaz qılanlara qoşuldu. O namaz qılanların sıralarında durub Əbdürrəhman ibn Aufun arxasında namazını qıldı...

Məgər bütün insanların başçısı və peyğəmbərlərin imamı olan Məhəmməd ibn Abdullahın imamı olmaqdan daha şərəfli və dəyərli bir şey ola bilər?

* * *

Rəsulallah ﷺ vəfat edəndən sonra Əbdürrəhman möminlərin analarının maraqlarının mğdafiəçisi və onların qəyyumu oldu. O onların ehtiyacları üçün xahiş edir, onları səfərlərdə və həcc zamanı müşayiət edir, kəcavələrini yaşıl talvarlarla örtüb, onlara müxtəlif diqqətəlayiq yerləri göstərirdi. Öz xasiyyətinin belə tərifə layiq xüsusiyyətlərinin və möminlərin analarının ona hədsiz etibar etmələrinin sayəsində Əbdürrəhman ibn Auf özü ilə fəxr edə bilərdi.

* * *

Əbdürrəhman ibn Aufun müsəlmanlara və möminlərin analarına qarşı xeyriyyəçiliyi o dərəcəyə çatdı ki, o özünə məxsus olan torpağı qırx min dinara satıb bu pulları Zuhra[81] qəbiləsinin adamları, kasıb müsəlmanlar və mühacirlər arasında bölüşdürdü. Pulları həmçinin Peyğəmbərin bütün arvadları aldı, və möminlər anası Aişə öz payını alanda soruşdu: «Bu pulları kim göndərib?» Ona deyəndə ki, bunu Əbdürrəhman ibn Auf edib, o dedi: «Axı, Rəsulallah demişdir: «Məndən sonra dözümlülərdən savayı, heç kim sizə acımayacaq».

* * *

Peyğəmbərin Uca Allaha dua edib, Əbdürrəhman ibn Auf üçün xeyir-bərəkət istəməsi İbn Aufu bütün ömrü boyu müşayiət etdi. Əbdürrəhman Peyğəmbərin səhabələrindən ən varlısı oldu. Onun ticarəti artır və çoxalırdı, ona məxsus olan karvanlar isə Mədinəyə gedib qayıdırdı və onun sakinləri üçün buğda, un, yağ, geyim, qab-qacaq, ətirlər və başqa lazımi şeylər gətirirdi.

Əbdürrəhmanın karvanları Mədinədə istehsal olunan malların artıqlarını oradan çıxarırdı.

* * *

Günlərin bir günü Əbdürrəhmanın yeddi yüz dəvədən ibarət növbəti karvanı Mədinəyə gəldi...

Bəli, məhz belə. Bu karvanda ərzaq və başqa mallar gətirmiş yeddi yüz yük heyvanı var idi.

Karvan Mədinə ərazisinə daxil olanda, yer əsdi, onun dərinliklərində isə güclü səslər eşidildi. Aişə soruşdu: «Bu təkanlar və səs-küy nədir belə?» Ona dedilər: «Bu Əbdürrəhman ibn Aufun karvanıdır. Onun yeddi yüz dəvəsi buğda, un və başqa ərzaq gətirib».

Aişə ucadan dedi:

– Allahın ona bu dünyada verdiyi mükafatı xeyirli olsun. Onun o

---

81 Zuhra qəbiləsinin adamları – Peyğəmbərin anası, Vahbın qızı Əminənin qəbiləsi.

biri mükafatı isə daha böyük olacaq. Mən eşitmişəm ki, Peyğəmbər ﷺ belə deyib: *«Əbdürrəhman ibn Aufun mükafatı o olacaq ki, o, cənnətə düşəcək»*[82].

Hələ karvandakı dəvələr yerə oturmamışdılar ki, elçi Əbdürrəhman ibn Aufa möminlər anasının, onun cənnətə düşəcəyi haqqaında şad xəbərini çatdırdı. Bu müjdə İbn Aufun qulaqlarına çatan kimi o, ürəklənib Aişənin yanına qaçdı və gələn kimi ondan soruşdu: «Ey möminlən anası, sən bunu Allahın Rəsulunun ﷺ özündən eşitmisən ki?».

– Bəli, – deyə o, cavab verdi.

Əbdürrəhmanı sevinc bürüdü və o, qışqırdı: «Ah, əgər bacarsaydım, Cənnətə ayaq üstə girərdim. Ey möminlər anası, mən təntənəli surətdə təsdiq edirəm ki, bu karvanı bütün yükü və tayı ilə Allaha qurban verirəm».

* * *

Əbdürrhman cənnətə düşmək qismətinə yazıldığı haqda xoş xəbəri aldığı o gözəl və parlaq gündən sonra, onun Allah yolunda vəsait xərcləmək və ianə vermək meyli güclənib artdı.

Əbdürrəhman gizli və aşkar, sağa və sola böyük ianələr paylamağa başladı. Əvvəl o, qırx min gümüş dirhəm, sonra isə qırx min qızıl dirhəm gətirdi.

Onun növbəti payı iki yüz unsiya qızıl oldu.

Bundan əlavə, Əbdürrəhman mücahidlər dəstəsinə beş yüz at, sonradan da başqa bir dəstəyə min beş yüz minik heyvanı verdi.

Ölüm ayağında olarkən o öz qullarının bir çoxunu azadlığa buraxdı.

Bununla belə o, Bədr döyüşündə sağ qalan hər bir döyüşçüyə dörd yüz qızıl dinar vəsiyyət etdi. Və bu yüz döyüşçüdən hər biri bu məbləği aldı.

Möminlərin analarından hər birinə də böyük məbləğ vəsiyyət

---

[82] Allahın Rəsulu bəyan etmişdir ki, Əbdürrəhman ibn Auf Cənnətə uzanmış vəziyyətdə, sürünə-sürünə girəcək.

olunmuşdur. Möminlər anası Aişə Əbdürrəhmanı belə dua ilə tez-tez yad edəirdi: «Allah onu Salsəbildən[83] içizdirsin».

Bütün bunlardan əlavə, onun öz varislərinə saxladığı böyük sərvət təşkil edirdi... Onun mirasında min dəvə, yüz at və üç min qoyun var idi. Əbdürrəhmanın dörd arvadından hər biri mirasdan ona düşən payını aldı. Bu pay səksən min təşkil etdi.

Ondan sonra qalan qızıl və gümüş o qədər çox idi ki, onu aralarında bölən varislər külçələri balta ilə kəsib bölməkdən yorulmuşdular.

Bütün o var-dövlət Əbdürrəhmana ona görə nəsib oldu ki, Peyğəmbər ﷺ Allaha dua edib, ondan Əbdürrəhmanın əmlakının xeyirli olmasını istədi.

* * *

Lakin bütün bu var-dövlət Əbdürrəhmanı nə valeh etdi, nə də onu dəyişdirdi. İnsanlar onu öz qulları arasında görəndə, onu zahiri görünüşünə görə qullardan seçə bilmirdilər.

Bir dəfə o oruc tutanda, onun üçün yemək gətirdilər. Əbdürrəhman həmən adama baxıb dedi:

– Məndən daha yaxşı olan Musab ibn Umeyr öldü, biz isə ona yalnız elə kəfən tapa bildik ki, o, başı örtür və ayaqları açıq qalırdı və yaxud ayaqları örtüb, başı açıq qalırdı... Allah bizim üçün neçə dünya yaradıbsa, elə də var. Həqiqətən, mən qorxuram ki, tezliklə haqqımız veriləcək...

Sonra isə o, hönkürtü vuraraq ağlamağa başladı və o qədər sarsıldı ki, yeməyə qarşı nifrət hiss etdi.

* * *

Əbdürrəhman ibn Aufa əbədi səadət və minlərcə böyük sevinclər qismət olsun.

Cənnət haqqında müjdəni ona hamıdan doğru olan Məhəmməd ibn Abdullah gətirdi.

---

[83] Salsəbil – cənnətdə su çeşməsi.

Üzərində Əbdürrəhmanın bədəni olan dəfn xərəklərini son mənzilə Rəsulallahın ana xəttindən olan dayılardan biri Sad ibn Əbu Vaqqas apardı.

Onun cənazə namazını Zu əl-Nureyn Osman ibn Əffan qıldı. Onu nüvbəti mənzilə ötürən isə əmirəlmöminin Əli ibn Əbu Talib oldu. O, dedi:

– Sən hər cür yalandan çəkinib, bu həyatın paklığına çatıb, onu dərk etdin. Allah sənə öz rəhmətini göndərsin[84].

* * *

---

[84] Əbdürrəhman ibn Auf haqqında əlavə məlumat üçün bax:

1. «Sifət əs-Sərva», 1/135;
2. «Hilyət əl-Övliya», 1/98;
3. «Tarix əl-Xamis», 2/257;
4. «Əl-Bid və əl-Tarix», 5/86;
5. «Ər-Riyad əl-Nadira», 2/281;
6. «Əl-Çəməə beynə ric-əl əs-səhiheyn», 281-ci səh;
7. «Əl-İsabə», 2/416;
8. «Əl Sira ən-Nəbəviyyə li ibn Xişam»,(mündəricata bax);
9. «Həyat əs-Səhabə», (mündəricata bax);
10. «Əl-Bidəyyə və ən-Nihayyə», 6/163;
11. «Əl-Təbəqat əl-Kübra», 2/340;
12. «Tahzib əl-Tahzib», 6/242;
13. “Əl-İstiab”, 2/393.

# CƏFƏR İBN ƏBU TALİB

*«Mən Cəfəri cənnətdə qanlı qanadlarla gördüm...»*
Müqəddəs hədis.

Əbd Mənəfin[85] nəslində Rəsulallaha çox bənzəyən beş kişi var idi. Bu bənzərlik o qədər heyranedici idi ki, gözləri zəif görən insanlar bu kişiləri hətta Peyğəmbərlə qarışdırırdılar.

Şübhə yoxdur ki, sən Peyğəmbərə ﷺ bənzəyən bu kişilərin kimliyini bilmək istərdin.

Gəlin onlarla yaxından tanış olaq.

Həmin insanlar bunlardır. Birincisi, Əbü Süfyan ibn Əl-Haris ibn Əbdül-Muttalib, Peyğəmbərin ﷺ əmisi oğlu və onun süd qardaşı.

İkincisi: Qusam ibn Əl-Abbas ibn Əbdül-Mütalib, Peyğəmbərin ﷺ əmisi oğlu.

Üçüncü: imam əş-Şafinin babası – Əs-Saib ibn Übeyd ibn Əbd Yəzid ibn Haşim.

Dördüncü: əl-Həsən ibn Əli, Allahın Rəsulunun ﷺ qızının oğlu, onun nəvəsi.

Beşinci isə Cəfər ibn Əbu Talib, əmirəlmöminin Əli ibn Əbu Talibin qardaşı.

* * *

Qoy mən sənə Cəfərin həyatındakı bəzi yadda qalan hadisələr haqqında danışım.

Əbu Talib, qureyişlilər qəbiləsində yüksək mövqe tutmasına və kübar olmasına baxmayaraq, kasıb və çox övladlı olub. O il qureyşlilərin başına gələn quraqlığın nəticəsində onun vəziyyəti daha da ağırlaşdı. Əkinlər məhv oldu, heyvan tələfatı baş verdi, insanlar da aclıqdan sümükləri sovurmağa məcbur oldular.

Haşimilər arasında o zaman ən varlı insanlar Məhəmməd ibn Abdullah və onun əmisi Əl-Abbas idilər.

Bir dəfə Məhəmməd Əl-Abbasa dedi: «Əmi! Qardaşın Əbu Talibin ailəsi böyükdür, quraqlığın baş verməsinə və yağışların

---

[85] Əbd Mənəf – Rəsulallahın babalarından biri olub. Onun nəsli Peyğəmbər ilə yaxın qohumluq əlaqələri olub.

olmamasına görə aclıq başlayıb. Gəl onun yanına gedək və onun həyatını bir az yüngülləşdirək: onun oğullarından birini mən, birini də sən götürüb saxlayaq. Bununla biz onun ailəsində yeyənlərin sayını azaltmış olarıq. Onlar sonradan Əbu-Talibin yanına gəlib dedilər: «Biz sənin yükünü bir az yüngülləşdirmək istəyirik...» Əbu Talib onlara dedi: «Əgər Aqili[86] mənim yanımda saxlasanız, onda bildiyiniz kimi hərəkət edin...»

Məhəmməd öz ailəsinə Əlini, Əl-Abbas isə Cəfəri götürdü. Əli Məhəmmədin evində yaşayanda, Allah ona həqiqi din göndərdi və o, İslama iman gətirən ilk gənc oldu.

* * *

Cəfər öz əmisi Əl-Abbasın evində yetkinləşənə qədər yaşadı, islam dinini qəbul etdi və müstəqil insan oldu. Lap əvvəldən Cəfər ibn Əbu Talib və arvadı Əsma, Ümeysin qızı haqqın işıqlı yolunun səmimi tərəfdarları oldular. Onlar Allahın Rəsulu ﷺ hələ Əl-Ərqamın evinə girməzdən qabaq islam dinini qəbul etdilər.

Haşimi gənc və onun cavan həyat yoldaşı, bütün ilk müsəlmanlar kimi, qureyşilərin təqiblərinə məruz qaldılar. Lakin onlar bütün haqsızlıqlara mətanətlə dözdülər, çünki yaxşı bilirdilər ki, cənnətə aparan yol tikanlı, əzablı və həddindən artıq məvəqqətlidir. Amma onların və onların dindəki qardaşlarının həyatını zəhərləyən o idi ki, qureyşilər onlara islamın dini ayinlərini yerinə yetirməyə və öz ibadətlərindən zövq almağa imkan vermirdilər və onların hər bir addımına nəzarət edirdilər.

Belə vəziyyətdə Cəfər ibn Əbu Talib Rəsulallahdan ﷺ xahiş etdi ki, o, ona səhabələrin bir dəstəsi ilə və arvadı ilə birgə Həbəşistana keçməyə icazə versin. Peyğəmbər ﷺ kədərli halda bunu etməyə icazə verdi.

Əlbəttə Cəfər üçün təmiz və günahsız insanları öz vətənini, uşaqlığını və gəncliyini keçirtdikləri evləri tərk etməyə inandırmaq çox çətin idi. Bu insanların bircə günahı var idi – onlar «Bizim tanrımız – Allahdır» demişdilər. Bununla yanaşı, onun bu insanları qureyşilərin fitnələrindən qorumağa nə gücü, nə də qüdrəti var idi.

* * *

[86] Aqil – Əbu Talibin oğlu, Əlinin böyük qardaşı.

Başda Cəfər ibn Əbu Talib olmaqla ilk müsəlman mühacirləri Həbəşistan torpağına çatdılar və orada ədalətli və dindar nequsun[87] qəyyumluğu və himayəsi altında məskən saldılar.

Bu insanlar islamı qəbul edəndən bəri ilk dəfə idi ki, özlərini təhlükəsizlikdə hiss edib, əsil ibadətin ləzzətini duydular. Çünki heç kim və heç nə onlara mane olmurdu.

Qureyşilər biləndə ki, müsəlmanların bir qrupu Həbəşistana köçüb və oranın hökmdarı onların dininin qorunmasına və din azadlığına təminat verib, müsəlmanların öldürülməsi və yaxud onları həbsxanaya salmaq məqsədilə məcburi qaytarılması planlarını hazırlamağa başladılar.

Amma gəlin burada sözü bu hadisələrin şahidi olmuş Ümm Sələməyə verək ki, hər şeyi özü danışsın.

* * *

O danışırdı: «Biz Həbəşistan torpağına ayaq basan kimi, mehriban qonşuları və dinimiz üçün həqiqi təhlükəsizlik əldə etdik. Biz öz tanrımıza, Uca Allaha, heç kimin bizə zərər verə biləcəyindən və yaxud acı sözlər deyiləcəyindən qorxmayaraq, rahat ibadət elə bildik. Qureyşilər bundan xəbər tutanda bizə qarşı pislik etməyi fikirləşdilər və nequsun yanına özlərinin ən güclü insanlarından ikisini göndərdilər. Bu Amr ibn Əl-As və Abdullah ibn Əbu Rabiə idi. Qureyşilər onlarla nequs üçün və onun yepiskopları üçün Hicazın məşhur nemətlərindən yolladılar. Elçilərə isə tapşırıldı ki, Həbəşistan hökmdarı ilə bizim məqsədimizi müzakirə etməzdən qabaq hər yepiskopa bahalı hədiyyələr versinlər.

* * *

Həbəşistana gələn qureyş nümayəndələri yepiskoplarla görüşüb, hədiyyələri verərək onlara dedilər: «Sizin torpağınızda bizim gənc səfehlərimizdən ibarət bir dəstə məskunlaşıb. Onlar öz ata-babalarının dinini rədd edib, bizim millətimizə ixtilaf salıblar. Biz bu barədə sizin hökmdarınızla danışanda, onu inandırın ki, bu adamlardan dinləri haqqında bir şey soruşmadan, onları bizim

[87] Nequs- Həbəşistan kralına verilən titul.

əlimizə versin. Deyin ki, onların xalqının başçıları onları yaxşı tanıyırlar və onların əqidələrinə bələddirlər».

Yepiskoplar dedilər:

– Hə...»

Ümm Sələmə öz hekayəsini davam edirdi:

«Amr və onun yoldaşı üçün nequsun bizlərdən birini çağırıb dinlədiyini görmək ən pis və ən nifrət etdiyi şey idi.

* * *

Bundan sonra qureyşilərin iki nümayəndəsi nequsun yanına gəlib, ona bahalı hədiyyələr gətirdilər. Və o hədiyyələrdən heyrətə gəlib sevindi.

Nümayəndələr ona dedilər:

– Ey Həbəşistan hökmdarı, sənin dövlətində bizim millətdən qovulmuş bir neçə adam özlərinə sığınacaq tapıb. Onlar nə bizə, nə də sizə məlum olmayan bir dinə xidmət edirlər. Bu insanlar bizim dinimizi rədd ediblər, sizinkini də qəbul etməyiblər. Bizi sənin yanına başçılarımız və rəhbərlərimiz göndərib ki, sən onları geri qovasan. Bizim müdiriklərimiz yaxşı bilir, onlar necə nifaq salırlar.

Nequs öz yepiskoplarına baxdı və onlar dedilər:

– Həqiqətən bu belədir... Ey hökmdar, onların xalqı onları yaxşı tanıyır və onların etdiklərini bilir. O insanları ver onlara, qoy özləri onlarla anlaşsınlar.

Hökmdar öz yepiskoplarının bu sözlərini eşidib bərk qəzəbləndi və dedi:

– Yox, Allaha and içirəm ki, mən həmin insanları yanıma çağırıb onları sorğu suala tutmamış onları heç kimə verməréəm. Əgər onlar bu insanların dedikləri kimidirsə, onda onları bu insanlara verəcəyəm. Əgər iş başqa cürdürsə, mən onları müdafiə edib, onlara mənim köməyim lazım olan müddəti onlarla əmin-amanlıqda yaşayacağam».

* * *

Ümm Sələmə davam edirdi:

«Sonra nequs bizim dalımızca adam göndərdi ki, biz onunla görüşə bilək.

Biz onun yanına getməzdən qabaq məsləhətləşmək üçün yığıldıq. Bəziləri dedi: «Nequs sizi dininiz haqqında sorğu-suala çəkəcək, ona görə də iman gətirdiyiniz barədə səmimi danışın. Qoy hamının adından Cəfər ibn Əbu Talib danışsın, başqaları isə sussun».

Bundan sonra biz nequsun yanına getdik, o isə öz yepiskoplarını da çağırdı. Onlar yaşıl əbalarda və rahib papaqlarında gəlib onun sağında və solunda əyləşdilər və öz kitablarını da gətirdilər. Həmçinin Amr ibn Əl-As və Abdullah ibn Rabiə də nequsun yanında idilər.

Hamı hazır olandan sonra, nequs bizə müraciət edib soruşdu:

– Siz özünüz üçün tapdığınız din nədir ki, ona görə öz xalqınızın dinindən döndünüz? Niyə siz mənim dinimi və ya mövcud olan başqa dinlərdən birini seçib qəbul etmədiniz?

Cəfər ibn Əbu Talib irəli çıxıb dedi:

– Ey hökmdar biz cahil xalq idik, bütlərə sitayiş edirdik, leş yeyirdik, qohumluq əlaqələrimizi saxlamırdıq, qonşularımıza hörmət etmirdik, bizim aramızdakı güclümüz zəifimizi məhv edirdi. Allah bizə bizim mühitimizdən olan öz Peyğəmbərini göndərməyənə qədər, biz belə vəziyyətdə idik. Peyğəmbərimizin əqidəsi, doğruçuluğu və əxlaqı bizim hamımıza yaxşı məlumdur... O bizi Allaha, tövhidə, yalnız ona ibadət etməyə və həmçinin atalarımızın və əvvəllər özümüzün ibadət etdiyimiz daşlardan və bütlərdən imtina etməyə çağırdı... O bizə həmişə doğru danışmağı, düzgün olmağı, qohumluq əlaqələrini və qonşularla mehriban münasibətləri qorumağı, icazə verilməyən hərəkətləri etməməyi və nahaq yerə qan tökməməyi əmr verdi. O, bizə əxlaqsızlıqları, yalan danışmağı, yetimlərin pullarını almağı və əxlaqlı qadınları ləkələməyi qadağan etdi. O bizə tək Allaha ibadət etməyi, ona şərik qoşmamağı, namaz qılmağı, zəkat verməyi və ramazan ayında oruc tutmağı əmr etdi...

Biz ona inandıq, ona iman gətirdik, onun Allahdan gətirdiyində onun dalınca getdik. Bizə halal olanı özümüzə icazə verirdik və haram buyrulanı özümüzə icazə vermirdik.

Ey hökmdar, bizim xalqımız isə bizə qarşı düşmənçilik edib, bizi ağır sınaqlara məruz etdi ki, öz dinimizdən dönək və bütlərə ibadət etməyə yenidən qayıdaq... Onlar bizimlə belə ədalətsiz davrananda, bizi hər cür sıxışdıranda qanunsuzluq törədib, bizə öz dinimizə xidmət etməyə mane olanda, biz sənin ölkənə köçdük. Başqa hökmdarların içindən sənə üstünlük verdik və səninlə birgə mehriban yaşa-

mağa və sənin bizə qarşı ədalətsiz olmayacağına ümid etdik».

* * *

Ümm Sələmə davam edir:

«Nequs Cəfər ibn Əbu Talibə müraciət edib, soruşdu: «Səndə peyğəmbərinizin Allahdan gətirdiyindən bir şey varmı?»

Cəfər dedi:

– Bəli.

Nequs xahiş etdi:

– Onda mənə bir şey oxu.

Cəfər oxudu:

**«Kəhf, Ha, Ya, Ayn, Sad.** (Ya Rəsulum!) **Bu sənin Rəbbinin öz qulu Zəkəriyyaya olan mərhəmətinin xatırlanmasıdır!** (Zəkəriyya) **Rəbbinə gizlincə dua edib yalvardığı zaman. Belə demişdi: «Ey Rəbbim! Artıq sümüyüm sustalmış, başım ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə dua etməklə heç vaxt naümid olmamışam.** (Nə dua etmişəmsə, qəbul olunmuşdur)». (Məryəm, 1-4)

Və sonra o, bu surənin giriş hissəsini bitirdi».

* * *

Ümm Sələmə öz hekayəsini davam edirdi:

Bütün bunları eşidən nequs elə ağladı ki, saqqalı göz yaşlarından islandı. Onun yepiskopları isə elə ağladılr ki, bütün kitabları islandı. Allahın sözləri onları məhz bu dərəcədə kövrəltmişdi.

Bundan sonra nequs dedi: «Sizin Peyğəmbərinizin gətirdiyi və İsanın gətirdiyi bir mənbədən gəlir»,

Sonra o, Amra və onun yoldaşına dedi:

– Qayıdın geri. Mən bu insanları heç vaxt sizin əlinizə vermərəm».

* * *

Ümm Sələmə danışırdı:

«Biz nequsun yanından çıxanda Amr ibn Əl-As hədə-qorxu ilə üstümüzə cumdu, sonra yoldaşına dedi: «Allaha and içirəm ki, mən sabah yenə nequsun yanına gəlib, onların haqqında elə bir şey

danışacağam ki, bu onun qəlbini nifrətlə dolduracaq və onun ürəyini onlardan döndərəcək. Hökmdar onların haqqında bunu biləndən sonra onların kükğnğ kəsəcək.

Abdullah ibn Əbu Rabiə etiraz etdi:

– Amr, bunu etmə! Onların fikri bizim fikrimizlə düz gəlməsə də, onlar yenə də bizim yaxınlarımızdır.

Amr qışqırdı: «Sən belə şeyləri burax! Allaha and içirəm, mən hökmdara elə şey danışacağam ki, onların vəziyyəti çox çətin olacaq. Mən ona deyəcəyəm ki, onlar İsa ibn Məryəmi qul hesab edirlər...»

* * *

Ertəsi gün Amr nequsun yanına gəlib, ona dedi:

– Ey hökmdar! Sənin sığınacaq verdiyin və müdafiə etdiyin insanlar İsa ibn Məryəm haqqında çox ciddi şeylər danışırlar.

Nequs bizim dalımızca adam göndərib öyrənmək istədi ki, biz İsa haqqında nə danışırıq. Biz bu haqda eşidəndə, çox narahat olduq və həyəcanlandıq. Bir-birimizdən soruşmağa başladıq: «Hökmdar İsa ibn Məryəm haqda soruşsa, ona nə deyəcəksiniz?» Və qərara gəldik: «Allaha and içirik ki, biz yalnız Allahın dediklərini deyəcəyik və Peyğəmbərimizin gətirdiyindən əsla dönmərik. Sonra da nə olursa olsun». Sonra da razılaşdıq ki, birinci dəfə olduğu kimi, yenə də Cəfər ibn Əbu Talib danışacaq.

Biz nequsun yanına gələndə gördük ki, birinci gündəki kimi, yenə bütün yepiskoplar həmin görkəmdə orada əyləşiblər. Amr ibn Əl-As və onun yoldaşı da orada idilər.

Nequs bizə müraciət etdi:

– Siz İsa ibn Məryəm haqqında nə söyləyirsiniz?

Cəfər ibn Əbu Talib buna belə cavab verdi:

– Həqiqətən, biz onu haqqında yalnız Peyğəmbərimizin dediyini deyirik.

Nequs soruşdu:

– Sizin Peyğəmbəriniz onun haqqında nə deyir?

Cəfər cavab verdi:

– O onun haqqında belə deyir: «Bu Allahın qulu və Onun Elçisidir, həmçinin Onun bakirə Məryəmə nazil etdiyi Ruhu və Sözüdür».

Nequs Cəfərin sözlərini dinləyib, əlini torpağa çırpıb qışqırdı: «İsa ibn Məryəm sizin Peyğəmbərinizin gətirdiyindən bir zərrə qədər belə dönməyib».

Nequs ətrafında oturan yepiskoplardan narazılıq səslərini eşitdi. Onlar onu dediklərinə görə qınayırdılar.

Nequs dedi:

– Deyinə bilərsiniz. Gedin, siz təhlükəsizlikdəsiniz. Əgər kimsə sizi söysə, buna görə cavab verəcək, əgər kimsə sizə xətər yetirsə, ciddi şəkildə cəzalanacaq. Allaha and içirəm ki, mən bir dağ qızılın sahibi olmaq istəməzdim, əgər buna görə sizlərdən kimsə əziyyət çəksə.

Amra və onun yoldaşına baxan nequs dedi:

– Bunların hədiyyələrini qaytarın. Onlar mənə lazım deyil.

Amr və onun yoldaşı öz uğursuzluğuna məyus və dilxor olaraq çıxıb getdilər. Biz isə nequsun müdafiəsi ilə ona mehriban qonşu olaraq yaşamağa davam etdik».

* * *

Cəfər ibn Əbu Talib və arvadı Həbəşistan hökmdarının qonaqpərvərliyindən istifadə edib, orada düz on il yaşadılar. Hicrətin yeddinci ilində onlar başqa müsəlmanlarla birgə Həbəşistanı tərk edib, Yəsribə yollandılar. Onlar orada Xeybərdən [88] qayıtmış Peyğəmbərlə ﷺ görüşdülər. Allah ona Xeybər yürüşündə uğur və qələbə bəxş etmişdir. O, Cəfərlə görüşlərinə elə sevindi ki, hətta ucadan dedi:

– Heç bilmirəm, daha çox nəyə sevinirəm: Xeybərdə çalınan qələbəyə ya Cəfərin gəlməsinə.

---

[88] Xeybər – Peyğəmbərin ﷺ hicrətin 7-ci ilində bol qənimət ələ keçirib fəth etdiyi yəhudi qalaları və istehkamları.

Bütün müsəlmanların, xüsusən də kasıbların, Cəfərin gəlişinə sevinmələri, Rəsulallahın ﷺ sevincindən heç də az deyildi.

Cəfər zəiflərə və kasıblara qarşı hədsiz xeyirxahlığı, şəfqəti və xeyriyyəçiliyi ilə tanınmışdır. Onu hətta «kasıbların atası» adlandırmışdılar.

Əbu Hüreyra onun haqqında danışırdı:

İnsanların arasında biz kasıblara qarşı ən yaxşı münasibət bəsləyən Cəfər ibn Əbu Talib idi. O bizi öz evinə gətirib, orada olan yeməklərdən bizə yedizdirərdi. Bir dəfə onun evində yeməyə heç nə yox idi və o bizim üçün vaxtilə içində yağ saxlanılan boş tuluğu gətirdi. Biz tuluğı parçaladıq və onun daxili divarlarına yapışanları yalayıb yedik...»

* * *

Cəfər ibn Əbu Talibin Mədinədə qalması çox sürmədi.

Hicrətin səkkizinci ilində Rəsulallah ﷺ bizanslılara qarşı Şama yürüyüş etmək üçün ordu hazırladı. O, Zeyd ibn Harisanı orduya başçı təyin etdi və dedi:

– Zeyd öldürülsə və yaxud yaralansa, komandanlıq Cəfər ibn Əbu Talibə keçəcək. Cəfər öldürülsə və yaxud yaralansa, Abdullah ibn Ravaha başçı olacaq. Əgər Abdullah öldürülsə və yaxud yaralansa, onda qoy müsəlmanlar özləri üçün başçını özləri seçsinlər.

Müsəlmanlar İordaniyanın Muta kəndinə yaxınlaşanda gördülər ki, onlara qarşı çıxan yüz min döyüşçüsü olan bizans ordusu öz tərkibinə ləhm, Cüzam, Qudaə xaçpərəst ərəb qəbilələrindən yüz min döyüşçünü daxil edib. Müsəlmanların ordusu isə cəmi üç min əsgərdən ibarət idi...

Şiddətli döyüş təzə başlamışdır ki, Zeyd ibn Harisa qəhrəmancasına həlak oldu. Və elə bu zaman Cəfər ibn Əbu Talib öz ağ atından enib atın ayaqlarındakı damarlarını kəsdi ki, düşmən ondan istifadə edə bilməsin. O, müsəlmanların bayrağını götürüb, bizanslıların sıralarına girib qışqırdı:

Cənnət və onun yaxınlığı necə də gözəldir,
O, əzəmətlidir və cənnət içkisi sərindir.
Bizanslıları isə tezliklə sərt cəza gözləyir.
Və mən bu nəsilsiz kafirləri
Hər görəndə öldürməliyəm.

Cəfər düşmənlərlə, onlar onun sağ qolunu kəsənə qədər şiddətlə və qəzəblə vuruşurdu. O, bayrağı sol əlinə götürən kimi düşmən onun sol əlini də kəsdi. Onda Cəfər əllərinin salamat qalan hissələri ilə bayrağı sinəsinə basdı. Elə bu zaman düşmənin üçüncü və qorxunc zərbəsi onun bədənini iki hissəyə yardı. Onda Abdullah ibn Ravaha bayrağı qaldırıb ölənədək vuruşmağa davam etdi.

* * *

Peyğəmbərə ﷺ onun üç komandanının vəfatı haqqında xəbər veriləndə o, çox kədərləndi. O, əmisi oğlu Cəfərin arvadı Əsmanı gördü. Qadın ərilə görüşə hazırlaşırdı. O, xəmir yoğurub, oğullarını çimizdirib, ətir vurub, yaxşı geyindirmişdir.

* * *

Əsma özü danışır:

– Rəsulallah ﷺ bizə gələndə mən fikir verdim ki, onun nurlu üzü kədərdən bozarıb. Mən qorxdum, lakin pis xəbər eşitməkdən çəkinərək, ondan Cəfərin haqqında soruşmaq istəmədim.

Peyğəmbər ﷺ salamlaşdı, sonra dedi: «Cəfərin uşaqlarını gətir!» Mən onları çağırdım.

Uşaqlar sevinib, Peyğəmbərin ﷺ yanına cumdular və onu hər tərəfdən əhatə etdilər, özü də onlardan hər biri onun diqqətini özünə çəkmək istəyirdi. Rəsulallah ﷺ uşaqlara sıxılıb onları iylədi, gözlərində isə yaş göründü.

Mən soruşdum: «Ya Rəsulallah! Sən mənə həm anasan, həm də ata. Sənə and verirəm, cavab ver, niyə ağlayırsan? Sənə Cəfər və onun yoldaşları haqqında nə isə xəbər veriblər?!

– Hə, – Peyğəmbər ﷺ cavab verdi, – Onlar bu gün şəhid oldular.

Uşaqlar anasının hönkürtülərini və ağlaşmasını eşidən kimi, üzlərindəki təbəssümlər yoxa çıxdı. Onlar dinməzcə öz yerlərində donub qaldılar.

Peyğəmbər ﷺ göz yaşını silə-silə və bu sözləri deyə-deyə çıxıb getdi:

– Allahım, Cəfəri onun oğlunda qoruyub saxla!

– Allahım, Cəfəri onun övladlarında qoruyub saxla!

Sonradan o dedi: «Mən Cəfəri Cənnətdə qanlı qanadlarla gördüm»[89].

* * *

[89] Cəfər ibn Əbu Talib haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə», 1/237;
2. «Sifət əl-Səfva», 1/205;
3. «Hilyət əl-Övliyə», 1/114;
4. «Təbəqat», İbn Sad, 4/22;
5. «Mucam əl-Buldan fi məddət muta», /Muta haqqında fəsil/;
6. «Tahzib əl Tahzib», 2/98;
7. «Əl-Bidəyyə və əl-Nihayyə», 4/241;
8. «Əl-Sıra əl Nəbəviyyə», İbn Hişam, 1/357, 4/3, 30;
9. «Əl Durar fi ixtisar əl Məqazi və əl-Sira», İbn Əbu əl-Bərra, 50, 222;
10. «Həyat əs-Səhabə», mündəricata bax;
11. «Əl-Kamil», İbn Əl-Əsir, 2/30 və 96;
12. "Əl-İstiab", 1/210.

# ƏBU SUFYAN İBN ƏL-HARİS

*«Əbu Sufyan ibn Əl-Haris –*
*Cənnətdəki gənclərin başçısıdır».*

Çox nadir hallarda elə olur ki, iki insanı dostluq və möhkəm qarşılıqlı məhəbbət bağları birləşdirir. Məhəmməd ibn Abdullah və Əbu Sufyan ibn Əl-Haris ilə belə idi.

Əbu Sufyan Rəsulallah ﷺ-in yaşıdı idi, çünki onlar təxminən eyni vaxtda doğulub, bir ailədə boya-başa çatmışdılar.

O, Peyğəmbər ﷺ-in əmisi oğlu idi, onun atası Əl-Haris və Peyğəmbər ﷺ-in atası Əl-Müttəlib nəslindən olan iki qardaş olublar.

Bundan başqa, Əbu Sufyan həmçinin Peyğəmbərin ﷺ süd qardaşı olub, çünki onlara körpəlikdə Sad qəbiləsindən olan Həlimə adlı bir qadın süd verib.

Əbu Sufyan, Peyğbəmbər ﷺ öz peyğəmbərlik missiyasını yerinə yetirməyə başlamamışdan onun yaxın dostu olub. Üstəlik onlar bir-birinə çox oxşayırdılar.

* * *

Məhəmməd ibn Abdullah və Əbu Sufyan ibn Əl-Harisin arasında olan bu cür yaxın qohumluq və möhkəm bağlılıq haqqında nə vaxtsa eşitmişdinmi?

Belə vəziyyəti nəzərə alaraq yəqin etmək olar ki, Əbu Sufyan hamıdan tez Rəsulallahın ﷺ çağırışına cavab verməli və onun ən fəal davamçısı olmalı idi. Lakin reallıqda iş heç də gözlənildiyi kimi olmadı.

Rəsulallah ﷺ öz həmyerlilərinə müqəddəs dəvəti ilə müraciət edən kimi, Əbu Sufyanın qəlbində ona qarşı nifrət və həsəd alovu baş qaldırdı, dostluğu düşmənçiliyə çevrildi «qohumluq əlaqələri kəsildi, keçmişindəki qardaşlıq hissi isə rəqabətə və qarşıdurmaya çevrildi».

* * *

Rəsulallaha ﷺ Onun Rəbbindən əmrlər nazil olanda, Əbu Sufyan ibn Əl-Haris qureyşlilərin məşhur cəngavərlərindən və o qəbilənin ən yaxşı şairlərindən biri idi.

Əbu Sufyan bütün istedadını, sənətini və qeyrətini Peyğəmbərə ﷺ və onun dəvətinə qarşı mübarizəyə həsr etdi. O, var gücü ilə islamı və müsəlmanları məhv etməyə can atırdı. Əbu Sufyan qureyşlilərin Peyğəmbərə ﷺ qarşı yönələn hər bir düşmən həmləsinə ilham verən olub. O müsəlmanlara qarşı törədilən hər bir pisliyə şəxsən öz payını mütləq verirdi.

* * *

Əbu Sufyan Şeytanın təbi ilə şer qoşub, Peyğəmbəri ﷺ məsxərəyə qoyub onun ünvanına çirkin və ləkələyici sözlər deyirdi.

* * *

Əbu Sufyanın Peyğəmbərə ﷺ qarşı düşmənçiliyi iyirmi il sürdü. Bu vaxt ərzində o, Peyğəmbərlə ﷺ mübarizədə bütün bildiyi fitnələrdən və hiylələrdən istifadə etmişdir. Əbu Sufyanın müsəlmanlara vurmadığı bir ziyan növü qalmamışdır.

* * *

Məkkənin  fəthindən biraz qabaq Əbu Sufyana islam dinini qəbul etmək qismət oldu. Onun islama keçməsi haqda maraqlı tarix Peyğəmbərin ﷺ həyatı barəsində yazılmış kitablarda və müxtəlif tarixi əsərlərdə verilir.

Qoy Əbu Sufyan islama keçməsi haqqında özü danışsın. Beləliklə, o, danışırdı:

– İslam möhkəmlənəndə və güclənəndə və hər yerdə Peyğəmbərin ﷺ Məkkəni fəth etməsi məqsədi ilə yürüşə çıxması haqqında xəbərlər yayılanda, dünya öz genişliyinə baxmayaraq mənə dar gəldi. Mən özüm özümdən soruşdum:

«Hara gedim? Özümə yoldaşlıq etməyə kimi götürüm? İndi mən kiminlə olum?»

Sonra arvad-uşağın yanına gəlib, onlara dedim: «Məkkədən getməyə hazırlaşınlar, çünki Məhəmməd tezliklə burada olacaq. Mən müsəlmanların əllərinə keçsəm, mütləq öldürüləcəyəm».

Onlar isə buna cavab olaraq dedilər:

– Sən fikir verirsən ki, ərəblər də, əcnəbilər də Məhəmmədin dinini qəbul edib ona tabe olublar. Sən isə öz düşmənçiliyindən əl çəkmirsən. Halbuki vaxtilə onun ən yaxşı dostu və köməkçisi olmusan.

Onlar məni Məhəmmədin dininə meylləndirməyə və onu qəbul etməyə inandırmağa başladılar. Və nəhayət, Allah mənim ürəyimi islam üçün açdı.

Mən dərhal qalxıb nökərim Məzkura dedim: «Bizim üçün elə indicə dəvələri və atı hazırla: «Oğlum Cəfəri özümlə götürdüm və biz Məkkə ilə Mədinə arasında yerləşən əl-Əbvaya getdik. Mənə demişdilər ki, Məhəmməd orada dayanıb.

Biz Əl-Əbvaya çatanda mən paltarımı dəyişdim ki, Peyğəmbər ﷺ ilə görüşməkdən qabaq və ona islama keçməyimi söyləməmişdən qabaq məni tanıyıb öldürməsinlər.

Yolun qalan hissəsini, təxminən bir mil, mən piyadə getdim, müsəlmanların qoşunları isə dəstə-dəstə Məkkəyə tərəf irəliləyirdilər. Mən onlardan uzaq durmağa çalışırdım, çünki Məhəmmədin səhabələrindən kiminsə məni tanıyacağından ehtiyat edirdim.

* * *

Mən yolda gedəndə Peyğəmbər ﷺ ilə birgə yürüyən kütlə qarşıma çıxdı. Mən ona tərəf yollandım, qarşısında dayanıb üzümü açdım. O mənə baxdı, məni tanıdı və dərhal üzünü o biri tərəfə döndərdi. Mən yenə onun qarşısında dayandım və o yenə də üzünü çevirdi. Mən yenidən və yenidən onun qarşısında durdum, lakin o hər dəfə üzünü məndən çevirdi.

* * *

Mən Peyğəmbər ﷺ ilə görüşəndə şübhə etmirdim ki, o, mənim islama keçməyimə sevinir, səhabələr də onun sevincinə qatılarlar.

Lakin müsəlmanlar görəndə ki, Rəsulallah ﷺ məndən üz döndərir, onlar da qaş-qabağını sallayıb məndən üz döndərdilər. Əbu Bəkr məni görəndə hirsli halda üzünü çevirdi. Mən yazıq-yazıq Ömər ibn Əl-Xəttaba baxdım ki, onun ürəyini yumşaldım, amma gördüm ki, o öz yoldaşından daha çox hirslidir.

Bundan əlavə, o, ənsarlardan birini üzərimə qaldırdı və həmin ənsar mənə dedi: «Ey Allahın düşməni! Sən Allahın Rəsuluna ziyan vurub, onun səhabələrinə əzab-əziyyət vermisən. Peyğəmbərə olan düşmənçiliyində sən bizim torpağımızı şərqdən qərbə qədər gəzmisən». Həmin adam yüksək səslə üstümə söyüşlər və lənətlər yağdırmağa davam edirdi, müsəlmanlar da sərt baxışlarla mənə baxıb başıma gələnlərə sevinirdilər.

Elə bu zaman əmim Əl-Abbası görüb, ona dedim: «Əmi, mən elə istəyirdim ki, Peyğəmbər mənim islama keçməyimə sevinsin. Axı, mən onun qohumu və qəbiləmin tanınmış adamıyam. Amma özün gördün ki, bundan nə alındı. Onunla danış, yumşalıb məni bağışlasın». Əl-Abbas cavab verdi: «Allaha and olsun ki, yox! O səni görəndə necə hirsləndiyinə mən fikir verdim. Ona görə də mən sənin haqqında ancaq münasib vaxtda danışa bilərəm. Mən Peyğəmbərə çox böyük hörmət bəsləyirəm və ondan çəkinirəm».

Onda mən uca səslə dedim: «Əmi, sən məni kimin ümidinə buraxırsan?»

O dedi: «Sənə başqa heç bir şeylə kömək edə bilmərəm».

Məni qəm aldı. Mən əmim oğlu Əli ibn Əbu Talibi görüb, ona da bu xahişlə müraciət etdim, lakin o da, eynilə əmim Əl-Abbas kimi cavab verdi.

Mən yenidən əmimə dedim: «Əmi! Əgər Peyğəmbərin ürəyini mənə qarşı yumşalda bilmirsənsə, onda heç olmasa, məni söyən və başqalarını bu işə sövq edən bu insandan xilas et!»

Əmim dedi: «Həmin adamı mənə təsvir et». Mən onun haqqında danışan kimi, əmim dedi ki, bu Nuaymən ibn Əl-Haris Əl-Nəccəridir.

Sonra o, Nuaymənin dalınca adam yolladı və Nuaymən gələndə,

əmim ona dedi: «Qulaq as, Nuaymən! Əbu Sufyan Rəsulallahın əmisi oğlu və mənim qardaşım oğludur. Və əgər Peyğəmbər bu gün ona qəzəblidirsə, nə vaxtsa onu bağışlayacaq. Ona görə də ondan əl çək və onu söymə». Əl-Abbas ondan xahiş etdi və o sonunda söz verdi ki, daha məni söyməyəcək».

* * *

Rəsulallah ﷺ Məkkədən dörd keçid uzaqlığında yerləşən Əl-Cəhfədə dayananda mən onun qaldığı evin qapıları önündə oturdum, oğlum Cəfər də yanımda dayanmışdır. Peyğəmbər ﷺ hər dəfə evdən çıxanda və məni görəndə, üzünü o biri tərəfə çevirdi, lakin mən onun razılığını qazanmaq ümidini itirmirdim. Ona görə hər dəfə Peyğəmbər ﷺ bir yerə gedəndə, mən həmin evin qapısı önündə otururdum, oğlum Cəfər isə yanımda dururdu. Peyğəmbər ﷺ hər dəfə bizi görəndə üzünü çevirirdi.

Bu çox müddət davam etdi və mən ümidimi itirərək arvadıma dedim:

– Bəs Rəsulallahın ﷺ nə vaxt mənə yazığı gələcək? Bəlkə mən oğlumu götürüb çıxıb gedim, və biz uzaqlarda aclığdan və susuzluqdan ölək?

Mənim bu sözlərimi Peyğəmbərə ﷺ çatdırdılar və o mənə qarşı bir qədər yumşaldı. Gələn dəfə o öz evindən çıxanda mənə həmişəkindən daha mehriban nəzərlər saldı. Mən arzu edirdim ki, o mənə gülümsəsin.

* * *

Rəsulallah ﷺ Məkkəyə daxil olanda mən itaətlə onun arxasınca gedirdim. O məscidə girəndə mən onun dalınca tələsirdim, onun gözü önündə olmağa və ondan heç vaxt geri qalmamağa çalışırdım.

Hüneyin döyüşündə köçəri bütpərəst ərəblər Peyğəmbər ﷺ ilə müharibə üçün böyük ordu toplayıb döyüşə ciddi şəkildə hazırlaşmışdıldar. Onlar ümid edirdilər ki, bu döyüş islamın devrilməsi və bütün müsəlmanların məhvi üçün həlledici olacaq.

Peyğəmbər ﷺ öz silahdaşları ilə birlikdə bütpərəstlərə qarşı yürüşə çıxanda mən onunla yola düşdüm. Bütpərəstlərin nəhəng

qoşununu görüb ucadan dedim: «Allaha and içirəm ki, həqiqətən də mən Peyğəmbərlə ﷺ düşmənçilik edib, törətdiyim pisliklərin bu gün əvəzini ödəyəcəyəm. Allahı və Rəsulunu ﷺ qane edəcək əməllərimi Peyğəmbər ﷺ mütləq görəcək».

İki ordunun arasında başlanan çaxnaşma gedişatında bütpərəstlər müsəlmanları sıxışdırmağa başladılar və yaxındakı məğlubiyyəti hiss edən müsəlmanlar hürkdülər. Peyğəmbərin ﷺ yanındakı müsəlmanların sıraları seyrəlməyə başladı, və biz sarsıdıcı və biabırçı məğlubiyyətə yaxın olduq.

Ata-anam ona fəda olsun ki, Rəsulallah ﷺ döyüşün ən qızğın yerində öz boz rəngli qatırının üstündə sarsılmaz qaya kimi ucalırdı. Onun qılıncı parıldayırdı və o, qəzəblənmiş aslan özünü və silahdaşlarını müdafiə edirdi.

Bu zaman mən atımdan enib, qılıncımın qınını sındırdım. Allah bilirdi ki, mən Peyğəmbərin ﷺ sağ qalması üçün ölmək istəyirdim.

Əmim Əl-Abbas Peyğəmbərin ﷺ qatırının yüyənindən tutub onun yanında durdu. Mən o biri tərəfdə dayandım, qılıncı sağ əlimdə tutub Peyğəmbəri ﷺ müdafiə etməyə başladım.

Mənim düşmənlə mərdliklə döyüşməyimi görən Rəsulallah ﷺ əmim Əl-Abbasdan soruşdu: «Bəs bu kimdir?» Əmim dedi: «Bu sənin əmin oğlu Əbu Sufyan ibn Əl-Harisdir. Ona rəhm et ya Rəsulallah!» Peyğəmbər ﷺ cavab verdi: «Mən bunu etdim, Allah isə onun mənə bəslədiyi düşmənçiliyi bağışladı».

Peyğəmbərin ﷺ məni bağışlamasına çox sevindim. Ürəyim tez-tez döyündü və mən onun üzəngidəki ayağını öpdüm. O mənə dönüb dedi: «Həyatıma and içirəm. Qardaşım irəli get və döyüş!»

Rəsulallahın ﷺ bu sözləri qəlbimdə mərdlik və şövq əmələ gətirdi. Mən bütpərəstlərə elə qəzəblə hücum etdim ki, onlar öz mövqelərindən geri çəkilməyə məcbur oldular. Müsəlmanlar mənim arxamca hücuma keçdilər və biz düşməni təxminən bir mil uzaqlığa qovduq və beləcə onun sıralarına çaxnaşma saldıq.

* * *

Hüneyn döyüşü günündən bəri Əbu Sufyan ibn Əl-Haris Peyğəmbər ﷺ tərəfindən razılıq qazanıb, onun səhabələri sıralarına

daxil olmaq səadətinə nail oldu. Lakin hətta bundan sonra da o daha heç vaxt Rəsulallahın ﷺ düz gözünün içinə baxmağa və ya öz baxışlarını onun üzündə saxlamağa cürət etmədi. O, Peyğəmbərin ﷺ qarşısında dərin xəcalət və keçmişdə ona etdiyi bütün pisliklərə görə vicdan əzabı çəkirdi.

Əbu Sufyan cahilliyi dövründə Allahın və Onun kitabının nuru olmadan keçirtdiyi pis günlərə görə peşman olaraq gecə-gündüz Allahın kitabından ayələr oxuyaraq onun qanunlarını anlamağa çalışır, özünə oradan öyüd-nəsihət götürürdü.

O, dğnyəvi hər şeydən imtina edərək, üzğnğ bğtüvlğklə Allaha həsr etdi.

Bir dəfə Rəsulallah ﷺ Əbu Sufyanı məscidə girərkən gürəndə, Aişədən soruşdu: “Ey Aişə bilirsən bu adam kimdir?”

Aişə cavab verdi: “Yox, ya Rəsulallah”

Peyğəmbər ﷺ dedi: “Bu, mənim əmim oğlu Əbu Sufyan bin Əl-Harisdir. Fikir ver, o həmişə məscidə hamıdan əvvəl girir və məsciddən hamıdan axırda zıxır. Üzğ də güzlərini səndəllərindən hez ayırmır”

* * *

Rəsulallah ﷺ vəfat edəndə, Əbu Sufyan tək oğlunu itirmiş ana kimi dərd zəkirdi, hətta ona kədər dolu bir qəsidə həsr etdi.

* * *

Əl-Faruq xəlifə olanda Əbu Sufyan ülğmğnğn yaxınlaşdığını hiss edib üzğnə qəbir qazdı. Bundan ğz gğn kezdi və o vəfat etdi. O, sanki ülğmlə qarşılaşacağı vaxtı bilirmiş kimi arvad-uşağına və qohumlarına dedi: “Mənim üçün ağlamaq lazım deyil. Allaha and olsun ki, islamı qəbul edəndən bəri hez bir dəfə də olsun gğnah işlətməmişəm...”

Sonra onun ruhu bədənini tərk etdi, əl-Faruq cənazə namazını qıldırdı və kəramətli səhabələr namazda ona xeyir-dua verdilər. Onlar Əbu Sufyanın ülğmğnğ islam və mğsəlmanlar ğzğn mğsibət hesab etdilər.[90]

* * *

[90] Əbu Sğfyan ibn Əl-Haris haqda bax:

1. "Əı-İstiab", 4/83;
2. «Əl-İsabə», 4/90;
3. «Sifət əl-Səfva», 1/519;
4. «Əl-Tabaqat əl-Kubra» 4/51;
5. «Təbəqat fuhul əş-Şuara», 2-6;
6. «Tarix ət-Təbəri», 2/329;
7. «Nihayət əl-Arab», 17/298;
8. «Əl-Bidəyyə və əl-Nihayyə», 4/287, 5/282;
9. «Əl-Sıra əl Nəbəviyyə», İbn Hişam, 2/268;
10. «Seyr ələm əl-Nubalə»,1/137;
11. «Əl-Kamil», İbn Əl-Əsir, 2/164.
12. "Dovl əl-İslam", 2/36;
13. "Maə ər-Rail əl-Əvla", 104.

# SAD İBN ƏBU VAQQAS

*«Onları oxlarınla vur, Sad, vur. Anam-atam sənə fəda olsun».*

Məhəmməd Peyğəmbər ﷺ Sadı
Uhud döyüşü zamanı ruhlandırarkən.

Allah lənət olmuş şeytandan qorusun. Rəhman və Rəhim Allahın adıyla.

**«Biz insana ata-anasına** (yaxşılıq etməyi, valideynə yaxşı baxmağı, onlarla gözəl davranmağı) **tövsiyə etdik. Anası onu** (bətnində) **çox zəif bir halda daşımışdı. Uşağın süddən kəsilməsi isə iki il ərzində olur.** (Biz insana buyurduq): **Mənə və ata-anana şükür et. Axır dönüş Mənədir. Əgər** (atan-anan) **bilmədiyin bir şeyi mənə şərik qoşmağına cəhd göstərsələr, bu işdə onlara itaət etmə.** (Qalan) **dünya işlərində onlarla gözəl keçin** (onlara itaət et). **Tövbə edib Mənə tərəf dönənlərin** (islamı qəbul edənlərin) **yolunu tut. Sonra** (qiyamət günü) **mənim hüzuruma qayıdacaqsınız. Mən də** (dünyada) **nə etdiklərinizi** (bir-bir) **sizə xəbər verəcəyəm!»** (Loğman, 14-15).

Bu müqəddəs ayələrlə nadir bir əhvalat bağlıdır. Bu hadisə öz əzəməti ilə gəncin qəlbində bir neçə müxtəlif hisslər oyadıb. Xeyirlə şərin mübarizəsində xeyir həmişə qalib gəlir, inam isə allahsızlığa qalib gəlir.

Bu tarixçənin qəhrəmanı Məkkənin ən tanınmış ailələrindən idi. Onun nüfuzlu valideynləri var idi. Bu oğlan Sad ibn Əbu Vaqqas idi (Allah ona xeyir-dua versin və ondan razı olsun).

* * *

Peyğəmbərlik epoxasının yüksəliş zamanı Sad öz cavanlığını yaşayırdı. Onun çox incə və həssas qəlbi var idi, o, valideynlərini, xüsusən də anasını çox sevirdi. On yeddi yaşı olmasına baxmayaraq Sad yaşına uyğun olmayan dərrakəyə və yetkin insanın müdrikliyinə malik idi.

Məsələn, onun qəlbi yaşıdlarının əyləncələrinə biganə idi. Bütün meylləri isə oxların və kamanların atıcılığa hazırlanmasına və

bu işdəki məşqlərə yönəlmişdir. Sad sanki özünü həyatının böyük işinə hazırlayırdı. Bundan əlavə, onun ürəyi o vaxt millətinə məxsus olan əqidə pozğunluğuna və rəzalətə yatmırdı. Elə təəssürat yaranırdı ki, sanki Sad güclü və qətiyyətli birinin onun həmqəbilələrini yaşadıqları cahilliyə zülmündən çıxaracağını gözləyirdi.

* * *

Və belə bir vəziyyətdə Uca və Qüdrətli Allah güclü, qurucu və istiqamətləndirici birini göndərməklə bütün bəşəriyyəti xoşbəxt etmək istədi. Bu bütün insanların başçısı Məhəmməd ibn Abdullah idi. O, sönməz ilahi çırağı – Allahın kitabını gətirmişdir. Sad ibn Əbu Vaqqas həqiqi yola keçmək çağırışına dərhal cavab verib, islamı ilk qəbul edənlərin üçüncüsü ya da dördüncüsü oldu.

Ona görə o tez-tez qürurla deyirdi:

– Yeddi gün ərzində mən islamın üçdə bir hissəsi idim.

* * *

Sad islama keçəndə Rəsulallahın ﷺ sevinci çox böyük idi. Onda olan istedad və mərdlik cəhətləri onun tez bir vaxtda özünü tam şəkildə göstərəcəyi barədə xəbər verirdi. Sad tanınmış və qüdrətli bir nəsildən idi və bu da Məkkə gənclərinin onun yoluyla gedib, onu özünə örnək götürməyə sövq etməli idi.

Bundan başqa, Sad Peyğəmbərin ﷺ ana xətti ilə olan dayılarının nəslindən idi. O, Peyğəmbərin ﷺ anası Əminə bint Vahbın qəbiləsi olan Bəni Zuhraya aid idi. Məlumdur ki, Peyğəmbər ﷺ ana xətti ilə olan bu qohumluğu ilə çox fəxr edirdi.

Rəvayət edirlər ki, bir dəfə nəcib Peyğəmbər ﷺ öz səhabələri ilə əyləşmişdilər və içəriyə girən Sad ibn Əbu Vaqqası görəndə dedi: «Bu mənim anam tərəfindən dayımdır. Qoy mənə öz qürurunu göstərsin».

* * *

Lakin Sad ibn Əbu Vaqqasın islama keçməsi heç də yüngül və asan olmadı. Bu mömin gənc ən çətin və şiddətli sınaqların birindən

keçməli oldu. Bu sınaq o qədər ağır idi ki, Uca Allah (Həmd olsun Ona!) bu münasibətlə müqəddəs ayələr göndərdi. İndi isə imkan verək bu qeyri-adi sınaqla bağlı olan əhvalatı Sad özü danışsın.

Beləliklə, o danışır:

«Mən islamı qəbul etməmişdən üç gün qabaq yatıb yuxumda qaranlıqda gəzdiyimi gördüm. Və bu qaranlıq içində gəzib dolaşarkən birdən qabağımda ayın işıq saçdığını gördüm. Bu ay işığının yolu ilə gedəndə gördüm ki, bu istiqamətdə məndən qabaqda bir neçə adam gedir. Mən orada Zeyd ibn Harisanı, Əli ibn Əbu Talibi və Əbu Bəkr Əs-Siddiqi gördüm. Mən onlardan soruşdum: «Nə qədər vaxtdır ki, buradasınız?» Onlar cavab verdilər: «Elə indicə».

Ertəsi gün mənə məlum oldu ki, Rəsulallah ﷺ insanları gizli şəkildə islama dəvət edir. Mən anladım ki, Allah, Peyğəmbərin ﷺ vasitəsilə məni zülmətdən işığa çıxartmaqla mənə xeyir arzulayır. Mən dərhal Rəsulallahın ﷺ yanına tələsdim və onu Ciyəd böl-gəsində günortadan sonra namaz qılarkən gördüm. Mən elə orada islamı qəbul etdim. Sonra bildim ki, məndən əvvəl islamı röyamda gördüyüm üç nəfər qəbul edib».

Sad islamı qəbul etməsi haqda əhvalatını danışmağa davam edirdi:

«Anam mənim islamı qəbul etməyimi eşidən kimi, bərk qəzəbləndi. Mən isə ona qarşı səmimi oğul məhəbbətini bəsləyir-dim. O yanıma gəlib ucadan dedi: «Qulaq as, Sad. Öz valideyn-lərinin dinindən dönüb, qəbul etdiyin din nədir belə?!. Allah and içirəm ki, bu yeni dini dərhal atmasan, mən yemək-içməyi tərk edib öləcəm. Sənin ürəyin mənə görə qəm-qüssə çəkməkdən partlaya-caq və sən etdiklərinə görə üzücü ümidsizliyə qapılacaqsan, insanlar isə ömrünün axırınadək səni utandırıb qınayacaqlar!»

Mən qışqırdım: «Ana, xahiş edirəm, bunu etmə! Mən heç vaxt öz dinimdən imtina etmərəm!»

Buna baxmayaraq anam öz dediyini yerinə yetirdi və yeməkdən tamamilə imtina etdi.

Günlər keçirdi, o heç nə yemirdi və heç nə içmirdi, arıqlayıb gücsüzləşirdi. Mən hər saat yanına gəlib ondan bir qədər yeyib-içməyi xahiş edirdim ki, o özünə gəlsin. Lakin anam hər dəfə

mənim xahişimi rədd edib and içirdi ki, mən dinimdən əl çəkməyənədək, o, heç nə yeməyəcək. Onda mən ona dedim: «Ana, mən səni nə qədər çox sevsəm də, Allahı və Onun Rəsulunu ﷺ daha çox sevirəm. Allaha and içirəm ki, sənin hətta min canın olsa belə və sən min dəfə ölsən də, mən heç vaxt dinimi tərk etmərəm».

O, mənim nə qədər möhkəm və ciddi olduğumu anlayıb bu vəziyyətə tabe olub iyrənə-iyrənə yemək yedi və bir az su içdi. Uca Allah bununla əlaqədar bu müqəddəs ayəni nazil etdi: **«Əgər** (atan-anan) **bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, bu işdə onlara itaət etmə.** (Qalan) **dünya işlərində onlarla gözəl keçin** (onlara itaət et)**».**

* * *

Sad ibn Əbu Vaqqas islam dinini qəbul etdiyi gün bütün müsəlmanlar üçün ən səfalı və bütövlükdə islam üçün ən yaxşı gün oldu. Sad və qardaşı Umeyr Bədr döyüşündə qoçaqlıq göstərdilər. Umeyr onda həddi-buluğa yenicə zatmışdır. Döyüşdən əvvəl Peyğəmbər ﷺ müsəlman qoşunlarına baxış keçirəndə. Umeyr Sadın arxasında gizləndi. O qorxurdu ki, Peyğəmbər ﷺ onu görsə, onun azyaşlı olduğuna görə ordudan qovar. Lakin bu hiyləyə baxmayaraq, Peyğəmbər ﷺ onu görüb cərgədən qovdu. Umeyr buna görə darıxıb, elə ağladı ki, Peyğəmbərin ﷺ ürəyi yumşaldı, və o Umeyrə əsgərlərlə qalmağa icazə verdi.

Buna sevinən Sad Umeyrin yanına qaçıb, onun üzərinə öz qılıncının aşırma qayışını keçirib, Umeyrin alçaq boyuna görə onu bir az dartıb bərkitdi və onlar ikisi də Allah yolunda vuruşmaq üçün döyüşə atıldılar.

Döyüş bitəndən sonra Sad Mədinəyə tək qayıtdı. Qardaşı Umeyr Bədr döyüşündə qəhrəmancasına həlak oldu və Sad onun üçün Allahdan mükafat dilədi.

* * *

Uhud döyüşü zamanı döyüşçülərin qəlblərinə zəiflik və təlaş düşəndə, Peyğəmbərin ﷺ ətrafındakı müsəlmanların sıraları elə

seyrəldi ki, onun yanında on nəfər ən sadiq insan qaldı. Sad ibn Əbu Vaqqas əlində kaman, Peyğəmbəri ﷺ mərdliklə müdafiə edirdi. Onun atdığı hər ox bütpərəstləri məhv edirdi. Peyğəmbər ﷺ onu ruhlandıraraq deyirdi: *«Onları oxlarınla vur, Sad, vur... Atam-annam sənə fəda olsun!»*

Sad bütün ömrü boyu bununla fəxr edib deyirdi: «Peyğəmbər ﷺməndən başqa heç bir insana ata-anasının adıyla and verməmişdir. O öz valideynlərini mənə fəda söz vermişdi».

* * *

Sad əl-Faruq farslarla müharibəni başlamaq qərarına gələndə öz şöhrətinin zirvəsinə çatdı. Xəlifə farsların dövlətini məhv etmək, onların hökmdarını devirmək və bütün yer üzündən bütpərəstliyi silmək istəyirdi. O öz canişinlərinə belə məzmunlu məktublar göndərdi: «Dərhal yanıma silahı, atı və hər hansı hərbi təchizatı olanları yollayın. Həmçinin şairlik qabiliyyəti olanları, natiqləri və müharibədə lazım olan başqa üstünlükləri olanları da göndərin».

Mücahidlərin dəstələri hər tərəfdən Mədinəyə axışmağa başladı. Toplanma bitəndən sonra, Əl-Faruq ağsaqqallar şurasını çağırdı və hakimiyyətdə olan bütün tanınmış adamları dəvət etdi. Bu şurada kimin ordu başçısı olacağı müzakirə edildi. Hamı bir nəfər kimi dedilər ki, bu Sad ibn Əbu Vaqqas olmalıdır. Ömər onu öz yanına çağırdı və bütün müsəlman ordusunun baş bayrağını ona tapşırdı.

* * *

Qoşunlar Mədinəni tərk etməyə hazır olanda Ömər ibn Əl-Xəttab onları yola salmağa çıxdı. O, baş komandana bu sözləri dedi:

– Ey Sad, Rəsulallahın dayısı, onun səhabəsi sözlərinə görə Allah qarşısında xəyala qapılma. Uca və qüdrətli Allah pisi pislə məhv etmir. O pisi yaxşı ilə məhv edir.

Ey Sad, Allahın qarşısında qohumluğun və ya ad-sanın heç bir mahiyyəti yoxdur. Onun üçün əsas tabelikdir. Tanınmış biri və sadə

insan Allah qarşısında eynidirlər. Allah onların Rəbbidir, onlar isə Onun qulları. Onlar bir-biri ilə yarışırlar və möminlik dərəcələri ilə fərqlənirlər, və Allah Ona tabe olmaqlarından asılı olaraq onlara qarşı lütfkardır. Həmişə Peyğəmbərin ﷺ başladığı böyük işi yadda saxla və onu davam etdir. Bu, icra olunacaq əmrdir.

Xeyir-dua almış ordu Allah uğrunda hərbi yürüşə çıxdı. Onun sıralarında Bədr döyüşünün doxsan doqquz iştirakçısı, Peyğəmbərə ﷺ sadiqliq andını verənlərdən üç yüzdən çox insan, Peyğəmbərin ﷺ Məkkəyə uğurlu yürüşünün üç yüz iştirakçısı və eləcə də onun səhabələrinin yeddi yüz oğlu var idi.

* * *

Müsəlman qoşunları başda Sad olmaqla Qadisiyyədə[91] qələbə ilə bitən döyüş keçirtdilər, «hərbi çağırış»[92] günündə isə müsəlmanlar düşməni tamamilə və həmişəlik məhv etmək qərarına gəldilər. Onlar düşməni mühasirəyə alıb "Lə iləhə illəllah" və "Allahu əkbər" sözləri ilə üstünə cumdular. Farsların ordusunun başçısı Rüstəmin başı müsəlman nizələri üstə qaldırıldı. Allahın düşmənlərinin ürəkləri qorxu və dəhşətlə elə bürünmüşdü ki, müsəlman döyüşçü fars əsgərini sadəcə olaraq yanına çağırırdı və o, yaxınlaşanda döyüşçü onu öz silahı ilə rahatca öldürürdü.

Qənimətlərə gəldikdə isə onları saymaqla bitmirdi. Düşmən itgilərinə dair onu demək kifayətdir ki, təkcə suda boğulub ölən farsların sayı otuz mindən çox idi.

* * *

[91] Qadisiyyə – Kufədən 15 mil kənarda yerləşən rayon. Burada hicrətin 16-cı ilində müsəlmanlarla farslar arasında həlledici döyüş baş verdi. Müsəlmanlar bu döyüşdə parlaq qələbə çalaraq fars dövlətini tamamilə darmadağın etdilər.

[92] «Hərbi çağırış» günü – Qadisiyyə döyüşünün sonuncu günü o, ona görə belə adlandırmışdır ki, döyüşün qorxunc səsi qalan səsləri batırmışdır.

Sad uzun və xoşbəxt həyat yaşadı və Allah ona kifayət qədər ruzi verdi. Lakin o, ölməmişdən qabaq köhnəlmiş cübbəsini gətirməyi xahiş edərək dedi: "Qoy bu üst geyimim mənə kəfən olsun, mən Bədr döyüşündə bu geyimdə bütpərəstlərlə vuruşmuşam Məhz bu geyimdə Uca və Qüdrətli Allahın qarşısında dayanmaq istərəm"[93]

* * *

[93] Sad ibn Əbu Vaqqas haqqında bax:

1. "Əl-İstiab", 2/18;
2. «Əl-İsabə», 2/30;
3. «Sifət əl-Səfva», 1/138;
4. «əl-Miləl və əl-Nəhl», 1/20;
5. «əl-Təbəqat əl-Kubra», 1/21;
6. «Əşhur məşahur əl-İslam», 3/525;
7. «Tahzib İbn Əsakir», 6/93;
8. «Əl-Bidəyyə və əl-Nihayyə», 8/72;
9. «Tuhfət əl-Ahvazi»,10/253;
10. «Seyr aləm əl-nubələ», 1/62;
11. «Rical havlə ər-Rasul», 141;
12. "Sad bin Əbu Vaqqas va abtal əl-Qadısiyyə" və s.
13. "ər-Riyad Nadira", 2/292;
14. "Əl-Maarif", 106;
15. "Ən-Nucum zahira" ;
16. "Əsəd əl-Ğabə", 2/290;
17. "Cumhur ənsab əl-Arab", 71;
18. "Tarix əl_İslam", 1/79;
19. "Zaəmə əl-İslam", 114;
20. "Futuh Mısr va axbaruhə", 318.

# HÜZEYFƏ İBN ƏL-YƏMƏN

*«Hüzeyfənin sizə danışdıqlarına inanın və Abdullah ibn Məsudun sizə oxuduqlarını oxuyun».*
Hədis.

«Əgər istəyirsənsə mühacir ola bilərsən, istəsən də ənsarlardan biri. Ona görə ürəyinə yatan seçimi edə bilərsən».

Rəsulallah ﷺ Hüzeyfə ibn Yəməni ilk dəfə Məkkədə görəndə ona məhz bu sözlərlə müraciət etdi. Bu azad seçimi etmək imkanı Hüzeyfəyə ona görə verilmişdir ki, çünki bunun öz tarixi var idi.

Hüzeyfənin atası Əl-Yəmən Bəni Əbs nəslindən olan bir məkkəli idi. Lakin öz nəslindən bir nəfəri öldürəndən sonra o, Məkkədən Yəsribə köçməli oldu. Orada o, Bəni Əbdəl Əşhal nəsli ilə qohum oldu və onun Hüzeyfə adlı oğlu oldu.

Tezliklə Əl-Yəmənə Məkkənin ərazisinə gəlməyə mane olan səbəblər yoxa çıxdı və o vaxtaşırı Məkkəni ziyarət edirdi. Amma daimi yaşamaq üçün Mədinəni seçmişdi.

Ərəbistan yarımadasında islam nur saçanda, Hüzeyfənin atası Əl-Yəmən Bəni Əbs nəslinin Rəsulallahın ﷺ yanına gəlmiş və islamı qəbul etdiklərini elan etmiş on bir nəfərin arasında idi. Bu hələ Peyğəmbər ﷺ Mədinəyə köçməmişdən qabaq oldu. Buna görə də əsil-nəcabətinə görə məkkəli Hüzeyfə mədinəli oldu.

Hüzeyfə ibn Əl-Yəmən müsəlmanın evində böyümüş və Allahın dinini ilk qəbul edənlərdən olan valideynlərdən tərbiyə almışdır. Hüzeyfə, Rəsulallahı ﷺ görmək xoşbəxtliyi ona nəsib olmamışdan qabaq müsəlman oldu.

* * *

Hüzeyfə bütün varlığı ilə Peyğəmbərlə ﷺ görüşə can atırdı. O müsəlman olandan bəri Peyğəmbər ﷺ haqqında hər bir xəbəri bilməyə çalışırdı və hamıdan onun zahirən necə göründüyünü öyrənirdi.

O, Peyğəmbəri ﷺ şəxsən görmək üçün Məkkəyə yollandı. Və onu görən kimi ondan soruşdu: «Ya Rəsulallah! Mən kiməm – mühacir yoxsa ənsar?» Peyğəmbər ﷺ ona belə cavab verdi: «Əgər

istəsən, mühacir ola bilərsən?, istəsən də – ənsarlardan biri. Ona görə də ürəyinə yatan seçimi edə bilərsən». Hüzeyfə dedi: «Ya Rəsulallah, mən ənsarlardan olmaq istəyirəm».

* * *

Peyğəmbər ﷺ Mədinəyə köçəndən bəri Hüzeyfə kölgə tək onun dalınca gəzirdi və Bədr döyüşündən başqa bütün yürüşlərdə iştirak edirdi.

Hüzeyfə, bu döyüşdə niyə iştirak edə bilmədiyini özü danışırdı: «Mənə Bədrdə döyüşməyə mane olan bircə səbəb var idi – atamla mənim o vaxt Mədinədə olmamağımız. Yolda qureyş kafirləri bizi tutub, dindirməyə başladılar. Onlar soruşdular: «Hara yollanırsınız?» Biz dedik: «Mədinəyə» Onlar dedilər: «Yəqin sizə Məhəmməd lazımdır». Biz cavab verdik: «Bizə Mədinə lazımdır». Onlar bizi bir şərtlə buraxmağa razılaşdılar – biz onlara qarşı müharibədə Məhəmmədə kömək etməməyə və onlarla vuruşmamağa and içməli idik. Sonra onlar bizi azad etdilər.

Bundan sonra biz Rəsulallahın ﷺ yanına gəlib, qureyşlilərə verdiyimiz vəd haqqında ona danışdıq. O məsləhətləşib bizə dedi: «Onlara verdiyiniz sözə əməl etməyə bilərsiniz. Və gəlin onlarla mübarizədə Allahın köməyinə müraciət edək».

* * *

Uhud döyüşündə Hüzeyfə atası Əl-Yəmənlə birgə vuruşurdu. Burada Hüzeyfə qəhrəmanlıq və rəşadət möcüzələri göstərdi və bir dəfə də olsun yaralanmadı. Atası isə döyüş meydanında həlak oldu, lakin bütpərəstlərin qılınclarından deyil, müsəlmanların əlindən. Bunun necə baş verdiyini biz danışarıq:

Uhud döyüşündə Rəsulallah ﷺ Əl-Yəməni və Sabit ibn Vaqşı çox qoca olduqları üçün qadınların və uşaqların gizləndiyi qala istehkamlarında saxladı. Döyüş ən qızğın nöqtəyə çatanda Əl-Yəmən yoldaşına dedi: «Qulaq as, dostum, biz nəyi gözləyirik?! Allaha and içirəm ki, yaşamağa heç vaxtımız da qalmayıb. Onsuz da bu gün olmasın sabah öləcəyik. Bəlkə qılınclarımızı götürüb

Rəsulallaha qoşulaq?! Bəlkə Allah bizə Onun Peyğəmbərinin yanında qəhrəmancasına ölmək qismət edər?» İki qoca qılınclarını götürüb döyüşə qoşuldular...

Allah Sabit ibn Vaqşa bütpərəstlər əlindən şəhid ölümünü bəxş etdi. Hüzeyfin atasına gəldikdə isə o, onu tanımamış müsəlmanların qılınclarından həlak oldu. Hüzeyfə qışqırdı:"Ata..., ata...!" Lakin onu heç kim eşitmədi və qoca öz silahdaşlarının əlindən öldü.

Hüzeyfə onlara bircə bunu dedi: «Allah sizi bağışlasın. O rəhim olanların ən Rəhimlisidir».

Allahın Rəsulu ﷺ ona atasına görə fidiyə vermək istədi, lakin Hüzeyfə dedi: «O döyüş meydanında ölmək istəyirdi və bunu da aldı. Allah qarşısında təsdiq edirəm ki, onun fidiyəsini müsəlmanlara verirəm» və bu hərəkət onu Peyğəmbərin ﷺ gözlərində daha yüksəltdi.

* * *

Rəsulallah ﷺ Hüzeyfə ibn əl-Yəməni hərtərəfli öyrənib və onun üz xarakterini qeyd etdi: ona ən çətin məsələləri həll etməyə kömək edən iti ağlı; şərait bunu tələb edəndə cəld və dəqiq şəkildə işin məğzini dərk etmək qabiliyyəti; və sirri qorumaq bacarığı, çünki heç kim ondan sirr ala bilmirdi.

Rəsulallahın ﷺ siyasəti öz səhabələrindən müsbət keyfiyyətlərinin üzə çıxarılması və sonradan onların gizli imkanlarının tam həcmində istifadəsi üzərində qurulurdu. Bunun nəticəsində Peyğəmbər ﷺ lazım olan yerlərdə bu və ya digər fəaliyyətin növünə müvafiq insanları yerləşdirdi.

* * *

Mədinə müsəlmanlarının ən çətin problemi yəhudilərdən olan münafiqlərin və onların tərəfdarlarının mövcudluğu idi. Bunlar da Peyğəmbərə ﷺ və onun səhabələrinə qarşı fitnə-fəsad törədirdilər.

Peyğəmbər ﷺ bütün münafiqlərin adlarını Hüzeyfə ibn Əl-Yəmənə verdi və islamı və müsəlmanları təhlükədən qorumaq məqsədilə ona bu insanlara ciddi nəzarət etməyi tapşırdı. Bu

məlumatlar elə məxfi idi ki, bu haqda hətta səhabələrdən belə heç kim bilmirdi. O vaxtdan Hüzeyfə ibn Əl-Yəmən «Rəsulallahın» sirrinin mühafizi» adını aldı.

* * *

Rəsulallah ﷺ qəliz vəziyyətlərin birində Hüzeyfənin istedadından istifadə etmişdir. Bu təhlükəli vəziyyətdə iti ağıl və zirəklik lazım idi. Müsəlmanlar müdafiə xəndəyinin yanında hər tərəfdən mühasirəyə alınmışdır. Müsəlmanların vəziyyəti getdikcə ağırlaşırdı və sözün əsil mənasında onlar üçün boğucu olurdu. Onlardan bəziləri artıq Allaha şübhə edirdilər.

Lakin qeyd etmək lazımdır ki, qureyşlilərin və onların bütpərəst müttəfiqlərinin vəziyyəti gərgin saatlar ərzində heç də yüngül deyildi.

Qureyşlilərə qəzəblənən Allah onların üzərinə güclü tufan göndərərək, onları zəiflətdi. Bu güclü külək onların çadırlarını uçurdub, qab-qacaqlarını dağıdıb, tonqallarını söndürdü və üzlərinə qum və toz səpib, onlara görməyə və eşitməyə mane olurdu.

Müharibələr tarixində belə həlledici anlarda həmişə məğlub olan tərəf mənəvi cəhətdən sarsılan tərəf olur. Qələbə qazanan isə öz soyuqqanlığını və iradəsini qoruyub saxlayan tərəf olur. Belə anlarda döyüşün taleyi həll olunanda ordu kəşfiyyatına, onun yaranmış vəziyyəti dəyərləndirilməsinin düzgünlük dərəcəsinə və onun irəli sürdüyü təkliflərin və tövsiyələrin doğruluğuna əsas rol ayrılır. Məhz belə vəziyyətdə Rəsulallah ﷺ Hüzeyfə ibn Əl-Yəmənin istedadı və təcrübəsi lazım oldu. O qərara aldı ki, hər hansı bir hərəkəti etməzdən qabaq lazımi məlumatları toplamaq üçün Hüzeyfəni gecə vaxtı düşmən düşərgəsinə yollasın.

İndisə bu təhlükəli həmlə haqqında danışmaq üçün sözü Hüzeyfənin özünə verək. Beləliklə, o danışırdı:

«O gecə bizim dəstələrimizin önündə Əbu Sufyan və məkkəli bütpərəstlər, arxamızda isə Bəni Qureyzəli yəhudilər yerləşirdi. Və biz onların arvad-uşaqlarımıza hücum etməsindən ehtiyat edirdik. Zülmət gecə düşdü və güclü külək əsməyə başladı. Gecə o qədər qaranlıq idi ki, bizlərdən heç kim hətta əlindəki barmaqlarını belə görə bilmirdi...

Münafiqlər Rəsulallahdan ﷺ bir-bir icazə alaraq evlərinə gedirdilər. Onlar ailələrinin düşmən hücumuna məruz qaldıqlarını bəhanə gətirirdilər. Halbuki evləri üçün heç bir təhlükə yox idi. Buna baxmayaraq, Peyğəmbərdən ﷺ döyüş meydanını tərk etmək üçün icazə istəyən hər kəs onu alırdı. Onlar tədricən gedirdilər və sonunda bizim sayımız üç yüz nəfər oldu.

* * *

Bu vaxt ayağa qalxmış Peyğəmbər ﷺ qalanlara bir-bir baş çəkməyə başladı. Və nəhayət qarşımda dayandı. Soyuq küləkdən qorunmaq üçün mən arvadımın nazik çiyinliyini üstümə atmışdım. O heç boynuma qədər də çatmırdı.

Mən yerdə qıc olub uzanmışdım. Peyğəmbər ﷺ yaxınlaşıb soruşdu: «Bu kimdir?» Mən dedim: «Hüzeyfə». O yenidən soruşdu «Hüzeyfə?» Mən çox acıdığımdan və üşüdüyümdən durmaq istəmirdim və qıc olmuş halda dedim: «Bəli, ya Rəsulallah!» O dedi: «Düşmən düşərgəsində nələr baş verdiyini bilmək maraqlı olardı. Ona görə də onların yanına get və orada nə olduğunu öyrən. Sonra da mənə çatdır».

Mən özümü dünyada ən qorxmuş və ən üşümüş insan kimi hiss edərək yola düşdüm. Lakin bu zaman Rəsulallah ﷺ dedi: «Allahım, onu qoru və arxadan, sağdan, soldan, yuxarıdan və aşağıdan mühafizə et». Allaha and içirəm ki, Allah qəlbimdəki bütün qorxuları yox etdi, bədənim isə heç bir soyuğu hiss etmədi. Yolüstü Peyğəmbər ﷺ məni çağırıb tapşırdı:

«Hüzeyfə! Yanıma qayıdanadək heç kimə heç nə eləmə». Mən dedim: «Baş üstə». Gecənin qaranlığından istifadə edərək yolumu davam etdirdim və bütpərəstlərin düşərgəsinə çatdım. Bir müddətdən sonra Əbu Sufyan ayağa qalxıb düşmən əsgərlərinə dedi: «Ey qureyşlilər! Mən sizə elə bir şey deməliyəm ki, bu Məhəmmədin qulaqlarına çatmamalıdır. Ona görə də sizlərdən hər kəs yanında oturana baxsın. Mən də qəfil yanımda oturanın əlindən tutub soruşdum: «Sən kimsən?» O cavab verdi: «Mən filankəsəm».

Sonra Əbu Sufyan dedi: «Ey qureyşlilər, Allaha and içirəm ki, siz az qalmışdır ki, öləsiniz. Sizin heyvanlarınız məhv oldu, qureyşlilər də sizdən imtina etdilər. Küləyin nə törətdiyini də özü-

nüz görürsünüz. Ona görə də çıxın gedin, mən özüm də gedirəm. O qalxıb dəvəsinin belinə mindi. Və əgər Peyğəmbər ﷺ mənə heç bir tədbir görməməyi əmr etməsəydi, mən qayıdıb oxlarımın birilə onu öldürərdim. Bundan sonra mən Peyğəmbərin ﷺ yanına qayıdıb onu bir neçə qadınlarla birgə namaz qılarkən gördüm. O məni görüb ayaqlarına tərəf çəkdi və başımı öz çiyinlərinin altına salıb, hər şeyi məndən öyrəndi. O eşitdikdərinə sevinib Allaha şükür etdi və ona tariflər dedi.

* * *

Hüzeyfə bütün ömrü boyu münafiqlərə aid bütün sirləri saxlayırdı. Bu məsələ ilə əlaqədar bütün xəlifələr kömək üçün ona müraciət edirdilər. Məsələn, əgər müsəlmanlardan biri ölmüşdürsə, Ömər ibn Əl-Xəttab soruşurdu: «Hüzeyfə ibn Əl-Yəmən onun cənazə namazında iştirak edib?» Əgər ona cavab versəydilər ki, Hüzeyfə iştirak edib, onda o ölənə xeyir-dua verirdi. Əgər ona desəydilər ki, Hüzeyfə iştirak etməyib, onda Ömər bu şəxsə şübhə ilə yanaşaraq, ona xeyir-dua verməkdən çəkinərdi.

Bir dəfə Ömər Hüzeyfdən soruşdu: «Mənim canişinlərimin arasında və əhatəmdə münafiq varmı?» Hüzeyfə cavab verdi: «Bəli, biri var». Ömər xahiş etdi: «Onu mənə göstər». Hüzeyfə dedi: «Mən bunu etmərəm». Sonradan Hüzeyfə dedi: «Ömər tezliklə məhz o adamı aradan götürdü, sanki həmin adamı ona göstərdilər».

Yəqin çoxları bilmir ki, məhs Hüzeyfə ibn Əl-Ymən müsəlmanlar üçün İranın Nəhavənd, Əl-Daynəvər Hamazan və Əl-Ray şəhərlərini alıb. Bundan başqa, müsəlmanların arasında Allahın Kitabı barəsində ixtilaflar başlayanda o, qanuniləşdirilmiş vahid Quran mətninin tərtibi işinə öz böyük payını daxil etdi.

Bütün bunlara baxmayaraq, Hüzeyfə Allahın cəzasından çox qorxurdu.

Onun ölümcül xəstəliyi kəskinləşəndə və onun bəzi silahdaşları onu gecə yarısı ziyarət etməyə gələndə o, soruşurdu: «Saat neçədir?»Ona dedilər ki, sübh çağı yaxınlaşır. O uca səslə dedi: «İlahi, məni mütləq alova gətirib çıxaracaq səhərdən qoru... İlahi, məni mütləq alova gətirib çıxaracaq səhərdən qoru...»

Sonra o soruşdu: «Siz özünüzlə kəfən gətirdiniz?» Onlar cavab verdilər: «Hə, gətirmişik». Hüzeyfə dedi: «Kəfənlərdə israfçılıq

etməyin, Əgər mənə Allahdan xeyir gəlməsi yazılıbsa, mnim kəfənim yaxşı olacaq. Əks halda isə onu məndən alacaqlar...» Bundan sonra o, davam etdi: «İlahi, sən bilirsən ki, kasıblıq mənə varlılıqdan xoş idi, məzlumluğu əzəmətdən çox sevirdim, ölümü isə yaşamaqdan üstün sayırdım».

Artıq ölüm ayağında o dedi: «Sevən istədiyinə çatır... Tövbədən yaxşı heç nə yoxdur...»

* * *

Allah Hüzeyfə ibn Əl-Yəmənə rəhm etsin. O, həqiqətən də nadir bir insan idi[94].

* * *

[94] Hüzeyfə ibn Əl-Yəmən haqqında əlavə məlumat almaq üçün bax:

1. «Əl-İstiəb», 1/277;
2. «Əl-İsabə», 1/317;
3. «Əl-Təbaqət əl-Kübra», 1/25;
4. «Seyr ələm əl-Nübələ», 2/260;
5. «Sifət əs-Səfva», 1/249;
6. «Tahzib əl-Tahzib», 2/219;
7. «Əsəd əl-Qaba», 1/290;
8. «Tarix əl-İslam», 2/152;
9. «Əl-Məarif», 114;
10. «Əl-Nucum əl-Zahira» , 1/76, 85, 102;

# UQBƏ İBN AMİR ƏL-CUHANİ

*Uqbə ibn Amir əl-Cuhaninin maraq dairəsi iki sahədən ibarət idi: elmdən və cihaddan.*

Rəsulallah ﷺ uzun müddətdən sonra nəhayət Yəsribin qəsəbələrinə çatdı.

Budur, gözəl Mədinənin sakinləri küçələrdə və evlərinin damlarında yığışıb, Rəsulallahı ﷺ və onun doğruçu səhabəsini sevinclə qarşılayaraq, «La ilahə illəllah» və «Allahu Əkbər» deyirlər. Mədinənin balaca qızları əllərində qavallar sevinclərindən ucadan söyləyirdilər:

Uzun ayrılıqdan sonra
yanımıza dolğun mehtab gəldi.
Və biz Allaha çağırana
Təşəkkür etməliyik...

Rəsulallahı ﷺ müşayiət edən alay, ürəkləri gözləməkdən yorulmuş bu şadlanan insanların sıralarından güclə keçirdi.

* * *

Lakin Uqbə ibn Amir Əl-Cuhani Rəsulallahın ﷺ təntənəli mərasiminin daxil olmasını görmədi və hamı kimi onun gəlməsinə sevinə bilmirdi.

İş onda idi ki, bu hadisə baş verməmişdən qabaq o öz qoyunlarıyla səhraya getmişdi. Onlar çox arıqlamışdılar və az qala öləcəkdilər. Bu qoyunlar Uqbənin yeganə sərvəti idi. Mədinəni bürüyən sevinc dərhal yaxın və uzaq köç yerlərinə yayıldı. Bu gur sevincin əks-sədası öz qoyunlarıyla uzaq səhra köç düşərgəsində olan Uqbə ibn Amir Əl-Cuhaninin yanından ötmədi.

Burada sözü Uqbə ibn Amirə verək ki, Peyğəmbər ﷺ ilə görüşü haqqında özü danışsın. Uqbə danışır:

– Rəsulallah ﷺ Mədinəyə daxil olan zaman mən səhrada qoyunlarımı otarırdım. Mən onun gəlməsi haqqında xəbəri eşidən kimi, dərhal qoyunlarımı atıb, onu görməyə getdim. Onu görəndə soruşdum: «Ya Rəsulallah! Mənim andımı qəbul edərsən?» O öz

növbəsində məndən soruşdu: «Sən kimsən?» Mən cavab verdim: «Uqbə ibn Amir əl-Cuhani». Peyğəmbər ﷺ soruşdu: «Hansı anda üstünlük verirsən: köçəri ərəblərin andına, yoxsa mühacirlərin andına?» «Mən cavab verdim: «Mühacir andına daha çox üstünlük verirəm. Rəsulallah ﷺ məndən mühacir andını qəbul etdi, mən onun yanında gecələdim, sonra da öz heyvanlarımın yanına yola düşdüm.

* * *

Biz öz qoyunlarımızı otarmağa uzaq yaylaqlara aparan və Mədinədən çox uzaqlarda olan on iki müsəlman idik. Bizlərdən bəziləri o birilərinə dedi: «Biz növbə ilə Rəsulallahı ﷺ ziyarət etməsək, bizə xeyir gəlməz. Qoy o, bizə dinimizi öyrətsin və ona səmalardan ilahi vəhylə göndərilənləri oxusun. Bizlərdən hər gün bir nəfər Yəsribə getsin, öz qoyunlarını da bizə saxlasın».

Mən də təklif etdim: «Bir-bir Rəsulallahın ﷺ yanına gedin və hər gedən öz qoyunlarını mənə saxlasın». İş onda idi ki, mən öz qoyunlarımı kiməsə etibar etməkdən çox qorxurdum.

Hər gün səhər tezdən yoldaşlarımdan biri Rəsulallahın ﷺ yanına yollanırdı və mənə öz qoyunlarını saxlayırdı ki, mən onları otarım. O qayıdanda mən onun öyrəndiyi biliklərdən danışdıqlarını diqqətlə dinləyirdim.

Bir dəfə mən fikirləşdim və özüm özümə dedim: «Başına dərd gəlsin! Bu yarımcanlı qoyunlara görə sən Peyğəmbərin ﷺ yanında olmaq imkanını əldən verirsən və heç bir vasitəçi olmadan onu dinləməkdən vaz keçirsən!»

Bundan sonra mən heyvanlarımı tərk edib, məsciddə Peyğəmbərin ﷺ yanında olmaq üçün birbaşa Mədinəyə yollandım.

* * *

Uqbə ibn Amir Əl-Cuhani bu qətiyyətli addımı atanda, onun heç ağlına belə gəlmirdi ki, o, on ildən sonra Rəsulallahın ﷺ əhatəsindən ən böyük ilahiyyatçı alimlərdən biri, məşhur Quran qiraətçilərdən biri, görkəmli sərkərdə və böyük islam rəhbəri olacaq. O öz qoyunlarını tərk edəndə təsəvvür edə bilməzdi ki, o, dünya şəhərlərinin anası olan Dəməşqi fəth edən ordunun önündə gedəcək və Dəməşqin gözəl yaşıl rayonu Babtumda yaşayacaq.

O, Rəsulallahın ﷺ yanına yola düşəndə, heç təsəvvür edə bilməzdi ki, dünyanın yaşıl zümrüdü olan Misiri fəth edən komandanlardan biri olacaq. Bu ölkənin canişini olub Əl-Müqattam dağının ətəyində yerləşən sarayda yaşayacaq. O vaxt bütün bunlar qaranlıq məsələ idi və bunu yalnız Allah bilirdi.

Uqbə ibn Amir Əl-Cuhani Peyğəmbərin ﷺ dalınca kölgə tək gəzirdi. O, hara gedirdisə, Uqbə onun qatırının yedəyini tuturdu və ya onun yanında gedirdi. Çox vaxt Rəsulallah ﷺ Uqbəni öz arxasında qatırına mindirdi. Və buna görə də Uqbə hətta «arxadan gedən» ləqəbini qazandı. Hərdən elə olurdu ki, Peyğəmbər ﷺ qatırdan düşüb, Uqbəyə yer verirdi, özü isə piyadə gedirdi.

Uqbə belə danışırdı:

– Bir dəfə biz Peyğəmbərlə ﷺ Mədinənin yaşıllıq basmış rayonundan keçəndə, mən onun qatırının yedəyindən tutmuşdum. O məndən soruşdu «Uqbə, qatıra minmək istəyirsən?» Mən «Yox» demək istədim, lakin Peyğəmbəri ﷺ incitmək istəmədiyim üçün dedim: «Hə, ya Rəsulallah». O dərhal düşdü, mən də onun əmrinə tabe olub qatırın belinə mindim. Sonra mən düşdüm, o isə qatırın üstündə yoluna davam etdi. O məndən soruşdu: «Uqbə, istəyirsən sənə heç vaxt eşitmədiyin surələri öyrədim?» Mən dedim: «Əlbəttə, ya Rəsulallah». O mənə: «De: «Pənah aparıram sübhün Rəbbinə»» və «De: Pənah aparıram insanların Rəbbinə»! surələrini oxudu. Sonra o, namaz qılanda bu ayələri oxudu və mənə dedi: «Hər dəfə yuxuya gedəndə və yuxudan oyananda onları oxu».

Uqbə dedi: «O vaxtdan bəri bütün ömrüm boyu bu qaydaya riayət edirəm».

* * *

Uqbə ibn Amir əl-Cuhaninin maraq dairəsi iki sahədən ibarət idi: elmdən və cihaddan. O, bütün mənəvi və fiziki gücünü həsr edib, onu bu sahədə işlədirdi.

Elm sahəsində o, Rəsulallahdan ﷺ biliklər alırdı və bunu gözəl qiraətçi, mühəddis və fiqh və miras bölgüsü üzrə ilahiyyatçı alim olanadək davam etdirirdi. Bundan başqa, o, məşhur ədəbiyyatçı, dilşünas və şair oldu.

Quran qiraəti bacarığında onu heç kim ötə bilməzdi. Gecə

düşəndə və dünya sakitləşəndə, Uqbə Allahın Kitabından onun aydın ayələrini oxumağa başlayırdı. Rəsulallahın ﷺ nəcib səhabələri onu dinləyəndə, qəlbləri ram olurdu, gözləri isə Allah qarşısında qorxudan yaşla dolurdu.

Bir dəfə Ömər ibn Əl-Xəttab Uqbəni qonaq çağırıb, ona dedi: «Uqbə, mənə Allahın Kitabından bir şey oxu». Uqbə dedi: «Baş üstə, əmirəl-möminin!» O müqəddəs Kitabdan bəzi ayələri əzbər dedi. Ömər elə ağladı ki, onun saqqalı göz yaşlarından islandı.

Uqbə öz əlilə yazdığı Quran səhifələrini saxlamışdı. Onlar bu günlərə qədər Misirdə, Uqbə ibn Amir məscidində saxlanılırdı. Bu Quran əlyazmasının sonunda yazılmışdı: «Uqbə ibn Amir əl-Cuhaninin əlilə yazılıb». Bu bütün planet üzrə məlum olan köhnə əlyazmalardan biri idi. Təəssüf ki, indi bu əlyazma itib.

* * *

Cihada gəldikdə isə, burada bircə onu demək kifayət edər ki, Uqbə ibn Amir Əl-Cuhani Peyğəmbərlə ﷺ birgə Uhud döyüşündə və başqa hərbi yürüşlərdə iştirak edib. O Dəməşqin fəthi zamanı cəsarət və mərdlik möcüzələrini göstərmiş qorxmaz pəhləvanlardan biri olub. Onun göstərdiyi igidliyə görə Əbu-Ubeydə ibn Əl-Cərrah onu Ömərin yanına qələbə xəbərini çatdırmağa yolladı. Uqbə düz səkkiz gün fasiləsiz olaraq Mədinəyə çapırdı və nəhayət Əl-Faruqa böyük qələbə haqqında xəbəri çatdırdı.

O, Misiri fəth edən müsəlman ordularının başçılarından biri olub. Əmirəl-möminin Müaviyə ibn Əbu Sufyan onu Misirə canişin təyin etməklə mükafatlandırdı. Uqbə bu vəzifədə üç il qaldı. Sonra o, Aralıq dənizdə Rodos adasının fəthi üçün hazırlanan yürüşün rəhbəri təyin olundu.

Uqbənin cihada olan məhəbbəti elə güclü idi ki, o, cihada aid bütün hədisləri əzbər bilirdi və onları ustalıqla müsəlmanlara danışırdı. O özünün oxatma bacarığını təkmilləşdirdi və bu onun ən çox sevdiyi əyləncə idi.

* * *

Uqbə ibn Amir Əl-Cuhani Misirdə olanda xəstələndi. O övladlarını toplayıb, onlara son öyüdü ilə müraciət etdi: «Ey mənim öv-

ladlarım! Mənim sizə qadağan etdiyim üç şeyi yadınızda saxlayın. Rəsulallahın ﷺ hədisinə yalnız onun səhihliyində əmin olandan sonra inanın; hətta yarımçılpaq gəzsəniz belə, heç vaxt borc götürməyin; şer yazmayın, çünki bu, insanın ürəyini Qurandan yayındırır».

Uqbə vəfat edəndə, onu Qahirədə Əl-Müqattam dağının ətəyində basdırdılar.

Sonradan onun mirası ilə məşğul olanda gördülər ki, o yetmiş kaman və hərəsinin yanında oxlarla dolu olan oxqabı saxlayıb. Bütün bunları o, Allah yolunda müsəlmanlara vəsiyyət etmişdir.

* * *

Allahın qarşısında Quranın məşhur qiraətçisi, alim və cəsur döyüşçü Uqbə ibn Amir Əl-Cuhani durdu. Onun İslam üçün etdiklərinə görə Allah onu yüksək mükafata layiq gördü[95].

* * *

---

[95] Uqbə ibn Amir Əl-Cuhani haqqında əlavə məlumat üçün bax:
1. «Əl-İstiəb», 3/106;
2. «Əsəd əl-Qaba», 3/417;
3. «Əl-İsabə», 2/482;
4. «Seyr ələm əl-Nübələ», 2/334;
5. «Camhara əl-Ənsab», 416;
6. «Əl Məarif», 121;
7. «Qaland əl-Cəmmən», 41;
8. «Əl-Nucum əl-Zahira», 1/19;
9. «Təbəqat üləmə Afriqiyyə və Tunis», 58-70;
10. “Futuh Misir və Axbaruhə», 287;
11. «Tahzib əl-Tahzib», 7/242;
12. «Tazkira əl-Hifaz», 1/42.

# BİLAL İBN RABAH

Rəsulullahın müəzzini

*Əbu Bəkr bizim həm seyyidimiz,*
*həm də seyyidimizi (Bilalı) azad edəndir.*
Ömər əl-Faruq (Allah ondan razı olsun!)

Rəsulullahın ﷺ müəzzini Bilal ibn Rabah əqidə uğrunda ən çox mübarizə aparan şəxsiyyətlərdən biridir. O, tarixin qəhrəmanlığını təkrar etməkdən yorulmadığı həyat hekayəsinə malikdir. Qulaqlar ona qoşulan ilahiləri eşitməkdən doymaz.

Bilal hicrətdən təxminən qırx üç il əvvəl Sərada anadan olmuşdur. Atasının adı Rabah, anasının adı isə Həmamə idi. Anası Məkkənin zənci cariyələrindən biri idi. Ona görə də bəzi insanlar onu zənci deyə çağırırdı.

* * *

Bilal Məkkədə böyüyüb boya-başa çatmışdır. O, Abduddər oğullarından yetim qalmış bir neçə nəfərə məxsus kölə idi. Ataları ölərkən onları kafirlərinin başçılarından biri olan Umeyyə ibn Xələfə tapşırmışdı.

Məkkə yeni dinin nuru ilə şəfəq saçdığı və Allahın elçisinin ﷺ tövhid kəlməsini yaydığı zaman Bilal İslamı ilk qəbul edənlərdən oldu. O, İslamı qəbul etdiyi vaxt hələ çox adam müsəlman olmamışdı. Həmin vaxt İslamı qəbul edənlər yalnız bunlar idi:

Möminlərin anası Xədicə bint Xuveylid, Əbu Bəkr əs-Siddiq, Əli ibn Əbu Talib, Ammar ibn Yasir və anası Sumeyyə, Suheyb ər-Rumi və Miqdad ibn əl-Əsvad[96].

Bilal müşriklər tərəfindən heç kəsin məruz qalmadığı əzab-əziyyətə məruz qalmışdır. O, müşriklərin şiddət və zülmünə, qəlblərinin hiddət və küdurətinə məruz qalmışdır. Ondan başqası bu

---

[96] O, Miqdad ibn Amrdır. İslam dinini ilk qəbul edənlərdəndir. Həbəşistana və Mədinəyə hicrət etmişdir. Bədr və başqa döyüşlərdə vuruşmuşdur. Hicrətin 33-cü ilində Osmanın xilafəti dövründə vəfat etmişdir.

qədər iztirab çəkməmişdir. O və onunla birgə olan zəif müsəlmanlar Allah yolunda bütün bəlalara sinə gəlib böyük səbr nümayiş etdirmişlər. Belə bir səbr və dözüm ancaq onlara məxsusdur.

Əbu Bəkr əs-Siddiqin və Əli ibn Əbu Talibin kütlə arasında böyük nüfuzları var idi. Camaat onlardan çəkinirdi. Kölələrdən olan həmin zəif müsəlmanlar isə Qureyşin ən şiddətli əzab-əziyyətlərinə dözməli olurdular. Qureyş tanrıları atıb Məhəmmədin dininə tabe olan kəslərə ibrət olsun deyə olmazın işgəncələrini verirdi. Onlara işgəncə verməklə Qureyşin ən qəddar kafirləri məşğul olurdular. Onların qəlblərini nifrət bürümüşdü. Əbu Cəhl (*Allah onun cəzasın versin*) Sumeyyəyə dözülməz işgəncələr vermişdir. Onu heyvancasına təhqir edir, söyüş söyürdü. Bir dəfə nizəni onun qarnından salıb kürəyindən çıxartmışdı. O, İslamda ilk şəhid qadın olmuşdur.

Onun din qardaşları isə, xüsusilə də Bilal ibn Rabah kafirlərin işgəncələrinə hələ də məruz qalırdılar.

Günorta düşdükdə onların paltarlarını soyundurur, əvəzində bədənlərinə dəmirdən geyimlər geyindirib onları qızmar günəşin yandırıcı şüaları altında istidən əridirdilər. Kürəklərini şallaqlayır və onlara Məhəmmədi söyməyi əmr edirdilər.

İşgəncə şiddətlənib onlar üçün dözülməz olduğu zaman bəzən kafirlərin istəklərini yerinə yetirməyə məcbur qalırdılar. Lakin onların qəlbləri Allah və Onun rəsuluna yenə də sadiq qalırdı. Bilal (Allah ondan razı olsun) isə İzzət və cəlal sahibi Allahın yolunda bütün bu işgəncələrə boyun əymədən sinə gəlirdi. Ona ən şiddətli işgəncələri Umeyyə ibn Xələf və onun adamları verirdi. Onun kürəyini şallaqla qan çalağına çevirir, sinəsi üstünə qaya parçası qoyur və ona olmazın işgəncələrini verirdilər. Ancaq o, bütün bunlara baxmayaraq "təkdir! Təkdir!" deməkdən əl çəkmirdi. Onu Lat və Uzzanı zikr etməyə nə qədər məcbur etsələr də o, Allahı zikr etməyə davam edirdi. Ona öz dediklərini təkrar etməyə nə qədər sövq etsələr də onlara belə cavab verirdi: "Dilim sizin dediklərinizi tutmur". Kafirlər Bilala işgəncənin ən son həddini tətbiq edirdilər.

Azğın və qəddar Umeyyə ibn Xələf ona işgəncə verməkdən bezdikdə, onun boynuna qalın bir ip bağlayib avaraların və uşaqların əlinə verirdi və onlara tapşırırdı ki, Bilalı Məkkənin qayalıqlarında dolaşdırsınlar.

Bilal Allah və Onun elçisinin yolunda çəkdiyi işgəncələri işgəncə yox, rahatlıq və rifah qəbul edirdi. Onun dili "Təkdir! Təkdir!", "Təkdir! Təkdir!" deməkdən yorulmurdu.

* * *

Əbu Bəkr əs-Siddiq (Allah ondan razı olsun!) Umeyyə ibn Xələfə yüksək qiymətlə Bilalı ona satmağı təklif etdi. Umeyyə elə düşünürdü ki, Əbu Bəkr onu götürməyəcək.

Əbu Bəkr onu doqquz uqiyyə[97] qızıla Umeyyə ibn Xələfdən aldı. Satış sövdələşməsi başa çatdıqdan sonra Umeyyə dedi:

"Əgər onu bir uqiyyəyə də alsaydın, yenə də satardım".

Əbu Bəkr isə dedi:

"Əgər onu yüz uqiyyəyə də satsaydın, yenə də alardım".

Əbu Bəkr Peyğəmbərə ﷺ Bilalı alıb zülmkarın əlindən qurtardığını bildirdikdə, Peyğəmbər ﷺ dedi: "Ey Əbu Bəkr, bu işdə məni də şərik et!"

Əbu Bəkr isə "Ya rəsulullah, onu artıq azad etmişəm" deyərək cavab verdi.

* * *

Allah təala Öz elçisinə ﷺ Mədinəyə hicrət etməyə icazə verdiyi vaxt Bilal (*Allah ondan razı olsun!*) hicrət edənlər sırasında idi. O, Əbu Bəkr əs-Siddiq və Amir ibn Fihr[98] ilə birgə eyni evdə qaldılar. Onlar qızdırma xəstəliyinə tutuldular. Bilal sağaldığı vaxt şirin səsini yüksəldərək bu sözləri dedi:

*Görəsən, bir gecə Fəxdə[99] qala biləcəmmi, ətrafımda da gözəl qoxulu bitkilər!?*

*Görəsən, bir gün Micənnədə[100] dolaşa biləcəmmi, Şamə və Tafilə[101] oradan doyunca baxım!?*

[97] Çəki vahididir.

[98] Amir ibn Fihr Bəni Təmim qəbiləsindən idi. İslamı ilk qəbul edənlərdən biridir. O da Allah yolunda çoxlu işgəncəyə məruz qalıb. Əbu Bəkr onu almış və azad etmişdir. O, Məunədə şəhid olmuşdur.

[99] Məkkə ətrafında bir yerdir.

[100] Cahiliyyə dövründə Məkkə yaxınlığında ərəblərin ən çox getdikləri bazarlardan birinin adıdır.

[101] Şamə və Tafil Məkkə ətrafında dağ adlarıdır.

Görünür Bilal Məkkə, onun vadiləri və dağları üçün çox darıxmışdı. Çünki o, imanın şirinliyini orada dadmışdı. Çünki o, Allahın nur camalını görmək naminə Onun yolunda işgəncələrə orada məruz qalmışdı. Çünki o, öz nəfsinə və şeytana orada qalib gəlmişdi.

Bilal Yəsribdə Qureyşin işgəncəsindən uzaqda rahatlıq tapdı və özünü öz peyğəmbərinə, əzizinə – Məhəmmədə həsr etdi. Ona Allahın salavatı və salamı olsun!

O, Peyğəmbərlə ﷺ birgə namaz qılır, döyüşə qatılır, onun etdiyi hər şeyi təkrar edərdi. Peyğəmbər ﷺ Mədinədə öz məscidinin inşasını başa çatdırdığı zaman əzan verilmə anı gəldi. Bilal qalxaraq əzan verdi. O, İslam tarixində ilk müəzzindir. Əzanı qurtardıqdan sonra Bilal Peyğəmbərin ﷺ evinin qapısının ağzında dayanaraq "Namaza gəlin! Nicata gəlin!" – deyərək səsləndi. Peyğəmbər ﷺ öz otağından çıxdıqda Bilal onu gördü və iqamə verməyə başladı.

* * *

Həbəş kralı Nəcaşi əziz Peyğəmbərimizə ﷺ krallara və şahlara layiq üç qısa ox hədiyyə etmişdi. Peyğəmbər ﷺ birini özü üçün saxladı, digərlərini isə Əli ibn Əbu Talib və Ömər ibn əl-Xəttaba verdi. Sonra özündə qalan oxu Bilala əta etdi. Bilal həyatı boyu onu qoruyub saxladı. Onu Ramazan və Qurban bayramlarında, yağmur namazlarında və məsciddən kənarda namaz qılındığı vaxt hər zaman özü ilə daşıyardı.

Bilal Peyğmbərlə ﷺ birgə Bədr döyüşünda iştirak etmiş və Allahın öz vədinə necə sadiq olduğunun şahidi olmuşdu. O, Allahın Öz ordusuna necə kömək etdiyini, əvvəllər ona işgəncələr verən kafirlərin necə zəlil vəziyyətə düşdüyünü öz gözləri ilə gördü. Əbu Cəhl və Umeyyə ibn Xələf müsəlmanların qılınclarına hədəf oldu. Vaxtı ilə işgəncə verdikləri kəslər indi onların qanlarını axıdırdılar.

* * *

Peyğəmbər ﷺ Məkkəyə qalib kimi girdiyində onun yanında səmaların carçısı Bilal ibn Rabah var idi. Möhtəşəm Kəbə evinə daxil

olduğu vaxt onunla gələn yalnız üç nəfər idi. Bunlar Osman ibn Talha (Kəbənin açarları onda idi), Usamə ibn Zeyd və Rəsulullahın müəzzini Bilal ibn Rabah idilər.

Zöhr namazı vaxtı Rəsulullahın ﷺ ətrafında minlərlə insan toplaşmışdı. Könüllü və ya könülsüz İslamı qəbul edən Qureyş kafirləri də bu canlı mənzərəyə tamaşa edirdilər. Bu vaxt Peyğəmbər ﷺ Bilal ibn Rabahı çağırıb ona Kəbənin üstünə çıxmağı və oradan tövhid kəlməsini elan etməyi əmr etdi. Bilal əmri böyük şövqlə yerinə yetirdi. Əzan səsilə könülləri oxşadı. Minlərlə üz ona tərəf çevrildi və minlərlə dil onun dediklərini xüşu ilə təkrarladı. Qəlblərində mərəz kök salmış və xalis imanın nişanələri olmayan kəsləri isə həsəd və kin öz ağuşuna aldı, ürəklərini parça-parça etdi.

Bilal əzanın "Əşhədu ənnə Muhəmmədən rəsulullah" ("Şəhadət edirəm ki, Məhəmməd Allahın elçisidir") sözlərinə çatdıqda Əbu Cəhlin qızı Cuveyrə bu sözləri dedi: "Canıma and olsun ki, artıq Allah sənin məqamını yüksəltdi... Lakin Allaha and olsun ki, biz əzizlərimizi öldürən adamı sevə bilmərik". Onun atası Bədrdə öldürülmüşdü.

Xalid ibn Useyd isə dedi: "Allaha şükr olsun ki, atama yazığı gəldi və bu günü görmədi". Onun atası Məkkənin fəthindən bir gün əvvəl vəfat etmişdi.

Haris ibn Hişam öz-özünə belə söylənmişdi: "Kaş ki, Bilalı Kəbənin üstündə görməmişdən əvvəl ölərdim".

Həkəm ibn Əbul As dedi: "Allaha and olsun ki, bu, çox qəribə bir işdir. Bənu Cumahın köləsi indi Kəbənin üstündə anqırır".

Əbu Süfyan da onlarla birgə idi. Lakin o, Bilal haqqında bir söz deməkdən çəkindi və dedi: "Ağzımdan bir söz çıxsa, onu o saat Abdullahın oğlu Məhəmmədə çatdıracaqlar".

* * *

Bilal Peyğəmbərin ﷺ sağlığında onun müəzzini oldu. Peyğəmbər ﷺ Allah yolunda çoxlu əzab-əziyyətlər görmüş, ancaq "O,

təkdir! O, təkdir!" deməkdən yorulmamış bu səsə qarşı çox mehriban idi.

Allahın elçisi ﷺ haqq dünyasına qovuşmuşdu. Namaz vaxtı gəldi... Bilal ayağa qalxıb əzan verdi. Peyğəmbər ﷺ hələ torpağa tapşırılmamışdı. Kəfənə bükülü idi. Əzanın "Əşhədu ənnə Muhəmmədən rəsulullah" sözlərinə çatdıqda hüzn onu boğdu, sözləri deyə bilmədi. Müsəlmanlar hönkür-hönkür ağlamağa başladılar. Həmin hadisədən sonra Bilal üç gün əzan verdi. O hər dəfə əzanda "Əşhədu ənnə Muhəmmədən rəsulullah" sözlərinə çatdıqda, ağlayır və ağladırdı.

Çox dözə bilməyən Bilal Rəsulullahın ﷺ xəlifəsi Əbu Bəkrdən onu əzan verməkdən azad etməyi istədi. Həmçinin ondan Şam torpaqlarında Allah yolunda cihada qoşulmaq üçün icazə istədi.

Əbu Bəkr əs-Siddiq onun bu istəyi və Mədinəni tərk etmək arzusu barədə tərəddüd etdi. Bilal ona belə dedi:

- Əgər məni özün üçün satın almışdınsa, məni saxla! Yox əgər məni Allah üçün azad etmisənsə, onda məni azad etdiyin kimsəyə burax!

Əbu Bəkr:

- Allaha and olsun ki, səni yalnız Allah üçün satın aldım və yalnız Allah üçün azad etdim.

Bilal dedi: "Mən Rəsulullahdan sonra heç kəsə əzan verə bilmirəm".

Əbu Bəkr ona "sən azadsan" deyərək getməsinə icazə verdi.

* * *

Bilal ilk heyətlə Mədinədən ayrıldı və Dəməşq yaxınlığındakı Dariyyə adlanan yerdə yaşamağa başladı. O, Ömər ibn əl-Xəttabın Şam torpaqlarına gəlməsinə qədər əzandan ayrı yaşadı. O, Bilalı uzun ayrılıqdan sonra yenidən əzana qaytardı. Ömər ona çox hörmət edir və rəğbət bəsləyirdi. Ömərin yanında Bilal haqqında danışılanda

belə deyərdi: “Əbu Bəkr bizim həm seyyidimiz, həm də seyyidimizi (Bilalı) azad edəndir”.

Səhabələr Faruqun Şamda olduğu ərəfədə Bilaldan əzan verməsini istədilər. Bilal əzan verəndə Ömər və digər səhabələr ağlamağa başladılar. Saqqalları göz yaşları ilə islandı. Bilal onları bir anlıq Mədinədə yaşanmış unudulmaz günlərə apardı.

* * *

Səmaların carçısı Bilal ömrünün sonuna kimi Dəməşqdə yaşadı. Ölüm yatağında olarkən zövcəsi yanında oturub ağlaya-ağlaya deyirdi:

“Nə kədərli gündür!”

Bilal isə hər dəfəsində gözlərini açaraq deyirdi:

“Yox! Nə sevincli gündür!”

Bilal Son nəfəslərini verərkən bu sözləri təkrarlayırdı:

“Sabah Məhəmməd və səhabələri ilə görüşəcəyik”[102]

---

[102] Bilal ibn Rabah haqqında ətraflı məlumat üçün bax:

1. “Əl-İsabə”, 1/165;
2. “Əl-İstiab”, 1/141;
3. “Əsdul Qabə”, 1/206;
4. “Təhzib ət-təhzib”, 1/502;
5. “Təcrud əsmaus-shabə”, 1/59;
6. “Siyəru əlam ən-Nubələ”, 1/171;
7. İbn Kəsir, 7/102;
8. Əz-Zəhəbi, “Tarix əl-İslam”, 2/31.

# HƏBİB İBN ZEYD ƏL-ƏNSARİ

*"Allahın sizə və bütün ailənizə xeyir-duası olsun,*
*Allah sizin hamınıza rəhm eləsin..."*
Rəsulallahın Həbibin ailəsinə
verdiyi başsağlığından

Bu evin hər küncündən iman ətri gəlir...

Onun hər sakininin alnında qurban verməyə hazır olmanın izi var...

Məhz bu evdə Həbib ibn Zeyd Əl-Ənsari böyüyüb yetginlik dövrünə çatmışdır.

* * *

Onun atası Zeyd ibn Asim Yəsribin ən yaxşı müsəlmanlarından biri idi. O, həmçinin Əl-Əqabədə Rəsulallahın ﷺ əllərini sıxıb, ona sadiq olmağa and içmiş ilk yetmiş müsəlmanlardan olub. Zeyd ilə birgə onun arvadı və valideynləri də burada olub.

Həbibin anası Umm Umara Nəsibə Əl-Məziniyyə Allahın dininin və Onun Rəsulu Məhəmmədin ﷺ müdafiəsi üçün əlinə silah götürmüş ilk qadın olub.

Onun qardaşı Abdullah ibn Zeyd Uhud döyüşündə Peyğəmbəri ﷺ öz sinəsi ilə qoruyub, onu ölümdən qurtardı.

Peyğəmbər ﷺ bir dəfə onlara hətta belə sözlər demişdir:

- Allahın sizə və bütün ailənizə xeyir-duası olsun, Allah sizin hamınıza rəhm eləsin...

İlahi nur Həbib ibn Zeydin gəncliyinin erkən çağlarında qəlbinə daxil olub, orada möhkəmlənmiş və özünə yer eləmişdir.

İslamın yaradılması işinə öz payını vermək üçün Həbibin qismətinə ata-anası, əmisi və qardaşı ilə birgə Məkkəyə getmək yazılmışdır. O, Əl-Əqabədə gizli olaraq Rəsulallaha ﷺ öz kiçik əlini uzadıb, ona sadiq olacağına and içdi.

Bu gündən etibarən Rəsulallah ﷺ Həbib üçün anasından və ya atasından daha sevimli oldu... İslam isə onun üçün öz həyatından dəyərli oldu...

* * *

Həbib ibn Zeyd, azyaşlı olduğundan Bədr döyüşündə iştirak etməmişdir. Eyni səbəbdən o, Uhud döyüşündə də vuruşmaq şərəfinə nail olmamışdır, çünki o vaxtlar o, hələ silah daşıya bilmirdi.

Lakin sonra o, Rəsulallahın ﷺ bütün yürüşlərində iştirak edərək, hər yerdə öz qəhrəmanlığını və özünü qurban verməyə hazır olduğunu göstərirdi. Və şöhrət qazanırdı...

Amma bu hadisələr öz əzəməti və nəhəngliyi ilə irəlidə danışacağımız başqa böyük bir hadisənin preambulası və ona ciddi hazırlıq oldu. Bu hekayə, peyğəmbərlik vaxtından bizim günlərə qədər milyonlarca müsəlmanların vicdanını silkələdiyi kimi, sizin də vicdanınızı silkələyəcək. Şübhəsiz ki, Həbibin əhvalatı, insanları bütün zamanlarda heyran etdiyi kimi səni də heyran edəcək.

Gəlin bu dəhşətli hekayəni lap əvvəldən dinləyək.

* * *

Hicrətin 9-cu ilində islamın bünövrəsi möhkəmləndi, onun kökləri və ərkanları qüvvətli oldu. Rəsulallahla ﷺ görüşmək, islam dinini qəbul etdiklərini onun şəxsən özünə bildirmək və ona sadiq və tabe olacaqlarına and içmək üçün Ərəbistan yarımadasının hər tərəfindən Yəsribə çoxsaylı ərəb nümayəndələri gəlirdi.

Yuxarı Nəcddən gəlmiş Bəni Hənifə qəbiləsinin nümayəndələri də bu nümayəndələrin arasında idi.

* * *

Nümayəndə heyəti öz dəvələrini Mədinənin şəhəryanı qəsəbəsində saxlayıb, onlara baxmağı öz adamlarından olan Müseylimə ibn Həbib Əl-Hənəfi adlı bir nəfərə tapşırdı. Qalanlar isə Peyğəmbərin ﷺ yanına yola düşüb, orada ona özlərinin və öz qəbilələrinin islam dininə keçdiklərini elan etdilər. Rəsulallah ﷺ onlara qarşı qonaqpərvərlik göstərib ehtiramla qarşıladı. O, nümayəndə heyətində olan hər bir kəsə, o cümlədən də dəvələrə baxmaq üçün saxladıqları adama hədiyyələr verməyi əmr etdi.

Nümayəndə heyəti hələ Nəcddəki evlərinə çatmamışdı ki, Museylimə ibn Həbib mürtəd oldu. O, insanları yığıb, onlara dedi:

– Allah Məhəmməd ibn Abdullahnı Qureyş qəbiləsinə peyğəmbər göndərdiyi kimi, mən də Allah tərəfindən Bəni Hənifə qəbiləsinə göndərilmiş peyğəmbərəm...

Qəbilənin adamları tədricən Museylimənin ətrafında toplaşmağa başladılar. Onlar müxtəlif səbəblərə görə bu işə baş qoşdular. Səbəblərin ən mühümü də onların ifrat millətçiliyindən ibarət idi. Qəbilənin adamlarından biri hətta demişdir:

– Təsdiq edə bilərəm ki, Məhəmməd həqiqi peyğəmbərdir, Museylimə isə yalançıdır. Amma Rabia qəbiləsinin yalançısı Mudar qəbiləsinin doğruçusundan mənə daha əzizdir.

* * *

Museylimə kifayət qədər qüvvətlənib çoxlu tərəfdar əldə etdikdən sonra Peyğəmbərə ﷺ aşağıdakı məzmunlu məktub yazdı.

"Allahın rəsulu Müseylimədən Allahın rəsulu Məhəmmədə. Salam olsun sənə.

Beləliklə, mən səninlə yanaşı peyğəmbərlik missiyasına qoşulmuşam. Qoy bütün torpaqların bir yarısı bizə, o biri yarısı isə qureyşilərə məxsus olsun. Onlar qanunsuzluqlar törətsələr belə!"

Sonra bu naməni iki adamla yolladı. Peyğəmbər ﷺ üçün bu naməni oxuduqda, o, uca səslə nümayəndələrə dedi: "Bəs siz buna nə deyə bilərsiniz?!"

Onlar ikisi də dedi: "Biz də onun dediklərini deyə bilərik". Peyğəmbər ﷺ onlara dedi: "Allaha and içirəm ki, əgər nümayəndələri öldürməyə icazə verilsəydi, mən sizin başlarınızı kəsərdim". Sonra o, Museyliməyə aşağıdakı məzmunlu namə yazdı:

"Rəhman və Rəhim Allahın adıyla. Allahın Rəsulu Məhəmməddən yalançı Museyliməyə. Düz yolla gedənlərə salam olsun. Beləliklə, yerin hamısı Allaha məxsusdur. O, onu öz bəndələrindən istədiyinə miras saxlayır. Qələbə isə möminlərindir". Sonradan bu naməni həmin adamlarla Museyliməyə göndərdi.

* * *

Yalançı Museylimənin törətdiyi şər və fitnə-fəsad təhlükəli dərəcədə artdı. Rəsulallah ﷺ Museyliməyə yeni namə göndərməyi və orada ona pislik törətməkdən əl çəkmək və ağlını başına toplamaq tələbini irəli sürməyi zəruri hesab etdi. Və bu naməni Museyliməyə aparmağı hekayəmizin qəhrəmanı Həbib ibn Zeydə tapşırdı.

O vaxtlar Həbib Allaha inanan gənc bir oğlan idi.

* * *

Həbib ibn Zeyd heç bir ləngimə və tərəddüd keçirmədən Rəsulallahın ﷺ tapşırığını yerinə yetirməyə cumdu. O, Bəni Hənifə qəbiləsinin Yuxarı Nəcddə yaşadığı əraziyə çatanadək çox dağlar və düzlər aşdı və Museyliməyə naməni verdi.

Museylimə naməni oxuyan kimi, sinəsi nifrət və kinlə doldu, acıq və məkr isə onun eybəcər sarımtıl üzünü daha korladı. O, Həbib ibn Zeydi qandallamağı və onu ertəsi gün yanına gətirməyi əmr etdi.

Ertəsi gün Museylimə öz tərəfdarlarından ibarət bir məclis topladı. Onun tərəfdarlarından olan baş kafirlər onun sağ və sol tərəfində əyləşmişdi, rütbəsinə görə aşağı mövqe tutanlara da məclisdə iştirak etməyə icazə verilmişdir. Museylimə Həbib ibn Zeydi gətirməyi əmr etdi və o, qandalların ağırlığı altında yavaş-yavaş hərəkət edərək Museylimənin yanına gəldi.

* * *

Həbib ibn Zeyd başını qürurla dikəldib, qamətini əymədən bu məkrli məclisin ortasında düz polad nizə kimi dayandı.

Museylimə ona müraciət edib dedi:

- Sən şəhadət verirsən ki, Məhəmməd - Allahın Rəsuludur?

Həbib dedi: "Bəli, mən şəhadət verirəm ki, Məhəmməd Allahın Rəsuludur".

Museylimə hirsindən və qəzəbindən çeçəyib, soruşdu:

- Bəs mənim Allahın Rəsulu olduğuma şəhadət verirsən?

Həbib acı-acı cavab verdi:

- Mənim qulaqlarım sənin sualını eşitmir.

Museylimənin üzünün rəngi dəyişdi, dodaqları isə qəzəbdən tit-

rədi. O, cəllada dedi:

– Onun bədənindən bir tikə kəs!

Cəllad qılıncla Həbibin bədənindən bir tikə kəsdi və o, yerə düşdü. Museylimə sualı təkrarladı:

– Sən şəhadət verirsən ki, Məhəmməd Allahın Rəsuludur? Həbib cavab verdi: "Bəli, mən şəhadət verirəm ki, Məhəmməd Allahın Rəsuludur". Museylimə soruşdu: "Bəs sən şəhadət verirsən ki, mən Allahın Rəsuluyam?"

Həbib cavab verdi: "Mən axı sənə dedim ki, mənim qulaqlarım sənin sualını eşitmir"

Museylimə onun bədənindən daha bir tikə kəsməyi əmr etdi. Cəllad bunu etdi və ikinci tikə yerə düşüb diyirlənərək birinci tikənin yanında dayandı. Orada olanların nəzərləri Həbibə yönəlmişdi, onlar onun mətanətinə və mərdliyinə heyran olmuşdular.

Museylimə öz suallarını verməyi davam edir, cəllad Həbibin bədənini doğrayır, Həbib isə deyirdi:

– Şəhadət verirəm ki, Məhəmməd Allahın Rəsuludur.

Həbibin bədənin yarısı artıq yerə tökülmüş tikələrə çevrilmişdi, amma salamat qalan hissəsi danışmağa davam edirdi...

Həbibin ruhu nəhayət bədənini tərk etdi, amma Allahın Rəsulu Məhəmməd adı onun mömin dodaqlarında idi. Həbib Əl-Əqabədə gecə vaxtı həmin peyğəmbərə sadiq olacağına and içmişdi...

* * *

Həbibin anasına oğlunun vəfatı haqqında kədərli xəbəri çatdırdılar. Nəsibə Əl-Məziniyyə ancaq bunu dedi:

– Mən onu məhz belə qəhrəmanlığa hazırlayırdım. Mən onun Allah yolunda həlak olmasını deyinmədən qəbul edirəm...

Bir dəfə o, balaca ikən Əl-Əqabədə gecə vaxtı Rəsulallaha ﷺ sadiq olacağına and içmişdi və bu borcunu artıq yetkinlik dövründə yerinə yetirdi...

Əgər Allah mənə nəvaxtsa Museylimə ilə qarşılaşmağa imkan versə, onda mən elə edəcəyəm ki, onun qızları matəm işarəsi olaraq öz üzlərinə çırpacaqlar.

Nəsibə bu günü çox gözləməli olmadı... Tezliklə Əbu Bəkrin

mğəzzini Mədinədə elan etdi ki, möminlər yalançı peyğəmbər Museylimə ilə müharibəyə qalxsınlar...

Nəsibə Əl-Məziniyyə və onun oğlu Abdullah ibn Zeyd yürüşə çıxan müsəlman ordusunun sıralarında idi.

* * *

Əl-Yəməmə günü Nəsibə qəzəblənmiş qəzəbli aslan kimi düşmənləri darmadağın edərək qışqırırdı:

– Allahın düşməni haradadır? Mənə Allahın düşmənini göstərin!

Nəhayət o, Museyliməni tapdı. Onun yerdə uzandığını, müsəlmanların qılınclarının isə onu qanı ilə ləkələndiyini gördü. Nəsibə sevindi, qəlbi isə sakitləşdi.

Niyə də yox?! Məgər Uca və Qüdrətli Allah hiyləgər və hirsli qatildən Nəsibənin mömin və yumşaq ürəkli oğlunun ölümünə görə intiqam almadı?!

Əlbəttə!

Onlardan hər birisi öz Rəbbinin yanına yollandı, lakin biri cənnətə, digəri isə cəhənnəm oduna düşdü.[103]

---

[103] Həbib ibn Zeyd haqqında əlavə məlumat üçün bax:

1. "Əsəd əl-Qaba", 1/443;
2. "Ənsab əl-Əşraf", 250 və 325;
3. "Əl-Təbəqat əl Kübra", 4/316;
4. "Əl-Sıra ən-Nəbəviyyə", İbn Hişam, mündəricata bax.;
5. "Əl-İsabə", 1/306;
6. "Şühəda əl-İslam fi əhd ən-Nubuvva";
7. “Əl-İstiab”, 1/328.

# ƏBU TƏLHA ƏL-ƏNSARİ
# (ZEYD İBN SƏHL)

*" Əbu Təlha öz ömrünü oruc tutan mğcahid kimi keçirmişdi və oruc tutan mücahid kimi öldü."*

Əbu Təlha ləqğəbini almış Zeyd ibn Səhl Ən-Nəccari biləndə ki, Ər-Rumeysə bint Milhan Ən Nəccarinin əri ölüb və o, dul qalıb, sevindiyindən az qalırdı qanad açıb uçsun. Burada qəribə bir şey yox idi.

Çünki Umm Suleym ləqəbini almış Ər-Rumeysə ismətli, ağıllı, düşüncəli qadın olmaqla yanaşı bir çox başqa yaxşı xüsusiyyətlərə malik idi. Hələ ki, bu cür qadınları xoşlayan kişilərdən kimsə onu qabaqlamayıb, Əbu Təlha dərhal ona evlənmə təklifi etmək qərarına gəldi. O, əmin idi ki, Umm Suleym ondan başqa heç bir kişiyə üstünlük verməz.

Əbu Təlha igid, tanınmış və çox varlı bir kişi idi... Bundan başqa, o, Ən-Nəcar qəbiləsinin ən mahir at sürəni və cəngavəri və eləcədə Yəsribin ən yaxşı oxatanlarından biri idi.

* * *

Əbu Təlha Suleymin evinə tərəf yollandı. Yolda birdən onun yadına düşdü ki, Umm Suleym məkkəli moizəçi Musab ibn Umeyrin dediklərini dinləyəndən sonra, Məhəmmədə inanıb, onun dinini qəbul etdi.

Amma elə həmin an Əbu Təlha özü özünə dedi: "Nə olsun ki? Məgər onun mərhum əri öz ata-babalarının dininə xidmət edib, Məhəmmədə və onun dəvətinə qarşı çıxmamışdı?"

* * *

Əbu Təlha Umm Suleymin evinə yaxınlaşıb içəriyə girmək üçün icazə istədi. Umm Suleym buna razılıq verdi. Qadının oğlu Ənəs də evdə idi. Əbu Təlha Umm Suleymə evlənməyi təklif edəndə, o, belə cavab verdi:

- Ya Əbu Təlha, sənin kimi adamları rədd etmirlər, amma mən sənə ərə getməyəcəyəm, çünki sən kafirsən...

Əbu Təlha elə fikirləşdi ki, Umm Suleym bir bəhanə tapıb ona rədd cavabı vermək istəyir, çünki başqa birisinə, daha varlı və daha tanınmış bir kişiyə üstünlük verib.

O, qadına dedi:

– Allaha and içirəm ki, sənə mənim arvadım olmağa mane olan bu deyil, ya Umm Suleym.

Umm Suleym uca səslə soruşdu:

– Onda bəs mənə mane olan nədir?!

Əbu Təlha dedi:

– Sarı və ağ... Qızıl və gümüş...

– Qızıl və gümüş?!

– Bəli. – Əbu Təlha dedi.

Umm Suleym dedi: "Ya Əbu Təlha, mən həqiqətən sənə, həmçinin Allaha və Onun Rəsuluna şəhadət verirəm ki, sən islamı qəbul etsən, mən heç bir qızılsız və gümüşsüz sənin arvadın olmağa hazıram. Sənin islama keçməyin elə mənim mehrim olar.

* * *

Əbu Təlha Umm Suleymin sözlərini eşidəndə bütün fikirləri qiymətli ağac növündən düzəlmiş bütə yönəldi və o, öz şəxsi tanrısına ibadət etməyə başladı. Onun qəbiləsinin bütün başçıları belə edirdi.

Lakin Umm Suleym vəziyyətdən istifadə etmək qərarına gəldi. Və dedi:

– Ya Əbu Təlha, məgər sən bilmirsən ki, sənin Allahdan qeyri ibadət etdiyin tanrın torpaqdan bitib?!

– Bəli, bilirəm, – deyə, Əbu Təlha cavab verdi.

Umm Suleym ucadan dedi:

– Sən də bu ağac kökündən və ya kötüyün bir hissəsindən düzəltdiyin tanrıya ibadət etməkdən utanmırsan?! Bir halda ki, onun digər hissəsini başqa adam isinmək və ya kökə bişirmək üçün odun kimi istifadə edir. Ya Əbu Təlha, əgər sən islamı qəbul etsən, mən sənin arvadın olmağa razılıq verərəm. Və sənin islamından savayı mənə başqa başlıq lazım deyil.

– Bəs məni islama kim qəbul edər? – o, soruşdu.

– Mən bunu edə bilərəm, – Umm Suleym cavab verdi.

– Necə?

– De ki, Allahdan başqa tanrı yoxdur və Məhəmməd Allahın Rəsuludur. Sonra evinə gedib öz bütünü sındır və at getsin.

Üzündə qarışıq hisslərin ifadəsi olan Əbu Təlha söylədi:

– Şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur və şəhadət verirəm ki, Məhəmməd Allahın Rəsuludur.

Sonra Əbu Təlha Umm Suleym ilə evləndi.

Müsəlmanlar bu haqda danışırdılar:

– Biz heç vaxt Umm Suleymin aldığı mehrdən daha qiymətli mehr haqqında eşitməmişdik... O, islamı özünə başlıq elədi...

* * *

O gündən etibarən Əbu Təlha islamın bayrağı altında dayanıb, bütün qüvvələrini ona verirdi.

O, Əl-Əqabədə Rəsulallaha ﷺ sadiq olacaqlarına and içmiş yetmiş nəfərdən biri oldu. Həmçinin arvadı Umm Suleym də orada onunla birgə idi.

O, Rəsulallahın ﷺ həmin gecə təyin etdiyi Yəsribin on iki başçı ündər müsəlmanlarından biri oldu.

Bundan sonra Əbu Təlha Rəsulallahın ﷺ təşkil etdiyi bütün hərbi yürüşlərdə iştirak etmişdir və əsil qəhrəmanlıq və cəsarət göstərmişdi.

Lakin onun Rəsulallahla ﷺ keçirtdiyi ən yaxşı günləri Uhud döyüşündə olub. Bu hadisələr haqqında hekayəni sizə təqdim edirik.

* * *

Rəsulallaha ﷺ olan həqiqi və alovlu məhəbbət Əbu Təlhanın qəlbinə nüfuz edib, onun qanı ilə bütün damarlarına yayıldı. O, Peyğəmbərə ﷺ baxmaqdan və onun təmiz və uca nitqlərini dinləməkdən yorulmurdu.

Əbu Təlha onun qarşısında diz çökərək deyirdi: "Canım sənin canın üçün, üzüm isə sənin üzün üçün fidiyə olsun".

Uhud döyüşündə müsəlmanlar Rəsulallahı ﷺ qoyub geriyə çəkildilər və bütpərəstlər ona hər tərəfdən hücum edib, dişini vurub

çıxartdılar, alnını yardılar, dodağını zədələdilər. Qan Peyğəmbərin ﷺ üzünə axıb töküldü.

Hayküyçülər hətta Məhəmmədin öldürüldüyü haqqında şayiə buraxdılar. Bu xəbər müsəlmanları daha çox sarsıtdı və onların Allahın düşmənləri qarşısından qarışıq şəkildə geriyə çəkilməyə başladılar.

Bu gərginli anda Rəsulallahın ﷺ ətrafında başda Əbu Təlha olmaqla bir dəstə adam qaldı.

* * *

Əbu Təlha sarsılmaz qaya tək Rəsulallahın ﷺ qarşısında dayandı və Peyğəmbər ﷺ onunla örtüldü.

Əbu Təlha öz kamanının ipini qaydaya salıb oxları hazırladı və Rəsulallahı ﷺ müdafiə edərək, bütpərəstləri bir-bir tələf etməyə başladı. Peyğəmbər ﷺ oxların uçuşunu izləmək üçün daima Əbu Təlhanın arxasından çıxırdı. O isə, Peyğəmbərin ﷺ həyatına görə qorxaraq onu belə etməməyə yalvarırdı və deyirdi:

– Sən mənə həm ana, həm də atasan. And verirəm, özünü göstərmə, yoxsa onlar səni vurarlar. Həqiqətən, mən səni öz sinəm və bədənim ilə qoruyuram. Sənin fidyən olum!

Rəsulallahın ﷺ yanından geriyə çəkilən müsəlmanlardan biri keçəndə, Peyğəmbər ﷺ onu çağırıb, ondan xahiş etdi:

– Oxları götürüb qaçma, onları Əbu Təlhanın qarşısına səpələ.

Əbu Təlha üç kaman sındırıb və Allahın istədiyi qədər bütpərəstləri öldürənə kimi Rəsulallahı ﷺ müdafiə etməyə davam etdi. Sonra döyüş bitdi və Allah öz Peyğəmbərinə nicat və müdafiə göndərdi.

* * *

Əbu Təlha Allah yolunda ən ağır döyüşlərdə öz həyatını qurban verdiyi kimi, öz vəsaitlərini də təmənnasız və səxavətlə paylayırdı.

Məsələn, o, ən təmiz suyu və ən dadlı meyvələri olan Mədinənin ən iri xurma və ğzğm bağlarının sahibi idi.

Bir dəfə Əbu Təlha öz bağında, yaşılllıqda namaz qılanda, yaşıl

rəngli, qırmızı qanadlı, gözəl, oxuyan bir quş onun diqqətini çəkdi. Quş xoş civiltisi ilə ağacların arasında uçaraq, Əbu Təlhanı heyrətə gətirdi. O, quşa baxıb, xəyala qapıldı...

Birdən özünə gələn Əbu Təlha müəyyən etdi ki, neçə rğkət qıldığını xatırlamır. İki rğkət... Üç... O, heç cür yadına sala bilmirdi... Namazı bitirən Əbu Təlha dərhal Rəsulallahın ﷺ yanına gedib, ona dedi ki, gözəl bağ, ağacları və oxuyan quş onun qəlbini namazdan yayındırdı. Sonra Peyğəmbərə ﷺ dedi:

- Ya Rəsulallah, mənim bu bağı Uca Allaha qurban verməyimin şahidi ol. Allahın və onun Rəsulunun istədiyi kimi onun qeydinə qal.

Əbu Təlha öz ömrünü oruc tutan mğcahid kimi keçirmişdi və oruc tutan mücahid kimi öldü.

Əbu Təlha haqqında danışırdılar ki, o, Rəsulallahın ﷺ vəfatından sonra tam otuz il fasiləsiz oruc tuturdu və orucunu yalnız bayramlarda, oruc tutmaq haram olan günlərdə kəsirdi. O, uzun ömür yaşadı, qocalanda da cihaddan geri qalmırdı, yer üzündə Allahın sözünü ucaldaraq, onun dinini möhkəmləndirirdi.

Osman ibn Əl-Əffanın xilafəti dövründə müsəlmanlar hərbi dəniz yürüşü təşkil etmək qərarına gəldilər. Əbu Təlha müsəlmanların ordusu ilə birgə yürüşə çıxmaq üçün hazırlaşmağa başladı, oğulları isə ona dedilər:

- Ata, Allahın sənə rəhmi gəlsin. Sən axı çox qocasan. Sən Rəsulallahın, Əbu Bəkrin və Ömərin yürüşlərində iştirak etmisən. İndi sənin istirahət etmək vaxtındır, biz isə sənin yerinə döyüşərik.

Əbu Təlha cavab verdi:

- Həqiqətən, Uca və Qüdrətli Allah buyurub: **"Ağırlı-yüngüllü hamınız cihada çıxıb malınız və canınızla Allah yolunda vuruşun!"** (ət-Tüvbə, 41) Bu o deməkdir ki, cihadda hamı, o cümlədən də qocalar və cavanlar iştirak etməlidir və bizim üçün yaş məhdudiyyəti qoyulmayıb.

* * *

Onun yürüşə çıxmaq fikri möhkəm idi.

Dənizdə, müsəlman döyüşçülərin gəmisində ikən, Əbu Təlha ciddi xəstələndi və vəfat etdi.

Müsəlmanlar onu basdırmaq üçün bir ada axtarmağa başladılar. Onlar buna yalnız yeddi gündən sonra nail oldular və bütün bu vaxt ərzində onların arasında olan mərhum heç dəyişilməmişdi. O, sanki dərin yuxuya getmişdi.

Adaların birində, öz doğma torpağından, evindən və yaxınlarından çox uzaqlarda Əbu Təlha dəfn edildi...

Amma Uca və Qüdrətli Allaha yaxınlıqla müqayisədə insanlardan uzaq olmaq nədir ki... [104]

* * *

[104] Əbu Təlha Əl-Ənsari haqqında əlavə məlumat üçün bax:

1. "Əl-İsabə", 1/566;
2. "Əsəd əl-Qaba", 1843;
3. "Əl İstiəb", 1/549;
4. "Əl-Təbəqat əl-Kübra", 3/504;
5. "Sifət əs-Səfva", 1/190;
6. "Tahzib əl-Tahzib", 3/414;
7. "Tarix" Ət-Təbəri, 2/ 619, 3/ 124-181, 4/192; həmçinin 10-cu hissənin mündəricatına bax.;
8. "Tahzib İbn Əsakir", 6/4;
9. "Əl-sıra", İbn Hişam; mündəricata bax.;
10. "Həyat əs-Səhabə"; 4-cü hissənin mündəricatına bax.

# RAMLA BİNT ƏBU SUFYAN

*"Umm Həbibə Allahı və Onun Rəsulunu başqalarından üstün tutdu. İnsan alovun içinə atılmağa nifrət etdiyi kimi, o da, yenidən bütpərəstliyə dönməyə nifrət edirdi".*

Tarixçilər

Əbu Sufyan ibn Harbın fikrinə belə gəlməzdi ki, qureyşlilərdən kimsə onun sözündən çıxa bilər və yaxud hansısa bir vacib işdə ona etiraz edə bilər. O, Məkkənin hökmdarı və onun başçısı idi. Hamı ona tabe olub, onun dediklərinə itaətlə riayət edirdi.

Lakin onun Umm Həbibə ləğəbini almış Ramla qızı bu yanlış fikirlərini puça çıxartdı. O, əri Ubeydullah ibn Cəhş ilə birgə Vahid Allaha və Onun Peyğəmbəri Məhəmməd ibn Abdullahın peyğəmbərlik missiyasına iman gətirdi.

* * *

Əbu Sufyan, öz gücündən istifadə edərək qızını və onun ərini öz əcdadlarının dininə qaytarmaq istədi, lakin onun bütün səyləri nəticəsiz oldu. Ramlanın qəlbindəki iman elə dərindən kök atmışdı ki, onu aradan qoparmağa Əbu Sufyanın gücü yetməzdi, qəzəbi isə onu sarsıda bilməzdi.

Ramlanın islam dininə keçməsi ilə əlaqədar Əbu Sufyan çox həyəcanlandı. O, özünə təsəvvür edə bilməzdi ki, qızını tabe olmağa və Məhəmmədə riayət etməkdən imtina etməyə məcbur edə bilməyəndən sonra, qureyşlilərlə görüşəndə onların gözlərinə necə baxacaq.

Qureyşlilər biləndə ki, Əbu Sufyan Ramlaya və onun ərinə qəzəblənib, bu onlara daha çox cəsarət verdi. Qureyşlilər Ramlanı və onun ərini hər cür sıxışdırmağa başladılar və onların təqibi o dərəcəyə çatdı ki, bu iki nəfərin Məkkədəki həyatı dözülməz oldu.

* * *

Rəsulallah ﷺ müsəlmanlara Həbəşistana köçməyə icazə verəndə Ramla bint Əbu Sufyan, onun balaca qızı Həbibə və əri Ubeydullah

ibn Cəhş öz dinini xilas etmək və Həbəşistan nequsunun himayəsi və müdafiəsi ilə Allahın şəriətini qoruyub saxlamaq istəyən ilk mühacirlərdən oldular.

Lakin Əbu Sufyan ibn Harb və qureyşlilərin başqa başçıları müsəlmanların onların əlindən çıxıb Həbəşistanda rahat yaşamağın ləzzətini dadmaları ilə heç cür barışa bilmirdilər.

Onlar nequsun yanına öz adamlarını yolladılar ki, nequsla mühacirləri küsdürüb, mühacirləri geri qaytarmağı xahiş etsinlər. Nümayəndələr nequsa dedilər ki, mühacirlər İsa və onun anası Məryəm haqqında çirkin uydurmalar yayırlar.

Nequs mühacirlərin həqiqi vəziyyətini və onların İsa ibn Məryəm haqqında nə dediklərini öyrənmək üçün onların başçılarının yanına adam göndərdi. O, həmçinin Peyğəmbərə ﷺ nazil olan Qurandan bəzi ayələri oxumağı xahiş etdi. Nequsa islam haqqında həqiqəti xəbər verəndə və Quranın bəzi ayələrini oxuyanda, o, elə ağladı ki, saqqalı islandı və dedi:

– Şübhəsiz ki, sizin Peyğəmbəriniz Məhəmmədə nazil olan və İsa ibn Məryəmin gətirdiyi bir nur mənbəyindən gəlir.

Sonradan o, elan etdi ki, şəriki olmayan Tək Allaha və Məhəmmədin peyğəmbərliyinə inanır. Nequs həmçinin bəyan etdi ki, Həbəşistanın ərazisinə köçən hər bir müsəlman, onun yepiskoplarının islam dinini qəbul etməkdən imtina edib xaçpərəst qaldıqlarına baxmayaraq, onun himayəsi altındadır.

Bütün bunlardan sonra Umm Həbibə fikirləşdi ki, əziyyətlərdən sonra aydın günlər gəlib çıxacaq və onun uzun əzablı yolları nəhayət təhlükəsizlik vahəsində bitəcək. Lakin o, qismətinin ona nə hazırladığını hələ bilmirdi.

* * *

Allah (Onun müdrikliyi xeyirli olsun!) Umm Həbibənin elə sərt imtahana çəkmək istədi ki, bunun suallarına cavab tapmağa ən ağıllı və bilikli kişilər belə çətinlik çəkərdi. Ona isə bu ağır sınaqdan qalib çıxmaq qismət oldu.

* * *

Umm Həbibə bir dəfə gecə yuxuda gördü ki, əri Ubeydullah dənizdə çabalayır, dalğalar ona çarpır və o, fəlakətli vəziyyətdə ikən dənizin girdablarına batır...

Umm Həbibə diksinmiş və narahat vəziyyətdə yuxudan oyandı. O, öz yuxusunu ərinə və yaxud başqa kiməsə danışmaq istəmirdi. Amma tezliklə onun yuxusu çin çıxdı, çünki o başıbəlalı gecədən bir gün keçməmiş Ubeydullah öz dinindən dönüb, xaçpərəst oldu...

* * *

Bundan sonra o, şərab içilən yerlərə tez-tez getməyə başladı, içkiyə aludə oldu və artıq özünü idarə etmək qabiliyyətini itirdi.

Umm Həbibənin qarşısında dilemma[105] dururdu, özü də iki mümkün qərarlardan biri digərindən daha pis idi: o, ya boşanmalı, ya da özü xaçpərəstliyə keçməli idi.

Birdən Umm Həbibə anladı ki, bu vəziyyətdən çıxış yolunun üçüncü variantı da var. Beləliklə, o, birincisi, onu öz dinindən imtina edib, xaçpərəstliyi qəbul etməyə çağıran ərinə qulaq asa bilərdi. Öz dinindən dönmək bu qadın üçün bu dünyada dəhşətli biabırçılıq olardı və o dünyada isə buna görə qadını ağır cəza gözləyərdi. Hətta əgər o, diri ikən bədəninin ətini dəmir qarmaqlarla qoparsaydılar belə, bu qərar onun üçün tamamilə qəbuledilməz idi...

İkincisi, o, atasının Məkkədəki evinə qayıdıb orada, bütpərəstlik mərkəzində, öz dinində alçaldılaraq yazıq həyat sürə bilərdi...

Üçüncüsü, o, tək-tənha, evsiz-eşiksiz, heç bir qohumu olmadan, vətənindən və yaşamaq üçün bütün vəsaitlərdən məhrum olaraq, Həbəşistanda qala bilərdi.

Lakin Umm Həbibə yuxarıda qeyd edilən üç qərardan fərqlənən Uca və Qüdrətli Allahın istədiyi bir qərara üstünlük verdi. O, Allahın ona yüngüllük göndərənədək, Həbəşistanda qalmağı qət etdi.

* * *

Umm Həbibənin gözləməsi çox çəkmədi. Onun əri xaçpərəstliyi qəbul etdikdən sonra çox az yaşadı. Onun ölümündən sonra göz-

---

[105] dilemma - iki mümkün qərar və ya nəticədən birini qəbul etmə məcburiyyəti.

ləmə müddəti bitdikdə isə, qadına dərhal sevinc və yüngüllük qismət oldu. Nəhayət ki, uğur Umm Həbibənin qəm-qüssəli evinin üzərində öz zümrüd kimi yaşıl qanadlarını açdı.

* * *

Bir dəfə, gümüş kimi işıqlı bir səhərdə onun qapısı döyüldü. Umm Həbibə qapını açıb gördü, onun yanına gələn Həbəşistan hökmdarının şəxsi qulluqçusu Əbrahadır.

Umm Həbibə ədəb-ərkanla onu içəri dəvət etdi. Quluqçu dedi:

- Həbəşistan hökmdarı səni salamlayır və Allahın Rəsulu Məhəmmədin sənə elçi gəldiyini xəbər verməyi xahiş edir. O, hökmdara göndərdiyi namədə ondan xahiş etdi ki, səninlə kəbin müqaviləsi bağlananda o, onun vəkili olsun. Sən isə istədiyin adamı özünə vəkil seçə bilərsən.

Umm Həbibə sevindiyindən qışqırdı: "Allah səni xoş xəbərlə göndərdi! Allah səni xeyirlə göndərdi!"

O, öz cəvahiratlarını Əbrahaya vermək üçün onları üzərindən çıxartmağa başladı. Əvvəl o, ona iki bilərzik, sonra ayaq barmaqları üçün üzükləri, sırğaları və qaşlı üzüklər bağışladı. Əgər o an bu dünyanın bütün sərvətləri Umm Həbibənin olsaydı, o, onların hamısını həmin qulluqçuya verərdi.

Sonra o, Əbrahaya dedi:

- Mənim vəkilim Xalid ibn Səid ibn Əl-As olacaq, çünki o, mənim qohumlarımdandır.

Nequsun sarayı Həbəşistanın ən gözəl bağlarının birində ucalan və yaşıllıqla örtülmüş bir təpənin üzərində yerləşirdi. Mürəkkəb oyma naxışlarla və ornamentlə, parıltılı və güclü işıq saçan çıraqlarla bəzədilmiş və bahalı mebellə təchiz edilmiş bu sarayın otaqlarının birində Rəsulallahın ﷺ Həbəşistanda yaşayan ən məşhur səhabələri toplaşmışdı. Rəsulallah ﷺ ilə Umm Həbibənin nikah müqaviləsinin bağlanmasının şahidi olmaq üçün buraya Cəfər ibn Əbu Talib, Xalid ibn Səid ibn Əl-As, Abdullah ibn Hüzafə Əs-Sahmi kimi görkəmli şəxslər gəlmişdi.

Məclisi Nequs açdı. O, toplaşanlara müraciət edərək dedi:

- Mən Müqəddəs, Sadiq və Qüdrətli Allaha həmd edirəm. Mən

şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur və Məhəmməd Onun qulu və Onun elçisidir. İsa ibn Məryəm məhz onun haqqında xoş xəbəri gətirmişdir.

Beləliklə, Rəsulallah məndən xahiş etdi ki, mən Umm Həbibə bint Sufyanı ona ərə verim. Mən bu xahişə müsbət cavab verdim və Allahın və Onun Rəsulunun qanununa uyğun olaraq Peyğəmbərin adından Umm Həbibəyə dörd yüz qızıl dinar təqdim etdim.

Və bundan sonra dinarları Xalid ibn Səid ibn Əl-Asa verdi. Xalid yerindən qalxıb dedi:

- Allaha şükür olsun, mən Ona həmd deyirəm, Ondan yardım, günahlarımın bağışlanmasını istəyirəm və Ona tövbə edirəm. Mən şəhadət verirəm ki, Məhəmməd Onun qulu və Onun elçisidir. O, Allahdan həqiqi yolun və Haqqın dinini gətirdi ki, o, bütün dinlərdən üstün olsun, hətta əgər bu, kafirlərin nifrət etdiyi şey olsa belə.

Beləliklə, mən Rəsulallahın ﷺ xahişinə müsbət cavab verdim və müvəkkilim olan Umm Həbibə bint Əbu Sufyanı ona ərə verirəm. Allah öz Rəsuluna onun arvadının vasitəsilə xeyir-dua versin. Umm Həbibə də Allahın ona verdiyi xeyirlə xoşbəxt olsun...

Sonradan o, pulları Umm Həbibəyə vermək üçün yerindən durub, onun yanına yollanmaq istədi. Onun yoldaşları da öz evlərinə getmək üçün ayağa qalxdılar. Amma Nequs dedi:

- Sizdən yerinizdə qalmağı xahiş edirəm, çünki peyğəmbərlərin qanununa görə nigah bağlananda ziyafət verilməlidir.

Nequs qonaqları yedizdirdi və sonra onlar dağılışdılar.

* * *

Umm Həbibə danışırdı:

- Mənə pulu gətirəndə, mən əlli misqal qızılı mənə xoş xəbəri gətirən Əbrahaya yolladım və ona dedim: "Sən mənə xoş xəbər gətirdiyin gün mən səni mütləq mükafatlandırardım, amma mənim onda pulum yox idi..."

Lakin çox tezliklə Əbraha yanıma gəlib, qızılı mənə qaytardı, sonra da ətriyyat üçün olan qabı çıxarıb, oradan mənim ona bağışladığım cəvahiratları götürüb mənə qaytardı və dedi:

- Hökmdarım mənə tapşırıb ki, mən səndən heç nə almayım, öz

qadınlarına isə əmr edib, onlarda olan bütün ətirləri sənə bağışlasınlar.

Ertəsi gün mənim üçün ənbər, yandırmaq üçün çubuqlar və ətirli sarı ağac gətirdilər.

Əbraha mənə müraciət edərək dedi: "Mənim səndən bir xahişim var".

- O nə xahişdir elə? - mən maraqlandım.

- Mən islam dinini qəbul etmişəm və Məhəmmədin dininin tərfdarıyam, ona görə də mənim Allaha və Onun Rəsuluna iman gətirdiyimi ona mütləq danış.

Sonra o, mənim bütün cehizimi hazırladı.

* * *

Məni Rəsulallahın ﷺ yanına apardılar və mən onunla görüşəndə, ona nikah bağlanma mərasiminin necə keçməsi, mənim Əbraha ilə necə davrandığımı və ona Əbrahanın böyük salamını çatdırdım.

Bu, Peyğəmbərini ﷺ çox sevindirdi və o, dedi:

- Ona da salam, Allahın şəfqəti və xeyir-duası olsun![106]

* * *

[106] Ramla bint Əbu Sufyan haqqında əlavə məlumat üçün bax:

1. "Əl-İsabə", 4/441;
2. "Əl-İstiəb", 4/303;
3. "Əsəd əl-Qaba", 5/457;
4. "Sifət əs-Səfva", 2/22;
5. "Əl-Məarif", İbn Quteybə; 136, 3440;
6. "Siyər ələm ən -Nübələ";
7. "Mirat əl-Canan", Yəfəi;
8. "Əs-Sıra ən-Nəbəviyyə", İbn Hişam, mündəricata bax.;
9. "Tarix", Ət-Təbəri, 10-cu cildin mündəricatına bax.

# VAHŞ İBN HARB

*"O, Məhəmmədən sonra ən yaxşı adamları öldürürdü...*
*Amma o, həmçinin ən pis adamları da öldürüb".*
Tarixçilər

Peyğəmbərin ﷺ əmisi Həmzə ibn Əbdul-Muttalibi Uhud döyüşündə öldürüb onun ürəyinə qanlı yara vuran bu adam kim olub?

Sonradan Əl-Yəmamə günü yalançı peyğəmbər Museyliməni öldürərək müsəlmanların ürəklərini sağaldan o adam kimdir axı?

Bu adam Əbu Dəsmə ləqəbini almış Vahş ibn Harb Əl-Həbəşi idi.

Onun əhvalatı sərt, qəddar və kədərlidir... İndi öz həyatının faciəsini danışan Vahşı dinləməyə hazır ol. Beləliklə, söz Vahşındır. O, danışır:

- Uşaqlıqda mən Cubeyr ibn Mutim adlı bir qureyş başçısının köləsi idim. Bədr döyüşündə onun əmisi Tueymə Həmzə ibn Əbdul-Muttalibin əlindən həlak olmuşdur. Mənim sahibim bu itkiyə dözərək dərd çəkirdi, sonra isə Əl-Lat və Əl-Uzza ilahlarına and içdi ki, nəyin bahasına olursa olsun, əmisinin qatilini öldürüb, onun intiqamını alacaq.

Bundan sonra, o, Həmzəni öldürmək üçün rahat imkan axtarağa başladı.

* * *

Tezliklə qureyşlilər Bədr döyüşündəki məğlubiyyətlərinə görə intiqam almaq və Məhəmməd ibn Abdullahı məhv etmək üçün Uhud istiqamətində yürüşə çıxmağı qət etdilər. Onlar öz qoşunlarını topladılar, həmçinin müttəfiqlərin qüvvələrini də cəlb etdilər, hər şeyi ciddi şəkildə hazırladılar və bu orduya başçılıq etməyi Əbu Sufyan ibn Harba tapşırdılar.

Əbu Sufyan yürüşə çıxan qoşunların tərkibinə Bədr döyüşündə öz atalarını, oğullarını, qardaşlarını və başqa qohumlarını itirmiş qu-

reyş qadınlarından ibarət bir dəstəni daxil etməyi mühüm hesab etdi. Bu qadınların vəzifəsi döyüşdə qoşunları ruhlandırmaq və onların qaçmağının qarşısını almaq idi. Bu dəstəyə başçılıq edən Əbu Sufyanın arvadı Hind bint Utabə idi. O, atasını, əmisini və qardaşını Bədr döyüşündə itirmişdir...

Ordu yürüşə çıxmazdan qabaq Cubeyr ibn Mutim mənə müraciət edərək soruşdu:

- Əbu Dəsəmə, sən köləlikdən xilas olmaq istəyirsən?

- Bunu kim edə bilər ki? - mən soruşdum.

- Mən bunu edə bilərəm, - Cubeyr dedi.

- Necə? - mən soruşdum.

O, cavab verdi: "Əgər sən Həmzə ibn Əbdul-Muttalibi, Məhəmmədin əmisini öldürüb, onun əlindən həlak olmuş əmim Tueymə ibn Hadinin ölümünə görə intiqam alsan, onda sən azadsan.

- Bəs bunun həqiqət olduğuna mənə kim zəmanət verər? - mən soruşdum.

- Hər bir kəs! Bunu hamının qarşısında təsdiqləyə bilərəm, - o, cavab verdi.

- Mən hazıram və bunu edirəm, - mən dedim.

Sonra Vahş davam etdi:

- Mən Həbəşi idim və bıçaq atma sənətini yaxşı bilirdim. Xəncərimi götürüb, ordu ilə birgə yürüşə çıxdım. Mən qadınların yanında, qoşunun arxa hissəsində idim və döyüşə can atırdım...

Mən hər dəfə Əbu Sufyanın arvadı Hindin yanından keçəndə və ya o, mənim yanımdan ötəndə, əlimdə parıldayan xəncəri görüb qışqırırdı:

- Ya Əbu Dəsəmə! Bizim ürəklərimizi Məhəmmədə və onun əmisi oğluna olan qəzəbdən qurtar!

Biz Uhuda çatanda, iki ordu kəskin döyüşdə üz-üzə gəldi, mən isə əvvəllər tanıdığım Həmzə ibn Əbdul-Muttalibi axtarmağa cumdum. Həmzə heç kimdən gizlənməyə hazırlaşmırdı, çünki onun başında dəvəquşu lələyi bərkidilmişdir ki, onun rütbəsindən olan igidlər onu görə bilsinlər. Bu adət ərəblərin cəsur döyüşçülərinin arasında çox yayılmışdır.

Mən tezliklə Həmzəni gördüm. O, kül rəngli nəhəng dəvə tək çaxnaşmanın düz ortasında cəsarətlə vuruşurdu. O, düşmən əsgərlərini öz qılıncıyla hissələrə parçalayırdı, və bu gücün qarşısında heç kim dayana bilməzdi. Mən ağacın və ya daşın arxasında gizlənib, Həmzənin mənə tərəf yaxınlaşmasını gözlədiyim zaman gördüm ki, Sibaa ibn Əbdul-Uzza adlı bir qureyşli döyüşçü onun yanına qaçdı. O, qışqırdı:

- Həmzə, mənimlə təkbətək döyüşə çıx!

Həmzə isə qışqırdı: "Ey bütpərəst qadının oğlu, gəl yanıma! Yaxın gəl!"

Həmzə böyük sürətdə onun üstünə cumdu və qılıncla zərbə endirdi. Sibaa Həmzənin qarşısında yerə sərildi. O, qan içində idi...

Elə bu zaman mən rahat mövqe tutub, xəncərimi tuşlayaraq münasib anı gözləməyə başladım. Nəhayət, mən xəncəri atdım, və o, Həmzənin qarnının aşağı hissəsinə batdı. O, mənə tərəf ağır-ağır hərəkət edərək iki addım atdı və yerə yıxıldı. Xəncər onun bədənində idi. Mən onun öldüyündən əmin olub, yaxınlaşdım və xəncərimi onun bədənindən çıxartdım. Sonra isə çadıra qayıdıb, orada əyləşdim. Daha mənə heç kəs lazım deyildi, çünki öz azadlığım üçün Həmzəni artıq öldürmüşdüm...

* * *

Döyüş tədricən kəskinləşirdi, amma müvəffəqiyyətin dəyişkən olmasına baxmayaraq, Məhəmmədin ətrafındakı mühasirə dairəsi sıxlaşırdı, öldürülənlərin sayı isə artırdı.

Bu zaman bir dəstə qadın başda Hind bint Utabə olmaqla öldürülmüş müsəlmanlara yaxınlaşıb, onları hər cür təhqir etməyə başladılar. Hind özü və başqa qadınlar onların qarınlarını yarır, gözlərini çıxarır, burunlarını və qulaqlarını kəsirdilər. Sonradan Hind bu burun və qulaqlardan boyunbağı və sırğalar düzəldib, onları üzərinə asdı. Öz sırğalarını və boyunbağını isə mənə atıb dedi: "Bunlar sənin üçündür, ya Əbu Dəsəmə. Onları özünə götür və saxla, çünki bunlar qiymətli əşyalardır".

Uhud döyüşü bitdikdən sonra mən ordu ilə birgə Məkkəyə qayıtdım. Cubeyr ibn Mutim mənə verdiyi vədi yerinə yetirib, məni köləlikdən qurtardı. Mən azad insan oldum.

* * *

Lakin Məhəmmədin çağırışı və onun dini gündən-günə möhkəmlənirdi. Müsəlmanların sayı da artırdı. Məhəmmədin dini daha əzəmətli olduqca, mən daha çox kədərlənirdim, qəlbimdə qorxu çoxalırdı və tədricən o, qəlbimi bütövlüklə zəbt etdi. Məhəmməd öz böyük ordusu ilə birgə Məkkəyə girməmiş mən bu halda idim. Belə bir vəziyyət mövcud olduğu halda, mən sığınacaq tapmaq üçün Taifə qaçmalı oldum.

Lakin çox tez bir zamanda Taif əhalisi də islama keçməyə başladı. Onlar Məhəmmədlə görüşəcək və ona islam dinini qəbul etdikləri haqqında elan edəcək nümayəndə heyətinin tərkibini seçdilər. Elə bu vaxt hər şey əlimdən tökülməyə başladı, dünya mənə dar gəldi, yolların çoxusu mənim üçün bağlı oldu. Mən özüm-özümə dedim:

– Mən Şama, ya da Yəmənə, ya da başqa bir ölkəyə gedim. Mən belə iztirablar çəkərkən, bir müdrik insanın mənə yazığı gəldi və o, dedi:

– Ay Vahş, vay sənin halına! Allaha and içirəm ki, Məhəmməd, onun dinini qəbul edib, kəlmeyi-şəhadəti: "Allahdan başqa tanrı yoxdur və Məhəmməd – Allahın Rəsuludur" söyləyənlərdən heç kəsi öldürmür.

Mən bu sözləri eşidən kimi, Məhəmmədlə görüşmək üçün Yəsribə yollandım. Oraya çatanda adamlardan onun haqqında soruşmağa başladım və öyrəndim ki, o, məsciddədir. Mən gəlib ona ehtiyatla yaxınlaşdım. Onun yanında durub dedim:

– Şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur, Məhəmməd Onun qulu və Rəsuludur.

Peyğəmbər ﷺ kəlmeyi-şəhadəti iki dəfə eşidib, başını qaldırdı və məni tanıyıb qışqırdı: "Vahş, bu sənsən?!"

– Bəli, ya Rəsulallah, – mən cavab verdim.

– Otur və mənə Həmzəni necə öldürdüyünü danış, – Peyğəmbər ﷺ əmr etdi.

Mən onun yanında əyləşib, hər şeyi ona danışdım. Mən hekayəni ona danışıb qurtarandan sonra, o, məndən üz döndərib dedi:

– Vay sənin halına, ya Vahş! Gözümün önündən çəkil, mən səni bir daha heç vaxt görməyim...

Həmin o gündən etibarən mən Peyğəmbərin ﷺ gözünə görünməməyə çalışırdım. Məsələn, əgər məclisdə insanlar onun qarşısında əyləşirdilərsə, mən onun arxasında bir yer seçib otururdum. Rəsulallah ﷺ dünyasını dəyişənədək, bu davam etdi.

* * *

Sonra Vahş danışırdı:

– Mən bilirdim ki, islamın qəbulu insanın əvvələr etdiyi günahlarını silir. Lakin, buna baxmayaraq, mən törətdiyim işin ağırlığını və islama və bütün müsəlmanlara vurduğum ziyanı yenə hiss edirdim. Və bu cinayətimin əvəzini ödəmək üçün yaxşı bir imkan gözləyirdim.

* * *

Rəsulallah ﷺ vəfat edəndən sonra, xəlifəlik onun səhabəsi Əbu Bəkrə keçdi. Elə bu vaxt yalançı peyğəmbər Museyliməmin başçılığı ilə Bəni Hənifə qəbiləsi islamdan dönüb, bidətə düşdü. Rəsulallahın ﷺ xəlifəsi Mseylimə ilə müharibə üçün və Bəni Hənifə qəbiləsini Allahın dininə qaytarmaq üçün ordu təchiz etdi.

Bu vaxt mən özüm dedim:

– Vahş, Allaha and olsun, bu sənin şansındır və sən bundan istifadə etməlisən. Bunu heç cürə əldən vermə.

Mən müsəlman qoşunlarıyla birgə yürüşə çıxdım və həmin xəncəri özümlə götürdüm. Bundan əlavə, mən and içdim ki, mən ya Museyliməni öldğrəcəyəm, ya da qəhrəmancasına öləcəyəm.

Müsəlmanlar Museyliməyə və onun ordusuna hücum edəndə şiddətli çaxnaşmaya başladılar və mən Museylimәni axtardım. Mən onu görəndə fikir verdim ki, ənsarlardan biri onu mənim tək izləyir. Biz ikimiz də onu öldürmək istəyirdik.

Mən rahat mövqe tutub xəncərimi tulladım. O, hədəfə düşdü. Mən Museyliməyə xəncərimi atdığım zaman həmin adam ona hücum edib, onu qılıncla vurdu...

Yalnız Allah bilir, bizim ikimizdən kim onu öldürdü. Əgər bunu mən etdimsə, bu o deməkdir ki, mən Məhəmməddən sonra ən yaxşı insanı... və həmdə insanların ən pisini öldürdüm... [107]

* * *

[107] Vahş ibn Harb haqqında əlvə məlumat üçün bax:

1. "Əl-İsabə", 3/631;
2. "Əsəd əl-Qaba", 5/438;
3. "Əl İstiəb", 3/644;
4. "Əl- Tarix əl-Kabir" 4-cü cild; 2/180;
5. "Əl-Cəməə beynə ricəl-Səhiheyn", 2/546;
6. "Təcrid əsma əs-Səhabə", 2/136;
7. "Tahzib əl-Tahzib", 11/113;
8. "Əl-sıra", İbn Hişam; mündəricata bax.;
9. "Musnad", Əbu Daud, 186;
10. "Əl-Kamil", ibn Əl-Əsir; 2/108;
11. "Tarix" Ət-Təbəri, 10-cu cildin mündəricatına bax.;
12. "İmtaa əl-Əsmaa", 1/152-153;
13. "Siyər ələm ən-Nübələ", 1/129-130;
14. "Əl-Məarif", İbn Quteybə, 144;
15. "Tarix əl-İslam", Əz-Zəhəbi, 1/252.

# HAKİM İBN HAZAM

*"Həqiqətən, Məkkədə onları bütpərəst hesab etməməyim*
*üçün çox hörmət bəslədiyim dörd nəfər var.*
*Mən onların islamda olmasını çox istəyirəm...*
*Hakim İbn Hazam onlardandır".*
Məhəmməd, Allahın Rəsulu

Sən Rəsulallahın ﷺ bu səhabəsi haqqında bir şey bilirsənmi?!

Tarixçlər təsdiq edib ki, o, böyük Kəbənin içərisində doğulmuş yeganə adamdır.

Onun doğulma tarixi belədir. Bir dəfə onun anası öz yaşıdlarıyla birgə Kəbəyə baxmaq üçün onun içinə daxil olmuşdu...

Həmin gün Kəbə evi hansısa hadisələrlə əlaqədar olaraq açıq idi. Kəbənin içərisində olarkən onun hamilə olan anası hiss etdi ki, onun doğuş sancıları başladı və o, artıq məbədi tərk edə bilmədi.

Onu dəridən düzəldilmiş döşəyin üzərinə uzandırdılar və o, orada öz oğlunu doğdu. Bu uşaq möminlər anası Xədicə xanım bint Xuveylidin qardaşının oğlu Hakim ibn Hazam ibn Xuveylid idi.

* * *

Hakim ibn Hazam qədim və tanınmış nəsilə aid olan, yüksək mövqe tutan və böyük sərvətlərə malik bir ailədə böyümüşdü. Bununla yanaşı Hakim ağıllı, dərrakəli və əqidəli adam idi və bu da onun həmyerlilərini onu rəhbər və ehtiyacı olan və dara düşmüş zəvvarlara yardım göstərməyə məsul şəxs təyin etməsinə sövq etdi.

O, cahiliyyə dövründə Allahın Müqəddəs Evinə ziyarət edərək, tək və geridə qalmış zəvvarları öz şəxsi vəsaitlərindən təchiz edirdi.

Rəsulallah ﷺ hələ peyğəmbərlik missiyasına başlamamışdan qabaq Hakim onun yaxın dostu olub. Hakimin nəcib Peyğəmbərdən ﷺ beş yaş böyük olmasına baxmayaraq, o, Peyğəmbərlə ﷺ ünsiyyətdə olmağı sevirdi, onunla olan dostluq münasibətlərini qoruyurdu, onu səfərlərinin çoxunda müşayiət edirdi və öz vaxtını onunla keçirirdi. Rəsulallah ﷺ Hakimin sevgisinə qarşılıqlı məhəbbətlə, dostluğuna

isə dostluqla cavab verirdi.

Onlar qohum olandan sonra onların münasibətləri daha da möhkəmləndi. Bu, Peyğəmbər ﷺ Hakimin bibisi Xədicə bint Xuveylid ilə evləndikdən sonra baş verdi.

* * *

Bizim sənə Hakimlə Rəsulallahın ﷺ sıx münasibətləri barəsində danışdıqlarımızdan sonra bilsən ki, Hakim islamı yalnız Məkkənin fəthi günü, yəni peyğəmbərlik missiyasının başlanmasından artıq iyirmi il keçdikdən sonra qəbul etdi, onda, yəqin, çox təəccüblənərsən.

Hakim kimi bir insanın Rəsulallaha ﷺ, onun missiyasına ilk iman gətirənlərdən biri olacağını və düz yola keçəcəyini güman etmək məntiqə uyğun olardı. Allah Hakim ibn Hazamı dərrakə və Peyğəmbərlə ﷺ belə bir sıx əlaqə ilə mükafatlandırmışdır.

Lakin hər şey Allahın iradəsində və Onun qəzavü-qədərindədir. Yalnız Allahın istədiyi hadisələr baş verir.

* * *

Biz Hakimin islama belə gec keçməsinə təəccübləndiyimiz kimi, o özü də buna məəttəl qalırdı.

İslamı yenicə qəbul edib imanın ləzzətini dadan Hakim, bütpərəst, Allaha inanmayan və Onun Rəsuluna böhtanlar atan vaxtların, ümumiyyətlə, əvvəlki həyatının hər bir anına görə peşmançılıq hissi keçirirdi.

Hakimi islamı qəbul etdikdən sonra ağlayarkən görən oğlu ondan soruşdu:

– Ata, səni belə darıxdıran nədir?!

– Keçmiş həyatımdakı hər bir şey məni darıxdırır, – Hakim cavab verdi. – Birincisi, bu mənim islamı gec qəbul etməyimdir. Buna görə mən müxtəlif saleh əməllərdə geridə qaldım, çoxları isə məni ötüb keçdi. Əgər mən bütün dünyanın qızılını sərf etsəm belə, onda da ötürdüyümü qaytara bilmərəm.

İkincisi, Allah məni Bədr və Uhud döyüşlərində xilas etdi. Onda mən özüm-özümə dedim: "Mən daha qureyşlilərə Rəsulallahla mübarizədə kömək etməyəcəyəm və heç vaxt Məkkədən çıxmayacağam". Amma onda da məni qureyşlilərə kömək etməyə məcbur etdilər.

Üçüncüsü, mən hər dəfə islama meyl edəndə, dönüb, cahilliyə dövrünün adətlərinə riayət edən yaşlı və möhtərəm qureyşlilərə baxırdım. Mən onlardan nümunə götürərək, onlara təqlid etməyə məcbur olurdum...

Ah, kaş bunları etməyəydim. Bizi məhv edən atalarımıza və rəhbərlərimizə kortəbii təqlid etməyimiz oldu. Mən necə darıxmayım, oğlum?!

* * *

Peyğəmbər ﷺ belə ağlı və məntiqi olan insanın islamı qəbul etməməyinə çox təəccüblənirdi. Peyğəmbər özü onun və onun kimi insanların Allahın dininə birinci gələnlərdən olmasını arzulayırdı.

Məkkənin fəthindən əvvəlki gecə Rəsulallah (s) öz səhabələrinə dedi:

- Həqiqətən, Məkkədə, onları bütpərəst hesab etməməyim üçün çox hörmət bəslədiyim dörd nəfər var. Onların islamda olmasını çox istərdim.

Ondan soruşdular:

- Ya Rəsulallah, bu insanlar kimlərdir?

O, cavab verdi:

- Bu Attab ibn Useyd, Cubeyr ibn Mutim, Hakim ibn Hazam və Suheyl ibn Amrdır.

Allahın onlara fəziləti ilə hamısı müsəlman oldu.

* * *

Məkkəni fəth edən Rəsulallah ﷺ Hakim ibn Hazamla mütləq alicənabcasına rəftar etmək istədi. Ona görə o, öz carçısına aşağıdakıları elan etməyi əmr verdi:

– Şəriki olmayan Tək Allahdan başqa tanrı olmadığını və Məhəmmədin Onun qulu və Rəsulu olduğunu təsdiq edən hər bir kəs təhlükəsizlikdədir...

– Kəbə ərazisində oturub təslim olan hər bir kəs təhlükəsizlikdədir...

– Bağlı qapı arxasında oturan təhlükəsizlikdədir...

– Əbu Sufyanın evinə girən təhlükəsizlikdədir...

– Hakim ibn Hazamın evinə girən təhlükəsizlikdədir...

* * *

Hakim ibn Hazamın evi Məkkənin aşağıdakı hissəsində, Əbu Sufyanın evi isə şəhərin yuxarıdakı hissəsində yerləşirdi.

Hakim ibn Hazamın qəbul etdiyi islam ona bütövlükdə hakim oldu, iman isə qanına və qəlbinə daxil oldu...

Hakim özü-özünə and içdi ki, cahiliyyə dövründə etdiyi pis hərəkətlərin və bütün bütpərəst inanclarının əvəzini ödəyəcək və həmçinin Rəsulallaha ﷺ qarşı mübarizəyə sərf etdiyi bütün məsrəfləri qat-qat ödəyəcək.

O, özünə verdiyi andı yerinə yetirdi.

Məsələn, Hakimin böyük tarixi dəyəri olan qədim evi var idi və o, məclislərin keçirilməsi üçün nəzərdə tutulmuşdu...

Cahiliyyə dövründə qureyşlilər bu evdə öz görüşlərini və iclaslarını keçirirdilər. Burada həmçinin qureyş başçıları və ağsaqqalları Rəsulallaha ﷺ qarşı öz sui-qəsd fəaliyyətini aparmaq üçün yığılırdılar.

Hakim ibn Hazam bütün bunlara son qoymaq istəyirdi. O, sanki dəhşətli və qaranlıq keçmişi unutmağa can atırdı. Hakim bu evi yüz min dirhəmə satanda, bir qureyşli cavan ona dedi:

– Əmi, sən qureyşlilərin tarixi fəxrini satdın. Hakim ona cavab verdi:

– Elə şey yoxdur, oğlum! Bütün bu tarixi fəxrlərin əvəzinə möminlik qaldı. Mən bu evi satdım ki, əldə etdiyim pula özüm üçün cənnətdə ev alım...

Mən sizin qarşınızda şahidlik edirəm ki, bütün bu pulları Uca və Qüdrətli Allahın yolunda xərcləyəcəyəm.

* * *

Hakim ibn Hazam islama keçdikdən sonra həccə getdi. O, özü ilə bahalı örtüklərlə bəzədilmiş yüz dişi dəvəni qurban verdi və bununla Allaha yaxınlaşmaq istədi.

Növbəti dəfə həccə gedəndə o, Ərəfat dağına yüz qulu ilə birgə qalxdı. Hər qulun boğazında gümüş halqa var idi, və halqanın üzərində "Uca və Qüdrətli Allah yolunda Hakim ibn Hazam tərəfindən azad edilib" sözləri həkk edilmişdir.

Sonra o, onların hamısını azad etdi...

Növbəti dəfə həccə gedən Hakim özü ilə min, bəli, məhz min qoyun gətirib, onları Minada qurban kəsib, bu ət ilə kasıb müsəlmanları yedizdirdi. Bununla o, Uca və Qüdrətli Allaha yaxınlaşmağa can atırdı.

* * *

Hüneyn döyüşündən sonra Hakim ibn Hazam Rəsulallahdan ﷺ qənimətdən ona düşən payını istədi və onu aldı. Bundan sonra o, yenə istədi və Peyğəmbər ﷺ onu yenə də mükafatlandırdı. Nəticədə onun payı yüz dəvədən ibarət oldu. O vaxt Hakim hələ müsəlmanlığı yeni qəbul etmişdir. Rəsulallah ﷺ ona dedi:

– Qulaq as, Hakim, bütün bu sərvət tək bir adam üçün arzu etdiyi nemətdir. Bunu qəlbində heç bir tamahkarlıq olmadan götürən xeyir-dua alar. Bunu tamahkarlıqla götürən xeyir-dua tapmaz. O kəs həmişə yeyən, lakin doya bilməyən birinə bənzər. Məlumdur ki, üstdəki əl aşağıdakı əldən daha yaxşıdır".

Hakim ibn Hazam Rəsulallahdan ﷺ bu sözləri eşidib ucadan dedi:

– Ya Rəsulallah, səni həqiqi vəzifə ilə Göndərənə and içirəm ki, səndən sonra mən heç kəsdən heç nə xahiş etmərəm... Mən həmçinin ölənədək heç kəsdən heç nə götürmərəm.

Hakim bu andı da ləyaqətlə yerinə yetirdi.

* * *

Əbu Bəkr Əs-Siddiqin dövründə carçı onu dəfələrlə müsəlmanların xəzinəsindən ona düşən əmlakı və pulları götürməyə dəvət edirdi. Lakin Hakim hər şeydən imtina edirdi...

* * *

Əl-Faruq xəlifə olanda, o da dəfələrlə Hakimi öz payını götürməyə çağırırdı, amma Hakim yenə də nə isə götürməkdən imtina edirdi...

* * *

Bir dəfə Ömər insanların qarşısında dayanıb onlara dedi:

– Ey müsəlmanlar, sizin qarşınızda təsdiq edirəm ki, mən daima Hakimi öz payını götürmək üçün çağırıram, amma o, həmişə imtina edir.

* * *

Hakim ölənədək heç kəsdən heç nə götürmədi.[108]

* * *

---

[108] Hakim ibn Hazam haqqında əlavə məlumat üçün bax:

1. "Əl-İstiəb", 1/320;
2. "Əl-İsabə", 1/349;
3. "Əl-Miləl və əl-Nihal", 1/27;
4. "Əl-Təbəqat Əl-Kübra", 1/26;
5. "Siyər ələm ən – Nübələ", 3/164;
6. "Zuamə əl-İslam", 190/196;
7. "Hümmət əl-İslam", 1/121;
8. "Tarix əl-xülafə", 126;
9. "Sifət əs-Səfva", 1/319;
10. "Əl-Məarif", 92-93;
11. "Əsəd-əl-Qaba", 1/9-15;
12. "Muhaddarat əl-Ədibbə", 4/478;
13. "Muravvic əz-zəhəb", 2/302;

# ABBAD İBN BİŞR

*"Ləyaqətdə ənsarlardan üç nəfəri: Sad ibn Muazı, Useyd ibn Əl-Hüdeyri və Abbad ibn Bişri heç kəs ötüb keçə bilməzdi".*

Aişə, mominlər anası

Abbad ibn Bişrin parlaq adı Məhəmmədin dəvəti tarixinə daxil oldu.

O, Allaha ibadət etməkdə həmişə həqiqi mömin olub. Gecəni Quran oxumaq üçün oyaq qalırdı.

Öz dəstəsinin döyüşçüləri içərisində o, bütün döyüşzğlərdən mərdlik və cəsarətlə fərqlənirdi.

Canişinlər və rəhbərlər sırasında isə o, güclü şəxsiyyət və müsəlmanların vəsaitlərinin etibarlı mühafizi idi.

Aişə onun və onun iki həmqəbiləsinin haqqında demişdir:

– Əbdul-Əşqal nəslinin ənsarlarından üç nəfəri heç kəs ləyaqətdə ötüb-keçə bilməz. Bunlar Sad ibn Muaz, Useyd ibn Əl-Hudeyr və Abbad ibn Bişrdir.

* * *

Məhəmməd Peyğəmbərin ﷺ nəsihətinin ilk şəfəqləri Yəsribin üfüqündə parıldayanda, Abbad ibn Bişr Əl-Əşhali gənclik çağını yaşayırdı. Onun üzü əxlaq və paklıq nuru ilə işıqlanırdı, hərəkətlərində isə yaşlı insanlara xas olan sanballılıq və dərrakə hiss olunurdu, halbuki o vaxt Abbadın cəmi iyirmi beş yaşı tamam olmuşdu.

Abbad gənc məkkəli moizəçi Musab ibn Umeyr ilə görüşəndə ona qarşı bağlılıq hiss etdi və tezliklə bu iki ürəyi ümumi iman əsasında yaranan dostluq və simpatiya əlaqələri birləşdirdi. Onların qəlbləri ümumi nəcib və yüksək əxlaqi xüsusiyyətlərdə, üstünlüklərdə və yaxşılıqlardı vəhdət tapdı.

Abbad Musabın avazla, incə və məftunedici səslə Quran oxumasını dinləyərək Allahın sözünə güclü məhəbbət hiss edib qəlbini onun üçün açdı. Bu, Abbad üçün əsas qayğı və ən vacib işi oldu. Gecə-gündüz, yolda və dayanacaqda olarkən, o, müqəddəs ayələri fa-

siləsiz təkrarlayırdı. Peyğəmbərin ﷺ səhabələri onu Quranın dostu və imamı adlandıranadək bu davam etdi.

* * *

Bir dəfə gecə Rəsulallah ﷺ Aişənin məscidə bitişik olan evində namaz qılırdı. Peyğəmbər ﷺ Quranı öz ürəyilə Cəbrayıldan eşitdiyi kimi, yumşaq və incə oxuyan Abbad ibn Bişrin səsini duyub soruşdu: "Ay Aişə! Bu Abbad ibn Bişrin səsidir?!"

– Bəli, ya Rəsulallah, – Aişə cavab verdi.

– Allahım, onun günahlarını bağışla, – Peyğəmbər ﷺ dedi.

* * *

Abbad ibn Bişr Rəsulallahın ﷺ bütün hərbi yürüşlərində iştirak edərək, hər birində özünü Quran daşıyıcısı kimi biruzə verirdi.

Bir dəfə Peyğəmbər ﷺ uzaq yürüşdən qayıdarkən, vadilərin birində öz dəstəsi ilə birgə gecələmək üçün dayandı. Bu yürüşdə müsəlmanlardan biri bütpərəstlərdən bir qadını onun əri evdə olmayan zaman əsir götürdü. Evə qayıdan və arvadını orada tapmayan ər Əl-Lat və Əl-Uzzaya and içdi ki, Məhəmmədə və onun yoldaşlarına çatıb, günahkarı öldürəcək.

* * *

Müsəlmanlar vadidə atlardan yerə enən kimi, Rəsulallah ﷺ soruşdu:

– Bəs bizi bu gecə kim qoruyacaq?

Abbad ibn Bişr və Ammar ibn Yasir ona yaxınlaşıb dedilər: "Biz, ya Rəsulallah!" Mühacirlər Mədinəyə gələndə, Peyğəmbər ﷺ onları qardaşlaşdırmışdı.

Vadinin çıxışına yaxınlaşan Abbad ibn Bişr qardaşı Ammar ibn Yasirdən soruşdu:

– Sən gecənin birinci yarısında yatmağa üstünlük verirsən, yoxsa ikinci yarısında?

Ammar dedi: "Mən gecənin birinci yarısında yatmağa üstünlük verirəm." Sonra da yaxınlıqda yatmağa getdi.

Gecə sakit idi. Ulduzlar, ağaclar və daşlar öz Rəbbinə həmd deyib, Onu vəsf edirdilər. Abbad ibn Bişrin qəlbi Allaha ibadət etməyə yönəldi, ürəyi Qurana meyl edirdi.

Onun üçün namaz vaxtı Quran oxumaq son dərəcə xoş idi, bu, namazdan aldığı ləzzəti ikiqat artırırdı.

Üzünü Qibləyə tutan Abbad namazda "Əl-Kəhf" surəsinin ayələrini öz məftunedici səsi ilə oxumağa başladı.

Abbad bu ilahi nur ilə əhatə olarkən, vadiyə bir nəfər tələsərək yaxınlaşdı. Adam vadinin girişində dayanmış Abbadı görəndə anladı ki, Peyğəmbər ﷺ öz dəstəsi ilə vadidədir, bu adam isə onları qoruyur. Bu vaxt gələn adam oxqabından oxu çıxarıb, kamanın üzərinə qoydu və Abbada atdı.

Abbad namazını və Quran oxumağı kəsmədən oxu bədənindən çıxartdı.

Gələn adam Abbada ikinci oxu vurdu. Lakin Abbad onu da bədənindən çıxartdı. Adam ona üçüncü oxla zərbə vurdu, amma Abbad onu da çıxartdı. Bundan sonra, o, yaxınlıqda istirahət edən yoldaşının yanına sürünərək, onu oyatdı və dedi: "Dur, çünki aldığım yaralar məni çox zəiflətdi." Gələn adam onların ikisini görəndə tez geri döndü.

* * *

Abbada baxan Ammar gördü ki, onun üç yarasından qan sel kimi axır. O, soruşdu: "Həmd olsun Uca Allaha! İlk ox sənə dəyəndə, niyə məni çağırmadın?!"

Abbad cavab verdi:

– O an mən Quran ayəsini oxuyurdum və o, bitmədən onu kəsmək istəmədim. Və Allaha and içirəm ki, əgər mən Rəsulallahın ﷺ mənə qorumağa tapşırdığı keçidi açıq saxlamaqdan qorxmasaydım, öz ölümüm mənə surənin oxunmasını kəsməkdən daha xoş olardı.

* * *

Əbu Bəkrin dövründə mürtədlərlə müharibələr başlandı. Əs-Siddiq yalançı peyğəmbər Museylimənin törətdiyi iğtişaşı ləğv etmək üçün, ona dəstək verən mürtədləri tabe edərək, islama qaytarmaq üçün böyük ordu təchiz etdi.

Abbad ibn Bişr bu ordunun öndə gedən dəstələrində idi. Müsəlmanlara aşkar müvəffəqiyyət gətirməyən vuruşmaların gedişatı zamanı Abbad fikir verdi ki, ənsarlar mühacirlərə, mühacirlər isə ənsarlara güvənirlər.

Bu vəziyyətdə onun qəlbi kədər və qəzəblə doldu. Hər dəfə qarşılıqlı mübahisələri və tənələri eşidən Abbad özünü sanki iynələr üstündə oturmuş kimi hiss edirdi. Abbad çox yaxşı anlayırdı ki, müsəlmanlar yalnız tərəflərdən hər birisi məsuliyyətin bütövlüyünü öz üzərinə götürməyə can atdığı bir halda bu döyüşlərdə müvəffəqiyyətə çatarlar...

Qoy bunu əsil mətin mücahidlər bilsin.

* * *

Həlledici döyüşdən qabaq gecə Abbad ibn Bişr bir yuxu gördü. O, səma qapılarının onun qarşısında açıldığını və o, göylərə ayaq basdıqdan sonra göylərin onu qəbul etdiklərini və sonradan səma qapılarının onun dalınca bağlandığını gördü.

Səhər tezdən oyanan Abbad gördüyü yuxunu Əbu Səid Əl-Xudriyə danışdı. Və əlavə etdi: "Allaha and içirəm ki, ya Əbu Səid, bu mənim döyüş meydanında həlak olmağım deməkdir".

* * *

Dan yeri söküləndə və döyüş yenidən başlananda Abbad ibn Bişr hündür bir yerə qalxıb elan etdi: "Ey ənsarlar, başqalardan seçilin! Öz qılınclarınızı qınlarına salmayın! İslamın adını batırmayın!"

O, bu sözləri deyən vaxt, onun ətrafında başda Sabit ibn Qeys və

Əl-Bəra ibn Malik olmaqla dörd yüz ənsar toplaşdı. Rəsulallahın ﷺ qılıncı olan Əbu Ducana da burda idi. Abbad ibn Bişr və onunla olanlar düşmənin sıralarına can ataraq, qılınclarıyla ölüm gətirib, sinələrilə ölüm təhlükəsini qarşılayırdılar.

Yalançı peyğəmbər Museylimə və onun əlaltıları məhv edilənədək döyüş davam etdi.

Və orada ölüm bağının divarları önündə Abbad ibn Bişr qanı axa-axa, cansız halda yerə sərildi...

Onun bədənində düşmənin qılınclarından, nizələrindən və oxlarından aldığı saysız-hesabsız yaralar var idi, belə ki, Abbadı yalnız onda olan xüsusi əlamətlərə görə tanımaq mümkün oldu.[109]

* * *

[109] Abbad ibn Bişr haqqında əlavə məlumat üçün bax:

1. "Əl-İsabə", 2/263;
2. "Əl-İstiab", 2/452;
3. "Tarix Əl-İslam", Əz-Zəhəbi, 1/370;
4. "Tahzib əl-Tahzib", 5/90;
5. "Əl-Təbəqat əl-Kübra", İbn Sad, 3/440;
6. "Əl-Muhabbər fi əl-Tarix", 282;
7. "Siyər ələm ən Nübələ", 1/243;
8. "Həyat əs-Səhabə", 1/716, həmçinin mündəricata bax.

# ZEYD İBN SABİT ƏL-ƏNSARI

*"Qafiyədə Hassəndən və onun oğlundan və əqidədə Zeyd ibn Sabitdən daha güclü kimdir?!"*

Beləliklə, Hicrətin 2-ci ilidir...

Bütün Mədinə Rəsulallahın ﷺ bu gözəl şəhəri insanlarla doludur. Onlar Bədr yürüşünə çıxmağa hazırlaşırlar. Nəcib Peyğəmbər ﷺ onun şəxsi rəhbərliyi ilə Allah yolunda cihada çıxan müsəlmanların birinci ordusunu sonuncu dəfə baxışdan keçirir.

Və bu vəziyyətdə döyüşçülərin sıralarına on üç yaşlı bir oğlan yaxınlaşdı. Onun əlində özü boyda və ya onun boyundan da bir qədər uzun olan qılınc var idi. O, Rəsulallaha ﷺ yaxınlaşıb ucadan dedi:

- Ya Rəsulallah, sənin fidiyən olum! İcazə ver səninlə olum və sənin bayrağın altında Allahın düşmənləriylə vuruşum.

Nəcib Peyğəmbər ﷺ heyrətlə və sevinclə ona baxaraq, onun çiyninə əliylə yumşaq-yumşaq vuraraq, ən xoş niyyətlə onun azyaşlı olduğuna görə geri qaytardı.

* * *

Oğlanı ilk hərbi yürüşdə Rəsulallahı ﷺ müşayiət etmək şərəfindən məhrum etdiklərinə görə, o, çox kədərlənmişdi. Və belə kədərli halda qılıncını yer ilə sürüyərək evə qayıdırdı.

Oğlanın anası Ən-Nəvvar bint Malik oğlu kimi kədərlənərək onun arxasınca gedirdi. O, çox istəyirdi ki, Rəsulallahın ﷺ bayrağı altında mücahidlərin yanında öz oğlunu da görsün. O, həmçinin ümid edirdi ki, oğlu Rəsulallahın ﷺ yanında öz yerini tutar. Onun atası sağ olsaydı, bu yer atasına məxsus olardı.

* * *

Amma ənsarlardan olan bu oğlanın azyaşlı olması səbəbindən Rəsulallahın ﷺ yaxını olmaq cəhdi alınmadıqda, zəkası ona Peyğəmbərə ﷺ yaxınlaşmaq üçün başqa bir sahəni təlqin etdi. Bu sahədə yaşın heç bir əhəmiyyəti yox idi.

Bu, elm və quran bilikləri sahəsi idi... Oğlan bu fikri barədə anasına danışanda anası heyrətə gələrək, bu işdə ona fəal şəkildə kömək etməyə başladı.

* * *

Ən-Nəvvar oğlunun bu istəyi və onun fikri haqqında öz həmqəbilələrinə danışdı. Onlar oğlanı Rəsulallahın ﷺ yanına gətirib dedilər:

– Ya Rəsulallah, bu bizim oğlumuz Zeyd ibn Sabitdir. O, Allahın Kitabından on yeddi surəni əzbər bilir. O surələri, onlar sənin ürəyinə nazil olduğu tərzdə oxuyur. Bundan başqa, o, yaxşı yazmağı və oxumağı bacaran zəkalı uşaqdır. O, bunun vasitəsilə sənə yaxın olub, sənin üçün lazımlı olmaq istəyir. Ona görə də əgər istəyirsən onu dinlə.

* * *

Nəcib Peyğəmbər ﷺ gənc Zeyd ibn Sabitin əzbər bildiklərindən bəzi şeyləri dinlədi. Oğlanda natiqlik bacarığı olduğu üzə çıxdı. Onun nitqi aydın, səlis tələffüzlə seçilirdi...

Onun dilində Quran sözləri, gecə vaxtı səmanın qara məxmərində ulduzlar tək parıldayırdı. Bundan əlavə, onun qiraəti çox ifadəli və təsirli idi. O, münasib fasilələr edirdi və bu da onun şüurlu oxuması və mətni gözəl anlaması haqqında xəbər verirdi.

Bu oğlan nəcib Peyğəmbərin ﷺ çox xoşuna gəldi, çünki o, gözlədiyindən də artığını gördü. Peyğəmbər ﷺ biləndə ki, oğlan yazmağı da bacarır, bu onu daha da çox sevindirdi. Peyğəmbər ﷺ ona müraciət edərək dedi:

– Zeyd, yəhudilərin dilini öyrən. Onların məni anladığından əmin deyiləm.

Zeyd dedi: "Baş üstə, ya Rəsulallah".

O, dərhal ivrit dilini öyrənməyə başladı və onu çox tez bir zamanda qavradı. Bundan sonra Zeyd, Peyğəmbərin ﷺ yəhudilərə göndərdiyi bütün naməlri ivritdə yazırdı, onların məktublarını isə onun üçün ərəb dilində oxuyurdu.

Sonra Zeyd, Rəsulallahın ﷺ əmrilə asuri dilini, ivriti öyrəndiyi

kimi, tez bir vaxtda öyrəndi.

Beləliklə, gənc Zeyd ibn Sabit Rəsulallahın ﷺ şəxsi tərcüməçisi oldu.

* * *

Peyğəmbər ﷺ Zeydin əqidəsində, doğruçuluğunda, dəqiqliyində və hər şeyi düzgün anlamasında əmin olduqdan sonra ona Yer üzünə nazil olan səmavi naməni etibar etdi. O, onu Allahın vəhylərinin katibi etdi...

Elə ki, Peyğəmbərin ﷺ ürəyinə Quran ayələri nazil olurdu, o, Zeydi çağırtdırıb, ona deyirdi: "Zeyd, yaz". Və Zeyd onun əmrilə yazırdı.

Beləliklə, Zeyd ibn Sabit Quran ayələrini Rəsulallahdan ﷺ tədricən alırdı və bunun nəticəsində onun bilikləri artırdı... Zeyd Peyğəmbərin ﷺ dilindən ilahi ayələri müəyyən səbəblə və ya konkret şəraitlə əlaqədar olaraq qəbul edərək, onun ruhu düz yolun nuru ilə zənginləndi, dərrakəsi isə ilahi şəriətin sirrlərini öyrəndi. Bunun nəticəsində o, Quran üzrə ixtisaslaşaraq, bəxtəvər gənc oldu. Rəsulallahın ﷺ vəfatından sonra o, Məhəmməd ğmməti üçün ilahi biliklərin əsas mənbəyi oldu.

* * *

Zeyd Əs-Siddiqin dövründə Quranın bütöv mətnini tərtib edən və yığanların içərisində ən birincisi idi.

O, Osmanın dövründə Quran mətnlərinin vahid şəklə salınması işinə rəhbərlik edirdi.

Məgər insanın qəlbi bu şərəfli vəziyyətdən daha yüksək bir şeyə meyl edə bilər?!

Məgər insan bu şöhrətdən daha böyük şöhrət arzu edə bilər?!

* * *

Zeyd ibn Sabit, məhz Quranın təsiri sayəsində ən çətin məsələ-

lərin həllinin düz yollarını görürdü. Məsələn, Saqifə günü[110] müsəlmanlar Rəsulallahın ﷺ davamçısı məsələsində fikir ayrılığına gəldilər. Mühacirlər dedilər:

– Xəlifəlik bizə məxsusdur, çünki biz buna daha çox layiqik.

Ənsarlardan bəziləri dedi:

– Yox, xəlifəlik bizə məxsusdur, çünki biz buna daha çox layiqik.

Başqa ənsarlar isə deyirdilər:

– Xeyr xəlifəlik həm sizə, həm də bizə məxsus olmalıdır. Axı Rəsulallah sizlərdən birini müəyyən bir iş üçün istifadə edəndə, həmişə bizlərdən bir nəfəri həmin adam üçün ortaq seçirdi.

Hələ Peyğəmbər ﷺ kəfənə bürünmüş bədəni dəfn edilməmiş bir vaxtda az qalmışdı ki, böyük fitnə yaransın.

Və bu anda fitnənin qarşısını almaq və çaşanlara düz yolu göstərmək üçün hamı Quranın təlimatı ilə aydınlaşdırılmış müdriklik, qətiyyətli və sarsılmaz bir söz eşitmək zəruriyyətini hiss edirdi.

Bu sözü Zeyd ibn Sabit Əl-Ənsari dedi. O, insanlara müraciət etdi:

– Ey ənsarlar! Rəsulallah mühacirlərdən olub, qoy onun xəlifəsi də onun kimi mühacirlərdən olsun. Biz isə Rəsulallahın yanında ənsar olaraq qalmalıyıq, həmçinin onun saleh əməllərində ona köməkçi olmalıyıq.

Sonra o, əlini Əbu Bəkr Əs-Siddiqə uzadaraq dedi:

– Sizin xəlifəniz budur. Ona sadiq olacağınıza and için!

* * *

Zeyd ibn Sabit öz biliyinin və Peyğəmbər ﷺ uzun illər boyu ünsiyyətdə olmaqla Quranı dərindən dərk etməsinin sayəsində bütün müsəlmanlar üçün rəhbər və nur mənbəyi oldu.

Xəlifələr onunla ən mürəkkəb məsələlərdə məsləhətləşirdilər, sadə adamlar isə öz suallarıyla ona müraciət edirdi.

---

[110] Saqifə – Bəni Sad qəbiləsinin adamlarının örtüsü. Burada müsəlmanlar Rəsulallahın ﷺ vəfatından sonra, onun davamçısı haqqında məsələni həll etmək üçün toplaşmışdılar.

Zeyddən daha çox miras məsələləri ilə əlaqədar məsləhət istəyirdilər, çünki o vaxtlar bütün bu incəliklərdən ondan yaxşı heç kəs baş çıxartmırdı və heç kəs ondan yaxşı əmlakı bölə bilmirdi.

Əl-Cəbiyə günü[111] Ömər xütbə ilə müsəlmanlara müraciət edərək dedi:

- Ey insanlar! Sizlərdən kimsə Quran haqqında bir şey soruşmaq istəsə, qoy Zeyd ibn Sabitə müraciət etsin...

Əgər kimsə hüquq məsələlərinə dair məsləhətləşmək istəyirsə, qoy Muaz ibn Cəbələ müraciət etsin...

Əgər kimsə mal və əmlak haqqında nə isə öyrənmək istəyirsə, qoy mənə müraciət etsin. Uca və Qüdrətli Allahın izni ilə mən bütün vəsaitlərin qeydinə qalıb, onları bölüşdürürəm...

* * *

Səhabələrdən və davamçılardan bilik axtaran hər kəs Zeyd ibn Sabitin bacarığını yaxşı bilirdi. Onlar onun topladığı o böyük biliklərə hörmət edib, onları layiqincə dəyərləndirirdilər.

Müdrik Abdullah ibn Abbas Zeyd ibn Sabitin minik heyvanına mindiyini görən kimi, onun qarşısında dayanıb, üzəngini və yedəklərini əlində saxlayırdı və lazım olan vaxt onları ona verirdi. Zeyd ibn Sabit deyirdi:

- Ey Rəsulallahın əmisi oğlu, bəsdir, bunu eləmə!

İbn Abbas cavab verirdi:

- Bizə alimlərimizlə belə davranmaq əmr olunub...

Onda Zeyd ona dedi: "Mənə əlini göstər".

İbn Abbas əlini uzadanda, Zeyd əyilib onun əlini öpdü və dedi:

- Bizə isə bizim Peyğəmbərin bütün nəsli ilə belə davranmaq əmr olunub...

* * *

---

[111] Əl-Cəbiyə - Dəməşqdən qərbə gedən istiqamətdə yerləşən kənd. Burada Ömər ibn Əl-Xəttab gələcək istilalara dair məsələlərin müzakirəsi üçün Rəsulallahın ﷺ silahdaşlarıyla görüşmüşdü. Ömər bu kənddə öz məşhur xütbəsini söyləmişdi və ona görə də həmin gün Əl-Cəbiyə günü adlandırıldı.

Zeyd ibn Sabit dünyasını dəyişəndə, müsəlmanlar onun üçün və onun özüylə qəbrə apardığı biliklər üçün ağlayırdılar.

Əbu Hüreyra dedi:

- Bu gün bizim millətin görkəmli alimi öldü. Ah, kaş Allah ibn Abbası onun davamçısı eləyəydi.

Rəsulallahın ﷺ şairi Hassən ibn Sabit öz şerində Zeyd üçün və özü üçün ağlayaraq demişdir:

- Qafiyədə Hassəndən və onun oğlundan daha güclü kimdir, və əqidədə Zeyd ibn Sabitdən daha güclü kimdir? [112]

* * *

[112] Zeyd ibn Sabit haqqında əlavə məlumat üçün bax:

1. "Əl-İsabə", 1/561;
2. "Əl-İstiəb", 1/551;
3. "Qayət ən Nihayə", 1/296;
4. "Sifət əs-Səfva", 1/704;
5. "Əsəd əl-Qaba", 1824;
6. "Tahzib əl-Tahzib", 3/399;
7. "Təqrib əl-Tahzib", 1/272;
8. "Əl-Təbəqat", İbn Sad, mündəricata bax.;
9. "Əl-Məarif", 260;
10. "Həyat əs-Səhabə", mündəricata bax.;
11. "Əs-Sıra", İbn Hişam, mündəricata bax.;
12. "Tarix", Ət-Təbəri, mündəricata bax.;
13. "Əhbər əl-Qada", 1/107-110.

# RABİA İBN KAAB

Rabia ibn Kaab danışırdı:

"Mən çox gənc olarkən, iman nuru mənim qəlbimi işıqlandırdı, islam həqiqətləri isə ürəyimə daxil oldu. Gözlərim Rəsulallahı ﷺ görəndən, onu ilk baxışdan sevdim və məhəbbət mənim varlığımı büsbütün doldurdu. Mən ona elə meyil edirdim ki, başqa bir şey haqqında düşünə bilmirdim.

Bir dəfə mən öz-özümə dedim:

- Vay sənin halına, ay Rabia! Niyə özünü Rəsulallaha ﷺ qulluq etməyə həsr etmirsən? Öz xidmətlərini ona təklif et... O, səndən razı olsa, sən onun yanında olmaq səadətini əldə edərsən, onun məhəbbətini və hər iki dünyada xeyir qazanarsan.

Mən ləngimədən Rəsulallaha ﷺ öz xidmətlərimi təklif etdim və xahiş etdim ki, məni öz yanına işə götürsün. O, mənim bu xahişimi rədd etmədi və məni öz yanına qulluqçu işləməyə götürdü.

O gündən başlayaraq mən nəcib Peyğəmbərin ﷺ ayrılmaz kölgəsi oldum: onun getdiyi hər bir yerdə onu müşayiət edirdim və onun olduğu hər bir yerdə mən də olurdum. O, mənə tərəf bir hərəkət edən kimi, mən onun qarşısında dururdum. O, bir şey istəyən kimi, mən dərhal onun istəyini yerinə yetirməyə cumurdum. Mən ona gün ərzində xidmət edirdim, gün batandan sonra və Peyğəmbər ﷺ axşam namazını qılıb, öz evinə qayıdandan sonra mən azad olurdum. Lakin belə hallarda mən həmişə özümə sual verirdim:

- Ay Rabia, hara gedirsən?! Birdən gecə Rəsulallaha bir şey lazım oldu?!

Mən onun qapısı önündə otururdum və heç yerə tərpənmirdim. Rəsulallah ﷺ gecələri tez-tez oyaq qalıb, namaz qılardı. Mən onun Fatihəni oxumağa başladığını və gecənin bir hissəsi ərzində bu surəni təkrarladığını eşidirdim. Hərdən o, oxumağı kəsirdi, bəlkə də mənim gözlərim yumulurdu və mən yuxuya gedirdim. Hərdən mənə elə gəlirdi ki, mən onun "Allah Ona həmd deyəni eşidir" söylədiyini eşidirəm. O, bunu Fatihədən daha çox təkrarlayırdı.

* * *

Rəsulallahın ﷺ bir xasiyyəti var idi. O, ona yaxşılıq edən insana başqa insanlardan daha çox hörmət edərdi.

Bir dəfə Peyğəmbər ﷺ mənim xidmətlərimə görə məni mükafatlandırmaq istədi və məni çağırdı: "Ya Rabia ibn Kaab!"

– Ya Rəsulallah, Allah səni qat-qat xoşbəxt eləsin, səni eşidirəm və tabe oluram, – mən hay verdim.

– Nə istəyirsən, xahiş elə və mən onu sənə verim, – Peyğəmbər ﷺ dedi.

Bir qədər fikirləşəndən sonra dedim:

– Ya Rəsulallah, mənə möhlət ver ki, baxım görüm səndən nə istəyim, sonra sənə bu haqda deyərəm.

– Qorxma, istə, – Peyğəmbər ﷺ dedi.

O vaxtlar mən qohumları, əmlakı, evi-eşiyi olmayan kasıb oğlan idim. Mənim məskənim məscidin bir küncü idi. O yer kasıblar üçün ayrılmışdır. Burada mənim kimi məzlumlar məskunlaşmışdır.

Adamlar bizi "islamın qonaqları" adlandırırdılar. Müsəlmanlardan kimsə Rəsulallaha ﷺ öz ianəsini gətirəndə, o, onu bütöv şəkildə bizə göndərirdi. Əgər kimsə Peyğəmbərin ﷺ şəxsən özü üçün nemətlər gətirirdisə, onda o, bu hədiyyələrin bir hissəsini özünə götürüb, qalan hissəsini isə bizə verirdi.

Qəlbim mənə Rəsulallahdan ﷺ dünya nemətlərindən bir şey istəməyi təlqin etdi ki, bununla mən yoxsulluqdan qurtulub, əmlakı və arvad-uşağı olan başqa insanlar kimi olum.

Bu fikrimi dilə gətirməmişdən, birdən ağlıma başqa bir fikir gəldi:

– Ay Rabia ibn Kaab! Ehtiyatlı ol! Dünyəvi olan hər bir şey fani və keçicidir. Bu dünyada sənin üçün Uca və Qüdrətli Allahdan kifayət qədər ruzi-bərəkətin var. Şübhəsiz ki, bu sənə qismət olacaq. Rəsulallah öz Rəbbinin yanında elə məqamdadır ki, O, onun heç bir xahişini rədd etmir. Ona görə Peyğəmbərdən xahiş elə ki, o, sənin o biri həyatın üçün Allahdan nemət istəsin.

Qəlbim bu fikirdən xoşbəxt olub sakitləşdi.

Mən Rəsulallahın ﷺ yanına gələndə, o, soruşdu:

– Hə, Rabia, nə deyirsən?

Mən cavab verdim: "Ya Rəsulallah, səndən xahiş edirəm ki, sən

Allahdan istəyəsən ki, O, məni cənnətdə sənə yoldaş eləsin".

O, soruşdu:

– Bunu istəməyi sənə kim başa salıb?

Mən cavab verdim:

– Allaha and içirəm ki, heç kim bunu məsləhət eləməyib. Sən deyəndə: "Məndən istədiyini xahiş et və mən verərəm", qəlbim mənə təlqin etdi ki, səndən dünya nemətlərindən bir şey istəyim. Amma elə o zaman mənim ağlıma həqiqi nəsihət nazil oldu – o biri dünyanı bu dünyadan üstün tutmağın zəruriliyi haqqında nəsihət. Ona görə də səndən xahiş etdim ki, Allahdan məni cənnətdə sənə yoldaş etməyini istəyəsən.

Rəsulallah ﷺ xeyli vaxtı susdu, sonra isə soruşdu:

– Ya Rabia, bəlkə başqa bir şey?

Mən dedim:

– Yox, ay Rəsulallah, mənim səndən istədiyimdən daha yaxşı heç nə ola bilməz.

Peyğəmbər ﷺ dedi:

– İbadətə və namaza çox diqqət yetir.

Bundan sonra mən daha böyük səylə Allaha ibadət etməyə başladım ki, bu dünyada Peyğəmbərə ﷺ qulluq edib, onu müşayiət etdiyim kimi, onu cənnətdə də müşayiət edim.

* * *

Bundan sonra, tezliklə Rəsulallah ﷺ məni çağırıb soruşdu:

– Ay Rabia, məgər sən evlənməmisən?

Mən ona belə cavab verdim:

– Ya Rəsulallah, istəməzdim ki, məni sənə xidmət etməkdən nə isə uzaqlaşdırsın. Həm də ki, mənim axı arvadın payına düşən məbləği ödəməyə heç pulum yoxdur. Onunla birgə yaşayacaq yerim də yoxdur.

Rəsulallah ﷺ dinmədi.

* * *

Bundan sonra o, məni görəndə, yenə soruşdu:

– Ay Rabia, məgər sən evlənməmisən?!

Mən onun bu sualına, birinci dəfə olduğu kimi cavab verdim. Lakin tezliklə qəlbimdə peşmançılıq hiss edərək öz-özümə dedim:

- Vay halına, ay Rabia, Allaha and olsun ki, sənin dünyanda və sənin şəriətində sənin üçün nəyin yaxşı olduğunu Peyğəmbər gözəl bilir. Ona sənin haqqında hər şey yaxşı məlumdur. Allaha and içirəm ki, əgər Rəsulallah məni bir dəfə də evlənməyə çağırsa, onun çağırışına cavab verəcəyəm.

Bir müddət keçdikdən sonra Rəsulallah ﷺ məndən soruşdu:

- Ay Rabia, sən hələ də evlənməmisən?!

- Ya Rəsulallah, mən etiraz etmirəm, amma mən sənin bildiyin kimi, belə yoxsul vəziyyətdə ikən, kim mənə ərə gedər? Peyğəmbər ﷺ dedi: "Filankəsin evinə get və onlara de: "Rəsulallah sizə əmr edir ki, siz mənə filan qızınızı ərə verəsiniz". Mən sıxıla-sıxıla həmin adamların yanına gəldim və dedim: "Rəsulallah məni sizin yanınıza yollayıb ki, filan qızınızı mənə ərə verəsiniz".

Onlar soruşdu: "Məhz o qızı?!"

- Bəli, - mən cavab verdim.

Onlar dedilər: "Rəsulallahı və Rəsulallahın elçisini salamlayırıq. Allaha and olsun ki, əgər Rəsulallah öz elçisini göndərirsə, deməli bu zəruridir."

Sonra onlar mənimlə bu qızın nikah müqaviləsini bağladılar. Mən, Peyğəmbərin ﷺ yanına gəlib dedim:

- Mən səfalı bir evdən qayıtdım. Onlar mənə inandılar, məni salamladılar və öz qızının mənimlə nigah müqaviləsini bağladılar. Amma arvada düşən pul payını vermək üçün pul haradan götürüm?

Rəsulallah ﷺ mənim qəbiləm Bəni Əsləmin başçılarından biri olan Bureydə ibn Əl-Hasibi çağırıb ona dedi:

- Ya Bureydə, Rabia üçün qızılın lazım olan miqdarını toplayın.

Onlar Peyğəmbərin ﷺ dediyini yerinə yetirdilər. Rəsulallah ﷺ mənə dedi:

- Onların yanına bununla get və de: "Bu sizin qızınızın mehridir."

Mən onların yanına gəldim və qızılı verdim. Onlar onu məmuniyyətlə qəbul edib, dedilər: "Bu olduqca böyük məbləğdir".

Mən Rəsuləlahın ﷺ yanına gəlib dedim:

– Mən heç vaxt belə nəcib insanlar görməmişdim. Onlar mənim verdiyimdən razı qaldılar, halbuki bu az pul idi. Onlar isə dedilər ki, bu yaxşı məbləğdir. Ya Rəsulallah, bəs toy ziyafəti üçün mən pulu hardan götürüm?!

Rəsulallah ﷺ Bureydəyə dedi:

– Yaxşı qoyun üçün pul yığ.

Həmqəbillərim mənim üçün böyük yağlı qoyun aldılar. Rəsulallah ﷺ isə dedi:

– Get Aişənin yanına və ona de ki, evində olan arpanı sənə versin.

Mən Aişənin yanına gələndə, o, dedi: "Al, bu səbətdə yeddi çəki ölçüsündə arpa var. Allaha and olsun ki, bundan savayı bizim başqa yeməyimiz yoxdur".

Sonra mən qoyunu və arpanı götürüb gəlinin evinə getdim. Orada mənə dedilər: "Arpanı biz hazırlayırıq, qoyunu isə qoy sənin həmqəbilələrin hazırlasınlar".

Biz həmqəbilələrimlə birgə qoyunu kəsib, dərisini soyub, onu bişirdik. Beləliklə, bizim çörəyimiz və ətimiz var idi. Mən toy ziyafətini təşkil etdim və Rəsulallahı ﷺ dəvət etdim. O da mənim dəvətimi qəbul etdi.

* * *

Bundan sonra Rəsulallah ﷺ mənə Əbu Bəkrin torpağının yanında yerləşən bir torpaq sahəsi bağışladı. Beləliklə, mənim öz əmlakım oldu və mən hətta bir dəfə Əbu Bəkrlə bir palmaya görə mübahisə edib, ona dedim:

– Bu palma mənim torpağımdadır.

O, etiraz etdi: "Yox, o, mənim torpağımdadır". Biz mübahisə etməyə davam etdik və Əbu Bəkrin ağzından nalayiq söz çıxdı. O, bunu deyən kimi peşman oldu və mənə dedi: "Ya Rabia, mənə eyni sözlə cavab ver, biz səninlə hesablaşaq".

– Allaha and içirəm ki, mən bunu etmərəm, – mən cavab verdim.

– Onda mən Rəsulallahın yanına gedəcəyəm – Əbu Bəkr dedi. – Və ona şikayət edəcəyəm ki, məndən əvəzini çıxmaq istəmirsən...

O, Rəsulallahın ﷺ yanına getdi, mən də onun arxasınca yola düşdüm. Bəni Əsləm qəbiləsindən olan adamlar da mənimlə idilər. Onlar deyirdi-

lər: "Birinci o başladı və səni söydü. İndi isə Rəsulallahın yanına birinci gedib ona səndən şikayət etmək istəyir?"

Mən üzümü onlara tutub dedim: "Vay halınıza! Məgər bilmirsiniz bu kimdir?! Axı bu Əs-Siddiqdir, o, bütün müsəlmanların ağsaqqalıdır... O dönüb sizi görməmiş geri qayıdın. O fikirləşir ki, siz ona qarşı çıxmağımda mənə yardım edirsiniz və qəzəblənər. O qəzəblənmiş vəziyyədə Rəsulallahın yanına gəlsə, onun qəzəbindən Peyğəmbər özü də qəzəblənər. Onlar ikisi də qəzəbli olsalar, onda Allah da çox qəzəblənər, bu isə mənim məhv olmağım deməkdir.

Bundan sonra yoldaşlarım geri qayıtdılar. Əbu Bəkr Peyğəmbərin ﷺ yanına gəlib, hər şeyi olduğu kimi ona danışanda, Rəsulallah ﷺ başını qaldırıb soruşdu:

- Ya Rabia, sənin Əs-Siddiqlə nə probleminiz var?

- Ya Rəsulallah, o, istədi ki, mən onun mənə dediyini deyim, lakin mən bunu eləmədim.

Peyğəmbər ﷺ dedi: "Düz eləmisən. Sən ona, onun sənə dediyini demə. De: "Allah Əbu Bəkri bağışlasın".

Mən ona dedim: "Ya Əbu Bəkr, Allah səni bağışlasın". O isə gözlərində yaş: "Ya Rabia ibn Kab, Allah mənim əvəzimə sənə xeyir versin!", "Ya Rabia ibn Kab, Allah mənim əvəzimə sənə xeyir versin!" sözlərini təkrar edərək, çıxıb getdi...[113]

* * *

[113] Rabia ibn Kab haqqında əlavə məlumat üçün bax:
1. "Əsəd əl-Qaba", 2/171;
2. "Əl-İsabə", 1/511;
3. "Əl-İstiəb", 1/506;
4. "Əl-Bidəyə və ən-Nihayə", 335-336;
5. "Kanz əl-Umməl", 7/36;
6. "ət-Tabaqat əl-Kubra", 4/313;
7. "Musnəd Əbu Davud", 161-162;
8. "Tarix əl-xuləfə", 56;
9. "Məcmyə əz-zavaid", 4/256,257;
10. "Həyatus Sahabə",
11. "Təhzib ət-Təhzib", 3/262,263;
12. "Tarix əl-Kubra", 2c. 1/256 ;
13. "Tarix əl-İsləmi lil Zəhəbi", 3/15 və s.

# İKİ PALTARLI

# ABDULLAH ƏL-MUZƏNİ

*Dünya iki paltarlını (Abdullah əl-Muzəni) çağırdı. Ancaq o qulaqlarını qapadı və bütün yollarla axirəti aramağa can atdı.*

Nurlu şəhər Mədinədən Məkkəyə gedən yolun sağında yaşıl təpəli bir dağ vardır. Uzun-uzadı uzanan bu dağın adı Varqandır. Bu dağın ətəyində Muzeynə qəbiləsindən olan bir ailə yaşayırdı.

* * *

Yəsrib şəhərinə yaxınlıqdakı bu dağın ətəyində kasıb ata-ananın Abduluzza ibn Abdunəhəm əl-Muzəni adlı bir övladları dünyaya gəldi.

Muzəni hələ körpə ikən atası vəfat etdi. Körpəlikdən bu uşağa yetimliklə bərabər, yoxsulluq da üz verdi. Lakin bu yoxsul körpənin çox varlı və təmtəraqlı yaşayışa malik bir əmisi var idi. Eyni zamanda əmisinin də həyatını şənləndirəcək və varisi olacaq bir övladı yox idi. Əmisi qardaşı oğlunu sevib əzizlədi və ona ata kimi davranaraq özünü və malını ona həsr etdi.

Əl-Muzəni uşaqlığının ən gözəl çağlarını münbit Varqan dağının ətəklərində keçirdi. Bu dağ ona mülayimlik libası geydirdi, təmizlik və saflıq bəxş etdi. Saflıq və düzgünlük içində böyüdü və yalandan, pislikdən uzaq oldu. Bu xüsusiyyətlər də əmisinin ona qarşı sevgisinin artması və başqalarından üstün tutması üçün digər bir səbəb oldu.

Əl-Muzəni artıq həddi-buluğu çatmasına və yaşının artmasına baxmayaraq, hələ yeni din haqqında heç nə eşitməmiş, Məhəmməd peyğəmbərin ﷺ dəvətindən xəbərsizdi. Bu hal Peyğəmbərin ﷺ Mədinəyə hicrət etdiyi mübarək günə qədər davam etdi.

Gənc əl-Muzəni bu hadisədən sonra Peyğəmbərin ﷺ atdığı addımlarını izləməyə və haqqında məlumat toplamağa başladı. O, tez-tez gün boyu Mədinə yolunun üzərində dayanaraq ora gedib-gələn insanlardan bu yeni din, onun elçisi və tərəfdarları haqqında məlumatlar öyrənərdi.

Çox keçmədi ki, Allah taala onun təmiz qəlbinə imanın daxil olmasına izn verdi və əl-Muzəni şəhadət gətirərək İslamı qəbul etdi. Artıq əl-Muzəni gözləri Peyğəmbərin camalını görmədən və qulağı onun söhbətini eşitmədən müsəlman olmuşdu. O, Varqan dağı ətəyində öz qəbiləsindən İslamı qəbul edən ilk insan idi.

Gənc əl-Muzəni müsəlman olduğunu bütün qəbilə üzvlərindən, xüsusilə də əmisindən gizli saxladı. İzzət və cəlal sahibi Allaha insanların gözündən uzaq ibadət etmək üçün dağa çıxmağa başladı. Səbirsizliklə və böyük sevinclə əmisinin də müsəlman olacağı günü gözləyirdi ki, özünün də müsəlman olduğunu açıq-aşkar söyləyə bilsin və onunla birgə Peyğəmbəri ﷺ görmək üçün Mədinəyə getsin.

Lakin gənc mömin səbrinin uzandığını, amma əmisinin hələ də İslamdan uzaq olduğunu görüb özünün müsəlman olduğunu əmisinə söyləmək qərarına gəldi. O, günü-gündən Peyğəmbərlə ﷺ keçirə biləcəyi günlərdən uzaq düşdüyü ilə razılaşa bilməyib aqibətinin nə olacağını bilə-bilə əmisinə dedi: "Ey əmi, mən sənin İslamı qəbul etməyini çox gözlədim. Sonda səbrim tükəndi. Əgər müsəlman olmaq və Allahın sənə xoşbəxtlik bəxş etməsini istəyirsənsə, çox gözəl olar. Yox əgər belə deyilsə, izacə ver hər kəsin içində müsəlman olduğumu söyləyim".

Gəncin sözləri az qala əmisini qəzəbdən partlatmışdı. Əmisi hirsli halda dedi: "Lata və Uzzaya and olsun ki, əgər sən müsəlman olsan, sənə verdiyim hər şeyi əlindən alacam və səni yoxsulluq və ehtiyac içində buraxacam".

Əmisinin hədələri onu az da olsa öz əzmindən döndərə bilmədi. Əmisi onu yolundan döndərməkdən ötrü insanlardan yardım istədi. Başqaları da onu gah hədələməyə, gah da ələ almağa çalışdılar. Onu hədələyənlərə deyərdi: "İstədiyinizi edin! Allaha and olsun ki, Məhəmmədə tabe oldum və daşlara ibadətdən üz döndərib

tək və müzəffər olan Allaha ibadət yolunu tutmuşam. Sizdən və əmimdən nə pislik gəlirsə, qoy gəlsin!"

Əmisi artıq onu verdiyi hər şeydən məhrum edərək edəcəyini etmişdi. Onun əlindən bürünəcək libasını belə almışdı.

* * *

Gənc əl-Muzəni Allahın qatındakı mükafatı üstün tutaraq əmisinin var-dövlətindən üz döndərdi və uşaqlıq və gəncliyini keçirdiyi doğma diyarını tərk etdi. Bacardığı qədər tez, böyük istəklə və həvəslə Mədinəyə tərəf istiqamət aldı. Yəsribə yaxınlaşdıqda paltarı cırıldı. Onu iki yerə ayırdı, sonra digərini geyindi. Sonra Peyğəmbərin ﷺ məscidinə getdi və həmin gecəni orada qaldı. Sübh tezdən hava təzə işıqlanarkən Peyğəmbərin ﷺ qapısının önündə dayanır və həsrətlə Peyğəmbərin ﷺ çıxışını gözləyir. Gözlərindən yanağına sevinc yaşları süzülürdü. Qəlbi sevincindən sanki yerindən qopacaqdı.

Namaz vaxtı adəti üzrə Peyğəmbər ﷺ insanların üzlərinə baxdı. Birdən gözü gənc əl-Muzəniyə sataşdı. Və ondan soruşdu:

*"Ey gənc, sən kimlərdənsən?"*

Əl-Muzəni aid olduğu qəbiləsinin adını çəkdi. Sonra Peyğəmbər ﷺ soruşdu:

*"Bəs adın nədir?"*

Əl-Muzəni dedi: "Abduluzza".[114]

Peyğəmbər ﷺ dedi:

*"Yox, Abdullah!"*[115]

Daha sonra Peyğəmbər ﷺ ona yaxınlaşaraq dedi:

*"Bizə yaxın bir yerdə qal və bizim qonaqlarımız arasında ol!"*

Həmin gündən sonra insanlar onu Abdullah deyə çağırdılar. Həmçinin səhabələr onu iki paltarı ilə gördükdən və başına gələnləri

---

[114] Tərcüməsi "Uzzanın qulu" deməkdir.
[115] Tərcüməsi "Allahın qulu" deməkdir.

dinlədikdən sonra ona "Zulbicadeyn"[116] ləqəbini verdilər. O tarixdə ən çox bu ləqəblə yadda qalmışdır.

* * *

Əziz oxucu! Abdullahın Allahın elçisinin ﷺ yaxınlığında yaşamaqdan və onun məclislərində iştirak etməkdən duyduğu sevinc və səadəti hədsiz idi. Axı artıq o, Peyğəmbərin ﷺ arxasında namaz qılır, əxlaqı ilə tərbiyələnirdi.

Dünya iki paltarlını (Abdullah əl-Muzəni) çağırdı. Ancaq o qulaqlarını qapadı və bütün yollarla axirəti aramağa can atdı. O, duasında xüşu və itaətlə Allahdan hər zaman axirətini dilərdi. Çoxlu yalvarışına görə səhabələr ona Əvvah[117] adını da vermişdilər.

Abdullah Peyğəmbərin ﷺ iştirak etdiyi bütün döyüşlərə qatılardı. O, Təbuk döyüşündə Peyğəmbərdən ﷺ xahiş etdi ki, Allahdan onun üçün şəhidlik diləsin! Peyğəmbər ﷺ Allahdan Abdullahı kafir qılınclarının zədəsindən qorumağı istədi. Abdullah dedi: "Atam, anam sənə fəda olsun, ey rəsulullah! Mən bunu istəməmişdim".

Peyğəmbər ﷺ dedi: *"Əgər Allah yolunda döyüşmək üçün yola çıxmısansa, xəstələnib ölsən də şəhidsən. Mindiyin heyvan büdrəsə və yerə düşüb ölsən, yenə də şəhidsən".*

* * *

Bu söhbətdən bir gün bir gecə keçməmişdi ki, Abdullahı qızdırma xəstəliyi tutdu və xəstəlikdən öldü. O, Allaha hicrət etmişdi, Allah yolunda cihad etmişdi. Ölərkən isə yanında nə ailəsi, nə də qohum-əqrabası var idi. Doğma vətənindən, yurdundan-yuvasından uzaqlarda ölürdü. Lakin Allah ona bunların əvəzində ən gözəl mükafat bəxş etdi.

---

[116] Tərcüməsi "iki paltarlı" deməkdir.
[117] Tərcüməsi "xüşu və itaət ilə Allahdan axirəti yalvaran" deməkdir.

Səhabələr onun qəbrini əlləri ilə qazdılar. Qəbrinə Peyğəmbər ﷺ özü endi. O, qəbrin başında dayanan iki möhtərəm insana – Əbu Bəkr və Ömərə *"qardaşınızı mənə uzadın!"* deyərək, Abdullahın nəşəsini onlardan aldı və qəbrə yzatdı. Bütün bunların canlı şahidi olan Abdullah ibn Məsud sonralar belə qeyd etmişdi: "Kaş o qəbrin sahibi mən olardım. Mən əl-Muzənidən on beş il əvvəl İslamı qəbul etməyimə baxmayaraq onun yerində olmağı çox istəmişdim".[118]

[118] Zulbicadeyn barədə ətraflı məlumat almaq üçün bax:
1. "Əsdul qabə" 3/227;
2. "Sıfatus safvə" 1/677;
3. "Əl-İsabə" 2/338;
4. İbn Hişam, "Əs-Siratun-Nəbəviyyə" 4/171-172;
5. "Həyatus-Səhabə” 4/78-81.

# ƏBU ƏL-AS İBN ƏR-RABİA

*"O mənimlə danışanda doğruçu idi, mənə vəd verəndən sonra isə, öz vədini yerinə yetirdi".*
Məhəmməd, Allahın Rəsulu

Əbu Əl-As ibn Ər-Rabia Əl-Əbşəmi qureyşli bir gənc idi. O, gözəgəlimli zahiri görünüşüə malik idi. Tale ona xoş güzəran və nəciblik bəxş etmişdi. O öz şəxsiyyətində qürur, daxili ləyaqət, mərdlik, düzlük və sədaqət, həmçinin əcdadların irsinə hörmət cəmləşdirmiş əsil ərəb cəngavərinin nümunəsi idi.

* * *

Əbu Əl-As qureyşlilərin ticarətə olan ənənəvi məhəbbətinə sadiq qalaraq, onların qışda Yəmənə, yayda isə Şama gedib, orada ticarətlə məşğul olmaq adətinə riayət edirdi. Onun yüz dəvədən və iki yüz nəfər adamdan ibarət olan karvanları daima Məkkə və Şam arasında işləyirdi. Onun diribaşlığına, vicdanına və mötəbərliyinə bələd olan insanlar öz vəsaitlərini və mallarını ticarət üçün ona məmnuniyyətlə etibar edirdilər.

* * *

Onun xalası, Məhəmməd ibn Abdullahın zövcəsi, Xədicə bint Xuveylid onunla doğma anası kimi rəftar edirdi və Əbu Əl-As onun ürəyində və evində şərəfli yer tutaraq hamının sevimlisi idi. Məhəmməd ibn Abdullahın da Əbu Əl-Asa olan məhəbbəti, Xədicənin məhəbbətindən heç də az deyildi.

* * *

Məhəmməd ibn Abdullahın evində zaman öz axarı ilə gedirdi. Onun böyük qızı Zeynəb böyüdü və gözəl gül kimi açıldı. O, elə

gözəl idi ki, Məkkənin ən tanınmış və hörmətli başçılarının oğulları onunla evlənmək istəyirdi...

Niyə də olmasın?! O, qureyşlilərin ən qədim və tanınmış nəsillərindən biri olan ailədən idi. Onun valideynlərinə hamı hörmət edirdi, o, həmçinin qureyş qəbiləsində ən əxlaqlı və tərbiyəli qız idi.

Amma onu necə almaq olardı?

Axı, bu oğlanların və onun arasında Məkkənin ən yaxşı gənci, onun xalasının oğulluğu Əbu Əl-As dururdu!!!

Zeynəb bint Məhəmməd və Əbu Əl-As evləndikdən cəmi bir neçə ay keçdikdən sonra Məkkə varisi ilahi nurla şəfəqləndi. Allah öz peyğəmbərini, Məhəmmədi ﷺ haqqın dini ilə göndərərək, ona öz həmqəbilələrini xəbərdar etməyə əmr verdi. Peyğəmbərə ﷺ iman gətirmiş insanlardan ən birincisi onun arvadı Xədicə bint Xuveylid və həmçinin qızları Zeynəb, Ruqiyyə, Umm Gülsüm və Fatimə (azyaşlı olmasına baxmayaraq) oldu.

Lakin onun kürəkəni Əbu Əl-As öz ata-babalarının dinindən dönmək və öz arvadı Zeynəbin dinini qəbul etmək istəmədi, halbuki ona qarşı saf məhəbbət və həqiqi simpatiya hiss edirdi.

* * *

Rəsulallah ﷺ ilə qureyşlilər arasındakı münaqişə kəskinləşəndə onlardan bəziləri digərlərinə dedilər:

– Vay halımıza... Siz Məhəmmədin qızlarını öz oğullarınıza almaqla onun qayğılarını üzərindən götürdünüz. Əgər siz onları ona qaytarsanız, onda o, onlarla məşğul olmalı olacaq və sizdən əl çəkəcək.

Onlar dedilər: «Bu yaxşı fikirdir». Sonradan onlar Əbu Əl-Asın yanına gələrək ona dedilər: «Ya Əbu Əl-As, öz arvadından ayrıl və onu atasının evinə qaytar. Biz isə qureyşin ən tanınmış ailələrindən istədiyin qadını sənə verərik».

– Xeyr, Allaha and olsun, – o, cavab verdi. – Mən öz arvadımdan ayrılmaram, çünki dünyadan heç bir qadın onunla nə müqayisə edilə, nə də onu əvəz edə bilər.

Lakin Ruqiyyəni və Umm Gülsümü boşadılar və ata evinə qaytardılar. Rəsulallah ﷺ buna çox sevindi. O, Əbu Əl-Asın da belə hərəkət etməsini istəyirdi. Lakin Əbu Əl-As öz həmqəbilələri tək bunu etməyə özündə güc tapmadı, həm də o vaxtlar islam qanunvericiliyində mömin qadının bütpərəst kişi ilə nigahı qadağan edilməmişdi.

* * *

Rəsulallah ﷺ Mədinəyə köçdükdən və orada onun mövqeləri möhkəmləndikdən sonra, qureyşlilər müsəlmanlar ilə vuruşmaq məqsədilə Bədrə yürüş edəcək ordunu təchiz etdilər. Vəziyyət elə gətirdi ki, bu yürüşdə Əbu Əl-As da iştirak etməli oldu.

Şəxsən o özü, müsəlmanlarla vuruşmaq və onlara ziyan vurmaq istəmirdi. Lakin Əbu Əl-Asın öz qəbiləsindəki mövqeyi onun bu yürüşdə mütləq iştirakını tələb edirdi. Bədr döyüşü qureyşlilərin sarsıldığı məğlubiyyəti ilə bitdi. Bu bütpərəstlərin dikbaşlığını puça çıxartdı və onların qəddar hökmdarlarının qüdrətini məhv etdi. Düşmən ordusunun bir hissəsi məhv edildi, digərləri əsir alındı, qalanları isə qaçmaqla xilas oldu.

Zeynəb bint Məhəmmədin əri Əbu Əl-As da əsir düşmüş qureyşlilərin arasında idi.

* * *

Peyğəmbər ﷺ bir nəfərin əsirlikdən xilası üçün lazım olan məbləğin həcmini bir min dirhəmdən dörd min dirhəmə qədər təyin etdi. Girovun həcmi əsir düşmüş adamın öz qəbiləsindəki ad-sanın dərəcəsindən və onun şəxsi var-dövlətindən asılı idi. Məkkə ilə Mədinə arasında qureyş əsirlərinin pulla azad edilməsi üçün elçilər işləməyə başladılar.

Zeynəb də öz adamı ilə ərini azad etmək üçün pul göndərdi. Xədicə bint Xuveylidin öz qızı Zeynəbə bağışladığı boyunbağı da göndərilən vəsaitlərin arasında idi. Rəsulallah ﷺ bu boyunbağını

görəndə, üzündə kədər və qızına qarşı güclü ata məhəbbəti əks olundu. Peyğəmbər ﷺ öz səhabələrinə müraciət edərək dedi:

– Zeynəb bu vəsaitləri Əbu Əl-Ası azad etmək üçün göndərib. Əgər siz bunu mümkün hesab etsəniz ona ərini və pullarını qaytarın.

Onun silahdaşları dedilər: «Ya Rəsulallah, ürəyin sevinsin, biz bunu edərik».

* * *

Lakin Peyğəmbər ﷺ Əbu Əl-Asın azad edilməsini Zeynəbin dərhal atasına qaytarılması ilə şərtləndirdi. Məkkəyə çatan Əbu Əl-As verdiyi vədi dərhal yerinə yetirmək qərarına gəldi.

O, arvadına əmr etdi ki, getməyə hazırlaşsın və ona xəbər verdi ki, atasının adamları onu Məkkənin yaxınlığında gözləyəcəklər. Əbu Əl-As onun üçün yola ərzaqlar və minik heyvanı hazırlayıb, öz qardaşı Amr ibn Ər-Rabiaya Zeynəbi müşayiət etməyi və onu Peyğəmbərin ﷺ adamlarına təhvil verməyi tapşırdı.

* * *

Amr ibn Ər-Rabia kamanı çiynindən asıb, oxları və oxqabını götürdü. Zeynəbi kəcavəyə əyləşdirdi və bütün qureyşlilərin gözü önündə günün günorta çağı Məkkənin çıxışına yollandı. Millət həyəcanlanıb onların dalınca cumdu və tezliklə onlara çatdı. Bu adamlar Zeynəbi qorxutdular, onu dəhşətə saldılar...

O zaman Amr oxları və kamanı hazırladı, sonra isə dedi: «Allaha and içirəm ki, ona yaxınlaşan hər kəsin boğazına bir ox vuraram». Amrın gözəl atıcı olması isə hamıya məlum idi; onun atdığı ox həmişə hədəfə dəyirdi. Adamların arasında duran Əbu Sufyan ibn Harb Amra yaxınlaşıb dedi:

– Ey mənim qardaşımın oğlu! Bəsdir öz oxlarınla bizi hədələdin. Biz səninlə danışmaq istəyirik.

Amr öz kamanını aşağı salanda Əbu Süfyan davam etdi:

– Sən düz eləmirsən. Hamının gözü önündə açıq-aşkar Zeynəbi

aparmağa başladın, halbuki hamı Bədrdəki məğlubiyyət və onun atası Məhəmmədin bizə verdiyi bəlalar haqqında bilir. Əgər sən onun qızını açıq-aşkar aparsan, onda bütün qəbilələr bizi qorxaqlıqda və zəiflikdə günahlandıracaqlar, həmçinin bizi rüsvay edəcəklər. Ona görə də onu ərinin evinə qaytar və orada bir neçə gün saxla. İnsanlar deyəcəklər ki, biz Zeynəbi qaytardıq. Sonra gizlicə onu atasının yanına apar. Zeynəbi atasına verməmək üçün bizim heç bir zərurətimiz yoxdur.

Buna qane olan Amr Zeynəb ilə birgə Məkkəyə qayıtdı. Bir neçə gün keçdikdən sonra o, Zeynəbi gecə yarısı Məkkədən çıxararaq, qardaşının tapşırığına əməl edərək, onu sağ-salamat atasının adamlarına ötürdü.

* * *

Əbu Əl-As arvadı ilə ayrıldıqdan sonra bir müddət Məkkədə qaldı, onun fəthindən bir qədər əvvəl isə öz ticarət işləriylə əlaqədar olaraq Şama yollandı. Əbu Əl-Asın yüz dəvə və yüz yetmiş insandan ibarət karvanı Məkkəyə qayıdanda Mədinə yaxınlığında Rəsulallahın ﷺ qoşunlarından olan bir dəstə ilə qarşılaşdı. Hücum edənlər dəvələri götürüb, sarbanları əsir aldılar, amma Əbu Əl-As gizləndi və onu tapa bilmədilər. Gecə düşəndə Əbu Əl-As qaranlıqdan istifadə edərək, Mədinəyə gəldi, Zeynəbi tapdı və ondan yardım istədi.

* * *

Sübh namazına çıxan Rəsulallah ﷺ mehrabda dayanıb, Allahı vəsf etdi və bunu məsciddə olanlar təkrarladı. Bu an qadınlar üçün xüsusi olaraq ayrılan yerdən Zeynəbin səsi gəldi:

– Ey insanlar! Mən Zeynəb bint Məhəmməd Əbu Əl-Asa sığınacaq verib, ona yardım etdim, siz də ona kömək edin.

Namazı bitirən Rəsulallah ﷺ adamlara tərəf çevrilib soruşdu:

– Siz mənim eşitdiyimi eşitdinizmi?

Onlar dedilər: «Bəli, ya Rəsulallah!»

Peyğəmbər ﷺ dedi: «Canımın Sahibinə and içirəm ki, sizin eşitdiyinizi eşidənədək, bu haqda heç nə bilmirdim. Gördünüz ki, müsəlmanların qohumu onlardan qorunmaq üçün müdafiə istəyir”.

Evə qayıdan Peyğəmbər ﷺ qızına dedi:

– Əbu Əl-Ası hörmətlə qəbul et, amma bil ki, sən onun üçün halal deyilsən.

Sonra o, Əbu Əl-Asın dəvələrini və sarbanlarını ələ keçirmiş dəstənin adamlarını öz yanına çağırıb onlara dedi: “Bu adam bizim yaxınlarımızdandır, bu da sizə məlumdur, siz isə onun əmlakını ələ keçirtdiniz. Yaxşı olar ki, ona məxsus olanı qaytarasınız. Əgər imtina etsəniz, bu, Allahın sizə verdiyi qəniməti alacaq və sizin buna haqqınız var.”

Həmin adamlar dedilər: «Yox, ya Rəsulallah, biz onun əmlakını ona qaytarırıq».

O öz əmlakını götürməyə gələndə, bu adamlar ona dedilər: «Ya Əbu Əl-As, sən öz qəbiləndə yüksək mövqe tutursan, həmçinin Rəsulallahın əmisi oğlu və kürəkənisən. Niyə İslamı qəbul etməyəsən. Biz sənə bütün əmlakını qaytarırıq. Sən məkkəlilərin bu vəsaitlərini idarə edərsən və bizimlə Mədinədə qalarsan».

Əbu Əl-As cavab verdi: «Sizin dəvətiniz necə də pisdir!» Məgər mən öz yeni dinimi xəyanət ilə başlamalıyam?!»

* * *

Əbu Əl-As Məkkəyə yollandı və oraya qayıtdıqda hər kəsin öz pulunu verdi. Sonra dedi:

– Ey qureyşlilər! Mənim bir adama borcum qalmadı ki?! Onlar cavab verdilər: «Xeyr! Bizim üçün etdiklərinə görə Allah səni xeyrlə mükafatlandırsın. Biz əmin olduq ki, sən əqidəli və etibarlı insansan»,

Əbu Əl-As dedi: «Mən sizə verməli olduğum hər şeyi verdim, indi isə şəhadət verirəm ki, Allahdan başqa Tanrı yoxdur və Məhəmməd Allahın Rəsuludur...

Allaha and içirəm ki, mən Mədinədə Məhəmmədin yanında yalnız ona görə islamı qəbul etmədim ki, çünki qorxurdum ki, siz fikirləşərsiniz ki, mən sizin əmlakınızı mənimsəmək istəyirəm...

İndi isə, Allah sizə öz əmlakınızı qaytardığı və mənim üzərimdən bu məsuliyyəti götürdüyü bir vaxtda mən islam dinini qəbul etdim...»

Sonra Əbu Əl-As Məkkədən çıxıb Rəsulallahın ﷺ yanına yollandı. Peyğəmbər ﷺ onu mehribanlıqla qarşıladı və arvadını ona qaytardı. Peyğəmbər ﷺ onun haqqında deyirdi:

– O, mənimlə danışanda, doğruçu idi, mənə vəd verəndən sonra isə öz vədini yerinə yetirdi.[119]

* * *

---

[119] Əbu Əl-As ibn Ər-Rabia haqqında əlavə məlumat üçün bax:

1. «Siyər ə-ələm ən-nübələ», Əz-Zəhəbi, 1/239;
2. «Əsəd əl-Qaba»; 6/185;
3. «Ənsab əl-Əşrəf», 397-ci səh. və ardı;
4. «Əl-İsabə», 4/121;
5. «Əl-İstiəb», 4/125;
6. «Əs-sıra ən-Nəbəbiyə», İbn- Hişam; 2/306-314;
7. «Əl-Bidayə va ən-Nihayə», 6/354;
8. «Həyat əs-Səhabə», 4-cü hissənin mündəricatına bax.

# ASİM İBN SABİT

*«Vuruşmağa hazırlaşan, Asim ibn Sabit kimi vuruşsun».*
Məhəmməd ibn Abdullah

Uhudda Məhəmməd ibn Abdullah ilə vuruşmaq üçün qureyşlilər bütün başçılar və qullar daxil olmaqla hamı birlikdə çıxış etdilər.

Nifrət qureyşlilərin qəlblərini aşdırıb daşdırırdı; onların qanı Bədrdə öldürülmüş həmqəbilələrinin intiqamını almaq arzusu ilə qaynayırdı.

Qureyşlilər bütün kişilərin səfərbərliyi ilə məhdudlaşmadılar. Onlar həmçinin, döyüşçüləri döyüşə ilhamlandırmaq, hərbi ruhu onların qəlblərində saxlamaq və mümkün olan zəiflik və ya yorğunluq anlarında qəhrəmanların qətiyyətini möhkəmləndirmək üçün qadınlardan ibarət bir dəstəni də özləri ilə götürdülər. Əbu Süfyanın arvadı Hind bint Utbə, Amr ibn Əl-Asın arvadı Reyta bint Münabbih, Sələfə bint Sad öz əri Təlha və ğz oğlu: Mğsafiə, Əl-Culəs və Qilab ilə birgə yürüşə çıxan qadınların arasında idilər.

* * *

Uhuddə iki ordu görüşəndə və qızğın döyüş başlananda, Hind bint Utbə və digər qadınlar döyüşçülərin arxasında sıralara düzülərək qaval çalmağa və oxumağa başladılar:

«Əgər siz cəsarətlə vuruşursunuzsa, onda biz sizi qucaqlayır və sizin üçün yataqlar hazırlayırıq.

Əgər siz düşmənə arxanızı çevirirsinizsə, onda biz sizi artıq sevməyəcəyik və sizdən həmişəlik ayrılacağıq».

Qadınların bu hərbi himni döyüşçülərin qəlblərində hərbi ruhu canlandıraraq, onların ərlərinə sehrli təsir göstərirdi.

Bu döyüş bitəndən sonra hərbi zəfərdən nəşələnən qureyiş qadınları heyrət nidalarıyla döyüş meydanında gəzişməyə başladılar. Onlar cəsədləri təhqir edirdilər: onların qarınlarını yarır, gözlərini çıxarır, qulaqlarını və burunlarını kəsirdilər.

Bundan başqa, bu qadınlardan biri elə qəzəblənmişdir ki, özünə o kəsilmiş burun və qulaqlardan boyunbağı düzəltmişdilər. Bədrdə öldürülmüş atası, əmisi və qardaşının intiqamını almaq üçün o bu qorxunc zinət əşyalarını öz üzərinə taxmışdılar...

* * *

Amma Sələfə bint Sadın yaşıdlarından fərqli olaraq, başqa qayğısı var idi. O, həyəcan və narahatlıq içində öz əri və ya üç oğlundan biri ilə görüşü gözləyirdi ki, hər şeyi öyrənib, başqa qadınlarla zəfərin sevincini bölüşdürsün.

Onun gözləməsi hədər idi. Öz fikirlərinə dalan qadın döyüş meydanında öldürülənlərin üzlərinə baxaraq gəzirdi. Nəhayət, o öz ərinin qana batmış cansız bədənini tapdı. Sələfə öz oğullarını: Musafianı, Kilabı və Əl-Culəsi axtararaq, qəzəblənmiş aslan tək vurnuxurdu. Və budur, Uhudün ətəyində o öz övladlarını gördü. Musafiə və Kilab ölmüş, Əl-Culəs isə hələ də nəfəs alırdı.

* * *

Sələfə ölüm ayağında olan oğluna yapışdı, onun başını öz dizlərinin üstünə qoydu və alnındakı və dodaqlarındakı qanı silməyə başladı. Gördüyü dəhşətdən gözlərindəki yaşlar qurudu. Sələfə soruşdu:

– Kim səni yıxdı, oğlum?

O, anasına cavab verməyə çalışdı, amma ölüm qabağı xırıltı ona danışmağa mane oldu. Qadın yenidən  və yenidən bu sualı verirdi və nəhayət cavabı eşitdi: «Məni Asim ibn Sabit yıxdı, mənim qardaşım Musafianı ... və ... » Bu an Əl-Culəsin ruhu bədənini tərk etdi.

* * *

Sələfə dərddən ağlını itirdi və onun fəryadları döyüş meydanına yayıldı. O, Əl-Lat və Əl-Uzzaya and içdi ki, onun əzabları yalnız qureyşlilər Asim ibn Sabitdən intiqam aldıqdan sonra bitəcək. Onun üçün Asimin kəlləsini gətirsələr və o, ondan şərab içsə, onun göz yaşları quruyar. Sonra da Sələfə onun üçün Asim ibn Sabiti öldürən,

əsir götürən və yaxud onun başını gətirən adamı istənilən məbləğlə mükafatlandıracağını vəd etdi.

Bu xəbər qureyşlilər arasında yayılanda hər bir Məkkəli Asim ibn Sabiti məğlub edərək, onun başını Sələfəyə gətirmək və böyük mükafat sahibi olmaq arzusuna düşdü.

* * *

Uhud döyüşündən sonra Mədinəyə qayıdan müsəlmanlar keçmiş döyüşün bütün hadisələrini xatırlamağa, ölmüş qəhrəmanlar üçün ağlamağa və cəsur cəngavərləri təriflməyə başladılar. Onlar həmçinin Asim ibn Sabitin öldürdüyü adamları yada salaraq, onun bir ailədən olan üç qardaşı necə öldürməyi bacardığına təəccübləndilər.

Kimsə uca səslə dedi:

– Məgər burada təəccüblü bir şey var?! Yadınızdadır, Bədr döyüşündən qabaq Rəsulallah ﷺ bizdən necə vuruşacağımızı soruşdu. O zaman Asim ibn Sabit onun qarşısında durub, kamanını əlinə aldı və dedi: «Əgər düşmən mənə tərəf yüz qulac məsafəsinə yaxınlaşsa, mən onu oxlarla məhv edəcəyəm... O, bir nizə atımı məsafəsinə yaxınlaşsa, ona nizələr atmaq lazımdır... Sonra nizələri qoyub, qılıncları götürəcək və yaxın məsafədən döyüşmək lazımdır».

– Müharibə belədir, – Rəsulallah ﷺ dedi – Vuruşmağa hazırlaşan, Asim ibn Sabit kimi vuruşsun.

* * *

Uhud döyüşündən sonra Rəsulallah ﷺ bir vacib işlə əlaqədar olaraq öz adamlarından altı tanınmış səhabəni yola saldı. Onlara başçılıq etməyi isə Asim ibn Sabitə tapşırdı.

Peyğəmbərin ﷺ adamları ləngimədən onlara verilmiş tapşırığı yerinə yetirməyə başladılar. Onlar Məkkə yaxınlığında yolda olarkən Huzeyl qəbiləsindən olan bir dəstəyə rast gəldilər.

Düşmən onları mühasirəyə aldı. Asim və onun yoldaşları qılınc çıxarıb, düşmənlərlə vuruşmağa hazırlaşdılar. Lakin huzeylilər onlara dedilər: «Bizi məğlub etməyə gücünüz çatmaz. Allaha and

içirik ki, sizə pislik etmək istəmirik və əgər siz təslim olsanız, başınıza bir iş gəlməyəcək. Biz bunu təntənəli surətdə vəd edirik». Rəsulallahın ﷺ səhabələri bir-birinə baxmağa başladılar, sanki nə edəcəkləri barədə məsləhətləşmək istəyirdilər. Amma Asim bu zaman onlara dedi: «Mən isə heç vaxt bütpərəstə təslim olmaram».

Sonradan o Sələfənin vədini yada saldı. Və qılıncını qaldıraraq qışqırdı: «Allahım, mən Sənin dinini müdafiə edirəm... Mən həmçinin özümü və öz həyatımı da müdafiə edirəm. Allahın düşmənlərinə qələbə qismət olmayacaq»,

Sonra o, iki yoldaşı ilə birlikdə huzeylilərin üstünə cumdu. Onlar bir-birinin dalınca şəhid olanadək düşmənlə var gücü ilə vuruşdular. Rəsulallahın ﷺ digər səhabələri isə düşmənə təslim oldular və düşmən öz namərdliyini əsirlərə qarşı dərhal tətbiq etdi.

* * *

Əvvəl huzeylilər bilmirdilər ki, Asim ibn Sabit öldürülənlərin arasındadır. Onlar onu tanıyandan sonra böyük mükafatı xəyalən duyaraq çox sevindilər. Bu təəccüblü deyildir...

Məgər Sələfə bint Sad vəd verməmişdir ki, Asim ibn Sabiti ələ keçirtdiyi zaman onun kəlləsindən şərab içəcək və Asimi onun üçün ölü və ya diri vəziyyətdə gətirən adamı istənilən məbləğdə pulla mükafatlandıracaq?

Asim ibn Sabitin vəfatından cəmi bir neçə saat keçmişdir ki, bu haqda qureyşlilər xəbər tutdu, çünki huzeylilər Məkkə yaxınlığında yaşayırdılar.

Qureyş başçıları Asimin qatillərinin yanına öz elçilərini göndərərək onlardan Asimin başını tələb etdilər ki, Sələfə bint Sadın istəyini təmin etsinlər, ona öz andını tutmağa və Asimin öldürdüyü üç oğulları üçün çəkdiyi qəm-qüssəni yüngülləşdirməyə kömək etsinlər. Elçilər özləri ilə külli miqdarda pul gətirdilər ki, huzeyliləri Asimin başına görə səxavətliklə mükafatlandırsınlar.

* * *

Huzeylilər Asimin başını bədənindən ayırmaq üçün ona yaxınlaşan zaman birdən haradansa arılar uçub gəldilər və onun bədəninə yapışdılar. Hər dəfə huzeylilər Asimin bədəninə yaxın-

laşanda, arılar onların üzərlərinə oturub, gözlərindən, alınlarından və başqa yerlərindən sancırdılar və beləliklə adamları qovurdular.

Cəsədə yaxınlaşmaq cəhdləri hədər olduğu üçün bəziləri dedi: «Qoy cəsəd gecə düşənədək burada qalsın. Qaranlıqda arılar uçub gedərlər cəsəd də bizim olar». Sonra onlar yaxınlıqda məskən salaraq gözləməyə başladılar.

* * *

Yenicə axşam düşmüşdü ki, göy üzünü qara buludlar örtdü, şimşək çaxdı, göy guruldadı. Elə güclü leysan yağmağa başladı ki, çox qoca adamlar, belə bir yağışın əvvəllər yağdığını xatırlaya bilmədilər. Su qurumuş məcralara doldu, coşub-qaynadı və dərələri aşıb-daşdıraraq axmağa başladı. Hər yeri su basdı.

Səhər açılanda  huzeylilər Asimin cəsədini axtarmağa getdilər, amma heç yerdə heç nə tapa bilmədilər. Cəsəd yoxa çıxmışdır. Gur sel onu çox uzağa, heç kəsin tanımadığı yerə apardı.

Uca və Qüdrətli Allah Asimin günahsız və təmiz bədənini təhqir olunmaqdan xilas etdi...

Onun nəcib başı, kəlləsindən şərab içmək kimi rüsvayçılıqdan qurtuldu.

Allah bütpərəstlərin möminlər üzərində qələbə çalmağına imkan vermədi.[120]

* * *

---

[120] Asim ibn Sabit haqqında əlavə məlumat üçün bax:

1. “Əl-İsabə», 2/244;
2. «Əl-İstiəb», 3/132;
3. «Əsəd əl-Qaba», 2663;
4. «Əl-Təbəqat əl-Kubra», 2/41, 43, 55, 79 və 3/90;
5. «Hilyət əl-Övliyə», 1/110;
6. «Sifət əs-Səfva», mündəricata bax;
7. «Tarif», Ət-Təbəri, 10-cu hissənin mündəricatına bax;
8. «Əl-Bidayə və ən-Nihayə», 3/62-69;
9. «Tarix xəlifə İbn Həyat», 37,36;
10. «Əs-sıra ən-Həbəviyə», İbn Hişam, mündəricata bax;
11. «Əl-Mühabbər fi əl-Tarix», 118;
12. «Divan Həsən ibn Sabit va Şuruhuhu»;
13. «Həyat əs-Səhabə», 4-cü hissənin mündəricatına bax.

# SAFİYƏ BİNT ƏBDÜL-MUTTALİB

*«Safiyə Allahın dininin müdafiəsi üçün bütpərəsti öldürmüş ilk müsəlman qadın idi».*

Bu dərrakəli və sanballı qadın kimdir ki, onun rəyinə kişilər belə hörmət edirdilər?

Bütpərəsti öz əllərilə öldürmüş ilk müsəlman qadın olan, Rəsulallahın ﷺ bu cəsarətli səhabəsi kimdir?

Allah naminə qılıncını qaldırmış ilk cəngavəri müsəlmanlara verən bu qətiyyətli qadın kimdir?

Bu qadın Rəsulallahın ﷺ bibisi, qureyş qəbiləsindəki haşimi nəslindən olan Safiyə bint Əbdül-Muttalib idi.

* * *

Safiyə bint Əbdül-Muttalib hər tərəfdən şöhrətlə əhatə olunmuşdur.

Onun atası Əbdul-Muttalib ibn Haşim Peyğəmbərin ﷺ babası, qureyşlilərin başçısı, onların sabit rəhbəri idi.

Onun anası Halə bint Vahb Rəsulallahın ﷺ anası Əminə bint Vahbın bacısı olub.

Onun birinci əri Əl-Haris ibn Harb, bəni Umeyyənin başçısı Əbu Sufyan ibn Harbın qardaşı olub.

Onun ikinci əri Əl-Avvam ibn Xuveyld, cahilliyə dövründə ərəb qadınlarının xanımı və islamda ilk möminlər anası olan Xədicə bint Xuveylidin qardaşı olub.

Onun oğlu Əz-Zubeyr ibn Əl-Avvam Rəsulallahın ﷺ şagirdi və onun sadiq davamçısı olub.

Bundan sonra insan din şərəfindən savayı hansısa başqa böyük şərəfə can ata bilərmi?!

* * *

Safiyənin əri Əl-Avvam ibn Xuveylid öləndə o öz balaca oğlu Əz-Zubeyr ilə qaldı. Safiyə oğlunu sərt ruhda tərbiyələndirdi, ona at sürməyi və döyüş sənətini öyrədirdi. Oğlunun sevimli oyunları ox

atmaq, onları itiləmək və kamanı təmir etmək idi. Safiyə öz oğlunu mümkün olan müxtəlif təhlkəli və riskli vəziyyətlərə öyrəşdirdi. Qadın görəndə ki, oğlu bir şeydən yayınmaq istəyir və ya tərəddüd edir, dərhal onu ciddi şəkildə cəzalandırdı. Buna görə hətta bir dəfə uşağın əmilərindən biri onu qınadı. O, dedi: «Uşağı belə döymək olmaz. Sən onu çox sərt şəkildə cəzalandırırsan».

Buna cavab olaraq Safiyə söylədi: «Ona nifrət etdiyimi deyən yalan söylədi. Həqiqətən mən onun ağıllı olması üçün və bir ordunu darmadağın edib, qənimətlə qayıtması üçün cəzalandırıram».

* * *

Allah Peyğəmbəri ﷺ haqq və doğru dini ilə insanlara göndərəndə, ona çağırışı ilk öncə öz yaxınları və qohumlarından başlamağı əmr etdi. Rəsulallah ﷺ Əbdul-Muttalibin bütün nəslini – qadınları, kişiləri, qocaları və uşaqları bir yerə yığdı və dedi:

– Ey Fatimə bint Məhəmməd! Ey Safiyə bint Əbdul-Muttalib! Ey Bəni Əbdul-Muttalib! Mən sizə Allahdan heç nə vermirəm.

Sonra o, onların hamısını Allaha və öz peyğəmbərlik missiyasına iman gətirməyə dəvət etdi.

Onlardan bəziləri ilahi nura tərəf döndülər, digərləri isə ondan uzaqlaşdılar. Safiyə bint Əbdul-Muttalib ilk mömin olanların arasında idi. Məhz buna görə Safiyə həm öz nəcibliyi, həm də islama bağlılığı ilə tanındı.

* * *

Safiyə bint Abdul-Muttalib oğlu Əz-Zubeyr ibn Əl-Avvam ilə birgə Allahın nurlu yolu ilə getdi. Və bu yolda onlar bütün ilk müsəlmanlar kimi qureyşlilərin onlara qarşı törətdiyi zorakılıq, zülm və təhqirin acılığını dadmışdılar. Allah öz Peyğəmbərinə ﷺ və möminlərə onunla birgə Mədinəyə hicrət etməyə icazə verəndə haşimi xanım Məkkəni və onunla bağlı bütün xoş xatirələri, nailiyyətləri və qəhrəmanlıqları tərk edib, Mədinəyə yollandı ki, öz dini ilə birlikdə Allahın və Onun Rəsulunun yanına getsin.

* * *

Baxmayaraq ki, bu dahi qadın altmış ildən artıq gözəl hadisələrlə dolu həyat yaşamışdı, o, cihadda elə hünər göstərdi ki, onun haqqında tarix indiyədək heyrət və məmuniyyətlə danışır. Bütün bu qəhrəmanlıqlardan ikisini xatırlamaq kifayət edər.

* * *

Birincisi Uhud döyüşü zamanı, ikincisi isə iki ordu xəndək qarşısında görüşdüyü zaman baş vermişdir.

Safiyə müsəlmanların ordusu ilə birgə Allah yolunda cihad aparmaq üçün yürüşə çıxmış qadınların dəstəsində idi. O, döyüş meydanında su daşıyıb, susamışları içirdir, oxları itiləyir və kamanları döyüşə hazırlayırdı. Bütün bunlarla yanaşı qadın bir məqsədi güdürdü, o da hərbi əməliyyatın gedişatını izləməkdən ibarət idi...

Burada qəribə bir şey yox idi, çünki onun qardaşı oğlu Məhəmməd, Allahın Rəsulu ﷺ vuruşanların arasında idi. Həmçinin Allahın Aslanı ləqəbini qazanmış qardaşı Həmzə ibn Abdul-Muttalib və Rəsulallahın ﷺ sadiq şagirdi və davamçısı olan oğlu Əz-Zubeyr ibn Əl-Avvam da orada idilər.

Bununla yanaşı, Uhudda Safiyənin könüllü şəkildə qəbul etdiyi islamın müqəddaratı həll olunurdu.

* * *

Safiyə görəndə ki, müsəlmanların sıraları seyrəlib, Peyğəmbərin ﷺ yanında bir neçə döyüşçü qalıb və bütpərəstlər Peyğəmbərə ﷺ yaxınlaşıb, onu üldğrə bilərlər, dərhal əlindəki su dolçasını yerə atdı və balalarını qoruyan dişi aslan tək qəzəbləndi. Geri çəkilənlərin birinin əlindən nizəni alan Safiyə sıraları dağıdaraq və üzlərə zərbələr vuraraq irəli cumdu və müsəlmanlara qışqırdı:

– Vay halınıza! Siz Rəsulallahı tərk etdiniz, onu qoruya bilmədiniz!!!

Peyğəmbər ﷺ ona tərəf yaxınlaşan Safiyəni görəndə, qorxdu ki, o, öldürülmüş qardaşını, bədəni bütpərəstlər tərəfindən təhqir olunmuş Həmzəni görəcək. O, Safiyənin oğlu Əz-Zubeyrə dedi:

– Ey Zubeyr, qadın... Qadın, ey Zubeyr!

Əz-Zubeyr onun qabağına qaçaraq ona dedi:

– Get burdan ... Ana, çıx get burdan!

– Yoldan keç, sən, atasız yetim! – Safiyə onun üstünə qışqırdı.

– Rəsulallah sənə geri çəkilməyi əmr edir, – deyə oğlu ona etiraz etdi.

– Axı niyə?! – Safiyə qışqırdı. – Mənə xəbər verdilər ki, qardaşım Allah yolunda vuruşarkən onu təhqir ediblər...

Bu zaman Rəsulallah ﷺ dedi: «Ey Zubeyr, ona yol ver!» Və Zubeyr anasına keçməyə imkan verdi.

Döyüş bitdikdən sonra Safiyə qardaşı Həmzəni qarnı yarılmış, qara ciyəri qopardılmış, burnu və qulaqları kəsilmiş şəkildə tapdı. Onun sifəti isə eybəcər hala salınmışdır. Safiyə onun üçün məğfəriət dilədi və dedi:

– Bütün bunlar Allah üçündür, və mən Allahın ona yazdığı qismət ilə razıyam. Allaha and içirəm ki, mən sabit olacağam. Allah onun mükafatını versin.

Uhud döyüşündə Safiyə bint Əbdul-Muttalib özünü bu cür apardı.

* * *

İki ordunun müdafiə xəndəyi qarşısında görüşdüyü gün Safiyənin hərəkətlərinə gəldikdə isə bu barədə çox maraqlı bir əhvalat danışırlar. Bu əhvalat onun necə gözüaçıq, fərasətli və hünərli olduğunu göstərir. Həmin bu hekayə tarix kitablarında ifadə olunur.

* * *

Öz adəti üzrə hərbi yürüş təşkil etməyə hazırlaşan Rəsulallah ﷺ bütün qadınları və uşaqları qabaqcadan qala istehkamlarında yerləşdirirdi. O, qorxurdu ki, Mədinənin müdafiəçiləri yerlərində olmayan zaman düşmən şəhərə basqın edər.

İki ordu müdafiə xəndəyi qarşısında görüşəndə, Peyğəmbər ﷺ öz arvadlarını ailələri ilə birgə və başqa müsəlmanların arvadlarını, Hassan ibn Sabitin istehkamında yerləşdirdi. Hassana bu qala istehkamı öz əcdadlarından miras qalmışdır. Bu, Mədinədə ən möhkəm və əlçatmaz istehkam idi.

Həmin vaxt bütün müsəlmanlar qureyşlilərə və onların müttəfiqlərinə qarşı çıxaraq xəndəyin yanında idilər və düşmənlə mübarizə onları öz arvad-uşaqlarından yayındırmışdır. Sübh çağı Safiyə bint Əbdul-Muttalib bir nəfərin kölgəsini gördü. O öz gözlərini və qulaqlarını gücə salaraq diqqətini ona yönəltdi. Tezliklə o, qalaya yaxınlaşan bir yəhudini gördü.

Yəhudi qalanın içərisində baş verənləri diqqətlə izləyirdi. Safiyə anladı ki, bu adam öz qəbiləsinin casusudur və o, qalanın kişilər tərəfindən  qorunduğunu, yoxsa orada qadın və uşaqlardan başqa heç kəsin olmadığını müəyyən etməyə çalışır.

Qadın özü özünə dedi: «Bəni Qureyzə qəbiləsinin yəhudiləri Rəsulallah ilə olan müqaviləni pozaraq, qureyşlilərin və onların müttəfiqlərinin tərəfinə keçiblər. Bizim isə bir nəfər də olsun müsəlman müdafiəçimiz yoxdur. Rəsulallah ﷺ da bütün döyüş-çülərlə yanaşı xəndəyin yanında düşmən qarşısındadır. Əgər Allahın düşməni bizim vəziyyətimiz haqqındakı həqiqəti öz qəbiləsinə çatdırsa, o zaman yəhudilər bütün qadınları əsir alıb, uşaqları isə kölə edəcəklər, bu isə müsəlmanlar üçün böyük faciə olar.

Safiyə öz örtüyünü götürüb, onu başına atdı, tez geyindi, belini bağladı, kötəyi çiyninə qoyub, qalanın darvazasına endi. O, ehtiyatla, səs salmadan darvazanı açdı və qapının arasından Allahın düşməninə diqqətlə nəzarət etməyə başladı. Safiyə görəndə ki, casus yaxın məsafəyə keçdi, tez onun üstünə cümdu və kötəklə başına vurdu. Yəhudini yerə yıxandan sonra, onu ikinci və üçüncü dəfə kötəklə vurdu və düşmən can verdi.

Bundan sonra Safiyə özü ilə götürdüyü xəncərlə yəhudinin başını kəsib, onu qala divarından aşağı atdı. Kəllə qalanın dayandığı dağın enişi ilə diyirlənərək, aşağıda duran yəhudilərin əllərinə düşdü. Onlar öz kəşfiyyatçısının başını görəndə, bir-birinə dedilər:

«Biz bilirdik ki, Məhəmməd öz qadınlarını və uşaqlarını müdafiəsiz qoymaz». Bundan sonra onlar çıxıb getdilər.

* * *

Allah Safiyə bint Əbdul-Muttalibə qarşı lütfkar idi. Safiyə əsil müsəlman qadın nümunəsi idi. O, bircə oğlunu da ən gözəl tərzdə tərbiyələndirmişdi.

* * *

Döyüşdə qardaşını itirəndə bunu mətanətlə qəbul etdi.

* * *

Bütün ağır sınaqlardan o özünü qətiyyətli, ağıllı və qəhrəman bir qadın kimi göstərmişdir...

* * *

Tarixin ən gözəl səhifələrində yazılıb: «Safiyə bint Əbdul-Muttalib islamda ilk müsəlman qadın idi ki, bütpərəsti öldürmüşdür»[121].

* * *

---

[121] Safiyə bint Əbdul-Muttalib haqqında əlavə məlumat üçün bax:

1. «Əsəd əl-Qaba», 7/174;
2. «Əl-Təbəqat əl-Kubra», 8/41;
3. «Siyər ələm ən-nubələ», 2/193;
4. «Əl-İsabə», 348-ci səh;
5. «Əl-İstiəb», 4/345;
6. «Səməd əl-ləəli», 8, 1/18;
7. «Həyat əs-Səhabə», 1/154, həmçinin mündəricata bax;
8. «Əs-sıra ən-Həbəbiyə», İbn Hişam, mündəricata bax;
9. «Zeyl tarix ət-Təbəri», mündəricata bax;
10. «Əl-Kamil fi əl-Tarix», mündəricata bax;
11. «Ələm ən-Nisa», 2/143-643;
12. «Futuh əl-Buldan», Əl-Bələzri;
13. «Əl-Əqani», Əbu əl-Karc, mündəricata bax;
14. «Əl-Mustatrək, mündəricata bax;
15. «Əl-Məarif», İbn-Quteybə, mündəricata bax.

# UTBƏ İBN ĞAZVAN

*«Ütbə ibn Ğazvanın islamda xüsusi yeri var»*
Ömər ibn Əl-Xəttab

Əmirəl-möminin Ömər ibn Əl-Xəttab axşam namazından sonra yataq otağına getdi ki, qaravolçularla şəhəri gecə gəzməkdən qabaq bir az dincəlsin.

Amma xəlifənin gözünə heç yuxu gəlmirdi, çünki ona gəlmiş sonuncu məktubda deyilirdi: «Müsəlmanlar tərəfindən darmadağın olan fars orduları hər dəfə məğlub olmazdan qabaq hər yerdən kömək alaraq, öz döyüş bacarığını bərpa edir və hərbi əməliyyatları yenidən başlayırlar».

Məktubda həmçinin deyilirdi: «Farsların dağılmış qoşunlarını hərbi təchizatla əsasən Abilla[122] şəhəri təmin edir». Xəlifə Abillanı fəth etmək və farsları təmin edən bu mənbəyi ləğv etmək üçün qoşun göndərmək qərarına gəldi. Lakin o bu tapşırığı yerinə yetirmək üçün lazım olan qoşunların çatışmamazlığı problemi ilə qarşılaşdı.

Bu onunla izah olunur ki, bütün kişilər, qocalar və gənclər daxil olmaqla artıq Allah yolunda təşkil edilmiş uzaq hərbi yürüşlərdə idi. Mədinədə isə Ömərin kiçik dəstəsi qalmışdır.

Belə vəziyyətdə Ömər sınaqdan çıxarılmış və ona xas olan bir üsula əl atdı. Bu üsulun məğzi qoşunun çatışmayan sayını onun komandirinin gücü ilə kompensasiya etməkdən ibarət idi. Ömər fikirli halda öz komandirlərini bir-bir seçməyə başladı və birdən dedi:

– Mən onu tanıdım! Hə, mən onu tanıdım...

Yatağına girən Ömər özü-özünə deyirdi:

– Bu, Bədrdə, Uhudda, Xəndək qarşıdurmasında və başqa döyüşlərdə iştirak etmiş həqiqi mücahiddir...

O, Yəməmə yürüşündə və həmin o yürüş döyüşlərdə özünü gözəl göstərmişdir..., qılıncı və oxları hədəfdən yayınmaz...

O, Həbəşistana və Mədinəyə hicrətin iştirakçısı və həmçinin yer üzündə islamı ilk qəbul edənlər arasında yeddinci adam idi.

Səhər açılanda Ömər əmr etdi:

---

[122] Abilla – Əl-Bəsrəyə bilavasitə bitişik olan və onun hissəsi olan şəhər.

– Utbə ibn Ğazvanı çağırın gəlsin...

Utbə gələndə xəlifə ona üç yüz nəfərdən ibarət olan dəstənin komandiri bayrağını verdi... Bundan əlavə Ömər Utbəyə köməkçi qoşun gəldikdə onun yanına göndərəcəyini vəd etdi.

* * *

Müsəlmanların bu kiçik ordusu yürüşə çıxmağa hazır olanda Əl-Faruq gəldi ki, onu yola salsın və Utbəyə nəsihətlə müraciət etdi:

– Ya Utbə, mən səni düşmənin dayaqlarından biri olan Abillaya yollayıram. Allaha yalvarıram ki, sənə bu şəhəri dağıtmaqda kömək etsin.

Abillaya çatanda onun əhalisini Allahın dininə dəvət et. Onu qəbul edən hər kəsi rahat burax, imtina edənlərdən isə, azyaşlılara və tabelikdə olanlara görə cizyə al.

Əgər onlar həm birincisindən, həm də ikincisindən imtina etsələr, onda onlarla amansızcasına vuruş.

Ya Utbə, sənə tapşırılmış bu işdə Allahdan qorx. Lovğalığa düşməkdən çəkin, çünki bu sənə gələcək həyatında zəhər gətirər. Həmişə yadda saxla ki, sən Rəsulallahın ﷺ səhabəsi oldun və bununla Allah səni alçaqlıqdan sonra ucaltdı, sənə zəiflikdən sonra güc verdi. İndi sən insanların tabe olduğu, əmr verən rəhbər və hərbi komandan oldun. Sən danışanda hamı səni dinləyir, sən əmr edəndə isə hamı sənin əmrini yerinə yetirir. Əgər bundan sui-istifadə etməsən və hakimiyyətin xəyalına uymasan, bu nemət çox böyükdür. O, səni cəhənnəmə apara bilər!

* * *

Utbə ibn Ğazvan öz dəstəsi, arvadı və beş başqa qadın, döyüşçülərin arvadları və bacıları ilə birgə irəli gedirdi. Nəhayət, o, Abillanın yaxınlığında yerləşən sıx qamışlığa çatdı. Dəstənin yeməyə heç bir ərzağı qalmamışdır. Aclıq güclənəndə Utbə öz adamlarına əmr etdi: «Gedin və yeməyə bir şey tapın».

Döyüşçülər ərzaq dalınca getdilər və onların başına maraqlı bir əhvalat gəldi. Bunu şahidlərdən biri danışır:

«Biz yeməli bir şey axtarmaq məqsədilə ətrafda gəzirdik və sıx meşəliyə girəndə, orada iki səbət tapdıq. Səbətin birində xurma, digərində isə sarı qabığı olan ağ dənələr var idi. Biz səbətləri düşərgəmizə gətirdik. Döyüşçülərdən biri dən olan səbəti görüb dedi:

«Bu, düşmənin bizim üçün qoyduğu zəhərdir. Ona toxunmayın». Biz xürma yeməyə başladıq.

Bu zaman atlardan birinin ipi açıldı və at dən olan səbətə yaxınlaşıb, ondan yeməyə başladı. Allaha and içirəm ki, biz dərhal onu kəsmək və o, zəhərin təsirindən ölməmiş onun ətini yemək istədik.

Amma atın sahibi etiraz etdi. O, dedi: «Ona əl vurmayın! Mən bu gecə onun yanında olacağam. Onun can verdiyini görsəm, özüm onu kəsərəm».

* * *

Ertəsi gün biz gördük ki, həmin at sağ-salamatdır və onda zəhərlənmənin heç bir əlamətini aşkar etmədik. Bacım mənə dedi:

– Qulaq as, qardaş! Atam deyirdi ki, zəhərlənmiş ərzağı güclü od üstündə hazırlasan, zəhər öz təsirini itirər. Bundan sonra o, həmin naməlum dənələrdən balaca küpəyə töküb, altında böyük tonqal qaladı. Tezliklə bacım qışqırdı: Tez bura gəlin! Baxın, dənələr necə tünd rəng aldı!» O, dənələrin qəhvəyi rəng almış qabığını təmizlədi və ağ dənələri çıxartdı. Sonra biz onları qaba tökdük. Utbə bizə dedi: «Allahın adıyla bunu yeyin. Biz dənələrin dadına baxıb gördük ki, onlar çox dadlıdırlar. Sonradan öyrəndik ki, bu düyü imiş».

* * *

Abilla Dəclə çayının sahilində yerləşən qala-şəhərdən ibarət idi.

Farslar bu şəhəri özləri üçün topxana etmişdilər, onun qüllələrində isə nəzarət postları qurmuşdular ki, düşmənlərin gəlməyini izləyə bilsinlər. Lakin qoşunun sayının az olması və onun silahlanmasının zəif olması Utbəyə bu qalanı fəth etməyə mane olmadı. Dəstədə altı yüzdən az döyüşçü var idi, onları qadınlardan ibarət

kiçik qrup müşayiət edirdi və onlarda yalnız qılınclar və nizələr var idi. Buna görə də ağlın bütün gücünü istifadə etmək lazım idi.

Qadınlar üçün bayraqlar hazırlayan Utbə onları nizələrə bağlayıb, qadınlara ordunun arxasınca gəlməyi əmr etdi. O, onlara dedi:

– Biz şəhərə yaxınlaşan zaman çoxlu toz-torpaq qaldırın, qoy o, havada görünsün.

Utbənin dəstəsi Abillaya yaxınlaşanda düşmən qoşununu görən farslar onların qarşısına çıxdı. Çoxsaylı bayraqları və havaya qalxan toz-torpağı görəndə isə bir-birinə dedilər: «İrəlidə gedən avanqarddır, onun arxasınca toz qaldıraraq böyük ordu gəlir. Bizim isə sayımız azdır». Farsların ürəklərinə qorxu doldu, təlaş onları bürüdü. Onlar tez-tələsik ən yüngül və qiymətli əşyalarını yığdılar və Dəclədə bənd atmış gəmilərinə minərək üzüb getdilər.

Əsgərlərindən bir nəfəri də olsun itirməyən Utbə Abillaya daxil oldu. Bundan sonra o, bütün ətraf şəhərləri və kəndləri fəth etdi. Utbə bu yürüşdə çətinliklə hesablanan qəniməti ələ keçirtdi. Utbənin döyüşçülərindən biri Mədinəyə qayıdanda adamlar ondan soruşdular:

– Hə, Abillada müsəlmanların vəziyyəti necədir?

– Siz nə haqda soruşursunuz?! – döyüşçü dedi. – Allaha and içirəm ki, mən onları tərk edəndə onlar qızılı da, gümüşü də çuvalla ölçürdülər.

Bu sözlərdən sonra çox adam Abillaya can atdı.

* * *

Belə bir vəziyyətdə Utbə ibn Ğazvan düşündü ki, onun əsgərləri fəth edilmiş şəhərlərdə qalsalar, naz-nemətli həyata öyrəşəcəklər, onların əqidəsi bu ölkənin sakinlərinin əqidəsinə bənzəyəcək və bu da onların hərbi əməliyyatları davam etdirmək qətiyyətini zəifləDəcək. Ona görə də o, Ömər ibn Əl-Xəttaba yazdığı məktubda Əl-Bəsrənin tikintisinə başlamaq üçün icazə istədi və bunun üçün seçdiyi yeri təfsilatı ilə təsvir etdi. Ömər bu tikintiyə icazə verdi.

* * *

Utbə yeni şəhəri layihələşdirəndən sonra ilk öncə şəhərin baş məscidini tikdi. Burada qəribə heç nə yoxdur, çünki Utbə və onun yoldaşları məhz bunun üçün Allah yolunda yürüşə çıxmışdılar. Məhz bu ibadət yeri sayəsində Utbə və onun döyüşçüləri Allahın düşmənləri üzərində qələbə çalmağa nail oldular. Sonra döyüşçülər öz aralarında torpağı bölüşdürməyə və evlər tikməyə başladılar... Amma Utbə özü üçün ev tikmədi, öz çadırında yaşamağa davam etdi, çünki beynində yeni fikirlər var idi.

* * *

Utbə fikir verdi ki, Bəsrədə dünya nemətləri müsəlmanlara elə təsir etdi ki, onlar özlərini unutmağa başladılar. Onun hələ dünənə qədər qabıqla bişmiş düyüdən daha gözəl qida bilməyən adamları, ballı pastila[123], badam piroqları və başqa delikatesləri dadıb, onlara həddindən artıq meyl göstərdilər.

Utbə öz dininə gürə ciddi şəkildə qorxmağa başladı. O, dünya həyatının gələcək həyata üstün gəlməsindən çəkinirdi. Əl-Kufə məscidində insanları bir yerə toplayan Utbə onlara xütbə ilə müraciət etdi. O, dedi:

– Ey insanlar! Dünya həyatı keçicidir və o öz sonuna yaxınlaşır. Bu həyatdan sonra siz əbədi həyat məkanına köçəcəksiniz. O həyata xoş əməllərinizlə qədəm basın. Mən Rəsulallah ﷺ ilə birgə müsəlmanların yeddincisi idim. Bizim yeməyimiz ağacların yarpaqları idi; bundan dodaqlarımızda yaralar əmələ gəlmişdi. Günlərin bir günü tapdığım plaşı iki hissəyə bölməli və Sad ibn Əbu Vaqqasla bölüşməli oldum. Plaşın bir yarısına mən, o biri yarısına isə Sad büründü. İndi isə mən görürəm ki, hər biriniz özünüzü kiçik əyalətin canişini kimi hiss edirsiniz. Allah bizi öz qəlbimizdə böyük və Onun yanında kiçik olmaqdan qorusun.

* * *

Bundan sonra Utbə onların arasında başçı təyin edərək öz adamlarıyla vidalaşdı və Mədinəyə yollandı.

Əl-Faruqun yanına gələn Utbə ona canişinlik vəzifəsindən azad

---

[123] Pastila- qəndlə meyvə horrasından hazırlanmış şirniyyat.

olmaq xahişi ilə müraciət etdi. Amma xəlifə ona bunu etməyə icazə vermədi. Utbə nə qədər xahiş etsə də, xəlifə qərarından dönmədi və ona Bəsrəyə qayıtmağı əmr etdi. Utbə həvəssiz halda Ömərin əmrinə tabe oldu. Dəvəsinin belinə minən Utbə dyirdi: «Ya Allah, mənə Bəsrəyə qayıtmağa imkan vermə! Ya Allah, mənə Bəsrəyə qayıtmağa imkan vermə!»

Allah onun duasını qəbul etdi, çünki hələ Mədinə yaxınlığında onun dəvəsi büdrədi, və Utbə yerə düşüb, can verdi...[124]

* * *

[124] Utbə ibn Ğazvan haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə», 2/455;
2. «Əl-İstiəb», 3/113;
3. «Tarix əl-İslam», Əz-Zəhəbi, 2/7;
4. «Əsəd əl-Qaba», 3/363;
5. «Tarix xəlifə ibn Həyat», 1/95-98;
6. «Əl-Bidayə va ən-Nihayə», 7/48;
7. «Muğam əl-Buldan», Bəsrə haqqında olan yer, 10/430;
8. «Əl-Təbəqat əl-Kubra», İbn Sad, 7/1;
9. «Tarix ət-Təbəri», 10-cu hissənin mündəricatına bax;
10. Siyər ələm ən-Nübələ», 1/221-222;
11. «Həyat əs-Səhabə», 4-cü hissənin mündəricatına bax.

# NUEYM İBN MƏSUD

*«Nueym ibn Məsud – müharibənin aldatmaq olduğunu bilən adamdır».*

Nueym ibn Məsud həssas ürəyə malik, iti ağlı və fərasəti ilə fərqlənən gənc idi. Heç bir məsələ və ya çətin problem onu çıxılmaz vəziyyətə qoyub pərt etmirdi. O əsil səhra övladı idi; Allah ona düzgün qərarlar vermək qabiliyyətini, zirəklik və fərasət bəxş etmişdir. Lakin o, dünya ləzzətlərinin və nəşələrinin düşgünü idi və bunları Yəsribdə, yəhudilərin yanında tapmağa can atırdı. Hər dəfə onun qəlbi musiqiyə və ya mahnılara ehtiyac duyanda o öz yaxınlarını Nəcddə saxlayıb Mədinəyə can atırdı; orada yerli yəhudilərə çoxlu pul verirdi ki, onlar ona müxtəlif əyləncələr təqdim etsinlər...

Bu səbəbdən Nueym tez-tez Mədinədə olurdu və onun oradakı yəhudilərlə, xüsusilə də Bəni Qureyzə qəbiləsi ilə sıx əlaqələri var idi.

* * *

Allah öz Peyğəmbərini ﷺ insanlara göndərəndə, bu din Məkkənin hər tərəfini işıqlandırdı. Nueym ibn Məsud isə yenə də öz əyləncələrinə uymaqda davam edirdi. O, kəskin şəkildə yeni dinə qarşı çıxdı. Nueym qorxurdu ki, bu din onun adət etdiyi dünya sevinclərindən və ləzzətlərindən məhrum edər. Tezliklə o, aşkar etdi ki, İslamın ən qatı düşmənlərinə qoşulmalı və ona qarşı öz qılıncını qaldırmalı oldu.

* * *

Lakin Əl-Əhzab vuruşması günü Nueym ibn Məsud islam dəvətinin tarixində özü üçün yeni səhifə açdı və bu səhifədə o, hərbi hiylələr haqqında ən gözəl əhvalat yazdı. Tarix indiyənədək heyrət və təəccüblə bizə bu hekayənin təfsilatını çatdırır və onun qəhrəmanının dərrakəsi qarşısında baş əyir.

* * *

Nueym ibn Məsudun əhvalatını danışmazdan əvvəl bir qədər geriyə qayıtmalıyıq.

Əl-Əhzab döyüşündən qabaq Bəni Ən-Nudeyr qəbiləsinin yəhudi icması fəallaşmışdı. Onun başçıları Rəsulallahla ﷺ müharibə və onun dininin ləğvi məqsədilə qruplaşmalar yaratmağa başladılar...

Onlar Məkkəyə qureyşlilərin yanına gələrək, onları müsəlmanlara qarşı çıxmaq üçün qızışdırmağa başladılar. Yəhudi başçıları qureyşlilərə onlar Mədinəyə çatdığı zaman onların tərəfinə keçəcəyini vəd etdilər. Danışıqlar bu yürüşün dəqiq müəyyən edilmiş tarixinin təyini ilə bitdi.

Sonradan yəhudilər Nəcddə, Ğatafan qəbiləsinə gəldilər, onları islama və onun Peyğəmbərinə qarşı çıxmağa, bu yeni dini kökündən məhv etməyə çağırdılar. Yəhudilər onlara qureyşlilərlə olan razılaşma haqqında xəbər verərək, qatafanilərə də eyni şeyi vəd etdilər və yürüşün vaxtını da onlara dedilər.

* * *

Bütün qureyşlilər, atlılar və piyadalar, Əbu Süfyan ibn Harbın başçılığı ilə Mədinəyə yollandılar. Həcddən isə tam hərbi təchizatla qatafanilər Uyeynə ibn Hısnın rəhbərliyi ilə yürüşə çıxdılar. Bizim hekayəmizin qəhrəmanı Nuheym ibn Məsud qatafanilərin qoşununun avanqardında idi.

Rəsulallah ﷺ biləndə ki, düşmənin qoşunları Mədinəyə yaxınlaşır, öz səhabələrini bir yerə yığdı ki, bu vəziyyətlə əlaqədar olaraq məsləhətləşsin. Bu iclasda ordunun şəhərə hücumunun qarşısını almaq məqsədilə Mədinənin ətrafında müdafiə xəndəyi qazmaq qərarı qəbul olundu. Bu xəndək istilaçı ordunun yolunda dəfedilməz maneə olmalı idi.

* * *

Məkkə və Nəcddən gələn iki düşmən ordusu Mədinə yaxınlığında olarkən, Bəni Nudeyr yəhudilərinin başçıları Mədinədə yaşayan Bəni Qureyzə yəhudilərinin başçılarının yanına gedib, onları Peyğəmbərə ﷺ qarşı hərbi əməliyyatlar aparmağa təhrik etdilər. Onlar yerli yəhudiləri Məkkədən və Nəcddən gələn

qoşunlara yardım etməyə çağırırdılar. Bəni Qureyzənin başçıları onlara dedilər:

– Bizə dediyiniz bizim üçün xoş və gərəklidir. Amma siz bilirsiniz ki, Məhəmmədlə aramızda müqavilə bağlanıb. Ona əsasən biz Məhəmmədlə sülh və mehriban qonşuluq əlaqələrini qorumalıyıq ki, bu da bizim Mədinədəki təhlükəsiz həyatımızın zəmanətidir. Siz həmçinin bilirsiniz ki, bu müqavilə hələ yenicə yazılıb.

Məhəmməd bu müharibədə qələbə çalsa, onun bizə güclü zərbə vuracağından və ona etdiyimiz xəyanətə görə bizi Mədinədən bir-bir qovacağından qorxuruq.

Lakin Bəni Ən-Nudeyr qəbiləsinin başçıları yerli yəhudiləri Məhəmmədə xəyanət etməklə qazanacaqları xeyirlə şirnikləşdirərək, onları öz öhdəçiliyini pozmağa meylləndirdilər. Bununla yanaşı, onlar iddia edirdilər ki, bu dəfə Məhəmmədi qaçılmaz və sarsıdıcı məğlubiyyət gözləyir. Başçılar öz sözlərini iki böyük ordunun gəlməsi haqqındakı xəbərlərlə əsaslandırırdılar. Nəhayət, Bəni Qureyzə qəbiləsinin yəhudiləri buna razılıq verdilər və Rəsulallah ﷺ ilə bağladıqları müqaviləni pozdular. Bu razılaşmanın mətnini tapdalayan yəhudilər, Peyğəmbərin ﷺ düşmənləri tərəfindən çıxış etdilər.

* * *

Bu xəbər müsəlmanlar üçün ildırım zərbəsi kimi idi. Müttəfiqlərin qoşunları, ərzaq və başqa ehtiyatların gəldiyi yolları kəsərək, Mədinəni təcrid etdilər. Rəsulallah ﷺ hiss etdi ki, düşmənin qısqacına düşüb.

Mədinənin ətrafında bayır tərəfdən qureyşlilər və qatafanilər düşərgə saldılar. Mədinənin özündə isə müsəlmanların arxasında qureyzlilər hazır vəziyyətdə həmlə üçün rahat münasib vaxtı gözləyirdilər.

Elə həmin vaxt münafiqlər və qara-qəlbli adamlar öz əslini və gizli fikirlərini açmağa başladılar. Onlar deyirdilər: «Məhəmməd bizə vəd vermişdir ki, biz Xosrovun və roma imperatorunun xəzinələrinə sahib çıxacağıq, amma indi iş o yerə çatıb ki, bizlərdən heç kəs hətta ayaqyolunda belə özünü təhlükəsizlikdə hiss etmir!

Sonra onlar dəstə-dəstə Peyğəmbəri ﷺ tərk etməyə başladılar. Onlar müharibə başlananda müdafiəsiz qalmış evlərinə və uşaqlarına qureyzlilərin hücum edəcəklərini bəhanə gətirirdilər. Nəticədə Rəsulallahın ﷺ yanında cəmi bir neçə yüz həqiqi mömin qaldı.

İyirmi gündən artıq davam edən mühasirənin gecələrinin birində Rəsulallah ﷺ ehtiyac içində olan bir insan kimi Allaha müraciət etdi. O öz duasında təkrar edirdi: «Allahım, yalvarıram, Sənin vəd etdiyin yardımı mənə göndər... Allahım, yalvarıram, Sənin vəd etdiyin yardımı mənə göndər»...

* * *

Həmin gecə Nueym ibn Məsud narahat halda öz yatağında fırlanırdı və heç cür yata bilmirdi. O, göy üzündə yavaş-yavaş hərəkət edən ulduzları seyr edirdi. Birdən öz qəlbinin səsini eşitdi: «Vay halına, ya Nuheym! Uzaq Nəcddən səni bura, bu adam və onun tərəfdarları ilə vuruşmağa hansı qüvvə gətirib. Sən onlarla qəsb edilmiş hüququn bərpası naminə və ya təhqir edilmiş namusa görə intiqam almaq üçün vuruşmursan. Sən bura onunla heç bir səbəb olmadan döyüşmək üçün gəlmisən. Sənin kimi dərrakəli insana, heç bir əsası olmadan öldürmək və ya öldürülmək yaraşarmı? Vay halına, ya Nueym... Səni öz tərəfdarlarına ədalətli, əməlisaleh olmağı və yaxınlara yardım göstərməyi əmr edən bu mömin insana qarşı öz qılıncını qaldırmağa məcbur edən nədir?! Öz nizəni onun silahdaşlarının qanı ilə bulamağı səni vadar edən nədir?!

Nueymin öz qəlbi ilə gedən bu gərgin daxili dialoqun nəticəsində onun yubanmadan həyata keçirmək istədiyi sabit və son qərar meydana çıxdı.

* * *

Gecənin qaranlığından istifadə edən Nueym ibn Məsud öz qoşunlarını tərk edib, Rəsulallahın ﷺ yanına yollandı. Onu öz qarşısında görən Peyğəmbər ﷺ soruşdu: «Nueym ibn Məsud?!»

– Bəli, ya Rəsulallah! – Nueym cavab verdi.

– Səni bu saatda bura gətirən nədir?! – Peyğəmbər ﷺ soruşdu.

– Mən gəldim şəhadət verəm ki, Allahdan başqa tanrı yoxdur və

həqiqətən, sən Allahın qulu və Onun Elçisisən. Sənin gətirdiyin haqdır, – Nueym bəyan etdi. – Mən İslam dinini qəbul etdim, ya Rəsulallah, amma mənim xalqım bunu bilmir. Lazım bildiyini mənə əmr et...

Rəsulallah ﷺ dedi:

– Sən bizim aramızda təksən... Öz adamlarının yanına get və bacarsan, çalış onların bizimlə vuruşmaq həvəsini öldür, axı müharibə – aldatmaqdır.

– Bəli, ya Rəsulallah, – Nueym cavab verdi. – İnşallah, səni sevindirəcək xəbəri tezliklə biləcəksən.

* * *

Bundan sonra, Nueym ibn Məsud Bəni Qureyzə qəbiləsinin yanına yollandı. Qureyzlilərlə görüşən Nureym onlara dedi:

– Ya Bəni Qureyzə, siz həmişə mənim sizə qarşı olan məhəbbətim və sizə verdiyim məsləhətlərin səmimiliyi haqqında bilirdiniz.

– Hə, səni nədəsə təqsirləndirməyə heç bir əsasımız yoxdur, – onlar dedilər.

– Bu müharibədə qureyşlilər və qatafanilər sizdən daha fərqli vəziyyətdədirlər, – Nueym dedi.

– Necə yəni? – ondan soruşdular.

Nureym cavab verdi:

– Bu, sizin ölkənizdir, burada sizin əmlakınız, arvad-uşağınız var və siz başqa yerə köçə bilməzsiniz. Qureyşlilərə və qatafanilərə gəldikdə isə, onların torpaqları əmlakı və arvad-uşaqları buradan çox uzaqdadır. Onlar üçün bu yad ölkədir...

Onlar buraya, Məhəmmədlə vuruşmağa gəldilər, sizi ona verdiyiniz öhdəçiliyi pozmağa və onlara bu müharibədə kömək etməyə çağırdılar. Siz də buna razı oldunuz. Onlar Məhəmmədə qalib gəlsələr, böyük qənimət əldə edəcəklər, məğlubiyyətə uğrasalar isə öz vətəninə sağ-salamat qayıdacaqlar, sizi isə onun ixtiyarına buraxacaqlar. Təbii ki, Məhəmməd sizdən qəddarcasına intiqam alacaq. Axı siz yaxşı bilirsiniz ki, onun qarşısında durmağa kifayət qədər gücünüz yoxdur.

– Sən haqlısan, – qureyşlilər dedilər. – İndi sən nə təklif edirsən?

Nueym dedi:

– Mən hesab edirəm ki, onlar sizə adlı-sanlı adamlarını göndərməyənədək və siz həmin adamları girov götürməyənədək, onların tərəfində vuruşmamalısınız. Bununla siz onları, qələbə çalanadək ya da sizin və onların sonuncu döyüşçüləri həlak olanadək öz tərəfinizdə Məhəmmədə qarşı vuruşmağa məcbur edərsiniz.

– Sən bizə yaxşı məsləhət verdin, – qureyzlilər dedilər.

Nueym onları tərk edib, dərhal qureyşlilərin qoşununa başçılıq edən Əbu Süfyan ibn Harbın yanına gəldi. Nueym ona və onun adamlarına müraciət edərək dedi:

– Ey qureyşlilər, mənim sizə olan məhəbbətim və Məhəmmədə olan pis münasibətim haqqında həmişə bilirdiniz. Mənə elə bir xəbər deyiblər ki, mən onu sizə deməliyəm. Amma sizdən xahiş edirəm, bunu sirr olaraq saxlayasınız və mənim dediklərimi heç kəsə deməyəsiniz.

Nueym davam etdi:

– Bəni Qureyzə camaatı Məhəmmədlə etdiyi düşmənçiliyinə görə peşman olub, ona bu sözləri çatdırdılar: «Biz etdiyimizə görə tövbə edirik və öhdəçiliyimizi bərpa edib sənə tabe olmaq qərarına gəldik. Əgər biz qureyşlilərdən və qatafanilərdən bir dəstə sanballı adam tutub, sən onları edam edəsən deyə, sənə versək, bu səni qane edərmi? Bundan sonra biz onlara qarşı müharibədə sənə qoşularıq və onları məhv edərik».

Məhəmməd də buna razı olduğunu dedi. Ona görə də əgər yəhudilər sizdən girov saxlamaq üçün adamlarınızı onlara göndərməyinizi xahiş etsələr, onlara heç kəsi verməyin.

Əbu Süfyan ucadan dedi:

– Sən yaxşı müttəfiqsən. Bunun xeyrini görərsən.

Bundan sonra Nueym öz qəbiləsinə qayıdıb Əbu Süfyana danışdıqlarını onlara da danışdı və eyni xəbərdarlığı onlara etdi.

* * *

Əbu Süfyan Bəni Qureyzə qəbiləsinin adamlarını yoxlamaq üçün oğlunu onların yanına yolladı. O, onlara dedi:

– Atam sizə salam deyir və bu sözləri sizə çatdırır: «Məhəmmədin və onun tərəfdarlarının mühasirəsi çox uzun çəkdi və bu, bizi darıxdırdı. Biz Məhəmmədə qarşı hərbi əməliyyatlara

başlamaq qərarına gəldik ki, özümüzü onun ağırlığından qurtaraq. Atam sabah sizi müştərək çıxışa dəvət edir.

Qureyzlilər ona cavab verdilər:

– Bu gün şənbədir, biz isə şənbə günləri heç nə eləmirik. Həm də əgər siz özünüzdən və qatafanilərdən yetmiş sanballı adam bizə girov kimi versəniz, biz sizin tərəfinizdə vuruşacağıq. Biz qorxuruq ki, əgər vuruşma sizin üçün əlverişli olmasa, siz evinizə qayıdıb, bizi Məhəmmədlə mübarizədə tək qoyacaqsınız. Axı, siz bilirsiniz ki, biz özümüz onun öhdəsindən gələ bilmərik...

Əbu Süfyanın oğlu qayıdıb öz adamlarına qureyzlilərin sözlərini çatdıranda, hamı bir nəfər kimi qışqırdı:

– Rədd olsunlar! Allaha and içirəm ki, əgər onlar hətta bir qoyun girov istəsələr də, onu almayacaqlar!

* * *

Beləliklə, Nueym ibn Məsud müttəfiqlərin arasında ixtilaf və ədavət saldı.

Allah isə qureyşlilərin və onların əlaltılarının üstünə tufan göndərdi. Güclü külək onların çadırlarını sökdü, qazanlarını çevirdi və tonqallarını söndürdü. O, onların üzlərinə və gözlərinə qumu çırpırdı.

Qureyşlilərin mühasirəni ləğv edib, getməkdən savayı başqa yolu qalmamışdı. Onlar gecənin qaranlığından istifadə edərək geri çəkildilər.

Səhər müsəlmanlar görəndə ki, Allahın düşmənləri döyüş meydanını tərk edib, sevincdən qışqırmağa başladılar:

– Öz bəndəsinə kömək edən, döyüşçülərini qüvvətləndirən və müttəfiqləri məğlub edən Allaha həmd olsun!..

* * *

Həmin gündən etibarən Nueym ibn Məsud Rəsulallahın ﷺ mötəbər adamı oldu. Peyğəmbər ﷺ onu rəhbər təyin edir, ona məsul məsələləri etibar edir və qoşunlara başçılıq etməyi tapşırırdı.

Məkkənin fəthi günü müsəlmanların ordusunu izləyən Əbu Süfyan ibn Harb Qatafan qəbiləsinin bayrağını daşıyan adama diqqət yetirdi. O öz adamlarından soruşdu:

– Bu kimdir?

– Nueym ibn Məsud, – ona cavab verdilər.

– O, xəndək döyüşü günlərində bizə nə qədər pislik edib! – Əbu Süfyan qışqırdı. – Allaha and olsun ki, o, Məhəmmədin ən qatı düşmənlərindən biri idi... Və budur, indi o, onun ordusunda öz qəbiləsinin bayrağını daşıyaraq, onun tərəfində bizə qarşı döyüşmək istəyirdi[125].

* * *

[125] Nueym ibn Məsud haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə», 3/568;
2. «Əl-İstiəb», 5/558;
3. «Əsəd əl-Qaba», 5/348;
4. «Ənsab əl-Əşraf», 340, 345;
5. «Əs-sıra ən-nəbəviyə», İbn Hişam, mündəricata bax.
6. «Həyat əs-Səhabə», 4-cü hissənin mündəricatına bax.

# XABBAB İBN ƏL-ARATT

*«Allah Xabbaba rəhm etdi; o, könüllü surətdə islam dinini qəbul etdi, həvəslə mühacir oldu və mücahid həyatını yaşadı».*
Əli ibn Əbu-Talib

Huzailərdən olan Umm Anmar adlı qadın Məkkədəki qullar bazarına yollandı. O özünə müxtəlif işlərin görülməsi üçün və onun əməyindən pul çıxarmaq üçün bir nökər almaq istəyirdi. O, bazarda kölələrə baxan zaman, onun diqqətini bir oğlan cəzb etdi. Bu uşağın möhkəm bədən quruluşu və ifadəli sifəti var idi. Umm Anmar ona görə pul verib, oğlanı götürdü və evə qayıtdı. Yolun bir hissəsini keçdikdən sonra Umm Anmar dönüb, oğlandan soruşdu:

– Adın nədir?

– Xabbab, – o, cavab verdi.

– Bəs atanın adı? – Umm Anmar maraqlandı.

– Əl-Aratt, – oğlan dedi.

– Özün hardansan?

– Nəcddən.

– Deməli, sən əsil ərəbsən!

– Bəli, mən Bəni Təmim qəbiləsindənəm.

– Bəs qul alverçilərinin əllərinə necə keçmisən?!

–Bədəvilər kəndimizə hücum edib, qoyunlarımızı oğurladılar, qadınlarımızı əsir aldılar və uşaqları da özləri ilə götürdülər. Mən əsir düşmüş uşaqların arasında idim və Məkkəyə çatanadək əldən ələ keçirdim.

* * *

Umm Anmar öz yeni nökərini məkkəli dəmirçi-silah qayıranın yanına göndərdi ki, o, qılınc düzəltməyi öyrənsin. Ağıllı oğlan bu sənəti tez qavradı.

Xabbab böyüyüb yaşa doldu. Umm Anmar onun üçün emalatxana kirayələdi, lazımi alətləri aldı və onun qılınc düzəltmək bacarığından gəlir əldə etməyə başladı.

* * *

Tezliklə Xabbab Məkkədə tanındı və hamı onun şəxsən düzəltdiyi qılıncları almağa can atırdılar, çünki o, özünü əqidəli, düzgün və bacarıqlı zəhmətkeş kimi göstərdi.

* * *

Xabbab öz cavanlığına baxmayaraq, qoca adamın dərrakəsi və müdrikliyi ilə fərqlənirdi.

O, işlərini bitirəndən sonra, başdan ayağa qədər nöqsanlar içində batmış bu cahil cəmiyyət haqqında tez-tez fikirləşirdi.

Ərəblərin o vaxtkı həyatının cahilliyi və cəhalətpərəstliyi onu dəhşətə gətirirdi.

O özü də bu həyatın qurbanlarından biri idi. Xabbab öz-özünə deyirdi: «Bu zülmət gecə nə vaxtsa bitəcək...».

O, o vaxta qədər yaşayıb, bu zülmətin bitməsini və işığın yaranmasını görmək istəyirdi.

* * *

Xabbab çox gözləməli oldu. O, Məhəmməd ibn Abdullah adlı haşimili gəncin dilindən nurun hər yerə şəfəq saçdığının şahidi oldu.

Xabbab onun yanına getdi, onu dinlədi və bu nitqlər Xabbabı öz parıltısı ilə heyran edib qəlbini nurlandırdı. Xabbab əlini Məhəmmədə uzadaraq şəhadət verdi ki, Allahdan başqa Tanrı yoxdur, və Məhəmməd Onun qulu və Onun Elçisidir.

Beləliklə, o, yer üzündə islam dinini qəbul etmiş altıncı adam oldu. Hətta deyirlər: «Bir müddət Xabbab islamın altıncı hissəsi olub...»

* * *

Xabbab öz yeni dinini heç kəsdən gizlətmirdi. Umm Anmar bu haqda bilən kimi çox qəzəbləndi. O, qardaşı Sibaa ibn Əbdul-Uzzanı özüylə götürüb, Xabbabın yanına getdi. Yolda Huzai qəbiləsinin gəncləri də onlara qoşuldu. Onlar Xabbabın yanına gələndə, onun işlə məşğul olduğunu gördülər.

Sibaa ona dedi:

– Biz sənin haqqında elə bir xəbər eşitmişik ki, hətta ona inana bilmədik.

– Bu nə xəbərdir elə? – Xabbab maraqlandı.

Sibaa dedi:

– Deyirlər, sən kafir olmusan, öz dinini rədd etmisən və sonra da Bəni Haşim nəslindən olan bir adamın tərəfdarı olmusan.

Xabbab sakitcə etiraz etdi: «Mən heç də kafir olmamışam. Mən şəriki olmayan Tək Allaha iman gətirdim. Mən sizin bütlərinizdən imtina edib şəhadət verdim ki, Məhəmməd Allahın qulu və Onun Elçisidir...

Sibaa və onunla gələnlər Xabbabın dediklərini anlayan kimi, onun üstünə cumub, onu əl-ayaqla və həmçinin emalatxanada olan dəmir parçaları, çəkicləri və başqa şeylərlə döyməyə başladılar.

Bu, qana boyanmış Xabbab yerə yıxılanadək davam etdi.

* * *

Umm Anmarın öz nökərinə qarşı bu hərəkəti haqqında söhbətlər bütün Mədinəyə yayıldı. İnsanlar Xabbabın mərdliyinə valeh olmuşdular, çünki indiyədək Məhəmmədin tərəfdarlarından heç biri islama keçdiyini insanlara belə açıq-aşkar bəyan etməmişdir.

Qureyş ağsaqqalları Xabbabın əhvalatından sarsıldılar, çünki onlar düşünmürdülər ki, Umm Anmarın nəsilsiz və köməksiz dəmirçisi belə cəsarətli olub, onların sabit hakimiyyətinə qəsd etmək, Tanrılarını söymək və ata-babalarının dinini təhqir etmək dərəcəsinə çatar. Onlar anladılar ki, bu hələ başlanğıc idi.

Qureyşlilər öz fərziyyələrində səhv etmədilər. Xabbabın cəsarəti onun yoldaşlarının çoxusunu islama keçməsini açıq-aşkar bəyan etməyə vadar etdi və onlar bir-birinin ardınca həqiqəti elan etdilər.

* * *

Kəbənin divarları qarşısında yığılmış qureyşlilər başda Əbu Süfyan ibn Harb, Əl-Valid ibn Əl-Muqira və Əbu-Cəhl ibn Hişam olmaqla Məhəmmədlə bağlı vəziyyəti müzakirə etməyə başladılar.

Onlar hesab etdilər ki, bu iş gündən-günə, saatbasaat ağırlaşaraq, təhlükəli şəkil alır.

Nəticədə başçılar bu xəstəliyi, o, müalicə olunmayan dərəcəyə çatanadək məhv etmək qərarına gəldilər. Hər nəsil, Məhəmmədin tərəfdarlarını onlar öz yeni dinindən imtina edənədək ya da ölənədək hər cür təqib və zülm etməli idi.

* * *

Xabbaba işgəncə vermək Sibaa ibn Əbdul-Uzzaya və onun adamlarına tapşırıldı. Günorta çağı günəşin yandırıcı şüaları torpağı qızdırdığı zaman Xabbabı Məkkə meydanına gətirdilər, onun əynindən geyimini çıxartdılar, dəmir zirehlərlə bəzədilər və ona su verməyi qadağan etdilər. Xabbab tamamilə əldən düşəndə ondan soruşdular:

– Hə, Məhəmməd haqqında indi nə deyəcəksən?

Xabbab cavab verdi:

– O, Allahın qulu və Onun Elçisidir. O, bizi zülmətdən işığa çıxarmaq üçün həqiqi din ilə gəlib.

İşgəncə verənlər onu qəddarcasına döyəndən sonra soruşdular:

– Bəs Əl-Lat və Əl-Uzza haqqında nə deyəcəksən?

Xabbab cavab verdi:

– Onlar kar və kor büt-heykəllərdir. Onlardan nə xeyir var, nə də ziyan.

Qureyşlilər bərk qızdırılmış daşları gətirib, Xabbabın kürəyinə qoydular və onun bişmiş çiyinlərindən piy tökülənədək, onları orada saxladılar.

* * *

Umm Anmar özü Xabbaba qarşı qardaşı Sibaadan heç də ürəyiyumşaq deyildir. O, bir dəfə gördü ki, emalatxananın yanından keçən Rəsulallah ﷺ Xabbab ilə söhbət etdi və bundan qəzəbə gəldi.

Bundan sonra o, hər gün Xabbabın yanına gələrək kürədən qızmış dəmir parçalarını götürürdü və onun başına qoyurdu; onlar tüstülənirdi, Xabbab isə huşunu itirirdi.

O, Umm Anmarı və onun qardaşı Sibaanı lənətləyirdi.

* * *

Rəsulallah ﷺ öz səhabələrinə Mədinəyə köçməyə icazə verəndə, Xabbab yola hazırlaşmağa başladı.

O, hələ Məkkəni tərk etməmişdir ki, Allah onun Umm Anmara etdiyi lənətləri qəbul etdi. Qəfildən Umm Anmarın başından şiddətli və ağlasığmaz ağrı qopdu. Ağrı elə güclü idi ki, qadın onun əlindən it kimi zingildəyirdi...

Onun övladları onun üçün həkim axtarmağa cumdular və nəhayət onlara dedilər: «O yalnız başını dağlamağa razılıq versə, o zaman ağrılardan qurtular».

Umm Anmarın başını qızdırılmış dəmirlə dağladılar və bu dəhşətli ağrı onu əvvəlki ağrıları unutmağa məcbur edirdi.

* * *

Mədinədə ənsarların qonaqpərvərliyini və səmimiliyini görən Xabbab ilk dəfə idi ki, əmin amanlığın ləzzətini hiss edirdi. O, uzun müddət ərzində belə arxayınlıqdan məhrum olmuşdur. O öz Peyğəmbəri ﷺ ilə maneəsiz ünsiyyətdə olduğu üçün xoşbəxt idi.

O, nəcib Peyğəmbər ﷺ ilə birgə Bədr döyüşündə iştirak edirdi.

Xabbab Peyğəmbər ﷺ ilə birgə Uhuda yürüşə çıxdı və orada öz gözləriylə Umm Anmarın qardaşı Sibaa ibn Əbdul Uzzanın Allahın Aslanı Həmzə ibn Əbdul-Muttalibin əlindən öldüyünü gördü.

Xabbabın uzun ömrü ona, dörd mömin xəlifənin hökmranlığının şahidi olmağa imkan verdi. O, onların himayəsi altında yaşadı, xoşbəxt oldu və hamı ona hörmət edirdi.

* * *

Ömər ibn Əl-Xəttab artıq xəlifə olduğu günlərin birində Xabbab onun yanına gəldi. Ömər ona ən şərəfli yer verdi və dedi:

– Səndən və Bilaldan başqa bu təm-tərağa heç kəs layiq deyil.

Sonra Ömər ondan bütpərəstlərin ona verdiyi ən ağır sınaq

haqqında danışmağı xahiş etdi. Xabbab pərt oldu və cavab vermək istəmədi. Amma Ömərin təkidli xahişlərindən sonra əynindəki köynəyi yuxarı qaldırdı. Onun kürəyini görən Ömər diksinib geri çəkildi, sonra isə qışqırdı:

– Bu necə baş verib?

Xabbab cavab verdi:

– Bütpərəstlər tonqal qaladılar və qaynar kömürlərin üstünə məni uzandırdılar, belə ki, ət sümükdən ayrılmağa başladı. Alovu bədənimdən tökülən su söndürə bildi.

* * *

Xabbab neçə illər boyu kasıb olduqdan sonra əmlaka və külli miqdarda qızıl-gümüşə sahib oldu. O bu haqda heç xəyal etmirdi. Amma o öz vəsaitlərini elə sərf etdi ki, bu, hər kəs üçün gözlənilməz oldu.

O öz dirhəmlərini və dinarlarını öz evində xüsusi bir yerə qoyurdu. Bu yer kasıblara və məzlumlara məlum idi.

Pullar nə gizlədilmişdir, nə də qıfıl altında idi. Buna görə də adamlar onun evinə rahatca girirdilər və heç kəsə heç nə başa salmadan və icazə istəmədən, istədikləri qədər pul götürürdülər.

Buna baxmayaraq Xabbab qorxurdu ki, öləndən sonra ondan bu pullara görə hesab soracaqlar və sərt şəkildə cəzalandıracaqlar.

* * *

Onun yoldaşları danışırdılar: «Xabbab ölümcül xəstələnəndə, biz ona baş çəkdik. O bizə dedi: «Bu yerdə səksən min dirhəm var. Allaha and içirəm ki, mən heç vaxt onları gizlətməmişəm və hər bir imkansıza onlardan istifadə etməyə imkan vermişəm».

Sonra o, ağladı. Ondan soruşduq: «Bəs səni belə darıxdıran nədir?» Xabbab dedi: «Mən ona görə ağlayıram ki, mənim yaşıdlarımdan çoxusu, heç bir nemət əldə etmədən bu həyatdan getdilər. Mən isə hələ sağam və bu sərvəti aldım. Qorxuram, buna görə məni qorxunc cəza gözləyir».

* * *

Xabbab öz Rəbbinin yanına yollananda, əmirəl-mömінin Əli ibn Əbu Talib onun qəbrinin üstündə durub dedi: «Allah Xabbaba rəhm etdi; o, İslam dinini könüllü surətdə qəbul etdi, həvəslə mühacir oldu və mücahid həyatını yaşadı... Allahın mükafatı, möminliklə çalışana qismət olur»[126].

* * *

---

[126] Xabbab ibn Əl-Aratt haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə», 1/416;
2. «Əsəd əl-Qaba», 2/98-100;
3. «Əl-İstiəb», 1/423;
4. «Tahzib əl-Tahzib», 3/133;
5. «Hilyət əl-Övliyə», 1/143;
6. «Sifət əl-Səfva», 1/168;
7. «Əl-Cəməə beynə ricəl əs-Səhiheyn», 124;
8. «Əl-Məarif ibn Quteyb», 316;
9. «Həyat əs-Səhabə», 4-cü hissənin mündəricatına bax;
10. "Cami əl-Usul", Səhabələrin fəziləti fəsli.

# ƏR-RABİA İBN ZİYAD ƏL-HARİSİ

*«Mən xəlifə olandan bəri heç kəs Ər-Rabia ibn Ziyad kimi mənimlə səmimi olmayıb».*
Ümər əl-Xəttab

Rəsulallahın ﷺ şəhəri Mədinə Əbu Bəkr əs-Siddiqin vəfatı ilə əlaqədar olaraq öz dərin kədərini yavaş-yavaş unudurdu. Xəlifə Ömər ibn Əl-Xəttaba sadiq olacaqlarına and içmək üçün hər gün əyalətlərdən Yəsribə nümayəndələr gəlirdi.

Bir gün səhər Əmirəlmöminin yanına növbəti nümayəndə heyəti gəldi. Bəhreyndən gələn elçilər də onların arasında idi.

Əl-Faruq həmişə elçilərin ona dediklərini çox diqqətlə dinləyirdi. O, onlardan ya xoş nəsihət, ya bir fikir, ya da Allahın kitabına dair və müsəlmanlar üçün faydalı bir məsləhət eşitmək istəyirdi. Amma onların dediklərində xəlifə faydalı bir şey eşitmədi.

O, adamların arasından bir nəfəri seçdi. Həmin adam onun gözünə dərrakəli göründü. Xəlifə ona dedi: «Gəl, ürəyində nə varsa, danış».

Həmin adam Allaha həmd və təşəkkür etdikdən sonra dedi: «Ya əmirəl-möminin, sənin bu millətə hökmranlıq etməyin Uca və Qğdrətli Allahın sənə verdiyi sınaq olacaq. Sənin üzərinə qoyulan bu işdə Allahdan qorx. Bil ki, Fərat çayının sahilində bircə qoyun da itsə, Qiyamət günündə ona görə səndən hesab sorarlar». Ömər hönkürtü ilə ağladı və dedi: «Mən xəlifə olandan bəri heç kəs sənin tək mənimlə səmimi olmayıb. Sən kimsən?!»

– Ər-Rabia ibn Ziyad Əl-Harisi, – həmin adam cavab verdi.

– Sən mühacir ibn Ziyadın qardaşısan? – Ömər soruşdu.

– Bəli, – deyə o, cavab verdi.

Məclis bitəndən sonra Ömər ibn Əl-Xəttab Əbu Musa Əl-Əşarini yanına çağırıb, ona dedi:

– Rabia ibn Ziyadın işinə bax, əgər o, səmimidirsə, bizə çox xeyir gətirər və bizim işimizdə yaxşı köməkçi olar. Belə olsa, onu rəhbər təyin elə və mənə bu haqda yaz.

* * *

Bundan sonra xəlifənin fərmanına əsasən Əbu Musa Əl-Əşari Əl-Əhvaz ərazisində yerləşən Mənaziri fəth etmək üçün ordunu topladı. O, Ər-Rabia ibn Ziyadı və onun qardaşı Əl-Muhaciri də ordunun tərkibinə daxil etdi.

* * *

Mənaziri tamamilə mühasirəyə alan Əbu Musa Əl-Əşari qızğın vuruşmaya başladı. Bütpərəstlər gözlənilmədən döyüşlərdə güclü müqavimət və inad göstərdilər. Müsəlmanlar indiyədək görünməmiş itki verdilər. Bundan əlavə müsəlmanlar oruc tutmuş vəziyyətdə vuruşdurdular, çünki o vaxt ramazan ayı idi.

Əbu Rabia ibn Ziyadın qardaşı Əl-Muhacir görəndə ki, müsəlmanlar çoxlu döyüşçü itirib, qəti qərara gəldi ki, Allahın iltifatını qazanmaq üçün özünü qurban versin. O, ölülər üçün hazırlanmış məlhəmi bədəninə sürtdü, kəfənə büründü və qardaşına son nəsihətini verdi...

Əlr-Rabia Əbu Musanın yanına gəldi və ona dedi: «Əl-Muhacir oruclu ikən özünü qurban vermək qərarına gəlib. Ağır döyüşlər və orucun təsiri nəticəsində müsəlmanların iradəsi və qətiyyəti zəifləyib, amma onlar orucu kəsmək fikrində deyillər. Sən özün vacib hesab etdiyin bir tədbiri görməlisən».

Əbu Musa Əl-Əşari döyüşçülərə müraciət etdi: «Ey müsəlmanlar! Mən hər oruclunu orucunu kəsməyə ya da vuruşmağı tərk etməyə çağırıram». Sonra o, dolçadan su içdi ki, adamlar da onun kimi etsinlər. Əbu Musanın sözlərini eşidən Əl-Muhacir su içib dedi: «Allaha and içirəm ki, susadığıma görə deyil, öz komandanımın çağırışına əməl etdiyimə görə su içdim».

Sonra o, qılıncını çıxarıb, düşmən döyüşçülərinin üzərinə cumdu və onları qırmağa başladı. O, döyüşçülərin ən çox olan yerinə düşdü; düşmən qılıncları hər tərəfdən ona zərbələr endirdi və Əl-Muhacir döyüş meydanında qəhrəmancasına həlak oldu.

Düşmənlər onun başını kəsib, onu birbaşa döyüş meydanında yerləşən qüllənin üstünə qoydular.

Bunu görən Ər-Rabia dedi: «Rəhmət və əbədi rahatlıq olsun

sənə. Allaha and içirəm ki, mən sənin və başqa müsəlmanların həlak olmasına görə intiqam alacam, əgər Allah buna izn versə».

Əbu Musa Ər-Rabianın qardaşına görə çəkdiyi qəm-qüssəni və onun düşmənlərə qarşı qəzəbini görəndə onu öz əvəzinə bu orduya başçı təyin etdi, özü isə Əl-Susu fəth etməyə getdi.

* * *

Ər-Rabia və onun döyüşçüləri dəhşətli bir fırtına kimi bütpərəstlərin üstünə atıldılar. Müsəlmanlar selin apardığı qayalar tək düşmənin istehkamlarını dağıdırdılar. Onlar düşmən qoşunlarını darmadağın edib, hər yana səpələdilər.

* * *

Allahın köməkliyi ilə Ər-Rabia ibn Ziyad Mənəziri fəth edə bildi. Düşmənlərin çoxu öldürüldü, qadınlar və uşaqlar isə əsir alındı. Müsəlmanlar böyük qənimət əldə etdilər, çünki Allahın hökmü belə idi.

Mənəzir döyüşündən sonra Ər-Rabia ibn Ziyad bacarıqlı sərkərdə kimi məşhurlaşdı. Onun adı dildən-dilə düşdü. O, qismətinə böyük işlər yazılan gözəl sərkərdələrdən biri oldu.

Müsəlmanlar Siccistanı fəth etmək qərarına gələndə, Ər-Rabianı orduya başçı təyin etdilər. Onlar ümid edirdilər ki, məhz o, qələbə ilə geri dönəcək.

* * *

Ər-Rabia ibn Ziyad öz ordusu ilə birgə Allah yolunda yürüşə çıxdı. Müsəlman ordusu Siccistana gedən yolda susuz səhranın yetmiş beş milini dəf etdilər; buna heç bir səhra yırtıcılarının gücü çatmazdı.

Siccistanın sərhədində yerləşən Rustaq Zəliq müsəlmanların ilk məqsədi oldu. Bu şəhərdə gözəl saraylar tikilmişdir, şəhər özü isə möhkəm qala istehkamları ilə əhatə edilmişdir. Şəhərdə çoxlu

xəzinə var idi, onun ətrafındakı torpaqlar isə öz məhsuldarlığı ilə fərqlənirdi.

* * *

İstedadlı və fərasətli sərkərdə hələ şəhərə yaxınlaşmazdan əvvəl öz kəşfiyyatçılarını irəli göndərdi. O onlardan öyrəndi ki, yerli əhali tezliklə öz bayramını qeyd edəcək. Ər-Rabia düşmənə gözlənilmədən hücum edib, onu elə bayram gecəsi qəflətən ələ keçirməyi qərara aldı.

Onun fikirləşdiyi alındı və müsəlmanların ordusu tez bir zamanda qələbə çalıb, düşmənin iyirmi min nəfərini və o cümlədən də bu əyalətin canişinini də əsir götürdülər.

Əsirlərin arasında canişinin bir məmuru da var idi və onda canişin üçün nəzərdə tutulan üç min tapdılar.

Ər-Rabia ondan soruşdu: «Bu qədər pul səndə haradandır?!»

– Bu pullar, mənim ağama məxsus olan kəndlərin birində yığılıb, – o, cavab verdi.

– Hər il bir kənd ona bu qədər pul verir?! – Ər-Rabia soruşdu.

– Bəli, – əsir ona cavab verdi.

– Bəs, onlarda bu qədər pul haradandır? – Ər-Rabia soruşdu.

– Adamlar bu pulu toxalarla, oraqlarla və öz təri ilə qazanırlar, – məmur cavab verdi.

* * *

Döyüş bitəndən sonra Ər-Rabianın yanına bu əyalətin canişini gələrək, özünün və öz yaxınlarının azadlığına görə təklif etdi. Ər-Rabia dedi: «Təklif etdiyin pul müsəlmanlar üçün kifayət qədər olsa, onu qəbul edərəm».

– Sən nə qədər istəyirsən ki? – canişin soruşdu.

– Mən bu nizəni torpağa batıracağam, sən isə qızıl-gümüşü onun üstünə tökəcəksən, ta ki o, qızıl-gümüşün altında qalıb, görünməyəcək, – Ər-Rabia cavab verdi.

– Mən razı, – canişin dedi. Sonra o öz xəzinəsindən gətirilmiş

qızıl-gümüşü nizənin üstünə tökməyə başladı və onu bütövlüklə qızıl-gümüşün altında basdırdı.

* * *

Ər-Rabia ibn Ziyad öz ordusu ilə birgə Siccistanın ərazisini gəzməyə başladı. Düşmən qalaları, payız küləyi əsən zaman yarpaqların ağaclardan yerə töküldüyü kimi, onun suvari dəstəsinin dırnaqlarına yıxılırdılar. Fəth olunan şəhər və kəndlərin sakinləri, döyüşçülər hələ qılınclarını qaldırmamış özləri üçün təhlükəsizlik istəyirdilər. Onlar Ər-Rabianın ordusunu itaətkarlıqla qarşılayırdılar.

Bu triumf Ər-Rabia Siccsistanın paytaxtı Zərəncə yaxınlaşanadək davam etdi.

Burada müsəlmanlar müharibəyə yaxşı hazırlaşmış düşmənlə qarşılaşdılar. Düşmən öz qoşunlarını hərbi ardıcıllıqda yerləşdirilmişdir, arxa cəbhədən öz ehtiyatlarını çağırmışdır və Ər-Rabianın ordusunun bu böyük şəhərə hücumunun qarşısını almaq və nəyin bahasına olursa-olsun onun Siccistanda sonrakı irəliləməsini dayandırmaq qətiyyəti ilə dolu idi.

Qanlı və qızğın döyüşlər başlandı; burada tərəflərdən heç birisi itkiləri gözə almırdı. Elə ki, müsəlmanların qələbəsinin ilk əlamətləri göründü, Pərviz adlı düşmən başçısı Ər-Rabia ilə sülh müqaviləsi bağlamağa can atdı, halbuki onun qüvvələri hələ kifayət qədər idi.

O bununla barışığın özü üçün və öz xalqı üçün ən əlverişli şərtlərinə nail olmaq istəyirdi. Pərviz Ər-Rabia ibn Ziyadın yanına öz elçisini göndərdi. O, sülh danışıqlarını başlamaq üçün şəxsi görüşün vaxtının təyin edilməsini xahiş edirdi. Ər-Rabia buna öz razılığını verdi.

* * *

Ər-Rabia öz adamlarına Pərvizlə görüşmək üçün yer hazırlamağı əmr etdi və həmçinin orada öldürülmüş farsların cəsədlərini qalaq-qalaq yığmağı da tələb etdi. Bundan əlavə o, göstəriş verdi ki, Pərvizin gəldiyi yolun hər iki kənarına farsların meyitlərini töksünlər.

Ər-Rabia özü hündür boylu, iri bədənli, başı büyğk və qarabuğdayi idi. Pərviz onun yanına gələndə ondan qorxdu, ölülərin görünüşündən isə dəhşətə gəldi. O, hətta Ər-Rabiaya yaxınlaşıb salamlaşa bilmədi. Pərviz dili əsə-əsə, kəkələyərək Ər-Rabiaya müraciət edərək, ona barışmağı təklif etdi. Bunun əvəzinə ona hərəsi başına qızılla dolu kasa aparan min gənc oğlanı verməyi öz öhdəsinə götürdü. Ər-Rabia razılaşdı və bu şərtlə Pərviz ilə sülh müqaviləsi bağladı.

Ertəsi gün Ər-Rabia ibn Ziyad ona bağışlanan cavan əsirlərin əhatəsində, Allaha həmd deyən müsəlmanların müşayiəti ilə şəhərə daxil oldu.

Həmin gün Allahın əlamətdar günlərindən biri idi.

* * *

Ər-Rabia ibn Ziyad müsəlmanların parlaq qılıncı idi. Onlar onunla Allahın düşmənlərinin başlarına zərbələr endirirdi. Əməvilərin hökmranlıq dövrü gələnədək o, müsəlmanlar üçün şəhərlər istila edərək, yeni əyalətləri birləşdirdi.

Müaviyə ibn Əbu Süfyan onu Xorasanın hökmdarı təyin etdi. Amma Ər-Rabianın qəlbi bu işə yatmırdı. Onun dilxorluğu və bu vəzifədən narazılığı, əməvi əyanlarının birindən məktub alandan sonra daha da artdı.

Məktubda deyilirdi: «Əmirəl-mömininin Müaviyə ibn Əbu Süfyan sənə, hərbi qənimətin bütün qızıl-gümüşünü müsəlman xəzinəsinə göndərməyi, qalan hissəni isə mücahidlərin arasında bölməyi əmr edir».

Ər-Rabia cavab məktubunda belə yazdı: «Mən aşkar etdim ki, Uca və Qüdrətli Allahın Kitabı, sənin, əmirəl-mömininin göstərişinə əsasən mənə əmr etdiyin kimi deyil, başqa cür hərəkət etməyi əmr edir»[127].

Sonra o, adamlara dedi: «Öz qənimətinizi götürün ki, heç kəs ona toxuna bilməsin. Bundan sonra o, qənimətin beşinci hissəsini

[127] Müqəddəs Quran, qənimətin beşinci hissəsini müsəlmanların ictimai xəzinəsində saxlamağı, qalan dörd hissələri isə döyüşçülərin arasında bölməyi əmr edir.

Dəməşqə, xəlifənin sarayına göndərdi».

* * *

Bu məktubun alındığı gündən sonra növbəti cümədə Ər-Rabia ağ geyimdə namaza gəldi.

O orada toplaşan müsəlmanlara cümə xütbəsilə müraciət etdi, sonunda isə dedi:

– Ey insanlar, bu həyat məni bezdirib. Mən dua edirəm, sizi də bunun səmimiliyinə inanmağa çağırıram.

Sonra o, dedi:

– Ya Allah, əgər Sən mənə xeyir vermək istəyirsənsə, məni tez öz yanına apar...

Bütün insanlar onun bu duasının səmimiliyinə inandı. Həmin gün, hələ günəş batmamışdır ki, Ər-Rabia ibn Ziyad dünyasını dəyişdi.[128]

* * *

---

[128] Ər-Rabia ibn Ziyad haqqında əlavə məlumat üçün bax:

1. «Əsəd əl-Qaba», 2/206;
2. «Tarix ət-Təbəri», 4/183-185, 5/226,285,286,291;
3. «Əl-İsabə», 1/504;
4. «Əl-Kamil fi əl-Tarix», mündəricata bax;
5. «Cəmharat əl-ənsab», 391;
6. «Tahzib əl-Tahzib», 3/244;
7. «Həyat əs-Səhabə», 2/168, 268.
8. "Əl-İstiab", 1/516.

# ABDULLAH İBN SALAM

*«Əgər bir kəsi cənnət sakinlərindən olan adamın görünüşü sevindirirsə, qoy o, Abdullah ibn Salama baxsın».*

Əl-Hüseyn ibn Salam Yəsribdə yəhudi rahiblərdən biri idi. Mədinənin bütün camaatı, hansı təriqətlərə və icmalara mənsub olmalarından asılı olmayaraq hamısı ona hörmət edirdi.

O, insanların arasında öz təqvası, möminliyi, səmimiliyi və doğruçuluğu ilə tanınmışdır.

* * *

Əl-Hüseyn sakit və təvazökar, eyni zamanda çox ciddi və faydalı həyat tərzi sürürdü. O öz vaxtını üç yerə bölürdü:

– birinci hissəni sinaqoqda ibadətlə və xütbələrlə məşğul olaraq keçirirdi;

– ikinci hissəni bağda, palmalara qulluq etməklə və onları budamaqla keçirirdi;

– öz vaxtının üçüncü hissəsini isə Əl-Hüseyn dini biliklərini təkmilləşdirmək üçün Tövratın oxunmasına sərf edirdi.

* * *

Əl-Hüseyn hər dəfə Tövratı oxuyanda onun bütün əvvəlki peyğəmbərlərin missiyalarını tamamlayıb bitirəcək Peyğəmbərin Məkkədə peyda olacağı haqqında yazılan yerlərini daha diqqətlə oxuyurdu.

Gözlənilən Peyğəmbərin xüsusiyyətlərini müəyyənləşdirən əl-Hüseyn onun öz vətənini tərk edəcəyinə və Yəsribə köçərək, Mədinəni özünə yaşayış yeri seçəcəyinə çox sevinirdi. Hər dəfə bu xəbərləri oxuyan və ya onları düşünən əl-Hüseyn Allahdan gözlənilən Peyğəmbəri görmək, onunla görüşdən xoşbəxtlik duymaq və ona ilk iman gətirənlərdən biri olmaq üçün lazım olan qədər yaşamağı xahiş edirdi.

* * *

Uca və Qüdrətli Allah Əl-Hüseyn ibn Salamın duasını qəbul etdi və onu Peyğəmbər ﷺ göndərilənədək yaşatdı. Onun qismətinə Peyğəmbər ﷺ ilə görüşmək və onun Haqqa iman gətirmiş səhabəsi olmaq yazılmışdır.

İndi isə sözü Əl-Hüseynin özünə verək ki, o, islamı qəbul etməsi əhvalatını danışsın, çünki özü bunu daha yaxşı və təsirli edər.

Beləliklə, əl-Hüseyn ibn Salam danışırdı:

– Mən Rəsulallahın ﷺ peyda olması haqqında eşidən kimi, onun adını, haradan və necə görünüşdə olduğunu öyrənməyə çalışdım.

Aldığım məlumatları bizim kitablarda yazılanlarla müqayisə edirdim ki, onun peyğəmbərliyinin həqiqiliyinə və dəvətinin düzgünlüyünə əmin olum. Öyrəndiklərimi yəhudilərdən gizlətdim və bu haqda heç kəsə heç nə demədim. Rəsulallah ﷺ Məkkəni tərk edib Mədinəyə yollanan günədək bu vəziyyət belə davam etdi.

Peyğəmbər ﷺ Yəsribə çatanda və ondan iki mil məsafəsində yerləşən Quba kəndində dayananda, onun gəldiyini xəbər verən adam bizə gəldi. Həmin an mən palmanın üstündə oturub onu budayırdım, bibim Xalidə bint Əl-Haris onun altında əyləşmişdi. Mən bu xəbəri eşidən kimi qışqırdım: «Allahu əkbər! Allahu Əkbər!» Allahı həmd etdiyimi eşidən bibim aşağıdan mənə qışqırdı:

– Allah sənin ümidini kəssin! Allaha and içirəm ki, sən Musa ibn İmranın gəlməsini eşitsəydin, onda da bundan artığını etməzdin...

Mən ona dedim:

– Allaha and olsun, bibi, bu Musa ibn İmranın öz dini ilə gəlmiş qardaşıdır. O, Musaya nazil olanlarla gəlib.

Bibim bir qədər susandan sonra dedi:

– Bu, haqqında xəbər verdiyiniz həmin Peyğəmbər deyil?! Siz demişdiniz ki, o ona qədər olanların təsdiqi üçün və ilahi missiyaların tamamlanması üçün göndəriləcək.

– Bəli, bu odur, – mən cavab verdim.

– Deməli, bu odur, – o dedi.

Bundan sonra mən Rəsulallahın ﷺ yanına tələsdim və onun evinin girişində böyük izdiham gördüm. Mən insanları itələyib keçdim və onun yanında dayandım. Peyğəmbərdən ﷺ ilk olaraq bu sözləri eşitdim:

– Ey insanlar! Hər yerə əmin-amanlıq gətirin... Qidanı yeyin... Gecə, insanlar yatan zaman dua edib namaz qılın. Və siz rəhmətlə Cənnətə düşərsiniz...

Mən ona diqqətlə baxırdım və sonunda əmin oldum ki, o, yalançı deyil. Ona yaxınlaşıb şəhadət verdim ki, Allahdan başqa Tanrı yoxdur və Məhəmməd Allahın Elçisidir.

O məndən soruşdu:

– Sənin adın nədir?

– Əl-Hüseyn ibn Salam, – mən cavab verdim.

– İndi sən Abdullah ibn Salamsan, – Peyğəmbər ﷺ dedi.

– Bəli, – mən dedim. – Abdullah ibn Salam... Səni haqq ilə Göndərənə and içirəm ki, bu gündən etibarən mən başqa ad istəmirəm.

Sonra mən Rəsulallahı ﷺ tərk edib, evə qayıtdım və arvad-uşağı, yaxınlarımı İslama dəvət etdim. Onlar hamısı və bibim Xalidə də, qoca qarı olmasına baxmayaraq İslam dinini qəbul etdilər. Mən onlara tapşırdım: «Bizim İslama keçməyimizi, mən bunu deməyi sizə icazə verməyənədək yəhudilərdən gizlədin».

– Yaxşı, – onlar mənə dedilər.

Mən Rəsulallahın ﷺ yanına qayıdıb ona dedim: «Ya Rəsulallah, yəhudi xalqı – yalançı və böhtançıdırlar. Mən istərdim ki, sən onların ağsaqqallarını və başçılarını öz yanına dəvət edəsən, məni isə həmin vaxt otaqların birində gizlədəsən. Hələ ki, onlar mənim müsəlman olduğumu bilmirlər onlardan mənim haqqımda soruş, sonra islama dəvət et. Əgər onlar bilsələr ki, mən İslamı qəbul etmişəm, mənə böhtan ataraq, hər cür rüsvay edəcəklər və bütün günahları ayağıma yazacaqlar».

Rəsulallah ﷺ məni öz otaqlarından birində yerləşdirib, yəhudiləri yanına çağırdı və onlardan İslamı qəbul etməyi xahiş elədi; həqiqi dinə qarşı onlarda məhəbbət oyatmağa çalışdı. Bununla bərabər, o onun haqqında müqəddəs kitablarda yazılanları onlara xatırlatdı.

Buna cavab olaraq yəhudilər onunla nəticəsiz mübahisəyə girdilər və həqiqəti danmağa çalışdılar, mən isə o zaman baş verənləri diqqətlə izləyirdim. Onları inandırmağa ümidini itirən Peyğəmbər ﷺ soruşdu:

– Bəs Əl-Hüseyn ibn Salam sizdə hansı mövqe tutur?

– O bizim mənəvi rəhbərimiz və bizim başçımızın oğludur. Bizim müəllimimiz və alim ilahiyyatçımızdır və həmçinin alim-müəllimin oğludur.

Rəsulallah ﷺ soruşdu: «Bəs əgər bilsəniz ki, o, İslamı qəbul edib, onda siz də İslama keçərsinizmi?»

Yəhudilər cavab verdilər:

– Allah qorusun! O, İslamı qəbul edə bilməzdi. Allah onu, müsəlman olmaqdan qoruyub.

Elə həmin an mən onların yanına çıxıb dedim: «Ey yəhudilər! Allahdan qorxun və Məhəmmədin gətirdiyini qəbul edin. Allaha and içirəm ki, siz onun əsil peyğəmbər olduğunu yaxşı bilirsiniz! Onun adı və siması Tövratda təsvir edilib. Mən şəhadət verirəm ki, o, Allahın Elçisidir, ona iman gətirirəm və inanıram, onu tanıyıram...»

Onlar qışqırdılar:

«Sən yalançısan! Allaha and içirəm ki, sən bizim şərimiz və şərimizin oğlusan! Sən cahilsən və cahilin oğlusan!!!»

Sonra onlar məni bütün günahlarda təqsirləndirməyə başladılar. Mən Rəsulallaha ﷺ dedim:

– Mən sənə demədim ki, onlar – yalançı və böhtançıdırlar, onlar məkrli və kinlidirlər?!»

* * *

Abdullah ibn Salam Quranın müqəddəs və aydın ayələrini yorulmadan təkrarlayırdı. Quran onu bütövlükdə məftun etmişdir. Abdullah Peyğəmbəri ﷺ hər yerdə müşayiət edirdi. O, cənnəti qazanmaq üçün çalışmağı əhd etmişdi və bir dəfə Rəsulallah ﷺ ona bu xoş xəbəri dedi.

Nəcib səhabələr arasında bu xəbər tez yayıldı. Bu xoş xəbərin alınması əhvalatını Qeys ibn Abbad və həmçinin başqaları danışmışdı. Budur onun məzmunu:

* * *

Bir dəfə mən Rəsulallahın ﷺ Mədinədəki məscidində elmi

dərnəyin məşğələsində idim. İnsanları özünə dərhal cəlb edən bir ağsaqqal da orada idi. Onların qəlbləri ona can atır, ürəklər rahatlıq tapırdı. Onun insanlara müraciəti xoş və ifadəli idi. O, yerindən qalxanda, insanlar dedilər:

– Əgər bir kəsi cənnət sakinlərindən olan adamın görünüşü sevindirirsə, qoy o, bu adama baxsın.

– Abdullah ibn Salam, – onlar dedilər.

O zaman mən öz-özümə dedim: «Mən mütləq onun dalınca getməliyəm».

Yerimdən qalxıb, qocanın arxasınca getdim. Biz Mədinənin kənarına çıxdıq. Və burada, şəhərin kənarında, qoca öz evinə girdi.

Mən içəri girmək üçün icazə istədim, içəri girəndə isə o, məndən soruşdu:

– Oğlum, sənin nə ehtiyacın var?

Mən cavab verdim: «Sən məsciddən çıxanda eşitdim ki, adamlar dedilər: Əgər bir kəsi, cənnət sakinlərindən olan adamın görünüşü sevindirirsə, qoy o, bu adama baxsın». Ondan sonra mən sənin arxanca getdim ki, öyrənim görüm iş nədədir və insanlar sənin cənnət sakinlərinə aid olduğunu haradan öyrəniblər?»

– Oğlum, cənnətin sakinləri yalnız Allaha məxsusdur, – qoca dedi.

– Hə, bu belədir, amma insanların bu cür danışdıqlarının bir səbəbi olmalıdır axı, – mən dedim.

– Mən sənə danışaram niyə onlar belə deyirlər, – qoca dedi.

– Danış... Allah sənə buna görə xeyir versin!

Qoca dedi: «Rəsulallah ﷺ sağ olan vaxtlar, gecələrin birində mən yuxuda bir kişi gördüm. O mənə dedi: «Ayağa qalx!». Mən çıxanda o mənim əlimdən tutdu. Mən sola gedən yolu görəndə bu yolla getmək istədim. Amma kişi dedi:

– Bu yolla getmə, çünki bu sənin yolun deyil.

Və bu zaman mən sağa gedən açıq-aydın yolu gördüm. Kişi dedi:

– Bu yolla get.

Mən həmin tərəfə getdim və böyük gözəl bağa çatdım. Bağ sıx-sıx bitmiş bitkilərin təravətli yaşıllığı ilə dolu idi. Bağın mərkəzində dəmir sütun yerləşirdi. Onun bir ucu yerə dirənmiş, digər ucu

səmaya qalxırdı. Sütunun yuxarı hissəsində qızıl halqa bərkidilmişdir.

Kişi mənə dedi:

– Sütunun üstünə qalx.

Mən dedim: «Axı, mən bunu edə bilmərəm».

Elə bu zaman yanımda bir gənc oğlan peyda oldu. O mənə kömək etdi, mən də sütunun lap yuxarısına qalxdım və orada iki əlimlə halqadan yapışdım. Mən oyananadək bu halqadan tutub sallandım.

Ertəsi gün mən Rəsulallahın ﷺ yanına gəlib, ona öz yuxumu danışdım. O məni dinləyəndən sonra dedi:

«Sənin əvvəl gördüyün sola aparan yola gəldikdə, bu o deməkdir ki, bu yolla gedən hər kəs Cəhənnəmə düşür. Sağa aparan yol isə Cənnət sakinləri üçün nəzərdə tutulub. Səni öz təravətli yaşıllığının gurluğu və gözəlliyi ilə heyran edən bağ –İslamdır. Bağın ortasındakı sütun – din deməkdir. Sütunun yuxarı hissəsindəki qızıl halqa isə sən ölənədək möhkəm yapışacağın ən bərk tutacaqdır...»[129].

* * *

---

[129] Abdullah ibn Salam haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə», 2/320;
2. «Əsəd əl-Qaba», 3/176-177;
3. «Əl-İstiəb», Heydərabad nəşriyyatı, 2/382;
4. «Əl-carh va Əl-taadil», 2/62-63;
5. «Tacrid Əsma əs-Səhabə», 1/338-339;
6. «Sifət əs-Səfva», 1/301-303;
7. «Tarix xəlifə İbn Xayyat», 8;
8. «Əl-İbər», 1/51-52;
9. «Şəzərət əz-Zəhəb», 1/53;
10. «Tarix əl-İslam», Əz-Zəhəbə, 2/230-231;
11. «Tarix Dəməşq», İbn Əsakir, 7/443-448;
12. «Tazkirat əl-Hifaz», 1/22-23;
13. «Əs-sıra ən-nəbəbiyə», ibn Hişam, mündəricata bax.
14. «Əl-Bidayə va ən-Nihayə», 3/211-212;
15. «Həyat əs-Səhabə», 4-cü hissənin mündəricatına bax.

# XALİD İBN SƏİD İBN ƏL-AS

*"Atam ...beşincisi idi. Və "Bismilləhir Rahmənir Rahim"i ilk dəfə yazan da o olmuşdur".*
Xalidin qızı

Mülayim, sakit və xoş Məkkə axşamlarının birində künyəsi Əbu Uheyhə olan Səid ibn əl-As ibn Umeyyə evindən çıxdı və Hənunun[130] ən yuxarı hissəsinə qalxdı. O, Kəbə tərəfə gedirdi. Çox qiymətli qırmızı əmmaməsi də başında idi. Çiyninə də qızıl saplarla toxunmuş Yəmən şahlarının libasını atmışdı. Qılınclarla bəzənmiş övladları da onun ətrafında idilər. Sağ tərəfində oğlu Xalidin rəhbərliyi ilə oğulları, solunda isə Abdu Şəms qəbiləsindən olan və ipək libaslar geyinmiş bir qrup yurtdaşı gəlirdi. Əbu Uheyhə Kəbəyə yaxınlaşdığı vaxt camaat bir-birinə dedi: "tac sahibi" gəldi. İnsanlar ona "tac sahibi" ləqəbini vermişdi. Çünki o başına əmmaməsini qoyduğu vaxt onu başından çıxartmayana qədər, heç kəs başına eyni rəngli əmmamədən qoymazdı. İnsanlar ona və onunla gələnlərə yol verdilər ki, Kəbənin ətrafında öz yerlərini tutsunlar. Burada onu Əbu Süfyan ibn Hərb, Ütbə ibn Rəbiyə, Əbu Cəhl ibn Hişam və Qureyşin onu sevib hörmət etdiyi digər başçıları qarşıladılar. Əbu Uheyhə onlara dedi: "O, nə xəbərdi?! Eşitdim ki, Səd ibn Əbi Vaqqas Məhəmmədə qoşulub! Sonra da Qureyşdən bir nəfərə əl qaldırmağa cürət edib. Onun başını yarıb, qanını axıdıb. Nədi-nədi ona tanrılarımızdan başqası üçün namaz qılmamağı tapşırıb..."

Daha sonra Əbu Uheyhə sözünü davam etdirərək dedi:

"Lat və Uzzaya[131] and olsun ki, siz bundan sonra da Haşimilərə qanınız qaynadığı üçün Abdullahın oğlu Məhəmmədə göz yumsanız, mən özüm tək-tənha onun axırına çıxacam. Və Məkkədə Əbu Kəbşənin[132] oğlunun tanrısına ibadəti qadağan edəcəm".

---

[130] Hənun Məkkədə Kəbəyə yaxın bir yer adıdır.
[131] Lat və Uzza Cahiliyyə dövründə sitayiş olunan iki büt idi.
[132] Əbu Kəbşə Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun!) süd anası Həlimənin əri Haris ibn Əbdüluzza ibn Rifayə əs-Sədidir.

Səid ibn əl-As gəldiyi yolla da geri qayıtdı. Oğlu Xaliddən başqa digərləri də onunla qayıtdı. Xalid onlarla getmədi.

* * *

Xalid ibn Səid orada qaldı. O, Məhəmməd peyğəmbərin ﷺ özü və yaydığı din haqqında məlumatlar əldə etmək üçün camaat arasında dolaşmağa başladı. O, Peyğəmbər ﷺ barəsində eşitdiklərinin heç birində atasının ona və səhabələrinə qarşı kin və nifrətinə haqq qazandıracaq heç nə tapa bilmədi. O, Qureyşin qəlbində alovlanan bu nifrət atəşinin səbəbini orataya çıxartmaqda aciz qaldı.

* * *

Gecə düşdükdə Xalid ibn Səid evlərinə qayıtdı. O, hər axşam evə qayıtdıqda atasının otağına girər ona axşam salamı verərdi. Lakin bu dəfə ona baş çəkmədən birbaşa öz otağına keçdi. Sonra isə rahat yatağına girib yatmaq istədi. Lakin yata bilmədi. Gözünə bir qıram da yuxu getmədi. Onun fikrini məşğul edən və dərindən düşündürən Məhəmmədin məsələsi idi. O, atasının Peyğəmbərə ﷺ pislik etməsindən və onu döyməsindən qorxurdu.

* * *

Nəhayət gecənin son hissəsində yorğun düşüb özünü yuxuya təslim etdi. Oyandığı zaman yuxuda gördüklərindən dolayı qorxu və titrəyiş içərisində idi. Dişləri bir-birinə dəyə-dəyə bu sözləri dedi: "Allaha and içirəm ki, bu gördüyüm haqdır. Mən yalan bir şey görmədim".

* * *

Xalid yuxuda özünü Cəhənnəmin ucu-bucağı görünməyən vadilərindən birində gördü. Onun təsvirinə görə oranın alovlu atəşi ürəkləri yerindən çıxardıb kül edərdi. O, alovdan qaçmağa hazırlaşırdı ki, atası qarşısına çıxdı və onu tutub güclə alova tərəf çəkməyə

başladı. Xalid var gücü ilə atasına müqavimət göstərməyə başladı. Atası ilə çox çəkişdikdən sonra sonda taqəti tükəndi. Az qalmışdı ki, alova sürüklənsin, bu dəfə Məhəmməd ibn Abdullah onun imdadına yetişdi. İki əli ilə onun kəmərindən yapışıb özünə tərəf çəkdi və onu Cəhənnəmin isti vadisinə düşməkdən xilas etdi.

* * *

Havanın ağarmasına az qalmış Xalid ibn Səid Əbu Bəkr əs-Siddiqin (Allah ondan razı olsun!) evinə getdi. Çünki hamı kimi o da Əbu Bəkrə güvənir, etibar edirdi.

Xalid yuxusunu Əbu Bəkrə danışdı. Əbu Bəkr dedi:

"Ey Xalid, Allah sənin barəndə xeyir istəyir. Allah Məhəmməd ibn Abdullaha hidayət və haqq din bəxş etmişdir. Bu din müşriklər istəməsələr belə yayılacaqdır. Sən də ona itaət et, ey Xalid!

Əgər ona itaət etsən Cənnətin qapıları sənin üzünə açılar və Cəhənnəmdən qurtularsan.

Sənin atan isə səni sürükləmək istədiyi Cəhənnəmə vasil olacaqdır.

* * *

Xalid ibn Səid Peyğəmbərin ﷺ yanına yollandı. Peyğəmbər ﷺ həmin gün Əcyad təpəsində gizlində Allaha ibadət edirdi. Onu salamladı, sonra isə dedi: "Ey Məhəmməd, bizi çağırdığın şey nədir?"

Peyğəmbər ﷺ buyurdu: *"Sizi Tək Allaha iman gətirib ona heç nəyi şərik qoşmamağa və mənim Onun qulu və elçisi olduğuma inanıb qəbul etməyə çağırıram. Görməyən və eşitməyən bir daş parçasına ibadət etməkdən əl çəkin! O, nə zərər verə bilər, nə də ki fayda. Ona ibadət edənlə, qarşı çıxan arasında heç bir fərq qoyma bacarığına malik deyil".*

Xalidin üzü güldü və fərəhlə dedi:

"Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq ilah yoxdur. Və yenə də şəhadət edirəm ki, sən Allahın qulu və elçisisən".

Beləcə Xalid ibn Səid ibn əl-As yer üzərində müsəlman olanların beşinci və ya altıncısı oldu. Bu şərəfli və fəzilətli mövqedə yalnız Xədicə bint Xuveylid, Zeyd ibn Harisə, Əli ibn Əbu Talib, Əbu Bəkr əs-Siddiq və Səd ibn Əbu Vaqqas qabaqlamışdı. Allah onların hamısından razı olsun!

* * *

Xalid ibn Səid Həcun təpəsindəki möhtəşəm saray evini tərk edib, təmtəraqlı və rahat yaşayışından əl çəkdi. O, Peyğəmbərin ﷺ haqq yoluna qatıldı. Onunla və onun səhabələri ilə birgə Məkkəni dolaşmağa başladı. Beləcə o imanı hiss etdi və yaşadı. Peyğəmbərə ﷺ nazil olan Quran ayələrini əzbərləyir və Qureyşin işgəncələrinə düçar olmamaq üçün gizlicə ibadət edirdi.

Artıq Xalid bir müddət idi ki, evi tərk etmişdi. Atası onun üçün darıxmağa başlayır və bir neçə nəfərə tapşırır ki, onun haqda xəbər alsınlar. Atasına xəbər çatır ki, Xalid müsəlman olub və Peyğəmbərin ﷺ dininə tabe olub.

* * *

Məkkə əşrəflərindən olan Səidin başına cin vurdu. O, heç vaxt düşünməzdi ki, övladlarından hansısa biri cürət edib onun sözündən çıxar və Lat və Uzza bütlərindən üz çevirib Məhəmmədin dinini qəbul edər. Səid övladının dalınca mövlası Rafini və qardaşları Əban və Öməri göndərdi. Onlar gəlib Xalidi Məkkə təpəciklərinin birində namaz qılan gördülər. Bu hal sanki onların qəlblərini sirkələdi. Ürəklərində bir rahatlıq yaratdı. Ona dedilər: "Atan görüşmək üçün səni yanına çağırır. Onun icazəsi olmadan evi tərk etdiyinə görə qəzəbi yerə-göyə sığmır".

Xalid onlarla evə qayıtdı. Evə çatdıqda atasını İslam salamı ilə salamladı. Atası ona:

"Ar olsun sənə! Küfr etdin və ata-babanın dinindən dönüb Məhəmmədə tabe olmusan?!"

Xalid dedi: "Mən küfr etməmişəm. Əksinə, şəriki olmayan tək Allaha iman gətirdim, onun elçisi Məhəmmədin peyğəmbərliyini

doğruladım. Ona Allahın salavatı və salamı olsun! Sizin Allahdan başqa ibadət etdiyiniz bütləri tərk etdim”.

Atası dedi: "Vay sənin halına! Sən bu yalançını doğruladığını söyləyirsən?!"

Xalid dedi: "O, yalançı deyil. Əksinə o, Rəbbinin tapşırıqlarını yerinə yetirən dürüst biridir. Mənə, sənə və bütün insanlara doğru yolda olmağı tövsiyə edir".

Atası dedi: "Sən mütləq ondan üz döndərib, onu təkzib etməlisən".

Xalid dedi: "Nəbzim vurduqca belə bir şey etmərəm".

Atası dedi: "Elə isə sənə yemək verməyəcəm".

Xalid dedi: Bu, səndən gözlədiyim ən yüngül bir şeydir. Sənə ruzi verən Allah məni də ruziləndirər".

Abdu Şəms oğullarının ağası hirsindən cuşa gəldi və qalın əsası ilə Xalidin başına vurdu. Onun başı yarıldı və başından qan fışqırdı. Onu o qədər vurdu ki, başından axan qan bütün bədənini bürüdü. Sonra qollarını bağlatdırıb qaranlıq bir otaqda həbs etdirdi. Üç gün ona yemək-içmək verilmədi. Dördüncü gün ailəsindən bir neçə nəfər gəlib ondan soruşdular: "Necəsən, ey Xalid?"

Xalid cavab verdi: "Mən izzət və cəlal sahibi Allahın nemətləri içərisindəyəm".

Dedilər: "Ağlın başına gəlməyib hələ?! Atana itaət etməyin vaxtı çatmayıbmı?!"

Xalid dedi: "Ağlım başımdadır. Nə o, məndən qaçıb, nə də mən ondan. Atama gəlincə, mən izzət və cəlal sahibi Allaha qarşı çıxmaqda atama itaət etməyəcəm".

Dedilər: "Lat və Uzza barəsində atanı razı salacaq bir şey söylə ki, səni rahat buraxsın".

Xalid dedi: "Lat və Uzza kar və kor olan iki daş parçasından başqa bir şey deyil. Mən onlar barəsində yalnız Allah və rəsulunu razı salacaq sözlər deyə bilərəm. O, mənimlə nə istəyir eləsin!"

* * *

Əbu Uheyhə Xalidin iplərini möhkəmlətdi və adamlarına tapşırdı ki, hər gün onu günorta vaxtı Məkkənin çöllüklərinə

çıxartsınlar və qızmar günəşin altında qayalıqlar üstündə saxlasınlar. Hər dəfə onu qızmar günəşin altına çıxardıb daş-kəsəklərin istisi ilə yandırdıqları zaman deyərdi: "Mənə imanla kəramət, İslamla izzət bəxş edən Allaha həmd olsun! Bütün bunlar Əbu Uheyhənin məni aparmaq istədiyi Cəhənnəmdəki əzabdan daha yüngüldür. Allah öz peyğəmbərinə, onun dostlarına, mənə və bütün müsəlmanlara ən gözəl mükafat nəsib etmişdir". Xalid üçün bir fürsət yarandı. Atasının zindanından qaçmağı başardı və Peyğəmbərin ﷺ yanına getdi.

Çox keçmədi ki, qardaşları Ömər və Əbanı da onunla birgə xeyir və nur gəmisinə qoşuldular. Əbu Uheyhə artıq nə edəcəyini bilmirdi. Çarəsiz qalan Əbu Uheyhə dedi: "Lat və Uzzaya and olsun ki, malımı-pulumu da Məkkədən uzaqlaşdıracam. Bu mənim üçün daha xeyirlidir. Atalarının dinini tərk edib İslamı qəbul edən bu uşaqlardan da bütün əlaqələrimi kəsəcəm".

Sonra o, Taifə yaxın bir kəndə köçdü və ömrünün axırınadək orada yaşadı. Öləndə müşrik kimi öldü.

* * *

Peyğəmbər ﷺ səhabələrinə Həbəşistana hicrət etməyə icazə verdiyi zaman Xalid ibn Səid zövcəsi Əminə bint Xələf əl-Xuzayə ilə birgə onlar arasında idi. Orada on ildən artıq qaldı və Allahın dininə dəvət etməkdən yan qalmadı. Mədinəyə ancaq Allahın iznilə müsəlmanların Xeybəri fəth etməsindən sonra döndü.

Peyğəmbər ﷺ onun gəlişinə çox sevindi. Döyüşçülərə böldüyü kimi Xeybər qənimətindən ona da pay verdi.

Sonra onu Yəmənə vali təyin etdi. Peyğəmbər ﷺ öz Rəbbinin dərgahına qovuşana qədər orada valilik etdi.

* * *

Əbu Bəkr əs-Siddiqin xilafəti dövründə Xalid ibn Səid Bizansla müharibədə Şam istiqamətinə səfərdə olan orduya qatıldı.

O, döyüş meydanında yalnız özü kimi igidə yaraşan şəkildə vuruşdu və qəhrəmanlıq göstərdi.

Dəməşq yaxınlığında baş vermiş Mərcissufər döyüşündən bir qədər əvvəl Xalid Ummu Həkim bint əl-Harislə nişanlandı. Onunla nikahlanıb evlənmək istədikdə Ummu Həkim ona dedi: "Ey Xalid, bəlkə döyüş qurtardıqdan və camaatın dağılışıb öz evinə qayıtdığından sonraya qədər təxirə salasan".

Xalid dedi: "Belə hiss edirəm ki, döyüşdə mənə nəsə olacaq".

Xalid onunla evləndi. Xalid zifaf gecəsinin səhəri yoldaşlarına toy qonaqlığı verdi. Onlar yeməklərini bitirməyə az qalmışdı ki, Bizans ordusu öz cərgələrini düzdü və döyüşə başlamaq qərarına gəldi. Bizans ordusundan bir nəfər qarşıya çıxıb müsəlman ordusundan bir nəfəri təkbətək döyüşə çağırdı. Onun qarşısına Həbib ibn Sələmə çıxdı və onu öldürdü. Daha sonra düşmən tərəfdən başqa bir döyüşçü çıxdı. Bu dəfə onun qarşısına Xalid ibn Səid çıxdı. Hər ikisi bir-birinin üstünə atıldılar. Daha sonra bir-birinə öldürücü zərbələr endirdilər. Bizans əsgərinin qılıncı hədəfə tuş gəldi. Xalidin zərbəsi isə puça çıxdı. Ağır zərbədən qurtula bilməyən Xalid şəhid oldu.

Sonra hər iki qoşun bir-birinə girdi. Aralarında elə bir döyüş baş verdi ki, qılıncların başları qoparmasından başqa heç bir səs eşidilmirdi. Belə bir məqamda Ummu Həkimə də sanki balaları əlindən alınmış dişi aslan kimi döyüşə atıldı. Toy geyimi ona ağır gəlmişdi. Zifaf gecəsinin şahidi olmuş çadır sütunlarını yerindən qopardı və vuruşanlarla birgə döyüşə qatıldı. Yeddi Bizans əsgərini qətlə yetirdi. Döyüş İslamın və müsəlmanların açıq-aşkar qələbəsi ilə başa çatana kimi Ummu Həkimə qəhrəmancasına vuruşdu.

* * *

Bu qələbənin dəyəri Rəblərinə qovuşan təmiz və razı qalan ruhlar oldu. Xalid ibn Səid ibn əl-Asın ruhu da sevinc və fərəhlə onlar arasında idi. Xalidi öldürən Bizans əsgəri öz gözləri ilə onun cəsədi üzərindən bir nurun dalğalanaraq qalxdığını və səmada

parladığını gördü. Bizans əsgəri tutduğu işdən çox peşman oldu və bu peşmançılıq sonradan onun Allahın dininə daxil olmasına səbəb oldu.[133]

* * *

[133] Xalid ibn Səid ibn əl-As barəsində daha geniş məlumat üçün bax:

1. "Əl-Bidəyə vən-Nihayə" 3/32;
2. "Ət-Tabaqat əl-Kubra" 4/94;
3. "Həyat əs-Səhabə" 1/91-94;
4. "əl-İsabə" 1/406"

# SURAQA İBN-MALİK

*«Ya Suraqa, Xosrovun qolbaqlarını taxsan,necə görünərsən?!»*
Məhəmməd, Allhın Rəsulu

Bir gün səhər bütün qureyşlilər böyük həyəcan keçirdi, çünki onların arasında Məhəmmədin gecə vaxtı Məkkəni tərk etməsi haqqında xəbər yayılmışdı. Əvvəl qureyş başçıları buna hətta inanmadılar…

Onlar Peyğəmbəri ﷺ Bəni Haşim nəslinin evlərində axtarmağa başladılar. Onlar onun haqqında soruşurdular. Qureyşlilər Əbu Bəkrin evinə yaxınlaşanda onun qızı Əsma onları qarşıladı.

Əbu Cəhl ondan soruşdu:

– Ay qız, atan haradadır?

O, cavab verdi:

– Mən bilmirəm, o indi hardadır.

Əbu Cəhl qızın üzünə elə bərk sillə vurdu ki, onun qulağındakı sırğa yerə düşdü.

* * *

Qureyiş başçıları Məhəmmədin Məkkəni tərk etdiyinə əmin olanda, çox qəzəbləndilər. Onlar Məhəmmədin getdiyi yolu müəyyən edə bilsinlər deyə bütün ləpirçiləri özlərilə götürüb onu axtarmağa getdilər.

Ləpirçilər Savr mağarasına çatanda başçılara dedilər:

– Allaha and olsun ki, sizin tanışınız bu mağaranın yanından keçməyib.

Bunu deyən ləpirçilər heç də səhv etmədilər. Elə həmin zaman Məhəmməd öz yoldaşlarıyla birgə mağaranın içində idi, qureyşlilər isə onların üstündə dayanmışdılar. Mağaranın üstü ilə gedən adamların ayaqlarını görən əs-Siddiqin gözləri yaşardı. Rəsulallah ﷺ ona məhəbbətlə, mülayimliklə və məzəmmətlə ona baxanda, Əs-Siddiq pıçıldadı:

– Allaha and içirəm ki, mən özümə görə ağlamıram, ya Rəsulallah. Mən onların sənə qarşı pislik və zorakılıq törədəcək-

lərini görməkdən qorxuram.

Nəcb Peyğəmbər ﷺ onu ruhlandıraraq dedi:

– Ya Əbu-Bəkr, kədərlənmə. Həqiqətən, Allah bizimlədir. Allah Əs-Siddiqin ürəyinə sabitlik verdi və o yuxarıda gəzişən insanların ayaqlarını müşahidə edirdi. Sonra o, dedi:

– Ya Rəsulallah əgər kimsə öz ayaqlarının altına baxsa, bizi görəcək.

Rəsulallah ﷺ cavab verdi: «Ya Əbu Bəkr, niyə sən iki nəfər barəsində fərziyyə yürüdürsən, əgər Allah onların yanında üçüncüdür?!»

O zaman onlar eşitdilər ki, qureyşli bir gənc digərlərinə dedi:

– Gəlin düşək və mağaraya nəzər salaq.

Uməyyə ibn Xələf rişxəndlə ona cavab verdi:

– Görmürsən ki, hörümçək girişdə öz torunu qurub?! Allaha and olsun ki, bu hələ Məhəmmədin doğulmasından qabaq baş verib...

Lakin Əbu Cəhl ucadan dedi:

– Əl-Lat və Əl-Üzzaya and içirəm! Mən düşünürəm ki, Məhəmməd bizdən uzaqda deyil, dediklərimizi eşidir, etdiklərimizi də görür. Öz sehrinin gücü vasitəsilə o, gözümüzdən itib.

* * *

Bununla belə qureyşlilər Məhəmmədə çatmaq ümidini itirmirdilər və onların onu təqib etmək qətiyyəti azalmadı. Onlar Məkkədən Mədinəyə gedən yoldakı bölgələrdə yaşayan bütün qəbilələrə xəbər verdilər ki, Məhəmmədi diri və ya ölü vəziyyətdə tutub gətirən şəxs yüz cins dəvəni mükafat kimi alacaq.

Bir dəfə Suraqa ibn Malik Əl-Mədləci Məkkənin yaxınlığında yerləşən Kudeydəki məclislərin birində idi. Elə həmin vaxt qureyş carçılarından biri oraya gəlib bu böyük mükafat haqqında orada olanlara xəbər verdi.

Suraqa yüz dəvə haqqında eşidən kimi onları nəyin bahasına olursa-olsun əldə etmək həvəsilə alışıb yandı. Lakin o, özünü saxladı və ucadan heç nə demədi ki, başqalarında bu həvəsi oyatmasın.

Hələ Suraqa öz yerindən qalxmamışdır ki, onun həmqəbilələrindən biri gəlib dedi:

– Allaha and içirəm ki, elə indicə mənim yanımdan üç nəfər keçdi. Yəqin ki, bunlar Məhəmməd, Əbu Bəkr və onların bələdçisidir.

Suraqa dedi:

– Bəs onlar itmiş dəvəni axtaran adamlar deyil ki? Mən fikirləşirəm ki, bunlar elə həmin adamlardır. Gələn adam dedi: «Bəlkə də elədir». Sonra da susdu...

Suraqa bir müddət məclisdə oturdu ki, onun gedişi heç kəsin diqqətini cəlb etməsin və gözlədi ki, oradakılar söhbətin mövzusunu dəyişsinlər. Sonra xəlvətcə evə qayıtmağa tələsdi. Orada gizlincə qulluqçu qadına dedi ki, hamıdan xəlvətcə onun atını çıxarsın və vadinin ortasında bir yerə bağlasın.

Sonra Suraqa nökərinə əmr etdi ki, onun silahını hazırlasın və hamıdan gizlicə arxa küçə ilə onu atın yanına aparıb orada saxlasın.

* * *

Suraqa zirehləri geyinib, silahı götürüb, atın belinə minib Məhəmmədin dalınca getdi ki, başqa biri onu tutmamışdan qabaq özü onu əsir etsin və qureyşlilərin vəd etdiyi mükafatı alsın.

* * *

Suraqa ibn Malik öz qəbiləsinin ən yaxşı atsürənlərindən biri idi. Onun atı isə ən yaxşı cins atlardan idi. Suraqa hündürboylu və iri bədənli idi. O, yaxşı ləpirçi olduğuna görə istənilən yolçuluğun ağırlıqlarına dözürdü. Suraqanın həmçinin şairlik qabiliyyəti də var idi.

* * *

Suraqa atın belində var gücü ilə irəliyə çapırdı. Birdən onun atı büdrədi və o, yəhərdən çıxıb yerə düşdü. O, buna görə çox darıxdı və öz-özünə dedi: «Bu nədir belə?» Suraqa özlüyündə fikirləşdi: «Sən bu atla məhv olacaqsan» və yenidən yəhərə oturdu. Lakin çox tezliklə at yenidən büdrədi və bu da Suraqanı daha çox darıxdırdı və

o, artıq geri qayıtmağa hazırlaşdı, amma yüz dəvə həcmində olan mükafatı xatırlayıb, yolunu davam etdirdi.

Bir az vaxt keçdikdən sonra Suraqa Məhəmmədi və onun iki yoldaşını gördü. Suraqa əlini kamana uzatdı, lakin əli köməksiz vəziyyətdə havada dayandı. O, açıq-aydın gördü ki, atın ayaqları torpağa girir, özü də atın burnunun önündə sıx tüstü burulub qalxmağa başladı və onların hər ikisinin gözlərini tutdu...

Suraqa atını mahmızladı, amma at sanki torpağa mismarlanmış kimi yerində donub qalmışdı. O, səsinə güc verib, Məhəmmədin və onun silahdaşının tərəfinə qışqırdı: «Ey siz, öz Rəbbinizdən xahiş edin, mənim atımın ayaqlarını azad etsin! Və mən sizə söz verirəm ki, arxanızca gəlməyəcəyəm!»

Rəsulallah ﷺ dua etdi və Allah Suraqanın atının ayaqlarını azad etdi. Lakin asan qazanca olan həvəs Suraqanı yenidən bürüdü. O, yolçulara çatmaq məqsədilə atını mahmızladı, amma bu dəfə atın ayaqları lap dərindən torpağa batdı. Suraqa yenidən yolçulardan kömək istəyərək qışqırdı:

– Mən Sizə öz ərzaqlarımı, yükümü və silahımı verərəm, hamısını götürün! Allah qarşısında sizə təntənəli şəkildə söz verirəm ki, məndən sonra sizi təqib edən hər kəsi geri qaytararam.

Peyğəmbər ﷺ və onun yoldaşı Suraqaya dedilər: «Bizə sənin ərzaqların və yükün lazım deyil, biz istəyirik ki, sən təqib edənləri saxlayıb geri qaytarasan...»

Sonra Peyğəmbər ﷺ Allahı çağırdı və Suraqanın atı azad olundu. O, qayıtmağa hazırlaşaraq, Peyğəmbərə ﷺ və onun yoldaşına müraciət etdi:

– Görün, sizə nə deyirəm. Allaha and olsun ki, məndən sizə heç vaxt ziyan dəyməz.

– Bəs sən bizdən nə istəyirsən? – onlar soruşdu.

Suraqa dedi:

– Allaha and içirəm, ya Məhəmməd, mən əminəm ki, sənin dinin qələbə çalacaq. Mənə söz ver ki, sən hakimiyyət başında olanda mən sənin yanına gəlsəm, məni hörmətlə qəbul edəcəksən. Mənə bu haqda sənəd yaz...

Rəsulallah ﷺ Əs-Sidiqqə sümük lövhəcikdə sənədi yazmağa əmr etdi və onu Suraqaya təqdim etdi.

Onlar vidalaşan zaman Peyğəmbər ﷺ Suraqadan soruşdu: «Ya Suraqa, Xosrovun qolbaqlarını taxsan, necə görünərsən?» Suraqa təəccüblə soruşdu:

– Xosrov İbn Hurmuzun?!

– Bəli, məhz Xosrov İbn Hurmuzun.

* * *

Suraqa geri qayıdanda, Rəsulallahı ﷺ təqib edən adamlara rast gəldi. O, onlara dedi:

– Qayıdın geri! Mən hər yeri diqqətlə gəzib axtardım və onları tapmadım. Mənim ləpirçilik bacarığıma şübhə etmirsiniz axı!

Bunu eşidən adamlar geri döndülər. Suraqa, Məhəmmədlə Əbu Bəkrin Mədinəyə sağ-salamat çatdıqlarına və orada qureyşlərin hücumundan qorxmayaraq rahat məskunlaşdıqlarına əmin olanadək onlarla özğ görüşdğyğnğ hamıdan gizlədirdi. Sonra o, bu haqda hamıya danışdı.

Əbu Cəhl bu haqda biləndə Suraqanı onun qorxaqlığına və belə rahat imkanı əldən verdiyinə görə qınadı...

Bu məzəmmətə cavab olaraq Suraqa dedi:

– Ya Əbu Hakam, atımın başına gələnləri görsəydin, onda Məhəmmədin həqiqətən Peyğəmbər olduğuna şübhən qalmazdı. Belə olduqda Peyğəmbərin qarşısında kim dura bilər ki?!

* * *

Günlər öz axarı ilə gedirdi... Və budur, Məkkəni gecə yarısı məzlum halda tərk edən Məhəmməd indi bu şəhərə minlərlə parlaq qılıncların və iti, qorxunc nizələrin əhatəsində qalib fateh kimi qayıdır...

Budur, keçmişdə hədsiz lovğalıq və təkəbbürlə fərqlənən qureyşli başçılar indi qorxudan əsərək, şəfqət istəyir və yazıq halda soruşurlar:

– İndi sən bizimlə nə edəcəksən?

Rəsulallah ﷺ peyğəmbərlərə məxsus olan yumşaqlıqla onlara cavab verdi:

– Gedin, siz azadsınız...

Suraqa İbn Malik yığışıb Rəsulallahın ﷺ yanına getdi ki, islama keçməsini ona elan etsin. O, həmçinin onun üçün on il bundan qabaq yazılmış sənədi də özü ilə götürdü.

Suraqa danışırdı:

– Mən Ciarana, Peyğəmbərin yanına gələndə, ənsarlardan təşkil edilmiş dəstələrindən birinin içinə düşdüm. Onlar məni döyə-döyə qışqırırdılar: «Çıx, get buradan! Rədd ol! Nə lazımdır sənə?!»

Amma mən öz dəvəsində oturmuş Rəsulallaha ﷺ yaxınlaşanadək onların sıralarından keçməyə davam edirdim. Sənədi yuxarı qaldırıb qışqırdım:

– Ya Rəsulallah... Mən Suraqa ibn Malikəm, sənin sənədin də mənimlədir...

Peyğəmbər ﷺ dedi: "Ya Suraqa, yaxın gəl. Bu gün vəd edilənlərin yerinə yetirməyin və xoş əməllərin günüdür". Mən Peyğəmbərin ﷺ qarşısına keçib, ona islamı qəbul etməyimi bəyan etdim, sonra o, mənə bol-bol hədiyyələr verdi.

* * *

Suraqa İbn Malikin Rəsulallahla ﷺ bu görüşündən cəmi bir neçə ay sonra Allah onu öz yanına apardı. Suraqanı kədər üzdü. O, Peyğəmbərin ﷺ yüz dəvə üçün öldürmək istədiyi günü xatırladı, indi isə bütün dünyanın dəvələri onun atılan dırnağına belə dəyməzdi. Suraqa Rəsulallahın ﷺ ona vaxtilə dediyi sözləri təkrarlamağa başladı:

– Ya Suraqa, Xosrovun qolbaqlarını taxsan, necə görünərsən? Onun qəlbində bu qolbaqları taxacağına heç bir şübhə yox idi.

* * *

Zaman keçdikdən sonra xilafətin idarəziliyi Əl-Faruqa keçdi. Onun xəlifəliyi zamanı müsəlmanların orduları ram edilməyən tufan kimi farsların dövlətinə daxil oldu. Onlar hücum edib qalaları ələ

keçirir, bütöv orduları darmadağın edir, bol-bol qənimət götürür və nəhayət, Allah müsəlmanların əllərilə Xosrovun dövlətini ləğv etdi.

Ömərin xəlifəliyinin son günlərinin birində Mədinəyə qələbə xəbərilə Sad ibn Əbu Vaqqasın çaparları gəlib çatdılar. Onlar müsəlmanların xəzinəsinə Allah uğrunda gedən müharibə zamanı döyüşçülərin ələ keçirdiyi qənimətin beşdə bir hissəsini özlərilə gətirmişdilər.

Ömər gətirilən qənimətləri təəccüblə seyr edirdi. Onların içərisində Xosrovun mirvarilərlə bəzədilmiş tacı, qızılla tikilmiş geyimi və qiymətli daş qaşlarla bəzədilmiş şahanə kəməri var idi. Gözəl qolbaqlar və başqa cəvahiratlar da orada idi...

Ömər bu xəzinəni öz əsası ilə qurdalayıb ətrafa baxdı, sonra isə dedi:

Döyüşçülər bunu əqidəli insanlar üçün qazanıb.

Orada olan Əli ibn Əbu Talib dedi:

– Sən cömərdsənsə, onda sənin tabeliyində olanlar da cömərddilər. Sən naz-nemət içində olsaydın, onda onlar da istirahət və dincəlməkdən həzz alardılar...

Əl-Faruq Suraqanı yanına çağırıb, ona Xosrovun köynəyini, şalvarını, ayaqqabılarını və həmçinin uzun paltarını geyindirdi, üstündə qılınc olan kəməri belində bərkitdi. Sonra xəlifə Suraqanın başına şahın tacını, qollarına isə Xosrovun qolbaqlarını, bəli məhz qolbaqları taxdı.

Bundan sonra bütün müsəlmanlar qışqırdılar: «Allahu əkbər! Allahu əkbər! Allahu Əkbər!»

– Əla! Afərin! – Ömər Suraqanı seyr edərək dedi. – Bəni Mədləc nəslindən olan ərəb balası başına Xosrovun tacını qoyub, əllərinə isə onun qolbaqlarını keçirdib!!!

Sonra üzünü göylərə tutub dedi:

– Allahım, Sən bunu məndən çox sevdiyin və məndən çox hörmət etdiyin Peyğəmbərinə vermədin... Sən bunu məndən çox sevdiyin və məndən çox hörmət etdiyin Əbu Bəkrə vermədin...

Və budur. Sən bütün bunları mənə verdin! Sənə yalvarıram ki, mənim üçün bu nemət Sənin cəzana çevrilməsin...

Ömər bütün bu xəzinələri müsəlmanların arasında bölüşdürüb qurtarmayanadək yerindən qalxmadı[134].

* * *

[134] Suraqa ibn Malik haqqında əlavə məlumat almaq üçün bax:

1. «Əsəd əl-Qaba», 2/331;
2. «Əl-İsabə», 2/19;
3. "Əl-İstiab", 2/11;
4. «Simar əl-Qulub fi əl-Mudaf va əl-Mənsub», əs-Saalabi, 93;
5. «Əl-Təbəqat əl-Kubra», İbn Sad, 1/188, 232, 4/366, 5/90;
6. Əs-Sıra ən-Həbəbiyyə, İbn-Hişam, 2/133-135, həmçinin mündəricata bax.;
7. «Həyat əs-Səhabə», həmçinin 4-cü hissənin mündəricatına bax.;
8. «Tac əl-Arus min cəvahir əl-Kamus», 6/183.

# FEYRUZ ƏL-DAYLAMİ

*«Feyruz-evin xeyirli sakinlərindən olan xeyirli insandır».*
Məhəmməd, Allahın Rəsulu

Rəsulallah ﷺ vida həccindən gəldikdən sonra ciddi xəstələnəndə və onun xəstəliyi haqqında xəbər bütün Ərəbistana yayılanda Yəməndə Əl-Əsvad əl-Ansi, Əl-Yəmamədə yalançı Museylimə və Bəni Əsəd torpağında Tüleyha Əl-Əsədi islam dinindən imtina etdilər. Bu üç yalançı özlərini peyğəmbər elan etdilər, onlardan hər birisi iddia edirdilər ki, Məhəmməd ibn Abdullahın qureyşlilərə göndərildiyi kimi, onlar da öz millətinə göndərilmişdir.

* * *

Əl-Əsvad Əl-Ansi içində kin gizlətmiş, qara qəlbli fırıldaqçı ruhani idi. O, fiziki güc və iri bədən quruluşu ilə fərqlənirdi. Bununla yanaşı Əl-Əsvad natiqliq bacarığına malik idi. O, çox ağıllı idi və insanların beyinlərini öz nağıllarıyla heyran etməyi yaxşı bacarırdı. O, hətta bəzilərini pul, yüksək mövqe və vəzifələrlə yoldan çıxara bilirdi. İnsanların qarşısına o, həmişə üzü örtülü çıxırdı ki, bununla özünü sirli güstərsin və lazımi əhəmiyyət qazansın.

* * *

O zaman Yəməndə Rəsulallahın ﷺ səhabəsi Feyruz Əl-Daylami başda olmaqla «oğullar» böyük nüfuza malik idilər. Öz ölkələrini tərk etmiş və Yəmənə köçmüş farsların övladları «oğullar» adlanırdılar. Analarına gəldikdə isə, onlar ərəb qadınları idi.

Onların arasında ən böyüyü islam meydana gələn zaman Xosrovun fərmanı ilə Yəməni idarə edən Bazan idi. Bazan Rəsulallahın ﷺ həqiqiliyinə və onun dəvətinin ucalığına inanandan sonra, Xosrova tabe olmaqdan imtina edib, öz millətilə birgə Allahın dininə keçdi. Rəsulallah ﷺ ona canişin vəzifəsini saxladı və o, oranı ölənədək idarə edirdi. O, Əl-Əsvad Əl-Ansi meydana gəlməzdən bir az qabaq öldü.

* * *

Əl-Əsvad Əl-Ansinin çağırışına ilk olaraq haray verən öz xalqı Bəni Məzhic oldu. O, onlarla birgə Sanaya yürüşə sıxdı, Yəməndə oranın canişini Şəhr ibn Bazanı öldürdü və onun dul arvadı Azadə ilə evləndi.

Sanadan sonra o, ölkənin başqa bölgələrinə öz yürüşünü davam etdi. Bu bölgələr də tez bir zamanda onun qarşısında boyun əydilər. Nəticədə Əl-Əsvad Hadramautdan Taifə qədər və Bəhreyn və Əl-Ahsadan Adənə qədər olan ərazini ələ keçirtdi.

* * *

İnsanları aldatmaqda və onları öz tərəfinə çəkməkdə Əl-Əsvad Əl-Ansiyə onun hədsiz zəkası və fərasəti kömək edirdi. O, öz davamçılarına bəyan etmişdir ki, xüsusi bir mələk ona ilahi vəhyi çatdırır və heç kəsin bilmədiyini qabaqcadan deyirdi.

Əl-Əsvadın istənilən yerdə hərəkət edən çoxsaylı casusları onun sözlərini yayırdılar və ona insanların söhbətlərini çatdırırdılar, onların sirrlərini və problemlərini öyrənirdilər, ümidlərindən və arzularından xəbər tuturdular.

Sonradan bütün bunlar gizli şəkildə Əl-Əsvada çatdırıldı. Nəticədə o, yanına gələn insanın ehtiyacını və yaxud da problemini bilirdi. O, öz davamçılarına təəccüblü və heyranedici şeylər danışırdı, bu da insanları heyrətə salıb onları çaşdırırdı...

Tədricən əl-Əsvad böyük nüfuz qazandı və onun çağırışı quru çör-çöp içində coşan alov kimi yayıldı.

* * *

Əl-Əsvad Əl-Ansinin mürtədliyi və onun Yəmənə təsiri haqqında xəbərlər Peyğəmbərə ﷺ çatan kimi, o, dərhal on səhabəsinə namələr verib, onları Yəməndəki etibarlı silahdaşlarının yanına göndərdi. O, bu namələrdə onları belə vəhşi fitnə və iman zorakılığı yolunda sinələrini sipər etməyə çağırıb, həmçinin istənilən vasitələrlə Əl-Əsvad Əl-Ansinin işini bitirməyi əmr elədi...

Peyğəmbərin ﷺ naməsini almış hər kəs onun çağırışına ruh yüksəkliyi ilə cavab verdi və dərhal bu əmri yetirməyə başladı.

Peyğəmbərin ﷺ çağırışına ilk haray verən bizim hekayəmizin qəhrəmanı Feyruz əl-Daylami və onun «oğullardan» olan tərəfdarları oldu.

Bu qəribə hekayəni danışmaq üçün sözü onun özünə verək. Beləliklə, Feyruz bunu danışdı:

«Nə mən, nə də mənim «oğullardan» olan tərəfdarlarım bir saniyəlik belə Allahın dininin həqiqiliyinə şübhələnirdik. Ürəklərimizdə də Allahın düşməninə inam nüfuz etməmişdir.

Biz hamımız əlbir olub əl-Əsvada qarşı çıxmaq və istənilən vasitə ilə onu məhv etmək üçün rahat imkanın ələ düşməsini gözləyirdik...

Biz və ilk möminlər Rəsulallahın ﷺ məktublarını alanda hamımız ruhlandıq və hər kəs öz sahəsində inadla çalışmağa başladı.

* * *

Əl-Əsvad Əl-Anisinin əldə etdiyi müvəffəqiyyət onu qudurtdu və o, çox təkəbbürlü və şöhrətpərəst oldu. O, həmçinin ordusunun baş komandanı Qeys İbn Əbd Yəqusa qarşı da çox dikbaş və qəddar oldu. Əl-Əsvad onunla elə pis rəftar edirdi ki, hətta öz həyatına görə qorxmağa başladı.

Mən öz əmim oğlu Dazaveyh ilə birgə Qeysin yanına gedib, ona Peyğəmbərin ﷺ naməsinin məzmununu danışdım və onu «bu adamı günorta məhv etməyə» çağırdıq, çünki əks halda «bu adam Qeysi axşam məhv edəcəkdir».

Qeys bizim çağırışımıza razılıqla cavab verdi, bizə bütün həqiqəti danışdı və əlavə etdi ki, Allah özü bizi onun üçün göndərib. Bu görüşdə razılaşdıq ki, biz üçümüz birlikdə daxildən bir mürtəd yalançıya hücum edəcəyik. Bu zaman bizim qardaşlarımız isə qıraqdan hərəkət edərlər. Biz həmçinin əmim qızı Azadəni da bu işə cəlb etməyi məqsədəuyğun hesab etdik.

Əl-Əsvad əl Ansi onunla əri Şəhr ibn Bazan öldürüldükdən sonra evlənmişdi.

* * *

Mən Əl-Əsvad Əl-Ansinin sarayına gəlib, orada əmim qızı Azadə ilə görüşdüm. Mən ona dedim:

– Bacı, sən bilirsən bu adam sənə və bizim hamımıza nə qədər ziyan və pislik vurub... O sənin ərini öldürüb, sənin qəbilənin qadınlarının namusunu ləkələyib, kişiləri məhv edib və hakimiyyəti qəsb edib. Peyğəmbər ﷺ məxsusən bizə və bütövlüklə yəmən

xalqına göndərdiyi namədə bizi bu fitnəni ləğv etməyə çağırır. Sən bizə bu işdə kömək edərsən?

– Mən sizə hansı işdə kömək etməliyəm? – Azadə soruşdu.

– Onu kənarlaşdırmaqda, – mən cavab verdim.

– Mən sizə hətta onu öldürməkdə də kömək etməyə hazıram, – o, dedi.

– Allaha and olsun ki, mən məhz bunu nəzərdə tuturdum, amma bu haqda sənə açıq deməyə çəkinirdim, – mən ucadan dedim.

Azadə dedi: «Məhəmmədi müjdə, həqiqət və çəkindirmə ilə Göndərənə and içirəm ki, mən öz dinimdə bir anlıq belə şübhələnməmişəm. Allah yer üzündə bu şeytandan daha alçaq insan yaratmayıb... Allaha and içirəm ki, mən onu gördüyüm vaxtdan bəri o, əxlaqsız günahkar və qanunsuzluq törədən biri olaraq qalıb».

Mən soruşdum: «Bəs biz onu necə öldürək?»

Azadə dedi: «Bu, çox ehtiyatlı və özünə görə qorxan bir adamdır. Qəsrdəki hər künc diqqətlə mühafizə olunur, bircə lap uzaqda yerləşən və bir tərəfi səhraya çıxan otaqdan başqa. Qaranlıq düşəndən sonra bu otağın altını qazın, mən isə sizin üçün otaqda çıraq və silah qoyaram. Özüm də sizi burada gözləyəcəyəm... Sonra siz Əl-Əsvadın yanına girib onu öldürərsiniz...

Mən dedim: «Amma diqqətlə mühafizə olunan bu qəsrdə qazma işlərini aparmaq çox mürəkkəbdir. Yoldan keçən hər bir kəs səs-küy qaldırıb, mühafizə dəstəsini çağıra bilər. Bunun nəticələri isə çox pis ola bilər...»

Sən tamamilə düz deyirsən, – Azadə dedi – Amma mənim bir təklifim var.

Nə təklif?! – mən soruşdum.

O, cavab verdi: «Sabah mənim yanıma özünüzün fəhlə kimi geyinmiş etibarlı adamınızı göndərin. Mən ona otağın özündən qırağa yol qazmağa əmr edərəm. Sonra siz qaranlıq düşəndə bu yolu qıraqdan qazıb işi bitirərsiniz. Bu sizin üçün çətin olmaz».

Bu yaxşı fikirdir, – mən dedim.

Sonra mən dostlarımın yanına gedib, onlara Azadə ilə razılaşma haqqında xəbər verdim və bu saatdan etibarən biz planımızın yerinə yetirilməsi üçün lazım olan hər şeyi hazırlamağa başladıq.

Köməkçilərimizə öz parolumuzu deyib, onlara tapşırdıq ki, sabahkı günün sübh çağında bizimlə görüşə hazır olsunlar.

Gecə düşəndə mən dostlarımla birgə danışdığımız vaxt qazma yerinin yanına gəldik. Onu tezliklə tapıb, otağın içinə girdik, orada

hazırlanmış silahı götürdük, çırağı yandırdıq və Allahın düşməninin yatdığı otağa getdik. Əmim qızı, onun otağının qapısının önündə dayanmışdır. Mən onun yataq otağına girəndə Əl-Əsvad bərk xoruldayırdı.

Mən ülgücü onun boğazına çəkdim və o, öküz kimi xırıldadı, sonra isə kəsilmiş dəvətək qıc oldu. Əl-Əsvadın ölümqabağı xırıltısını eşidən keşikçilər içəri girib qışqırdılar: «Nə baş verir?!»

Əmim qızı onlara dedi:

Sakit olun və gedin. Allahın Rəsuluna ilahi vəhy nazil olub...

Keşikçilər çıxıb getdilər...

* * *

Biz sübhə qədər qəsrdə qaldıq, sonra isə mən divarların birinin üstünə çıxıb bəyan etdim:

– Allahu əkbər! Allahu əkbər!

Sonra mən azanı deməyə davam etdim: Şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur, şəhadət verirəm ki, Məhəmməd Allahın Rəsuludur və şəhadət verirəm ki, Əl-Əsvad Əl-Ansi yalançıdır. Bu elə bizim parolumuz idi.

Müsəlmanlar hər tərəfdən qəsrə yaxınlaşdılar. Mənim səsimdən həyəcana gələn mühafizə dəstəsi irəliyə cumdu və iki tərəf arasında çaxnaşma başladı. Mən sarayın divarından onlara Əl-Əsvadın başını atdım... Onu görən döyüşçülər sarsıntılar keçirtdilər və ruhdan düşdülər. Bu mənzərədən ilhamlanan müsəlmanlar isə hamı bir nəfər kimi düşmənə hücum edib hələ gün çıxmamış onların işini bitirdilər.

* * *

Səhər açılanda biz Peyğəmbərə ﷺ namə göndərdik və orada Allahın düşməninin həlak olmağı haqqında şad xəbər qeyd etdik. Çaparlarımız Mədinəyə çatanda gördülər ki, Rəsulallah ﷺ həmin gecə vəfat edib.

Lakin onlar bildilər ki, Peyğəmbərə ﷺ həmin gecə ilahi vəhy ilə Əl-Əsvad Əl-Ansinin ölümü haqqında xəbər verilmişdir. Rəsulallah ﷺ öz səhabələrinə dedi:

– Dünən gecə Əl-Əsvad Əl-Ansi öldürüldü... Onu evin xeyirli sakinlərindən olan xeyirli insan öldürüb.

Ondan soruşdular:
– Ya Rəsulallah, bəs o insan kimdir?
O, cavab verdi:
– Feyruz. Feyruz qələbə çaldı.[135]

* * *

[135] Feyruz Əl-Daylami və Əl-Əsvad Əl-Ansi haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə», 3/210;
2. «Əl-İstiəb», 3/204
3. «Əsəd əl-Qaba», 4/371
4. «Tahzib əl-Tahzib», 8/305
5. «Əl-Təbəqat əl-Kubra», İbn Sad, 5/533
6. «Tarix ət-Təbəri», 3-cü hissəyə və 10-cu hissənin mündəricatına bax.
7. «Əl-Kamil» İbn Əl-Əsir, 11-ci ilin hadisələri haqqında.
8. «Futuh əl-Buldan», «Əl-Balazri», 111-113
9. «Cumhurat əl-Ənsab», 381
10. «Tarix əl-Xamis», 2/155
11. «Daurat əl-Məarif əl-İslamiyyə, 2/198
12. «Tarix xəlifət ibn Həyat», 84
13. «Həyat əs-Səhabə», 2/238-240
14. «Əl-Ələm, Əl-Zərkali, 5/371 (Əl-Əsvad əl-Ans tərcümeyi-halı və 5/299).

# SABİT İBN QEYS ƏL-ANSARİ

*«Ölğmündən sonra etdiyi vəsiyyəti yerinə yetən yeganə insan Sabit ibn Qeys idi».*

Sabit ibn Qeys əl-Ansari Əl-Xəzrac [136] qəbiləsinin əsas başçılarından biri və həmçinin bütün Yəsribdə ən tanınmış insan idi.

Bununla yanaşı o, gözüaçıq, ağıllı, zirək və natiq insan idi. Sabit istədiyi adamı mübahisədə məğlub edə bilirdi, nitq ilə müraciət edəndə isə dinləyicilərin diqqətini tamamilə öz əlinə alırdı.

O, Yəsribdə islam dinini qəbul edən ilk insanlardan olub, çünki məkkəli moizəçi Musab ibn Umeyrin melodik və təsirli səsi ilə oxuduğu Müqəddəs Quran ayələrini eşidib, onların lətafətinə məftun olmuşdur. Onun ürəyi Allahın Kitabının parlaq həqiqəti tərəfindən fəth edilmişdir. O, Sabiti öz mömin nəsihətləri və qanunları ilə heyran etdi.

Allah onun qəlbini həqiqi dini qəbul etmək üçün açaraq, onun üçün gözəl qismət hazırladı, onu islamın Peyğəmbərinin ﷺ bayrağı altına yerləşdirərək məşhurlaşdırdı.

* * *

Rəsulallah ﷺ – Məkkədən hicrət edərək Mədinəyə gələn zaman Sabit ibn Qeys öz millətindən olan ən yaxşı və tanınmış cəngavərlərdən ibarət olan dəstənin başında olmaqla onu qarşıladı. Sabit Peyğəmbəri ﷺ və onu müşayiət edən Əs-Siddiqi mehribanlıqla salamladı. O, Rəsulallaha ﷺ səmimi nitqlə müraciət etdi. Əvvəl o, Allaha həmd edib, ona təşəkkürlərini bildirdi, sonra onun Peyğəmbərini salamladı və xeyir-dua verdi.

Sabit öz nitqini belə bitirdi:

– Ya Rəsulallah, biz sənə təntənəli surətdə söz veririk ki, özümüzü, övladlarımızı və qadınlarımızı qoruduğumuz kimi, səni də qoruyacağıq. Buna görə bizə nə düşəcək?

---

[136] Əl-Xəzrac – Yəmən mənşəli ərəb qəbiləsi. Mədinəyə köçərək, orada məskən saldı. Əl-Aus qəbiləsi ilə birgə ənsarların əsas dəstəsini təşkil edirdi.

– Cənnət, – deyə, Peyğəmbər ﷺ cavab verdi.

Oradakılar «cənnət» sözünü eşidən kimi üzləri sevincdən nur saçdı və onlar heyrətlənərək qışqırdılar:

– Biz razıyıq, ya Rəsulallah... Biz razıyıq, ya Rəsulallah...

Həmin gündən etibarən Rəsulallah ﷺ Sabit ibn Qeysi özünə natiq etdi. Həssan ibn Sabit onun şairi olduğu kimi, natiqlik və poeziya üzrə yarışlar keçirmək üçün Mədinəyə Peyğəmbərin ﷺ yanına çoxsaylı ərəb qəbilələrinin nümayəndələri gələndə natiqlər müsabiqəsinə Rəsulallah ﷺ həmişə Sabit ibn Qeysi, şairlər müsabiqəsinə isə Həssan ibn Sabiti göndərirdi.

* * *

Sabit ibn Qeys çox mömin, Allahdan qorxan bir insan idi. O, öz rəbbinin qarşısında qorxudan əsirdi və Uca və Qüdrətli Allahın qəzəbini yarada biləcək bütün şeylərdən hər cür çəkinirdi.

Bir dəfə Rəsulallah ﷺ Sabiti dərin hüzn və ümidsizlik içində qorxudan və dəhşətdən əsən halda gördü və ondan soruşdu:

– Ya Əbu Məhəmməd nə olub sənə?!

Sabit dedi:

– Ya Rəsulallah, qorxuram ki, canımın aqibəti pisdir.

Niyə ki? – Peyğəmbər ﷺ soruşdu.

Sabit cavab verdi:

– Uca və Qüdrətli Allah bizə etmədiyimiz şeylərə görə edilən təriflərə məftun olmağı qadağan edib, mən isə aşkar etmişəm ki, tériflər xoşuma gəlir... O, bizə təkəbbürü və lovğalığı qadağan edib, mən isə görürəm ki, məğrurluq xoşuma gəlir.

Rəsulallah ﷺ onu sakitləşdirərək dedi:

– Ya Sabit! Məgər tərifə layiq həyat sürmək, yaxud döyüş meydanında qəhrəman kimi ölmək və cənnət sakini olmaq xoşuna gəlmir?..

Sabit bu şad xəbəri eşidən kimi üzü güldü, və o, ucadan dedi:

Bəli, əlbəttə, ya Rəsulallah! Təbii ki, mən bunu istəyirəm, ya Rəsulallah!

Peyğəmbər ﷺ dedi: «Onda bu sənin qismətində var».

* * *

Uca Tanrı bu ayəni nazil etdi: **«Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən, əməlləriniz puç olar!»** («Hucurat», 2).

Bundan sonra Sabit ibn Qeys, Rəsulallaha ﷺ olan böyük məhəbbəti və bağlılığına baxmayaraq, onun bütün məclislərindən çəkinməyə başladı. O, vaxtının çox hissəsini evdə qalırdı; evi yalnız ümumi namazın qılınması üçün tərk edirdi.

Onu axtarmağa başlayan Peyğəmbər ﷺ soruşdu: «Kim Sabitə baş çəkər və ona nə olduğunu mənə danışar?».

Ənsarlardan biri dedi: «Ya Rəsulallah, mən bunu edərəm».

Həmin adam Sabitin yanına gəlib onu evdə başı aşağı, çox kədərli halda gördü. O, Sabitdən soruşdu: «Ya Əbu Məhəmməd, nə olub sənə?»

Sabit dedi: «Başıma bəla gəlib».

Ənsar soruşdu: «Nədir ki?»

Sabit cavab verdi: «Sən bilirsən ki, mənim güclü səsim var. Və o, çox vaxt Peyğəmbərin səsindən daha uca olur. Və budur, Quran ayəsi nazil oldu. Sən onu bilirsən. Bu isə o deməkdir ki, mənim işlərim faydasızdır və mən cəhənnəm sakini olacam...»

Həmin adam Peyğəmbərin ﷺ yanına gəlib, ona gördüyünü və eşitdiyini danışdı. Peyğəmbər ﷺ əmr etdi:

– Sabitin yanına get və ona de: «Sən cəhənnəm sakini olmayacaq, çünki sənin qismətinə cənnətdə qalmaq yazılıb».

Bu, Sabit üçün ən gözəl xəbər oldu, və o, bütün ömrü boyu ona vəd olunan neməti əldə etmək ümidi ilə yaşadı.

* * *

Sabit ibn Qeys Bədr döyüşündən başqa Rəsulallahın ﷺ bütün hərbi yürüşlərində iştirak etmişdir. O, bütün döyüşlərdə çaxnaşmanın lap sıx yerində olub, Peyğəmbərin ﷺ ona xəbər verdiyi döyüş meydanındakı ölümü axtarırdı. Lakin onun ölümə çox yaxın olduğuna baxmayaraq, bu ona heç cür qismət olmurdu...

Bu, Əs-Siddiqin xəlifəliyi dövründəki mürtədlərlə gedən müharibələrin başlanmasına və müsəlmanların yalançı peyğəmbər

Museylimə ilə mübarizəyə qalxdığı vaxta qədər davam etdi.

O, zamanlar Sabit ibn Qeys ənsarların qoşunlarına, Səlim Mövla Əbu Hüzeyfə isə mühacirlərin qoşunlarına başçılıq edirdilər. Xalid ibn Valid bütün qüvvələrin; ənsarların, mühacirlərin və həmçinin bədəvilərin qoşunlarının baş komandanı idi.

Museylimə və onun əlaltıları ilə gedən şiddətli döyüşlərin nəticəsində qələbə yalançı peyğəmbərin tərəfinə keçməyə başladı. Mürtədlər hətta baş komandan Xalid ibn Validin çadırlarına gəlib çıxaraq arvadı Umm Təmiməni öldürmək fikrinə düşdülər. Onlar çadıra birləşən bütün ipləri kəsib, çadırın parçasını tikə-tikə etdilər.

Sabit ibn Qeys həmin gün müsəlmanların başlarına gələn zəiflik və sarsıntını görəndə ürəyi qəm-qüssə ilə doldu. O, müsəlmanların bir-birinə dedikləri tənələri və onların qarşılıqlı məzəmmətlərini eşidəndə qəlbinə həyəcan və narahatlıq daxil oldu.

Şəhərli ərəblər bədəviləri qorxaqlıqda təqsirləndirirdilər, bədəvilər isə öz növbələrində deyirdilər ki, şəhərli ərəblər vuruşmağı bacarmırlar və müharibənin nə olduğunu bilmirlər. Sabit meyitlər üçün hazırlanan məlhəmi bədəninə sürtüb və kəfənə bürünüb hamının qarşısında bəyan etdi:

– Ey müsəlmanlar! Rəsulallahın vaxtında biz belə vuruşmurduq! Düşmənlərimizin sizə hücum etmələrinə baxmaq mənim üçün kədərlidir.

Həmçinin onların əlindən məğlubiyyətə uğramağımıza da baxmaq mənim üçün çox kədərlidir.

Sonra nəzərini gözlərə dikib dedi:

Ya Allah, həqiqətən bu bütpərəstlərin (Museylimə və əlaltılarının) gətirdikləriylə əlaqəm yoxdur. Həqiqətən, mənim bunların (yəni müsəlmanların) törətdikləriylə də əlaqəm yoxdur!

Sonradan o, öz silahdaşları Əl-Bəraə ibn Malik Əl-Ənsari, Ömər ibn Əl-Xəttabın qardaşı Zeyd ibn Əl-Xəttab, Səlim Mövla Əbu-Hüzeyfə və başqalarıyla çiyin-çiyinə qəzəblənmiş aslan kimi düşmənə hücum etdi.

Sabit döyüşdə qəhrəmanlıq möcüzələri göstərib, müsəlmanların qəlblərinə hərbi ruh və qətiyyət, bütpərəstlərin ürəkləri nə isə dəhşət və zəiflik salırdı.

Sabit istənilən yerdə və istənilən silahla döyüşməyə davam

edirdi. Nəhayət, yaralı vəziyyətdə lakin xoşbəxt ikən döyüş meydanında yerə sərildi. Allahın yazdığı və Rəsulallahın ﷺ qabaqcadan dediyi yerinə yetdi. Sabit arzu etdiyi şəhid kimi ölməyi bacardı. Onun vasitəsilə Allah müsəlmanlara parlaq qələbə bəxş etdi.

* * *

Sabit döyüş zamanı üzərində çox qiymətli zireh gəzdirirdi. Sabitin yanından ötüb keçən müsəlman döyüşçü onun bədənindən zirehi çıxarıb özünə götürdü.

Sabit öldükdən sonra növbəti gecə müsəlmanlardan birinin yuxusuna girib ona dedi:

– Mən Sabit ibn Qeysəm. Sən məni tanıdın?

– Hə, – həmin adam cavab verdi.

Sabit dedi: «Sənə tapşırıq vermək istəyirəm. Bu tapşırığı danışanda çalış dediklərimdən bir şeyi yaddan çıxarma...

Dünən məni öldürəndən sonra cəsədimin yanından bir müsəlman əsgəri keçirdi. Onun görünüşü belə idi... O, əynimdən zirehimi çıxardıb, onu düşərgənin bu yerində ... yerləşən çadırına apardı. Orada o, onu öz qazançasının altına qoydu, üstünə isə dəvənin yəhərini yerləşdirdi. Xalid ibn Validin yanına get və ona de: «Hələ ki, Sabitin zirehi göstərilən yerdədir, öz adamlarını o zirehi götürən döyüşçünün yanına göndər».

İndi isə mənim başqa bir tapşırığım var. Bu tapşırığımdan da bir şeyi unutma... Xalidə de: «Sən Mədinəyə Rəsulallahın xəlifəsinin yanına gələndə, ona de ki, Sabit ibn Qeysin filan qədər borcu qalıb, qullarından da iki nəfər: filankəs və filankəs azaddırlar. Qoy o, mənim borcumu ödəsin və dediyim iki nökərimi köləlikdən azad etsin».

Həmin adam oyananda Xalid ibn Validin yanına gəlib, yuxuda gördüklərini ona danışdı. Xalid öz adamını Sabitin zirehinin dalınca göndərəndə, onu məhz həmin göstərilən yerdə tapıb, geri qaytardılar.

Mədinəyə qayıdan Xalid Əbu Bəkrə Sabit ibn Qeysin bu əhvalatını danışdı və onun vəsiyyətini Əs-Siddiqə çatdırdı. Əs-

Siddiq onu yerinə yetirdi.

Beləliklə, Sabit öldükdən sonra etdiyi vəsiyyəti yerinə yetirən yeganə insan oldu. Allah Sabit ibn Qeysdən çox razı idi və onu əbədi istirahətin ən uca məqamında yerləşdirib, tamamilə razı saldı.[137]

* * *

---

[137] Sabit ibn Qeys Əl-Ansari haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə», 1/195;
2. «Əl-İstiəb», 1/192;
3. «Tahzib əl-Tahzib», 2/12;
4. «Fəth əl-Bəri», 6/405;
5. «Tarix əl-İslam», Əz-Zəhəbi, 1/371;
6. «Həyat əs-Səhabə», 4-cü hissənin mündəricatına bax.
7. «Əl-Bəyan və Əl-Tabiyin», 1/201, 359
8. «Sira ibn Hişam» 2/152, 3/318, 4/207
9. «Əs-Sadıq», Hüseyn Hayqal, 160.
10. «Siyər ələm ən –Nübələ»
11. «Əsəd əl-Qaba», 1/275

# ƏSMA BİNT ƏBU BƏKR

*«Əsma yüz il yaşadı, amma buna baxmayaraq nə bir dişini itirdi, nə də əqli cəhətdən zərrə qədər də olsa zəifləmədi».*

Tarixçilər

Rəsulallahın ﷺ bu səhabəsi hər tərəfdən şöhrətlə əhatə edilmişdi...

Onun atası, babası, bacısı, əri və oğlu Rəsulallahın ﷺ səhabələri olub. Artıq tək bu, qürur və xüsusi ehtiram üçün səbəbdir.

Onun atası Əbu Bəkr Əs-Siddiq nəcib Peyğəmbərin ﷺ yaxın dostu, onun ölümündən sonra isə onun varisi olub.

Onun babası Əbu Ətiq Əbu Bəkrin atası olub.

Təmiz və günahsız möminlər anası Aişə onun bacısı olub. Onun əri Əz-Zübeyr ibn Əl-Avvam Rəsulallahın ﷺ yaxın silahdaşı və şagirdi olub.

Əsmanın oğlu isə Abdullah ibn Əz-Zübeyr idi. Allah onların hamısından razı olsun...

Bir sözlə, Əsma bint Əbu Bəkrin əhatəsi belə idi.

* * *

Əsma İslam dinini ilk qəbul edənlərdən biri olub. Bu comərdlikdə onu cəmi yeddi nəfər: qadın və kişi qabaqlayıb. Əsma həmçinin «iki kəməri olan» ləqəbini almışdır.

Rəsulallah ﷺ onun atasıyla Mədinəyə yola düşəndə o, onlar üçün yola ərzaq və su tuluğunu hazırladı. Bunları birləşdirmək üçün bir şey tapmayan Əsma öz kəmərini cırıb iki hissəyə böldü. O, kəmərinin bir yarısı ilə ərzaqlar olan torbanı, ikinci hissəsiylə isə su tuluğunu bağlayıb bərkitdi. Bunu görən Peyğəmbər ﷺ Allaha dua etdi ki, O, Əsmaya cənnətdə iki kəmər bəxş etsin. Buna görə də onu «iki kəməri olan» adlandırdılar.

Vaxtilə bir nökəri belə olmayan kasıb oğlan Əz-Zübeyr ibn Əl-Avvam Əsma ilə evləndi. Onun bircə atından başqa nə mülkü, nə başqa vəsaitləri var idi. Amma bütün bunların əvəzinə o, mömin arvadı nemət kimi qazandı. O, ərinə qulluq edir, atına baxır onun

üçün yeməyə buğda dənələrini əzirdi. Lakin sonradan Allahın Əz-Zübeyrə yazığı gəldi, və o, Rəsulallahın ﷺ ən varlı səhabələrindən biri oldu.

* * *

Allahın və onun Rəsulunun ﷺ yanına qaçmaq imkanı Əsmanın əlinə düşəndə o, hamiləliyin sonuncu ayında idi. Amma bu ona uzun və ağır səyahətə çıxmağa mane olmadı. Mədinənin yaxınlığında yerləşən Quba kəndində o öz oğlunu dünyaya gətirdi. Bütün müsəlmanlar ucadan «Allahu Əkbər» deyib, ona həmd dedilər, çünki bu, Mədinədə mühacirlərin yeni doğulmuş ilk körpəsi idi.

Əsma uşağını Rəsulallahın ﷺ yanına gətirib, onu Peyğəmbərin ﷺ dizlərinin üstünə qoydu. Peyğəmbər ﷺ öz tüpürcəyindən bir qədər götürüb körpənin ağzına qoydu, sonra isə Allahdan onun üçün xeyir-dua istədi. Beləliklə, Əsmanın oğlunun daxilinə gedən ilk şey, Rəsulallahın ﷺ tüpürcəyi oldu.

* * *

Əbu Bəkrin qızı ən mömin, nəcib və yaxşı xüsusiyyətləri özündə toplamışdır. O, həm də kişilərdə nadir halda rast gələn kamala malik idi.

O, həyatda hədsiz səxavət nümunəsi idi. Oğlu Abdullah danışırdı: «Mən öz həyatımda xalam Aişə və anam Əsma kimi səxavətli qadınlar görməmişdim. Lakin onların səxavəti fərqli idi. Xalam kifayət qədər məbləğ yığılanadək yavaş-yavaş vəsaitləri toplayırdı ki, onu imkansızlar arasında bölmək mümkün olsun. Anam isə bir şeyi əldə edən kimi, hətta növbəti günün gəlməsini belə gözləmirdi».

* * *

Əsma öz iti ağlının sayəsində ən ağır vəziyyətlərdən çıxırdı. Məsələn, Əs-Siddiq Rəsulallah ﷺ ilə birgə hicrət edəndə özü ilə altı min dirhəm məbləğində olan bütün pulları götürdü və ailəsinə heç nə saxlamadı...

Əbu Bəkrin bütpərəst atası Əbu Quhafə oğlunun getməyini bilən kimi onun evinə gəlib, Əsmaya dedi:

– Allaha and olsun! O öz hərəkətlərilə sizə vurduğu zərbədən sonra, bütün pulları götürməklə sizə yamanlıq edib:

Əsma ona etiraz edərək dedi:

– Yox, ata! O, bizim üçün çox pul saxlayıb.

Sonradan Əsma xırda daşları götürüb, onları həmişə pul saxlanılan yerə – divardakı oyuğun içinə qoydu. Və onların üstünü geyimlə örtdü. Qoca kor olduğu üçün, Əsma onun əlindən tutaraq dedi:

– Ata, onun bizim üçün nə qədər pul saxladığına özün əmin ol. Sonra Əsma qocanın əlinin altında daşlar olan geyimin üstünə qoydu. Qoca dedi: «Bu kifayət edəcək məbləğdir. Əgər o, sizə bu qədər pul saxlayıbsa, o, yaxşı hərəkət edib».

Bununla Əsma qocanı sakitləşdirmək istəyirdi ki, o, öz pullarını onlara verməyə məcbur olmasın. O, bütpərəstdən hər hansı köməyi və ya hədiyyəni almaq istəmirdi. Hətta əgər bu, onun babası olsaydı belə.

* * *

Əgər tarix Əbu Bəkrin qızı Əsmanın bütün gözəl əməllərini unutsa belə, o, heç vaxt Əsmanın oğlu Abdullah ilə olan son görüşü zamanı nümayiş etdirdiyi dərrakə, qətiyyət və iman gücünü heç vaxt unutmaz.

* * *

Yəzid ibn Müaviyənin ölümündən sonra xəlifəlik Abdullah ibn Əz-Zübeyrə keçdi. Ona Əl-Hicaz, Misir, İraq, Xorasan və Şamın böyük hissəsi ona tabe oldu.

Lakin əməvilər dərhal Əl-Həccac ibn Yusif Əs-Səqəfinin başçılığı ilə böyük ordu hazırlayıb, ona qarşı yürüşə çıxdılar. Vuruşan tərəflər arasında qanlı döyüşlər başlandı. Burada İbn Əz-Zübeyr özünə layiq qəhrəmanlıq göstərdi.

Lakin onun tərəfdarları onu tədricən tərk etməyə başladılar. O,

Allahın Evinin müqəddəs ərazisinə gələrək öz yoldaşlarıyla birgə Kəbənin yanında gizləndi. Öz ölümündən bir neçə saat əvvəl anası Əsmanın yanına gəldi. O zaman anası artıq qoca və kor idi. Abdullah ona dedi:

– Ana, Allahın sənə salamı, şəfqətli və xeyir-duası olsun.

Anası dedi:

– Abdullah, sənə də salam olsun. Əl-Həccacın mancanaqları müqəddəs ərazidə sənin döyüşçülərinə daşlar yağdıraraq bütün Məkkəni lərzəyə gətirdiyi bir vaxtda səni bura nə gətirib?

– Mən gəlmişəm səndən məsləhət almağa, – Abdullah dedi.

– Məndən məsləhət almağa?! Nə üçün?

Abdullah dedi:

– Adamlar Əl-Həccacdan qorxub, ya da onda olanlara həvəslənib, məni köməksiz buraxdılar. Məni hətta övladlarım və yaxınlarım da tərk etdilər. Mənimlə yalnız tərəfdarlarımdan ibarət balaca bir dəstə qalıb: onlar da nə qədər şiddətlə döyüşsələr belə, iki saatdan çox davam gətirə bilməzlər. Əməvilər mənə söz verirlər ki, əgər təslim olub Əbdül-Malik ibn Mərvana sadiq olacağıma and içsəm, istənilən var-dövləti və dünya nemətlərini mənə verəcəklər. Sən bu haqda nə fikirləşirsən?

Əsma ucadan dedi:

– Abdullah, bu sənin işindir, çünki sən özünü yaxşı tanıyırsan. Əgər sən əminsən ki, düz yoldasan və həqiqətə dəvət edirsən, onda mətin ol və sənin bayrağının altında həlak olan yoldaşların kimi inadla vuruş...

Amma əgər dünya nemətlərinə can atırdınsa, onda sən Allahın pis bəndəsisən, adamlarını və özünü məhv etdin.

– Amma bu o deməkdir ki, bu gün mən mütləq öldürüləcəyəm, – Abdullah dedi.

Əsma cavab verdi:

– Bu sənin üçün özünü könüllü surətdə Əl-Həccacın əlinə verməkdən daha yaxşıdır. Sonra əməvili nökərlər səni əllərində oyuncaq edəcəklər.

– Mən ölümdən yox, bədənimi təhqir etməklərindən qorxuram, – Abdullah dedi.

– Öləndən sonra insan üçün heç nə qorxulu deyil. Başı kəsilmiş qoyunun dərisini soyanda, o, heç nə hiss etmir..., – Əsma dedi. Abdullahın üzü sevincdən nur saçdı və o, ucadan dedi:

– Xeyirli olasan! Sənin uca və tərifəlayiq xüsusiyyətlərin xeyirli olsun!

Mən belə bir vaxtda yanına yalnız sənin dediklərini eşitmək üçün gəldim.

Allah bilir ki, mən zəifləyib, gücdən düşməmişəm. Allah şahiddir ki, mən bütün bunları heç də dünya üçün və onun dəb-dəbəsi üçün etməmişəm. İnsanların öz istədikləri kimi Allahın qanunlarını pozduqlarına görə qəzəbli olduğum üçün, bütün işlərimi görürdüm. İndi isə mən sənin istədiyin kimi edəcəyəm.

Məni öldürsələr, kədərlənmə və Allahın qərarına tabe ol...

– Sən haqsız bir iş üçün həlak olsaydın, sənin üçün kədərlənərdim, – Əsma dedi.

Abdullah davam etdi:

– Arxayın ol. Mənim ömrümdə heç vaxt haram, günah və ya Allahın qanununa zidd olan heç bir iş görmək fikrim olmayıb.

Mən heç vaxt namərd və namussuz olmamışam, müsəlmanı incitməmişəm və mənim himayə etdiyim və başqa dinə mənsub olanlarla bağlanan müqaviləni pozmamışam.

Mənim üçün Uca və Qüdrətli Allahın iltifatından daha yüksək heç nə olmayıb...

Mən bütün bunları özümü təmizə çıxartmaq üçün demirəm, çünki Allah mənim haqqımda hər şeyi məndən yaxşı bilir.

Mən bütün bunları ondan ötrü dedim ki, sənin ürəyin möhkəm olsun.

Əsma dedi:

– Səni özünə və mənə lazım yola gətirən Allaha şükür olsun... Oğlum, yaxın gəl ki, səni iyləyim və sənə toxunum çünki, yəqin, bu bizim son görüşümüzdür.

Abdullah anasının əl-ayağına düşüb, onları öpməyə başladı, Əsma isə oğlunun üzünə və saçlarına sıxılaraq, onu iyləyirdi və öpürdü. Abdullahı qucaqladı, bədəninə sığal çəkdi. Birdən əllərini qaldırıb qışqırdı:

– Abdullah, əynində nə var?!

– Zireh, – deyə Abdullah cavab verdi.

– Oğlum, döyüş meydanında şəhid kimi ölmək istəyən bu geyimi geyməz, – Əsma ucadan dedi.

– Mən bunu, yalnız sənin ürəyini sakit etmək üçün geyinmişəm, – Abdullah dedi.

– Onu çıxart, – Əsma tələb etdi – Bu, sənin mərdliyini və cəsarətini artırar, döyüş qeyrətini gücləndirər və hərəkətlərini asanlaşdırar. Bunun əvəzinə uzun enli şalvar geyin ki, ölsən, bədənin çılpaq olmasın.

Abdullah ibn Əz-Zübeyr əynindən zirehi çıxardıb, öz şalvarını geyindi və döyüşü davam etdirmək üçün müqəddəs əraziyə getdi. Vidalaşaraq o, anasına dedi:

– Ana, mənim üçün Allaha dua et.

Əsma əllərini qaldırıb dua etdi:

– Allahım, bütün insanlar yatarkən onun oyaq qalıb gecənin zülmətində Sənə səmimi qəlblə etdiyi dualarına yazığın gəlsin!

Ya Rəbbim, o, Mədinədə və Məkkədə oruc tutduğu zaman onun aclığına və susuzluğuna rəhm et!

Ya Rəbbim, onun öz ata-anasına olan mehribanlığı və məhəbbətinə rəhm et!

Ya Rəbbim, onu Sənin ixtiyarına verdim və Sənin hər bir qərarından razı olacağam.

Ona mətinlərin mükafatını nazil et.

* * *

Həmin gün qüruba qədər Abdullah ibn Əz-Zübeyr bu həyatı tərk edib, öz Rəbbinin himayəsi altına keçdi.

Abdullahın ölümündən cəmi bir neçə həftə keçdikdən sonra Əbu Bəkrin qızı Əsma ona qovuşdu. O, yüz il yaşadı, amma bununla belə bir dişini itirmədi və əqli cəhətdən zərrə qədər zəifləməmişdi.[138]

* * *

[138] Əsma bint Əbu Bəkr haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə» 46.
2. «Əsəd əl-Qaba» 5/392-393
3. «Əl İstiəb» /Heydər Abadın kəşri/ 2/704-705
4. «Tahzib əl Tahzib», 12/397
5. «Sifət əs-Səfva», 2/31-32
6. «Şəzərat əz-Zəhəb» 1/80
7. «Tarix əl-İslam», Əz-Zəhəbə 3/133-137
8. «Əl-Bidayə və ən-Nihayə» 8/346
9. «Ələm ən-Nisa», Kahala, 1/36
10. «Abdullah ibn Əz-Zubeyr», doktor Əl-Harbutlinin «Görkəmli ərəblər» seriyasından
11. «Siyər ələm ən-Nübələ» 2/208
12. «Qalaud əl-Cəmmən» 149
13. «Əl Nucum əz-Zəhra 1/189
14. «Əl-Mühabbər» 22,54, 100

# TALHA İBN UBEYDULLAH

*«Əgər kiməsə, öz ölümündən sonra yerdə gəzən insana baxmaq sevinc gətirirsə, qoy o kəs Talha ibn Ubeydullaha baxsın.»*
Məhəmməd, Allahın Rəsulu

Talha ibn Ubeydullah Əm-Teymi qureyşlilərin ticarət karvanlarının biri ilə birgə Şamda idi. Karvan Bəsrəyə[139] çatanda, qureyşli tacir-şeyxlər şəhərin izdihamlı bazarına can atıb, alverlə məşğul olmağa başladılar. Talhanın gəncliyinə və şeyxlərdə olan ticarət təcrübəsinin onda olmamasına baxmayaraq, onun iti ağlı və fərasəti ona şeyxlərlə rəqabət aparmağa və ən əlverişli müqavilələr bağlamağa imkan verirdi.

Talha səhərdən axşamadək bütün vaxtını bazarda keçirirdi. Burada onun həyatının gedişatını dəyişən hadisə baş verdi.

Bu hadisə tarixin bütün gedişatının dəyişməsinin nişanəsi oldu.

Öz maraqlı əhvalatını danışmaq üçün sözü Talha ibn Ubeydullaha verək.

Beləliklə, Talha danışırdı:

* * *

Günlərin bir günü, biz Bəsrənin bazarında olanda, xaçpərəst rahiblərdən biri oradakılara müraciət edərək dedi:

– Ey tacirlər! Adamlardan soruşun, burada məkkəlilərdən kimsə varmı.

Mən yaxınlığında olduğum üçün tez ona dedim:

– Hə, mən məkkəliyəm.

O, soruşdu:

– Sizin aranızda Əhməd peyda olub?

Soruşdum ki, Əhməd kimdir?

O dedi:

- Abdullah ibn Əbdül-Muttalibin oğlu. O, məhz bu ayda peyda

---

[139] Bəsrə – Suriyada şəhər. Hal-hazırda Xuran əyalətində yerləşir.

olmalıdır, və o, peyğəmbərlərin sonuncusudur...

O, sizin məkkə torpağınızdan çıxıb, qara qayalıqlar, palmalar və sulu bataqlıqlar olan yerə köçəcək. Ey oğlan, onun yanına tələs.

Talha davam edirdi:

Rahibin dedikləri ürəyimdə dərin iz buraxdı. Mən dərhal öz dəvələrimin yanına tələsdim, onları yəhərləyib, getməyə hazırlaşdım. Sonra karvanı orada qoyub Məkkəyə tələsdim.

Məkkəyə çatan kimi adamlardan soruşdum:

– Biz gedəndən sonra Məkkədə bir şey baş verib?

Mənə dedilər:

– Hə, Məhəmməd ibn Abdullah peyda olub, özünü Peyğəmbər elan etdi, İbn Əbu Quhafa (Əbu Bəkr) isə onun davamçısı oldu.

Mən Əbu Bəkri yaxşı tanıyırdım. O, mehriban və xoş ünsiyyətli biri idi. O, gözəl xasiyyətli tacir idi. Biz onunla dostluq edirdik, onun məclislərini sevirdik, çünki o, qureyşlilərin tarixini yaxşı bilir və onların nəsil tarixindən də başı çıxırdı.

Mən onun yanına gəlib soruşdum:

– Düz deyirlər ki, Məhəmməd ibn Abdullah peyğəmbərliklə gəlib, sən də onun tərəfdarı olmusan?

– Hə, – o, dedi. – Bu belədir.

Sonra o, mənə Peyğəmbər haqqında danışdı və məni dilə tutmağa başladı ki, ona qoşulum.

Mən ona rahib haqqında danışanda, o, çox təəccübləndi və təklif etdi:

– Gəl, birlikdə Məhəmmədin yanına gedək, və sən özün ona bu haqda danışarsan, sonra isə Allahın dinini qəbul etmək üçün onun dediklərini dinləyərsən.

Talha öz hekayəsini danışmağa davam edirdi:

Mən Əbu Bəkrlə birlikdə Məhəmmədin yanına gedəndə o, mənə islamı qəbul etməyi təklif etdi. Mənim üçün Qurandan bəzi ayələri oxudu və o biri həyatda nemətlər vəd etdi.

Allah mənim qəlbimi islama yönəltdi və mən peyğəmbərə bəsrəli rahib haqqında danışdım. Mənim hekayəm Məhəmmədi sevindirdi və bu, onun sifətində əks olundu...

Sonra mən onun qarşısında elan etdim ki, Allahdan başqa tanrı yoxdur və Məhəmməd Allahın Rəsuludur. Beləliklə, mən Əbu Bəkrin vasitəsilə islamı qəbul edən dördüncü adam oldum.

* * *

Cavan qureyşlinin islamı qəbul etməsi onun yaxınlarına və qohumlarına ildırım zərbəsi kimi təsir etdi. Bununla əlaqədar hamıdan çox əsəbiləşən və darıxan onun anası oldu. O, çox ümid edirdi ki, oğlu öz gözəl və nəcib xüsusiyyətlərinin sayəsində bu millətin başçısı olacaq...

* * *

Talhanın həmqəbilələri onu yeni dindən döndərmək istəyəndə gördülər ki, o, böyük sarsılmaz qaya kimi möhkəmdir. Qureyşlilərin onu xoşluqla fikrindən daşındırmaq cəhdləri boşa çıxanda, onlar cəza tədbirlərinə və işgəncələrə əl atdılar. Məsud ibn Xaraş danışır:

– Mən Əs-Səfa və əl-Mərva arasında qaçanda, gördüm ki, əlləri bağlı olan cavan oğlanı bir dəstə adam təqib edir. Onlar hamısı onun dalınca qaçaraq, onu kürəyindən itələyirdilər və başına zərbələr endirirdilər. Bu adamların arasında oğlanı ucadan söyən bir qoca qadın da var idi.

Mən soruşdum:

– Bu cavan oğlan kimdir?!

Mənə dedilər: «Bu öz dinini rədd edib, hansısa bir haşiminin tərəfdarı olan Talha ibn Ubeydullahdır.»

– Bəs onun dalınca qaçan o qoca qadın kimdir?

– O, onun anası əs-Səabə bint Əl-Hadramidir...

* * *

«Quryeşlilərin aslanı» ləqəbini almış Nofəl ibn Xuveylid Talha ibn Ubeydullaha yaxınlaşaraq onu Əbu Bəkr Əs-Siddiqə iplə möhkəm bağlayıb birləşdirdi, sonra isə onların ikisini də məkkə səfehlərinin əllərinə verdi ki, onlar bu iki nəfəri ən ağır işgəncələrə düçar etsinlər. Məhz bu səbəbdən Talha ibn Ubeydullah və Əbu

Bəkr Əs-Siddiq «birləşdirilmişlər» ləqəbini qazandılar.

* * *

Zaman öz axarı ilə gedirdi, hadisələr tədricən bir-birini əvəz edirdi və vaxt keçdikcə Talha ibn Ubeydullah yaşa dolurdu, onun Allah və Peyğəmbər rizası üçün olan fəaliyyəti artırdı.

Talhanın islama və bütün müsəlmanlara olan sadiqliyi və bağlılığı o qədər möhkəmləndi ki, insanlar onu diri «şəhid» adlandırmağa başladılar. Rəsulallah ﷺ özü isə onu «mehriban, səxavətli və comərd Talha» adlandırırdı.

Bu adların hər birinin öz gözəl tarixçəsi var idi və onlar biri digərindən gözəgəlimli və qəribə idi.

* * *

Talhanın «diri şəhid» adı Uhud döyüşü zamanı müsəlmanlar Rəsulallahı ﷺ tərk edəndə və onun yanında ənsarlardan cəmi on bir nəfərin, mühacirlərdən isə yalnız Talha ibn Ubeydullah qalması ilə bağlıdır.

Peyğəmbər ﷺ öz yoldaşlarıyla birlikdə dağlara qalxanda, bütpərəstlərdən ibarət bir dəstə Rəsulallahı ﷺ öldürmək məqsədi ilə onlara yaxınlaşdı.

Peyğəmbər ﷺ soruşdu: «Cənnətdə mənə yoldaş olmaq üçün kim bu allahsızların hücumunun qarşısını alar?»

Talha dedi:

– Ya Rəsulallah, bunu mən edərəm.

Peyğəmbər ﷺ dedi:

– Yox, sən yerində qal.

Ənsarlardan biri dedi:

– Onda bunu mən edərəm.

Peyğəmbər ﷺ razılaşdı:

– Yaxşı, onda sən bunu et.

Bu ənsar ölənə qədər düşmənin hücumunun qarşısını alırdı. Rəsulallah ﷺ öz yoldaşlarıyla dağlara çıxmağa davam edirdi, amma

bütpərəstlər onlara yenə çatırdılar. Peyğəmbər ﷺ qışqırdı: «Hücumun qarşısını kimsə almaq istəyirmi??!» Talha dedi:

– Ya Rəsulallah, mən.

– Yox, sən yerində qal, – Peyğəmbər ﷺ əmr etdi.

– Onda bunu mən edərəm, – ənsarlardan biri təklif etdi.

Peyğəmbər ﷺ dedi: «Yaxşı».

Ənsarlardan olan bu döyüşçü cəsarətlə döyüşə girdi. Və bütpərəstlər onu da öldürdülər. Rəsulallah ﷺ dağlarda öz yoluna davam edirdi, amma bütpərəstlər yenə ona çatdılar. O, yenidən öz sualını təkrarlayanda, Talha cavab verdi: «Ya Rəsulallah, mən bunu edərəm». Amma Peyğəmbər ﷺ bu dəfə də ona döyüşə girməyi qadağan etdi, ənsarlardan birinə isə bunu etməyə icazə verdi.

Ənsarların hamısı ölənədək bu vəziyyəti davam etdi və Peyğəmbərin ﷺ yanında bircə Talha qaldı. Bu dəfə bütpərəstlər onlara yaxınlaşanda Rəsulallah ﷺ dedi: «Hə, indi sən...».

Rəsulallah ﷺ ön dişi çıxmış, alnı yarılmış, dodağı zədələnmiş idi və qan üzünə axırdı. O, artıq yorğunluq hiss etməyə başladı. Talha bütpərəstlərin üstünə cumub, onları Peyğəmbərdən ﷺ uzaqlaşdırdı. Sonra Peyğəmbəri ﷺ belinə atıb, onu yuxarı, dağlara apardı. Bir qədər vaxt keçdikdən sonra, o, onu yerə qoyub, yenə də bütpərəstlərin hücumunu dəf etməyə başladı...

O, düşmənləri tamamilə qovana qədər, bu döyüş davam etdi.

Əbu Bəkr danışırdı: «Bu zaman mən və Əbu Ubeydə ibn Əl-Cərrah Rəsulallahdan ﷺ çox uzaqda idik. Biz ona yardım etmək üçün yanına qaçdıq o, isə dedi:

– Məni buraxın və öz yoldaşınızın yanına tələsin.

O, Talhanı nəzərdə tuturdu. Biz ona yaxınlaşıb gördük ki, onun qanı sel kimi axır, bədənində isə qılınclar, nizələr və oxlardan alınmış yetmişə qədər yara var idi...

O, bir əli kəsilmiş halda, həyat əlamətləri olmadan dərənin birində uzanmışdır.

Bundan sonra Rəsualallah ﷺ deyirdi:

«Əgər kiməsə öz ölümündən sonra yerdə gəzən insana baxmaq sevinc gətirirsə, qoy o kəs Talha ibn Ubeydullaha baxsın».

Əs-Siddiq hər dəfə Uhud döyüşünü xatırlayanda deyirdi:

– Həmin gün bütövlükdə Talhanın günü idi.

Talha ibn Ubeydullah «diri şəhid» adının sahibi olmasının tarixi belədir.

* * *

Onun «səxavətli» və «comərd» adlarına gəldikdə isə, buna dair yüz bir əhvalat danışmaq olar.

Məlumdur ki, Talha çox varlı tacir idi. Günlərin bir günü Hadramaytdan ona yeddi yüz min dirhəm göndərdilər. Həmin gecəni o, qorxu və dərin kədər içində keçirtdi. Onun arvadı, Əbu Bəkr Əs-Siddiqin qızı Umm Gğlsğm yanına gəlib soruşdu:

– Ya Əbu Məhəmməd, nə olub sənə?! Olmaya bizlərdən kimsə sənə yamanlıq etmişik?

Talha dedi:

– Yox, sən arvadların ən yaxşısısan... Mən bütün gecəni öz-özümə: «Evində bu qədər sərvəti olan və rahat yatan insan öz Rəbbi haqqında nə fikirləşir?» sualını verərək əzab çəkmişəm.

Arvadı soruşdu:

– Niyə bu səni belə narahat edir?! Niyə öz məzlum və yoxsul həmqəbilələrin haqqında düşünmürsən. Elə sabah səhər bu pulları onların arasında bölüşdür...

Talha qışqırdı:

– Allah sənə rəhm etsin! Sən bəxtəvər atanın qızı, bəxtəvər və fərasətli qadınsan...

Səhər tezdən Talha pulları pul kisələrinə yerləşdirdi, sonra isə onları mühacirlər və ənsarlardan olan yoxsullara payladı.

* * *

Həmçinin danışırlar ki, bir dəfə Talha ibn Ubeydullahın yanına bir nəfər gəlib onun qohumu olduğunu deyərək ondan maddi kömək

istədi. Talha dedi:

– Əvvəllər mənə bu qohumluq haqqında heç kim heç nə deməmişdir. Mənim bir torpaq sahəm var. Osman ibn Əl-Affan onu almaq üçün mənə üç yüz min təklif edirdi...

Əgər istəyirsən onu özünə götür, ya da mən o torpağı ona üç yüz minə satıb, pulunu sənə verim.

Həmin adam dedi: «Pulu götürsəm yaxşı olar...»

Talha ona bu məbləği verdi...

* * *

Rəsulallahın ﷺ Talhaya verdiyi «səxavətli və comərd Talha» adına eşq olsun! Allah ondan razı olsun və qəbrini nurla doldursun[140]!

* * *

[140] Talha ibn Ubeydulla haqqında əlavə məlumat almaq üçün bax:

1. «Ət-Təbəqat əl-Kubra» 3/2142
2. «Tahzib əl-Tahzib» 5/20
3. «Əl-Bid va əl-Tarix» 5/12
4. «Əl-Cəmə beynə ricəl əs-Səhiheyn» 230
5. «Qayət ən-Nihayə» 1/342
6. «Ər-Riyad ən-Nədra» 2/249
7. «Safət əs-Səfva» 1/130
8. «Hilyətəl-Övliyə» 1/7
9. «Zeyl əl-Müzzeyyəl» 11
10. «Tahzib İbn Əsakir» 7/71
11. «Əl-Muhabbər» 355
12. «Raqbət əl-Əmil» 3/16, 89
13. “Əl-İsabə”, 2/229;
14. “Əl-İstiab”, 2/219

# ƏBU HUREYRA ƏL-DAUSİ

*«Əbu Hureyra islam milləti üçün Rəsulallahın həyatından min altı yüzdən çox hədis qoruyub saxlamışdır».*
Tarixçilər

Şübhəsiz ki, sən Rəsulallahın ﷺ səhabələri sırasındakı bu parlaq ulduzu tanıyırsan. Heç islam millətində Əbu Hureyranın adını bilməyən insan tapılarmı?

İslamdan qabaqkı cahiliyyə dövründə insanlar ona Əbd Şəms deyirdilər. Allah onu islamla mükafatlandıranda və Peyğəmbər ﷺ ilə görüşdürəndə, Rəsulallah ﷺ ondan soruşdu: «Sənin adın nədir?»

– Əbd Şəms, – o, cavab verdi.

– İndi sənin adın Əbdur-Rəhmandır, - Peyğəmbər ﷺ dedi.

– Bəli, Əbdur-Rəhman! Sənə atamın və anamın canına and içirəm, ya Rəsulallah! – o, qışqırdı.

Onun Əbu-Hureyra (pişiyin atası) ləqəbinə gəldikdə isə, bu onunla izah olunur ki, uşaqlıqda onun kiçik bir pişiyi var idi və o, onunla oynamağı çox sevirdi. O vaxtdan yaşıdları ona Əbu Hureyra dedilər.

Bu ləqəb ona uyğunlaşdı, belə ki, bu onun əsil adını əvəz etməyə başladı.

Taleh onu Rəsulallah ﷺ ilə bağlayanda Peyğəmbər ﷺ onu zarafata Əbu Hirr adlandırmağa başladı. Ləqəb sahibi hətta Əbu Hirr ləqəbini əvvəlki Əbu Hureyra ləqəbindən üstün tutdu. O, bunun səbəbini belə izah edirdi:

– Məni belə çox sevdiyim Rəsulallah çağırırdı. «Hirr» «erkək pişik» deməkdir, yəni kişi cinsindən olan varlıq, «Hureyra» isə «dişi pişik» deməkdir, yəni qadın cinsindən olan varlıq. Kişi cinsi isə həmişə qadın cinsindən yaxşıdır.

* * *

Əbu Hureyra islam dinini Ət-Tufeyl ibn Amr Əl-Dausidən qəbul etmişdir. Hicrətdən sonra o, hələ altı il ərzində Daus qəbiləsi ilə yaşadı, sonra isə öz həmqəbilələrindən ibarət dəstə ilə

Mədinəyə, Rəsulallahın ﷺ yanına yola düşdü.

* * *

Daus qəbiləsindən olan bu cavan oğlan özünü bütövlükdə Rəsulallahın ﷺ xidmətinə və onunla sıx münasibətlərə həsr etdi. O, məscidi özünə məskən seçdi, Peyğəmbər ﷺ isə ona müəllim və rəhbər oldu.

Rəsulallah ﷺ sağ ikən Əbu Hureyranın nə arvadları, nə övladları yox idi. Onun bircə yaşlı və bütpərəst anası var idi. Əbu Hureyranın anasına olan məhəbbəti və mərhəmətinə görə o, onu inadkarlıqla islama çağırırdı, amma qadın çox möhkəm idi və öz bildiyindən əl çəkmirdi.

Hər dəfə Əbu Hureyra onu tərk edəndə, qəlbi qəm-qüssə ilə dolurdu.

Günlərin bir günü Əbu Hureyra anasını növbəti dəfə islama dəvət edəndə, qadın Peyğəmbərin ﷺ ünvanına elə sözlər dedi ki, onlar Əbu Hureyranı çox kədərləndirdi.

O, gözü yaşlı Rəsulallahın ﷺ yanına getdi.

Peyğəmbər ﷺ ondan soruşdu: «Ya Əbu Hureyra, səni darıxdıran nədir belə?»

O, cavab verdi:

– Mən yorulmadan anamı islama dəvət edirəm, o isə heç cür razılaşmır. Bu gün onu növbəti dəfə islama çağıranda o, sənin ünvanına pis sözlər dedi. Xahiş edirəm. Uca Allaha dua et ki, O, Əbu Hureyranın anasının qəlbini islama yönəltsin. Rəsulallah ﷺ onun xahişini yerinə yetirib, Allaha dua etdi.

Əbu Hureyra danışırdı:

«Mən evə qayıtdım və gördüm ki, qapı açıqdır. Mən axan suyun səsini eşitdim. İçəri girmək istəyəndə isə anam qışqırdı: «Yerində qal!»

Sonra o, geyindi və təntənəli şəkildə dedi: «İçəri gir!» Mən evə girəndən sonra anam söylədi: «Şəhadət verirəm ki, Allahdan başqa Tanrı yoxdur və şəhadət verirəm ki, Məhəmməd onun qulu və Rəsuludur...»

Mən bir saat bundan qabaqkı kimi gözüm yaşlı yenə Rəsulallah ﷺ yanına qayıdırdım. Amma əgər birinci dəfə göz yaşları kədərdən

və ümidsizlikdən idisə, indi bu sevinc və səadətdən gələn göz yaşları idi. Mən ucadan dedim:

– Sevin, ya Rəsulallah. Allah sənin duanı qəbul etdi və Əbu Hureyranın anasının islama, haqq yola gətirdi...»

* * *

Əbu Hureyra Rəsulallahı ﷺ çox sevirdi. O, ona baxmaqdan doymurdu və deyirdi: “Rəsulallahın sifətindən daha gözəl bir şey görməmişəm. Mənə hətta elə gəlir ki, onun üzü nur saçır.”

Əbu Hureyra Uca Allaha şükür edirdi ki, O, ona Peyğəmbərə ﷺ yoldaş və tərəfdar olmağı qismət edib. Əbu Hureyra uca səslə deyirdi: “Əbu Hureyranı islama yönəldən Allaha şükür olsun!.. Əbu Hureyraya Quranı öyrədən Allaha şükür olsun!.. Əbu Hureyraya Məhəmmədin səhabəsi olmaq səadətini nəsib edən Allaha şükür olsun!..”

* * *

Əbu Hureyra elmə və biliklərə can ataraq, oxuyub öyrənməyi özünə adət etdi.

Zeyd ibn Sabit danışırdı:

– Bir dəfə mən, Əbu Hureyra və bir yoldaşım məsciddə idik. Orada Uca Allahı zikr edib, ona dua edib, namaz qılırdıq. Bu zaman Rəsulallah ﷺ məscidə daxil oldu və bizə tərəf gəlib, yanımızda oturdu. Biz susduq, amma o, dedi: «Davam edin».

Mən və yoldaşım Əbu Hureyradan qabaq Allaha dua etdik, Rəsulallah ﷺ bizim hər duamızdan sonra «Amin» deyirdi...

Bizdən sonra Əbu Hureyra Allaha dua edib dedi:

– Ya Rəbbim, mən Səndən yoldaşlarımın istədiklərini istəyirəm. Mən Səndən həmçinin unudulmayan bilik diləyirəm. Bu zaman biz dedik ki, biz də Allahdan unudulmayan biliklər istəyirik.

Peyğəmbər ﷺ isə dedi: «Bu işdə sizi Days qəbiləsindən olan sadə bir adam qabaqladı».

* * *

Əbu Hureyra elmə can atdığı kimi, istəyirdi ki, başqaları da elm öyrənsinlər.

Bir dəfə Əbu Hureyra Mədinə bazarından keçəndə insanların

tamamilə dünya işlərinə aludə olmalarına təəccübləndi və bu ona çox pis təsir etdi.

O, insanların qarşısında durub onlara müraciət etdi:

– Ey mədinəlilər, siz necə də gücsğzsünüz?!

Adamlar soruşdu:

– Ya Əbu Hureyra, bizim gücsüzlüyümüzü nədə görürsən?!

O, cavab verdi:

– Məhəmmədin mirasının bölgüsü gedir, siz isə buradasınız! Gedib öz payınızı götürmək istəmirsinizmi?

– Ya Əbu Hureyra, bu harada baş verir?! – insanlar soruşdular.

– Məsciddə, – deyə, o, cavab verdi.

Hamı tələsik məscidə yollandı, Əbu Hureyra isə öz yerində qalıb onları gözləməyə başladı. Tezliklə adamlar qayıdıb ona dedilər:

– Ya Əbu Hureyra, biz məscidə girəndə orada bir şeyin bölgüsünün getdiyini görmədik.

Əbu Hureyra onlardan soruşdu:

– Məgər siz orada heç kəsi görmədiniz?!

Onlar cavab verdilər:

– Biz gördük ki, bəziləri namaz qılır, digərləri Quran oxuyur, üçüncüləri isə Allahı xoş və pis günlərində yad edirlər.

– Vay halınıza! – Əbu Hureyra qışqırdı – Məhəmmədin mirası elə odur.

* * *

Elmə olan həvəsi səbəbindən və özünü Rəsulallahın ﷺ məclislərinə bütövlüklə həsr etməsinin nəticəsində Əbu Hureyra çox yoxsul olub, həmişə aclıq keçirirdi.

O, özü haqqında danışırdı:

- Hərdən aclıq hissi elə gğclğ olurdu ki, mən hətta Rəsulallahın ﷺ səhabələrinin birindən Quranın yaxşı bildiyim ayəsini təfsir etməyi xahiş edirdim. Mən bunu ona görə edirdim ki, həmin səhabə məni öz evinə aparsın və orada yedizdirsin.

Bir dəfə mən elə acmışdım ki, hətta qarnıma daş bağladım. Rəsulallahın ﷺ səhabələrinin getdiyi yolda oturub gözləməyə başladım. Əbu Bəkr yanımdan keçəndə, mən ondan Quranın bir ayəsi haqqında soruşmağa başladım. Mən bunu yalnız ona görə edirdim ki, o, məni öz evinə dəvət etsin, amma o, bunu etmədi.

Bundan sonra yanımdan Ömər ibn Əl-Xəttabın oğlu keçdi və mən yenə də bir ayə haqqında onu sorğu-suala tutdum, amma o da məni özü ilə çağırmadı. Nəhayət, yanımdan Rəsulallah ﷺ özü keçdi və anladı ki, mən acam. O, ucadan dedi:

– Əbu Hureyra?!

– Bəli, bu mənəm, ya Rəsulallah!

Sonra mən onun dalınca getdim və onunla birgə evinə girdim. Peyğəmbər ﷺ süd olan qabı görüb evdəkilərdən soruşdu:

– Bu hardandır?!

Onlar cavab verdilər: «Bunu sənin üçün filankəs göndərib».

Peyğəmbər ﷺ mənə dedi:

– Ya Əbu Hureyra, məscidə gedib, oradakı yoxsulları bura çağır. Onun bu əmri məni çox darıxdırdı. Mən öz-özümə dedim: «Bu süd məsciddə olan bütün yoxsul və məzlumlara necə kömək edə bilər?!»

Mən məscidə getməzdən qabaq bir az süd içmək istədim. Mən kasıbları çağırdım və onlar hamısı mənimlə gəldilər, tezliklə biz hamımız Rəsualallahın ﷺ yanında idik. O, dedi:

– Əbu Hureyra, bu südü götür və onlara ötür.

Mən orada olanları növbə ilə içizdirməyə başladım. Onlar içib doyandan sonra qabı Rəsulallaha ﷺ verdim. O, gülümsəyib mənə baxdı və dedi:

– Bir sən qaldın, bir də mən.

– Düz deyirsən, ya Rəsulallah, – mən dedim.

– Onda sən iç, – Peyğəmbər ﷺ təklif etdi.

Mən südü içməyə başladım o, isə deyirdi: «Yenə iç... Yenə iç... Yenə iç...» Nəhayət, mən dedim: «Səni Göndərənə and olsun ki, mən doydum. O zaman Peyğəmbər ﷺ qabı götürüb südün qalıqlarını içdi.

* * *

Bir müddət keçdikdən sonra müsəlmanlar çoxsaylı nemətlər əldə etdilər. Onlar hərbi yürüşlər zamanı fasiləsiz olaraq bol-bol qənimət qazanırdılar. Əbu Hureyra ev-eşiyə, pula, mülkə və arvad-uşaqlara sahib oldu.

Lakin bütün bunlar onun nəcib xasiyyətini dəyişdirmədi və keçmişdəki əziyyətli günləri unutdurmadı. O, tez-tez deyirdi:

– Mən yetim olmuşam, evsiz avara idim və bir tikə çörəkdən

ötrü Busra bint Ğazvanın yanında işləyirdim, onun qonaqlarına qulluq edib, dəvələrinə baxırdım və budur, Allah istədi ki, mən onunla evlənim... Dini dayaq, Əbu Hureyranı isə imam[141] edən Allaha şükür olsun.

* * *

Muaviyə ibn Əbu Sufyan dəfələrlə Əbu Hureyranı Mədinəyə canişin təyin edirdi. Hakimiyyət başında olmaq onun ürəyiyumşaqlığına və comərdliyinə təsir etmədi...

Bir dəfə, Əbu Hureyra artıq Mədinə valisi olandan sonra, kürəyində bir şələ odun evinə gedirdi. Küncdə ona Saaləbə ibn Malik rast gəldi və Əbu Hureyra ondan xahiş etdi:

– Ya İbn Malik, əmirə yol ver.

– Allah sənə rəhm etsin! – İbn Malik qışqırdı. – Məgər sənə bu qədər yer azlıq edir?!

– Əmirə yol ver, – Əbu Hureyra yenə xahiş etdi. – Belindəki bir şələ oduna da.

* * *

Dərin biliklərdən və comərdlikdən savayı Əbu Hureyra həm də yüksək möminliyə və əxlaqa malik idi. O, gündüz oruc tuturdu və gecənin üçdə bir hissəsini oyaq qalırdı, sonra isə arvadını oyadırdı və arvadı gecənin ikinci üçdə birini oyaq qalırdı. Sonra isə arvad qızını oyadırdı və qız gecənin qalan hissəsini oyaq qalırdı... Beləliklə, Əbu Hureyranın evində bütün gecə boyu fasiləsiz Allaha ibadət olunurdu.

* * *

Əbu Hureyranın əsli Sudandan olan bir qaradərili kənizi var idi. O, sahibini çox əsəbləşdirirdi və yaxınlarına əziyyət verirdi. Əbu

---

[141] Burada Əbu Hureyranın Mədinəni idarə etdiyi vaxt nəzərdə tutulur.

Hureyra onu cəzalandırmaq məqsədilə artıq qamçını qaldırmışdır ki, qəfil dayandı və dedi: «Əgər qiyamət gününün cəzası olmasaydı, onda mən sənin bizə vurduğun ziyanına bərabər olan ağrı verərdim. Yaxşı olar ki, səni satım, çünki indi mənə pul lazımdır. Çıx get, sən Uca və Qüdrətli Allah qarşısında azadsan...»

* * *

Əbu Hureyranın qızı bir dəfə ona dedi: «Ata! Qızlar təəccüblənirlər və soruşurlar: «Niyə atan sənə qızıl əşyalar bağışlamır?!»

Əbu Hureyra ona cavab verdi:

– Qızım, onlara de: «Mənim atam cəhənnəm alovunun istisindən qorxur».

* * *

Əbu Hureyranın öz qızına qızıl əşyalar bağışlamamasının səbəbi heç də xəsislik deyildi. O, Allah yolunda səxavətlə və comərdliklə vəsaitlərini sərf edirdi.

Bir dəfə Mərvan ibn Əl-Hakam ona yüz qızıl dinar göndərdi. Səhərisi gün Mərvan onun yanına öz adamını göndərib, bu sözləri deməyə tapşırdı:

«Sənə pul verən nökər səhv buraxıb. Bu dinarlar başqa adam üçün nəzərdə tutulmuşdu».

Əbu Hureyra elə sıxıldı ki, utandığından yerin içinə girməyə hazır idi. Nəhayət, o, dedi:

– Mən həmişə pulları artıq Allah yolunda xərcləmişəm və əlimdə bir dinar belə qalmayıb. Mənim üçün ümumi xəzinədən pul ayıranda qoy Mərvan onları özünə götürsün. Mərvan bunu Əbu Hureyranı sınamaq üçün etdi. Hər şey aydın olandan sonra o, qərara aldı ki, Əbu Hureyra düzgün hərəkət edib.

* * *

Əbu Hureyra bütün ömrü boyu anasıyla böyük məhəbbət və qayğı ilə davranırdı. Hər dəfə evdən çıxmaq istəyəndə o, anasının otağının qapısı önündə durub deyərdi:

– Ana, Allahın sənə salamı, şəfqəti və xeyir-duası olsun. Məni körpəlikdən böyütdüyünə görə Allah sənə rəhmət göndərsin.

Anası deyirdi:

– Sən böyüyəndən sonra mənə qarşı olan mehribanlığına görə Allahın sənə rəhmi gəlsin.

Əbu Hureyra evə qayıdanda bu sözləri təkrarlayırdı.

* * *

Əbu Hureyra bütün insanları öz valideynlərinə qarşı mehriban olmağa və qohumluq əlaqələrini möhkəmləndirməyə çağırırdı.

Günlərin bir günü o, yolda iki kişini gördü. Onlardan biri digərindən yaşca böyük idi. Əbu Hureyra yaşca kiçik olandan soruşdu:

– Bu adam sənin nəyindir?

– Bu, mənim atamdır, – kişi cvab verdi.

– Ona adıyla müraciət etmə, – Əbu Hureyra əmr etdi. – Ondan qabaqda getmə və ondan əvvəl oturma...

* * *

Əbu Hureyra ölümcül xəstələnəndə ağladı. Ondan soruşdular:

– Ya Əbu Hureyra, səni belə nədir kədərləndirən?

O cavab verdi:

– Mən heç də bu dünyadan ötrü ağlamıram... Mən irəlidəki uzaq səyahət və az olan ehtiyatlar üçün ağlayıram... Mən yolun sonunda durmuşam, bundan sonra məni ya cənnət gözləyir, ya da cəhənnəm... Və mən bilmirəm... hara düşəcəm!!!

Ona baş çəkən Mərvan ibn Hakam dedi:

– Ya Əbu Hureyra, Allah sənə şəfa versin!

Buna cavab olaraq o, ucadan dedi:

– Ya Rəbbim, həqiqətən, mən Səninlə görüşməyə tələsirəm! Bu görüşü yaxınlaşdır...

Mərvan Əbu Hureyranın evini tərk edən kimi, o, vəfat etdi.

* * *

Allah Əbu Hureyraya böyük nemət bəxş etmişdir. O, müsəlmanlar üçün Rəsulallahın ﷺ həyatından min altı yüzdən çox hədis qoruyub saxlamışdı.

Onun İslam və bütün müsəlmanlar üçün etdiyi xeyirxahlığa görə mükafatı böyük olsun[142].

* * *

[142] Əbu Hureyra haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə», 4/202;
2. «Əl-İstiəb», 4/202
3. «Əsəd əl-Qaba», 5/315-317
4. «Tahzib əl-Tahzib», 12/262-267
5. «Taqrib əl-Tahzib», 2/484
6. «Əl-Cəmə beynə ricəl əs-Səhiheyn», 2/600-601.
7. «Təcrid əsma əs-Səhabə», 2/223
8. «Hilyət əl-Övliyə», 1/376-385
9. «Sifət əs-Səfva» 1/285-289
10. «Təzkirat əl-Hifaz», 1/28-31
11. «Əl-Məarif», İbn əl-Tuteybə, 120-121
12. «Təbəqat əş-Şəarani», 32-33
13. «Məarifət Əl-Kurra əl-Kibar», 40-41
14. «Şəzərat əz-Zəhəb», 1/63-64
15. «Əl-Təbəqat əl-Kubra», 2/362-364
16. «Tarix əl-İslam əz-Zəhəbi», 2/333-339
17. «Əl-Bidayə və ən-Nihayə», 103-155
18. «Əbu Hureyra», «Görkəmli ərəblər» seriyasından Məhəmməd Əcacə Əl-Xatib

# SƏLƏMƏ İBN QEYS ƏŞCAİ

*Əl-Əhvazın fatehi*

Əl-Faruq həmin gecəni oyaq qalıb, Mədinə məhəllələrinin rahatlığını qoruyurdu ki, heç bir şey onun sakinlərinin gecə yuxusunu pozmasın.

Əl-Faruq şəhərin meydanları, bazarları və evlərinin arasında gəzərkən Rəsualallahın ﷺ ən yaxşı səhabələrini bir-bir yadına salırdı ki, onlardan birini Əl-Əhvazı[143] ələ keçirmək üçün yürüşə çıxan orduya başçı təyin etsin...

Nəhayət, onun ağlına bir fikir gəldi və o, sevincdən qışqırdı: «Onunla mən qələbə çalaram... Hə, Allahın buna izni olsa, mən onunla qələbə çalaram...»

Səhər açılanda Əl-Faruq Sələmə ibn Qeys əl-Əşcaini yanına çağırıb, ona dedi:

– Mən səni Əl-Əhvaza yürüşə gedən ordunun başçısı təyin etmişəm. Allahın adını uca tut və Allaha iman gətirməyənlərlə Allah uğrunda vuruş. Siz butpərəstlərdən olan düşmənlərinizə rast gələndə, onları İslama dəvət edin. Onlar İslam dinini qəbul etsələr, onda burada iki variant ola bilər. Əgər onlar öz evlərində qalmaq istəsələr və başqa bütpərəstlərə qarşı sizin tərəfinizdə vuruşmağı istəməsələr, onda onlar zəkat verməyə borcludurlar və onların qənimətin bir hissəsini almaq hüququ olmayacaq.

Əgər onlar sizin tərəfinizdə vuruşmaq istəsələr, onda onların hüquqları və vəzifələri sizinki kimi olacaq. Əgər onlar islamı qəbul etmək istəməsələr, onda onlardan cizyə[144] tələb edin, sonra onları rahat buraxın, düşmənlərindən qoruyun və onlardan mümkün olmayanı tələb etməyin.

Əgər onlar cizyə verməkdən imtina edərlərsə, onda onlarla vuruşun və Allah sizin onlarla olan müharibənizdə sizə kömək edəcək.

Əgər onlar öz qalalarında oturub, «Allahın və onun Rəsulunun müdrikliyi» əsasında özlərinin təslim olmalarını qəbul etməyi sizdən

---

[143] Əl-Əhvaz-İranın qərbində yerləşən vilayət.

[144] Cizyə – müsəlmanların başqa dinə mənsub olan dinc sakinlərin üzərinə, onları düşmənlərdən qorumaq təminatına görə qoyduqları canvergisi (adambaşına alınan vergi).

tələb etsələr, buna razılaşmayın, çünki Allahın və Onun Rəsulunun hikmətini bilirsiniz.

Əgər onlar Allahın və Onun Rəsulunun himayəsi şərtilə özlərinin təslim olmalarını qəbul etməyi sizdən tələb etsələr, onda onlara Allahın və Onun Rəsulunun himayəsini deyil, məhz öz himayənizi vəd edin...

Döyüşdə qalib gəlsəniz, artıq qəddarlığa yol verməyin, namərd olmayın, heç kəsə işgəncə verməyin və uşaqları öldürməyin...

Sələmə dedi: «Baş üstə, ya əmirəlmöminin!»

Ömər onun əllərini sıxaraq, onu mehribancasına yola saldı və onun uğuru ğzğn dua etdi.

O, Sələmənin və onun döyüşçülərinin üzərinə qoyulmuş bu vəzifənin nəhəngliyini və ağırlığını çox gözəl anlayırdı.

Əl-Əhvaz keçilməz yolları və aşırımları olan dağlı bir yer idi. Bəsrədən şərqə gedən istiqamətdə yerləşən bu məntəqədə çoxsaylı qala istehkamları var idi və orada öz mətinliyi və cəsarəti ilə tanınan kğrdlər yaşayırdılar. Müsəlmanlar bu vilayəti nəyin bahasına olursa-olsun ələ keçirməli idilər, ya da onu öz nəzarətində saxlamalı idilər ki, Bəsrəni və onun arxalarını iranlıların hücumundan qorusunlar və onlara Əl-Əhvazı, dünyaya və İraqın təhlükəsizliyinə daimi hədə məqsədilə öz hərbi meydanına çevirməyə mane olsunlar.

* * *

Sələmə ibn Qeys ordusu ilə birgə Allah yolunda yürüşə davam edirdi. Lakin Əl-Əhvazın ərazisinə ayaq basmış müsəlman qoşunları dərhal bu diyarın sərt təbii şəraitlərilə inadlı mübarizəyə girdilər. Döyüşçülər uca qayalardan güclə keçirdilər, iri həcmli və zəhərli bataqlıqlarda dizenteriyadan əziyyət çəkirdilər. Onlar gecə-gündüz zəhərli ilan və əqrəblərlə mübarizə aparmalı oldular. Lakin Sələmə ibn Qeysin yüksək islam ruhu bütün döyüşçüləri ilhamlandırırdı və bütün sınaqlar onlara yüngül, keçilməz yollar isə asan görünürdü.

Vaxt aşırı Sələmə ibn Qeys təsirli sözlərlə əsgərlərə müraciət edirdi. Bu sözlər onları eşdən hər bir kəsin qəlbinin dərinliklərinə nüfuz edirdi.

Gecələr o, onlar üçün Quranın sehirli ayələrini oxuyurdu və onun ilahi nuru bütün döyüşçülərə təsir edərək, onları öz şəfəqi ilə örtürdü.

* * *

Sələmə ibn Qeys müsəlmanların xəlifəsinin göstərişinə əməl edərək Əl-Əhvaz sakinlərilə görüşən kimi, dərhal onlara Allahın dinini qəbul etməyi təklif etdi. Lakin onlar bunu etməkdən qəti surətdə imtina etdilər. O zaman o, onları cizyə verməyə çağırdı, amma onlar bunu da dikbaşlıqla rədd etdilər...

Bundan sonra müsəlmanların onlara qarşı müharibə başlamaqdan savayı başqa bir əlacı qalmadı. Onlar əsil mücahidlər kimi Allah uğrunda müqəddəs müharibəyə başladılar və bu yolda Onun böyük mükafatını əldə etməyə can atırdılar.

* * *

Bu sərt və qanlı döyüşlərdə hər iki tərəf müharibələr tarixində hələ görünməmiş qəhrəmanlıq və mətanət göstərdilər. Bütün bu böyüşlər nəticəsində mömin mücahidlər parlaq qələbə çaldılar. Allahın düşmənləri bütpərəstlər isə məğlubiyyətə uğradılar.

* * *

Döyüşlər bitdikdən sonra Sələmə ibn Qeys döyüşçülər arasında qənimət bölgüsünə başladı.

Qənimətin içində çox qiymətli və nadir bir cəvahirat aşkar etmiş Sələmə fikirləşdi ki, əmirəlmöminin buna sevinər. O, əsgərlərə dedi:

– Əgər bu qiymətli cəvahiratı aranızda bölüşdürsək, onda hər birinizə demək olar ki, bir şey düşməz. Əgər bunu əmirəlmömininə göndərsək, bu sizi razı salarmı?

– Bəli, – deyə döyüşçülər cavab verdilər.

Sələmə cəvahiratı mücrüyə qoyub, öz qəbiləsindən bir adam seçib ona əmr etdi:

– Öz nökərinlə birlikdə Mədinəyə yollan, əmirə bizim qələbəmiz haqqında xəbər ver, sonra bu hədiyyə ilə onu sevindir.

Bu adamın Ömər ibn Əl-Xəttab ilə görüşməsi haqqında əhvalatı danışmaq hüququnu həmin adama verək. Beləliklə, Bəni Əşcai qəbiləsindən olan bu adam danışır:

«Mən öz nökərimlə birgə Bəsrəyə çatanda, Sələmə ibn Qeysin bizə verdiyi pula özümüzə iki minlik heyvanı alıb, yol üçün lazım

olan ərzaqları onların üstünə yüklədik.

Bundan sonra biz dərhal yola düşdük. Mədinəyə çatan kimi mən adamlardan əmirəlmömininin yerini öyrənməyə başladım.

Tezliklə onu müsəlmanlara yemək paylayarkən gördüm. O, çoban kimi öz əsasına dirənmişdir. Adamların qablarına baxıb, nökəri Yərfaya əmr edirdi:

– Yərfa, bunlara ət qoy...

– Yərfa, bunlara çörək əlavə et...

– Yərfa, bu adamlara şorba əlavə et...

Mən ona yaxınlaşdım, o, dedi: «Otur! Mən adamların önündə oturdum, mənə yemək verdilər və mən yedim.

Hamı yeyib doyduqdan sonra, o, dedi: «Yərfa, qabları yığ! Sonra o, getdi, mən də onun arxasınca getdim. Əmirəlmömininin öz evinə girdi, mən içəri girmək üçün icazə aldım. Mən içəri girəndə gördüm ki, o, həsir üstündə oturub və dəri ilə üzlənmiş iki yumşaq döşəkçəyə söykənib. O, onlardan birini mənə təklif etdi və mən əyləşdim.

O, arxasındakı pərdəyə üzünü tutaraq əmr etdi: «Umm Qulsum, yemək ver!» Mən özlüyümdə fikirləşdim: «Maraqlıdır, görəsən əmirəlmöminin özü hansı yeməyi yeyir?»

Yeməyə bitki yağı və iri duzlu birgə kökə verdilər. O, mənə dedi: «Ye!». Mən tabe olub, bir qədər yedim. Əmirəl-möminin də yedi. Mən, yeməyə qarşı belə diqqətli olan adam görməmişdim.

Yeməkdən sonra o, əmr etdi ki, içməyə bir şey gətirsin. Arpadan hazırlanmış içkini piyalədə gətirdilər və o, dedi: «Əvvəl qonağa verin!» Mən bu içkidən içəndə, fikir verdim ki, evimdəki içki bundan daha yaxşı və dadlıdır.

Sonra əmirəlmöminin özü içdi və dedi:

– Bizi yedirdən və içirdən Allaha şükür olsun. Biz yedik və susuzluğumuzu yatırtdıq.

Mən ona müraciət etdim: «Ya əmirəlmöminin, mən sənin yanına xəbərlə gəlmişəm».

– Haradan? – o, soruşdu.

– Sələmə ibn Qeysdən, – mən cavab verdim.

– Sələmə ibn Qeysi və onun elçisini salamlayıram... Mənə müsəlmanların ordusu haqqında danış...

– Necə istəyirsən, ya əmirəlmöminin, – mən dedim.

Sonra mən ona qələbə haqqında xəbər verdim və ordudakı

vəziyyəti ona təfsilatı ilə anlatdım.

Sonra o, soruşdu:

– Bəsrdən keçdinmi?

– Bəli, ya əmirəlmöminin, – mən cavab verdim.

– Orada müsəlmanların vəziyyəti necədir?

– Allahın köməkliyi ilə hər şey qaydasındadır.

– Orada qiymətlər necədir?

– Oradakı qiymətlər ən ucuz qiymətlərdir.

– Bəs ət necə? Axı, ət ərəblər üçün hər şeydir, onlar ətsiz normal yaşaya bilmirlər.

– Onların həmişə əti olur.

O, əlimdəki mücrüyə baxıb soruşdu:

– Əlindəki nədir belə?

Mən dedim: «Allah bizə düşmənimiz üzərində qələbə çalmağa kömək edəndə, biz bütün qəniməti topladıq. Qənimət içərisində Sələmə bu cəvahiratı tapdı. O, döyüşçülərə dedi: «Əgər bunu aranızda bölüşdürsək, onda sizin hər birinizə demək olar ki, heç nə düşməz. Əgər mən bunu əmirəlmömininə göndərsəm, siz bununla razılaşarsınız? Və hamı da bununla razılaşdı...»

Sonra mən mücrünü ona verdim. O, mücrünü açıb, orada qırmızı, sarı və yaşıl rəngli qiymətli daş-qaşları görəndə, əlini böyrünə sıxaraq, öz yerindən sıçradı və mücrünü yerə atdı. Onun içindəkilər ətrafa səpələndi.

Qadınlar fikirləşdilər ki, mən əmirəlmöminini öldürmək istəyirəm və bizə tərəf cumdular. O, isə mənə tərəf dönüb dedi: «Bunları yığ...» Nökəri Yərfaya isə əmr etdi: «Bu adamı vur, özü də bərkdən!»

Mən yerə tökülənləri yığmağa başladım, Yərfa isə bu zaman məni döyürdü.

Sonra o, dedi: «Qalx ayağa, nanəcib. Sən də yoldaşın kimisən». Mən əmirəlmöminindən xahiş etdim: «Sənin nökərin bizim heyvanlarımızı əlimizdən aldı. Əl-Əhvaza qayıtmaq üçün bizə minik heyvanı verərsənmi?»

O, dedi: Yərfa, bunlara ianə verilən dəvələrdən ikisini ver». Sonra o, mənə əmr etdi: «Bu heyvanları öz işin üçün istifadə etdikdən sonra, görsən ki, kiminsə onlara ehtiyacı var, onda onları həmin adama ver».

– Bəli, ya əmirəlmöminin. İnşallah, mən məhz belə edəcəyəm, – mən onu inandırdım.

Sonra o, dedi:

– Allaha and içirəm ki, əgər əsgərlər bu cəvahirat onların arasında bölüşdürülmədən dağılışsalar, mən mütləq sənin və sənin yoldaşının başına bəlanın gəlməsinə görə çalışacam.

Mən tələsik geriyə döndüm və Sələmənin yanına gələn kimi, qışqırdım:

– Sənin mənə tapşırdığın bu işdə Allahın xeyir-duası yox imiş! Sənin və mənim başıma bəla gəlməmiş, dərhal bu cəvahiratı döyüşçülər arasında bölüşdür.

– Sonra hər şeyi ona ətraflı danışdım.

Sələmə cəvahiratı əsgərlər arasında bölüşdürməyənədək yerindən tərpənmədi.[145]

* * *

[145] Sələmə ibn Qeys haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə» 2/67
2. «Əl-İstiəb», 2/89
3. «Əsəd əl-Qaba», 2/432
4. «Tahzib əl-Tahzib», 4/154
5. «Muəcəm əl-Buldan», 1/284, Əl-Əhvaza aid fəsil
6. «Həyat əs-Səhadə», 1/341
7. «Qadət Fəth Faris», Mahmud Şeyyit Xəttab

# MUAZ İBN CƏBƏL

*«Mənim millətimdə halal və haram haqqında*
*ən çox bilən Muaz ibn Cəbəldir»*
Məhəmməd, Allahın Rəsulu

Bütün Ərəbistan haqq yolunun nuru ilə şəfəqlənəndə, mədinəli oğlan Muaz ibn Cəbəl gəncliyinin çiçəklənən çağına yenicə ayaq basmışdı.

O öz yoldaşlarından iti ağlı, natiqliyi, ifadə aydınlığı və fəallığı ilə seçilirdi.

Bununla yanaşı, o, xoş zahiri görünüşə malik idi. Onun gözəl qara gözləri, qıvrım saçları və insanları cəzb edən sifət cizgiləri var idi.

Gənc Muaz ibn Cəbəl islamı məkkəli moizəçi Musab ibn Umeyrdən qəbul etmişdir. Əl-Əqabə gecəsində o, nəcib Peyğəmbərin ﷺ əlini sıxıb, ona sadiq qalacağına and içdi. Muaz, Rəsulallah ﷺ ilə görüşmək, and içmək şərəfinə nail olmaq və bununla tarixin ən parlaq səhifələrindən birini yazmaq üçün Məkkəyə can atan o yetmiş iki nəfərdən biri olub...

* * *

Muaz Məkkədən Mədinəyə qayıdandan sonra öz yaşıdlarından, bütləri dağıtmaq və onları Yəsribin bütpərəstlərinin evlərindən uzaqlaşdırmaq ilə məşğul olan bir dəstə düzəltdi. Bu kiçik dəstənin fəaliyyəti nəticəsində Yəsribin ən tanınmış adamlarından biri, Amr İbn Əl-Cəmuh İslam dinini qəbul etdi.

Amr İbn Əl-Cəmuh Bəni Sələmə nəslinin başçılarından biri və onların zadəganlarının nümayəndəsi idi.

Bütün varlı insanların etdiyi kimi Amr da qiymətli ağac növlərindən öz şəxsi bütünü hazırladı.

Bəni Sələmənin şeyxi öz bütünə səylə qulluq edib, onu ipəklərlə bəzəyir və hər səhər üzərinə ətirli maddələr sürtürdü.

Bir dəfə gecə, gənclər qaranlıqdan istifadə edərək onun bütün yerindən götürüb, Bəni Sələmə evlərinin arxalarına apardılar və

orada onu çirkab quyusuna atdılar.

Səhər yuxudan oyanan şeyx gördü ki, büt itib və onu axtarmağa başladı. O, buna çox vaxt sərf etdi, hər yerə baxdı və ən sonunda onu çirkab quyusunda tapdı. Şeyx qışqırdı: «Vay sizin halınıza! Bu gecə mənim tanrımın başına bu oyunu kim açıb?!».

O, bütü dərədən çıxartdı və onu yaxşıca yuyub təmizlədikdən sonra ona ətirli yağlar sürtdü və əvvəlki yerinə qoydu. Sonra üzünü bütə tutaraq dedi: «Ya Mənət, and içirəm Allaha, əgər bilsəydim bunu kim edib, onda onu biabır edərdim...».

Şeyx növbəti gecə yatandan sonra oğlanlar yenə də bütü götürüb eyni cür hərəkət etdilər.

Şeyx yenə də bütü axtarmağa getdi və yenə onu başqa bir çirkab quyusunda tapdı. O, bütü yuyub təmizlədi, ətir vurdu və həmişəki yerə qoydu. Bütün başına bu oynu açanların ünvanına isə ən qorxunc hədələr söylədi.

Bu üçüncü dəfə təkrar olanda, şeyx yenə bütü həmin yerdən götürüb, onu yuyub təmizlədi. Sonra o, öz qılıncını gətirib, bütün boynuna asdı və dedi:

– Allaha and içirəm ki, bunu kimlərin etdiyini bilmirəm. Ya Mənət, əgər sən həqiqi tanrısansa, özünü müdafiə et... Bu qılınc da səninlə olacaq...

Şeyx yuxuya gedəndən sonra, oğlanlar bütün boynundakı qılıncı götürdülər. Onu ölü itin boynuna bağlayıb ikisini də zibilliyə atdılar. Şeyx səhər durub, yenə də öz bütünü axtardı. Nəhayət, onu zibil dərəsində, ölü itin boynuna bağlanmış vəziyyətdə tapdı.

Bunu görən Şeyx dedi:

– Əgər bu əsil tanrı olsaydı, o, heç vaxt ölü itlə birgə zibillikdə olmazdı.

Bu hadisədən sonra Bəni Sələminin şeyxi İslamı qəbul etdi və onun imanı həqiqi idi.

* * *

Nəcib Peyğəmbər ﷺ Mədinəyə köçəndə gənc Muaz ibn Cəbəl onu hər yerdə izləməyə başladı. Muaz ondan Quranı və şəriəti öyrənirdi və nəhayət, Rəsulallahın ﷺ səhabələrinin içərisində ən

yaxşı Quran qiraətçisi və İslam qanunvericiliyini yaxşı bilənlərdən biri oldu.

Yəzid ibn Quteyb danışırdı:

«Bir dəfə mən Homsdakı məscidə girib orada qıvrımsaçlı bir gənci gördüm. Adamlar onun başına yığılmışdı. Mənə elə gəldi ki, onun nitqi ilahi nurla fərqlənir və şəfəq saçır. Mən soruşdum: «Bu kimdir?».

Mənə dedilər: «Muaz ibn Cəbəl».

* * *

Əbu Muslim əl-Xovlani[146] danışırdı:

«Mən Dəməşqdəki məscidə girəndə, gördüm ki, orada Peyğəmbərin ﷺ yaşlı səhabələrinin dərnək məşğələsi gedir. Onların arasında qaragözlü, yadda qalan xoş sifətli bir cavan oğlan da var idi. Onların arasında fikir ayrılığı yarananda, onlar kömək üçün bu gəncə müraciət edirdilər. Mən qonşumdan soruşdum:

– Bu kimdir?

– Muaz ibn Cəbəl, – o, cavab verdi.»

* * *

Burada təəccüblü bir şey yoxdur. Axı, Muaz lap uşaqlıqdan Rəsulallahın ﷺ məktəbini oxuyub, elmi ilk mənbədən aldı və bu məktəbi müvəffəqiyyətlə bitirdi. Bu ən yaxşı müəllimin ən yaxşı şagirdi olmuşdur.

Muazı qiymətləndirmək üçün Rəsulallahın ﷺ onun ünvanına dediyi bu sözləri xatırlamaq kifayətdir:

«Mənim millətimdə halal və haram haqqında ən çox məlumatı olan Muaz ibn Cəbəldir».

Muazın bu ğmmətin qarşısındakı ən böyük xidməti ondan ibarətdir ki, o, Rəsulallah ﷺ sağ ikən Quranı bir yerə toplamağa başlayan altı nəfərdən biri olub.

Buna görə də, əgər Peyğəmbərin ﷺ səhabələri Muaz ibn Cəbəlin yanında bir şeyi müzakirə edirdilərsə, həmişə onun rəyi ilə he-

[146] Əbu Muslim əl-Xovlani – Peyğəmbərin ﷺ yəmənli tərəfdarlarından biri.

sablaşırdılar, çünki o, rədd edilməz nüfuza və dərin biliklərə malik idi.

* * *

Nəcib Peyğəmbər ﷺ və onun işini davam etdirənlər Muazın nadir elmi ehtiyatlarını İslamın və bütün müsəlmanların istifadəsinə verdilər.

Peyğəmbər ﷺ görəndə ki, Məkkənin fəthindən sonra qureyşlilər dəstə-dəstə Allahın dininə gəlirlər, hiss etdi ki, yeni müsəlmanlar, onlara İslamı öyrədəcək və şəriətin qanunlarını onlara başa salacaq bir müəllimə ehtiyac duyurlar. Buna görə də o, Məkkənin idarəçiliyində Əttab ibn Useydi özünə varis seçəndə, insanlara Quranı və şəriəti öyrətmək üçün Muaz ibn Cəbəli onun yanında köməkçi təyin etdi.

* * *

Yəmən hökmdarları öz elçilərini Rəsulallahın ﷺ yanına göndərib, ona xalqları ilə birgə islama keçdiklərini bildirdilər və həmçinin ondan xahiş etdilər ki, o, Yəmənə, dini onlara öyrədəcək adamlar yollasın. Peyğəmbər ﷺ bu məsələni həll etmək üçün öz səhabələrindən ibarət moizəçi müəllimlər dəstəsini Yəmənə yolladı. Muaz ibn Cəbəli isə onların başçısı təyin etdi.

Nəcib Peyğəmbər ﷺ hətta onları ötürməyə getdi. O, Muazın minik heyvanının yanında piyadə gedirdi, Muaz özü isə yəhərdə oturmuşdu.

Peyğəmbər ﷺ onun yanında o qədər getdi ki, sanki Muazla vidalaşma anını təxirə salmaq istəyirdi.

Nəhayət o, Muaza xeyir-dua ilə müraciət etdi:

– Ya Muaz, qorxuram, bir ildən sonra sən artıq mənimlə görüşməyəcəksən. Yəqin, sən mənim məscidimin və qəbrimin yanından keçəcəksən.

Öz Peyğəmbəri, sevimli Məhəmmədlə ayrılığının acısına dözməyən Muaz hönkürtü ilə ağladı və bütün müsəlmanlar onunla birgə ağladılar.

* * *

Nəcib Peyğəmbərin ﷺ dedikləri düz çıxdı və o saatdan etibarən onu diri görmək səadəti Muaza qismət olmadı...

Muaz Yəməndən qayıdanadək Rəsulallah ﷺ bu həyatı ilə vidalaşdı. Təbii ki, Muaz biləndə ki, Mədinə sevimli Rəsulallahını birdəfəlik itirib, çox dərd çəkdi.

* * *

Ömər ibn Əl-Xəttab Peyğəmbərin ﷺ varisi olandan sonra, Muazı Bəni Kilab qəbiləsinə yollandı ki, o, sakinlər arasında yığılan pulları bölüşdürsün və varlıların verdikləri ianələri kasıblar arasında paylasın.

Öz vəzifəsinin öhdəsindən gələn Muaz evdən çıxarkən taxdığı qarınaltını boğazına dolayıb arvadının yanına qayıtdı. Arvad ondan soruşdu: «Bəs adətən canişinlərə verilən və onların öz yaxınları üçün gətirdikləri hədiyyələr hanı?!»

Muaz cavab verdi:

– Axı, gözlərini məndən çəkməyən sərt bir nəzarətçi daima yanımda idi.

Arvadı qışqırdı:

– Rəsulallah və Əbu Bəkr səni ən vicdanlı adam hesab edirdilər. İndi isə Ömər gəldi və sənə nəzarət etməyə adam yolladı?! Sonra o, bu haqda Ömərin arvadlarına danışıb, ondan şikayətləndi. Ömər bunu biləndə, Muazı yanına çağırdı və ondan soruşdu:

Sənə nəzarət etmək üçün gözətçini mən göndərmişəm?!

– Heç də yox, ya əmirəlmöminin, – Muaz cavab verdi. – Sadəcə olaraq arvadımın yanında özümə bəraət qazanmaq üçün bundan daha inandırıcı bir şey tapmadım.

Ömər güldü və ona bir qədər pul verərək dedi:

– Bunu ona ver ki, sakitləşsin...

* * *

Əl-Faruqun hakimiyyəti zamanı, onun Şamdakı canişini Yəzid

ibn Əbu Süfyan ona namə göndərdi. Orada deyilirdi:

– Ya əmirəlmöminin! Şamın əhalisinin sayı çox artıb. Onlara Quranı öyrədəcək və dinimizin əsaslarını anladacaq insanlara çox ehtiyacları var. Ya əmirəlmöminin, xahiş edirəm, mənə onları üyrədəcək insanlarla kömək et.

Ömər, hələ Peyğəmbərin ﷺ sağlığında Quranı bir yerə toplayan beş nəfəri öz yanına çağırdı. Bunlar Muaz ibn Cəbəl, Ubəda ibn Əs-Samit, Əbu Eyyub Əl-Ansari, Ubey ibn Kab və Əbu əd-Darda idilər. Onlar bir yerə yığılanda, Ömər onlara dedi:

– Sizin qardaşlarınız, Şamın sakinləri məndən xahiş etdilər ki, onlara Quranı və şəriətin əsaslarını öyrədəcək insanlarla kömək edim. Buna görə də, Allah Sizə rəhm etsin, mənə kömək edin sizdən üç nəfəri seçim. İstəyirsinizsə, püşk atın. Püşk atmaq istəmirsinizsə, özüm sizdən üç nəfəri seçərəm.

– Püşk atmaq nəyə lazımdır ki? Əbu Eyyub artıq qocadır, Ubey ibn Kab isə xəstədir. Beləliklə, elə üç nəfər qalır.

Ömər dedi:

– İlk növbədə Homsdan başlayın. Orada vəziyyət normaldırsa, onda biriniz Homsda qalsın, digəriniz Dəməşqə, üçüncü adam isə Fələstinə yollansın.

Rəsulallahın ﷺ bu üç səhabəsi Əl-Faruqun göstərişinə uyğun olaraq öz fəaliyyətini Homsdan başladılar. Sonra onlar Ubəda ibn Əs-Samiti orada saxladılar. Əbu əd-Darda Dəməşqə, Muaz ibn Cəbəl isə Fələstinə yola düşdü.

* * *

Muaz Fələstində taun xəstəliyinə tutuldu.

* * *

Ölməmişdən qabaq o, üzünü Qibləyə tutub dedi: «Ölümü salamlayıram. Budur, ziyarətçi uzun müddətdən sonra gəldi. Və sevgili istədiyinə çatdı».

* * *

Sonra Muaz nəzərini göylərə qaldırıb dedi: «Ya Rəbbim, sən bilirdin ki, mən bu dünyanı sevmirdim. Və burada ağaclar əkilib, çaylar salmaq üçün yaşayırdım. Lakin günorta istisi və bu saatlar ağırdır. Və alimlər dini dərnəklərdə bir-birini sıxırlar. Ya Rəbbim, mömin canı qəbul etdiyi kimi, mənim də canımı rəhmətlə qəbul et».

* * *

Və elə burada Muazın günahsız ruhu bədənindən çıxdı və Allahın yanına can ataraq uzun səyahətə yollandı.[147]

* * *

---

[147] Muaz ibn Cəbəl haqqında əlavə məlumat üçün bax:

1. «Əl-İsabə» 3/426
2. «Əl-İstiəb», 3/355
3. «Əsəd əl–Qaba» 4/374
4. «Siyər ələm ən-Nubələ» 1/318
5. «Əl-Təbəqat əl-Kubra», 3/583
6. «Hilyət əl-Övliyə», 1/288
7. «Sifət əs-Səfva» 1/195
8. «Tahzib əl-Ayəmənb va əl-Luğat», 2/98
9. «Tarix əl-İslam, «Əz-Zəhəbi, 2/24
10. «Əl-Cəməə beynə ricəl əs-Səhiheyn», 2/487
11. «Əl-Bidayə va ən-Nihayə» 7/94
12. «Dövlət əl-İslam», 1/5
13. «Tahzib əl-Tahzib», 10/186
14. «Vəfayyət əl-Əyan»
15. «Cəmharat əl-övliya», 2/48
16. «Təbaqət Fukaha əl-Yəmən», 44
17. «Əl-Bəd va ət-Tarix», 5/117
18. «Əz-Zühd», Əhməd ibn Xənbəl, 180
19. «Təzkirat əl-Həffəz» 1/19
20. «Əl-Məarif», İbn Quteyb, 1/111
21. «Əshab Bədr», 204
22. «Həyat əs-Səhabə», 4-cü hissənin mündəricatına bax.

# YASİR AİLƏSİ

Yasir, Sumeyya və Ammar

*"Səbr edin, ey Yasir ailəsi! Sizin məkanınız Cənnətdir".*

Allahın elçisi, Məhəmməd

Təmiz havalı, açıq səmalı günlərin birində səhər çağı Yəməndən gələn bir karvan Məkkədə dayandı. Yasir ibn Amir əl-Kinani müqəddəs Məkkənin yaxınlığında dayanıb ona doyunca baxdı. Kəbəni görə bildiyi üçün Yasirin könlü çox şad oldu. Onun gözləri hələ o vaxtadək nə isə gördüyü üçün bu qədər sevinməmişdi.

* * *

Yasir Məkkəyə karvanla gələn digər insanlar kimi ticarət etməyə gəlməmişdi. O, digər iki qardaşı Haris və Maliklə birgə Məkkəyə uzun illərdən bəri itirdikləri və heç yerdə tapa bilmədikləri qardaşlarlarını axtarmaq üçün gəlmişdilər. Qardaşlar hər yerdə axtarışa başladılar. Onu hər kəsdən soruşdular. Sonda qardaşlarını tapmaqdan ümidlərini üzüb fərqli istiqamətlərə ayrıldılar.

Haris və Malik uşaqlıq yurduna – doğma Yəmənə qayıtdılar. Yasirin isə Məkkədən çox xoşu gəldi və o burada yaşamağa, məskən salmağa qərar verdi.

* * *

Yasir bu qərarı verməklə hansı şanlı mərtəbəyə çatacağından və tarixin səhifəsinə şanlı həriflərlə yazılacağından xəbərsiz idi. O, zürriyətindən səbri və dözümlülüyü dillərə dastan olan bir övlad gələcəyini hələ bilmirdi. Yasiri Məkkədə qoruyub himayə edə biləcək bir qohumu və ya həmyerlisi yox idi. Təbii ki, onun kimi qərib olan bir kimsənin zəiflərin yeri olmayan bu cəmiyyətdə təhlükəsiz və amanda yaşaması üçün Məkkə ağalarından birinə

sığınması lazım idi. Yasir Əbu Huzeyfə ibn əl-Muğirə əl-Məxzumi ilə razılaşıb onun köləliyinə keçdi.

* * *

Əbu Huzeyfə Yasiri dürüst və əxlaqlı biri görüb onu Sumeyyə bint Xibat adlı kənizi ilə evləndirdi. Bu evlilikdən valideynlərin Ammar adlı bir övladı oldu. Bu uşaqla ailəyə sevinc gəldi. Əbu Huzeyfə onu azad etdiyi zaman isə ailənin sevinci ikiqat artdı.

* * *

Ailə yenə də Məxzumilərin himayəsində sakit və razı halda həyat sürdü. Günlər keçdi, illər ötdü. Yasir və Sumeyyanın yaşları xeyli irəllədi. Ammar isə gümrah bir gənc olmuşdu.

* * *

Vaxt yetişdi və Yer üzü Rəbbinin nuru ilə işıqlandı. Məkkəyə xeyirxahlıq, hidayət və ədalət günəşi doğmuşdu. Yazıb-oxumaq bilməyən peyğəmbər Rəbbinin tapşırığını aşkarcasına yerinə yetirməyə başladı. Qövmünü əzabla qorxutdu, Cənnətlə müjdələdi. Onları dünyanın izzətini, axirətin isə səadətini əldə etməyə çağırdı.

* * *

Ammar ibn Yasir bu yeni dəvət barəsində xəbərləri başqa insanlardan eşitdi. Sanki qulağı, qəlbi və zəkası açıldı. Lakin eşitdikləri və aldığı xəbərlər ona azlıq etdikdə, Ammar öz-özünə dedi: "Ay yazıq Ammar! Özünü niyə susuz buraxırsan?! Axı suyun çeşməsi sənə yaxındır. Qalx, dinin dəvətçisinin yanına get! Məhəmməd ibn Abdullahın yanına get! Doğru xəbər onda və onun səhabələrindədir".

* * *

Ammar dərhal Ərqam ibn Əbu əl-Ərqamın evinə getdi. Peyğəmbəri ﷺ orada gördükdə və söhbətinə qulaq asdıqda çox sevindi. Qəlbi sevinc və fərəh hissləri ilə coşub-daşırdı. Peyğəmbərin ﷺ hidayət yolu Ammarın qəlbinə hikmət və nur gətirmişdi. O, əlini Peyğəmbərə uzadaraq dedi: "Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq ilah yoxdur. Və yenə şəhadət edirəm ki, sən Onun qulu və elçisisən!"

* * *

Sonra Ammar ibn Yasir anasının yanına getdi və onu da müsəlman olmağa çağırdı. Çox keçmədi ki, oğlunun çağırışına qulaq verən ana da İslam dinini qəbul etdi. Sonra atasını da müsəlman olmağa çağırdı. Atası da İslam dinini qəbul etməkdə zövcəsindən geri qalmadı və dərhal müsəlman oldu. Beləcə nur və hidayət dəryasına bu mübarək ailə ilə daha üç gəmi qoşuldu. Onların buraxdığı nur izi bu günümüzə kimi möminlərin qəlblərində hələ də yaşamaqdadır. Bu, Allahın izni ilə dünya qaldıqca belə də qalacaq.

* * *

Bu üç nəfərin müsəlman olması xəbəri Məxzumilərə yetişdikdə, qəzəblərindən özlərinə yer tapa bilmədilər. And içdilər ki, onları ya İslam dinindən döndərəcəklər, ya da ölümcül vəziyyətə salacaqlar. Dinlərindən dönməyən ailəni Məkkə vadisinə aparıb əyinlərinə dəmirdən zireh geyindirib, günəşin qızmar şüaları altında yandırmağa başladılar. Onlara bir qıram da olsun su vermədilər. Əksinə əllərindəki qamçılarla ata-ananı və övladlarını döydülər. O qədər tərləmişdilər ki, tərləri belə tükənmişdi. Bədənləri qamçı və şallaq yerlərindən parça-parça olmuşdu. Qan su yerinə axırdı. Həmin gün onları beləcə qoyub getdilər. Ertəsi gün yenidən gəldilər və işgəncələrini davam etdirdilər. Bir dəfə onlar bu cür işgəncə çəkdikləri vaxt Peyğəmbər ﷺ oradan keçirdi. Bu işgəncənin qarşısını ala bilmək üçün əlində gücün olmadığına görə Peyğəmbərin ﷺ qəlbi pərişan oldu. Onlara yaxınlaşıb *"Səbr edin, ey Yasir ailəsi! Sizin məkanınız Cənnətdir!"* – deməkdən başqa heç nə edə bilmədi. Bu

sözlərdən sonra işgəncə görən qəlblərə rahatlıq, gözlərə nur, üzlərə təbəssüm gəldi.

* * *

Bu işgəncə uzun çəkmədi. Əbu Cəhl Sumeyyanın yanına gəlib ona işgəncə verməyə başladı. Əvvəlcə ona olmazın söyüşləri və təhqiramiz ifadələrini deyən qəddar Əbu Cəhl, sonra nizəni Sumeyyanın qarnına batırdı. Nizənin ucu Sumeyyanın kürəyindən çıxdı. Beləcə o, İslamda şəhidlik mərtəbəsinə ucalmış ilk müsəlman oldu. Yasir isə işgəncələrə dözə bilməyib şəhadət gətirə-gətirə ruhunu tapşırdı.

* * *

Ata-ananın ölümündən sonra bütün işgəncələr Ammarın üzərində cəmləndi. Cəlladlarının ona verdikləri işgəncələrin həddi-hüdudu yox idi. Bir gün Ammar kədərli, üzgün və eyni zamanda utanc içində Peyğəmbərin ﷺ yanına gəldi. Utancından başını qaldırıb Peyğəmbərə ﷺ baxa bilmədi. Allahın elçisi ﷺ ondan soruşdu:

*"Ey Ammar, nə olub?"*

Ammar dedi:

"Şərr üz verib, ey Allahın elçisi!"

Peyğəmbər ﷺ soruşdu:

*"Nə baş verib?"*

Ammar cavab verdi:

"Dünən çox işgəncə gördüm. Elə işgəncələr yaşadım ki, bir dağ onu yaşasaydı, parça-parça olardı. Məni qızmar günəşin altında yandırmaqla kifayətlənməyən Allahın düşmənləri bu dəfə bütün bədənimi odda yandırdılar. Bütün bunları səndən üz döndərməyim və tanrılarının adını zikr etməyim üçün edirdilər. Sonda mən də bunu etdim".

Ammar bu sözləri dedikdən sonra hönkür-hönkür ağlamağa başladı. Peyğəmbər ﷺ soruşdu:

*"Bəs qəlbin nə deyir, ey Ammar?"*

Ammar cavab verdi:

"Qəlbim imanla doludur, ey Allahın rəsulu!"

Peyğəmbər ﷺ buyurdu:

*"Sənin üçün günah yazılmaz. Əgər bunları sənə qarşı yenə etsələr, sən də əvvəl etdiyin kimi edərsən!"*

Bundan izzət və cəlal sahibi Allah Ammara lütf edib, onun barəsində bu ayəni nazil etdi: **"Qəlbi imanla sabit olduğu halda** (küfr sözünü deməyə) **məcbur edilən** (dil ilə deyib ürəyində onu təsdiq etməyən) **şəxs istisna olmaqla, hər kəs iman gətirdikdən sonra küfr etsə** (onu ağır təhlükə gözləyir)**. Lakin qəlbən küfrə razı olanlara** (qəlbində könüllü surətdə küfrə yer verənlərə) **Allahın qəzəbi tutar və onlar şiddətli bir əzaba düçar olarlar!"** (*ən-Nəhl, 106*)

* * *

Peyğəmbər ﷺ səhabələrinə Mədinəyə hicrət etməyə icazə verdiyi zaman hicrət edənlər arasında Ammar ibn Yasir də var idi. Mühacirlər Quba adlanan yerə çatdıqları zaman Ammar mühacirlərə səslənərək orada namaz qılmaları üçün bir məscid inşa edilməsi fikrini söylədi. Hamı onun bu fikri ilə razılaşdı. Ammar ibn Yasir inşa etdirdiyi bu məscid İslam tarixində ilk məscid oldu. Təkcə elə bu, onun fəzilətinin nümunəsidir.

* * *

Peyğəmbər ﷺ Mədinəyə hicrət etdiyi zaman Ammarın sanki gözləri nurlandı, sevinci birə-beş artdı. Ammar əziz dostu üçün yaman darıxmışdı. Demək olar ki, gecə və gündüz yanından ayrılmırdı. Peyğəmbər ﷺ də ona qarşı öz şəfqət və məhəbbətini əsirgəmirdi. Ammar onun yanına gəldiyi zaman belə deyərdi: *"Təmiz olan insan gəldi"*.

* * *

Bədr günü Ammar Peyğəmbərin ﷺ bayrağı altında böyük şücaətlə vuruşdu. O, bu döyüşə qatılan yeganə müsəlman idi ki, ata-anası mömincəsinə şəhid olmuşdu.

* * *

Allahın rəsulu ﷺ öz Rəbbinin dərgahına köçdüyü zaman ərəblərin çoxu İslamdan üz döndərmişdilər. O Yəmamə günü böyük və təqdirəlayiq bir mövqe nümayiş etdirmişdir. Peyğəmbərin ﷺ səhabələrinin getdikcə şəhid olduğu və bununla da Quran hafizlərinin azaldığı bir vaxtda Yer üzü yenidən müsəlmanların ayaqları altında sirkələnməyə başladı. Bu zaman Ammar ibn Yasir qulağı qopmuş və sifətində sallanmış halda mübarək bir qayanın üzərində dayanıb səsləndi:

*"Ey müsəlman camaatı! Cənnətdənmi qaçırsınız?! Mənə tərəf! Mənə tərəf gəlin ey müsəlmanlar!"*

Sonra qulağı sifətində asılı haldı müsəlmanların önünə keçdi. Onun hücumu ilə müsəlmanlar hərəkətə keçdilər və yalançı peyğəmbər Müseyliməni öldürdülər. Bundan sonra insanlar İslam dinindən toplu-toplu döndükləri kimi, toplu-toplu da İslam dininə qayıtmağa başladılar.

* * *

Faruq[148] xilafətin başına keçdikdə Ammarı Kufəyə vali, Abdullah ibn Məsudu isə ona köməkçi göndərdi. Kufə əhalisinə isə bir məktub göndərdi. Məktubunda yazırdı:

"Mən Ammarı sizə vali, Abdullah ibn Məsudu isə müəllim və vəzir olaraq göndərmişəm. Onlar Peyğəmbəriniz Məhəmmədin ﷺ ən nəcib səhabələridir. Onlara qulaq asın, onları özünüzə örnək götürün!" Sonralar Ömər onu əmirlik vəzifəsindən çıxartmış və onunla görüşdükdə isə demişdi:

"Ey Ammar, sənə qarşı etdiyim bu davranış ziyanınamı oldu?"

"Ammar cavabında "əmirlik məni o vəzifədən geri çağırdığından daha çox ziyanıma olmuşdu".

* * *

[148] Ömər ibn əl-Xəttab

Allah Ammar ibn Yasirdən razı olsun! Həqiqətən o, başdan ayağa qədər özünü iman yükü ilə doldurmuşdu. Allah onun atası Yasirdən və anası Sumeyyadan da razı olsun! Onların hər biri iman ailəsinin bir üzvü idi.[149]

* * *

[149] Yasir, Sumeyya və Yasir barəsində ətraflı məlumat almaq üçün bax:

1. "Əsədul qabə", 4/46;
2. "Əl-İsabə", 3/647; Sumeyya barədə, 4/334; Ammar barədə, 2/512;
3. "Əl-İstiab", 2/476;
4. "Sifətus Safvə", 1/175;
5. "İbn Hişam "əs-Siratu ən-Nəbəviyyə" 1/342;

# SUHEYL İBN AMR

*"Suheyllə qarşılaşdığınız zaman onunla pis rəftaretməyin!*
*Həqiqətən, o, ağıl və şərəf sahibidir.*
*Suheyl kimi bir insan heç zaman İslama qarşı qafil olmaz!"*
Allahın elçisi, Məhəmməd

Suheyl ibn Amr Qureyşin sayılıb seçilən insanlarından, ərəblərin ən fəsih natiqlərindən və münaqişələrin həllində öz sözü olan başçılardan biri idi. Peyğəmbər ﷺ haqq dinini açıq-aşkar dəvət etməyə başladığı zaman Suheyl artıq kamala yetmiş bir yaşda idi. Ağlı yerində, uzaq görən bir insan çağında idi. O, hidayət və mərhəmət peyğəmbərinin haqlı dəvətinə müsbət cavab vermək üçün ağıllı biri idi. Lakin Suheyl İslam dininə üz döndərmədi, əksinə hər vəchlə insanları Allahın yolundan çəkindərməyə başladı. İslam dinini qəbul etmiş müsəlmanları dinlərindən döndərib yenidən şirkə qaytarmaq üçün hər cür işgəncəyə əl atırdı.

Lakin çox keçmir ki, Suheyl ibn Amr başına ildırım vurmuş kimi olan bir xəbər eşidir. Öyrənir ki, oğlu Abdullah və qızı Ummu Kulsum Məhəmməd Peyğəmbərə ﷺ tabe olub, onun və Qureyşin zülmündən xilas olmaq üçün Həbəşistana hicrət edib.

Sonralar Həbəşistana hicrət edən müsəlmanlara Qureyş barədə yalançı bir xəbər yetişir: Guya Qureyş müsəlman olub və müsəlmanlar öz torpaqlarında ailələri ilə birgə əmin-amanlıq içində yaşayırlar. Bu xəbəri eşidən bəzi müsəlmanlar Məkkəyə qayıtdılar. Onların arasında Abdullah ibn Suheyl də var idi.

* * *

Abdullahın ayağı Məkkəyə dəyər-dəyməz atası onu yaxaladı və əllərini qollarını bağlayıb evlərində qaranlıq bir yerə atdı. Daha sonra bu gəncə müxtəlif cür işgəncələr verməyə başladı. Sonda Abdullah Peyğəmbərin ﷺ dinindən döndüyünü və ata-babasının dininə qayıtdığını atasına bildirdi.

* * *

Sonralar müşriklər Bədrdə Peyğəmbərin ﷺ ordusu ilə savaşa girdilər. Suheyl ibn Amr qılıncı ilə Məhəmmədin başını qoparmaq üçün oğlunu da Bədrdəki döyüşə apardı. O, əvvəllər Peyğəmbərin ﷺ dininə qoşulanlar içində olan oğlunun bu döyüşdə vuruşacağını xəyal edirdi.

* * *

Lakin tale Suheylin hesab etmədiyi şeyləri ani olaraq onun qarşısına çıxarırdı. İki ordu Bədrdə qarşı-qarşıya gəldikləri vaxt gənc mömin Abdullah müsəlmanlar tərəfə keçdi. Peyğəmbərin ﷺ bayrağı altında dayanıb atasına və onunla birgə olan Allahın düşmənlərinə qarşı döyüşmək üçün qılıncına sarıldı.

* * *

Bədr döyüşü Allahın Öz Peyğəmbərinə bəxş etdiyi möhtəşəm qələbə ilə başa çatdı. Peyğəmbər ﷺ və seçilmiş səhabələri müşrik əsirlərinə baxmağa getdilər. Aralarında Suheyl ibn Amrın da olduğunu gördülər. Suheyl Peyğəmbərin ﷺ hüzurunda dayanıb fidyə[150] vermək istədiyini bildirdi. Bu vaxt Ömər ibn əl-Xəttab dilləndi:

"Ya rəsulallah! İzn ver, onun dişlərini sındırım ki, bundan sonra Məkkə camaatı içində İslam və onun peyğəmbəri haqda artıq-əskik danışa bilməsin!"

Peyğəmbər ﷺ buyurdu:

*"Qoy qalsın, ey Ömər! İnşallah, ola bilsin ki, o (dişlər) bir gün səni sevindirsin!"*

* * *

Günlər keçdi. Allahın elçisi ﷺ ilə müşriklər arasında Hüdeybiyyə sülhü bağlanırdı. Qureyş sülhü onlar adından həyata keçirmək üçün Süheyl ibn Amrı göndərdi. Peyğəmbər ﷺ aralarında Suheylin

[150] Fidyə mal qarşılığı ilə canını xilas etmək deməkdir.

oğlu Abdullahın olduğu bir neçə səhabə ilə birgə Suheyl ibn Amrla görüşdü.

Sonra Peyğəmbər ﷺ əqdnaməni yazması üçün Əli ibn Əbu Talibi çağırdı və dedi:

*"Yaz ki, Rəhman (mərhəmətli) və Rəhim (rəhimli) Allahın adı ilə!"*

Suheyl dedi:

"Biz bunları tanımırıq. Yaz ki, Allahım, sənin adınla!"

Peyğəmbər ﷺ dedi:

*"Yaz ki, Allahım, sənin adınla!"*

Daha sonra Peyğəmbər ﷺ dedi:

*"Yaz ki, Allahın elçisi, Məhəmməd tərəfindən!"*

Suheyl dedi: "Biz sənin Allahın elçisi olduğuna şəhadət gətirsəydik, sənə qarşı vuruşmazdıq. Adını və atanın adını yaz!"

Peyğəmbər ﷺ dedi:

*"Allaha and olsun ki, siz məni təkzib etsəniz də mən Allahın elçisiyəm. Yaz Abdullahın oğlu Məhəmməd!"*

Suheyl ibn Amr andlaşmanı tamamladı və Məhəmmədə qarşı qövmünə qələbə qazandırdığını düşünərək özündən razı halda oradan ayrıldı.

* * *

Günlər yenə keçdi. Bu dəfə Qureyş müharibəsiz mütləq məğlubiyyətə düçar oldu. Allahın elçisi ﷺ Məkkəyə fateh kimi daxil oldu. Carçı qışqırırdı:

"Ey Məkkə əhalisi! Kim evinə girsə, amandadır. Kim Kəbəyə girsə, amandadır. Kim Əbu Süfyanın evinə girsə, amandadır".

Suheyl bu səsi eşitdikdə qəlbində bir xof yarandı. Evinin qapısını içəridən kilidlədi və nə edəcəyini bilmədi. Edə biləcəyi heç nə qalmamışdı. Gəlin, yaşadığı bu gərgin anları danışmaq üçün söhbəti Suheyl ibn Amrın özünə buraxaq:

"Allahın elçisi ﷺ Məkkəyə daxil olduğu zaman, evə girdim. Qapını içəridən bağlayıb özümü evə həbs etdim. Oğlum Abdullahı çağırmaq üçün adam göndərdim. Gözlərimin onun gözlərinə baxacağı üçün çox utanırdım. Axı İslamı qəbul etdiyinə görə ona çox

işgəncələr vermişdim. Yanıma gəldiyi zaman dedim: "Mənim üçün Məhəmməddən yaxınlıq istə!" Abdullah Peyğəmbərin ﷺ yanına getdi və dedi:

"Ey Allahın elçisi, canım sənə fəda olsun! Ona aman verirsənmi?"

Allahın elçisi buyurdu:

*"Bəli! O, Allahın amanındadır. Üzə çıxsın!"*

Sonra Allahın elçisi ﷺ üzünü səhabələrinə tutub dedi: *"Suheyllə qarşılaşdığınız zaman onunla pis rəftar etməyin! Həqiqətən, o, ağıl və şərəf sahibidir. Suheyl kimi bir insan heç zaman İslama qarşı qafil olmaz!"*

* * *

Bundan sonra Suheyl müsəlman oldu və iman onun qəlbinə və ağlına hakim oldu. Peyğəmbəri ﷺ çox sevdi. Bu sevgi onun qəlbindəki qara nöqtəni silib apardı.

Əbu Bəkr əs-Siddiq deyir ki, Vida həccində Suheyl ibn Amrın Peyğəmbərin ﷺ hüzurunda dayandığını gördüm. Ona dəvə verdi. Peyğəmbər ﷺ dəvəni öz mübarək əlləri ilə kəsdi. Sonra bərbəri çağırıb saçını qırxdırdı. Gördüm ki, Suheyl Peyğəmbərin ﷺ saçından bir tük götürüb gözünün üstünə qoydu.

Hudeybiyyə günü "Allahın elçisi, Məhəmməd" deyə yazmağa qarşı çıxdığı yadıma düşdü. Və onu hidayət etdiyinə görə Allaha həmd etdim".

* * *

Suheyl müsəlman olduqdan sonra hər zaman Allaha yaxınlaşdıran əməllər etməyə və ondan uzaqlaşdıran əməllərdən çəkinməyə çalışdı. Məkkənin fəthindən sonra müsəlman olanlar arasında onun qədər namaz qılan, oruc tutan, sədəqə verən, Allah qorxusundan ağlayan kimsə yox idi. Həmçinin onun ürəyi yumşalmış, kövrək bir insan olmudşu.

Hər gün Muaz ibn Cəbəlin yanına gedər və ona Qurandan ayələr oxumasını istəyərdi. Bir dəfə Dirar ibn əl-Xəttab ona demişdi:

"Ey Zeydin atası! Sən Quran oxuması üçün bu xəzrəclinin yanınamı gəlirsən?! Niyə öz qövmün Qureyşdən bir kəsin yanına getmirsən?!"

Suheyl cavabında demişdi:

"Ey Dirar, sənin söylədiyin bu fikir cahiliyyət dövrünün adət-ənənəsindən başqa bir şey deyil. Bizi bu vəziyyətə gətirmiş və bütün xeyir və yaxşılıqları əlimizdən alan da elə budur. İslam dini öz gəlişi ilə cahiliyyət dövrünün qəbilə təəssübkeşliyini ləğv etdi və tarixdə adı xatırlanmayan qəbilələrə belə hörmət qazandırdı. Kaş biz də onların inkişaf etdiyi kimi inkişaf edəydik".

* * *

Suheyl ibn Amr İslamı daha öncədən qəbul etmiş müsəlmanların ondan daha fəzilətli olmasını hiss edir və aralarında fərq olduğunu anlayırdı. Bir gün Suheyl ibn Amr, Haris ibn Hişam və Əbu Süfyan ibn Harb Ömər ibn Xəttabın yanına gəldilər. Ammar ibn Yasir, Suheyb ər-Rumi və İslamı əvvəlcədən qəbul etmiş məvali səhabələr də onlarla birgə gəlmişdilər. Ömərin köməkçisi çıxıb dedi:

"Ammar və Suheyl girsin!"

Qureyşlilər hirsli halda bir-birilərinə baxdılar. Onlardan biri dedi: "Bu günümüz kimi gün yaşamamışdım. Ömər onlara izn verir, bizi isə qapıda saxlayır".

Suheyl dedi: "Hirsiniz varsa, özünüzə hirslənin! Onları da İslama dəvət etdilər, bizi də. Onlar müsəlman olmaq üçün tələsdilər. Biz isə gecikdik. Görəsən, Qiyamət günü bizim halımız necə olacaq?! Biz orada da tərk ediləcəyik?!

Allaha and olsun ki, onların sahib olduqları fəzilət sizin bu qapıdan girmək istəyinizdən daha xeyirlidir".

Sonra dedi: "Onlar artıq fəzilətdə sizi qabaqlayıblar. Sizin nail ola bilmədiyiniz bu fəzilətə, Allaha and olsun ki, yalnız cihad və şəhid olmaqla nail olmaq olar".

Sonra Suheyl paltarını sirkələyib ayağa qalxdı.

* * *

Şam torpaqlarında müsəlmanlarla bizanslılar arasında müharibə getdiyi zaman Suheyl ibn Amr övladlarını, nəvələrini və bütün ailəsini götürərək müsəlmanlarla birgə Allah yolunda vuruşmaq üçün Şama yollandı. Özü ilə birgə olanlara da bu sözləri dedi:

"Allaha and olsun ki, müşriklərlə yaşadığım hər bir anın əvəzini müsəlmanlarla birgə xeyir əməllər görərək çıxardıram. Müşriklərlə xərclədiyim mal qədər, indi müsəlmanlarla birgə xərcləyirəm.

Allaha and olsun ki, şəhid olana və ya Məkkədən uzaqda ölənə kimi özümü Allah yolunda vuruşmağa həsr edəcəm".

* * *

Suheyl ibn Amr öz andına sadiq qaldı və müsəlmanlarla birgə Yərmuk döyüşünə qatılaraq əsil möminlərin göstərə biləcəyi hünəri göstərdi.

Ta Əmvas[151] taununun Şam torpaqlarına yayıldığı vaxta qədər bir döyüşdən digərinə atıldı. Suheyl və onunla birgə olan ailəsi burada həlak oldu.

Allah Suheyl ibn Amrdan razı olsun! Peyğəmbərlərə və şəhidlərə bəxş etdiyini ona da bəxş etsin![152]

* * *

---

[151] Əmvas Şam ərazisində bir şəhər adıdır. Orada taun xətəliyi yaranmış, sonra Şam torpaqlarına sirayət etmişdi. Bu xəstəliyinin fəsadından çoxlu insan həlak olmuşdu. Ona görə də bu xəstəliyin adı Əmvas adlandırılmışdır.

[152] Suheyl ibn Amr barədə ətraflı məlumat üçün bax:

1. "Əl-İsabə" 2/93;
2. "Əsdul qabə" 5/479;
3. "Sifətus safvə" 1/731;

İbn Hişam "Əs-Siratu ən-nəbəviyyə", mündəricata bax!

# CABİR İBN ABDULLAH ƏL-ƏNSARİ

*"O, müsəlmanlara əzəmətli peyğəmbərləri barəsində min beş yüz qırx hədis rəvayət etmişdir"*

Yəsribdən Məkkəyə yola düşən karvan çox tələsirdi. Onları irəli çəkən, qabağa aparan içlərindəki həsrət və sevgi duyğuları idi. Onlar Allahın elçisi ﷺ ilə görüşəcəkləri üçün çox sevincli idilər. Qəlblərində Peyğəmbərə ﷺ qarşı bəslədikləri sevgi hisslərinin həddi-hüdudu yox idi. Böyük həsrətlə əllərini Peyğəmbərin ﷺ mübarək əlinə qoyub ona itaət edəcəklərinə, dəstək verib yardım göstərəcəklərinə dair beyət edəcəkləri anı gözləyirdilər.

Karvanda qoca bir kişi də var idi. O da tərkinə körpə oğlunu alaraq yola çıxmışdı. Doqquz qızını Yəsribdə qoyub gəlmişdi. Onun gətirdiyi oğlundan başqa oğlu yox idi. Qoca balaca oğlunun da beyətə şahidlik etməsini və bu mübarək anları onun da yaşamasını istəyirdi. Bu kişi Abdullah ibn Amr əl-Xəzraci əl-Ənsari idi. Onun körpə oğlu isə Cabir ibn Abdullah əl-Ənsari idi.

* * *

Cabir ibn Abdullah hələ uşaq olarkən iman onun qəlbini fəth etmiş, nurlandırmışdı. Şeh damlaları gülün üzərinə hopduğu və çicək açdırdığı kimi İslam da onun qəlbinə hopmuşdu. Onun Peyğəmbərlə ﷺ əlaqələri hələ o uşaq olarkən yaranmış, möhkəmlənmişdi.

* * *

Peyğəmbər ﷺ Mədinəyə köçdüyü zaman mömin gənc hidayət və rəhmət peyğəmbərinin yanında şagirdlik etməyə başladı. O, Allahın kitabının qorunması və insanlara təbliğ etdirilməsi sahəsində Məhəmməd məktəbinin ən görkəmli və layiqli yetirməsi oldu. Allahın dininin düzgün başa düşülməsi və Peyğəmbərin ﷺ hədislərinin rəvayət edilməsi istiqamətində layiqincə çalışdı. Onu bilmək kifayətdir ki, Cabir ibn Abdullahın rəvayət etdiyi hədislərin sayı min beş yüz qırxdır. Çalışqan şagird bunları hafizəsində saxlamış və

Peyğəmbərindənﷺ müsəlmanlara rəvayət etmişdir. Buxari və Müslim özlərinin "Səhih" kitablarında ona aid olan bu hədislərin iki yüzdən artığını qeyd etmişlər. O, müsəlmanlara uzun müddət doğru yol göstərən hidayət çırağı olmuş və təxminən bir əsr ömür yaşamışdır.

* * *

Cabir ibn Abdullah Peyğəmbərlə ﷺ birgə Bədr və Uhud döyüşlərində iştirak etməmişdir. Bir tərəfdən onun yaşı kiçik idi, digər tərəfdən isə atası ona bacıları ilə birgə qalmasını tapşırardı. Çünki bacılarının xidmətində duracaq balaca Cabirdən başqa kimsələri yox idi. Cabir danışır ki, Uhud döyüşündən əvvəlki gecə atam məni yanına çağıraraq dedi:

"Peyğəmbərin ﷺ səhabələri arasında ilk ölənlər arasında özümün də olacağını düşünürəm. Sən Peyğəmbərdən ﷺ sonra mənə ən əziz olan kəssən. Mənim borcum var. Onu ödəyərsən! Bacılarına qarşı mərhəmətli ol və onlara yaxşı şeyləri tövsiyə et!"

Səhər açıldıqda atam Uhudda ilk ölən oldu. Onu dəfn etdikdən sonra Peyğəmbərin ﷺ yanına gəlib dedim:

"Ey Allahın elçisi, atam borc qoyub gedib. Mənim də bu borcu ödəmək üçün xurma bağının barından başqa heç nəyim yoxdu. Bununla da borcu ödəməyə çalışsam, illər çəkər...

Bacılarıma xərcləmək üçün olanım yalnız budur".

Peyğəmbər ﷺ ayağa qalxıb mənimlə xurmalığımıza gəldi, sonra dedi: *"Atanın borcluları üçün dua et!"*

Mən onlar üçün dua etdim. Və Allah taala bizə elə asanlıq göstərdi ki, həmin ilin barı ilə atamın bu borcunu ödəyib qurtardıq. Sonra xurmalığımıza baxdığımda onun əvvəlki kimi dolu olduğunu gördüm. Sanki oradan bir xurma belə dərilməmişdi".

* * *

Cabirin atası həlak olduqdan sonra o, Peyğəmbərin ﷺ qoşulduğu heç bir döyüşdən geri qalmadı. Onun hər bir döyüşə aid rəvayət etdiyi hadisələri vardır. Gəlin Peyğəmbərlə ﷺ birgə başına gələn hadisələri danışması üçün sözü özünə verək.

Cabir deyir ki, Xəndək döyüşü ərəfəsi biz xəndək qazırdıq. Birdən rastımıza qırmağı bacarmadığımız bir qaya parçası çıxdı. Peyğəmbərin ﷺ yanına gəldik və dedik: "Ey Allahın elçisi! Rastımıza sal bir qaya parçası çıxıb. Alətlərimizin isə onu qırmağa gücü çatmır. Peyğəmbər ﷺ buyurdu ki, *"qoyun qalsın, mən gəlirəm"*.

Sonra Peyğəmbər ﷺ qalxıb xəndək qazdığımız yerə gəldi. Onun qarnının üstündən daş asılmışdı. Çünki biz həmin ərəfədə üç gün ac qalmışdıq. O, çəkiclə qaya parçasını vurmağa başladı. Və bu qaya parçası böləndü, parça-parça oldu.

Peyğəmbər ﷺ aclıqdan çox əziyyət çəkirdi. Ondan evə getməyim üçün icazə istədim. O da gedə biləcəyimi söylədi.

Evə çatdıqda xanımıma dedim:

"Rəsulullahın aclıqdan necə əziyyət çəkdiyini gördüm. Heç kəs bu aclığa dözə bilməzdi. Səndə yeməyə nəsə bir şey varmı?"

Dedi:

"Bir az buğda var, bir də kiçik quzu".

Qalxıb quzunu kəsdim. Sonra doğrayıb qazana qoydum. Daha sonra buğdanı üyütdüm və xanımıma verdim. O da xamır yoğurdu. Ətin bişməsinə və xəmirin acımasına az qalmışdı ki, Peyğəmbərin ﷺ yanına getdim və dedim:

"Sənin üçün balaca bir yemək hazırlamışıq, ey Allahın elçisi! Qalx, bir-iki nəfərlə gəl bizə!"

Peyğəmbər ﷺ soruşdu:

"*Neçə nəfərlikdir?"*

Yeməyin nə qədər olduğunu söylədim. Peyğəmbər ﷺ yeməyin miqdarını bildikdən sonra dedi:

*"Ey xəndək əhli! Cabir sizin üçün yemək hazırlayıb. Qalxın onlara gedirik!"* Sonra mənə çevrilib dedi: *"Get xanımına söylə ki, mən gələnə kimi qazanı götürməsin, xəmiri bişirməsin!"*

Evə qayıtdım. Necə utandığımı və təlaşlandığımı yalnız Allah bilirdi. Təəccüblə öz-özümə dedim ki, xəndəkdə işləyənlər bir parça çörək və kiçik bir quzu üçün bizə gəlirlər?!"

Sonra xanımıma dedim: "Vay başımıza gələnlər! Biabır oldum! Rəsulullah və xəndəkdə işləyən bütün insanlar bizə gələcək".

Xanımım dedi:

"Səndən yeməyin miqdarını soruşdu"

Dedim: "Bəli!"

Dedi: "Rahat ol! Allah və Rəsulu daha yaxşı bilir". Onun bu sözü ilə təlaşım bir az azaldı.

Az sonra Rəsulullah ﷺ ənsar və mühacirlərlə birgə bizə gəldi. Onalara *"girin, ancaq qarışıqlıq salmayın!"* – dedi. Sonra xanımıma dedi ki, *"başqa bir çörək bişirən bir qadın da çağır ki, çörəyi səninlə birgə bişirsin! Qaşığı qazana sal, yemək çək! Ancaq onu odun üstündən götürmə!"*

Sonra çörəyi bölməyə və üzərinə ət qoymağa başladı və səhabələrə uzatdı. Hamı yeməkdən yedi və doydu.

Sonra Cabir söhbətini tamamlayaraq dedi:

"Allaha and içirəm ki, səhabələr yeməklərini bitirdilər, ancaq qazan əvvəlki kimi dolu qalmışdı. Xəmir də hələ bişirdi.

Peyğəmbər ﷺ xanımıma dedi:

*"Özün ye! Sonra da payla!"*

Xanımım özü də yedi. Sonra bütün gün boyu yeməyi paylamağa başladı.

* * *

Cabir ibn Abdullah əl-Ənsari uzun müddət müsəlmanlara hidayət çırağı oldu. Təxminən Allah ona bir əsrlik ömür verdi.

Sonrakı illərdə Cabir Allah yolunda vuruşmaq üçün Bizans torpaqlarına yollanan orduya qoşuldu. Orduya Malik ibn Abdullah əl-Xasəmi başçılıq edirdi. Malik ordunun arasında gəzişərək əsgərlərin vəziyyəti ilə maraqlandı. Yaşlı olanlara isə xüsusi diqqət və qayğı göstərilməsini söylədi. Cabir ibn Abdullahın yanından keçərkən onu qatırının yüyənindən tutub piyada yeridiyini gördü və ona dedi:

"Ey Əbu Abdullah! Axı Allah sənə belinə minməyin üçün asanlaşdırıcı bir vasitə verib. Onu niyə minmirsən?"

Cabir dedi:

Peyğəmbərin ﷺ belə buyurduğunu eşitdim: *"Hər kimin ayaqları Allah yolunda toza-torpağa batarsa, Allah ona od göstərməz"*.

Malik onun yanından ayrılıb ordunun qabağına keçdi. Sonra ona tərəf çevrilib ucadan səsələndi:

"Ey Əbu Abdullah! Niyə qatırına minmirsən? Axı o sənin mülkündür?!"

Cabir onun məqsədini anlayıb uca səslə ona cavab verdi: Peyğəmbərin ﷺ belə buyurduğunu eşitdim: *"Hər kimin ayaqları Allah yolunda toza-torpağa batarsa, Allah ona od göstərməz"*.

Hər kəs bu savabı qazanmaq üçün öz miniklərindən endilər. Piyadası bu qədər olan ordu hələ görünməmişdi.

* * *

Cabir ibn Abdullah əl-Ənsari necə də xoşbəxtdir:

O, hələ körpə ikən Peyğəmbərə ﷺ beyət etmiş, uşaqlığından onun şagirdi olmuş, hədislərini rəvayət etmiş, cavanlığını Peyğəmbərlə ﷺ birgə onun döyüşlərində keçirmiş, qocalığında isə ayaqlarını Allah yolunda toz-torpağa bulaşdırmışdı.[153]

* * *

---

[153] Cabir ibn Abdullah barədə ətraflı məlumat almaq üçün bax:

1. "Əsdul qabə" 1/307;
2. "Siyər əlam ən-Nubələ" mündəricata bax;
3. Zəhəbi "Tarixul İslam" 3/143;
4. "Əl-İsabə" 1/212;
5. "Əl-came beynə rical əs-Sahiheyn" 1/72;
6. İbn Əsir "Came əl-usul" 1/427;
7. "Əl-bidayə van-Nihayə" 4/486;
8. İbn Hişam "Əs-Siratu ən-Nəbəviyyə" 3/217-218;
9. "Məcməuz Zəvayid" 9/11

# ƏBU HUZEYFƏNİN MÖVLASI SALİM

*"Salim sağ olsaydı, onu özümdən sonra xəlifə qoyub gedərdim".*
Ömər ibn əl-Xəttab

Subeytə bint Yəar Salimi azad etdi. O, yeniyetmə çağında idi. Onu azad etməyə təşviq edən Salimin tərbiyəsi, əxlaqı və yüksək keyfiyyətə malik olması idi. Onun davranışlarında hər zaman xeyirxahlıq və dürüstlük nişanələri sezilirdi.

Subeytə Əbdüşəms qəbiləsinin ağalarından biri olan gənc yoldaşı Əbu Huzeyfə ibn Utbədən xahiş etdi ki, Salimi bu yeniyetmə yaşında sərbəst buraxsın və ixtiyarını özünə versin. Əbu Huzeyfə onun əlindən tutub Harama apardı. Kəbənin ətrafında toplaşmış qureyşlilərə səsləndi:

"Ey Qureyş camaatı! Şahid olun ki, zövcəm Subeytə Salimi azad etdikdən sonra onu oğulluğa götürdüm. Mənimlə onun arasında bir atanın oğlu ilə öz arasında olan bütün əlaqələr vardır".

Qureyşlilər dedi:

"Ey ibn Utbə, nə gözəl iş tutmusan!"

Həmin vaxtan etibarən həmin gənc Əbu Huzeyfənin oğlu Salim adlandırıldı.

* * *

Çox keçmədi ki, ilahi çıraq Məkkəni nurlandırdı. Allah taala Öz Peyğəmbərinə ﷺ haqq və hidayət dinini nazil etdi. Əbu Huzeyfə və oğlu Salim də bu müqəddəs çırağın nuru ətrafında toplaşan ilk insanlardan oldular. Qəlbləri imanın nuru ilə şölələndi.

Ata və oğul Allahahın elçisinin ﷺ yanına gedərək onun hüzurunda İslam dinini qəbul etdiklərini bildirdilər. Onlar birgə Allahın birliyinə və şərikinin olmadığına, habelə Məhəmmədin Allahın qulu və peyğəmbərlərin sonuncusu olduğuna dair şəhadət verdilər.

* * *

Əbu Huzeyfənin və oğlu Salimin İslamı qəbul etməsindən çox keçməmişdi ki, İslam dini oğulluğa götürmə adətini qadağan etdi. Hər kəs övladlığa götürdüyü uşaqları öz valideynlərinə geri qaytarmalı idi. Burada məqsəd hər soyun qorunub saxlanılması, əsil-nəsəblərin bilinməsi idi.

İzzət və cəlal sahibi Allah övladlığa götürənlər barədə bu ayəni nazil etdi:

**"Onları öz atalarının adları ilə çağırın".** (əl-əhzab, 5)

Müsəlmanlar da Rəblərinin çağırışına cavab verib övladlığa götürdükləri uşaqların əsil-nəsəblərini axtarmağa başladılar və onları gerçək valideynlərinə geri qaytardılar.

Lakin Əbu Huzeyfə Salimin atasını tapmaq üçün çox axtarış aparsa da onu tapa bilmədi. Çünki Salim körpə ikən əsir alınmış və Məkkəyə gətirilmişdi. O, burada qul bazarında satılmışdı. Salim o vaxt ata-anasının kim olduğunu xatırlaya bilməyəcək qədər çox kiçik idi. İnsanlar ona Əbu Huzeyfənin mövlası Salim adını vermişdilər. O bütün həyatı boyu bu adla tanınmışdır.

* * *

Lakin Əbu Huzeyfə ilə Salim arasında olan münasibət bir kölə ilə ağası arasında olan münasibət kimi deyildi. Xüsusilə İslam dini onların qəlblərini birləşdirdikdən sonra aralarında qardaşlıq bağları yaranmışdı. Qəlblərini Allah və Peyğəmbər sevgisi bürüdü.

Əbu Huzeyfə Salimlə olan əlaqələrini daha da gücləndirmək və dərinləşdirmək istəyirdi. O, İslam dininin qadağan etdiyi bütün qəbilə təəssübkeşliyi adətinə son qoyub Salimi qardaşı qızı Əbşəmiyyə ilə evləndirdi. Bununla da o, Salimlə Allah qatında qardaş olmaqla yanaşı, həm də qohum oldu.

* * *

Çox keçmədi ki, müsəlmanların sonrakı çətinlikləri bu iki qardaşı bir-birindən ayırdı. Əbu Huzeyfə dinini və imanını qorumaq üçün Allah yolunda Həbəşistana hicrət etdi.

Salim isə Rəsulullahla ﷺ birgə Məkkədə qalmağı və izzət və cəlal sahibi Allahın kitabınının ayələrini nazil olduqca oxumağı və öz həyatında tətbiq etməyi üstün tutdu.

O, çox yüksək təfəkkür və qavrama qabiliyyətinə malik idi. Ona görə də Salim Peyğəmbərin ﷺ sağlığında Qurani-Kərimi əzbər bilib onun mənalarını ən yaxşı bilən insanlardan biri idi. O, Qurani-Kərimi ən yaxşı bilən dörd nəfərin dördüncüsü idi. Peyğəmbər ﷺ bu barədə buyurmuşdur: *"Quran oxumağı dörd nəfərdən istəyin! Onlar: Abdullah ibn Məsud; Əbu Huzeyfənin mövlası Salim; Ubey ibn Kəb; Muaz ibn Cəbəldir".*

* * *

Səhabələr özləri də bilirdilər ki, Salim Allahın kitabını daha yaxşı əzbər bilir və mənalarını daha dərindən anlayır. Ona görə də müsəlmanlar Məkkədən Mədinəyə hicrət etdikləri zaman Salimi çağırıb ondan namazda imamlıq etməsini istəmişdilər. Peyğəmbər ﷺ Mədinəyə gələnə qədər Salim Mədinədə müsəlmanlara namaz qıldırdı. Halbuki, orada Ömər ibn əl-Xəttab və digər möhtərəm səhabələr də var idi.

* * *

Hicrətdən sonra Allah taala Salimlə din qardaşı Əbu Huzeyfəni yenidən qovuşdurdu. Onlar Bədrdə də Allahın elçisi ﷺ ilə birgə çiyin-çiyinə vuruşdular. Müsəlmanlar döyüşdə düşmən ordusu qarşısında sıralarını hazır etdikləri zaman Salim din qardaşı Əbu Huzeyfəyə dedi:

"Ey Əbu Huzeyfə! Bax, atan Utbə ibn Rəbiyə ordunun ön sıralarında dayanıb İslam və müsəlmanları məhv etməyə can atır".

Huzeyfə dedi:

"Bunlar isə Allahın düşmənləri əmim Şeybə ibn Rəbiyə və qardaşım Vəlid ibn Utbədir. Onun ətrafında dayanıblar. Əgər Rəsulullah ﷺ izn versəydi, ard-ardına onların hər biri ilə təkbətək döyüşərdim. Ya onları öldürərdim, ya da razı halda Rəbbimin dərgahına köçərdim.

* * *

Döyüş başa çatdıqdan sonra Salim və Əbu Huzeyfə ölənlərə baxmağa başladılar. Onlar ölənlərin içində Əbu Huzeyfənin atası Utbə, əmisi Şeybə və qardaşı Vəlidi də gördülər. Əbu Huzeyfə onların cəsədlərinə baxıb dedi:

"Bunların ölümü ilə Peyğəmbərinin işini avand edən Alaha həmd olsun!"

* * *

Bundan sonra da bu iki din qardaşı Peyğəmbərin ﷺ bütün döyüşlərində birgə savaşdılar. Onlar Əbu Bəkr əs-Siddiqin xilafəti dövründə baş vermiş Yəmamə döyüşünə qədər Allah və Rəsulunun üzərilərində olduğu haqlarını layiqincə yerinə yetirdilər.

Bu əzəmətli gündə Əbu Bəkr *(Allah ondan razı olsun!)* yalançı peyğəmbər Museyləməyə qarşı döyüş təşkil etdi. O, hər yerdə müsəlmanları İslamı məhv etməyi özünə hədəf seçən bu fitnəyə qarşı vuruşmağa çağırdı.

Salim və Əbu Huzeyfə də Allahın dinini qorumaq və Allahın düşməni Museyliməni öldürmək üçün mübarizəyə qatıldılar.

* * *

İki ordu Yəmamə torpağında qarşılaşdı və müharibələr tarixinin nadir hallarda şahidi olduğu iki möhtəşəm döyüş baş verdi. Müsəlmanlar İkrimə ibn Əbu Cəhl və Xalid ibn Vəlidin başçılığı altında cəmləşmişdilər. Müsəlmanların bu müharibədəki şücaəti vəsf etməyə sözlər yetməz. Lakin Museyləminin başçılığı altındakı mürtəd ordusu da bu müharibəyə yaxşı hazırlaşmışdı.

Hər iki döyüşdə üstünlük Müseyləminin ordusunda idi. Hətta az qalmışdı ki, düşmən ordusu Xalid ibn Vəlidin çadırına girib onun zövcəsini əsir alacaqlardı.

* * *

Bu zaman müsəlmanların qəlblərində bir hiddət yarandı. Ölümü satın alan müsəlmanlar döyüşün müqəddəratını dəyişdilər. Onlar həmin gün ölsələr də, əbədiyyətə adlarını yazdırdılar.

Xalid ibn Vəlid ordunu yenidən yığdı. Mühacirlərin bayrağını Salimə, ənsarların bayrağını isə Sabit ibn Qeysə verdi. Zeyd ibn əl-Xəttab müsəlmanları döyüşə həvəsləndirərək deyirdi:

"Ey insanlar! Vuruşmaqda davam edin! Düşməninizə zərbə endirin! İrəliləyin! Ey insanlar! Allaha and olsun ki, bundan sonra danışmayacam. Allah ya Museyliməni və onun ordusunu məğlubiyyətə uğradacaq, ya da mən öləcəm".

Sonra Zeyd düşmən sıralarını yararaq döyüşə davam etdi və ölənə qədər qəhrəmancasına çarpışdı.

Sonra Əbu Huzeyfə müsəlmanlara səslənərək dedi:

"Ey Quran əhli! Hünərinizlə Quranı bəzəyin!"

Sonra o da şəhid oluncaya qədər vuruşdu. Salim isə mühacirlərin bayrağını daşıyırdı. Düşmən qılıncı onun sağ əlini qopartdı. O, bayrağı sol əlinə götürdü. Sol əli kəsildikdə isə bayrağı qolları ilə saxladı. Taqəti tükənincəyə qədər bayrağı qorudu. Sonda gücü tükənmiş halda yerə yıxıldı.

* * *

Döyüş başa çatdıqdan sonra Xalid ibn Vəlid Salimin yanına gəldi. Salim hələ sağ idi. Xaliddən soruşdu:

"Müsəlmanlar nə etdilər, ey Xalid?"

Xalid dedi:

"Allah onlara qələbə bəxş etdi. Museyləməni öldürdülər və bütün qoşununu məğlub etdilər".

Salim soruşdu:

"Bəs mənim qardaşım Əbu Huzeyfə nə etdi?"

Xalid dedi:

"O, şəhid oldu və Rəbbinin dərgahına köçdü".

Salim dedi:

"Məni onun yanına uzadın!"

Xalid dedi:

"Budur, başını sənin ayağının üstünə qoyub".

Salim bu sözləri deyərək gözlərini yumdu:

"Ey Əbu Huzeyfə! Burada birgəyik. İnşallah orada da birgə olarıq".[154]

* * *

[154] Salim barədə ətraflı məlumat almaq üçün bax:

1. "Əl-İsabə" 2/6;
2. "Əsdul qabə" 2/307;
3. "Həyətus Səhabə" mündəricata bax;
4. İbn Hişam "əs-Siratun nəbəviyyə" 2/123:

## OSMAN IBN AFFAN

*Peyğəmbərliklər tarixi Osman ibn Affandan başqa bir peyğəmbərə iki dəfə kürəkən olan heç kimi tanımamışdır.*

O, iki nurun sahibi, iki hicrətin iştirakçısı və Peyğəmbərin iki qızı ilə evlənmiş bir şəxs idi. Allah ondan razı olsun. O, Allahı razı salmağı bacardı.

* * *

Osman ibn Affan *(Allah ondan razı olsun!)* cahiliyyə dövründə öz qövmü içində sayılıb seçilən və hər kəs tərəfindən hörmət edilən bir şəxs idi. O, varlı və imkanlı bununla yanaşı, təvazökar və ismətli biri idi. Qövmü onu çox sevər və hörmət edərdi. Hətta qureyş qadını öz körpəsini beşikdə sallayarkən belə oxuyardı:

*Səni çox sevirəm can bəbək,*
*Qureyşin Osmanı sevdiyi tək*

İslam dini öz nurunu Məkkəyə saçdığı vaxt Osman bu nurun işığına toplaşan ilk insanlardan oldu.

* * *

Osman ibn Affanın İslamı qəbul etməsi barədə hələ də dillərdə gəzən bir rəvayət mövcuddur. O, cahiliyyə dövründə Məhəmməd ibn Abdullahın öz qızı Ruqiyyəni əmisi oğlu Utbə ibn Əbu Ləhəbə ərə verməsini eşitmiş və bu işdə gecikdiyinə görə çox peşman olmuşdu. O, Ruqiyyə kimi əxlaqlı və əsil-soylu bir qızla evlənməyi qaçırdığına görə pis olmuşdu. Kədərli halda evə qayıtmış və evlərində xalası Sudə bint Kureyzi görmüşdü. O, ağıllı, tədbirli və yaşlı bir qadın idi. Xalası evə gələn Osmanın üzündə bir kədər olduğunu aşkar etdi. O, bütlərə ibadəti ləğv edib yalnız Allaha ibadətə səsləyən bir peyğəmbərin zühuru münasibətilə Osmanı müjdələdi. Osman deyir ki,

"Mən xalamın dediklərini fikirləşə-fikirləşə evdən çıxdım. Əbu Bəkrin yanına gəlib onunla görüşdüm. Və xalamın dediklərini ona danışdım. Əbu Bəkr mənə dedi: "Allaha and olsun ki, xalanın sənə dedikləri doğrudur. O, səni xeyir bir işlə müjdələmişdir, ey Osman... Sən ağıllı, kamallı bir insansan. Haqqı nahaqdan ayırd edə bilirsən. Axı bizim qövmün ibadət etdiyi bu bütlər nədir?! Eşitmə və görmə qabiliyyəti olmayan daş parçaları deyillərmi?!"

Dedim: "Doğru deyirsən!"

Əbu Bəkr dedi: "Elə isə xalanın dedikləri gerçəkləşib. Artıq Allah bütün insanlara hidayət və haqq dini təbliğ etməsi üçün gözlənilən peyğəmbəri göndərdi".

Dedim: "Bəs o kimdir?"

Dedi: "O, Abdullah ibn Abdulmuttalibin oğlu Məhəmməd-dir". Doğru və əmin[155] olan Məhəmməd?"

Dedi: "Bəli, o!"

Əbu Bəkrdən məni Peyğəmbərin ﷺ yanına aparmasını xahiş etdim. Sonra birlikdə onun yanına getdik. Allahın rəsulu məni gördüyü zaman dedi:

*"Ey Osman, Allahın dəvətçisinin çağırışına hay ver! Mən Allahın xüsusilə sizə, ümumiyyətlə isə bütün insanlara göndərdiyi elçiyəm".*

Osman deyir ki, Allaha and olsun, onu gördüm və dediklərini eşitdim, sanki gözlərim nurlandı və qəlbim rahatladı. Sonra onun peyğəmbərliyini təsdiqlədim və Allahın tək ibadətə layiq ilah olduğuna, Məhəmmədin isə onun qulu və elçisi olduğuna şəhadət gətirdim".

* * *

O vaxta qədər Peyğəmbərə ﷺ öz qəbiləsi Haşimilərdən hələ heç kəs iman gətirməmişdi. Lakin Əmisi Əbu Ləhəbdən başqası da ona qarşı çıxmamışdı. O, və arvadı Ummu Cəmil Peyğəmbərə ﷺ qarşı açıq-aşkar düşmənçilik elan edən və ona ən çox əziyyət verən insanlar idilər. Ona görə də Allah taala onlar barədə surə nazil etdi:

---

[155] Məhəmməd ﷺ peyğəmbər peyğəmbərliyindən əvvəl dürüstlüyünə görə bu adı qazanmışdı.

**"Əbu Ləhəbin əlləri qurusun, qurudu da! Ona nə mal-dövləti fayda verəcək, nə də qazandığı** (və ya: oğul-uşağı)**. O, alovlu atəşə girəcəkdir. Onun odun daşıyan övrəti də həmçinin! Onun boğazında xurma lifindən hörülmüş ip olacaqdır!"** (əl-Məsəd, 1-5)

Əbu Ləhəbin Peyğəmbərə ﷺ qarşı düşmənçiliyi daha da artdı. Onun və arvadı Ummu Cəmilin Peyğəmbərə ﷺ və onunla birgə olan müsəlmanlara daha çox əziyyət verməyə başladılar. Hətta oğulları Utbəyə tapşırdılar ki, Məhəmməd ﷺ peyğəmbərin qızı Ruqiyyəni boşasın. O da Ruqiyyənin atasına acıq olsun deyə onu boşadı.

* * *

Osman ibn Affan *(Allah ondan razı olsun!)* Ruqiyyənin boşanma xəbərini eşitdikdə, az qala sevincdən uçacaqdı. Onunla evlənmək üçün təşəbbüs göstərir və onu Peyğəmbərdən ﷺ istəyir. Allahın elçisi də qızını Osmanla evləndirir. Onu ər evinə göndərən Xədicə bint Xuveylid olur.

Osman Qureyşin ən gözəl simaya malik gənclərindən biri idi. Toyda bu cütlüyü şeirlə belə vəsf etmişdilər:

*Ruqiyyə və əri Osman,*
*Daha gözəl cütlük görməmişdir insan.*

* * *

Osman insanlar arasında hörmət və izzətə sahib olmasına baxmayaraq, o da müsəlman olduğu zaman qövmünün əziyyət və təzyiqindən yaxa qurtara bilmədi. Əmisi Həkəm Abduşəms oğullarının bu gəncin Qureyşin dinindən üz döndərməsi ilə razılaşa bilmədi. Osmanın İslamı qəbul etməsi onu bərk narahat edirdi. Ona görə də o, və adamları Osmana müxtəlif yollarla təzyiq göstərməyə başladılar. Hətta bir dəfə onun qollarını bağlayıb evə həbs etmiş və demişdi: "Sən necə olur ki, ata-babalarının dinini tərk edib yeni bir dini qəbul edirsən?! Allaha and olsun ki, ondan üz döndərməyincə səni buraxmayacam".

Osman isə əvəzində əmisinə demişdi:

"Allaha and olsun ki, dinimdən heç vaxt dönmərəm. Həyatda yaşadığım müddətdə peyğəmbərimdən ayrılmaram".

Əmisi Həkəm Osmana əziyyət verməkdə davam edirdi. Ancaq buna baxmayaraq Osman da dinindən dönməməkdə israrlı, iradə və əzmdə möhkəm idi. Axırda əmisinin Osmandan ümidi üzüldü və onu sərbəst buraxmaqdan başqa heç nə edə bilmədi. Lakin Qureyşin ona qarşı kin-küdurəti və ədavəti hələ də qalmaqda idi. Bu ədavət və düşmənçilik onu öz Peyğəmbərindən ﷺ ayrı düşməyə gətirib çıxartdı.

Həbəşistana hicrət edənlər sırasında Osman ibn Affan və xanımı Ruqiyyə *(Allah hər ikisindən də razı olsun!)* də var idi. Səfərə çıxdıqları zaman Peyğəmbər ﷺ onlara dedi:

*"Allah Osmana və xanımı Ruqiyyəyə yolda yoldaşlıq etsin! Allah Osmana və xanımı Ruqeyyəyə yolda yoldaşlıq etsin! Osman Allahın peyğəmbəri Lutdan sonra öz ailəsi ilə hicrət edən ilk şəxsdir".*

* * *

Osman və xanımı digər mühacirlər kimi Həbəşistanda çox qala bilmədilər. Peyğəmbərə ﷺ duyuqduqları məhəbbət və Məkkəyə duyduqları həsrət onları doğma şəhərlərinə qaytardı. Allah təala Öz Peyğəmbərinə ﷺ və möminlərə Mədinəyə hicrət etməyə icazə verincəyə qədər Məkkədə yaşadılar. Mədinəyə hicrət zamanı isə digər mühacirlərlə birgə Mədinəyə köçdülər.

* * *

Osman ibn Affan Peyğəmbərin ﷺ iştirak etdiyi bütün döyüşlərə qatılmışdır. O, yalnız Bədr döyüşündə iştirak etməkdən məhrum oldu. Həmin ərəfədə Osman xəstə olan xanımı Ruqiyyənin xidmətində qalmağa məcbur oldu.

Peyğəmbər ﷺ Bədr döyüşündən qayıtdıqda Ruqiyyənin artıq Rəbbinin dərgahına qovuşduğunu gördü. Allahın rəsulu ﷺ Ruqiyyənin ölümünə görə çox kədərlənmişdi.

Peyğəmbər ﷺ Osmanın kədərinə bir qədər təsəlli olsun deyə onu da Bəsdr döyüşündə iştirak etmiş kimi hesab etdi. Ona döyüş qənimətlərindən pay verib, sonra da ikinci qızı Ummu Qülsümlə evləndirdi. Bundan sonra insanlar onu "Zunnureyn"[156] adlandırdılar. O, Peyğəmbərin ﷺ ikinci qızı ilə də evləndi. Halbuki bundan əvvəl heç kim Peyğəmbərin ﷺ ikinci qızını almaq şərəfinə nail olmamışdı. Ümumiyyətlə Osman ibn Affanın *(Allah ondan razı olsun!)* nail olduğu bu fəzilətə peyğəmbərlər tarixində özündən başqa heç kim imza atmamışdır.

* * *

Osman ibn Affanın *(Allah ondan razı olsun!)* İslam dinini qəbul etməsi Allahın müsəlmanlara bəxş etdiyi ən böyük nemətlərdən biri idi. Nə zaman müsəlmanlara bir xətər toxunardısa, Osman onlardan bu xətəri sovuşdurmaqla məşğul olardı. Müsəlmanlar Osmandan kömək və yardımdan başqa heç nə görməyiblər. İslama qarşı yönəldilən düşmənçiliklərin qarşısını almaqda Osman hər zaman ön sıralarda olan müsəlmanlardan idi.

* * *

Allahın elçisinin Təbuk[157] döyüşünü həyata keçirmək üçün maddi dəstəyə ehtiyacı var idi. Bizans ordusunun sayı çox və imkanları geniş idi. Üstəlik Peyğəmbər ﷺ Bizans torpaqlarında müharibə aparırdı. Müsəlmanlar isə uzun məsafə qət etmiş, minikləri və azuqələri də azalmışdı. Həm də o vaxt Ərəbistan yarımadası quraqlığa qərq olmuşdu. Müsəlmanlar da bu quraqlıqdan əziyyət çəkirdilər. Hətta Peyğəmbər ﷺ bəzi müsəlmanları onları daşıyacaq miniklərin olmaması səbəbilə geri qaytardı. Onlar qayıdarkən şəhidlik mərtəbəsinə nail ola bilməyəcəkləri üçün gözlərindən yaşlar axırdı.

* * *

[156] Tərcüməsi "iki nurun sahibi " deməkdir.

[157] Təbuk döyüşü Bizansla aparılan müharibə tarixində baş vermiş Peyğəmbərin ﷺ döyüşlərindən biridir.

Bu ərəfə Peyğəmbər ﷺ minbərə çıxdı. İslam əhli olduqlarına görə Allah taalaya həmd-səna etdikdən sonra müsəlmanları imkanlarından istifadə edərək orduya yardım göstərməyə təşviq etdi. Bunun müqabilində Allahdan çoxlu savab qazanacaqlarını bildirdi. Bu zaman Osman ibn Affan ayağa qalxaraq dedi:

"Ey Allahın rəsulu! Yəhərləri ilə birgə yüz dəvə məndən". Peyğəmbər ﷺ minbərdən bir pillə endi və döyüşə yenidən təşviq etməyə başladı. Osman ikici dəfə ayağa qalxıb dedi:

"Ey Allahın elçisi, yəhərləri ilə birgə məndən yenə yüz dəvə".

Peyğəmbər ﷺ bu xəbərdən sevindi. Sonra minbərdən bir pillə də endi və yenidən sözünə davam etdi. Çox keçmədi ki, Osman ibn Affan üçüncü dəfə ayağa qalxıb dedi:

"Ey Allahın elçisi, yəhərləri ilə birgə məndən yenə yüz dəvə".

Peyğəmbər ﷺ Osman ibn Affanın etdiklərinə razılıq əlaməti olaraq mübarək əli ilə işarə etdi və dedi:

*"Osmanın etdiyi bu əməl ona bu gündən sonra xətər gəlməsinə imkan verməz. Osmanın etdiyi bu əməl ona bu gündən sonra xətər gəlməsinə imkan verməz".*

* * *

Peyğəmbər ﷺ minbərdən enməyə az qalmışdı ki, Osman ibn Affan evinə getdi. Sonra ona min qızıl dinar göndərdi. Peyğəmbər ﷺ dinarları mübarək əlləri ilə o tərəf bu tərəfə çevirərək dedi:

*"Ey Osman, Allah Qiyamət gününə qədər gizlində və aşkarda, keçmişdə və gələcəkdə olan bütün günahlarını bağışlasın!"*

* * *

Ömər ibn əl-Xəttabın xilafəti dövründə ölkəni şiddətli quraqlıq bürüdü. Bununla əkin sahələri məhv oldu. Quraqlıq o qədər sərt keçdi ki, həmin ili boz il[158] adlandırdılar. Quraqlıq o qədər sərtləşdi ki, artıq bıçaq sümüyə dirənmişdi. İnsanlar bir səhər Ömərin

[158] Torpaq o qədər quraqlaşmışdı ki, boz rəngə çalmışdı. Ona görə də həmin il boz il adlandırılmışdır.

yanına gedib dedilər: "Ey rəsulullahın xəlifəsi, yağış yağmır, torpaq bitmir. Az qalsın insanlar məhv olsunlar. Nə edək?!"

Ömər hüzünlü-hüzünlü onlara baxıb dedi: "Səbr edin və əvəzini Allahdan diləyin! Ümid edirəm, axşama qalmamış Allah çətinliyinizi aradan qaldırar".

Günortanın sonunda xəbər çatdı ki, Osman ibn Affanın karvanı Şamdan gəlir və səhərə Mədinəyə çatar.

Sübh namazı qılınar-qılınmaz insanlar karvanı qalşılamaq üçün yola çıxdılar. Tacirlər də karvanı qarşılamğa çıxmışdılar. Karvanda buğda, yağ və quru üzüm yüklənmiş min dəvə var idi.

* * *

Karvan Osman ibn Affanın evinin qarşısında dayandı və dəvələr yerə çökdü. Cavanlar dəvələrin yüklərini boşaltmağa başladılar. Tacirlər Osmanın yanına gəlib dedilər:

"Ey Əbu Amr gələn malları bizə sat!"

Osman dedi:

"Böyük məmnuniyyətlə! Lakin malları neçəyə alırsınız?"

Dedilər:

"Bir dirhəm əvəzinə iki dirhəm verərik".

"Bundan artığını verdilər mənə".

Onlar məbləği daha da artırdılar. Osman yenə dedi:

"Artırdığınız məbləğdən də artığını verdilər mənə".

Onlar məbləği yenə artırdılar.

Osman yenə dedi:

"Bundan da artığını verdilər".

Sonda tacirlər dedilər:

"Ey Əbu Amr! Axı Mədinədə bizdən başqa tacir yoxdur. Sənin yanına bizdən əvvəl də heç kim gəlməyib. Bəs onda sənə bizdən artıq məbləğ verən kimdir?"

Osman dedi:

"Allah mənə hər bir dirhəmin on qatını vermişdir. Siz bundan da artığını verirsiniz?"

Onlar "yox – deyərək kənara çəkildilər. Osman sözlərinə davam edərək dedi:

"Allahı şahid tuturam ki, mən bu karvanın daşıdıqlarını kasıb müsəlmanlara sədəqə verdim. Heç kəsdən nə bir dirhəm, nə də bir dinar istəyirəm. Mən yalnız Allahın savabını və rızasını qazanmaq istəyirəm".

* * *

Osmanın *(Allah ondan razı olsun!)* xəlifəliyi dövründə Ərməniyyə və digər Qafqaz torpaqları müsəlmanlar tərəfindən fəth edildi. Habelə, Allahın yardımı ilə Xorasan, Kirman, Sicistan, Kipr və Afrikanın bir çox əraziləri də müsəlmanların nəzarətinə keçdi. Onun dövründə insanlar heç bir xalqın hələ o vaxtadək görmədikləri zənginliyə yiyələndilər.

* * *

Həsən əl-Basri *(Allah ondan razı olsun!)* onun xəlifəliyi dövründə insanların rifah, rahatlıq və əmin-amanlıq içərəsində yaşadıqlarını qeyd edərək demişdir:

"Osman ibn Affanın carçısı car çəkərək deyərdi: "Ey insanlar, gəlin ehtiyac olduqlarınızı alın!" Camaat gəlir ehtiyac olduqlarını götürürdülər.

Başqa vaxtı çar çəkərək "gəlin məvaciblərinizi alın!" deyər, insanlar da gəlib alardılar. Hətta qulaqlarım carçının "gəlin geyimlərinizi alın!" dediyini də eşidib. Onlar gəlib uzun və gen paltarlar alırdılar.

Carçı insanların yağ və bal götürmələri üçün də səslənərdi. Qida məhsulları Osmanın xilafəti dövründə bol, xeyir-bərəkət çox idi. İnsanlar əhval-ruhiyyəsi yerində, xoşbəxt və firavan yaşayırdılar. Yer üzərində heç bir mömin mömindən qorxmur, əksinə bir-birilərinə qarşılıqlı hörmət və sevgi hissləri bəsləyirdilər, bir-biriləri ilə yardımlaşırdılar."

* * *

Lakin bəzi insanlar da var idi ki, doyduqları zaman nankorluq edər, Allah onlara nemət verdiklərin zaman naşükür olarlar. O dövr-

də də bu qəbildən olan insanlar Osmanın gördüyü işlərdən narazı qaldılar. Ancaq bu narazılıqla da kifayətlənmədilər. Etdikləri tək narazılıq və fikir etirazı olsaydı, iş asan və xətərsiz olardı. Lakin şeytan onların ruhlarına girmiş, ağıllarını başlarından almışdı. Müxtəlif qəbilələrdən ibarət böyük bir qrup ona qarşı birləşib evini mühasirəyə aldı. Qırx gün evinin ətrafında dayanan bu insanlar onu içməli sudan məhrum etdilər. Onlar Mədinə şəhərinin sakinlərinin və qonaqlarının istifadə etməsi üçün Rumə quyusunu[159] öz şəxsi pulu ilə alanın Osman ibn Affan olduğunu unutmuşdular. Onlar Osmana Peyğəmbər məscidində namaz qılmağa da imkan vermirdilər. Onlar sanki kor olmuşdular. Yadlarından çıxartmışdılar ki, iki nurun sahibi bu insan öz şəxsi hesabına müsəlmanların daha rahat ibadət edə bilmələri üçün Məkkə və Mədinədəki məscidləri genişlətmişdi.

Osmana qarşı təhlükənin artdığını görən yeddi yüzdən artıq səhabə və səhabə övladı tələsik onu qorumağa təşəbbüs göstərdilər. Onların arasında Ömər ibn əl-Xəttabın oğlu Abdullah, Cubeyrin oğlu Abdullah, Əli ibn Əbu Talibin oğuları Həsən və Hüseyn, Əbu Hureyrə və digərləri də var idi.

* * *

Lakin iki nurun və iki hicrətin sahibi öz qanının axmasını, onu müdafiə etmək üçün qoşulan müsəlmanların qanlarının axmasından üstün tutdu. Özünün ölməsinə razı olub, ancaq müsəlmanların ona görə həlak olmasını istəmədi. Onu qorumaq üçün gələn müsəlmanlara "Kimin üzərində haqqım varsa, bu işdən əl çəksin!" – dedi və qəti tapşırıq verdi ki, onu Allahın qisməti ilə yalnız buraxsınlar. Kölələrinə isə qılınc çəkməyənin azad olacağını bildirdir.

* * *

Rəsulullahın ﷺ xəlifəsi qətlindən bir qədər əvvəl yuxusunda Peyğəmbəri ﷺ görmüşdü. Onunla birgə Əbu Bəkr əs-Siddiq və Ömər

[159] Osman bu su quyusunu bir yahudidən pul ilə almışdı.

ibn əl-Xəttab da var idi. Peyğəmbər ﷺ ona deyirdi ki, *"Ey Osman, iftarını bizdə aç!"* Osman bu yuxudan anlamışdı ki, artıq öz Rəbbi ilə qovuşmağın və Peyğəmbəri ilə görüşməyin vaxtı gəlib.

* * *

Osman həmin günün səhəri oruc tutdu. Yolunu azmış günahkarların onu öldürdükləri zaman ayıb yerlərinin görsənməməsi üçün uzun şalvar geyindi. Cümə günü Zilhiccə ayının on səkkizi bu zahid, abid, oruclu insan, Qurani-Kərimin toplayıcısı[160] və rəsulullahın ﷺ kürəkəni qətlə yetirildi.

O, susuz, oruclu və Allahın kitabı əlində açıq şəkildə Rəbbinə qovuşdu.

* * *

Osmanın *(Allah ondan razı olsun!)* öldürülməsində bir nəfər də olsun nə səhabə, nə də səhabə övladı var idi. Təkcə bir nəfər var idi ki, başlanğıcda bu azğınlara qoşulmuş, lakin sonra tutduğu işdən utanaraq əl çəkmişdi.[161]

* * *

---

[160] O, Ömər ibn əl-Xəttabın qızı Həfsada saxlanılan Əbu Bəkrin tapşırığı ilə Zeyd ibn Sabitin topladığı Quran nüsxələri əsasında Qurani-Kərim ilk dəfə yazıya köçürülmüşdü. O, bu işi həyata keçirmək vəzifəsini Zeyd ibn Sabitə, Abdullah ibn Zubeyri Səid ibn əl-Asa və Əbdürrəhman ibn əl-Haris ibn Hişama tapşırdı.

[161] Osman ibn Affan haqda ətraflı məlumat almaq üçün bax:

1. "Əl-İsabə" 2/462;
2. "Əsdul qabə" 3/376;
3. "Əl-İstiab" 3/69;
4. "Təhzib ət-Təhzib" 7/139;
5. "Ət-tabaqat əl-Kubra" 3/53-84;
6. "əl-Maarif" 82;
7. "Sifətus səfva" 1/122:

# AMR İBN ƏL-AS

“Amr ibn əl-As dərin düşündükən və çox götür-qoy
etdikdən sonra İslamı qəbul etdi.
Allahın rəsulu buyurmuşdur:
*“İnsanlar müsəlman oldu, Amr ibn As isə mömin”.*

“Allahım sən əmr etdin, biz asi olduq. Sən qadağan etdin, biz isə qurtarmadıq. Sənin əfvindən başqa sığınacağımız yoxdur, ey rəhimlilərin ən mərhəmətlisi!”

Amr ibn əl-As bu yalvarışlı dua ilə ruhunu tapşırdı və ölümə qucaq açdı.

* * *

Amr ibn əl Asın həyat hekayəsi çox zəngindir. Onun sayəsində Fələstin və Misir kimi iki böyük ölkənin əraziləri müsəlman torpaqlarına qatıldı. Habelə müsəlmanlara uzun müddət xatırlanacaq böyük bir həyat yolu qoyub getdi.

* * *

Bu həyat hekayəsi hicrətdən təxminən yarım əsr əvvəl Amr ibn əl-Asın dünyaya gəlməsi ilə başlamış, hicrətin qırx üçüncü ilində onun dünya həyatından köçməsi ilə başa çatmışdır.

Onun atası əl-As ibn Vail cahiliyyə dövr ərəblərinin sayılıb seçilən başçılarından olmuşdur.

O, soylu-köklü bir ailədən gəlirdi. Amrın anası isə belə deyildi. O, bir kölə olmuşdur. Buna görə də Amr ibn əl-As valilik kürsüsünə oturduğu və ya minbər başına keçdiyi zaman ona həsəd aparanlar bunu xatırladar və onun adına ləkə gətirmək istəyərdilər. Hətta bir dəfə onlardan biri bir nəfəri Amr minbərdə olduğu zaman onun yanına göndərib anası haqda soruşmasını istəmişdi. Bunun müqabilində də ona böyük məbləğdə bəxşiş verəcəyini bildirmişdi.

Həmin adam ayağa qalxıb Amrdan soruşmuşdu:

“Əmirin anası kimdir?”

Amr özünə hakim olub müdrikcəsinə cavab vermişdi:

O, Abdullahın qızı Nabiğədir. Ərəblər cahiliyyə dövründə onu döyüşlərin birində əsir almış və Ukaz bazarında satmışdılar. Onu Abdullah ibn Cədan almış və əl-As ibn Vailə (yəni atasına) hədiyyə etmişdi. Nabiğə ona övlad vermiş, uşaq dünyaya gətirmişdir. Əgər qəlbini həsəd çürütmüş bəzi insanlar sənə pul verəcəksə, get al!”

* * *

Təzyiq və işgəncəyə məruz qalan müsəlmanlar Qureyşin əzab-əziyyətindən və verdiyi işgəncələrdən xilas olmaq və amanda yaşamaq üçün Həbəşistana hicrət etdikləri zaman Qureyş onların Məkkəyə qaytarılmaları və cəzalandırılmaları üçün cəhd göstərdi. Belə ki, bu vəzifəni yerinə yetirmək üçün Amr ibn əl-Ası seçdilər. Bu təsadüfi deyildi. Amrın Həbəşistan hökmdarı Nəcaşi ilə köhnədən dostluq əlaqələri var idi. Qureyş Nəcaşini və onun keşişlərini ələ almaq üçün Amrı çoxlu hədiyyələrlə Həbəşistana göndərdi. Amr Nəcaşinin hüzuruna çatdıqda onu ehtiramla salamlayıb sonra dedi:

- Bizim qəbilənin bəzi insanları öz ata-babalarının dinlərindən üz döndərib yeni bir din icad ediblər. Məni Qureyş sənin hüzuruna göndərib ki, onları öz qəbilələrinə aparmağıma icazə verəsən. Biz onları öz dinlərinə geri qaytarmaq istəyirik.

Nəcaşi bir neçə səhabəni hüzuruna çağırdı və onlardan etiqad etdikləri din, iman gətirdikləri tanrı və bu dini təbliğ edən peyğəmbərləri barədə soruşdu. Səhabələrdən eşitdiyi sözlər onun qəlbində rahatlıq və əminlik yaratdı. Onlara diqqətlə qulaq asıb dinlərinin haqq din olduğunu anladı. Müsəlmanları Amr ibn əl-Asa təhvil verməkdən sərt şəkildə imtina edən Nəcaşi onun gətirdiyi hədiyyələri də özü ilə birgə geri qaytardı.

* * *

Amr ibn əl-As Məkkəyə yola düşməzdən əvvəl Nəcaşi ona demişdi:

“Ey Amr, necə ola bilər ki, sən müdrik və uzaqgörən biri olduğun halda Məhəmmədin dinindən uzaqsan?! Allaha and olsun ki, o Allahın xüsusilə sizə, ümumiyyətlə isə bütün insanlara göndərdiyi elçisidir”.

Amr təəccüblə soruşdu:

“Ey hökmdar, bunu sənmi deyirsən?!”

Nəcaşi dedi:

“Allaha and olsun ki, düzdür. Gəl sən mənə qulaq as! Məhəmmədə və onun sizə təbliğ etdiyi dinə iman gətir!”

* * *

Amr ibn əl-As Həbəşistanı tərk etdi. Lakin Nəcaşinin dedikləri onun qəlbini sirkələmişdi. Nə edəcəyini bilmirdi. Nəcaşinin Peyğəmbər haqqında danışığı Amrın onunla görüşmək istəyinə səbəb oldu. Lakin bu ona yalnız hicrətin səkkizinci ilində nəsib oldu. Allah onun qəlb gözünü açaraq onu da yeni dini qəbul etməklə şərəfləndirdi. Amr İslam dinini qəbul etdiyini Peyğəmbərin ﷺ hüzurunda elan etmək üçün Mədinəyə yola düşdü. O, yolda Xalid ibn Vəlid və Osman ibn Talha ilə qarşılaşdı. Onlar da eyni məqsədlə yola çıxmışdılar. Üç yoldaş olub yola düzəldilər və Mədinəyə çatdılar. Peyğəmbərin ﷺ yanına gəldikdə Xalid ibn Vəlid və Osman ibn Talha ona beyət etdilər. Sonra Peyğəmbər ﷺ əlini Amra uzatdı. Amr onun əlini bər-bərk sıxdı. Peyğəmbər ﷺ soruşdu: *“Ey Amr, sənə nə olub?”* Amr dedi:

“Keçmiş günahlarımın bağışlanacağı təqdirdə sənə beyət edirəm”.

Peyğəmbər ﷺ buyurdu: *“İslam və hicrət özündən əvvəlkiləri silər”.*

Beləcə Amr Peyğəmbərə ﷺ beyət etdi.

Bu hadisə Amr ibn əl-Asın ruhunda bir iz qoydu. O, deyirdi ki, “Allaha and olsun, Peyğəmbər ﷺ öz Rəbbinə qovuşan ana qədər gözüm onun camalına baxmaqdan doymadı”.

* * *

Allahın elçisi ﷺ Amr ibn əl-Asa böyük önəm verirdi. Zətus-səlasil döyüşündə çoxlu sayda mühacir, ənsar və İslamı daha öncədən qəbul etmiş digər səhabələr olmasına baxmayaraq Peyğəmbər ﷺ Amrı ordunun başına keçirmiş, rəhbərliyi ona tapşırmışdı.

* * *

Peyğəmbər ﷺ Allahın dərgahına köçdükdən sonra Əbu Bəkr əs-Siddiq *(Allah ondan razı olsun!)* müsəlmanların ilk xəlifəsi oldu. Amr ibn əl-As da onun xəlifəliyi dövründə Riddə döyüşlərinə qatılmış, Allahın kəlməsinin uca olması uğrunda çox çarpışmışdı. Onun bu fitnəyə qarşı mübarizəsi Əbu Bəkrin mübarizəsi qədər əzmli, eyni zamanda da təsirli olmuşdur. Allah hər ikisindən razı olsun!

Amr ibn əl-As Amir qəbiləsinə gəlmiş və onların başçıları Qurra ibn Hubeyrə ilə görüşmüşdü. Qurra söhbət əsnasında Amra demişdi: "Ey Amr, sizin verilməsini vacib saydığınız zəkat ərəblərin xoşuna gəlmir. Əgər bundan əl çəksəniz, sizə itaət edərlər. Qəbul etməsəniz isə bu gündən sonra sizə itaət edən olmaz".

Amr Amir qəbiləsinin başçısının üstünə qışqıraraq demişdi:

"Ar olsun sənə, ey Qurra! Sən kafirmi oldun?! Sən bizi ərəblərin İslamdan üz döndərməsi ilə qorxudursan?! Allaha and olsun ki, gecələdiyin çadırı başına yıxaram".

* * *

Əbu Bəkr Allahın dərgahına qovuşduqdan sonra xəlifəlik Ömər ibn əl-Xəttaba keçdi. Ömər Amr ibn əl-Asın bacarıq və təcrübəsindən istifadə etdi. Onu İslam və müsəlmanların xidmətində çalışması üçün vəzifə başına gətirdi. Allah taala onun vasitəsilə Fələstinin sahil torpaqlarını müsəlmanların nəzarətinə verdi. Bizans orduları ardı-ardınca məğlubiyyətə uğradı. Sonra Qüdsü mühasirəyə almaq üçün ora istiqamət aldı. Amr iki qiblənin birincisinin yerləşdiyi şəhərin mühasirəsini gücləndirdi. Bizans ordusunun başçısı Artabunun ümidi üzülmüş, çarəsi qalmamışdı.

Amr onu Qüdsü tərk etməyə məcbur etdi. Artabun şəhərdən qaçaraq onu müsəlmanlara buraxdı.

Bu ərəfədə şəhərin baş rahibi şəhəri xəlifənin özünə təslim etmək istədiyini bildirdi. Amr Ömər ibn əl-Xəttaba *(Allah ondan razı olsun!)* məktub yazaraq onu Qüds şəhərini təhvil alması üçün dəvət etdi. Xəlifə Ömər gəldi və şəhərin təslim sənədinə imza atdı.

Beləcə Qüds hicrətin on beşinci ilində Amr ibn əl-Asın sayəsində müsəlmanların əlinə keçdi.

Ömərin yanında Qüdsün mühasirəsi və Amr ibn əl-Asın məharəti barəsində danışıldığı zaman demişdi:

"Bizansın Artabununu ərəblərin Artabunu ilə məğlub etdik".

Amr ibn əl-Asın böyük zəfərlərindən biri, həm də tacı Misirin fəthi oldu. Bu zəngin torpaqlarda da onun sayəsində İslam bayrağı dalğalandı. Bununla da Afrikanın, Uzaq Məğribin, sonralar isə İspaniyanın qapıları müsəlman orduları qarşısında açıldı. Bütün bunlar yalnız yarım əsrlik bir zaman kəsiyində baş verdi.

* * *

Amr ibn əl-Asın məziyyətləri təkcə bunlarla kifayətlənmir. Allah ondan razı olsun! Amr həm də ərəblərin ən məharətli və bacarıqlı dahi şəxsiyyətlərindən biri idi. Bəlkə də o, Misiri bu dühası və zəkası sayəsində fəth etməyi bacarmışdı. O, öz məharətilə Ömərdən Misiri fəth etməsi üçün icazə ala bilmişdi.

Ömər bu səfəri həyata keçirmək üçün dörd minlik müsəlman orudusunu Amrın ixtiyarına verdi. Amr qoşunu yalnız irəli aparır və arxaya baxmır, bir anlıq qərarı barəsində tərəddüd etmirdi. Onun səfərə çıxmasından az keçmişdi ki, Osman ibn Affan Ömərin yanına gəlib dedi:

"Ey möminlərin əmiri! Həqiqətən də Amr hünərli və şücaətli bir igiddir. Onun əmirliyə də meyli var. Lakin hesab edirəm ki, o, Misirə hazırlıqsız və az sayda ordu ilə yola düşüb. Qorxuram ki, bu, müsəlmanların həlakına səbəb olsun".

Ömər Amra Misiri fəth etməsi üçün icazə verdiyinə görə peşman oldu və bu məsələ ilə bağlı yazdığı məktubu bir elçiyə verərək Amrın ordusunun arxasınca göndərdi.

* * *

Elçi Fələstin torpaqlarındakı Rəfah ərazisində müsəlman ordusuna yetişdi. Amr Ömərin bu elçi vasitəsi ilə məktub göndərdiyini bildi. Məktubda əvvəlki plana zidd olan xəbərlər olduğunu anlayan Amr elçini qarşılamaqdan yayınaraq ordunu bir qədər də irəli apardı və Misirin bir kəndinə çatdı. Elçini burada qalşıladı və məktubu aldı. Məktubda deyilirdi:

"Əgər mənim bu məktubum sənə Misir torpağına girməmişdən əvvəl yetissə, geri qayıt! Yox əgər artıq Misir ərazisinə girmisənsə, o zaman yoluna davam et!"

Amr müsəlmanları çağırdı və məktubu onlara da oxuyub dedi: "Siz necə bilirsiniz? Biz Misir torpağında deyilmiyik?"

Onlar "Bəli" – dedikdən sonra Amr dedi: "Elə isə Allahın bərəkəti və bəxş edəcəyi müvəffəqiyyət istiqamətində davam edək!"

* * *

Onun zəkası Misir qalalarından birini mühasirəyə aldığı zaman bir daha sübut olunmuşdu. Belə ki, həmin vaxt Bizanslı baş rahib danışıq aparmaq üçün müsəlmanların ordu başçısından bir nəfərin göndərməsini istədi. Bir çox müsəlman bu təhlükəli tapşırığı yerinə yetirmək üçün önə keçdi. Lakin Amr "özüm öz qövmümün elçisi olacam" – deyərək baş rahibin yanına yollandı. O, müsəlman ordu başçısının elçisi sifətilə qalaya girdi.

* * *

Bizansın baş rahibi Amr ibn əl-Asla görüşdü. Lakin baş rahib onun Amr olduğunu bilmirdi. Amr onunla çox tədbirli və diqqətli danışdı. Sonda baş rahib Amra qiymətli hədiyyələr verib getməsinə icazə verdi. Lakin keşikçilərinə işarə etdi ki, qaladan çıxmamış elçini öldürsünlər. Amr keşikçilərin baxışlarından tez məsələnin nə yerdə olduğunu anladı. Yenidən baş rahibin yanına qayıdıb dedi:

"Ey ağa, sizin mənə əta etdiyiniz bu qiymətli əşyalar mənim əmim oğullarının hamısına yetməz. İcazə versəydin, onlardan on nəfər çağırım ki, onlar da mənə verdiyiniz bu hədiyyələrdən alsınlar".

Baş rahib sevindi və bir nəfəri öldürməkdənsə, on nəfəri öldürməyin daha yaxşı olduğunu düşündü. Ona görə də keşikçilərə işarə etdi ki, elçinin getməsinə mane olmasınlar. Bununla da Amr ibn əl-As ölümdən xilas olmağı bacardı.

Misir müsəlmanlar tərəfindən fəth edildikdən sonra baş rahib Amrla görüşdüyü zaman heyrətlə ondan soruşmuşdu:

"Bu, sənsən?"

Amr isə "bəli, sənin hiylənə aldanmayan mən idim" – deyərək cavab vermişdi.

* * *

Bundan başqa Amr ibn əl-As aydın izah etmə və səlis danışma qabiliyyətinə malik bir insan idi. Hətta Ömər onun fəsahətində Allah taalanın qüdrətinə dəlalət edən işarələr olduğunu hesab edirdi.

O, kəkələyən bir insan gördüyü zaman "Allaha iman gətirdim" demiş, bu insanla Amr ibn əl-Asın Xaliqinin bir olduğunu söyləmişdi. Amr ibn əl-Asın ən bəlağətli kəlamlarından biri də budur:

"Kişilər üç qisimdir: Tam kişi, kişi yarısı və kişi olmayan. Tam, əsl kişi dini və zəkası kamil olan kişidir. Bir iş görmək istədiyi zaman bilənlərdən məsləhət alar və həyatını bu cür müvəffəq başa vurar. İkinci qism kişi isə kişi yarısıdır ki, onun dinini və zəkasını Allah tamamlayar. Bir iş görmək istədikdə, heç kəslə məsləhətləşməz, hər hansı bir adamı təqlid edər. Onun dediklərini edər, öz fikrindən isə tamamilə əl çəkər. Bəzən düz, bəzən isə səhv edər. Üçüncü qism isə kişi olamayan kəsdir ki, onun nə dini olar, nə də zəkası. Həmişə səhv edər. Allaha and olsun ki, bir şeyi etmək istədikdə xidmətçilərimlə belə məsləhətləşirəm".

* * *

Amr ibn əl-As ölüm xəstəliyinə tutulduqda, əcəlinin yaxın vaxta gələcəyini hiss etmiş və göz yaşları gözlərini bürümüşdü. Oğlunu çağırıb demişdi:

“Mən üç vəziyyətdə olmuşam:

“Əvvəl kafir idim. O cür ölsəydim Cəhənnəmə vasil olardım. Sonra Allahın elçisinə ﷺ beyət etdim. İman gətirdikdən sonra ondan ən çox həya edən, abır saxlayan kəs oldum. O cür ölsəydim, insanlar deyəcəkdi ki, Amr müsəlman kimi öldü. Özü ilə xeyir apardı. Sonra başım çox işlərə qarışdı. İndi bilmirəm bunlar mənim əleyhimədir, yoxsa lehimə!”

Sonra başını divara tərəf çevirib dedi: “Ey Allahım! Sən əmr etdin, biz isə asi olduq. Sən qadağan etdin, biz isə qurtarmadıq... Sənin əfvindən başqa sığınacağımız yoxdur, ey rəhimlilərin ən mərhəmətlisi!”

Sonra əlini susamış boğazına qoydu və gözlərini səmaya dikib dedi:

“Allahım, mən güclü deyiləm ki, qələbə çalam. Mən günahsız deyiləm. Ona görə də bağışlanma diləyirəm. Mən təkəbbürlü də deyiləm. Yenə səndən bağışlanma diləyirəm. Ey günahları bağışlayan, mənim də günahlarımı bağışla!”

Amr ibn əl-As ruhu bədənini tərk edənə kimi bu sözləri təkrarladı. Allah ona qəni-qəni rəhmət eləsin![162]

* * *

[162] Amr ibn əl-As haqda ətraflı məlumat almaq üçün bax:

1. "Əl-İsabə" 2/3;
2. "Əsdul qabə" 4/244;
3. "Əl-İstiab" 2/508;
4. "Təhzib ət-Təhzib" 8/56139;
5. "Tarix əl-İslam lilzəhəbi" 2/235.
6. "Qadət fəth bıləd əş-Şam va Mısr”, 123.

# MÜNDƏRİCAT

*MÜQƏDDİMƏ* .................... 3
*SƏHABƏLƏRİN QURANİ KƏRİM VƏ SÜNNƏDƏ YERİ* .................... 5
*KİTAB VƏ SÜNNƏDƏ SƏHABƏLƏRİN FƏZİLƏTİ* .................... 16
*ƏBU BƏKR ƏS-SİDDİQİN XİDMƏTLƏRİ VƏ FƏZİLƏTİ* .................... 61
*ÖMƏR ƏL-FARUQUN XİDMƏTLƏRİ VƏ FƏZİLƏTİ* .................... 76

**SƏHABƏLƏRİN HƏYATINDAN SƏHİFƏLƏR**

*ƏNƏS IBN MALIK ƏL-ƏNSARI* .................... 90
*SƏİD İBN AMİR ƏL-CUMƏHİ* .................... 96
*TUFEYL İBN AMR ƏL-DAUSİ* .................... 103
*ABDULLAH İBN HÜZEYFƏ ƏL-SƏHMİ* .................... 111
*ÖMEYR İBN VƏHB* .................... 118
*BƏRAƏ İBN MALİK ƏL-ƏNSARİ* .................... 124
*ƏRƏBLƏRİN DUL QADINI UMMU SƏLƏMƏ* .................... 130
*SÜMAMƏ İBN USƏL* .................... 137
*ƏBU ƏYYUB ƏL-ƏNSARİ* .................... 143
*AMR İBN ƏL-CƏMUH* .................... 150
*ABDULLAH İBN CƏHŞ* .................... 156
*ƏBU UBEYDƏ İBN ƏL-CƏRRAH* .................... 163
*ABDULLAH İBN MƏSUD* .................... 169
*SALMAN ƏL-FARİSİ* .................... 177
*İKRİMƏ İBN ƏBU CƏHL* .................... 184
*ZEYD ƏL-XEYR* .................... 192
*HADİ İBN XATİM ƏL-TAİ* .................... 199
*ƏBU ZƏR ƏL-QİFARİ* .................... 206
*ABDULLAH İBN UMM MƏKTUM* .................... 213
*MƏCZƏƏ İBN SAUR ƏL-SADUSİ* .................... 220
*USEYD İBN ƏL-HUDEYR* .................... 227
*ABDULLAH İBN ABBAS* .................... 235
*ƏL-NOMAN İBN MUQARRİN ƏL-MUZANİ* .................... 245
*SUHEYB ƏR-RUMİ* .................... 252

*ƏBU ƏD-DARDA* ........ 259
*ZEYD İBN HARİSA* ........ 268
*USAMƏ İBN ZEYD* ........ 275
*SƏİD İBN ZEYD* ........ 282
*UMEYR İBN SAD* ........ 288
*UMEYR İBN SAD* ........ 295
*ƏBDÜRRƏHMAN İBN AUF* ........ 302
*CƏFƏR İBN ƏBU TALİB* ........ 310
*ƏBU SUFYAN İBN ƏL-HARİS* ........ 321
*SAD İBN ƏBU VAQQAS* ........ 329
*HÜZEYFƏ İBN ƏL-YƏMƏN* ........ 336
*UQBƏ İBN AMİR ƏL-CUHANİ* ........ 343
*BİLAL İBN RABAH* ........ 348
*HƏBİB İBN ZEYD ƏL-ƏNSARİ* ........ 355
*ƏBU TƏLHA ƏL-ƏNSARİ (ZEYD İBN SƏHL)* ........ 361
*RAMLA BİNT ƏBU SUFYAN* ........ 367
*VAHŞ İBN HARB* ........ 373
*HAKİM İBN HAZAM* ........ 379
*ABBAD İBN BİŞR* ........ 385
*ZEYD İBN SABİT ƏL-ƏNSARI* ........ 390
*RABİA İBN KAAB* ........ 396
*İKİ PALTARLI ABDULLAH ƏL-MUZƏNİ* ........ 402
*ƏBU ƏL-AS İBN ƏR-RABİA* ........ 407
*ASİM İBN SABİT* ........ 414
*SAFİYƏ BİNT ƏBDÜL-MUTTALİB* ........ 419
*UTBƏ İBN ĞAZVAN* ........ 425
*NUEYM İBN MƏSUD* ........ 431
*XABBAB İBN ƏL-ARATT* ........ 439
*ƏR-RABİA İBN ZİYAD ƏL-HARİSİ* ........ 446
*ABDULLAH İBN SALAM* ........ 453
*XALİD İBN SƏİD İBN ƏL-AS* ........ 459
*SURAQA İBN-MALİK* ........ 467
*FEYRUZ ƏL-DAYLAMİ* ........ 475
*SABİT İBN QEYS ƏL-ANSARİ* ........ 481

*ƏSMA BİNT ƏBU BƏKR* ........ *487*
*TALHA İBN UBEYDULLAH* ........ *494*
*ƏBU HUREYRA ƏL-DAUSİ* ........ *501*
*SƏLƏMƏ İBN QEYS ƏŞCAİ* ........ *510*
*MUAZ İBN CƏBƏL* ........ *516*
*YASİR AİLƏSİ* ........ *523*
*SUHEYL İBN AMR* ........ *530*
*CABİR İBN ABDULLAH ƏL-ƏNSARİ* ........ *536*
*ƏBU HUZEYFƏNİN MÖVLASI SALİM* ........ *541*
*OSMAN IBN AFFAN* ........ *547*
*AMR İBN ƏL-AS* ........ *557*

Üz qabığının dizaynı: *Rəvan Mürsəlov*

Çapa imzalanmışdır 01.06.2011.
Formatı 60×88 $^{1}/_{16}$. Fiziki çap vərəqi 35,5.
Sifariş N178. Tirajı 1000.

"Şərq-Qərb" Nəşriyyat evində çapa hazırlanmış və çap olunmuşdur.
AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 83 43
Faks: (+99412) 370 68 03; 370 18 49
www.eastwest.az